XƏZƏR UNİVERSİTETİ

Qloballaşma dövründə Türk dünyası:

Çağırışlar, perspektivlər Beynəlxalq tələbə elmi konfransının materialları

26-27 may, 2022

Xəzər Universiteti Nəşriyyatı

Khazar University Press

Bakı 2022

© Xəzər Uniiversitəsi Nəşriyyatı, 2022

Bütün hüquqlar qorunur.

Redaktor : Dos. Dilbər Zeynalova

Tərtib edən: Dr.Aynur Qəzənfərqızı

Korrektor: Fərqanə Ələsgərli

Qloballaşma dövründə Türk dünyası: Çağırışlar, perspektivlər Beynəlxalq tələbə elmi konfransının materiallari 26-27 may, 2022, Xəzər Universiteti Nəşriyyatı, Bakı, 2022, 482 səh.

ISBN 978-9952-20-153-6

ELMİ HEYƏT

Professor Hamlet İsaxanlı (Xəzər Universiteti, Azərbaycan)
Dosent İradə Xəlilova (Xəzər Universiteti, Azərbaycan)
Professor Məhəmməd Nuriyev (Xəzər Universiteti, Azərbaycan)
Professor Ağarəhim Soltanmuradov (Dağıstan Dövlət Pedaqoji İnstitutu, Dağıstan)
Professor Valijon Qodirov (Əndican Pedaqoji Universiteti, Özbəkistan)
Professor Cəlil Nağıyev (Bakı Dövlət Universiteti, Azərbaycan)
Professor Bədirxan Əhmədov (AMEA, N. Gəncəvi ad. Ədəbiyyat İnstitutu, Azərbaycan)
Professor Rəhilə Quliyeva (Bakı Slavyan Universiteti, Azərbaycan)
Dosent İsaxan İsaxanlı (Xəzər Universiteti, Azərbaycan)
Dosent Elza Səmədli (Xəzər Universiteti, Azərbaycan)
Dosent Dilbər Zeynalova (Xəzər Universiteti, Azərbaycan)
Dosent Səidə Şərifova (Xəzər Universiteti, Azərbaycan)
Dosent Aida Babutcu (Erciyes Universiteti, Türkiyə)
Dosent Gülbanu Koşenova (Əhməd Yəsəvi Beynəlxalq Qazax-Türk Universiteti, Qazaxıstan)
Dosent Müşfiq Mustafayev (Azərbaycan Tibb Universiteti, Azərbaycan)
Dosent Xatirə Yusifova (AMEA. M.Füzuli ad. Əlyazmalar İnstitutu, Azərbaycan)
Urqiyə Hacıyeva (Gəncə Dövlət Universiteti, Azərbaycan)

TƏŞKİLAT KOMİTƏSİ:

Elza Səmədova (Humanitar, Təhsil və Sosial elmlər fakültəsinin dekanı, sədr)

Dilbər Zeynalova (Dillər və Ədəbiyyatlar departamentinin müdiri, həmsədr)

Zəminə Ziyayeva (Dillər və ədəbiyyatlar departamentinin müəllimi. üzv)

Aynur Qəzənfərqızı (Dillər və ədəbiyyatla departamentinin müəllimi,üzv)

Xatirə Yusifova (Dillər və ədəbiyyatlar departamentinin müəllimi,üzv)

Gülşanə Xudiyeva (Dillər və ədəbiyyatlar departamentinin müəllimi,üzv)

Reyhan Mədətova (Dillər və ədəbiyyatlar departamentinin müəllimi,üzv)

Sevinc Ağayeva (Dillər və ədəbiyyatlar departamentinin müəllimi,üzv)

Ülvi Babasoy (Dillər və ədəbiyyatlar departamentinin müəllimi,üzv)

Qardaşxan Əzizxanlı (Dillər və ədəbiyyatlar departamentinin müəllimi,üzv)

Cabir Məmmədli (Dillər və ədəbiyyatlar departamentinin müəllimi,üzv)

Telman Nüsrətoğlu (Tarix və arxeologiya departamentinin müdiri, üzv)

Fərid Quliyev (Siyasi elmlər və fəlsəfə departamentinin müdiri, üzv)

Mələk Kərimova(Psixologiya departamentinin koordinatoru, üzv)

Cavid Cəfərov (Təhsil departamentinin koodinatoru, üzv)

Zülfiyyə Sadıqova (Musiqi və incəsənət departamentinin müdiri,üzv)

Ələvsət Əmirbəyli (Xəzər Univeriteti İctimai əlaqələr və media üzrə direktoru,üzv)

Natella Barkaya (Media Resursları Mərkəzinin müdiri,üzv)

İlkin Əlizadə (İnformasiya Texnologiyaları şöbəsinin menecer köməkçisi, üzv)

Aynurə Ağayeva (Ümumi şöbənin koordinatoru,üzv)

Fərqanə Ələsgərli (Dillər və ədəbiyyatlar departamentinin asisstenti,üzv)

ÜMUMİ KOMMUNİKATİV MÜHİTİN YARADILMASININ SƏMƏRƏLİ YOLLARI

Adilə FƏRZƏLİYEVA,
Odlar Yurdu Universiteti, doktorant,
Elmi rəhbər: dos.Nərmin Əliyeva

Kommunikativ mühit nisbətən sabit və müntəzəm daxili kommunikasiya əlaqələri və müəyyən ərazi lokallaşması ilə səciyyələnən tarixən formalaşmış etnososiallinqvistik birlik kimi müəyyən edilir və ilk dəfə sovet sosiolinqvistləri tərəfindən 1984-cü ildə "Sosiolinqvistik Tipologiya" (Qərbi Afrika) kitabında təqdim edilmişdir (URL-1).

Kommunikativ mühit anlayışı "sosial mühit" və "linqvistik birlik" kimi zahiri oxşar anlayışlardan xeyli fərqlənsə də terminologiya baxımından fərqlənmədiyini görə bilərik. C.Qamperzin dil birli-yinə verdiyi tərifə əsasən *o (dil birliyi), müxtəlif növ qarşılıqlı sosial əlaqənin tezliyi ilə qorunan və ətraf mühitdən ayrılan sosial qrup kimi müəyyən edilir* (Qambers, 1975:12). Linqvistik birlik üzvləri şəxsi təmaslarla bağlı olan və ya geniş ərazilərə yayılan kiçik qruplardan ibarət ola bilər.

Hər şeydən əvvəl, kommunikativ mühit anlayışını C.Qamperzin tərifinin əsasını təşkil edən sosial qrup anlayışı ilə eyniləşdirmək olmaz. Bu anlayış ciddi şəkildə sosiolojidir və ona görə də mexa-niki olaraq dilçiliyə ötürülə bilməz. Sosial qrupların ya mədəni sistem və modelləri birliyi, ya da qarşılıqlı məqsəd birliyi arasındakı fərqlərə baxmayaraq onların diqqətlərinin mədəni, etnik və ərazi xarakteristikaları ilə məcburi korrelyasiyaya malik olmayan sosial əlamətlərə yönəldilməsi məqbul hesab edilir. Sosial qrupa verilən müxtəlif tərifləri ümumiləşdirsək, kommunikativ mühitin tərif xarakteristikası kimi istifadə olunan aşağıdakı xüsusiyyətlərini ayırd edə bilərik: 1) iki və ya

daha çox şəxsin birbaşa qarşılıqlı əlaqəsi; 2) onların nisbətən aydın məqsədinin olması; 3) birgə müəyyən edilmiş normaların mövcudluğu və 4) nisbətən inkişaf etmiş strukturlar.

Kommunikativ mühit anlayışını sosial mühit ilə eyniləşdirmək olmaz. Kommunikativ mühit bir sıra sosial qruplara bölünə bilməsi baxımından sosial qrupdan daha genişdir və eyni zamanda o, sosial qrupdan daha spesifikdir, onun müəyyən sərhədləri və müəyyən etno-linqvistik məzmunu var. Əgər "cəmiyyət" və "əhali" anlayışlarını müqayisə etsək, o zaman kommunikativ mühit, ilk növbədə, sosial qruplaşmalar və təbəqələşmələrdəki fərqlərlə əlaqəli əlamətlərlə üst-üstə düşə bilən, özünün əsas etno-linqvistik xüsusiyyətlərinə malik olan əhalinin bir parçasıdır. "Üst-üstə düşə bilər" ifadəsi əhalinin sosial diferensiasiyasının təsadüfi və ya sporadik olduğunu vurğulayır. Söhbət yalnız hər bir konkret halda etnik və sosial və hər ikisinin əhəmiyyət dərəcəsini ayırd etməkdən gedir.

Ünsiyyət proseslərinin effektivliyini artırmaq üçün bir sıra qaydalara əməl edilməlidir. Birinci qayda ondan ibarətdir ki, ünsiyyət prosesində adresant ilə adresatın təhsil, yaş, dünyagörüşü nəzərə alınmalıdır. Bir sözlə, adresant adresatın "dilində" danışmalıdır. Təsəvvür edək ki, 4 və ya 5-ci sinifdə oxuyan şagirdə müəllim təbiət fənnini tədris edərkən çox mürəkkəb terminlərdən istifadə edir. Bu zaman şagird müəllimə bir qədər qulaq asdıqdan sonra heç bir şey başa düşmədiyindən tezliklə yorulacaq və dərsə qulaq asmayacaqdır. Savadsız bir adam həkimin qəbuluna gəlməsini digər misal kimi çəkmək olar. Həkim onun xəstəliyini tibbi terminlərlə deyil, xəstənin anlaya bildiyi dildə izah etdiyi təqdirdə iki ünsiyyətçi arasındakı ünsiyyət prosesi alınacaqdır.

Effektiv ünsiyyətin növbəti qaydası tərəfdaşın əhəmiyyətini vurğulamaq, ona hörmət göstərmək kimi təsvir edilə bilər.

Biz bu qaydanı başqa bir "ünsiyyət texnikası" kimi deyil, şəxsiyyətlərarası qarşılıqlı əlaqənin ən mühüm, fundamental prinsiplərindən biri kimi qəbul edirik. Bu mövqe bizim qəbul etdiyimiz A.Maslounun konsepsiyasına əsaslanır, burada hörmət, tanınma və qəbul edilmə ehtiyacı fərdin fundamental, əsas ehtiyaclarına aiddir (Maslou, 2008: 73). Bu qaydanın konkret icrası həm verbal, həm də qeyri-verbal səviyyədə həyata keçirilə bilər. Verbal səviyyənin nümunəsi, məsələn, belə ifadə ola bilər: "Məsləhət üçün sizə müraciət etdik, çünki bu məsələdə peşəkar təcrübəniz çox dəyərlidir". Bu ümumi qaydanın verbal şəkildə ifadə edilməsinin xüsusi forması vəziyyətin real kontekstindən və ünsiyyət tərəfdaşının şəxsiyyətinin xüsusiyyətlərindən asılı olaraq saysız-hesabsız seçimlərə malikdir. Qeyri-verbal səviyyədə, tərəfdaşın əhəmiyyətini vurğulamaq və ona hörmət göstərmək, məsələn, bu görüşə məsuliyyətlə yanaşdığınızı və ona hazırlaşdığınızı əsaslı nümayiş etdirməklə (hazırlıq iş qeydləri, iş planındakı qeydlər, əvvəlcədən hazırlanmış materiallar və s.) özünü göstərə bilər.

Effektiv ünsiyyət mühitinin yaradılmasının üçüncü qaydası - ünsiyyətçilər arasında fikir ortaqlığının olmasıdır. Müşahidələr göstərir ki bura təkcə fikir ortaqlığı deyil, eyni zamanda maraqların, məqsədlərin, vəzifələrin, mövqelərin ümumiliyi də daxildir. Bu maraqlar, məqsədlər və s. pozitiv olduğu kimi, neqativ də ola bilər. Məsələn, adresant adresata hər ikisinin ortaq xüsusiyyətini göstərmək üçün deyə bilər: "Sən də mənim kimi çox xeyirxahsan" və yaxud: "O da atası kimi çoxda nışandır" deyə bilər.

Effektiv ünsiyyətin dördüncü qaydası adresant ilə adresatın bir-birlərinin problemlərinə maraq göstərməsidir. Əks təqdirdə, yəni ünsiyyət prosesinin iştirakçılarının bir-birlərinin problemlərinə maraq göstərmədiyi halda bu etinasızlıq kimi anla-

şılacaq və bu da öz növbəsində konstruktiv ünsiyyətin baş verməməsi ilə nəticələnəcəkdir. Ünsiyyətin effektivliyinə nail olmaq üçün əsas şərtlərdən biri ünsiyyətçilərin bir-birlərinin problemlərinə maraq göstərmələridir. Məsələn, ailə ilə məsləhətləşmə zamanı ər arvadının onun işlərinə marağını itirdiyindən və iş günündən sonra ona problemləri, uğurları və uğursuzluqları barədə danışanda qulaq asmamasından şikayətlənir. Belə ki, ər öz problemlərindən danışarkən onun arvadı qab-qacaq yuyur və arabir sözünü kəsərək qonşu otaqdakı uşaqdan ev tapşırığını yerinə yetirib-yetirmədiyini soruşur. Belə olan halda, adresant ilə adresat arasında ünsiyyət effektivliyindən söz gedə bilməz. Onlar arasında effektiv ünsiyyətin qurulması o zaman baş verəcəkdir ki, işdəki problemindən danışan ərin probleminə arvadı diqqət- lə qulaq assın, necə deyərlər, onun dərdinə şərik olsun.

Beləliklə, ümumi kommunikativ mühitin yaradılmasının səmərəli yollarını nəzərdən keçirərkən, biz belə bir nəticəyə gəldik ki, ümumi kommunikativ mühitin yaradılmasının səmərəli yolları məqsəd, vəzifə və funksiyalarına görə bir-birlərindən fərqlənsə də, onlar bir-birləri ilə sıx əlaqəli olub bir məqsədə - ümumi kommunikativ mühitin yaradılmasına xidmət edir.

Qaynaqlar

1. ГАМПЕРЦ, Дж. (1975). *Типы языковых обществ. Социолингвистика.* Москва: Прогресс.
2. МАСЛОУ, А. (2008). *Мотивация и личность.* Санкт-Петербург: Питер.

İnternet resursları

3. URL-1. “Модели коммуникаций”. https://studref.com/590461/menedzhment/modeli_kommunikatsiy [Last accessed 23 April, 2022]

EFFECTİVE WAYS TO CREATE A TOTAL COMMUNICATIVE ENVIRONMENT

Adila FARZALIYEVA

Abstract

This article is devoted to the study of effective ways of creation of a common communicative environment. Communication is a process of interpersonal interaction generated by a wide range of actual needs of the subjects of interaction, aimed at satisfying these needs and mediated by certain interpersonal relationships. Scientists and psychologists have been investigating different ways of formation of effective ways of common communicative environment for some period of time and have come to the conclusion that there exist different ways of formation of common communicative environments. Though each of them has its own aim, all of them serve the same subject, i. e. effective realization of formation common communicative environment.

Key words: general communicative environment, social group, effective communication, verbal communication, non-verbal communication

44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ VƏ ƏDALƏTİN ZƏFƏRİ

Anar QURBANOV,
Sumqayıt Dövlət Universiteti, bakalavr,
Elmi rəhbər: baş müəllim, Aytən Əsədova

Hamımıza məlumdur ki, XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmişdir və bunun nəticəsində də Ermənistanın həyata keçirdiyi etnik təmizləmə yolu ilə 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, cəbhə xəttinə yaxın ərazilərdə qoşunların cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması ən əsası 2020-ci il iyulun 12-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Beləliklə, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu ərazilərdə genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi.

“Dəmir yumruq” əməliyyatını uğurla davam etdirən Müzəffər Azərbaycan Ordusu oktyabrın 3-də şimal cəbhəsində mühüm strateji əhəmiyyətə malik Madagiz kəndini işğaldan azad etdi. Daha sonra bu ərazi Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən dəyişdirilərək Suqovuşan adlandırılmışdır . Oktyabrın 4-də Cəbrayıl şəhəri, 9-da isə Hadrut qəsəbəsi düşməndən təmizlədi. Ermənistan silahlı qüvvələrinin “məğlubedilməzlik” mifini əməliyyatların ilk günlərindəcə darmadağın edən rəşadətli ordumuz oktyabrın 17-də Füzuli şəhərində Azərbaycan bayrağını ucaltdı. Oktyabrın 18-də - Müstəqillik Günündə Azərbaycanın üçrəngli bayrağı qədim Xudafərin körpüsünün üzərində dalğalanmağa başladı. Bundan iki gün sonra – oktyabrın 20-də isə Zəngilan şəhəri işğaldan azad olundu. Oktyabrın 22-də Zəngilan rayonunun Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycanın İran ilə dövlət sərhədi tam nəzarətə götürüldü.

Xalqımız Böyük Qələbənin ilk addım səslərini noyabrın 8-də Qarabağın ürəyi sayılan, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi ilk saatlarda eşitdi.

Müharibədəki ağır məğlubiyyət Paşinyanın kapitulyasiya aktını imzalamağa məcbur etdi. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən Üçtərəfli Bəyanatın imzalanması ilə hərbi əməliyyatlar dayandırıldı. Həmin Bəyanata uyğun olaraq, Ermənistan noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonlarını Azərbaycan Silahlı Qüvvələrinə təhvil verdi. Bununla da Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa edildi.

Eyni zamanda 44 günlük tarixdə həm də ermənilərinn vandalizm siyasətinin də şahidi olduq. Müharibə dövründə Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyən, sarsıdıcı

zərbələr altında geri çəkilən işğalçı Ermənistanın silahlı birləşmələri yenə də öz çirkin ənənələrinə sadiq qalaraq müharibə cinayətləri törətməkdən çəkinmədilər. Beynəlxalq hüquq və normaları kobud şəkildə pozaraq, mülki əhalini və infrastrukturu hədəfə alıb qadağan edilmiş kütləvi qırğın silahlarından istifadə etdilər. Cəbhədən kənarda yerləşən Gəncə, Mingəçevir, Yevlax, Daşkəsən, Xızı və Siyəzəni, cəbhəyanı Tərtər, Bərdə, Goranboy, Beyləqan və Ağcabədini müxtəlif istiqamətlərdən atəşə tutması nəticəsində azyaşlı uşaqlar, məktəbli yeniyetmələr daxil olmaqla yüzdən çox dinc sakinimiz erməni terrorunun qurbanı oldular.

Ən vacib amillərdən biri də müharibədə qazandığımız möhtəşəm qələbə sayəsində münaqişə bölgəsində mühüm siyasi-diplomatik üstünlüyəsahib olmağımızdır. Dost və qardaş Türkiyənin münaqişə zonasında monitorinq Mərkəzində təmsil olunması isə xüsusi vurğulanmalıdır.

Ölkəmizdə müharibədən dərhal sonra "Böyük Qayıdış" proqramının icrasına başlanılıb, nəzərdə tutulan hədəflərə çatmaq üçün kompleks tədbirlər həyata keçirilir, müasir texnologiyaların potensialından geniş istifadə edilməklə çoxşaxəli və müxtəlif təyinatlı logistik layihələr, "ağıllı şəhər", "ağıllı kənd" layihələri uğurla icra olunur. Qarabağın alternativ enerji mənbəyinə, "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində mühüm addımlar atılır.

Biz qələbə qazanmaqla 30 illik həsrətə son qoyduq, sözün əsal mənasında ədalətin zəfər çaldığı günün şahidi olduq.

Qaynaqlar

1. SƏLİMBƏYLİ, Şöhrət. (2020). *Azərbaycan tarixində qələbə salnaməsi*. Bakı: Avropa nəşriyyatı.
2. URL-1. https://www.bbc.com/azeri/azerbaijan-58685829
3. URL-2.

4. https://az.m.wikipedia.org/wiki/%C4%B0kinci_Qaraba%C4%9F_m%C3%BCharib%C9%99si

THE 44 DAYS WAR AND VICTORY OF JUSTICE

Anar GURBANOV

Abstract

The article also touches on the territorial claims of the Armenians, who have been the eternal enemies of Azerbaijan, as well as the issue of invading Azerbaijani lands and seizing control of their population. Then the article spoke about the liberation of our lands from occupation as a result of the efforts of the Supreme Commander-in-Chief and the army of Azerbaijan and the cessation of military operations with the signing of the Tripartite Declaration. The article also reflects the support of brotherly Turkey for this victory.

Key words: Tripartite Statement, Iron Fist, Smart Village, Green Energy, War, Victory.

MÖVLUD SÜLEYMANLININ "YEL ƏHMƏDİN BƏYLİYİ" POVESTİNDƏ ATA VƏ OĞUL KONFLİKTİ

Aydan NAĞIYEVA,
Bakı Avrasiya Universiteti, magistrant,
Elmi rəhbər: dr.Qardaşxan Əzizxanlı

"Ata və oğul münaqişəsi" motivli əsərlər qədim zamanlardan indiki dövrə qədər öz aktuallığını qoruyur. Bu tip əsərləri oxuyarkən onları nəyin maraqlı etdiyini çox düşünmüşəm. Onların ümumi süjet xəttimi? Arxa plandakı obrazlarmı? Yoxsa ata və oğul arasındakı konfliktlər? Bəlkə də günah sayılan ehtiraslı istək?

Hər kəsin öz tanrısı vardır. Amma bu bir həqiqətdir ki, dünyada çox evlərdə evin tanrısı atadır. Uşaqlıqdan etibarən insanlar nə vaxt kədərlənsələr, sirdaş axtarsalar, özlərini xoşbəxt hiss etmək istəsələr analarına sığınarlar. Analar müqəddəsdir, doğmadır, haqları tanrıya bərabərdir, amma obraz olaraq tanrı deyildirlər. Tanrı yaradan, hər şeydən uca, sitayiş edilən, ona çatmağa çalışılan, amma əsla çata bilmədiyimizdir. Evin bir çox yükünü üzərinə götürən, yuvanın qoruyucusu, çalışqan, daim nələrsə almasını və ya etməsini ümid etdiyimiz atalar evlərin kiçik tanrılarıdır. Varlığın qorxusu isə tanrının qəzəbindəndir, amma yaradılışdan etibarən ən çox etdiyi şey də tanrıya qarşı gəlmək, onu qəzəbləndirməkdir.

Əvvələ qayıdaq. Dünyada ilk dəfə günahın işləndiyi gündə ilk ata-oğul konflikti başladı. Bu elə bir mövzudur ki, əsrlər yox, min illər keçsə belə hələ də davam etməkdədir.

Ata və oğul birlikdə təxmini olaraq bir əsrə yaxın vaxtı əhatə edirlər. Atanın onun atasından qalmış həqiqətləri və bu həqiqətləri oğluna, sonrakı nəsillərə də öyrətmə istəyi yaşadıqları

əsri formalaşdırır. Tarix atalar və oğullarının həqiqətləri üzərində qurulur. Öyrəndiyi həqiqətləri qəbul etməyən və ya əvvəlcə özünü qəbul etmiş kimi göstərib üsyana hazırlaşan, çox zaman da bu üsyandan qalib çıxaraq öz doğrularını formalaşdıran və bunu bir qrup insana aşılayan oğulların olduğu zaman dilimlərinə intibah deyildi. İntibah-oyanma dövrü bəzən güclü inkşaf təkanları yaradarkən, bəzən də sürətli dağılmanı özündə gətirdi. Amma hər iki halda yeniliyin ən pis tərəflərini götürərkən üzərində yaşadığımız bu üstdən sıxılmış kürənin daha da sıxıldığı vaxtlar davam etdi. Mövlud Süleymanlının "Yel Əhmədin bəyliyi" povesti də belə vaxtlardan birini özündə bədii dillə oxucuya çatdırırdı.

Qədim dövrlərdən qarşımıza çıxan ata və oğul, yenilik və köhnəlik, təbiətə bağlılığın gətirdiyi xoşbəxtlik, yanlış qavranılan yeniliyin gətirdiyi bədbəxtlik zaman keçdikcə özünü daha maraqlı və fərqli formada göstərir. Povest, əslində, adı ilə bizə ilk ikiliyi yaşadır. "Yel Əhmədin bəyliyi" adını iki formada düşünə bilərik. Birincisi bəy- toyu edilən, evlənən oğlan mənasındadır, əsər də məhz Əhmədin bu bəyliyi ilə başlayır. İkincisi isə bəy – başçı, hökmran, hakim, ağa mənasındadır və əsər məhz bu mənanın həqiqəti ilə davam edir. Mənə görə hər iki məna əsərin məğzini özündə birləşdirir. Əslində, ata və oğul arasında ilk konflikt əsərin ilk cümlələrində başlayır. Həmid – Əhmədin atası qaçıb, hamı Əhmədin də qaçmasını gözləyir, lakin o bunu etməyi düşünmür. Qaçışların onda yaratdığı hisslər ata və oğul arasında hələ Əhməd körpə ikən yaranan kiçik bir yaranın daha böyüyüb iltihablanması kimi davam edir. Əhməd sanki yarasını sağaltmaq yerinə onun olduğu yeri kəsib tullayır və həyatda yaşadığı yer üçün yenilikçi, amma mənəviyyatı yarım bir insan yerini alır. Əsər əvvəldən sona qədər qaçış həsrətilə keçir. Kənd daim bu nəsil nümayəndələrinin hamısı kimi Əhmədin də

qaçışını gözləyir. Əhməd isə qaçmır, Həmidin əksinə olaraq o qaçmağı seçmir. Əhməd atasının bu hərəkətinə sanki nifrət edirdi və bu nifrəti ona da göstərə bilmək üçün atası geri gələnə qədər heç bir yerə getmirdi.

Həmid isə Əhmədin tam əksi idi. Əhməd yenilik, Həmid köhnəlik idi. Əhməd gələcəyə, müasirliyə nə qədər yönəlmişdisə Həmid də o qədər keçmişinə bağlı idi. Həmid sanki şifahi xalq ədəbiyyatını simvolizə edirdi. Daim özünü, keçmişini, yaranışı və yaradılışı axtarırdı. Daim üzü Arana gedirdi. Dərviş kimi yeriyirdi. Şifahi xalq ədəbiyyatından sonra Həmidin simasında klassik dövr ədəbiyyatı gəlir. Klassik ədəbiyyata xas olan vəhdəti-vücud vəziyyəti qarşımıza çıxır. Vəhdəti-vücud, xüsusilə, sufi təliminin əsasını təşkil edir. Həmid Nəsiminin beytini deyir, sanki daha sonra vəhdəti-vücud halına keçir və canı dayanmadan səfər etməyə başlayır. Həmid artıq real dünyadakı kimi deyil, tanrının yolunda bir dərviş kimi hiss edir. Həmid özüdə bilmədən yel kimi hərəkət edirdi. Bir müddət sonra qaçdığını, harasa getdiyini anlayanda, yəni reallığa qayıdanda artıq o vəhdət halından çıxırdı və hərəkəti yavaşıyırdı. Həmid həm də müəyyən əlamətlərinə görə dövrün tipik kişisi idi. İllərlə ailəsini, onu sevən yoldaşını "nə edərlər?" deyə düşünmədən atıb gedən Həmid oğlu olduğunu biləndə və onun başqasından ola bilmə ehtimalını dərk edəndə tez geri qayıdır. Namus, qeyrət və maraq onun bu səyahətinə son verir. O, həyatını ölənə qədər evində, amma dərin məyusluq, sıxıntı, əzab və əsəb içində keçirdir. Arana qayıda bilməməsi onu çox sıxır və havası çatmayan bir quş kimi əvvəl qaçmaq üçün çırpınır, daha sonra isə ürəyi dayanıb ölür.

Bu zamanlarda Əhməd atasının burada olduğu vaxt ona öyrətdiyi həqiqətləri qəbul etmir. Öz həqiqətlərini axtarır. Onu da atası kimi səsləyən bir varlıq idi sanki, amma bu o qədim Ar-

an deyildi. Atasının ölümündən sonra yola çıxan Əhməd bir müddət sonra qayıdır. Əhmədin qayıtması ilə baş verən hadisələr Jan Jak Russonun: "Bir hissə toprağı himayəsinə alıb, "bu mənimdir" deyə bilən və ona inanacaq qədər saf insanlar tapan ilk insan, mədəni və müasir cəmiyyətin ilk və həqiqi qurucusudur" (Rousseau, 2003: 64) sözlərini yadıma salır. Əhməd yenilik gətirir kəndə. Bir-iki adamda olan pul artıq onda da var idi. Əhməd pulları sayəsində öz bəyliyini, ağalığını qurmağa başlayır. Atası nə edirsə, Əhməd onun əksini edir. Hamını özündən asılı – borclu vəziyyətə salır. İnsanlar Əhmədə atasına etdiklərinin əksinə qorxu və hörmətlə yanaşır. Əhmədin gəlişi ilə kəndə feodal və kapitalist ünsürlər gəlir. Həmiddə olan qədim dövr ədəbiyyatının mərhələləri Əhməddə yeni dövrə doğru gedir. Əhməd sürətlə inkişaf edən cəmiyyəti göstərir. Möylə dayı və onun hıçqırığı inkişafdan narahat olub etiraz edənlərin simvoludur. Əsərin ən təsirli yeri sonudur. Əhmədin Arana yox, əks istiqamətə faytonla gedənlərin ardı ilə getməsi Avropalaşmanın təsiri altında inkişaf etdiklərini düşünən, amma uçuruma gedən gələcəyi simvolizə edir.

Yer kürəsində ilk günahın işləndiyi gün ata və oğul arasında mübahisələr başladı və yüksəliş dövrləri ancaq bu konf-liktlərin gücləndiyi vaxtlarda baş verdi.

Oğullar yeniliklər edərkən cəmiyyət inkişaf etdiyinə inandı.

Qaynaqlar

1. ROUSSEAU, Jean Jacques. (2003). *İnsanlar Arasındaki Eşitsizliğin Kökeni*. Ankara: Yeryüzü yayınevi.
2. SÜLEYMANLI, Mövlud. (2006). *Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb nəşriyyat evi.

THE CONFLICT OF FATHER AND SON IN THE STORY OF “YEL ƏHMƏDIN BƏYLIYI” BY MOVLUD SULEYMANLI

Aydan NAGHİYEVA

Abstract

Works like "father and son" remain relevant from ancient times to the present day. The article touches on the conflicts between father and son and their causes. This subject line, which appears in many works, finds its place in Movlud Suleymanli's novella "Fast Ahmad's principality". In the novella, the differences between father Hamid and son Ahmed are obvious. After Hamid, Ahmad's innovations brought a new structure to the village. Emerging capitalist elements manifest themselves in the most severe form in the countryside. While Hamid represents the past, Ahmed represents a dreadful future. In the end, Ahmad's going in the opposite direction, not to Aran like his father, shows the development that comes with Europeanization.

Key words: Movlud Suleymanli, “Fast Ahmad's principality”, “Yel Ahmed’s beyliy”, Father and son, Conflict, Narrative.

PSİXOAKTİV MADDƏLƏRİN BEYİN MEXANİZMLƏRİNƏ TƏSİRİ

Aynur MAHMUDOVA
Xəzər universitetinin II kurs magistrantı
Elmi rəhbər: Sevinc Allahyarova

Psixoaktiv maddələr toksik təsir edən, zövqverici xüsusiyyəti olan, istifadə zamanı miqdarın artılıması ilə davam edən və istifadənin dayandırılması zamanı abstinent sindromu ilə nəticələnən maddələrdir. Psixoaktiv maddələr beyinin müxtəlif strukturlarına təsir edir və funksiyalarında müəyyən dəyişikliklər yaradırlar. Neyromediatorlardan olan dopaminin psixoaktiv maddə asılılığında rolu önəmlidir. İstifadə olunan psixoaktiv maddələr beyin strukturlarına təsir edir və bu təsir astenik sindromu yaradır. Psixoaktiv maddə istifadəçilərində astenik sindrom, xüsusilə hafizənin zəifləməsi, diqqətin davamlılığının zəifləməsi, emosional tükənmə, əhval-ruhiyyənin davamsızlığının olduğunun nəticəsinə gəldik.

Ümumdünya Səhiyyə Təşkilatının tərifinə əsasən qaçınılmaz istək və ya ehtiyac, istifadə olunan maddənin miqdarının artırılması meyli, psixi və fiziki asılılıq yaradan maddələrə psixoaktiv maddələr deyilir. Bir maddənin psixoaktiv maddə sayılmağı üçün aşağıda göstərilən xüsusiyyətlərin olmağı lazımdır:

-Toksik təsir etməyi

-Zövqverici xüsusiyyətinin olmağı

-Maddənin istifadə miqdarının zamanla artmağı

-İstifadənin dayandırılması halında abstinent sindromunun yaranmağı

Asılılıq yaradan maddələrin zövqverən təsirləri zamanla həmin maddələrə qarşı tolerantlığın yaranmağına gətirib çıxarır. Maddəyə qarşı tolerantlığın yaranmağı daha yüksək toksik miq-

darlara səbəb olur. Tolerantlıq eyni və ya oxşar həzz təsirin görmək üçün qəbul olunan maddənin miqdarının artımıdır. Psixoaktiv maddələrdən alınan həzz beyinin mükafat sistemi ilə əlaqəlidir. Beyin mükafat mexanizmi maddəyə qarşı istəyi artırır və maddəni yenidən axtarmağa həvəsləndirir. Psixoaktiv maddə istifadəçilərində ilk istifadə mərhələlərində üzə çıxan "yaxşı hiss etmək" təsiri, narahatlığın azalmağı, stimulyator tipli bəzi maddələrin istifadəsi zamanı psixi və fiziki fəaliyyətlərin qısa müddətli güclənməsi nəticəsində maddəni yenidən axtarmaq və qəbul etmək istəyi artır. Psixoaktiv maddənin vaxtaşırı və ya daimi qəbulunda əsas məqsəd isə həzz almaq, diskomfort vəziyyətdən yayınmaq və reallıqdan qaçmaqdır. (Köroğlu, 2020: 26)

Psixoaktiv maddələr beyinin bir sıra strukturlarına əsaslı şəkildə təsir edir və istifadə olunan maddənin miqdarı və istifadə müddətindən asılı olaraq bu təsir xroniki beyin xəstəliyi olan asılılığa çevrilir. Beyin mükafat mexanizmi bir sıra neyromediatorlarla, yəni dopamin, oksitosin, serotanin endorfin ilə əlaqəlidir. Bu neyromediatorlar beyinin müəyyən strukturlarında yaranır və digər nahiyələrə də təsir edir. Həzzi ilk hiss edən zaman beyin dofamin adlanan neyromediatorları ifraz edir. Dopamin orta beyində yerləşən ventral teqmental sahədə yaranır və həzz alınma müddətində ifraz etdiyi dopamini beyinin müxtəlif strukturlarına göndərir. Ventral teqmental sahə dopamin ifraz edir və bu beyində dopamin reseptorları olan bütün strukturlara çatır və nəticədə xoşbəxtlik ya da eyforiya vəziyyəti olur. Ventral teqmental sahənin dopamin göndərdiyi bir struktur amiqdaladır. Amiqdala beyinin sağ və sol hissəsində temporal lobların dərinliyində yerləşən badam formasındakı iki kiçik sturukturdan ibarətdir. Amiqdala başda qorxu olmaqla qəzəb, xoşbəxtlik, təəccüb kimi əsas emosiyalar, yaddaş və sağqalma ilə

bağlı arzuların nəzarətinə cavabdehdir, emosional yaddaş və emosional reaksiyaların yaranmasını təşkil edir və emosiyalarımız vasitəsi ilə ətrafımızdakı bir çox şeyi tanımağımıza kömək edir. Stresli bir vəziyyətlə qarşılaşdığımız zaman, ya da qorxu siqnalı alınanda amiqdalanın fəaliyyəti artır və böyrəküstü adrenalin hormonu bədəni təcili hala hazırlayan epinefrin və neropinefrin qəbul edir. Amiqdalaya stimul verilməsi nəticəsində emosional xatirələr daha dərin izlər buraxmasını təmin edir. Həzz alınan zaman amiqdalada yaranan emosiyalar hippokamp tərəfindən yadda saxlanılır və yaranan emosiyaların harda, necə, nə formada olduğu ardıcıl formada yadda saxlanılır. Hippokamp temporal lobun dərinliyində yerləşir və yeni məlumatlar qəbul etmək və məlumatları saxlamaq funksiyasına cavabdehdir. Lakin, alınan məlumatlar yalnız qısa müddətli saxlanılır, əgər məlumatı uzun müddət saxlamaq lazımdırsa, alınan məlumatı uzun müddətli yaddaşa çevirir və beyinin başqa strukturlarına göndərir. Bu məlumat yenidən lazım olanda hippokamp o məlumatın tapılmasına kömək edir. Ventral teqmental sahənin dopamin göndərdiyi digər beyin strukturu beyin mükafat mərkəzidir, bu struktur bədənin motor funksiyalarını idarə edir. (Uzbay, 2018: 68)

Beyin mükafat mərkəzi, amiqdala və hippokamp limbik sistemin hissələridir. Limbik sistem termini ilk dəfə 1952-ci ildə Mak-Lin tərəfindən irəli sürmüşdür. Lakin 1937-ci ildə Papets anatomik emosional həlqənin mövcudluğunu daha erkən iddia edirdi. Bura hippokamp, mamilyar cism, talamusun ön nüvəsi daxil idi. Papets hesab edirdi ki, talamusa daxil olarkən hər hər afferentasiya 3 yığıma ayrılır, hərəkət, fikir və hiss. Hiss yığını anatomik emosional həlqədə dövr edərək bu şəkildə emosional yaşantıların fizioloji əsasını təşkil edir. Emosiyaların yaranması və cərəyan etməsi beyinin modullaşdırıcı sistemlərinin fəaliyyəti

ilə sıx bağlıdır. Burada limbik sistem həlledici rol oynayır. Limbik sistem- orqanizmin vegetativ – visseral funksiyalarının və davranış reaksiyalarının tənzimində iştirak edən, öz aralarında funksional olaraq birləşmiş baş beynin filogenetik qədim dərin strukturlarının kompleksidir. (Şəfiyeva və Allahyarova, 2019: 92).

Beyinin ön hissəsində olan prefrontal korteks şüurlu düşünmə mərkəzidir. Tənqid etmək, səbəb-nəticə əlaqəsini qurmaq, davranışlar, problem həll etmək, motor bacarıqları planlamaq funksiyalarını həyata keçirir. Prefrontal korteks şüurlu davranışların idarə edilməyində böyük rol oynayır. Bu bölgənin olan hadisələrin gələcəkdə səbəb olacağı nəticələri təxmin etmək, zərərli və zərərsiz anlayışları ayırmaq, sosial olaraq qəbul olunmayan davranışları etməmək, hadisələr və əşyalar arasındakı oxşarlıq və fərqliliyi ayırmaq funksiyaları var. Psixoaktiv maddələr prefrontal korteksə də təsir etdiyinə görə bu bölgədə zədələnmələr yaranır. Prefrontal korteksin zədələnməsi nəticəsində bir sıra proseslərdə dəyişikliklər baş verir. Belə ki, problem həll etmək və yaradıcılıq bacarığında azalma və ya artım, danışıq bacarığında fərqlilik, risk etmək anlayışının dəyişməyi, dad və qoxu duyğularında azalma və ya bu duyğuların itməyi, diqqət yayılmasına qarşı həssaslıq. (Deckard, 2020: 38)

Psixoaktiv maddələr beyinin müxtəlif strukturlarına təsir edir və bu təsirlər beyində müxtəlif formalı dəyişikliklər yaradır ki, bu dəyişikliklər psixoaktiv maddə istifadəçilərində fizioloji, psixoloji və sosial problemlərə gətirib çıxarır. Belə ki, beyinin bəzi strukturlarının funksiyalarının dəyişməyi astenik sindrom yaradır. Bir sıra eksperimentlər apararaq, yəni psixoaktiv maddələr istifadəçilərinin emosional yorğunluğun dəyərləndirilməsi, neyrotizmin ölçülməsi, diqqətin davamlılığının ölçülməsi ilə astenik sindromun, xüsusilə hafizənin zəifləməsi, diq-

qətin davamlılığının zəifləməsi, emosional tükənmə, əhval-ruhiyyənin davamsızlığı olduğu nəticəsinə gəlirik.

Qaynaqlar

1. KÖROĞLU, E. (2020). *Bağımlılıktan kurtuluş*. Ankara: Esenkal yayıncılık
2. ŞƏFİYEVA, Elnarə., ALLAHYAROVA, Sevinc. (2019). *Psixofiziologiya*. Bakı: AzTU-nun mətbəəsi.
3. UZBAY, T. (2018). *Hazdan bağımlılığa*. İstanbul: Destek yayınları
4. WILLIAM, Deckard. (2020). *Güçlü hafıza teknikleri* (Cem Güler). İstanbul: Eftalya kitap

EFFECT OF PSYCHOACTIVE SUBSTANCES ON BRAIN MECHANISMS

Aynur MAHMUDOVA

Abstract

Psychoactive substances are substances that have a toxic effect, create a pleasant mood, continue to increase in quantity during use, and result in abstinence syndrome when discontinued. Psychoactive substances affect various structures of the brain and cause certain changes in their functions. The role of dopamine, a neurotransmitter, in psychoactive substance dependence is important. The psychoactive substances affect the structures of the brain, and this effect causes asthenic syndrome. We have concluded that psychoactive substance users have asthenic syndrome, especially memory impairment, impaired attention span, emotional exhaustion, and mood swings.

Key words: psychoactive substance users, psychoactive substance, brain

QADINLARIN TƏHSİL VƏ KARYERA SEÇİMLƏRİNƏ TƏSİR GÖSTƏRƏN FAKTORLAR

Aytac NURUZADƏ,
Xəzər Universiteti, magistrant
Elmi rəhbər: Ülkər İSAYEVA,
Ləman VERDİYEVA

Təhsil və karyera seçimi, xüsusən, qadınlar üçün həyatda ən vacib qərarlardan biridir. İnsanların təhsilinə və peşə seçiminə bir neçə amil təsir edir. Fərdin cinsi də onun karyera seçiminə təsir edən mühüm amildir. Qadınlar hələ də qadınlar üçün uyğun hesab edilən sahələrdə yüksək səviyyədə təmsil olunsalar da, kişilərin üstünlük təşkil etdiyi, yüksək gəlirli və prestijli sahələrdə az təmsil olunurlar. Araşdırma göstərir ki, ailə, təhsil müəssisələri, həmyaşıdlar qadınların təhsil və karyera seçimlərinə əsas təsir edən amillərdəndir.

Hal-hazırda bütün ölkələrdə təhsil və karyera seçimlərində gender fərqləri mövcuddur. Digər ölkələrlə bərabər Azərbaycanda da orta və ali ixtisas təhsili müəssisələrində qadınlar daha çox təhsil, humanitar və sosial, mədəniyyət və incəsənət; kişilər isə iqtisadiyyat və idarəetmə, texniki və texnoloji ixtisas qruplarında təhsil alırlar (Azərbaycan Respublikasının Döv..., 2021: 112). Bütün dünya üzrə qadınlar mühəndislik sahəsində yalnız 20 faiz, data və süni intellekt sahələrində 32 faiz, bütün idarəetmə işlərində yalnız 27 faiz təmsil olunmaqdadırlar (World Economic..., 2021: 61). Gender bərabərliyinin təmin edilməsi və gender ayrı-seçkiliyinin azaldılması istiqamətində həyata keçirilən tədbirlərə baxmayaraq, gender stereotipləri mövcud olmağa davam edir. Azərbaycan hökuməti gendər bərabərliyi siyasətinə sahibdir və qanun həyatın bütün sahələrində kişi və

qadınların bərabərliyini bəyan edir. Gündəlik həyatda isə mövcud stereotiplər qadınların təhsil və peşə seçimlərini limitləyə bilir. Təhsil və karyera ilə bağlı gender stereotipləri uşaqlıqdan etibarən ailə, bağça, məktəb, ətrafdakı insanlar, media tərəfindən uşaqlar üçün seçilən oyuncaqlar, dərs vəsaitləri, valideynlər arasındakı iş bölgüsü kimi vasitələrlərlə uşaqlara aşılanır.

Bir çox ölkələrdə dərsliklərdə istifadə olunan vizual obyektlər üzərində aparılan araşdırmalar göstərir ki, dərsliklərdə, ümumiyyətlə, kişilər qadınlardan daha çox; elmlə, ağır fiziki işlərdə kişilər qadınlardan daha çox; ev işləri, müəllimlikdə qadınlar kişilərdən daha çox istifadə olunmuşdur. Statistikaya nəzər yetirdikdə bu doğru olsa belə, müxtəlif fəaliyyətləri göstərən vizual obyektlərdə qadın və kişilərin balanslı istifadəsi zərərli stereotiplərin güclənməsinin qarşısını ala bilər (Kerkhoven vs., 2016: 10). Müəllimlər qadınlara gender tipik sahələrdə ixtisaslaşmağı öz məsləhət, davranış və rəftarları ilə aşılaya bilirlər (Farmer, 2001: 286). Həmçinin ümumi orta təhsil müddətində şagirdlər üçün həmyaşıdları tərəfindən qəbul olunmaq, bəyənilmək müstəsna əhəmiyyət daşıyır. Bu istiqamətdə aparılan tədqiqatlar göstərir ki, həmyaşıdlar şagirdlərin ixtisas və karyera seçimlərinə təsir göstərən faktorlardan biridir. Yeniyetmələr üzərində aparılan araşdırmanın nəticələri göstərir ki, daha çox qız dostları olan qızlar daha çox oğlan dostu olan qızlara nisbətən yüksək təhsil pillələrinə çıxmağı qarşılarına hədəf qoymuşdurlar (Sinclair vs., 2019: 67). Habelə məktəbdə təhsil zamanı fənlərin genderə uyğunlaşdırılması da müşahidə edilir. Riyaziyyat, kimya, fizika oğlanlara aid edilir, qızların bu fənlərdə daha bacarıqsız olduğu fikri valideyn və müəllimlər tərəfindən möhkəmləndirilir. Buna müvafiq olaraq da qızlar həmin fənlərin

tələb olunduğu ixtisaslara yönəlməkdən çəkinə bilir (Ağayeva, 2014: 184).

Konservativ düşüncələri qəbul edən ailələr qızların təhsilə çıxışını, qadınların işləmə imkanlarını limitləyə bilir. Bir çox cəmiyyətlərdə olduğu kimi Azərbaycanda da ev işləri və uşaq baxımı qadınların işi olaraq nəzərdən keçirilir və qadınlar kişilərdən üç dəfə çox ödənişsiz ev işləri ilə; kişilər isə qadınlardan üç dəfə daha uzun müddət ödənişli işdə çalışırlar (Asian Development Bank, 2019: 17). Valideynlərin düşüncə sistemi ilə yanaşı onların təhsil səviyyəsi, ailənin gəlir səviyyəsi də peşə seçiminə təsirsiz ötüşmür. Ailədə ana və qız arasında olan münasibət qızların karyera istəklərində, karyera qərarları verərkən özlərinə inamlı olmalarında rol oynayır (Whiston və Keller, 2004: 536). Ataları ilə daha çox vaxt keçirən qızlar gənclik dövründə daha az gender tipik peşələrə yönəlirlər (Baruch və Barnett, 1986: 1019).

Qadınların təhsildə və işdə fəal iştirakı müşahidə olunsa da, bu özünü daha çox qadınların dominantlıq təşkil etdiyi sahələrdə göstərir. Yuxarıda sadalanan təsirlər davamlı olaraq qadınların həyatında aktuallığını qoruyur və onların təhsil və karyera seçimlərinə təsir edir. Peşələrin gender seqreqasiyası sosial-iqtisadi problem olmaqla yanaşı, ayrı-ayrılıqda fərdlər üçün də problem yaratdığından bu mövzunun araşdırılması əhəmiyyət kəsb edir. Ailə, təhsil sistemi, iş yerlərində qadınlara qarşı gözləntiləri dəyişmək, stereotipik maneələrin həllinə fokuslanmaq problemin həllinə kömək ola bilər.

Qaynaqlar

1. AĞAYEVA, Kifayət. (2014). *Azərbaycanda gender məsələləri*. Bakı.

2. AZƏRBAYCAN RESPUBLIKASININ DÖVLƏT STATISTIKA KOMITƏSI. (2021). *Azərbaycanda qadınlar və kişilər*. Bakı.
3. ASIAN DEVELOPMENT BANK. (2019). *Country gender assessment.*
4. BARUCH, Grace və Barnett Rosalind. (1986). "Fathers' participation in family work and children's sex-role attitudes", *Child Development*, s.1210-1223.
5. FARMER, H. 2001. "Factors and influences on high school students' career choices", *Journal for Research in Mathematics Education*, S.22, s.281-292
6. KERKHOVEN, Anne vd. (2016). "Gender stereotypes in science education resources: A visual content analysis", *PloS one*, S.11, s. 1-13.
7. SINCLAIR, Samantha və s. (2019). "Explaining gender-typed educational choice in adolescence: The role of social identity, self-concept, goals, grades, and interests", *Journal of Vocational Behavior*, S.110, s.54-71.
8. WHISTON, Susan və Keller Briana. (2004). "The influences of the family of origin on career development: A review and analysis", *The counseling psychologist*, S.4, s.493-568.
9. WORLD ECONOMIC FORUM (2021). *Global gender gap report.*

FACTORS AFFECTING WOMEN'S EDUCATION AND CAREER CHOICES

Aytaj NURUZADA

Abstract

Education and career choice is one of the most crucial decisions in life, especially for women. Several factors influence people's education and career choices. An individual's gender is also a significant factor. While women are still highly represented in areas considered suitable for women, they are underrepresented in areas dominated by men, in high income and prestigious areas. Research

shows that family, educational institutions, and peers are among the main influencing factors.

Key words: gender stereotypes, women, education choices, career choices

NATAMAMLIQ VƏ ÜSTÜNLÜK KOMPLEKSLƏRİNİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ SƏVİYYƏSİNƏ TƏSİRİ

Aytən MÜTƏLLİMZADƏ
Bakı Dövlət Universiteti, doktorantı
Elmi rəhbər: dos. Səxavət Əliyeva

Avstriyalı psixoloq və psixoterapevt Alfred Adlerin yazmış olduğu "Orqan çatışmazlığının öyrənilməsi və onun psixoloji kompensasiyası" adlı məqalə natamamlıq kompleksi anlayışının başlanğıc nöqtəsi olmuşdur (Alfred, 1917: 114). Bu məqalədə insanın hər hansı bir orqanının əskikliyi ilə necə mübarizə apardığı və bu vəziyyəti kompensasiya etmək üçün hansı üsullardan istifadə olunmasından bəhs edilir. Lakin sonralar A.Adler bu fikrini genişləndirib natamamlıq kompleksinin iki məqamına, yəni bioloji və sosioloji quruluşa diqqət çəkmişdir.

Bioloji kontekstdə natamamlıq kompleksi olan insan, orqan yoxluğu halında normaldan daha çox başqa bir orqandan istifadə edərək, çatışmazlıqlarını kompensasiya etməyə çalışır. Başqa bir tərəfini daha çox inkişaf etdirərək kompensasiyanı təmin etmiş olur. Görmə qüsuru olan bir insanın eşitmə aparatı son dərəcə həssaslaşır. Bioloji şəkildə inkişaf edən natamamlıq kompleksi, üstün olmaq səyini artıra bilər.

Sosioloji quruluşda natamamlıq kompleksinə nəzər saldıqda onun cəmiyyətdə müxtəlif formalarda təzahür etdiyini asanlıqla görə bilərik. Gender kontekstində ən bariz nümunə kişilərin üstün olduğu patriarxal cəmiyyətlərdə qadınların özlərini dəyərsiz hiss etmələridir.

Natamamlıq kompleksi bioloji və sosioloji mənaları ilə yanaşı psixoloji məna da kəsb edir. A.Adler natamamlıq komplek-

sindən danışarkən həddindən artıq paxıllıq hissinin formalaşması kimi mənfi duyğuları vurğulamışdı. Fərd həmişə özünün natamam və qeyri-kafi olduğunu düşünür, bu da onu özünü sübut etməyə çalışmağa sövq edir. Başqa sözlə desək, özünə kifayət qədər inamı olmur.

A.Adlerə görə hər bir insan anadangəlmə natamamlıq hissi ilə doğulur və zaman keçdikcə müəyyən məqsədə yönələ bilmək və uğur əldə etmək üçün bu hiss zəruridir. A.Adler özünüqiymətləndirmənin, xüsusən də natamamlıq hissinin formalaşmasının mənşəyini uşaqlıq dövrünə əsaslandığını, uşağın zəif olduğu və valideyn himayəsinə ehtiyacı olduğu zamanlardan qaynaqlandığını qeyd edir: "Bu təcrübə nəticəsində uşaqda ailə mühitində daha güclü və böyük olan digər insanlarla müqayisədə dərin alçalma hissləri formalaşır. Bu ilkin alçalma hissinin meydana çıxması ətraf mühitdə üstünlüyə nail olmaq, eləcə də kamillik və qüsursuzluğa can atmaq uğrunda uzun mübarizənin başlanğıcını göstərir" (Кузьменко, 1998: 164).

A.Adler qeyd edirdi ki, mükəmməlliyə can atmaq insan həyatının əsas həvəsləndirici qüvvəsidir, insanların etdiyi hər şey natamamlıq kompleksinin aradan qaldırmağa və üstünlük hissini gücləndirməyə yönəlmişdir. Çünki natamamlıq kompleksi fərdin həyatının hərəkətverici qüvvəsi ola bilər, ona görə də hər bir fərddə bir qədər natamamlıq kompleksinin olması normaldır. Bu vəziyyət insanın həyatına və münasibətlərinə mənfi təsir edəcək səviyyədə deyilsə, problem yaratmır. İnsanlar natamamlıq kompleksinin öhdəsindən gəlmək üçün üstünlüyə can atırlar. Üstünlüyə can atmaq insan xarakterinin əsas motivasiyasıdır. Üstün olmaq sinif fərqi, üstünlük və ya liderlik demək deyil. Üstün olmağa çalışmaq daha mükəmməl və arzuolunan bir həyata can atmaqdır. Əgər fərd həyatında yaşadığı bəzi uğursuzluq və çatışmazlıqları həyatının hər sahəsində ümumiləşdirirsə, daim özü haqqında

mənfi fikirlər səsləndirirsə, başqalarının gözündə necə göründüyünə həddindən artıq əhəmiyyət verirsə, natamamlıq kompleksinin böhran vəziyyətində olduğunu göstərir.

Natamamlıq kompleksi ilə üstünlük kompleksini eyniləşdirmək doğru olmaz. Həm natamamlıq kompleksi, həm də üstünlük kompleksi müalicə edilməli olan iki ayrı psixi pozuntulardır. Həm natamamlıq kompleksi, həm də üstünlük kompleksi insanların sosial həyatına mənfi təsir göstərə bilir. Natamamlıq kompleksi insanın cəmiyyətdə müəyyən bir mövqeyə sahib ola bilməməsinə səbəb ola bilir. Natamamlıq kompleksinə sahib olmağın təhsil və ya ətraf mühitlə heç bir əlaqəsi yoxdur. Hətta yaxşı və hörmətli bir mühitdə yaşayan yaxşı təhsilli bir insan belə natamamlıq kompleksindən əziyyət çəkmək riski al-tındadır.

Natamamlıq kompleksinin simptomları çox geniş və müxtəlif spektrə malikdir. Bəzi insanlarda introversiya kimi özünü göstərsə də, davamlı şən olma vəziyyəti və ya davamlı olaraq kiməsə əsəbiləşmək, zarafat etmək və ya iddialı rol oynamaq kimi də özünü göstərə bilər. Yəni insan bu yolla diqqəti cəlb etməyə çalışır. Lakin hər şən insan və ya hər əsəbi, hirsli insan natamamlıq kompleksinə sahibdir demək deyil.

Üstünlük kompleksində isə vəziyyət fərqlidir. Üstünlük kompleksi olan insan hər zaman, hər vəziyyətdə özünü başqa insanlardan üstün olaraq görür. Üstünlük kompleksi olan insan özünü digər insanlardan daha xüsusi hesab edir. O, digər insanlardan daha ağıllı olduğu təəssüratını yaradır. Hər şeyi bildiyi təəssüratı yaratmaq üçün tərəddüd etmədən bildiyi mövzuya və həmçinin bilmədiyi mövzuya da atılır. Bu onu öz gözündə digər insanlardan fərqləndirir. Üstünlük kompleksi olan şəxs həmişə özü haqqında danışmaq istəyir. İnsanların onu dinləmək məcburiyyətində olduğunu düşünür. Başqalarının fikirlərinə çoxda

əhəmiyyət vermir. Digər insanların etdiyi hər nəyi daima kiçildir və tənqid edir. Destruktiv davranışları ilə diqqət çəkdikləri üçün cəmiyyətdə yer qazana bilmirlər.

Natamamlıq və üstünlük komplekslərinin əsas fərqi özünüqiymətləndirmə səviyyəsinin fərqli olmasıdır. Özünüqiymətləndirmə emosional zərurətdir və şəxsiyyətin əsas psixoloji elementlərindən biridir. Özünü müəyyən dərəcədə dəyərli hesab etməyən insan, əsas ehtiyaclarının çoxunun ödənmədiyi zaman sıxıntı içində yaşayır. Özünüqiymətləndirmə yalnız insanın öz müsbət xüsusiyyətlərini bilməkdən ibarət deyil. Bu, həm də özünü və başqalarını mühakimə etməmək və olduğu kimi qəbul etməkdir.

Natamamlıq kompleksi olan insanın özünüqiymətləndirmə səviyyəsi çox vaxt qeyri-real aşağı olur. Şəxs öz sahib olduğu müsbət keyfiyyətlərinin belə fərqində olmur. Lakin üstünlük kompleksi olan insanlarda isə çox zaman qeyri-real yüksək özünüqiymətləndirmə səviyyəsi təzahür edir. Belə ki, öz sahib olduqları keyfiyyətləri şişirdirlər və hətta sahib olmadığı xüsusiyyətlərin belə təsəvvürünü yaradırlar.

Yuxarıda qeyd etdiyimi komplekslər psixoterapiya ilə müalicə oluna bilərlər (URL-1). Psixoloji problem varsa, peşəkar dəstək almaq daha yaxşıdır. Natamamlıq kompleksi və üstünlük kompleksi hər ikisi psixoloji yardım və müalicə tələb edir. Əgər bu problemlər müalicə edilməzsə, insanları tənhalığa sürüklənməsi ilə nəticələnə bilər.

Qaynaqlar

1. ALFRED, Adler. (1917). “Study of organ inferiority and its psychical compensation”, *Nervous and mental disease monograph series*, №24, p. 111-206
2. URL-1. Altan, Nida. (2019). “Aşağılık kompleksi nedir?” https://www.bilgiustam.com/asagilik-kompleksi/

3. КУЗЬМЕНКО, Артем. (1998). “Различные пути преодоления заниженной самооценки”, *Богословский вестник*, №1, с. 123-170

THE EFFECT OF INCOMPLETENESS AND SUPERIORITY COMPLEXES ON THE LEVEL OF SELF-ASSESSMENT

Ayten MUTALLIMZADEH

Abstract

The effect of inferiority and superiority complexes on self-confidence is explained in the article. A.Adler reported that the self-confidence of a person with an inferiority complex is unrealistically low, while the self-confidence of a person with an inferiority complex is unrealistically high. A person suffering from an inferiority complex sees himself as inferior to others and underestimates his abilities. People with a superiority complex see themselves as more special and superior to other people. Both inferiority and superiority complexes are problems that require psychological help and treatment.

Key words: individual psychology, psychology of personality, inferiority complex, superiority complex, self-esteem

“XƏRÇƏNG TROPİKİ” ROMANINDA EROTİK TƏSVİR VƏ TƏHKİYƏ

Aytən QURBANOVA,
Xəzər Universiteti, bakalavr
Elmi rəhbər: dr.Ülvi Babasoy

“Həyatın şəhvətli, duyğulu əyləncəsinə aparan kitab”. “Xərçəng tropiki” Henri Miller tərəfindən qələmə alınıb və avtobioqrafik əsərdir. Yayımlandığı tarixdə böyük fırtınalar qoparan ilk və əsas məşhur roman. Otuz il müddətində roman qadağan olunmuş əsərlər siyahısına salınmış və nəşrinə icazə verilməmişdir. Səbəbi isə mövzusu ilə əxlaqi çərçivədən kənara çıxdığı üçün hamı tərəfindən normal olaraq qəbul edilməmişdir. Qadın düşmanlığı, ifrat dərəcədə seks səhnəsi vs. ilə tənqid edilmiş Xərçəng tropiki. *Dünya özünü yeyib-bitirən xərçəng kimidir”.* (Miller, 2014: 4) “Xərçəng tropiki”ni oxuyanda tez-tez düşünmə ehtiyacı duydum. Miller əsərində mürəkkəb mövzuya toxunub. Kitabın Amerikada və İngiltərədə nəşrinin qadağan edilməsi təəccüblü deyil əslində.

Bəlkə də çağdaş dövrdə yazılsaydı bu əsər, tənqiddən ziyadə alqış toplayardı. Amma yenə də olacaqdır təbii ki, sadəcə seks səhnələrini oxuyan və bunu tənqid atəşinə tutan. Təəssüf ki, buna hələ də çarə tapılmamaqdadır. Tapmaq üçün də çoxluca oxumaq gərək.

“Zamanın xərçəngi bizi yeyib-bitirir. Qəhrəmanlarımız intihar edib, ya da etməkdədir. Odur ki, əsl qəhrəman zaman deyil, zamansızlıqdır”. (Miller, 2014: 2) Bu fikir o qədər cümlə arasında məni ən çox cəlb edən oldu. İnsan oxuduğu əsərdə özünü tapanda, sənət məqsədinə çatır. Mən də bu cümlədə tapdım özümü.

Bəziləri bu kitabı tamamilə təhqir edib, çünki onun “qəh-

rəmanı” əxlaqsızdır. Ədəbsizliyin başladığı yerdə ədəbiyyat bitər sözünü çox eşitmişəm. Lakin bu çox bayağı fikirdir. İnsanların kitabı onun personajlarına ötürdükləri əxlaqi fikirlərə görə mühakimə etməsi məni həmişə çaşdırır. Niyə nəşriyyatlar hələ də bu kitabı "açıq dil və ədəbiyyatda cinsi tabuları pozduğuna" görə marketinqdə israr edirlər. Pornoqrafiyanın belə məşhur olduğu bir dövrdə bu, çox keçicidir. Ədəbiyyatın gözəl tərəfi budur, fikirlər kəskin şəkildə dəyişə bilər. Bu əsər digər dünya əsərlərini süni göstərirdi. Bu kitabın gözəlliyi başqa yerdədir. Henri Miller əsəri qələmə alan zaman din, cinsi münasibət kimi mövzularda yeni-yeni fikirlər irəli sürmüşdür. Kütlə əxlaqının ədəbsiz sayıldığına görə işlənməsi qeyri-münasib hesab etdiyi mövzulara da öz münasibətini deməkdən çəkinməmişdir.

Millerin diqqətimi çəkən maraqlı bir fikri ilə qarşılaşdım əsərdə: *“Yatdığın qadının ağıllı olduğunu bilmək gözəl şeydir, amma bir fahişənin buz kimi cəsədindən yaranan ədəbiyyat yataqda lazım olan ən son şeydir”.* (Miller, 2014: 52) Müəllif arzu və istəksiz intim münasibətin bir məna ifadə etmədiyini vurğulayır. Hətta o qadın intellektual, zəki olsa da, yataqda süst və soyuqdursa, lüzmsuzdur.

Əsərdə Henri Millerin başına gələn əhvalatlar, həyatının hər zamanında rast gəlinən fahişələrə olan xüsusi maraqları və münasibətləri əks olunmuşdur. O, əsasən sadəcə yazmaqla və fahişələrlə cinsi əlaqədə olmaqla maraqlanır. O, hər cür qadınla cinsi əlaqədə olur, əksəriyyəti adsız və demək olar ki, simasız olaraq qalır. “Paris fahişə kimidir”. Uzaqdan məftunedici, lakin əldə edəndən sonra özünü boşluqda hiss edərsən və özündən iyrənərsən. Əsərdə də vurğulandığı kimi: “ *Paris süni doğuşların beşiyidir”.* (Miller, 2014: 33)

“Xərçəng tropiki” Millerin Paris həyatından bəhs edir. Millerin Parisi tamamilə fərqlidir. Əsərdəki Paris dəbdəbəli, ba-

halı, sivilizasiyalı şəhər deyil. Bədbəxtlərin uçuruma yuvarlandıqları bir məkandır. Müəllif Parisdə keçirdiyi günləri qeyd edir, özünü ora-bura sürüklənən səfil kimi göstərir. Yazar həmin dövrləri üçün "Fəlakətlə mazaqlaşırdım sadəcə" deyirdi. Bunu da əsərdən nümunə göstərmək olar:

"Dünyada sahib olduğum hər şeyi itirməyin, küçələrdə ac və polis qorxusu ilə gəzməyin nə olduğunu bilməyimə baxmayaraq, o vaxta qədər dəhşətli bir şey gəlməmişdi başıma. O vaxta qədər bircə dost da tapa bilməmişdim özümə, vəziyyət kədərli olmaqdan daha çox təəccüblü idi, çünki dünyanın harasına getsəm, mənim üçün ən asan şey dost tapmaq olmuşdu. Amma dediyim kimi, gerçəklikdə dəhşətli bir şey gəlməmişdi başıma. İnsan dostduz yaşaya bilər, sevgisiz, hətta pulsuz da; hələ bunlar ən vacib olanlardır. İnsan Parisdə - bunu kəşf etmişdim!-yalnız kədər və iztirablarla yaşaya bilər. Acı qida kimi - bəziləri ən yaxşısı budur, bəlkə də. Nə isə, hələ ki, tükənməmişdim. Fəlakətlə mazaqlaşırdım sadəcə." (Miller, 2014: 195)

Nəticə

"Xərçəng tropiki" həddindən artıq açıq yazılmış, jarqonlardan geniş istifadə edilmiş bir əsərdir. Əslində pornoqrafiya oxuyucunun cinsəl istəklərini oyandırmaq məqsədi daşıdığı halda, "Xərçəng tropiki" isə yalnız tabuları qırmaq, həyatın gerçək üzünü göstərmək məqsədi ilə bu tip səhnələrdən geniş istifadə olunmuşdur. Həqiqətən də normal oxucu bu əsərdən ehtiraslanmaz, hətta əsərdən bir məna çıxardar. Bu tip ədəbiyyat bizim cəmiyyət üçün biraz yaddır. Bu da normal haldır. Ədəbiyyatda bizə yalnız hikmətli sözlər, ustadnamələr öyrədildiyi üçün bu düşüncədəyik.

Əsər xaotik, yəni süjetsizdir. Elə Millerin öz həyatı kimi. Əsər sıradan əsərlər kimi hadisələrin inkişaf xətti, kuliminasiya, final yoxdur. Əsərin hər hissəsi mərkəzdir. Bu da yazarın üs-

tünlüyüdür. Yaradıcılığının bir simgəsidir. Henri Miller üslubunu, həyata baxışını anlamaq üçün bu kitab çox önəmlidir.

Qaynaqlar

1. URL-1:Tropic of Cancer (novel)
2. https://en.wikipedia.org/wiki/Tropic_of_Cancer_(novel)
3. URL-2:Tropic of Cancer by Henry Miller |top 125 Books of All-Time | Review
4. https://youtu.be/J_bPqkSSjW4
5. URL-3:Ədəbiyyatın inkişafına təsir etmiş 50 kitab (3-cü hissə)
6. https://www.ceylanmumoglu.com/az/news/edebiyyatin-inkisafina-tesir-etmis-50-kitab-3-cu-hisse
7. URL-4:Henri Miller - "Xərçəng Tropiki" əsəri ilə tanışlıq və qısa məzmunu
8. https://www.kitabyurdu.org/kitab/dunya-edebiyyati/1697-henri-miller-xerceng-tropiki-eseri-ile-tanisliq-ve-qisa-mezmunu.html

EROTİC DESCRİPTİON AND INCİTEMENT IN THE NOVEL "TROPİC OF CANCER"

Aytan GURBANOVA

Abstract

"A book leads to the sensual, emotional entertainment of life." Tropical Cancer was written by Henry Miller and is an autobiographical work. The first and main popular novel that broke great storms in the history of its publication. For thirty years, the novel was not allowed to be published. The reason is that it is not accepted by everyone because it goes beyond the moral framework. Femininity, extreme sex scene, etc. criticized by Tropical Cancer.

Key words: Paris, lust, sex, cancer, prostitute.

CEYN OSTİN VƏ FEMİNİZM

Cahanxanım YAQUBOVA,
Bakı Dövlət Universiteti, doktorant,
Elmi rəhbər: prof. Cəlil Nağıyev

"Feminizm" latınca "qadın"anlamına gələn "femine" sözündən olub, qadınların hüquqları uğrunda sosial-siyasi hərəkata verilən addır. (Bayram, 2020:38)

Feminizmin ilk rüşeymləri XVIII əsrdə İngiltərədə meydana çıxmış və ilk dəfə Meri Uolstonkraftın "Qadın hüquqlarının qorunması" əsəriylə akademik səviyyədə təhlil olunmuşdur. (Urqan, 2011: 2) Feminizm qadınların siyasi, iqtisadi və sosial azadlığını, hər hansı sahə və ya fəaliyyətlərdə kişilərlə bərabərliyini, hüquqlarının qanuniləşdiriləməsini müdafiə edən nəzəriyyədir. (Austen, 2006: 3)

Bell Huks "Feminism is for Everybody Passionate Politics" adlı əsərində feminizmin cinsi istismar və zorakılığın qarşısını almaq üçün yaradılan bir hərəkat olduğunu qeyd edir. (Çiçek və Hovison, 2017:4). Corc Marşal isə feminizmi XVIII əsrdə İngiltərədə yaranan, cinslərarası bərabərliyi qadınların hüquqlarının qanuniləşdirilməsi ilə təmin etməyə çalışan siyasi cərəyan adlandırır. (Çiçek və Hovison, 2017:4)

XIX əsrin sonu, XX əsrin əvvəllərində geniş yayılmağa başlayan feminizmin birinci dalğasının əsasını Meri Uolstonkraftın "Qadın hüquqlarının qorunması" əsəri təşkil edir. Fransız inqilabından təsirlənən Uolstonkraft bu inqilabın filosof və siyasətçilərinin yazılarındakı böyük çatışmazlığın fərqində idi. Belə ki, həmin maaarifçilər müstəqillik və bərabərlik deyərkən sadəcə kişiləri nəzərdə tuturdular. (Çiçek və Hovison,2017:4) Bütün bu hüquqların kişilərə verilməsini istəyənlər, eyni zamanda qadınların "ev təhsili" ilə kifayətlənməsini və rasional təhsil almalarının lazımsız oldu-

ğunu müdafiə edirdilər. Bu cür ikili standartlarla razılaşmayan Uolstonkraft ilk feminist mətnlərdən biri kimi qəbul edilən "Qadın hüquqlarının qorunması" adlı kitabını yazdı. Kitabın əsas arqumenti isə qadınların da ən az kişilər qədər rasional təhsil almağa ehtiyacının olması idi.

Meri Uolstonkraftın yazmış olduğu bu əsər bir çox qadına təsir göstərmişdir. Onlardan biri də 200 ildən çoxdur öz məşhurluğunu itirməyən, altı romanın altısını da qadınlara həsr edən ingilis yazıçısı Ceyn Ostindir. Ceyn Ostin İngilis ədəbiyyatının ilk görkəmli qadın yazıçısı hesab olunur. Onun XIX və XX əsr ingilis ədəbiyyatının, xüsusilə roman janrının inkişafındakı rolu danılmazdır.

Ceyn Ostinin qəhrəmanları azad, öz seçimlərini müdafiə edən qadınlardır. XIX əsrdə –qadınların rasional təhsil hüququnun olmadığı bir zamanda onların hiss və düşüncələri barədə romanyazmaq feminist düşüncənin ünsürüdür.

Feminizm cərəyanı XX əsrin ikinci yarısından sonra populyarlaşmağa başlasa da, Ceyn Ostinin romanlarında feminist motivlərə, gender bərabərliyi və qadın hüquqlarını müdafiə edən detallara rast gələ bilərik. Bəzi təqdiqatçılar hər nə qədər Ceyn Ostini romantik yazıçı hesab etsələr də, əslində, o, dövrünün problemlərini bütün çılpaqlığı ilə əks etdirməyə çalışan realist bir müəllif idi.

XIX əsr qadınlara verilən dəyər və onların cəmiyyətdəki yeri baxımından olduqca mürəkkəb bir dövr idi. Belə ki, məlum dövrdə qadınlar rəsmi olaraq hər hansı bir sahədə kişilərlə bərabərhüquqlu deyildilər. Belə olan vəziyyətdə xilas yolu varlı adamlarla ailə qurmaq idi. Yəni, onların həyatı tamamilə kişilərdən asılı vəziyyətdə idi. Meri Uolstonkraft qeyd edirdi ki, ailə qurmuş qadın yalnız hansısa bir quldan üstün sayıla bilər (Bayram, 2020:54). Qadın ailə qursa belə azadlığına qovuşa bilmirdi. O, yalnız bir kişinin mülkiyyətindən digərinin mülkiyyətinə çevrilirdi. Hər hansı bir qadının atası vəfat etdikdə yeganə çıxış yolu ailə qurmaq idi.

Çünki ata vəfat etdiyi halda oğlu yoxdursa, mirası qızlarına yox, hər hansı kişi qohumuna qalırdı. Beləliklə, həmin ailədəki qadınların taleyi həmin uzaq qohumun əlində olurdu. Ceyn Ostinin "Qürur və Qərəz" romanında xanım Bennet qızı Elizabeti xəbərdar edərkən bu məsələyə belə toxunur:

"Heç vaxt ərin olmayacaq və bilmirəm ki atan öldüyü zaman sənə kim baxacaq". (Austen, 2017:77)

Meri Uolstonkraft bu vəziyyətə belə izah verirdi. "Əlbəttə bir qadın sevgi əsasında ailə qura bilər, lakin o seçim qarşısındadırsa, mütləq maddi cəhətdən kömək ola biləcək biriylə evlənməlidir. Əks halda yoxsulluqla boğuşmaq və ya həyatda qalmaq üçün işləmək məcburiyyətindədir". (Bayram, 2020:50) Nəzərə alsaq ki, XIX əsrdə qadınların işləməsi üçün elə də əlverişli və böyük imkanlar yox idi, demək, qadınlar doğrudan da ikinci yolu seçməli idilər. Meri Uolstonkraft sevgi olmadan qurulan bu cür evlilikləri tənqid edərkən Daniel Defonun "qanuni əxlaqsızlıq" ifadəsindən istifadə edirdi. (Bayram, 2020:45)

Bu baxımdan Ceyn Ostin romanları mövcud dövrü analiz etmək üçün olduqca əhəmiyyətlidir. Beləki, Ceynin qəhrəmanları sadəcə məlum vəziyyətə boyun əymiş qadınlar deyil, onların arasında öz hiss və hüquqlarını üstün tutan, bir əşya kimi alınıb satılmasına razı olmayan qadın obrazlara da rast gəlirik.

Məsələn, "Qürur və Qərəz" romanının zəngin bir adamla ailə qurub həyatını xilas etməyə istəyən qəhrəmanı Şarlot tamamilə Viktoriya dövrünün qadınıdır. (Taş, 2016:165) Lakin əsərin baş qəhrəmanı Elizabet maddiyat barədə düşünmür, o öz düşüncə və hisslərinə əsasən həyat yoldaşı seçməyə, lazım gəldikdə isə kişilərə boyun əyməməyə çalışır.

Ceyn Ostinin zamanında, yəni XVIII və XIX əsrlərdə qadınlar hələ inkişaf etməkdə olan sənayenin bir hissəsinə çevrilməmiş-

di. Buna görə də vaxtını daha çox evdə keçirən qadınlar üçün kitab oxumaq ən önəmli məşğuliyyət növü idi.

Ceyn Ostinin "Qürur və qərəz" romanının qəhrəmanı Elizabet oxumağa çox böyük əhəmiyyət verirdi. Eləcə də 12 yaşında özü üçün kitab siyahıları hazırlayan Emma Vudhaus da qadınların daha çox oxumalı olduğu mesajını ötürməyə çalışan obrazlardan idi. Ostinin yazdığı hər romanda bu mütaliə vurğusu oxumağın insan xarakterinin formalaşmasındakı əhəmiyyətinə işarədir. (Austen,1991:44)

"İnam" əsərinin qəhrəmanı iyirmi yeddiyaşlı Anna isə Ostinin ən yaşlı qadın obrazıdır. Buna görə də ona Ostinin ən intizamlı və intellektual qəhrəmanı deyə bilərik. Anna cəmiyyətdəki qadın və kişi bərabərsizliyini yenə kitablar vasitəsilə dəyərləndirərək onların çoxunun müəllifinin kişi olduğunu, bu səbəbdən də dünyanın əsasən kişilər tərəfindən idarə edildiyini önə sürür. "Qələm indiyə qədər həmişə kişilərin əlində olub" deyən Annaya bu səbəbdən kişilərin yazdığı kitablar heç nəyi sübüt edə bilməz. (Austen, 2017:88) Ostinin prototipi olan Annanı həqiqətən də təkmilləşmiş, hətta öz sərhədlərini belə aşmış qadın hesab etmək olar.

Ceyn Ostinin romanları qadınların öz hüquq və azadlıqları barədə düşünməyə başladıqları zamanlarda yazılmışdı. Ceyn Ostin hər fürsətdə qadınlarla kişilərineyni hüquqlara malik olduğunu dilə gətirirdi. Onun yaratdığı Elizabet, Fanni kimi obrazlar Viktoriya dövrünün açıqfikirli və ilk feminist qadınları idilər. O, həmçinin, əsərlərində təhsilə maraq göstərməyən, həyatın xilasını zəngin kişilərlə ailə qurmaqda görən qadınları tənqid edir, onları ironik dillə ələ salırdı. Məsələn, "Ağıl və Hissiyat" əsərində Lusi xarakteri oxuma-yazma bilmədiyi üçün oxucular tərəfindən sevilmir. Ceyn də onu cahil adlandırır. Deməli, Ostin üçün qadınların təhsil almaları və öz hüquqlarından xəbərdar olmaları olduqca əhəmiyyət kəsb edirdi.

Həmçinin, Ceyn Ostinin yaratdığı Elinor Daşvud, Elizabet Bennet və Anna Eliot obrazları cəmiyyət üçün ideal sayılacaq qadınlardır.

Beləliklə, feminizm XX əsrin ikinci yarısından sonra aktuallaşmağa başlasa da, Ceyn Ostini də feminist yazıçı adlandırmaq yalnış olmazdı.

Qaynaqlar

1. URQAN, M. (2011). "*İngilis ədəbiyyatı tarixi*". İstanbul: Yapı Kredi yayınları.
2. ÇİÇEK, Özgür və HOVISON, Ertuna. (2017). *Jane Austen və Adab-ı Muşaret*. İstanbul: Doğankitap.
3. AUSTEN, Jane. (2006). "*Gurur ve önyargı*". İstanbul: Türkiye İşbankası yayınları.
4. AUSTEN, Jane. (1991). *Persuasion*. London: Penguin Group.
5. AUSTEN,Jane. (2017). *Mansfieldpark*. İstanbul: Can yayınları.
6. TAŞ, Gün. (2020)."Feminizm üzerine genel bir değerlendirme. Kavramsalanalizi, tarihsel süreçleri ve dönüşümleri". *Akademik Hassasiyetler Dergisi*, S. 3/5, 163-175.
7. BAYRAM, Atıf Can. (2016) "The Reflections of Mary Wollstonecraft's a Vindication of the Rights of Woman on Jane Austen's Pride and Prejudıce". *İnternational Journal of Media Culture and Liteature*, S. 6/1, 39-57.

JANE AUSTEN AND FEMİNİSM

Jahankhanim YAGUBOVA

Abstract

The article is devoted to the study of the devils and peculiarities of feminism, the definition of trends in its development in English literature as an example of scientific-theoretical research on feminism and the whole work of Jane Austen. The article clarifies the essence of the concept of "feminism", reveals the basic outlines of this direction, considers the theoretical views and research on these issues.

The influence of feminism is noticeable in English literature since the nineteenth century. In this regard, the novels of the English writer Jane Austen, who is considered the first outstanding female writer of English literature. Its role in the development of English literature of the XIX and XX centuries, especially the genre of the novel, is indisputable. In the eyes of Jane Austen, the relative position of women in society has affected the work of Mary Walstoncraft, "Protection of the rights of women." Jane Austen is one of the first writers to consider the idea of social equality on the broad background of social processes of her time.

Keywords: English literature, feminism, novel, Mary Wolstonkraft.

ORHAN PAMUK VƏ "QARA KİTAB"

Cəmilə ALİYEVA
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dos. Xatirə Yusifova

"Qara kitab" romanında baş qəhrəman 33 yaşlı Qalibdir. O, evə qayıdanda arvadı Röyanın yoxa çıxdığını öyrənir. Röya türkcə yuxu deməkdir. Pamuk baş qəhrəmanın xəyalının axtarışında olduğunu göstərmək üçün bu adı seçib. Röyanın qoyub getdiyi vida məktubunda nə onun hara getdiyi, nə də evi tərk etmək qərarına gəlməsinin səbəbi göstərilmir. Qalib həyat yoldaşını axtarmağa başlayır və hekayə detektiv roman şəklini alır. O güman edir ki, o, məşhur qəzet köşə yazarı Cəlal üçün tərk edə bilərdi. Amma Cəlal da yoxa çıxmış kimi görünür. Qalib araşdırdıqca özünün paxıllıq etdiyi Cəlalın şəxsiyyətinə bənzəyir. Cəlal İstanbulda çox məşhur olsa da, tənhadır. Roman bir sirrlə bitir. Cəlal və Röyanın cəsədləri tapılır, lakin qatilin kimliyi məlum deyil. Qalibin həyat yoldaşını tapmaq vəzifəsinin arxasında daha əhəmiyyətli bir axtarış var. Bu, onun öz şəxsiyyətinin axtarışıdır. Romanlardakı üç obraz Qalib, Röya və Cəlal olduqları ilə kifayətlənmirlər. Başqası olmaq arzusundadırlar. Qalib də Cəlal kimi məşhur olmaq istəyir. Bu, Qalibin "Həyatımın ilk yarısında özüm olmamışam, çünki o, özü olmadığına görə peşman olan başqa biri olmaq istəyirdim" dedikdə bu aydın görünür. (Pamuk, 204). Qalib Cəlal kimi geyinir və Cəlalın pərəstişkarlarının telefon zənglərinə cavab verir və hekayələr yazmağa başlayır.

In the novel The Black Book the protagonist is a 33 years old Galip. When he comes back home to find out that his wife Ruya has disappeared. Ruya means dream in Turkish. Pamuk selected this name to point out that the protagonist was in search

of his dream. The goodbye letter neither left by Ruya neither says where she has gone nor states the reason why she has decided to leave home. Galip starts searching for his wife and the story takes the form of a detective novel. He surmises that she could have left him for her ex-husband, Jalal, a popular newspaper columnist.But Jalal too seems to have disappeared. As Galip investigates, finds himself aasuming the enviable Jalal's identity. Although Jalal is a very popular in Istanbul, he is a loner. The novel ends with a mystery. Jalal's and Ruya's dead bodies are found, but the identiy of the murderer remains unknown. That is the search for his own identiy. The three characters in the novels Galip, Ruya and Jalal are not satisfied with what they are. They are dreaming to become someone else. Galip wants to become popular like Jalal . This is obvious when Galip says "I had not been myself during the first half of my life because I wanted to be someone else who regretted all those years she had spent not being herself." (Pamuk, 204). Galip dresses like Jalal and answers the phone calls of Jalal's fans and stared writing stories.

Bir gün bir kitab oxudum və bütün həyatım dəyişdi.

Orhan Pamuk

Bilirsiniz, bəzən bir insanın həyatında bəzi anlar olur və o anlar unudulmaz xatirələr yaradır. Mənim üçün o anlardan həyatıma ən çox təsir göstərəni Orhan Pamuku ilk oxuduğum andır. O məqamın unudulmaz xatirələrə çevrilməsi isə “Qara kitab”ın həyatıma girməsi ilə oldu. Bu roman dünya ədəbiyyatının haqqında ən çox mübahisə edilən əsərlərindən biridir. Ədibin 1985 – 1989 – cu illərdə yazdığı “Qara kitab” özünün də qeyd etdiyi kimi, ilk türk dedektiv romanıdır.

“Qara kitab” 2 hissədən ibarətdir. Kitabı qarışıq edən ən önəmli detallardan biri kitabda hadisələrin axışına yön verən Cə-

lal Salikin köşə yazılarının sıra ilə bölümlər halında verilməsidir. Oxucu bir yandan Qalibin axtarışına, hüznünə, eşqinə ortaq olarkən digər yandan da Cəlalın yazılarıyla bəzən qurmaca, bəzən gerçək olan bir işarələr dünyasına da atmaqdadır. Cəlalın köşə yazıları Mövlanədən Hürufiliyə, Əttardan Poeye, Min bir gecə nağıllarından Hüsnü – eşqə qədər geniş bir mövzunu əhatə edir. Əslində, kitabın əsas mövzularından biri olan kimlik bölünmələrini mən – digəri problemi, yadlaşmanı, əşyaların, hərflərin dilini və bu dilin necə bir hala döndüyünə, insanın saf məninin olub – olmayacağına və həyat yoldaşı tərəfindən tərk edilən aşiq bir adamın hekayəsini də oxuyucunun beyninə kök salaraq izah edir.

"Qara kitab" da bəhs olunan illər İstanbulda böyük bir əhali artımının mövcud olduğu, baş örtüsünün yayıldığı, əsgəri rejim illəri idi. İstehsalın kiçilib, getdikcə budaqlandığı və artıq heç bir şeyin yadırğanmadığı illər idi. " Qara kitab" da Türkiyədə yaşanılan bu yadlaşma və şəxsiyyət pozğunluğuna üstü qapalı da olsa deyilən bir bölüm "Bedii ustanın övladları" dır. Bu bölüm gerçək bir prespektivdən, içimizdə qanayan bir yara olan şəxsiyyət probleminə böyük ustalıqla toxunur. Bedii usta və övladları hər millətin, bir mədəni şəxsiyyətin, əl, qol və üz hərəkətlərini sahib olduqlarını düşünürdülər. Onları mən edən bu hərəkət və mimiklər eyni zamanda onları "onlar" edən özəlliklər idi və onların daxilində idi. Bir şəxsiyyətin işarəsi və eyni zamanda xəzinəsi idi bu hərəkətlər. Bir insanın ən önəmli xəzinəsini jest, mimika və bədən dili olduğunu müdafiə edən Bedii usta ən ümumisindən ən xüsusinə qədər hərkəsin öz mimik, jest hərəkətlərinin dəyişməyə başladığını və bunun ən böyük səbəbinin isə Qərbdən gələn filmlər olduğunu vurğulayırdı.

Hadisələr Röyanın 19 kəlməlik bir ayrılıq məktubu qoyub evdən getməsi ilə başlasa da "Qara kitab" ən çox bir axtarış

romanı olaraq Röya obrazının üstündə düyünlənmiş və açılmağa çalışmış bir əsərdir. Əsərdə Röyanın Qaliblə telefon danışığından başqa bir dialoquna şahid olmuruq. Röya adı kimi, bir yuxu kimi gerçəkdə, ya da xəyalda və ya mətndə varlığını daxilən hiss etdirir. Həyat yoldaşına sevgi və ehtirasla, şübhəli, hətta bağımlı olaraq aşiq olan bir adamın sevgisinin sərhədlərini bizə düşündürəcək qədər önəm daşıyan bir obrazdır.

Xarici təsirlərə açıq bir xarakterə sahib olan Röya bir o qədər maraqlı, uşaqruhlu və sirli idi. Hər nə qədər Röyanı Qalibin cümlələriylə tanısaq da digər obrazların yanında Röya heç yoxmuş kimi görünsə də Röya obrazı xəyal və gerçək dünya arasında çox maraqlı işlənmişdir. Bu haqda olan bütün tənqidlərə Pamuk " *bəzən Röyanı yetəri qədər anlada bilməmişəm deyə düşünürəm*" – demişdir. Bəlkə də Röya əsərdə yer alsa idi bu qədər sirli və mücərrəd ola bilməzdi.

Qeyd etmək istəyirəm ki, Qalib uşaqlığından bəri Röyanı sevsə də bu hissi Röyada görmürük. Röya həm Qalibə, həm də evinə qarşı bir marağı olmadığı kimi sanki başqa bir şeyin həsrətindəydi. Qalib ilə Röyanın Röya evi tərk etmədən öncəki son telefon danışıqlarına baxsaq, Röyanın soyuq davranışlarının şahidi olarıq. Röyanın xarici təsirlərə açıq, maraqlı, rahat xarakteri, Qalibin içinə qapalı, özünü sevməyən, paranoyak xüsusiyyətləri daşıyan xarakterinə əks idi. Amma Röya ilə Qalibin arasında bu kimi dialoqlar əslində, birlikdə, ama yalnız olan iki insanın uşaqlıqlarından bəri var olan hallarıdır. Uşaqlıqlarından bəri Röya həmişə düşüncəsiz, Qalib isə həssas olmuşdur. Röya əslində Qalib üçün bir gerçək olduğu qədər bir "röya" idi. Çünki Qalib üçün Röyanın dünyasına girə bilmək. Onun "röya"larına ortaq ola bilmək, onun ən əlçatmaz xəyalı idi bəlkə də. Elə bu səbəb Röyanı daha dəhşətli bir şəkildə sevməsinə yol açmaqdadır. Qalib obrazına baxdığımızda Qalibin özündən əmin ol-

madığını əsərdə aydın görürük. Röyanın ögey qardaşı olan köşə yazarı Cəlal Salikin yazıları ilə böyüyən Qalibin Cəlal kimi olmaq istədiyini ya da Cəlalın yazılarından anlatdığı bir dünyanın parçası olmaq istədiyini söyləmək mümkündür. Qalibin kim olmaq istəyirəm sualına cavabı sadəcə Cəlal ilə sərhədlənmirdi.

"*Dedektiv romanlarının qəhrəmanlarına bənzəyən o adam olmadığını bilirdi Qalib, amma ona bənzədiyinə, "onun kimi" ola bildiyinə inanmaq, çevrəsindəki əşyaların və hekayələrin basqısını biraz olsun azaldırdı".*

Oxuduğum bu əsərdə Cəlal obrazını ancaq yazdığı köşə yazılarından və Qalibin düşüncələrindən tanıya bilirik. Çünki o da Röya kimi əsərdə heç yer almır. Onu tapmaq istəyiriksə, yazılarına baxmalıyıq. Eyni ilə Qalib onu tərk edən arvadı tapmaq üçün Cəlalın yazılarını izlədiyi və sətir aralarını oxumağa başladığı kimi. Cəlal əslində, özünü sevməyən biri kimi görünsə də özünü sevirdi. Cəlalın " Boğazın suları çəkildiyi zaman" adlı köşə yazısında Cəlalın birinə səsləndiyini görürük. Bu çağırış Röyaya aid ola bildiyi kimi Cəlalın sevgililərindən birinə də aid ola bilərdi. Fəqət Cəlalın bu yazısından sonra hər ikisi yoxa çıxmışdır.

Köşə yazılarını oxumağa davam edən Qalib özündən uzaqlaşdıqca özünün " ölümcül bir tələyə açılan təhlükəli bir ssenarinin aktyoru" kimi hiss edir. Sanki bu Cəlalın öz vəzifəsini Qalibin davam etdirməsi üçün ya da "saxta bir Cəlal" yetişdirmək üçün qurulan bir tələdir. Cəlalın " Hərflərin sirri və sirrin itirilməsi" ilə "Kəşfül esrar" adlı köşə yazılarını oxuyarkən, hər kəsin üzündə bir məna yazıldığını və öz üzündəki mənanı Cəlalın çoxdan oxuduğunu hiss edir. Bundan sonra Qalib artıq başqası olmaqdan qorxmaz çünki içində "başqa"sını kəşf etmişdir. Artıq yazan Qalibdir. Həyəcanla, dayanmadan, çətinlik

çəkmədən, düşüncələrini axışına buraxaraq yazmağa başlayır. 3 yazı yazır; “ Qəhrəmanı mənəm”, “ aynaya girdi hekayə”, “ esrarlı şəkillər”. Bu yazılarda onun Cəlaldan daha istedadlı olduğunu görürük. Bu yazılarda Qalib Röyaya olan eşqinə, onunla keçirdiyi günləri, anıları xatırlamışdır. Cəlal Salik olaraq görüşməyə gedən Qalib sonradan “bəli, mən, mənəm” deyə düşünür.

Hər şeyin bir başqa şeyə işarə etdiyi “Qara kitab” da əsərin əsas mövzusu olan şəxsiyyət və eşq müxtəlif hekayələrlə, fərqli zaman və müəlliflərlə oxucunun dünyasına girməyi bacarır.

“Şəms Təbrizini kim öldürdü” adlı bölümdə Cəlalın eyni adlı köşə yazısını görürük. Bu bölümdə Qalib Cəlalın Mövlanə Cəlaləddinin həyatında önəmli bir yeri olan Şəmsi Təbrizidən və aralarındakı əlaqədən uzun – uzun bəhs edir və Cəlalın köşə yazılarında ortaya qoyduğu öz düşüncələrindən də söz edir. Bu bölüm “Qara kitab” ın ən çox mübahisə olunan və Orhan Pamuka hücum edilən bölümdür.

Eşqin yollarda çəkdikləri, bu müridin kamilliyə çatmaq üçün dözdüyü əzabı işarələyər. Qalibin əzabı isə gördüyümüz kimi yaza bilmək, yarada bilmək uğrundadır. Alleqorik mənaları olan bu məsnəvilərdə axtarılan varlığın (Simurq, Hüsn, sevgili) Tanrıyı təmsil etdiyini bilirik, amma Qalibin Röyanı tapmaq üçün axtardığı Cəlalın nəyi təmsil etdiyi bilinmir.

Romanın dili qarışıq olsa da diqqətlə oxuduğunda anlaşıla bilir. Dolasıyla dili axıcı deyil. Bizim dilimizə tərcümədə mənası olmayan sözlər çoxdur. Tahsin Yücəl adlı tənqidçi Orhan Pamukun bu romanda dilinin yetərsizliyindən danışır. Qeyd edir ki, yazıçı istifadə etdiyi mənbələrin dilini tam mənimsəmədiyindən türkcəyə tərcümədə başqa bir məna ortaya çıxır.

Kitabın son cümləsi Qalibin fərqli şəxsiyyətlərindən birinin əvvəllər dediyi bir cümləni təkrarlayır: “ çünki həyat kimi

heç bir şey təəccüblü ola bilməz. Yazı istisna olmaqla. Yazı istisna olmaqla. Bəli, yalnız bir təsəlli yazı istisna olmaqla". Müəllifin fikrincə, yazı həyatdan daha təəccüblü, zəngin və böyükdür. Başqa sözlə desək, fərdin "xəyal" subyektiv dünyası onun uydurma formasını müəyyənləşdirir, rəvayət edir və rəvayət olunur.

Qaynaqlar

1. PAMUK, Orhan. (2013) "Qara kitab", Bakı: Qanun Nəşriyyatı
2. URL – 1. Pamuk Orhan (2013) "Qara kitab"
3. https://www.themodernnovel.org/asia/other-asia/turkey/pamuk/book/

ORKHAN PAMUK AND "BLACK BOOK"

Jamila ALİYEVA

Abstract

In the novel The Black Book the protagonist is a 33 years old Galip. When he comes back home to find out that his wife Ruya has disappeared. Ruya means dream in Turkish. Pamuk selected this name to point out that the protagonist was in search of his dream. The goodbye letter neither left by Ruya neither says where she has gone nor states the reason why she has decided to leave home. Galip starts searching for his wife and the story takes the form of a detective novel. He surmises that she could have left him for her ex-husband, Jalal, a popular newspaper columnist.But Jalal too seems to have disappeared. As Galip investigates, finds himself aasuming the enviable Jalal's identity. Although Jalal is a very popular in Istanbul, he is a loner. The novel ends with a mystery. Jalal's and Ruya's dead bodies are found, but the identiy of the murderer remains unknown. That is the search for his own identiy. The three characters in the novels Galip, Ruya and Jalal are not satisfied with what they are. They are dreaming to become someone else. Galip wants to become popular like Jalal . Galip dresses

like Jalal and answers the phone calls of Jalal's fans and stared writing stories.

Key words: East-West, Black book, dream, modernism

PANDEMİYA ŞƏRAİTİNDƏ TİBB İŞÇİLƏRİNDƏ PSİXİ DAYANIQLIQ İLƏ PSİXOLOJİ STRESS SƏVİYYƏSİ ARASINDAKI ƏLAQƏNİN PSİXOLOJİ TƏHLİLİ

Cəmilə MƏHƏRRƏMOVA,
Xəzər Universiteti, magistrant,
Elmi rəhbər: Ceyhun Alıyev

Dünyanı əhatə edən COVID-19 pandemiyası cəmiyyətin bütün sahələrinə təsir göstərmişdir. Bu xəstəliyə qarşı mübarizədə ön sırada çalışan mütəxəssislər tibb işçiləridir.

Pandemiya ilə mübarizədə tibb işçilərinin özləri depres-siya, narahatlıq, yuxu problemləri və stresslə daha çox üzləşir və bu cür emosional təsirlərə məruz qalırdılar. Psixi dayanıqlılıq səviyyəsindən asılı olaraq onların bəziləri çox, bəziləri isə az təsirə məruz qalırdılar. Bu prosesə təsir göstərən faktorlardan iş təcrübəsi, motivləşmə, yaş, cins, iş qrafiki, iş şəraiti, rəhbərlik üslubu, maddi təminat, şaquli və üfüqi münasibətlər, ailə vəziyyətini qeyd edə bilərik.

Psixi problemlərin yaşanması təkcə insanın rifahının pisləşməsinə deyil, həm də işdən məmnunluğun azalmasına, işdən çıxmaq niyyətinin artmasına, ağır iş yükünün və tükənmişlik hissinin artmasına səbəb olur. SARS və Ebola epidemiyalarından sonra aparılan araşdırmalar göstərir ki, psixi problemlər insanlarda uzunmüddətli təsirlərə və post-travmatik stressə səbəb ola bilər.

Tədqiqatlar göstərir ki, COVID-19-a yoluxmuş xəstələrlə xidmət göstərmə riskli şərait kimi tibb işçilərində əhəmiyyətli psixososial stress yarada və onların rifah halına ciddi şəkildə mənfi təsir göstərə bilər. Aparılan araşdırmalar göstərir ki, tibb işçilərinin depressiya və narahatlıq halını yaşaması orta hesabla

ümumi əhalidən əhəmiyyətli dərəcədə yüksəkdir. Digər bir tədqiqata görə isə başqa peşə qrupları ilə müqayisə edildikdə yuxu keyfiyyətindən və yuxu pozuntusundan ən pis təsirlənən insan grupunun tibb işçiləri olduğu sübuta yetirilmişdir. Aparılan tədqiqatlarda pandemiyadan təsirlənmə qüvvəsinin də tibb işçiləri arasında yüksək olduğu müəyyən edilmişdir. (Bao vs.,2019: 26).

Bizim də apardığımız araşdırmanın predmeti pandemiya şəraitində tibb işçilərində psixi dayanıqlıq ilə psixoloji stress səviyyəsi arasındakı əlaqənin psixoloji təhlilini aparmaqdan ibarətdir. İlk növbədə, problemlə bağlı istər yerli, istərsə də yaxın və uzaq xarici ölkə tədqiqatçılarının tədqiqat işləri nəzərdən keçirildi və nəticələr ümüumiləşdirildi. Tədqiqatla bağlı psixoloji ədəbiyyatlar üzərindən açar anlayışlar kimi psixi dayanıqlılq və psixoloji stess anlayışlarının psixoloji mahiyyəti açıqlanmışdır. Müəyyən edilmişdir ki, psixi dayanıqlılıq şəxsiyyətin çətin vəziyyətlərdə gərgin və stressli təsirlərə qarşı müqavimətin təmin edən xüsusiyyətidir. Psixologiyada psixi dayanıqlılıq dedikdə, çətin situasiyalarda özünün psixoloji və fiziki fəaliyyət səviyyəsini sabit saxlayaraq mənfi dəyişikliklərə fəal şəkildə uyğunlaşaraq heç bir davamlı pozulmalar olmadan belə situasiyalardan çıxmaq qabiliyyəti nəzərdə tutulur. Apardığımız sorğular əsasında müəyyən etdik ki, psixi dayanıqlılıq səviyyəsi yüksək olan tibb işçiləri, dayanıqlılıq səviyyəsi zəif olanlardan daha az stress keçirir və hətta stressə məruz qaldıqları halda belə onlarda stress vəziyyətindən əvvəlki adi vəziyyətə geri qayıtmaq qabiliyyəti daha yüksəkdir. Tibb işçiləri arasında psixi dayanıqlılıq səviyyəsini inkişaf etdirmək üçün Amerika Psixoloji Assosiasiyasının təklif etdiyi yol və vasitələrdən maarifləndirici materail kimi istifadə olunmuşdur.

Əslində, tibb işçiləri üçün pandemiyadan sonra tükənmişlik, psixoloji stress və travma sonrası stress pozğunluğu kimi mənfi psixoloji təsirlərin yaşanması gözlənilən bir hadisədir. Buna misal, 2003-cü ildə SARS, 2013-2016-cı illərdə Ebola epidemiyalarından sonra aparılan tədqiqatlarda da müşahidə olunub. SARS epidemiyasından təsirlənənlər üzərində aparılan araşdırmada epidemiyada iştirak edən tibb işçilərinin çoxunda somatik problemlərlə yanaşı narahatlıq, depressiya və şəxsiyyətlərarası münasibət çətinliklərinin olduğu müəyyən edilmişdir. (Nemati vs.,2020:72).

Tədqiqatlar ümumilikdə səhiyyə işçilərinin psixi sağlamlığının və rifahının COVID-19 pandemiyasından mənfi təsirləndiyini göstərsə də, bu məruz qalma səviyyələri fərdlərə və ölkələrə görə də fərqli olduğu görsənir. Bildirilir ki, pandemiya dövründə ölkələrin tibb sistemlərindəki fərqlər, fərdi qoruyucu vasitələrin (FPE) mövcudluğu, əmək və məşğulluq şəraiti, karantin siyasəti, distant fəaliyyət kimi bir çox amillər insanların psixoloji vəziyyətlərinə təsir göstərmişdir. (Rubin vs., 2015:22).

Qaynaqlar

1. BAO vs. (2019). “CoV epidemic: address mental health care to empower society”,*China Publication*,S.109,s.55-56.
2. NEMATI vs. (2020). “Assessment of Iranian nurses’ knowledge and anxiety toward COVID-19 during the current outbreak in World”. *Archives of Clinical Infectious Diseases (COVID-19)*,WHO Press 19, p 26.
3. PAPPA vs. (2020). “Prevalence of depression, anxiety, and insomnia among healthcare workers during the COVID-19 pandemic: A systematic review and meta-analysis. Brain, Behavior, and Immunity”, *Psychology*, S.5,s.23-24.

4. RUBIN vs. (2015). “How to support staff deploying on overseas humanitarian work: a qualitative analysis of responder views about the 2014/15 West African Ebola outbreak”. *European Journal of Psych traumatology.*

PSYCHOLOGICAL ANALYSIS OF THE RELATIONSHIP BETWEEN MENTAL STABILITY AND PSYCHOLOGICAL STRESS LEVEL IN MEDICAL WORKERS DURING A PANDEMIC

Jamila MAHARRAMOVA

Abstract

All societies around the world have been affected by the COVID-19 epidemic, which has affected the whole world. Healthcare workers being the foremost fighters in the fight against the disease.

As a result, the level of exposure may be different from other segments of the society. Depression, anxiety, sleeping problems, anxiety and stress are the most common mental problems experienced by healthcare professionals, and the level of being affected by these problems; It is affected by demographic variables such as age, gender, working time, marital status, or by different variables such as the unit worked, the support provided by the hospital management (psychology, education, equipment, etc.), the diagnosis / suspicion of COVID-19 in one of the family members, the presence of previous disease. .

Experiencing mental problems not only leads to deterioration of the person's well-being, but also to a decrease in the job satisfaction of the employees, an increase in the intention to leave, an increase in the heavy workload and the feeling of burnout, a decrease in the quality of care provided to the patients,

an increase in the risk of making mistakes and an increase in patient mortality rates. Studies after the SARS and Ebola outbreaks show that mental problems can cause long-term effects and post-traumatic stress in people.

In order to reduce the mental problems of health workers, it is important to provide necessary support such as the arrangement of shift hours and work plan, the supply of equipment by the managers, and the follow-up of the employees who have severe mental problems to provide psychological support. In addition, it is recommended that employees be strengthened with continuous training for possible future outbreaks.

Key words: Pandemic, Covid-19, Mental resilience, Stress, SARS, Anxiety, Depression.

DİSTANT TƏHSİL: MÜSBƏT VƏ MƏNFİ TƏRƏFLƏRİ

Ceyran QASIMOVA,
Xəzər Universitəsi, bakalavr,
Elmi rəhbər: Elmira Məmmədova-Kekeç

Bu məqalə texnologiyanın təhsilə yansıtdığı müsbət və mənfi tərəfləri barədə fikirləri özündə ehtiva edir. Tədris müəssisələrində texnologiyadan düzgün istifadə etmək və onu təhsilə uyğunlaşdırmaq çox vacib bir məsələdir. Məqalədə təhsildə ilk dəfə istifadə edilən öyrətmə üsullarından texnologiyaya qədər uzanan yola qısa bir şəkildə nəzər salacağıq. Həmçinin, pandemiyanın təhsildə buraxdığı izlər və texnoloji cəhətdən özünü doğruldub-doğrultmaması məsələsi müzakirə edilmişdir. Ümumilikdə, onlayn vasitələrin təhsildəki yeri mənfi və müsbət yanları ilə həm müəllim, həm də təhsil alanın baxış bucağı əsasında şərh edilmişdir.

Texnologiyanı həyatımızı asanlaşdıran bir məhsul və ya proqram olaraq düşünə bilərik. Bugünkü həyatımızda insanların məhsuldarlığını artıran və işini rahatlaşdıran ən başlıca alətin texnologiyadan ibarət olduğunun əyani olaraq şahidiyik. Bu cəhətdən yanaşsaq, texnologiya 21-ci əsrdə həyatımızın ayrılmaz bir parçasına çevrilib və bu təsir özünü hər bir sahədə göstərməkdədir. Bu inkişaf çox sürətli bir şəkildə gedərək 21-ci əsri digər dövrlərdən ayırır, hansı ki, texnologiyada davamlı olaraq baş verən ciddi dəyişimlərlə dövrümüzü çox rahatlıqla **"rəqəmsal dünya"** adlandıra bilərik. Əlbəttə ki, texnologiya əsri təhsilə də təsirsiz ötüşmədi.

Texnologiyada gedən sürətli dəyişimlərlə ayaqlaşmaq üçün təhsil ilk mərhələsini yazı taxtası, lövhə ilə başlayıb bu gün kompüter, planşet və ağıllı lövhə səviyyəsinədək sürdürə bildi.

Bu məqalənin irəliləyən hissələrində də məhz bu təsir və onun mənfi və müsbət cəhətlərini müzakirə edəcəyik.

COVID-19 pandemiyası bizə nə öyrətdi?

Texnologiya ilə iç-içə olduğumuzu daha yaxşı anladığımız dövr məhz 2019-da Çində yayılan və dünyanı 3 ilə yaxın müddət ərzində kəskin şəkildə öz ağuşuna alan koronavirus pandemiyası zamanı sayıla bilər. Bu müddət ərzində dünyada çoxdan işlək vəziyyətdə olan **"distant təhsil"** anlayışı bəzi ölkələrdə yeni olaraq meydana çıxmağa başladı. Bu ölkələrdən biri də Azərbaycan idi. Həmin vaxta qədər təhsil sektoru distant təhsili təcrübədən keçirməmişdi. Pandemiya bizə təkcə ağır xəstəliklərlə mücadilə aparmağı deyil, həm də təhsildə texnologiyadan istifadəni, uzaqdan öyrətmə və öyrənmə mühitini tənzimləməyi aşılamış oldu. Məhz bu təcrübə sayəsində Azərbaycan, eləcə də dünya təhsil sistemi texnologiyanın təhsilə təsirinin müsbət və mənfi yönlərini real nəticələrə əsaslanaraq müəyyən etmiş oldu, hansı ki, bu bir sıra yeni araşdırma mətnlərinin ərsəyə gəlməsinə şəait yaratdı. Hesablamalara görə, dünyada 1,8 trilyon saat distant təhsildən məhrum qalan şagird var və hibrid təhsil çərçivəsində bu müddət günbəgün artaraq davam edir. Digər bir statistikaya görə isə, dünya üzrə məktəblilərin üçdə biri, başqa sözlə, 463 milyonu uzaqdan təhsildən yararlana bilməyib. Bəs bütün bunların mənbəyində nə daya-nır? Texnologiyanın mənfi yönləri...

Texnologiya və təhsil



Texnologiyanın təhsil sisteminə təsirinin tarixi keçmişinə baxsaq, bəzi təməl alətlərin varlığından da söz etməliyik. Bunlardan ən önəmlisi mətbəədir. 1440-cı ildə İohann Qutenberq Mayns şəhərində kitab çapının əsasını qoymuşdur. Bu kəşf texnologiyanın təhsilə yansımasının ilk məhsuludur. Ümumilikdə isə, təbii yollarla ibtidai çap ixtiraları, yazı mədəniyyəti, qədim əlifba kimi təhsil əlamətləri Şərqdən başlayır [URL-1].

Texnoloji yeniliklərin sürətlə artması və iqtisadiyyatda önəmli bir yerə sahib olması təhsildə onun istifadəsini çətinləşdirir. Texnologiyaya sadəcə bir "məhsul" olaraq yanaşmaq təhsildə müsbət nəticələr verməz, əsas olan müəllim, şagird və ailə üçbucağının texnologiyanı öz məqsədləri üçün düzgün istifadə edə bilməsidir.

Texnologiyanı icad edən ABŞ-da 15 min müəllimin cavablarına əsasən onların texnologiyadan istifadə etmə ortalamasına dair araşdırma aparılmışdır, nəticələrdən bəzilərinə görə:

1. Müəllimlərin 97 %-i işlə əlaqəli ev və ya məktəbdə kompüter istifadə edir.
2. Müəllimlərin 53 %-i tətbiqləri sinif mühitində, 61 %-i isə internet üzərindən öyrənmə zamanı istifadə edir.
3. Texnologiyadan istifadə zamanı təhsil alanlar özlərini daha rahat hiss edir.

Nəticədə, texnologiyaya edilən yatırımın insana da lazım olduğu və təhsil sistemində texnologiyanın hələ yolun başında olduğu görünür.

Öyrənmə anlayışı

Texnologiyanın təhsildə buraxdığı müsbət və mənfi izləri müzakirə etmədən öncə, öyrənmə anlayışının mahiyyətini vurğulamaqda fayda var. Öyrənmə geniş bir məhfum olub müxtəlif tərifləri var, bu isə, onun müxtəlif aspektlərdən araşdırılma səbəbinə dayanır. Buna görə də, tədqiqat nəticələrindən asılı olaraq, öyrənməni bilik, zaman, bacarıq, qavrama, özəllik və s. kimi konkret sözlərlə adlandıra bilərik. Bir çox təhsil psixologiyasına aid kitablarda öyrənmə: davranış, düşüncə və bilik kimi bacarıqlarda təcrübələrə əsaslanan qalıcı bir dəyişiklik olaraq tərif edilir, lakin öyrənməni qısa bir təriflə şərh edə bilmərik ki, bu, özlüyündə fərqli bir mövzudur (Nagel və Scholes, 2016: 11).

Texnologiyanın təhsilə müsbət və mənfi təsirləri nələrdir?

Distant öyrənmə tətbiqləri, onlayn təhsil, cihazlar və internet resursların təhsil alanlara müsbət təsirləri kifayət qədərdir.

Müsbət tərəfləri

- Texnologiya sayəsində, dinlənilən mühaziraəni bir dəfə yox, dəfələrlə dinləmə şansı olan şagird və tələbələr bu mövzuda kifayət qədər yararlana bilir. Ənənəvi təhsildə müəllim tərəfindən söylənilən anlatım şəklini yalnız bir dəfə dinləmək şansın olurdusa, texnologiyanın təklif etdiyi həll yolları bu şansı limitsiz saya çatdırıb.
- Bulud texnologiyası ilə şagird istənilən məlumatı cihazında saxlaya bilər və bu məlumatı əlçatan səviyyəyə çatdırır. Bulud texnologiyasını sadə dillə izah etsək, sahib olduğumuz datanın yaddaş kartına ehtiyac olmadan internet vasitəsilə alternativ tətbiqlərə yüklənməsini həyat keçirir (“Google Drive”, “iCloud”, “Dropbox” və s.) [URL-2].
- Daha az maliyyə sərf edərək öyrənmək də texnologiyanın müsbət tərəflərini ifadə edir. Tədris material-

ları, kitabxana ləvazimatlarını elektron kitab və alətlər əvəzləyir. Beləliklə, təhsil alan büdcəsinə qənaət etmiş olur.

• Elektron təhsil həmişə fərddən-fərdə olaraq dəyişən fərqlilikləri nəzərə alır. Bəzi tələbələr, məsələn, kursun onlara daha vacib olduğunu düşündüyü müəyyən hissələrinə diqqət yetirməyi üstün tuturlar, digərləri isə bütün kursu nəzərdən keçirməyə maraqlıdırlar.

• Elektron təhsil müəllimlər və ya laborantlar da daxil olmaqla, akademik heyətin çatışmazlığını kompensasiya etməyə kömək edir (Arkorful və Abaidoo, 2015: 34).

Mənfi tərəfləri

• Tədris edilən mövzunun izah və şərhlərinə gəldikdə, onlayn təhsil metodu ənənəvi öyrənmə metodlarından daha az effektiv ola bilər. Təlim prosesi müəllimlərlə üz-üzə olduqda daha asandır.

• Şagirdin yazı alışqanlığı, diksiyası zəifləyə və tənbəlləşə bilər.

• Psixologiyada aparılan araşdırmalara əsasən, öyrənmə prosesi zamanı şagird toxunduqda və hiss etdikdə o, tədris edilən mövzunu bu duyğu üzvlərindən istifadə etməyən fərddən daha tez qavrayır və material yaddaşına həkk olunur. Buna görə də, müəllim tapşırıqlar tərtib edərkən bunun təhsil alanın duyğu orqanlarına xitab etməsinə fikir verməlidir ki, effektiv öyrənmə mühiti yarada bilsin (Manghirmalani vd., 2021: 68).

• Öyrənənin ünsiyyət bacarıqlarının təkmilləşdirilməsinə gəldikdə, elektron təhsil buna mənfi təsir göstərə bilər. Şagirdlər mükəmməl akademik biliyə malik olsalar

da, əldə etdikləri bilikləri başqalarına çatdırmaq üçün lazımı bacarıqlara malik olmaya bilərlər.

- Bütün fənləri texnoloji üsullarla tədris etmək və öyrənmək olmur. Məsələn, praktiki təcrübə tələb edən elmi sahələri onlayn olaraq öyrənmək daha çətin ola bilər. Tədqiqatçılar onlayn təhsilin sosial və humanitar elmlərə praktiki bacarıqlar tələb edən tibb elmi və mühəndislik kimi sahələrdən daha uyğun olduğunu iddia edirlər (Arkorful və Abaidoo, 2015: 36).

Nəticə

Texnologiyanın təhsildə istifadəsi tədris və öyrənmə üçün rəqəmsal alətlərdən istifadəni nəzərdə tutur. Bu isə tələbələrin istənilən vaxt və hər yerdə təhsil almasını təmin etmək üçün əlverişli üsuldur. Texnologiyanın nəticəsi olaraq, şagirdlər (tələbələr) fikir mübadiləsi etməyə və fərqli fikirlərə hörmət etməyə sövq edilmiş olurlar. Bu, ünsiyyəti və öyrənməni təmin edən prosesin məqsədə çatmasını asanlaşdırır. Yuxarıda müzakirə edilən bəzi çətinliklərə baxmayaraq, məqalə, həm də elektron təhsilin rolunu və texnologiyanın tədris və öyrənmədə necə güclü faktor olduğunu izah etməyə çalışmışdır. Elektron təhsilin üstünlüklərini və çatışmazlıqlarını izah edən bu məqalə onun gələcək üçün tətbiqi və yaratdığı üstünlüklərdən istifadə etmək üçün professor-müəllim heyəti, idarəçilər və tələbələri bu üsuldan daha çox istifadəyə və onun faydalı cəhətlərini kəşf etməyə çağırır.

Qaynaqlar

1. ARKORFUL, Valentina, Abaidoo, Ghana. (2015). “The role of e-learning, advantages, and disadvantages of its adoption in higher education”, *International Journal of*

Instructional Technology and Distance Learning, S.12, s. 29-42.
2. NAGEL, Michael, Scholes, Laura. (2016). "Understanding development and learning: Implications for teaching" , *Oxford University Press*, s.11
3. MANGHIRMALANI, Mishra vd. (2021). "*Education-II, Educational Psychology", Mumbai University Press, s.68*

İnternet resursları

4. URL-1. BRANDON Shutt. (2014). "This week in tech history: The Gutenberg bible and printing press" http://vrworld.com/2014/08/17/week-history-gutenbergs-bible/
5. URL-2. "What is cloud technology and how does it work?" (2019).https://www.iventuresolutions.com/blog/what-is-cloud-technology-how-does-it-work/

DISTANCE EDUCATION: ADVANTAGES AND DISADVANTAGES

Jeyran GASIMOVA

Abstarct

The study examines the advantages and disadvantages of technology in education. It is very important to use technology properly and adapt it to education in educational institutions. The article briefly explains the path from the first teaching methods used in education to technology. The consequences of the pandemic in education and whether it is technologically justified were also discussed. In general, the role of online tools in education, with their pros and cons, has been explained from the perspective of both the teacher and the learner.

Key words: distant learning, technology, pandemic, teaching

ÖZBEK ŞAİRİ ABDULHAMİD SÜLEYMAN ÇOLPAN'IN BAZI ŞİİRLERİ ÜZERİNE

Dilan KELEŞ,
Erciyes Unversiteti, bakalavr,
Elmi rəhbər: dos.Aida Babutçu

Abdülhamid Süleymanoğlu Çolpan, milliyetçi ve yenilikçi bir Özbek şairidir. 1897-1938 yılları arasında yaşayan Çolpan, Edip, Endicanlık, Kalender, Mirzakalender gibi birçok mahlas kullanmıştır ancak Özbek Türklerinin edebiyatında Çolpan mahlasıyla tanınmıştır. İlköğrenimini Endican ve Taşkent'teki çeşitli medrese ve okullarda tamamlamıştır. Henüz genç denilebilecek yaşlarda Arapça, Farsça ardından Rus-Tuzem adlı bir Rus okulunda Rusça öğrenmiş, Doğu ve Batı edebiyatlarındaki klasik isimlerin önemli eserlerini okumuştur. Öte yandan Türkiye Türkçesi de öğrenmiştir ve Türkiye'nin yetiştirdiği Tevfik Fikret, Namık Kemal gibi büyük yazar ve şairlerinin eserlerini de okumuştur. Çolpan, bir yandan okuyup dünyadaki edebiyatları öğrenmiş, bir yandan da yazmaya sürekli olarak devam etmiştir. Yaşamı boyunca daima edebiyata ve sanata değer veren, okuyan, üreten bir sanat adamı olmaya gayret etmiştir. Sanat hayatını; yeniliklere açık, Özbek edebiyatını her anlamda geliştirmeye yönelik bir anlayışla sürdürmüştür. Kaleme aldıklarıyla, benimsediği ceditçi ve milliyetçi anlayışıyla 1920 sonrası Özbek Türklerinin edebiyatına yön vermiştir. Henüz genç yaşta Doğu ve Batı edebiyatlarına hakim olmasının sonucunda yetkin eserler kaleme almıştır. Özellikle 1920-1927 yılları arasında yazdıklarıyla sanat hayatının zirve noktasına ulaşmıştır. Bu yıllarda fazlaca eser ortaya koymuştur, eserleri pek çok yayın organında, antolojilerde, dergilerde yayımlanmıştır.

Kısa sürede sanat anlayışıyla etrafına Özbek sanatçıları toplayabilmiştir. Sadece Özbek sanatçıları da değil Türkistanlı diğer pek çok Türk halklarından sanatçılar da Çolpan'ı desteklemiştir. Çolpan, kaleme aldığı lirik ve sembolik tarzda yazdığı şiirleriyle ve şiir hakkındaki fikirleriyle Aybeg, Elbeg, Batu gibi genç şairlerin ilgisini çekmiştir. Hatta ölümünden çok sonraki zamanlarda bile pek çok sanatkâr Çolpan'ın şiir anlayışıyla eserler kaleme almıştır. Bu anlamda Çolpan'ın büyük bir şair ve sanat adamı olduğu açıkça görülmektedir. Çolpan'ın şiirlerinde kullandığı semboller, şairin fikir dünyasını ve yaşadığı dönemin tarihî gerçekliklerini yansıtmada, aydınlatmada çok önemli görevler üstlenmektedirler. Şiirlerine dikkatlice baktığımızda göze çarpan kuş, bülbül, kelebek, bahar, yaz, gül, çiçek, bağ, bahçe, güneş, yıldız, aydınlık gibi semboller; Türklerin esaretten kurtulup özgürlüğe kavuşmasının, bağımsızlığın, mutluluğun, Türkistan Türk halklarının umutla beklediği aydınlık günlerin, Özbek halkının refaha kavuşmasının sembolleridir. Şiirlerinde görülen sonbahar, dökülen yapraklar, kış, kar, fırtına; tutsaklığın, siyasi yenilginin ve mutsuzluğun sembolleridir. Karga, kar, kara bulut, karanlık, gece, Garp (Batı), Sarılar ise Rusları, Sovyet rejimini ve rejim yanlılarını yansıtır. Çolpan, geçiş dönemi şairi olduğu için hem hece hem aruz ölçüsüyle şiirler kaleme almıştır. Hem eski edebiyat geleneğinin birikimlerini hem de yeni edebiyatın teknik, tasvir unsurlarını kaleme aldığı eserlerde görebilmek mümkündür. Bu durum Çolpan'a geniş bir ifade imkanı sunmuştur. Bunun sonucunda oluşan ifadelerindeki çeşitlilik ve şairin özgün üslubu onun, kendi dönemindeki diğer sanatçılardan birkaç adım önde olmasını sağlamıştır. Sonuç olarak eserleri geniş bir kitle tarafından okunmuş, edebî faaliyetleri ilgiyle takip edilmiştir. Şiirlerinin yanı sıra çeşitli piyesler ve hikâyeler de kaleme almış, başta Sha-

kespeare ve Maksim Gorki sayılmak üzere Batılı yazarların önemli eserlerinden başarılı tercümeler yapmıştır. Ne yazık ki böyle yenilikçi, üretken, bilgili, çalışkan ve milliyetçi bir sanatkâr Sovyet rejimi ve rejim yanlıları tarafından ciddi bir tehdit unsuru olarak görülmüştür. Bunun sonucunda Çolpan, çeşitli yollarla susturulmaya çalışılmış, hakkında ağır suçlamalar içeren yazılar kaleme alınmıştır. Bu yazılarda Çolpan, vatan haini, rejim karşıtı düşman olarak nitelendirilmiştir. Yazılar nedeniyle Çolpan'a karşı kin besleyen büyük bir kitle oluşmuştur. Bu gözünü kan bürümüş kitle, Çolpan'ın yaşamasını, yazı yazmasını, eser ortaya koymasını istememiştir. Ellerine geçen her fırsatta Çolpan'a iftiralar atıp adını karalamaya çalışmışlardır. 1930'lardan itibaren şair, nedenli nedensiz Sovyet askerleri tarafından defalarca sorguya çekilmiştir, defalarca gözaltına alınmıştır. Özellikle 1935'li yıllardan itibaren çok ağır suçlamalara ve baskılara maruz bırakılmıştır. Çolpan bu dönemde milli benliğin canlanmasını sağlayacak, halkı aydınlatacak yahut ayaklandıracak eserler kaleme almaması hususunda ağır tehditlerle karşılaşmıştır ancak tüm bu baskılara ve kısıtlamalara rağmen Abdülhamit Süleyman Çolpan, her bulduğu fırsatta sembolist bir sanat anlayışıyla halkı aydınlatacak, halka Türk milliyetçiliğini aşılayacak eserler kaleme almıştır, yazmayı ve okumayı mümkün olduğunca bırakmamıştır fakat bu baskılar nedeniyle yayın faaliyetleri ciddi şekilde kısıtlanmıştır. Yayın kuruluşları kendilerini ateşe atmamak için Çolpan'ın eserlerini yayımlamak istememişlerdir. Bunca baskı ve dayatmalarla geçen onca zamandan sonra Çolpan, 13 Haziran 1937'de son kez tutuklanmış ve çeşitli işkencelere maruz bırakılmıştır. Bu dönemde yazması ve eserlerini yayımlaması imkansız hale gelmiştir. Şair bu süreçte çok sıkı bir denetim altında tutulmuştur. Ailesi dahil hiç kimseyle konuşmasına müsaade edilmemiştir. En ufak bir olayda

bile derhal şiddete başvurulmuştur. Bu işkenceler bir yıl boyunca durmaksızın devam etmiştir. Aradan bir yıl geçtikten sonra Özbek edebiyatının büyük şairi Çolpan, 4 Ekim 1938'de kurşuna dizilmek suretiyle infaz edilmiştir. Bu makalede Özbek edebiyatının önde gelen isimlerinden olan Çolpan'ın hayatı ve eserleri hakkında bilgi verdikten sonra birkaç şiirini inceleyeceğiz.

1. Abdülhamit Süleyman Çolpan'ın Hayatı ve Edebi Faaliyeti Üzerine Kısa Bakış:

Abdülhamit Süleyman Çolpan, 1897 yılında Endican'da doğmuştur. Babası Molla Muhammed Yunusoğlu edebiyat ve sanatla ilgilenen bilgili biraydın olmuş, döneminin kendisi gibi aydın kesimden kimseleri evinde sıklıkla misafir etmiştir. Özbek edebiyatının büyük edibi Çolpan, işte böyle bir aile ortamında dünyaya gelmiş, yetişmiştir. Bu nedenledir ki,çocukluğundan itibaren edebiyata, sanata, kültüre meyletmiştir. Çolpan, ilköğrenimini Endican ve Taşkent'teki okullarda tamamlamıştır. Arapça ve Farsça'yı mükemmel düzeyde öğrenmiş, bu vesile ile Doğu'nun önemli üstatlarını tanıyabilmiş, Fuzuli, Ali Şir Nevai, Mevlana Celâleddin Rumi, Ömer Hayyam, Firdevsî gibi isimlerin eserlerini kendi dillerinden mütalaa etmştir. Öte yandan Osmanlıcayı da bildiği için Türkiye'de yetişen Tevfik Fikret, Namık Kemal, Mehmet Âkif gibi yenilikçi yazar ve şairlerin eserlerini okuma fırsatı bulmuştur. Doğu edebiyatına yeterince hâkim olduktan sonra Rus-Tuzem adında bir Rus okuluna (Çarlık Rusyası'nın bölgedeki Ruslaştırma siyasetinin eğitimdeki temel yapıtı – *D.K.*)gidip Rusça da öğrenmiştir. Rusça, Çolpan için Batı'nın klasik eserlerine, kültür ve sanatına giden bir yol olmuştur.Çolpan, yabancı dillere yeterince hâkim olmasının sonucunda Shakespeare, Puşkin, Dubrovskiy, Maksim Gorki ve Tagor'un eserlerinden tercümeler yapmıştır.Sonraki

süreçte Çolpan, İsmail Gaspıralı'nın ceditçi fikirlerini benimsemiş, Ubeydullah Salih, Münevver Kaarî, Mahmud Hoca Behbudi, Abdullah Avlanî gibi Türkistanlı aydınların fikirlerindenetkilenmiştir. Sanat hayatını ceditçi ve milliyetçi bir anlayışla sürdürmüştür. İlk şiirleri, "Özbek Yaş Şairleri" adlı bir antolojide yayınlanmıştır. "Çağatay Gürüngü", "Türkroste", "İştirakkiyyun", "Kızıl Bayrak", "Türkistan"gibi yayın organlarında şiirleri, "Sada-yı Fergana", "Sada-yı Türkistan"adlı yayın organlarında ise ilk yazıları yayınlanmaya devam etmiştir. Özellikle 1917-1927 yılları Çolpan'ın çok üretken olduğu yıllardır. Özbek milliyetçiliği ve kültürü açısından önemli bulduğumuz birçok yazısı bu dönemde yayınlanmıştır. İlk şiir kitabı "Uyganış" (1922), ikinci şiir kitabı "Bulaklar" (Pınarlar), yazdığı birçok piyes yine bu dönemin mahsulleridir. Çolpan başlarda rejimi öven şiirler yazsa da, şahit olduğu katliamlardan sonra mücadeleci bir ruhla geri kalmışlığı,zulmü, esareti, halkına yapılan haksızlıkları dile getiren lirik ve sembolik şiirler kaleme almıştır.Lirik şiir türü Özbek edebiyatında Çolpan ile yaygınlaşmıştır.Çolpan, şiirlerin propaganda aracı olmasını reddeden bir sanat anlayışını benimsediği için eserlerinde ideolojik yönden ziyade edebî ve estetik yön ağır basmaktadır.Şair;hikâye ve özellikle şiirlerindeki görüşleriyle arkasından gelen kuşağın ilgisini çekmeyi başarmıştır.Aybek (1905-1968), Elbek (1893-1939)gibi gençşairler Çolpan'ın fikirlerini benimsemiş ve kendi sanat hayatlarına uygulamışlardır.Sonraki süreçte Özbek edebiyatınınzeki, çalışkan ve üretken sanat adamı Çolpan ve yazdıkları Sovyet rejimi tarafından tehlike olarak görüldüğü içinşair, "Halka sembolizm adı altında Türk milliyetçiliği aşılamak", "Türkçülük yapmak", "Sovyet sistemine karşı gelmek", "inkılaplara karşı,gizli bir teşkilat üyesi olmak" gibi yalan yanlış suçlamalarla defalarca tutuklanmıştır. En son 13

Haziran 1937'de tutuklanmış, tüm varlığına, eşyalarına el konulmuştur. ("Keçe ve Kündüz" romanının neşredilemeyen ikinci cildinin bu kargaşa ortamında kaybolduğu düşünülmektedir – *D.K.*) Bir yıl boyunca çeşitli işkencelere maruz kaldıktan sonra 4Ekim 1938'de kurşuna dizilerek Taşkent'teinfaz edilmiştir. Milliyetçi ve yenilikçi sanat adamı Çolpan, hayatta olduğu zamanlar boyunca okumaktan ve yazmaktan asla vazgeçmemiştir. Baskının en yoğun olduğu dönemde bile edebi faaliyetlerde bulunmaya devam etmiş, ancak Sovyet rejimi onu edebiyat ve sanatdünyasından koparıp almıştır.Çolpan,ölümü üzerine yaklaşık olarak otuz yıl daha hainlikle suçlanmıştır. Sonra 1 Ağustos 1957'de 4 Ekim 1938 kararı ortadan kaldırılmış ve Çolpan resmen affedilmiştir. Eserleri 1988 yılında tüm yasakların ortadan kalkmasıyla birçok yayın organı tarafından neşredilmiştir. Eserleri okundukça Çolpan, Türk halkları tarafından tanınmış ve fikirleri çok daha iyi anlaşılmıştır. Yalnızca Özbek Türkleri tarafından değil, tüm Türkistan ve diğer Türk halkları Çolpan'ı büyük bir mücadele adamı, ceditçi bir sanatkâr olarak tanınmıştır. Abdülhamid Süleyman Çolpan, Özbek "Cedit Edebiyatı"nın en büyük öncül temsilcisi kabul edilmiştir.

2. Abdülhamit Süleyman Çolpan'ın Eserleri:

Şiirleri:

- Özbek Yaş Şairleri Antolojisi (14 şiir)
- Uyganış (1922, Taşkent, ilk şiir kitabı, 19 şiir)
- Bulaklar (1924,Taşkent, 26 şiir)
- Tañ Sırları (1926, Taşkent, 60 şiir)
- Koşuklerim (1935, Taşkent)
- Saz (1935)

Tiyatro Eserleri:

- Halil-i Fereng (1917)
- Yarkın Ay (1920)
- Çoban Sevgisi (1922)
- Muştumzar
- Ortak Karsıbayev
- Çörinin Kozgalışı (1922)
- Öldürgüçi
- Zamane Hatunu
- Yana Üylenemen
- Polat
- Hücum (Rus yazarı V.Yan ile birlikte)
- Uzun Kulaklı Baba

Hikayeleri:

1. Dohtor Muhemmedyâr (ilk hikâyesidir, 1914)

Bunlar dışında tercümeleri ve "Keçe" adında 1936 yılında yayımlanan bir romanı (Yukarıda sözü geçen "Keçe ve Kündüz" romanının birinci bölümüdür, ikinci bölümü kayıptır – *D.K.*) vardır.

3. Abdülhamit Süleyman Çolpan'ın Bazı Şiirleri Üzerine:

Özbegim
Sölqilläb keläsän, Özbegim,
Mä'rifät atigä atlänib,Bir miri tapgän bålädäy-
Åyziñni ircäytib... süyünib!
Dünyådä hämmä xalq qızıqqan –
Gävhärdek bebähå åt ediñ.
Hürriyät bolgändä sen keldiñ,
Minäyin semirgän åtgä deb,

Áyziñgä “mällälär" bir tepdi,
"Mä'rifät xaråmdur sartgä", deb...
Ayziñdän gan keldi, yıylädiñ,
Köziñdän zähärli yaş keldi.
Körämän: axırdä minibsän,
Çärçägän bolsä - dä - atiñgä.
Täñrigä şükr qıl, yüräber,
Köz salib, oñiñge, çäpiñgä!
Tez tüzät, ah... mänä bir xatañ:
Atiñni çapäsän şähärdä.
Qışlaqdä faqırlär kütädir-
Keçädä, kündüzdä, sähärdä!
Bilgilkim, hayatiñ, tåmirin,
Özbegim, kämbäyal qışlaqdä.
Qışlaqdä çapäsän atiñni,
Çapişiñ bexudä: Taşlaqdä.

Özbeğim (Türkiye Türkçesi)

Nefes nefese gelmektesin, Özbeğim,
Eğitim atına binmek için,
Bir kuruş bulan çocuk misali,
Ağzın kulaklarında... sevinçten!
Dünyada bütün halkların ilgisini çeken,
Mücevher gibi emsalsiz at idin.
İhtilâl olunca geldin sen,
Bineyim besili ata diye,
Ağzına bir yumruk indirdi “Sarılar”,
Eğitim haramdır Sart’a diye...
Ağzından kan geldi, ağladın,
Gözünden zehirli yaşlar aktı.

Görüyorum: sonunda binmişsin, orulsa da atına.
Tanrı'ya şükret, yoluna devam et,
Göz atarak, sağına, soluna!
Çabuk düzelt, ah... işte bir hatan:
Koşturuyorsun atını şehirde.
Köylerde fakirler beklemektedir,
Gece, gündüz ve seher vaktinde.
Unutma ki, hayatın ve kökenin,
Özbeğim, fakir köydedir.
Koşturuyorsun atını köyde,
Koşturma boşuna taşlıkta.

Abdülhamit Süleyman Çolpan, semboller aracılığıyla halka Türk kültürünü ve Türklük şuurunu aşılamaya çalışmıştır ve bu doğrultuda eserler ortaya koymuştur.

Özbeğim şiiri, Çolpan'ın tahminen 1919 yılında kaleme aldığı bir şiiridir. Şiirin yazıldığı döneme baktığımızda Sovyet baskısı altındaki Özbek halkının Sovyet rejimiyle olduğu kadar cehaletle de savaştığı bir dönem olduğunu görüyoruz. Bu ayrıntıyı göz önünde bulundurarak şiirin dış ve içyapısını inceleyelim.

Şiirin dış yapısına baktığımızda gözümüze ilk çarpan şey, şiirin serbest vezinle kaleme alınmış olmasıdır. Çolpan ceditçi bir şairdir, sanatta ve edebiyatta yeniliklere açıktır. Bu yüzden eski vezinle de, yeni vezinle de şiirler kaleme aldığını görmek mümkündür. Söz konusu şiirimizde kafiyenin dize sonlarındaki kelimelerle sağlanmaya çalıştığını görüyoruz. Dize sonlarındaki *atlänib, süyünib, deb; qızıqqan, ediñ, keldiñ, yıylädiñ, minibsän, xatañ ve şähärdä, sähärdä, qışlaqdä, taşlaqdä* gibi kelimelerle ahenk sağlanmıştır. Bunun dışında şiirde çeşitli asonans ve aliterasyonlar ahenk unsuru olarak öne çıkıyor. Özellikle şiirin

bütününde ä,i; n,t harflerinin yoğun olarak kullanıl-dığını görüyoruz.Şiirin muhtevasını inceleyecek olursak, içeriği duyguların yansıtılması bakımından (4+8+3+8 olmak üzere) dört parçaya bölebiliriz. Birinci parça olan ilk dört dizede şair, eğitim atına binmek için çocuklar kadar heyecanlı Özbek halkının heyecanını, öğrenme isteğini yansıtmaya çalışmıştır. Bu parçada eğitim, ata benzetilmiş, teşbih sanatına başvurulmuştur. Biliyoruz ki, at Türk kültüründe olmazsa olmaz milli bir unsurdur, aynı milli eğitim gibi. Yine bu parçada Özbek halkının heyecanı bir kuruş bulan çocukların heyecanına benzetilmiştir.

İkinci parça olan sonraki sekiz dizede ilk olarak mücevher gibi bir at benzetmesi göze çarpıyor. Burada Türklerin anlı şanlı tarihi kast ediliyor olmalı. Türkler üç kıtada hüküm sürmüş güçlü bir millettir. Ancak kimi zaman çeşitli savaşlar sonucunda çeşitli devletler tarafından hâkimiyet altına alınmışlar, sahip oldukları geçmişe yabancılaştırılmaya çalışmışlar. Türkler bunca baskıya rağmen kendi benliklerini yitirmemek, şiirden hareketle besili ata, eğitime, bilgiye kavuşmak için büyük uğraşlar vermişlerdir. Bu yolda çeşitli engellerle de karşılaşmışlardır. İkinci parçanın son dizelerinde "Sarılar"ın, eğitim yolunda çocuklar kadar heyecan duyan halkı şiddet ve baskıyla engellediği anlatılmış. Şiir tarihî gerçeklikler içinde ele alındığında görülüyor ki, "Sarılar" diye kastedilen, halkın bilgi kazanmasının önüne geçmek isteyen topluluk Sovyet rejimi ve rejim yanlılarıdır.

Üçüncü parça olan sonraki üç dizede tüm engellemelere rağmen atına binmeyi başarmış, bilgiye ulaşmış bir halk tablosu çizilmiştir. Bu parçada adeta bir dinginlik, huzur ortamı hâkim kılınmıştır. Bunun yanında Türk halkının engel tanımaz bir millet olduğu da vurgulanmıştır.

Son sekiz dizede atına binen, eğitime bilgiye kavuşan halka bir uyarıda bulunma söz konusudur: *"Bilgini şehirde, göze çarpacak şekilde açık etme, köylerdeki Türk halkını eğitime teşvik et, oraları aydınlat!"* Bu uyarı bilgiye kavuşmuş aydınları, bilgiden yoksun yerlerdeki halkı aydınlatmak için harekete geçirmeye yöneliktir.Son olarak şiirde kullanılan dile ve üsluba baktığımızda sade, açık, halkın anlayacağı şekilde anlaşılır olduğunu görüyoruz. Bu şiir, Çolpan'ın şiirdeki hünerini ortaya koyan sembolik tarzda güzel bir şiirdir.

GÖZEL TÜRKİSTAN
Gözel Türkistan sėnge né boldı?
Sahar vaktıda güllerin̄ soldı,
Çêmenler berbat kuşlar hem feryâd
Hemmesi mahzun bolmas mı dilşâd?
Bilmem n'üçün kuşlar uçmaz bagçalarında.
Birligimizniñ teprenmez tagı.
Ümîdimizniñ sönmez çırağı
Birleş éy halkım kėlgendir çağı,
Bezensin émdi Türkistan bağı.
Kozgal halkım yeter şunça cevr u cefâlar.
Al bayrağıñnı kalbiñ oygansın,
Ḳullık asarat barçası yansın
Ḳur yengi davlat yavlar ortansın,
Ösüp Türkistan kaddiñ kötarsın
Yayrap yaşnap öz vatanıñ gül bağlarıda.

GÜZEL TÜRKİSTAN (Türkiye Türkçesi)
Güzel Türkistan, sana ne oldu?
Seher vaktinde güllerin soldı.
Çayır çimen berbat kuşlar feryat
Hepsi mahzun; gönülleri şenlenmez mi?

Bahçelerinde, niçin kuşlar uçmaz; bilmem!
Birliğimizin sarsılmaz dağı,
Ümidimizin sönmez ışığıey halkım;
Birleşme zamanı gelmiştir!
Artık Türkistan bahçeleri süslensin!
Davran halkım; bunca cevr ü cefâ yeter!
Kendi öz vatanının çiçek bahçelerinde
Yeşererek bayrağını eline al, kalbin uyansın;
Kulluk ve esâretin tamamı yok olsun;
Yeni devlet kur,düşmanlar ürksün;
Yüce Türkistan ayağa kalksın!

Güzel Türkistan adlı şiir Çolpan'ın milliyetçilik duygularını ve ülkesine olan sevgisini en güzel yansıttığı,yine serbest vezinle kaleme aldığı şiirlerinden biridir. Bu şiirde de dize sonlarındaki kelimelerin uyumuyla ahenk oluşturmak istenmiştir: boldı, soldı, feryad, dilşâd, tagı, çıragı, çağı, bağı, oygansın, yansın, ortansın, kötarsin.Muhtevaya baktığımız zaman duygunun (5+10 olmak üzere) iki parçaya bölündüğünü görüyoruz. İlk beş dizede şair, büyük bir şaşkınlıkla sanki ilk kez görmüş gibi ülkesinin harapolmuş haline sitemkâr bir edayla hayret etmektedir, ülkesinin bu viran hali şaire acı vermektedir. Tabii biz biliyoruz ki, Türkistan halkları o dönemde Sovyet rejiminin baskısı altındadır. Şiirde Sovyet rejiminin dayattığı her şeyden önce vatana özlem duyulmaktadırdiyebiliriz.Bu beş dizede şair, iki kez istifham sanatına başvurmuştur. Soru sorma yoluyla hem şiire coşku katmış hem de okuyucuyu düşünmeye sevk etmiştir. Şiirde*"Bilmem n'üçün kuşlar uçmaz bagçalarında"*dizesinde kuş bir sembol olarak kullanılmış, kuş denilerek"özgürlük" kastedilmiştir. Aynı zamanda bu dizede kuşun feryat ettiği söylenerek teşhis sanatına da başvurulmuştur. Şair, sonraki on dizede halkın birlik olup harekete geçmesini sağlamaya yönelik

sözler sarf etmiştir. Halk, kendi bayrağına, dev-letine sahip olup düşmanları ürküttüğü zaman esaretten kurtulabilecek, ancak bu şekilde Türkistan ayağa kalkabilecektir. Bu parçadaÇolpan'ın milliyetçi yanı apaçık ortadadır. Söz sanatlarına baktığımız zamanşair, *"Kalbiñ oygansın"* diyerek teşhis sanatına başvurmuştur. Şiirin son dizesinde*"yüce Türkistan ayağa kalksın"* sözlerinde deTürkistan'daki Türk halklarını kastederek mecaz-ı mürsel sanatına başvurmuştur diyebiliriz.Şiirin bütününe baktığımızda coşkulubir söyleyiş tarzı veahenkli bir üslup görüyoruz. Muhteva ve üslup birbirine tam bir uyum içerisindedir bu da ortaya kaliteli bir şiirin çıkmasını sağlamıştır.

YURT YOLI
Uzak... ağır yolga çıkkan yolçımen
Bu yollarda kılaguzım yulduzdır;
Mėn yurtımnıñ pak istekli küçimen,
U yulduznıñ tügelişi kündüzdir.
Tamırlarım, alav kėbi kaynayan
Ḳanlarını kėçmişlerden almışdır.
Bilegimde ırgıp, çapçıp oynaġan
Unutma kim ayaklarıñ talmışdır
Uzak yolnıñ yolçısımen, baramen,
Istegimni bu yollardan alamen!..

YURT YOLI (Türkiye Türkçesi)
Uzak, ağır yola çıkmış yolcuyum.
Bu yollarda kılavuzum yıldızdır.
Ben; yurdumun, pak istekli gücüyüm.
O yıldızın bitişi, gündüzdür.
Damarlarım, alev gibi kaynayan
Kanlarını, geçmişlerden almıştır.
Bileğimde hızla çalkalanan, oynayan;

Unutma ki ayakların yorulmuştur.
Uzak yolun yolcusuyum, gidiyorum;
İsteğimi bu yollardan alıyorum.

Çolpan,*Yurt Yolı*şiirini, ilk şiir kitabı*Uyanış*'ın *"Ümit ve İman"* adını taşıyan ikinci bölümünde neşretmiştir. Şiir 11'li he-ce ölçüsüyle,dörtlük nazım birimiyleoluşturulmuştur. Toplam on mısradan oluşan şiir,axax bxbx aa kafiye şemasına sahiptir. Şiirde bolca kafiye ve redif kullanıldığını görüyoruz. Şii-rin içeriğine gelince, ilk dörtlükte şair uzak ve ağır bir yola çıkmış, yıldızlarınrehberliğinde ilerleyen, ümitli ve çok istekli bir güç olarak kendini tanıtmıştır. Bu dörtlükte uzak ağır yoldan kast ettiği yurt yoludur. Yolun uzak ve ağır olması, kendi döneminde içerisinde bulunduğu zorlu şartlardan dolayı olmalı. Şairin yıldızı kılavuz aldığını söyleyerek yine sembole başvurduğunu görüyoruz. Yıldız burada özgürlük, bağımsızlık ve mutluluğun sembolüdür. Yolun sonundaki gündüz de yine aynı anlamlara gelen bir semboldür. İkinci dörtlükte *"alev gibi kaynayan kan"* ifadesi teşbih sanatına örnek olmakla beraber Türk'ün asil, deli kanını temsil eder. Geçmişler diyerek ise Türklüğün geçmişinden bahsettiğini söyleyebiliriz. Şair, *"Unutma kim ayakларıñ talmışdır"*, yani yorulmuştur sözünden hareketle yolun sonuna yaklaşıldığını, özgürlüğün ve mutluluğun uzak olmadığını bize hissettirmektedir. Son iki dizede de yürümeye devam ettiğini, isteğini yolların kendisinden aldığını söyleyerek Türk'ün önündeki engeli daha yükseklere ulaşmak için tümsek yaparak aşacağını, hiçbir gücün Türk'ü durdurmaya yetmeyeceğini söylemiştir. Görüyoruz ki bu şiirde de Sovyet döneminin ağır şartları altında ezilen, yok sayılan Türk halkını uyandırmak amacı güdülmektedir. Son olarak dil ve üsluba bak-tığımızda şiirdekahramanca bir söyleyiş görüyoruz. Kelimeler özenle seçilmiş. Konuya uygundur. Dil de sade ve anlaşılırdır.

KÖNÜL
Köñül sen munçalar nege
Kişenler birle dostlaşdıñ?
Ne feryâdıñ, ne dâdiñ bar,
Neçün sen munça süstleşdiñ?
Hakaret dilni ağrıtmas,
Tübenlik mengi ketmes mi?
Kişenler parçalanmas mı?
Ḳılıçlar endi sınmas mı?
Tiriksen, ölmegensen,
Sen de âdem, sen de insânsen;
Kişen keyme,
Boyun egme,
Ki sen hem hür tuğılğansen!

GÖNÜL (Türkiye Türkçesi)
Gönül, sen niye bu derece
Zincirlerle dostluk kurdun?
Ne feryât ediyor ne de "imdat" istiyorsun.
Niçin sen, bu derece suskunlaştın?
Hakâret gönlü incitmez,
Kölelik ebedî gitmez mi?
Zincirler parçalanmaz,
Şimdi kılıçlar hiç kırılmaz mı?
Dirisin, ölmüş değilsin;
Sen de âdemoğlu, sen de insansın;
Zincire vurunma, boyun eğme,
Sen de hür olarak doğmuşsun.

Çolpan,*Gönül* şiirini, *Tan Sırları*adındaki üçüncü şiir kitabında neşretmiştir.Şiir 8'li hece ölçüsüyle yazılmıştır. İki dörtlükten ve bir tane de beş dizelik bent olmak üzere toplam on üç

mısradan oluşmaktadır. Şiirin ilk iki dörtlüğünde şairin gönle sitem ettiğini görüyoruz. İlk iki dizede gönle *"niçin seni tutsak eden zincirlerle dost oldun"* derken aslında birçok sembol kullanmıştır Çolpan. "Gönül" Türk halkını temsil etmektedir. Çolpan şiirde halka sitem ederek bir giriş yapmıştır. Burada zincirler de bir simgeseldir: Sovyet rejimini, baskıyı ve esareti simgelemektedir. Sonraki iki dizede yine gönül sembolü üzerinden Türk halkına *"niçin susuyorsun, niçin bu esarete göz yumuyorsun"*, - şeklinde lirik kınayıcı sorular devam etmektedir. Görüldüğü üzere, şiirde sıklıkla istifham sanatına başvurulmuş, soru yoluyla bir ahenk oluşturulmaya çalışılmıştır. İkinci dörtlükte yine aynı şekilde gönlün hakaret ve kölelik karşısında harekete geçip geçmeyeceğini teyit eden sorular sorulmaktadır. Örneğin, *"artık bunca hakaretten sonra zincirleri söküp atmayacak mısın?"*,- şeklinde.Son olarak, üçüncü bentteşair, soru sormayı bırakıp gönlü bu zulüm karşısında harekete geçirecek sözler sarf etmeye çalışmaktadır. Gönül sembolü üzerinden susan, sessiz kalan Türk halkına milli bilinci uyandırma gayreti aşılanmaya çalışılıyor.Şiirde esaret-hürriyet çatışmasının içli bir üslupla ele alındığını görüyoruz ki, aynı dönem içerisinde bütün Türk halkları edebiyatında kırmızı çizgi oluşturan tematik özelliğe sahiptir. Ayrıca, milli ruhlu lirik şiirlerinin üslubu bakımından Çolpan Azerbaycan Türk Edebiyatı'nın Elmas Yıldırım ve Ahmed Cevat adlı şairlerine çok yakındır.

Çolpan, insanların fikirlerini açıkça ifade edemediği zorlu günlerde bile hissettiği, düşündüğü ne varsa sembollerin ardından bizlere sezdirebilmiştir. Abdülhamit Süleyman Çolpan, kalemi çok güçlü bir sanatkârdır. Özbek Türk edebiyatının önde gelen milli ruhlu, yenilikçi şairlerinden biri olarak daima hafızalarda ve gönüllerde yaşamaya devam edecektir.

Kaynakça

1. KOMİSYON (1998), Türk Dünyası Edebiyatları, İstanbul:Milli Eğitim Bakanlığı
2. Yayınları.
3. KOCAOĞLU T. (1992) Çağdaş Özbek Edebiyatı, Türk Dünyası El Kitabı, 2. baskı, 3. c., Ankara: s. 756-768.
4. KOCAOĞLU T.(1996), Çağdaş Özbek Şiiri, Türk Dünyası Dil ve Edebiyat Dergisi, Ankara: Sayı: 1, s. 3-53.
5. ÖZBAY, Hüseyin (1993), Çolpan'ın Şiirleri, Türk Kültürünü Araştırma Enstitüsü, Ankara.
6. ÖZKAN, Nevzat (1997), Türk Dünyası, Kayseri:Geçit Yayınları.

ON SOME POEMS OF THE UZBEK POET ABDULHAMID SULEYMAN CHOLPAN

Dilan KELESH

Abstract:

Abdülhamid SüleymanCholpan is a nationalist and innovative Uzbek poet who lived between 1897 and 1938. He is known with the pseudonym of Cholpan in Uzbek literature. He completed his primary education in Endican and Tashkent. He learned Arabic, Persian and Russian, and read the works of classical names in Eastern and Western literatures. He has always been a prolific artist. He gave direction to Uzbek literature with his writings. He attracted young attention with his poems and his ideas about poetry. In addition to his poems, he also wrote plays and stories, and made translations from the works of Western writers. Cholpan was seen as a threat by the Soviet regime. He was interrogated many times in the 1930s. Despite all the pressure, Cholpan did not stop writing. After a while, he was arrested for the last time on 13 June 1937 and was

subjected to various tortures. On October 4, 1938, he was executed by shooting. In this article, we will examine Cholpan's life, works and some of his poems.

Key words: Cholpan, Kalender, Russian, Lyrical, Nationalist, Threat, Execution.

DEDİ-QODU AYNUR QƏZƏNFƏRQIZI VƏ HAMLET İSAXANLI YARADICILIĞINDA

Elnarə HÜSEYNOVA,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dr.Aynur Qəzənfərqizi

Dedi-qodu toplumun ən çox maraq duyduğu sahədir desək yanılmarıq. Folklorda bu mövzuda yüzlərlə mətn mövcuddur. Hətta bəzi folklor nümunələri dedi-qodu əsasında yaranmışdır. Maraqlıdır ki, dedi-qodunu 2020-ci ildə ilk dəfə Aynur Qəzənfərqızı və Hamlet İsaxanlı yaradıcılığında folklor janrı kimi göstərilmişdir. Dedi-qodunun sosioloji, psixoloji, dini, fəlsəfi və. s yönlərini araşdırmışlar. Məqalənin giriş hissəsində müəlliflər qeybət və dedi-qodu sözlərinin kökənindən bəhs etmiş və müxtəlif dillərdə qarşılığından danışmışlar (128-130).

Daha sonra dedi-qodunun sosial yönlərindən bəhs edilmiş və cəmiyyətdə kiçik bir qığılcımdan alovlandığını, bəzən şişirildiyini və bundan insanların özlərinin rolu olduğunu göstərmişlər. Psixoloji yönlərdən bəhs edərkən isə dedi-qodunun ortaya çıxma səbəblərini göstərmişlər. Dedi-qodunun yaranmasının səbəbi bəzən qəsdən uydurulmuş xəbər, bəzən həsəd, bəzən nifrət və s. duyğuların olması göstərilir. Hamlet İsaxanlı və Aynur Qəzənfərqızı daha sonra dedi-qodunun formalarından bəhs edərək gələnəksəl dedi-qodudan bəhs etmişlər. Burada dedi-qodunun qəlib ifadələri, mimikaları, jestləri haqqında danışmağı da unutmamışlar. Dedi-qodunun başqa bir forması olan nyuslor haqqında danışan müəlliflər dedi-qodunun internetdə yayılmış formalarından bəhs etmişlər. Bundan əlavə, müxtəlif mühitlərdə dedi-qodu haqqında danışıb sonra hər sahədə dedi-qoduya nümunələr gətirmişlər. Burada dedi-qodunun kütləvi informasiya vasitələrindən televiziyada yayılma şəklindən bəhs

edilib. Məlum olub ki, hətta gündəlik siyasi xəbərlərin içində də dedi-qodu olur. Daha sonra məqalədə şou dünyasında yayılmış xəbərlərin dedi-qoduya çevrilmə yolları göstərilmişdir. Hamlet müəllim və Aynur xanım sosial şəbəkələrdə yayılmış interpretasiyaları, kütləvi daşqalaqları və dezinformasiyaları da araşdırmış hər birinin dedi-qoduya çevrilməsindən geniş bəhs etmişlər.

Burada diqqəti çəkən məqam odur ki, diqqətlə baxdıqda kütləvi informasiya vasitələrinin dedi-qodunun yayılmasında və müxtəlifləşməsində böyük rolu olduğu görünür. İnterpreta-siyalar hələ bir əsr əvvəl yayımlanmış Molla Nəsrəddin jurnalında da qarşılaşdığımız hadisədir. Məsələn, "Molla Nəsrəddini söymək olmaz", "Mollanın adını çəkəndə gərək salavat çevirəsən" və s. (Həsənzadə, 1996: 13). Tədqiqatçılar öz məqalələrində interpretasiyalar haqqında danışarkən Mövlanə, Eynşteyn və s. məşhur adamların adından söylənmiş sözlərdən və onların internetdə yayılmasından bəhs etmişlər.

H.İsaxanlı və A.Qəzənfərqızı daha sonra dedi-qodunun dində və qanunda yerini müəyyənləşdiriblər. Qurani-Kərimdə dedi-qodu haqqında ayələrin adları çəkilmiş, haqqında danışılmışdır. Daha sonra hədislərdə dedi-qodunun işlənməsi araşdırılmış və qısa məlumat verilmişdir.

Dedi-qodunun qanunda işlənmə məqamını da göstərən tədqiqatçılar AR CM10 147. Maddəsinin 1. Və 2. Bəndləri üzrə şəxslərin şərəf və ləyaqətini ləkələyən və ya imicinə zərərverici məlumatları şifahi və yazılı şəkildə cəmiyyət içində yayan şəxsə 100 manat və 500 manat cərimə, yaxud 240 saata qədər məcburi əməyin istismarı, ya da bir ilə qədər islah işləri, yaxud altı aya qədər həbs cəzasının verilməsini (Azerbaycan Respublikası..., 2017:64) də dəqiqliklə göstərməklə əslində mövzunu dərinliyinə qədər mənimsədiklərini göstərməkdədir. Məqalədə müxtəlif

dillərdə yayımlanmış araşdırmalara yer verilməsi, həmçinin müəlliflərin şəxsi arxivlərində yer almış məlumatlardan, həmçinin intenet resurslarından geniş istifadə edilməsi tədqiqatın daha da dərininə aparıldığını göstərmişdir.

Sonda dedi-qodunun necə vacib bir janr olduğundan danışan müəlliflər, bu janrın öyrənilməsinin də vacibliyini qeyd etmiş, dedi-qodunun bir folklor janrı olduğunu təsdiqləyən fikirlər söyləmişlər.

Qaynaqlar

1. GAZANFARGIZI, A., İsahanlı, H. (2020). " Dedikodu Halkbilim Türü Müdür?", Uluslararası Halkbilimi Araştırmaları Dergisi, S.5, s.127-146.
2. HƏSƏNZADƏ, T.(Red)., (1996). Molla Nəsrəddin : 10 cilddə (1906-1931). I cild : (1906-1907) / Bakı : Azərnəşr.
3. Azerbaycan Respublikasının Cinayet Mecellesi (2017). Sekizinci bölme. Bakı:Hüquq Edebiyati Neşriyati.

GOSSIP IN THE WORKS OF AYNUR GHAZANFARGIZI AND HAMLET ISAXANLI

Elnara HUSEYNOVA

Abstract

We wouldn't be wrong if we say that gossip is the area that society is most interested in. There are hundreds of texts on this subject in folklore. Even some examples of folklore were based on gossip. It is interesting that in 2020 gossip was shown for the first time as a folklore genre in the work of Aynur Gazanfargizi and Hamlet Isaxanli. Sociological, psychological, religious, philosophical and. aspects have been investigated.

This will be discussed in detail in our article.

Key words: Gossip, Folklore, Aynur Gazanfargizi, Hamlet Isakhanli

ZƏNGƏZUR (İRƏVAN) VƏ ANADOLUDA (İGDIR) QEYDƏ ALINAN BƏNZƏR NAĞILLARIN GENETIK UYĞUNLUĞUNA DAIR QEYDLƏR

Emin ZEYNALOV,
Bakı Avrasiya Universiteti, bakalavr,
Elmi rəhbər: prof.Fərəh Cəlil

Folklor bir fərdin, tayfanın, xalqın və nəhayət bir etnosun milli yaddaşıdır. Bu yaddaş özünü xalqın etnomədəni dəyərlərində və o cümlədən söz sənətində də göstərir. Xalqın yaddaşı ən böyük söz xəzinəsi olduğu üçün milliklərlə yeni interpetasiyalarda və versiyalarda ortaya çıxır. Etnosun bir bölgədən digər bölgəyə köçü zamanı isə həmin şifahi mətnlər yeni mühitin təsiri ilə variantlaşsa da, mühitin və zamanın interpretasiyasına məruz qalsa da ilkin informasiyanı kodlaşdıraraq öz genetizmində qoruyub saxlayır. Şifahi xalq ədəbiyyatının povesti adlandırdığımız nağıllar folklor çələngimizin ən gözəl nümunələri sayılır. Nağıllar epik janrlar içərisində öz əlamətlərinə görə seçilir. Ona görə də nağıllar dünya xalqları içərisində ən geniş yayılmış epik janrdır. Nağıllar və onların xüsusiyyətləri haqqında bir çox folklorşünaslar müxtəlif fikirlər irəli sürmüşlər. Əfəndiyevə görə " Əşya və təbiət hadisələrinin canlandırılması, əşya və heyvanlar üzərinə köçürülməsi, cəmiyyətdə, təbiətdə, çox adi görünən hadisələrin fantastik şəklə salınması, fövqəladə hadisələrlə qaynayıb-qarışdırılması, gələcəyə nikbin münasibət, inam, xoş əhval-ruhiyyə, geniş epik lövhələrin macəra və mürəkkəb hadisələrin bolluğu və s. nağıllara xas olan xüsusiyyətdir". (Əfəndiyev, 2012: 203). Nağıla "Genellikle efsanevi, fantastik güçlerin iştirakiyle cereyan eden uydurma hadiseler ve şahıslar hakkında hikaye, rivayet" kimi də baxmaq olar. (Hida-

yət, 2012: 12) Bu xüsusiyyətlər nağılları bəşəriyyətin ortaq mirası etsə də, nağıılarda mövcud milli kolorit onu hər bir xalqın öz mədəni mirasına çevirir. Nağıllara özəl xüsusiyyətlərdən biri də zaman -zaman fəthlər nəticəsində bir əraziyə digər xalqın yerləşməsi ilə həmin ərazidə mövcud olan nağılların yeni xalqın da söz mirasına çevrilməsinə səbəb olur. Lakin diqqət etdikdə iki müxtəlif xalqın nağıllarındakı milli kolorit onları bir birindən ayrıd etməyə səbəb olur. Yaxud da tam əksi, bir xalq digər bir əraziyə köç etmək məcəburiyyətində qaldığı halda belə yüzilliklər keçsə belə hər iki xalqın şifahi söz sənətində yer alan nağııların eyni koloriti qoruyub saxlamasına səbəb olur. Anadolu və İrəvan türklərinin nağıllarında da sözü gedən bu oxşarlıqları bu gün də müşahidə etmək mümkündür. Bu nağıllarda bəzi oxşar süjetlər olsa da müəyyən motiv fərqlilikləri özünü göstərir. Bu da zamanla mətnin yeni interpretasiyası səbəbi ilə ortaya çıxır. Süjetlərin xalqlar arasında ortaq dəyərlərə səbəb olmasının əsl səbəbi İrəvan türklərinin müəyyən dövrlərdə öz ərazilərini məcburi şəkildə tərk etməsi ilə bağlıdır. Həmin köçlərdə xalq öz dilini, mədəniyyətini, folklorunu da özü ilə birgə aparmışdır. XVI əsirin sonu, XVIII əsrin 20- ci illəri, 1918-1920 illərdə İrəvan türkləri erməni separatizminin təz-yiqləri nəticəsində də Türkiyənin Şimal Şərqinə — Iğdır, Ağrı, Qars, Anadolu bölgələrinə köçürülmüşdür. Bu, xalqların nağıllarında müəyyən motiv oxşarlığı yaratmışdır. Oxşar motivli nağıllar əsasən heyvanlar haqqında nağıllar, tarixi nağıllar, ailə -məişət nağılları və sehrli nağıllar qrupuna aiddir. Iğdır nağıllarından olan “Geçiynen gurd”, “ Ahmak gurd”, “Cımbılı Çıtdan”,”Şahoğlu Şah Abbas “ , “ Fatmaçıq”, “ Odunçuynan üç kızı”, ”Qızıl inek” mətnlərinin oxşar motivi Azərbaycan nağıl-larda da özünü bu və ya digər dərəcədə göstərir.

Bu xalqın sitayiş etdiyi, özünə əcdad saydığı kult oxşarlığı ilə də bağlıdır. “Fatmacıq”, “Qızıl inek” mətnləri ilə “Fatmanın inəyi” mətnində inək və ya öküz türk xalqlarının sevdiyi, əcdadı hesab etdiyi heyvandır. Bundan başqa qurd da ortaq nağıllar üçün səciyyəvi heyvan motividir. Türklərin həmişə özünə əcdad saydığı qurd dastanlarda yol göstərən, xilas edən, bələdçi funksiyasını daşısa da nağıllarda tamahkarlığın, yalançılığın, axmaqlığın göstəricisi kimi səciyyələnir. “Geçiynen gurd”, “ Ahmak gurd” nağıllarında qurdun mənfi xüsusiyyətlərini görürük. Nağıllar süjet və motiv etibarilə “Şəngülüm, şüngülüm, məngülüm “, “Qurdun axmaqlığı” Azərbaycan nağılları ilə eynidir. İlk nağıldakı oxşarlıq qurdun acgözlüyü, keçini balalarından birini yeməsi və ana keçinin düşmənli məğlub edərək öldürməsi süjeti ilə bitir.

Buradan da bələ bir nəticəyə gələ bilərik ki, xalqın etnomədəni dəyərləri zamanın sınağından keçərək hər bir şəraitdə yeni versiya və interpretasiyalarla özünü qoruyub saxlamağı bacarmışdır.

Qaynaqlar

1. İSMAYILOV, Hüseyn. (1999). *Azərbaycan folklor antologiyası (Göyçə folkloru)*, Bakı: Səda.
2. ƏFƏNDİYEV, Paşa. (2012). *Azərbaycan şifahi xalq ədəbiyyatı*, Bakı: Elm və təhsil.
3. HİDAYƏT, Aydın. (2012). *Iğdır masalları*. Kırşehir: Haziran.

NOTES ON THE GENETIC COMPATIBILITY OF SIMILAR TALES RECORDED IN ZANGAZUR (YEREVAN) AND ANATOLIA (IGDIR)

Emin ZEYNALOV

Abstract

The article "Notes on the Genetic Compatibility of Similar Tales Recorded in Zangezur (Iravan) and Anatolia (Igdir)" is devoted to the problem of genetic compatibility of the tales. People show what value they have by keeping all their culture, ethnography, and traditions alive in their folklore. In the study, the solution to this problem was given by confronting the common Iravan Turks with similar fairy tale motifs recorded in the Anatolian Igdir region. The compatibility of these tales was brought to the issue of interpretation and avarization, and it was also noted that the compatibility between the tales is a part of the ethno-cultural values carried by the Azerbaijani Turks who turned to Anatolia from the Armenian separatism at the end of the 19th century and the beginning of the 20th century.

Key words: Igdir , Yerevan, fairy tale, motive

TURKEY'S MILITARY OPERATIONS IN SYRIA: QUEST FOR IMPERIALISM OR SECURITY

Alish NİFTALİYEV,
Exeter Universiteti (İngiltərə), Kozminski Universiteti (Polşa), master,
Supervisor: prof.assis. Khatira Yusifova

Turkey is increasing its military and political power in the Middle East in the recent years. Since the beginning of Arab Spring in 2011, which started in Tunisia and spread to other countries, Turkey has been participating in this conflict as part of a proxy war. Despite its involvement in these countries, the outstanding examples are Syria and Libya. Uprisings in these countries can also be characterised for its increasingly military and brutal nature. Another interesting fact is the involvement of huge-scale proxy war by other countries, which led to more unstable and prolonged civil wars.

Turkey's involvement in these civil wars and their later stages can be classified under two reasons. Firstly, Turkey wants to increase its influence in the region and renovate its foreign policy in order to become the leader of the region. Some writers recall this as Pax Ottomana, which is used by historians to describe the peace during Ottoman's time in the Middle East (Macgillivray, 2020). However, they believe that this approach is not welcomed by countries like Saudi Arabia, Egypt and Greece. Secondly, Turkey wants to protect its position as a great power in the region and assure its security doctrine in the neighbouring states.

For the purpose of this research, Syria will be used as a case study to demonstrate the real motivation behind Turkey's

foreign policy and its military operations. The reason for this is more intense involvement of Turkey in Syria. Operation Olive Branch and Peace Spring can be examples of Turkey's military operations in Syria (Siccardi, 2021). This paper will argue that Turkey's military engagement in Syria is motivated by threats to its security and such actions can be explained by the theory of defensive realism. Firstly, I will give a short overview of military operations in Syria. Secondly, I will demonstrate the first argument of this research: Turkey is a revisionist and imperialist power trying to acquire more power in the region through Syria and end the possibility of creation of Kurdish state in its borders. Final argument is going to focus on Turkey's quest for security and the justifications for its fight against Kurdish militias.

Arab Spring in Syria and Turkey's Military Operations

Syrian uprising started in 2011 and it was inspired by uprisings in Tunisia, Libya and Egypt (Yacoubian, 2021). These uprisings were named as Arab Spring and these events are the results of long-term corruption, human rights abuses and lack of democracy in Middle Eastern countries (Britannica, 2021). The main reason for increasing violence in Syria was government's brutal crackdown on the protesters. Slowly, the army divisions and civilians joined to fight against the president Bashar al-Assad. Over the years, countries like Iran and Rusia joined this war on the side of government, while Turkey and other Sunni-majority countries sent fundings to jihadists and various rebel groups in Syria (BBC News, 2018). Turkey's involvement is particularly interesting because of its engagement in large-scale military operations in the North of Syria. These operations were mainly aimed at Kurdish militias, called YPG or SDF (Vox,

2019). One of the major operations conducted by Turkish military was Operation Olive Branch in 2018 and it was aimed to eliminate Kurdish forces in the city of Afrin, in the north-western border of Syria (Vox, 2019). Another important operation was the Operation Peace Spring against the SDF, in north-eastern Syria (Vox, 2019).

Turkey's Expansionist Policies in Syria

In recent years, Turkey's political activity in the region is significant. The relations with Arab countries in the Middle East have been strengthened and economic deals with Qatar is also important in this process. However, the relations are not always characterised positively and Syrian case is proof for it. Turkey's operations in Syria was never welcome by Syrian government. Turkey's long support for jihadist and rebel groups was always considered as hostile action against Bashar al-Assad (BBC News, 2018). Therefore, there is an argument that Turkey is trying to establish its area of influence again in the Middle East. Occupation of Syria, therefore, can be classified as Turkey's expansionist foreign policy.

The second problem is the existence of Kurdish forces in Northern Syria, which is the southern border of Turkey. Turkey has been against Kurdish independence since 1978, when Kurdistan Workers Party was established (Galletti, 1999: 2). Currently, in Northern Syria, Syrian Kurdish Democratic Union Party is in control and its armed unit, YPG, is a powerful militia in the region (Vox, How the Kurds became a key player in Syria's war, 2018). Their resistance against ISIS was significant in eliminating ISIS strongholds and terrorists (Vox, How the Kurds became a key player in Syria's war, 2018). Additionally, United States' constant support was vital for Kurdish fighters to

wage a war against ISIS. However, US withdrawal of support from Kurdish fighters created an opportunity for Turkey to intervene and prevent any existence of Kurdish state in the region (Aydıntasbas, 2021). Turkey was criticised by international organisations and various states for its attack on the cities. The successful operations carried out by Turkish military led to the huge losses on Kurdish side and caused the loss of lives of civilians as well.

Overall, Turkey's expansionist policy can be proven by its constant attack on the Kurdish democracy and interventions in Syria in general. If we were to look on to the offensive realism theory, we can characterise Turkey as a great power looking for maximising its powers as much as possible (Mearshimer, 2011: 3). Therefore, Syria is a place for proxy war, where Turkey is looking forward to increase its power. However, in the next section, I will deep into the reasons why, we can't consider Turkey as expansionist power.

Turkey's quest for security and stability

When historians and security specialists are arguing about Turkey's actions, they mainly miss one important point. The past relations between Kurdish people's independence movement and Turkish government had been unstable and brutal in most of the cases. First main problem is the possible relation of YPG and PKK. Turkish government argues that PYD and YPG are the organisations related to the PKK, which caused a lot civilian and military death since 1978 (Vox, 2019). The guerrilla warfare between two groups started in 1984 and since then violence is observed till this day (Galletti, 1999: 2). In such case, Turkey's security concerns are justified and Turkey wants to prevent the creation of terrorist state on its borders.

Second important aspect of security is the threat to its internal structure. Turkey fears that possible Kurdish independence in the region may lead to problems inside Turkey and Kurdish minorities may ask for independence from Turkey as well. In such situation, Turkey's geopolitical security can be under grave danger, as it would lead to the separation of the country and shrinking its size (Vox, How the Kurds became a key player in Syria's war, 2018). Through lenses of defensive realism, it is possible to argue that Turkey's military operations are solely motivated by security concerns (Waltz, 1979: 127). Maintaining military power in the region is crucial for Turkey and its security depends on these prior military operations to eliminate any danger to its existence.

Lastly, it should be considered that 3.6 million Syrian refugees are living in Turkey. This number is huge and its weight on Turkey's economy is significant (Getmansky, Sinmazdemir, & Zeitzoff, 2019). Before, the Operation Peace Spring in 2019, one of president Erdogan's arguments was to establish safe zone inside Kurdish-held territories and assure the safe return of Syrian refugees back to their lands (Vox, Why Turkey is invading Syria, 2019). This was motivated by the constraints of domestic politics of Turkey and people's discontent with refugees.

Therefore, it is possible to argue that Turkey is not holding imperialist views, however its actions are necessary for assuring its power in the region and protect the country from any threat. The arguments for imperialism fail to point out to real problems existing in the region and ignores the domestic factors too. Every state has a right to protect its borders and this is what Turkey is doing to protect these borders. Arguments for security, on the other hand, should not only focus on the military and political

aspects, but economic situation of the country also. Economic security can also be the part of security understanding.

Conclusion

Turkey is a significantly influential state in the Middle East and its actions are worth long political debates. However, this article's focus was on Turkey's quest for security in Syria and this case study helps to establish strong evidences for security concerns, rather than imperialist aspirations. Terrorist connections of YPG and PYD are main reasons for Turkey's security concerns, however, economic factors should also be considered carefully during the analysis of such situation. To conclude, Turkey's military operations can be explained through the lenses of defensive realism and it was used as a theoretical base for this paper's arguments.

Bibliography

Aydıntasbas, A. (2021). Turkey Will Not Return to the Western Fold. Retrieved April 23, 2022, from https://www.foreignaffairs.com/articles/turkey/2021-05-19/turkey-will-not-return-western-fold

BBC News. (2018). Syria: Seven years of war explained - BBC News. Retrieved April 23, 2022, from https://www.youtube.com/watch?v=CoL0L_DbuQQ

Britannica, T. (2021). Arab Spring. Retrieved April 23, 2022, from https://www.britannica.com/event/Arab-Spring

Galletti, M. (1999). The Kurdish Issue in Turkey. The International Spectator, 34(1). Retrieved from https://ciaotest.cc.columbia.edu/olj/iai/iai_99gam01.html

Getmansky, A., Sinmazdemir, T., & Zeitzoff, T. (2019). Most Turks support the Syrian invasion. Here's why. Retrieved April 23, 2022, from

https://www.washingtonpost.com/politics/2019/10/25/logic-behind-turkeys-operation-syria/
Macgillivray, I. (2020). What is Turkey's endgame in Libya? Retrieved April 23, 2022, from https://www.lowyinstitute.org/the-interpreter/what-turkey-s-end-game-libya
Mearshimer, J. J. (2011). The Tragedy of Great Power Politics (1st edition ed.). New York: W. W. Norton & Company.
Siccardi, F. (2021). How Syria Changed Turkey's Foreign Policy. Retrieved April 23, 2022, from https://carnegieeurope.eu/2021/09/14/how-syria-changed-turkey-s-foreign-policy-pub-85301
Vox. (2018). How the Kurds became a key player in Syria's war. Retrieved April 23, 2022, from https://www.youtube.com/watch?v=gaKwjvxukvg
Vox. (2019). Why Turkey is invading Syria. Retrieved April 23, 2022, from https://www.youtube.com/watch?v=oUeXaPaKF50
Waltz, K. (1979). Theory of International Politics (1st Edition ed.). Reading: Addison-Wesley.
Yacoubian, M. (2021). Syria Timeline: Since the Uprising Against Assad. Retrieved April 23, 2022, from https://www.usip.org/syria-timeline-uprising-against-assad

TÜRKİYƏNİN SURİYADA HƏRBİ ƏMƏLİYYATLARI: İMPERİALİZM VƏ YA TƏHLÜKƏSİZLİK ARAYIŞI

Əliş NİFTALIYEV

Özət

Türkiyə Orta Şərqdə çox təsirli bir ölkədir və bu ölkənin addımları uzun siyasi müzakirələr tələb edir. Bu məqalənin diqqət etdiyi nöqtə isə Türkiyənin Suriyadakı təhlükəsizlik axtarışıdır və bu faktoloji araşdırma imperialist arzuların varlığını yox, təhlükəsizliklə bağlı narahatlığı təsdiqləyir.Türkiyənin təhlükəsizlikliklə bağlı narahatlıqlarının ən böyük səbəbi YPG və PYD-nin terrorist əlaqələridir, amma belə bir situasiyanın analizində iqtisadi faktorlar da diqqətə alınmalıdır. Son olaraq, Türkiyənin hərbi əməliyyatları müdafiə realizmi perspektivi ilə izah oluna bilər və müdafiə realizmi bu araşdırmanın arqumentlərinin teoretik bazası kimi istifadə olunmuşdur.

Açar sözlər: Ərəb baharı, Türkiyənin hərbi əməliyyatları, Suriyada vətəndaş müharibəsi, təhlükəsizlik elmləri, Kürd hərbi qruplaşmaları

AZƏRBAYCAN DİLİ VƏ TÜRKİYƏ TÜRKCƏSİNDƏ GEYİM ADLARININ LİNQİVİSTİK TƏHLİLİ

Əsmər KƏRİMOVA,
Bakı Slavyan Universiteti, doktorant,
Elmi rəhbər: prof. Eldar Piriyev

Geyim insanları qorumaq məqsədilə yaradılsa da, zamanla dəyişilərək yeni forma və mənalar qazanmışdır. Geyim mədəniyyətin göstəricisidir. Hər bir şəxsin geyiminə baxarkən onun millitəyətini, yaşadığı coğrafi ərazini, dinini, cinsini, sosial vəziyyətini təxmin etmək olar. Geneoloji və tipoloji cəhətdən eyni dil qrupuna aid olan Azərbaycan dili və Türkiyə türkcəsində bütün növ geyim adları ən son dərc olunmuş lüğətlərdə vardır. Geyim adları müxtəlif aspektlərdən təhlil etmək olar. Tarixən adlanmasına görə, geyinilmə yerinə görə, cinsiyyətə görə və qrammatikasına görə geyim adlarını araşdırmaq mümkündür. Məqalədə hər iki dildə müasir geyim adlarının quruluşuna görə- sadə, düzəltmə, mürəkkəb – araşdırılmışdı. Nəzəri məlumatlar, müqayisələr nümunələrlə izah edilmişdir. Geyim insanları qorumaq məqsədilə yaradılsa da, zamanla dəyişilərək yeni forma və mənalar qazanmışdır. Geyim mədəniyyətin göstəricisidir. Hər bir şəxsin geyiminə baxarkən onun millitəyətini, yaşadığı coğrafi ərazini, dinini, cinsini, sosial vəziyyətini təxmin etmək olar. Geneoloji və tipoloji cəhətdən eyni dil qrupuna aid olan Azərbaycan dili və Türkiyə türkcəsində bütün növ geyim adları ən son dərc olunmuş lüğətlərdə vardır. Geyim adları müxtəlif aspektlərdən təhlil etmək olar. Tarixən adlanmasına görə, geyinilmə yerinə görə, cinsiyyətə görə və qrammatikasına görə geyim adlarını araşdırmaq mümkündür. Məqalədə hər iki dildə

müasir geyim adlarının quruluşuna görə-sadə, düzəltmə, mürəkkəb – araşdırılmışdı. Nəzəri məlumatlar, müqayisələr nümunələrlə izah edilmişdir.

Geyimlər xalqın maddi-mənəvi dəyərlərinin əsas göstəricilərindəndir. Təsadüfi deyil ki, tarixən hər bir xalq vizual olaraq öz geyim tərzini yaratmış, saxlamış və bununla da digərlərindən seçilmişdir. Xalqların tarixi, keçdiyi inkişaf yolu geyimlərə - növlərinə, formalarına təsir etmişdir. Eyni zamanda geyimlərə aid istər arxeoloji qazıntılar zamanı əldə edilən maddi nümunələr, istərsə də zamanı özündə əks etdirən şəkil, sənəd, görüntü, faktlar müəyyən zaman kəsiyindəki inkişafı görməyə, aşkarlamağa xidmət edir. Bütün növ geyimlər etnogenez məsələləri aydınlaşdırmağa, xalqlararası mədəni-tarixi əlaqə və qarşılıqlı təsir məsələsini müəyyənləşdirmək işində yardımçı material rolunu oynayır. Geyimlərin rəngi, forması, çeşidliliyi xalqın təsərrüfat sahələrinin səviyyəsindən, coğrafi şəraitindən, maddi və mədəni durumunda asılıdır.

İnsan şüurlu varlıqdır. Bir-birlərindən utanmaq, təbii hadisələrin, iqlimin, hücum və istilaların mənfi təsirlərindən qorunmaq məqsədilə insan geyinmək-bürünmək, örtünmək, sarınmaq ehiyacı hiss etmişdir. Çox güman, ilk vaxtlar material olaraq yarpaq, ot, dəri və xəzlər olmuşdu. Tarixdən bizə məlum olduğu kimi, keçmişdə zəngin insanları ən gözəl geyimində və qiymətli əşyaları ilə birlikdə dəfn edilərmişlər. Arxeoloji qazıntılar zamanı müxtəlif əsrlərdəki qəbrlərdən çıxan parça qırıntıları (Kültəpə və Mingəçevir şəhərlərində ipək, xara parça nümunələri, tuncdan hazırlanmış iynə və biz)bu barədə müəyyən fikirlər yürütməyə əsas verir.

Azərbaycan və Türkiyə tarixinin zənginliyi, çoxmillətliliyi, müxtəlif regionlar üzrə geyimlər və adlarındakı fərqlikləri mövzunun genişliyindən xəbər verir. Bu baxımdan mövzunu

araşdırarkən hər iki dilin müasir ədəbi formalarına istinad edilmişdir. Geyimlərin tarixinə nəzər yetirdikdə onların zamanla ilkin formalarından uzaqlaşdığının, şəklində və istifadəsində dəyişiklərin olduğunu görmək olur. Bu hal geyimlərin adlandırılmasına da təsir edən amillərdəndir. Geyim seçimi özündə insanların daxili keyfiyyətlərini, psixologiyasını, zövqünü, inancını əks etdirdirir. Adları çəkilən amillər variantlılığa səbəb olur. Bu hal özünü dildə göstərir və müxtəlif leksemlərlə adlandırılması ilə nəticələnir. Türkiyə türkcəsində bütün geyim növləri **kiyafet** adlanır. Ərəb sözü olub mənbə dildə başqa mənada işlənən bu sözə paralel olaraq **libas** və **giysi, giyecek, giyim** sözləri də istifadə edilir. Kiyafət və giysi canlı dildə daha işləkdir. Giysi, giyim, giyecek sözləri mənanın tələbilə "geyinmək" feilindən dilin daxili imkanları hesabına yarnamışdır. Azərbaycan dilində isə eyni məzmunu ifadə edən **geyim** və **paltar, əyin-baş, üst-baş, geyim-kecim** sözləri bu məqsədlə istifadə edilir. Danışıqda aktiv olmasa da, libas, əlbisə daha dar mənada qiyafə, qiyafət sözləri də lüğət tərkibində öz əksini tapmışdır. Bu əşyalar geyim-giysi adı altında ümumüləşdirilsə də, yaş, cins, sinfi təbəqə, peşə və geyinilmə yerinə görə müxtəliflik təşkil edir. İnsanlar kavramlarla düşünür,kelimelerle konuşur. Kavramlar bizim zihnimizdedir ve biz bu kavramaları somutlaştırmak için onlara ad veririz. (Erkman Akerson, 2008: 187)

Mədəniyyət geniş anlayışdır. Bütün türk xalqlarında olduğu kimi Azərbaycan və Türkiyə türkləri də köçəri həyat keçirmişdir. Qitədən qitəyə yayılmaq, tarix istilalara uğramaq və böyük ərazilər fəth etmək hər iki xalqın yaşayış tərzini formalaşdırmışdır. Sosial-ictimai kimlik, yaşadığı ərazi, milli dəyərlər geyimlərə də təsirsiz ötüşməmişdir. Xalqlararsı münasibətlər mədəniyyətin, həyat tərzinin, məişət əşyaları, geyim, yemək, elm və texnologiya ilə bağlı sözlərin inteqrasiyasına gəti-rib

çıxarır. Milli geyimlərin tarixi əsrlərə dayanır. Ancaq xalqlar yalnız milli geyimlərlə məhdudlaşmamışdır. Son üç əsrdə Avropaya (Batı) olan meyillər, geyim mədəniyyətinə yeni tərz gətirmişdir. Beləliklə yalnız geyim adları deyil, tikiş texnikalarını, bəzək əşyalarını, parça növlərini, naxış adlarını ifadə edən sözlər də dilə daxil oldu. Milli mədəniyyətə və dilə yad olan bu tip sözlər zamanla sabitləşdi. Məsələn, kimano yaponlara, ləçək, türban ərəblərə xas, papyon, ropdöşambr isə qərbə məxsus geyim növləridir.

Azərbaycan dili və Türkiyə türkcəsində geyim adları çoxluq təşkil edir. Mövzunun linqivistik təhlili çox genişdir və qarşılıqlı müqayisəli təhlil zamanı maraqlı nüanslara rast gəlinir. Linqivistik təhlil deyildiyi zamanı, leksik mənalarına, növünə (baş,ayaq,üst,alt geyimlər), söz yaradıcılığındakı yerinə, quruluşuna, cümlə daxilində işlənməsinə, mənşəyinə, dialekt-lərdəki ifadəsinə, geyimlərin tarixən adlandırılması, adların tərkibi və mənasındakı dəyişikliklər, fərqliliklər, canlı dildə işləkliyinə görə və başqa qrammatik materiallara əsasən araşdırmaq, tutuşdurma üsulu ilə müqayisə etmək nəzərdə tutulur. Afad Qurbanovun qeyd etdiyi kimi müasir ədəbi dilimizdə leksik tərkibində Azərbaycan sözləri ilə yanaşı, mənşəcə çox müxtəlif sözlər də vardır. Bunların bir qismi qədim və müasir türk dilləri ilə ortaqlı olan, bir qismi isə tamamilə başqa sistemli dillərdən keçmə sözlərdir. (A.Qurbanov,2003: 210)Bu fikir Türkiyə türkcəsi üçün də keçərlidir, ələlxüsus, geyim adları kök formasında hər iki dildə eynilik təşkil edir. Bu baxımdan mövzunu milli və alınma mənşəli geyim adlarının linqivistik təhlili formasında araşdırmaq daha uyğun olardı. Milli mənşəli geyim adları azlıq təşkil edir. Mədəniyyətlərarası inteqrasiya, hər iki xalqın başqa dövlətlərlə sosial-ictimai əlaqələri yeni geyim adlarının dilə keçməsinə şərait yaratmışdır. Utan Qocatürk isə bu məsələyə öz

münasibətini belə bildirir: “Çağdaş geyim-kecim mədəni olmağın ən təbii ifadəsidir. Buna görədir ki, Atatürk çağdaşlaşma atılımları içində papaq və qiyafət inkişafına böyük əhəmiyyət verdi. Bu o zamana qədər davam etdi ki, mövcud qiyafəmiz nə milli idi, nə də müasir tələblərə cavab verirdi. Fəs,kalpak, külah, təkkə, sarıq kimi başlıqlarla yanaşı cübbə, cəkət, şalvar, potu, pantalon, külah, təkkə araqçın,əmmamə kimi hər cür qiyafət cəmiyyətimizə zahiri görünüş baxımından qarmaqarışıq bir mənzərə verir. Halbuki fikirlə, varlığı ilə sivilizasiya dünyasına qovuşmağa qərar vermiş türk milləti bunu yaşayış ilə, zahiri görünüş ilə də sübut etməli idi.” (İsmayıl Məmmədli, 2017:13)Əsasən tək və iki hecalı kökdən ibarət olan sözlərdir. Quruluşca düzəltmə olan adlar üstünlük təşkil edir. Mürəkkəb quruluşa malik sözlər azdır, əsasən, tərkibi adlara çox rast gəlinir. Nümunələri quruluşuna görə 3 yerə ayırmaqla təhlil edək;

1. Yalnız kökdən ibarət milli mənşəli geyim adları
2. Quruluşuna görə düzəltmə olan milli mənşəli geyim adları
3. Quruluşuna görə mürəkkəb,ya tərkibi milli mənşəli geyim adları.

1.Dildə ayrılıqda işlənə bilən, məna ifadə edən ən kiçik vahid kökdür. Müasir ədəbi dildə bəzi sözlər kök formasında verilsə də, tarixən quruluşca ya düzəltmə, ya da mürəkkəb olmuşdur. Məsələn, **başmaq** sözü **bas** feilinə məsdər hissəciyinin əlavəsiylə düzəlmişdir. Türkiyə türkcəsində **çelgi** sözü alına bağlanan yazma mənasındadır, **çal** feilinə -gi- şəkilçisinin artırılması ilə düzəlmişdir. Bu mənada bəzi nümunələri nəzərdən keçirək; Azərbaycan dilində: bələk- bel+ək, düymə düymək, çəkmə çək-mək, bilərzik və s. Türkiyə türkcəsində: cepken – çek+men, çedik- iç+etük, çıkma-çık+ma, tulum-dol+um və s.

Azərbaycan dili	bələk, papaq, başmaq, çəkmə, duvaq, tirmə, şəltə, yaşmaq, balaq, çuxa, çarıq, lapçın, pamazı, yeng, lifə, cuna, börk, navar, şilə, şətəl, baxya, çarşab, kaftan, dəbilqə, kəlağayı, cib.
Türkiyə türkcəsi	belek, papak, başmaqk, çekme, duvak, etek, çedik, tomak, tulum, üst,kepez,çepken, çarık,börk, kürk, düz, düttürü, çizme, hotoz, çit.

Ümumilikdə, quruluşca sadə milli mənşəli geyim adları azlıq təşkil etsə də, Azərbaycan və türkiyə türkcəsində az fonetik fərqlərlə eyni mənada və eyni məqdəslə isitfadə edilir.

2. Quruluşca düzəltmə geyim adları isim və feillərdən yaranır. Azərbaycan dilinin izahlı lüğətində adlardan isim yaradan şəkilçi kimi -lıq-[4] , -ak-[2],-lı-[4] şəkilçilərindən, feil köklərindən isim düzəltmək üçün müxtəlif növ qeyri-məhsuldar şəkilçilərdən istifadə edilmişdir. Hər iki dildə - ma-[2] ,-cək-, -ım-[4] şəkilçiləri vasitəsiylə feildən isim düzəldən geyim adlarına daha çox rast gəlinir. Türkiyə türkcəsində Azərbaycan dilindən fərqli olaraq quruluşca düzəltmə geyim adları çoxluq təşkil edir.

Azərbaycan dili	Türkiyə türkcəsi
şəltəlik, tərlik, tirməli, yaxalıq, yarlıq, yaylıq, arxalıq, döşlük, əlcək, gödəkcə, gözlük, ciblik, büründcək, qolçaq, iplik, hörük, hörgü, çalma	atkı, aralık, başlık, boyunluk, börkenek, büründcük, çatkı, denizlik, dışatı-lık, dolak, dolama, gecelik, gelinlik, göğüslük, gözene, gözlük, ışkırlak, içlik, işlık,kapama, kolçak, kolluk, kulaklık, önlük,sargaç, sarık, saya, sıkma, sokman, soyka,

	şıpıdık, takım, tartma, tekmelik, teğelik, terlik, tozluk, üstlük, yabanlık, yağmurluk, yakalık, kabalak, yamçı, yapık, yaşmak, yelek, yelme, giyit.

Alınma sözlərə adlardan ad düzəldən -lıq-,-lı- şəkilçilərin artırılması ilə yeni geyim adları da yaranmışdı. Məsələn, paçalık,pamukluk, rüzgarlık,sabahlık, damatlık. Azərbaycan dilində ərəb mənşəli -bənt- şəkilçisi yaxa sözünə qoşularaq yaxanı bağlayan düymə, ilmək mənasında işlənən yaxabənd sözü yaratmışdır.

3.Mürəkkəb quruluşa malik geyim adları iki müxtəlif mənalı sözün məna və qrammatik cəhətdən birləşməsindən yaranan, bir vurğu altında deyilən sözlərdir. Türkiyə türkcəsində mürəkkəb sözlərin əksəriyyəti tərkib formasındadır. Tərkibi adların bəzilərinin tərəflərindən biri başqa dildən alınan sözlərin kğçəkliyi ilə yaranmışdır. Tərkibi Bitişik yazılan sözlər isə azlıq təşkil edir.

Azərbaycan dili	Türkiyə türkcəsi
Bitişik yazılan- ayaqqabı, tirməşal, tumanbağı, yarımqol, yeddidüyməlik, yeddiarşınlı, badambuta, basmanaxış, corabbağı, darbalaq, darddüdük, güləbətin, qabayunlu, qısayunlu, qarınbağı. **Defislə yazılan**- qırçın-qırçın, tumanköynək, əyin-baş, köynək-	**Bitişik yazılan**- ayakkabı, başörtüsü, yeltürme. **Tərkibi adlar** – bağır yeleği, bel bağı, boyun bağı, çatal don, çelik yelek, etek bağı, etek bezi, gecelik, entari, güneş gözlüğü, iç donu, iç etek, iç donu, iç önlüğü, uzun etek, üç etek, yakasız gömlek.

şalvar, köynək-tuman, şəlpə-şülpə.	Tərəflərdən biri alınma olan – *can* yeleği, iç *çamaşır*, dalgıc *elbisesi*, çe-kirge *şalvar*, gece *kiyafeti*, yakasız *mintan*, erkan *kerke*, *ikaz* yeleği, *mini* etek, *maksi* etek, *vizon* kürk, *erkan* kürk, *resmi* giyim, *samur* kürkü, takım *elbise*, güneş *mayosu*.

Bəzək əşyaları da geyimin əsasə parçalarındandır. Dildə çoxluq təşkil edir və böyük əksəriyyəti quruluşca sadədir. Azərbaycan dilində; çanta, çətir, daraq, yelpik, gözlük, sırğa, üzük, qırçın, qotaz, tana (sırğa), düymə, bilərzik, boyunbağı və s. Türkiyə türkcəsində; takı, gözlük, kemer, boyunluk, boyun bağı, kuşak, etek bağı, kolluk, pazubent, yüzük, başlık, küpe və s.

Geyim adlarının bəziləri hər iki dildə xüsusi isimlərdən yaranmışdır. Şəhərin, xalqın kimliyini, geyim tərzini vurğulamaq məqsədilə işlədilmişdir. Azərbaycan dilində panama, tolstovka, boston, kəşmiri, kişmiri, frenç Türkiyə türkcəsində istanbulin, haydari, horasani, macferlan, yemeni, frenk gömbeği bu qəbildəndir.

Azərbaycan dilində parça, ərəb dilindən qumaş adlandırılan söz özündə bir neçə adı, növü ümumiləşdirir. Qanavuz al-əlvan zərif ipək parça, qanavat- qalın ipək, şilə- qırmızı pambıq parça, pamazı, bamazı, gön, xara, xaral, ipək, keçə, şülək, navar, şal, tafta, tirmə, tiftik, güləbətin, iplik, həsir və s. Türkiyə türkcəsində bütün növ parçalar kumaş, kumaşla görülən bütün işlər tekstil adlandırılır. Azərbaycan dilində daha çox arşınma-lansatan sözü ilə uyğunlaşır. Türkiyə türkcəsində parça adları, çeşidləri çoxdur, böyük əksəriyyəti alınma sözlərdir. Milli mənşəli parça adlaırnın bir neçəsini nəzərdən keçirək;aynarıncı rəngli

ipək parça, kurak-üzəri xırda pullarla bəzənmiş parça, alaca, altıparmak, basma, beledi, bez, cufa, çaydam, çözme, divişli, sobalı, yanardöner, silecek, övcül və s.

Eyni zamanda tikiş texnikası, vasitələri də geymin formalaşmasında əsas rol oynayır. Geyimlə əlaqəli olan amillər hər iki dildə fərqli leksemlerlə dildə öz əksini tapmışdır. Məsələn, Azərbaycan dilində dərzi, tikişçi, tikiş, baxya-sıx tikiliş, iy-nə, stil, üskük, vərni Türkiyə türkcəsində terzi, atolye, dikiş, moda, iğne sözləri ilə ifadə edilir. Azərbaycan dilinin izahlı lüğətində silindir yunan mənşəli söz olub 3 mənada verilir. Mənalardan biri də baş geyimi olan şlyapa mənasını ifadə edir.

Nəticə etibarı ilə qeyd etmək lazımdır ki, geyim insan həyatının əsas hissəsini təşkil edir. Geyimin tarixi tayfa, xalq, cəmiyyət-insan birliklərinin tarixi qədər qədimdir. Bənzər mədəni-tarixi inkişaf yolu keçən, yaxın coğrafiyalarda yerləşən, eyni millətin nümayəndələri olan Azərbyacan və Türkiyə türkləri zəngin geyim mədəniyyətinə malik olmuş və bu sahəyə çox böyük əhəmiyyət vermişdilər. Kıyafetler kültürel değerleri yansıtma ve gelecek nesillere aktarma unsurlarıdır. Her ne kadae tespit edilen kıyafet adlarının büyük bölümü yabancı dillerden alınmış olsa da Türkçede zamanla bu adları kendi malı haline getirmiş, onları kendi dilinin ses ve şekil özellikleriyle yoğura-rak yepyeni bir hal vermiş ve söz varlığını genişletmişdir. (So-ner Toktar, 2017:102) Tarixin ayrı-ayrı kəsimlərində mövcud siyasi, iqtisadi, dini və sosial vəziyyət geyimləri də zamanla dəyişmiş, variantlarının yaranmasına səbəb olmuşdur. Məqalə-də hər iki dilin müasir ədəbi dilində istifadə edilən milli mənşəli geyim adları qarşılaşdırılmışdır. Geyinilmə yerlərinə görə geyim adlarının böyük əksəriyyəti eynilik təşkil edir. Lakin qrammatik cəhətdən Türkiyə türkcəsində daha çox sadə quruluşa malik geyim adlarına, yaxud bədən üzvlərinə leksik şəkilçilərin

əlavəsiylə yaranan yeni mənalı geyim adlarına çox təsadüf edilir. Azərbaycan dilində mürəkkəb quruluşa malik geyim adlarının digər isimlərdə olduğu kimi üç yolla yaransa da, Türkiyə türkcəsində tərkibi adlar üstünlük təşkil edir. Geyim cinsiyyətə, ictimai və sosial vəziyyətə görə formalaşır. Cəmiyyət inkişaf etdikcə başqa forma və məzmun almağa başlayır. Dövlətlərin, xalqların qarşılıqlı əlaqəsi, mədəniyyətləarası inteqrasiya geyim anlayışına da təsir edir. Bu hall özünü dildə əks etdirir. Bu baxımdan mövzu tədqiqata açıq, geniş və maraqlıdır.

Qaynaqlar

1. QURBANOV, Afad. Müasir Azərbaycan ədəbi dili. Icild.(Bakı-2003) Nurlan.
2. AMEA Azərbaycan dilinin izahlı lüğəti IV cild (Bakı-2006), Şərq-Qərb.
3. AKERSON, Erkman. Türkçe örneklerle dile genel bir bakış. (2008) İstanbul Multilingual
4. MƏMMƏDLI, İsmayıl. Azərbaycanın geyim adları. Xalq cəbhəsi qəzeti. (2017-09 iyun, s15)
5. Soner Toktar. Türkçe sözlükte kiyafet adları.(2017)
6. Türkçe sözlük. (2015)Dil kurumu.

LINGUISTIC ANALYSIS OF CLOTHING NAMES IN AZERBAIJAN AND TURKISH TURKISH

Asmar KARIMOVA

Abstract

Although clothing was created to protect people. It has changed over time and taken on new forms and meanings. Clothing is an indicator of culture. When looking at the clothes of each person, it is possible to estimate his nationality, geographical area, religion, gender social status. The most

recently published dictionaries contain all kinds of clothing names in Azerbaijan and Turkish, which belong to the same language group in terms of genealogy and typology. Clothing names can be analyzed from different aspects. It is possible to study the names of clothes according to their historical name, meaning, options, gender and grammar. The article examined the structure of modern clothing names in both languages- simple, derivate or complex. Theoretical information, comparisons are explained with examples.

Key words: historical name of clothes, national language, simple noun, derivate noun, compound noun, analyzed each language for gender, options and grammar/

AZƏRBAYCAN DİLİNİN İMİŞLİ ŞİVƏSİ

Fatimə BABAYEVA,
Odlar Yurdu Universiteti, bakalavr,
Elmi rəhbər: Dr. Sevinc Qəmbərova

Tezisdə Azərbaycan dilinin İmişli şivəsinin fonetik,leksik və qrammatik xüsusiyyətləri tədqiqata cəlb olunmuşdur. Artıq bir əsrdən çoxdur ki, Azərbaycan dilinin dialekt və şivələri diaxron və sinxron şəkildə öyrənilməkdədir. Şimal-şərq ləhcə-sinə daxil olan İmişli şivəsi də tədqiqata ehtiyacı olan şivələrimizdəndir. Bu şivəni digər şivələrdən fərqləndirən bir sıra özünəxas səciyyəvi xüsusiyyətləri vardır ki, tezisdə onlardan bəzi-ləri işıqlandırlmışdır. Tədqiqat işinin aparılmasında təsviri, müşahidə və tutuşdurma metodlardan istifadə olunmuşdur.

Azərbaycan Respublikasının, əsasən Abşeron, Bakı, Şamaxı, Qobustan, Xızı, Şirvan, Hacıqabul, Salyan, Neftçala, Kürdəmir, Sabirabad, Saatlı, İmişli, Biləsuvar və s. regionlarını əhatə edən oğuz-qıpçaq tipli şərq qrupu dialekt və şivələri müasir Azərbaycan dili ilə müqayisədə aşağıdakı səciyyəvi fonetik, qrammatik və leksik əlamətlərə malikdir. İmişli şivəsi Azərbaycan dilinin şimal-şərq ləhcəsinə daxildir. Onu da qeyd edək ki, İmişli şivələrinə oxşar olan şivələr Salyan və Sabirabad rayonunun şivələridir.

Dialekt və şivələrin öyrənilməsində ortaq və fərqli fonetik cəhətlərin ortaya çıxarılması böyük əhəmiyyət kəsb edir. Çünki şivələrdə rast gəlinən özünəxas cəhətlərin çoxsu fonetik səviyyədə izlənilir və onların öyrənilməsi leksik və qrammatik yarusların öyrənilməsi üçün zəmin yaradır. Azərbaycan dilinin

İmişli şivəsinin bir sıra özünəməxsus fonetik xüsusiyyətləri vardır:

İstər kök, istərsə də şəkilçi morfemlərdə dodaqlanmaya meyl, müxtəlif ahəng pozulmaları bu şivələri səciyyələndirən başlıca xüsusiyyət kimi özünü göstərir. Məsələn,

– dodaqlanmaya meyil əlamətləri: *süz* ʻsiz’, *nöşün* ʻnə üçün’, *aton / atun* ʻatan’, *nənön /nənün* ʻnənən’, *boba* ʻbaba’, *alsoz* ʻalsanız’, *desöz* ʻdesəniz’, *d esön* ʻdesən’, *baluğ* ʻbalıq’, *gomuş* ʻcamış’;

– *η* (sağır nun) səsinin işlənməməsi, bəzən bunun diftonqlaşma, yaxud uzanma ilə müşayiət olunması: *nənü:z / nənö:z* ʻnənəniz’, *ato:uz / atu:z* ʻatanız’;

– *v* samitinin işlənməməsi, bunun uzanma ilə müşayiət olunması: *o:çi* ʻovçu’, *oxlo:* ʻoxlov’, *do:şan* ʻdovşan’, *bizo:* ‘bu zov’.

İmişli dialektində də Salyan dialektində olduğu kimi bəzi saitlər uzadılarağ tələffüz edilir. Uzanma olduğu kimidə saitlərdə qısalmada özünü göstərir. Saitlərin yerdəyişməsidə bu dialekt üçün səciyyəvidir.

u>o keçidi şimal-şərq ləhcəsinə aiddir. Bu hadisə sözün əvvəlində və ortasında baş verir: sözün əvvəlində: qo:m (4, səh 59).

ə>i . Ə səsinin İ səsi ilə əvəz olunması sözlərin birinci hecasında təsadüf edilir. Məsələn, incil

e>ö. E səsinin Ö səsi ilə əvəz edilməsi özünü bir sıra sözlərdə göstərir .Məsələn , öy

e>ə hadisəsinin izləri İmişli Muğan şivələrində də müşahidə olunur. (3, səh. 139)

1. m samitinin qoşalaşması: təmmiz “təmiz” (Muğan) (2, səh. 117)

Azərbaycan dilinin İmişli şivəsinin bir sıra özünəməxsus qrammatik xüsusiyyətləri də müşahidə olunmuşdur:

Şivədə bir sıra sözlər vardır ki , bunlar tərkib etibarilə sadə köklə sözdüzəldici şəkilçidən ibarətdir. Tərkibində -çı,çi,çu,çü şəkilçili sözlər: aşığçı,becərənçi, əhallaçi.

Tərkibində -ağ şəkilçisi olan sözlər içqırağ, yatağ , sancağ.

Təsirlik hal şəkilçisi ədəbi dildə olduğu kimi yiyəlikdən fərqlənir buna aid bir sıra sözlər qeyd edək. Öküzi , buzo:nu.

1 ci şəxsin təkində : öyim, öyimin, öyümə, öyimi, öyimdə, öyimnən

Şivələrin qərb və şimal qruplarında qismən İmişli şivələrində ikinci şəxs tək mənsubiyyət şəkilçisi velyar n səsli variantı ifadə olunur.

İmişli və Mingəçevir şivələrində ikinci şəxs cəm şəkilçisinin dodaq variantı daha çox istifadə edilir. Şəkilçilər bunlardır : -uz ,-üz.

Sifətin azaltma dərəcəsində bu şivədə -rax,-rağ şəkilçilərinin izlərini də görmək mümkündür. Məsələn: qojarax , yaxşırağ

Ədəbi dildən fərqləndirilən mürəkkəb sifənə nəzər salaq : “həlləm-qəlləm” pis işlərlə məşğul olan (5, səh171)

Azərbaycan dilinin İmişli şivəsində kəsr saylarını miqdar saylarına -da ,-də (əksər şivələrdə) -ın,-im İmişli şivələrində şəkilçilərini əlavə etməklə düzəlir . Buna misal olaraq ikinin biri, beşin üçü göstərmək olar. Bəzi ərazilərində isə o>ı. O səsi-nin ı səsi ilə əvəz olunması özünü göstərir. Otız

Bu şivədə belənçik, elənçik əvəzliklərida istifadə olunur. Sual cümlələrinin sual əvəzlikləri, sual ədatları, uzanma ilə müşayiət olunan intonasiya ilə verilməsi də xarakterikdir. Lakin bu cümlələrdə yenə də şərq ləhcəsinə məxsus fonetik əlamətlər özü-

nü göstərməkdədir: *Bizə gəlecegsə:n? Əli öydə dögü:r? Nöş bizə gəlmədün? Onın begəm xəbəri yoxdu:?*

İmişli şivəsində bu işarə əvəzliyinin hallanması özünü aşağıdakı kimi göstərir: bıra, bıranın, bırıya, bıranı, bırda, bırdan (5, səh.182).

Əmr şəklində 3 cü şəxs tək və cəmi Bakı, Quba, Şamaxı və Muğan şivələrində (İmişli dialekti daxil) iki variantlı - sun, -sün şəkilçiləri ilə ifadə edilmişdir.

Ədəbi dildə olduğu kimi, şivələrdə də frazeoloji vahidlərin sinonimliyi və antonimliyi geniş izlənilməkdədir. İmişli şivəsində don atmaq- səhər açılmağ frazeoloji birləşmələri sinonimlik təşkil edir.

İmişli şivəsində istifadə olunan bəzi sözlər: İgnətutmaz – bacarıqsız, ilmanğı – ilığ, azarlamax – xəstələnmək, içiyaravərəm, iççi- işçi, çapacağ - ət doğramağa ləvazimat (1, s.89), acıtərə-vəzəli, ağcadanaq – ditdili, nünü, berə-qoyunların sağıldığı yer (1, səh 46).

Nəticə

Göründüyü kimi, Azərbaycan dilinin dialekt bölünmə-sində şimal-şərq ləhcəsinə daxil olan İmişli şivəsinin bir sıra özünəməxsus fonetik, leksik və qrammatik xüsusiyyətləri vardır. Fonetik səviyyədə ən çox ədəbi dilə nəzərən səs keçidləri və səciyyəvi fonetik hadisələrin baş verməsi izlənilir. Şivənin leksik tərkibi olduqca zəngin və rəngarəngdir, burada türk mənşəli sözlərlə yanaşı, alınma sözlərin işlədilməsinə də rast gəlinir. Qrammatik yarusda fərqlilikləri ən çox əsas nitq hissələrinin işlədilməsində izləyirik.

Qaynaqlar

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, Şərq-Qərb, 2007
2. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası: dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı, Bakı Universi-teti nəşriyyatı, 2016
3. Məmmədli M. Azərbaycan dialektologiyası. Bakı, Zərdabi LTD, 2019
4. Tahirov İ. Dialekt lesikasında alınma sözlər. Bakı, Nurlan, 2004
5. Teymurlu Z. Azərbaycan dilinin dialekt leksikası. Bakı, BMU nəşri, 2020
6. Səmədova K. Şimal-qərb qrupu dialektlərinin fonetikası. Bakı, ADPU nəşri, 2018
7. Şirəliyev M. Azərbaycan dialektoligiyasının əsasları. Bakı, Şərq-Qərb, 2008

İMİSHLİ DİALECT OF THE AZERBAİJANİ LANGUAGE

Fatima BABAYEVA

Abstract

The phonetic, lexical and grammatical features of the Imishli dialect of the Azerbaijani

language were studied in the thesis. Descriptive and comparative methods were used in the research. In the thesis we will prepare, the way of development of the north-eastern dialect and its peculiarities in communication with other dialects are noted. Imishli dialect is a dialect that needs to be

studied. In the thesis we will present, we will study the dialect comparatively.

Key words: Açar sözlər : Şimal-şərq ləhcəsi, İmişli şivəsi, səciyyəvi xüsusiyyətlər, sözlər

BULGARİSTAN TÜRK ŞAİRİ RECEP KÜPÇÜ'NÜN ŞİİRLERİNDE DUYGUNUN POETİZMİ

İlhami KOÇ
Kayseri Erciyes
Üniversitesi, Edebiyat
Fakültesi, Türk Dili ve
Edebiyatı Bölümü, 2. Sınıf
Öğrencisi,

Bulgaristan Türk Edebiyatı içerisinde milli duruşu ziyadesiyle benimseyen, şiirlerini gözlemlediğimizde asla unutturamayacak şekilde etkili bir üslup kullanan, Türkçe bilincini her zerresine kadar kavrayan, Türk Edebiyatları arasında şairlik imzasına aşinabırakan Recep Küpçü, 28 Eylül 1934 yılında Filibe'ye yakın Kuklene (Kuklen) köyünde doğmuştur. Recep hepimizden farksız bir köylü aile çocuğudur. (Çavuş, 2006: 7) Şairin gözü ile doğumunu tanımakbizlere onun mısraları sayesinde mümkün olmuştur. Şair kendi doğumunu şairane bir üslupla dile getirmiştir. Oradaki söyleyişten yola çıkarak Recep Küpçü'nün ne kadar hisli bir şair olduğunun farkına varabiliriz. Öyledir ki, duygu yüklü şiirlerinin poetik katmanlarına gizledi-ği,suretine büründürdüğü milli duruşunu, yaşantısında da gö-rebiliriz. İlk ve ortaöğrenimini köyünde tamamladıktan sonra Kırcaali'de bulunan Türk Öğretmen Okuluna, yani o zamanki Türk Pedagoji Mektebine yazılmıştı. Ortaokul çağlarından başlayarakşiir ile tanışmış şairimiz sonrasında Razgrat Öğretmen Okulu'ndan mezun olmuştu. Henüz eğitim dönemlerinde iken milli duruşuyla seçilmiş,1959-60 yıllarında Bulgaristan'da Türk okullarının kapatılması üzerine genç Recep adeta çılgına dönmüştü. Bundan dolayı öğretmenlikten atılması kaçınılmaz

olmuştu. Kendisi hiçbir zaman ümitsizliğe kapılmamış, bir müddet döküm işçisi olarak tabiri yerindeyse ekmeğini taştan çıkarmıştı. Daha sonra "Yeni Işık" gazetesinde muhabirlik görevini üstlenmişti. Bulunduğu topraklarda kendi ırk bilincini hiçbir zaman yitirmeyen şairimiz milletinin savunuculuğunu şiirlerine de yaptırarak yaşamıştır. Bulgaristan komünist rejimi dolayısıyla söyleşilerini sembolizmle kaplayarak yolundan yılmadan gençliğe mesajlar veren, irdelenince derinliklere daldıran şiirlerin şairi olmayı başarmıştır.

İlk şiir kitabı 1963 yılında "Ötesi Var" adı altında yayınlandı. Bu konuyu eşi Cemile Küpçü şöyle anlatıyordu: "1963'te Sofya'da "Narodna mProsveta" Yayınevi'nde yayınlandı. Ailemiz için de kitap olayı çok büyük bir sevinçti. Bana armağan ettiği kitabında şunları yazmıştı: "Hayatımda beni yaşatan, kâh güldüren kâh kederlendiren üç varlığım var: Birincisi şiirim, ikincisi sen Cemile, üçüncüsü iki oğlum. Bu güldestem sana en samimi yadigârım olsun... Onun meydana gelişinde benim kadar sen de heyecanlandın, üzüldün ve sevindin..." (https://kircaalihaber.com/tarih/esim-recep-kupcu)

Bu bakımdan şairi yine his dünyası adına gayet iyi anlayabiliriz. İkinci şiir kitabı olan "Ötesi Düş Değil" 1967 yılında yayınlanmıştır. Her iki kitabını komünist rejiminin baskılarına rağmen "ev" veya "ov" soyadına getirilen ekler de dâhil olmak üzere herhangi bir ek veya Türkçeye aykırı durum olmadan yayınlamıştır. Onun bu paha biçilemez cesaretli tutumu Bulgar rejimini bir hayli rahatsız etmiş, hatta birçok soydaşı tarafından yadırganmış olmasını bizzat eşinin hatıralarından öğreniyoruz: "Bulgar soyadlarının sonlarına getirilen "ev" veya "ov" eklerini eşim Recep Küpçü hazmedemiyordu. Her iki kitabı da bu gibi takılarsız yayınlandı. Bazı "Türk" aydınları eşimin bu cesaretine

tahammül edemediler."(https://kircaa-li-ha-ber.com/tarih/esim-recep-kupcu)

Daha sonralarda Boğaziçi Yayınlarında "Değişik Şiirler" adlı kitabı çıkmıştır. Bu kitap 102 sayfa olup, seçilen şiirlerini ihtiva etmektedir. Sırasıyla şöyle sayabiliriz: "Ötesi Var" güldestesinden 16, "Ötesi Düş Değil" güldestesinden 38, şimdiye kadar hiçbir yerde yayınlanmamış olanlardan ise 27 (tümü 81 şiir) seçilmiştir. (Ayvazoğlu, 2006: 48-50) Recep Küpçü'nün şiirleri Bulgarca yayınlanma konusunda ilk olma fırsatını ya-kalamıştır. "Dostlarım" ve "Yolcu Yolunda Gerek" adlı kitaplar bu zaferin isimlerini taşımaktadır. Şiirleri Bulgarcaya çev-rilen ilk Türk şairi de odur. (Can, 2014: 1-2)

Bu olaylar silsilesinden anlaşılacağı üzere, Recep Küpçü, zor olanı başarmış, belki de imkânsızın üstesinden gelmiştir. Türk kimliğinin bilinciyle, milli duruşunu azınlık olarak görülürken baskıcı ve adaletsiz bir rejime karşı bu denli savunabilmek için, tabiri yerindeyse, canı verecek kadar sonuna dek yaşamıştır. Hiçbir millete karşı saldırgan olmayışı ve kendi milletini onca zor şartlar altında bu denli güzel bir biçimde savunabilmiş olması Recep Küpçü'yü Bulgar şairler arasında da ayrı bir konuma yerleştirmiştir. Onun millet sevgisini Cemile Küpçü şöyle anlatıyor: "Eşim milliyetçi olarak itham ediliyordu. O milletini gerçekten çok seviyordu. Millet sevgisini aile sevgisinden daha önde tutuyordu. Yüreğinde tüm milletlere karşı sevgisi vardı. Bu yüzden Burgaz şairleri arasında sevilen ve aranan bir dosttu."(https://kircaalihaber.com/tarih/esim-recep-kupcu)

Recep Küpçü, bu kadar sevgi, saygı, merhamet ve milli şuur bilincinde olarak yaşarken 26 Nisan 1976'da hayata gözlerini ebedi yummuş, ailesi ve sevenlerini derin hüzne boğmuştu. Ölümü üzerine büyüyen tartışmalar doğrultusunda Bulgar rejiminin, milletine karşı önem arz eden şairin ölümünden sonra

orada yaşayan Türklere karşı tutumu her şeyi aslında apaçık ortaya sermektedir.Kendisine alçakça bir suikast yapıldığını diliyle bizzat söyleyen Recep Küpçü şu ifadeleri kullanmıştır: "Doktor Bey, kurtarın beni…benizehirlediler…" Bu durumda "Recep Küpçü öldü mü, öldürüldü mü?" varsayımı içi çıkmaz ceviz oldu. (Çavuş, 2006: 11)

1. Recep Küpçü'nün Şiirlerinde Duygunun Poetizmi:

1.1. Şiirde Mühim Bir Mesele: Duygu:

Duygu meselesi, şiir üzerinde her dönemler için ayrı bir anlam ifade etmektedir. Süregelen her geleneksel ve modern şiir yapılanmalarında şiir, bu mühim meselede duygunun sel olması için en uygun vücut olmuştur. Nitekim aşk,ayrılık,kavuşma,ölüm gibi güçlü duygular şiir ile kendini göstermiştir. Şiir bir toplayıcı güç olmuş, insanları ve duyguları bir arada tutan çatı görevi görmüştür. Duygusuz bir şiir, şiir değildir, olamaz. Duygu, bilincin temas kurduğu bir nesne ya da kavram hakkında değer biçmesidir. Şiir,doğası gereği en çok duygu kategorisi ile ilişkilidir. (Sarıçiçek, 2018:143)

Duygu, dış dünyanın, olay ve olguların,durum ve varlıkların insanın iç dünyasında meydana getirdiği dalgalanmalar,doğurduğu etkilerdir. Duygular, yumuşak ya da sert ve şiddetli, sevinçli veya acıklı,gizli veya açık olur. (Çetin, 2019:58) bu doğrultuda insanî fıtratlar da mühim bir durumdur. Kimi insan duygularını kapalı ve gizli yaşarken, kimi insan dolu dolu alabildiğince yaşar. Tıpkı bir ırmağın halleri gibi insanlar da çeşit çeşittir. Meslekler ve edinilen statüler de bu duruma farklılık katabilmektedir. Bilim adamı, duygularını kontrol altında tutarak aklını ve mantığını esas alır. Şair ise, tam tersine, kendini tamamıyla öznel duygularına teslim eder, gerçeği olduğu gibi

değil duygularının prizmasından geçirerek sunar. (Çetin 2019:58) Şöyle ki şiir, yüzyıllar boyunca toplulukları harekete geçirmeyi başarmış,âşıkları birbirine bağlamış,ölen bir büyü-gümüze ağıtlar yakmamızı sağlamıştır. Bunun müellifleri şairlerdir. Okuyucunun duygularıyla hareket etmesine vesile olabilmek, duygunun yoğunluğunun hem şair açısından hem de şiir açısından önemini göz önüne serer. Okuyucuyu duygulan-dırma şiirin amaçlarından biridir. (Çetin, 2019:58) Lakin unutulmamalıdır ki, duygunun yoğunluğu, fikrin yoksulluğuna yol açacak diye bir kaide yoktur. Duygu unsuru bir şaire milli duruşunu en iyi aksettirebilen öznedir. Şiirde varlığı hissettirir. Alenen protesto şiirleri ve ideolojik şiirler gibi görünmeyen eserler de, aslında derin bir milli duruş veya işleniş biçimine göre herhangi bir saf duygu taşıyor olabilir. Duygu unsurunun baskın olduğu şiirlerde düşünceye duygudan gidilir. (Çetin, 2019:58)

Her duygunun temeli aynı olsa da, şairler, yaşanmışlıkları ve his dünyalarıyla bunu farklı işlerler. Hürriyete kavuşmuş bir toplumda, özgür bir devletle ve kendi milletiyle yaşayan şairlerin bağıra bağıra milli kimliklerini haykırmaları ne denli hak gibi görünse ve bir bakıma rahatlık hissi verse de, aslında zor-dur. Her şair bunu yapamaz. Kimisi semboller veya perdeler ardından yapar, kimisi de ayan-beyan. Daha zor olan bir husus ise baskı altında kalmış bir halkın, kendi kanının farkında olarak haykırması gereken durumları ifade etmesidir. Bulgaristan Türk Edebiyatı şairleri, bunu yapmayı başarmış, tıpkı Azerbaycan Türk Edebiyatı gibi baskının altından kalkmak adına ellerinden geleni yapmıştır. Azerbaycan'da Türk şairi Mikayıl Müşfik ne kadar canı pahasına milletini savunmuş, sinesini müşfik tutup aynı zamanda da bir tokmak gibi baskılara inmişse, Bulgaristan'da da Recep Küpçü bu varlığın remzi olmuş, aynı Türk kanı ile varlığını tamam etmiş, canı pahasına bunu ko-

rumuştur. Recep Küpçü, Müşfik'in ihtiyar yanıdır. Aynı dünyanın duygu dolu şairleridirler.Aynı dünyanın şairleri kendilerini üslup ve varlık bakımından birleştirmişlerdir. Recep Küpçü, dünyayı çok derinden kavramış ve özgünlüğünü duygularının orijinalliği ile korumuştur. Nitekim kalıcılık sağlamak adına en önemli şart budur. Kişi özgün bir şair olmak istiyorsa, herkesten farklı bir şekilde duymalı ve duygularını yepyeni bir üslupta ifade edebilmelidir. (Çetin, 2019:59)

Recep Küpçü'nün şiirlerinde duygu, genel olarak her ne kadar sembollerin arkasında bir yetim çocuk bakışıyla duruyor ise de, aynı yetimliğin hayatı tutma inadıyla milli hisler tarafından temellenmiştir. Hüzün, yaşama sevinci,geçmişe özlem, birliğin hasreti,gurbet duygusu,sevilen kişilere duyulan hisler ve daüssıla bu hislerin sembollendiği temalardır.

1.2 Örnek Şiirler ile Duygunun Poetizmi[1]:

1.2.1. Hüzün Duygusu:

Hüzün, yıllar boyu süregelen, insanların en çok yazmaya meyilli olduğu duygudur. Hüznü olan insanın kalbinde tarifsiz acılar yahut -anlamsız gelebilir- türlü sevinçler mevcuttur. Sevincin içinde dahi bir hüzün bulunabilir. Zannımca şair, en mutlu anında kimsenin hissedemediğini yakalayan, herkesten farklı hislerle muhayyilesinde dolanan, derin hislerin adamıdır. İdeolojik şiirlerin içerisinde yaşayan şairler dahi, toplumdan, öz olan halk insanından ayrı yaşamamaları gerektikleri için bu muhayyilede yerlerini almışlardır. Hüzün, hayatı algılama çerçevesini oluşturan duygudur; her şey o çemberin içindedir. (Sarıçiçek, 2018:158)

---

[1] Makalede Recep Küpçü 'ye ait irdelenen örnek şiirler şu kaynaktan alıntılanmıştır: Tuna Dergisi (2006) Ölümünün 30. Yılında Şair Recep Küpçü Özel Sayısı, C:12 S:110/111, s.53-69.

Acılar beraberinde yaşanan hayat kadim dönemlerden günümüze kadar türlü türlü zuhur etmiştir. Orta Asya'da Türklerin göçlerinin altında gizlidir derin mi derin hüzün hissi. Dünyanın neresinde olursa olsun vatanlarından ayrılmak zorunda kalan, öz topraklarında zulüm gören, ana dillerinde şiirler,şarkılar, ninniler dizemeyen halkların kalbinde gizlidir hüzün hissi. Mevlana'nın ney istiaresinde gizlidir bu duygunun sırrı. İnsanı temsil eden "ney" kamışlıktan kesilip içi oyulmuş ve kızgın yağlarda dağlanmıştır. O yüzden sesi iniltilidir. İnsan da Cennetten kovulduğu günden beri acı çekmektedir. (Sarıçiçek 2018:159)

İşte Recep Küpçü, bu derin acı çekişin üstüne hem şahsi acılarını, hem de bölgesinde azınlık olarak aşağılık sayılan, hakları elinden alınmış bir milletin en güçlü hüzünlerini şiirleriyle işlemiş bir şairdir. Hiçbir şiiri yoktur ki, acıdan ve hüzünden geçmemiş olsun. Bunca şiirlerinin arasında "şu şiiri onun bu duygusunu ifade etme konusunda muazzamdır"- diye ayrım yapmak hayli güç bir meseledir. Lakin bu durumu en iyi özetleyen ve kelimelerin büyülü ahengi, rengi ve uyumunun kollarıyla sarılan "İyimserlik" şiiri olmuştur: *Zaman akıcıdır, tezelden geçer/Zaman sonsuzluğun içinde özgür Elbette yılmayan murada erer/Yaz yağmuru gibi geçse de ömür!..* (Tuna Dergisi, 2006: 53) Şair bu şiirde ümit, hasret, özlem duygularını harmanlamış ve bir hüzün duygusunun tezgahında bizlere sun-muştur. Hüznün kişisel bir tarafı da vadır. Bu taraf Recep Küp-çü'de bir hayli fazladır. Ondaki bu cümlelerin oluşumunda kelimeler, derin anlamlar taşımaktadır. Mısra mısra örülen, aslın-da onun yaşantısıdır. *Saadeti dünya kimlere saklar/kemirir içimi ezelî hüzün* bendinde "ezelî hüzün" tanımı, onun yaşadığı topraklarda çektiği acıların bir dışavurumudur. Şiirin mana katmanında yatan da budur. *Gözlerim nemlenir çarsizlikten/Yine yeri öpmez*

ama dizlerim mısralarında ise her ne kadar çaresiz olup bedbin bir halde bulunsalar da, kanlarından gelen şuurun bilincinde olarak asla yılmadan bu hisse ve yaşanaılan zorluk-lara karşı alnının hep dik olduğunu belirtmiştir. Bu hislerini *Elbette yılmayan murada eder/Yaz yağmuru gibi geçse de ömür* bendinde bağlamış, ümidin hüzün ile olan bağını anlatmış,hayatın kısa olmasına rağmen hep mücadeleci yaşamayı işlemiştir.

1.2.2. Geçmişe Özlem Duygusu:

Geçmiş, bir bakıma ardımızda kalan her saniyemizin toplamlarından ibarettir. Bu geride bırakılan yaşanmışlıklar, ne kadar iyi ve hoş hissettirdiyse, doğru orantılı olarak özlemimiz de o denli olur. Geçmişe özlem duyma yaygın bir insanî tutumdur. (Sarıçiçek, 2018: 170) Eğer yaşanmışlıklar kötüyse, geçmişimiz insan doğası gereği hatırlanmayacaktır. Lâkin unutulmaması gereken bir durum vardır. Bu da unutmanın zaman aldığı. Fakat hatırlamak öyle değil, bir saniyelik durumdur. Bu yüzden insan kötü hissettiği anda hemen iyi hissettiği, o an ile bağdaşık bir anısını hatırlar. Oraya kaçmak ister. Kişi, kendi içinde yaşadığı zamanı boş, anlamsız, umutsuz görüp geçmişteki çok önemli ve değerli durumları, güzellikleri,mutlulukları yitirmişlik duygusu içine girince geçmişe hasret duyar. (Çetin, 2019:64) Mesela, Vatan özlemi, aşıka duyulan özlem,anne-babaya duyulan hasret, eğer geçmişte iyi yaşanılmış ve bu duygu-lar yitirilmişse,dahası huzursuzluklar ağır basmışsa, güçlü bir geçmişe hasret duygusu ortaya çıkarır. Böyle hallerde geçmiş bir sığınak;bir ütopyadır.(Sarıçiçek, 2018:170)

Şair, bu duygularını, genel olarak üretim için kullanabilir veya hissini otomatik olarak bir içdöküş olarak aktarabilir. Şair,şiir yazarak bu edilgen durumu aşmaya,üretime dönüştür-

meye çalışır. (Çetin, 2019:64) Recep Küpçü'nün şiirlerinde büyük bir özlem duygusu ortaya çıkmaktadır. Şairin geçmişe özlem temalı şiirlerinin başat sebebi, uygulanan baskıcı rejimin altında yaşam sürülmeye çalışılması ve büyük bir tarih bilin-ciyle beraber, ümitsizliğe kapılmadan o eski mutlu günleri yakalamak için çabalamasıdır. Onlarca şiirinin arasından herkes ayrı bir geçmişe özlem mısrası yakalayabilir. Onun kaleminden çıkan "Bir Ağaç Dikeceğim Balkona" şiiri başlığından itibaren ümidi yakalamış, derincene geçmiş özlemiyle harmanlanmış bir şiirdir. *Kararlıyım/bir ağaç dikeceğim balkonumuza/kuşlar gelip konsunlar diye/ve bana çocukluğumu ansıtan/melodiler sunsunlar diye/Şu köylü yüreğimi ısıtan…* (Tuna Dergisi, 2006: 63-64) Recep Küpçü, derin hislerin adamıdır. Yaşamı boyunca hiçbir şeyi az sevmemiştir. Her şeye dört elle ve yürekten sarı-labilmiş, bunu da şiirlerinde biz okuyucularına hissettirmeyi başarabilmiştir. Hiçbir şiiri yoktur ki, hasret aşkı ile yanmamış, geçmişine özlem yarasını kanatmadan yazılmış olsun. Bunun sebebi başta, -yine her yolun oraya çıktığı gibi- Vatan özle-midir. Onun şiirlerinde sanki bir kişiye yazılmış gibi düşünülen şiirler dahi aslında Vatan topraklarıyla karılmıştır. Yukarıda belirli bölümleri alıntılanan şiirinde ise onun esas Vatan özle-minin yanı sıra kendi yaşadığı, doğup-büyüdüğü topraklarda dahi hasret çektiğini görürüz. Değişen dünya düzenine ve hissizleşen insanlara karşı doğaya sığınıp, insanlarıhayvanlara tercih ederek bu sıla hasretini vuslata çevirmek ümidindedir Recep Küpçü. Çoocukluğundaki o cıvıl cıvıl günleri, globalleş-meyen dünyanın huzurunu aramaktadır. Başlıktaki "Balkon" ifadesi bir hayli poetik ve mânidardır. Geçmişte olanın aynen yaşanamayacağını fakat bunun ümitten yoksun kalmaya gerek kılmadığını işlemiştir ve "balkona ağaç dikmek"gibi hem çok derin, hem de hayli manidar kelimeler kullanmıştır.

1.2.3. Yaşama Sevinci Duygusu:

İnsanlar, yaşantısı boyunca, ömrünü hep bir mutlu son ile bitirmek ümidiyle yaşar. Yaşama sevinci, insanın her anının ve acı-tatlı anılarının nihayetinde, ne yaşarsa yaşasın hayatı sevme eğilimine verilen addır. Yaşama sevinci insanın hâlden ve geçmiş yaşantısının toplamından duyulan bir memnuniyet hissidir. (Sarıçiçek, 2018:172) Yaşandığına, iyi kötü sahip olduğu şeylere şükretmesi, memnun olması. (Çetin, 2019:60)

Recep Küpçü, şiirlerinde yaşama sevincini, onun bu hissini elinden almak isteyen baskıcı rejimin karşısında bir kalkan olarak kullanmıştır. O, yaşama sevincini hiçbir zaman kaybetmemiş, aksine yaşama sevincini en derinden hissedebilen kişilerdendir. Bu hissin kor olup onu yakması sonucu kaleminden "Burgas'da Sabah" şiiri dökülmüştür: *Öte yanda sütliman deniz/Cömertçe açar kollarını/Ve sevenlere bahşeder sularını/Plaj garkolur neş'esine insanların/alabildiğine bir gün başlar/Ah, zevki mi olurdu yaşamanın/olmasaydı eğer şu sabahlar?* (Tuna Dergisi, 2006: 53-54) Şiirde şairimiz,bütün duygularını unutmuş, bir sabah sevincini aşk,doğa ve hayvan alemine şiirsel, şair gözüyle bakıp, bütün bunları bağdaştırıp anlatmış, poetik kaidelere uygun şiir dizmiştir. Bu gibi şiirlerde şairler, Küpçü gibi bütün hissi veya nesneyi yaşam sevinciyle harmanlarlar. Hayata iyimser bir bakış açısıyla yaklaşan şair-ler,kuş cıvıltılarından,açan çiçeklerden,güzel havalardan,mutlu aile yaşantılarndan,yolunda giden aşk ilişkilerinden, sağlıkla-rından mutlu oluşlarını yaşama sevinci duygusu içinde dile ge-tirirler. (Çetin, 2019: 60) Sabahların aydınlığında mutlu bir yaşam sürmenin önemini *Ah, zevki mi olurdu yaşamanın/Olmasaydı eğer şu sabahlar* bendinde yine yaşama sevinci ile dolan siteminde belirterek şiiri tamamlamıştır.

1.2.4. Gurbet Duygusu:

Gurbet duygusu, insanların farklı şekillerde yaşamak zorunda kaldığı veya kendi tercihiyle tecrübe ettiği bir duygudur. Aslında bu duygunun temelinde her bakımdan sevgi beslenilen, herhangi bir kavramdan uzak kalma yatabilir. İnsan sevdiği bir kişiden uzaktayken de gurbet duygusuna düşebilir, Vatanından uzaktayken de. Doğup büyünülen yerlere de gurbet duygusu beslenebilir, hiç görülmemiş lakin bilincinde olunulan topraklara da. Gurbet duygusunun en aşkar göründüğü zaman Vatandan ayrı kalındığı zamandır. Çünkü Vatan neresiyse, aile, mutluluk, ekmek ve aş oradadır. Bu histeki insanlar da farklı duygular içerisinde olabilir. Şu veya bu sebeple doğal çevresinden ayrı kalmış insan bir eğretilik,köksüzlük,terkedilmişlik,bir kenara atılmışlık duygusu içinde olur. Ve bu gurbet duygusu insanda karamsar, kötümser düşünceler üretir. (Çetin, 2019:75)

Şair Recep Küpçü, bütün bu terimlerin dışında, gurbet duygusunu çiçek,böcek ve baharın gelişi ile aksettirmiştir. Onun "Bahar Gelmiş Diyorlar" şiiri, aslında gölgelerinin altında, derin bir gurbet duygusu yatırmaktadır: *Bahar gelmiş diyorlar, vaktidir, gelebilir/Kutlu olsun sevinci kuşların, çiçeklerin/Benim için önemsiz, bütün mevsimler hep bir/Bir yaram var içimde, asla onulmaz, derin/ Kutlu olsun sevinci kuşların, çiçeklerin.* (Tuna Dergisi, 2006: 64) Yukarıda ilk kısmı alıntılanan şiir, aslında bakıldığında şairimizin mutlu olmadığını, ba-harın gelişini anlatmasına rağmen, bahar mevsiminden zevk almadığını anlatmaktadır. Bunun altında Bulgaristan Türklerine yapılan baskıların derin yarasını bulabiliriz. Küpçü, bu yaraları dizelerinin ruhuna işlemiş bir şairdir. Onun için gurbet duygusunun sosyal açıdan olan kısmından tutulabilir: sosyal açıdan gurbet duygusu savaşlar, sürgünler, göçler, tabii afetler, geçim

temini için başka yerlere gidişler, askerlik vb. yolarla içinde doğup büyüdüğü sosyal çevreden uzaklaşmasının getirdiği bir ıssızlık ve yalnızlık durumudur. (Çetin, 2019:76) Recep Küpçü, doğup büyüdüğü yerde zulüm görmüş bir Türk şairidir. Esas hissin, baharın gelişini kutlamak adına gurbetten kurtulmak olması gerektiğini, Vatana sahip olmak ve Vatan bildiği topraklarda özgürce yaşamak olduğunu bu şiirinde işlemiştir.

Sonuç:

Türk Edebiyatı denince, ayrı sahalardan oluşan, evren ve toplumla ilgili her türlü konuyu ihtiva eden, geniş bir "millet edebiyatı" akla gelmelidir. Bu sahalar arasında Bulgaristan Türk Edebiyatı'nın gözde şairlerinden Recep Küpçü, öncülüğü sıradan bir şairlik vasfı üstlenerek almamıştır. Onun nefer olma yolundaki en önemli durumu milliyetini ve inancını asla unutmamış olmasıdır. Küpçü duygularını haykıra haykıra söyleyebildiği zamanlarda korkusuzca yazmış, bazen baskıcı rejimden dolayı haykırtılrını şiirin derin sembol gücüne sararak dizelerini oluşturmuştur. Büyük Türk Edebiyatı adına Recep Küpçü gibi şairlik ve yolbaylık yapmış isimlerin eserlerinin poetik yönü-nü yakalamak ve hayatlarındaki mücadelelerini öğrenmek, derin bir milli bilinç yanında millilikle harmanlanmış doğa,sevgi,aşk gibi içten gelen sonsuz duyguların da şahdamarını tutmak demek olacaktır.

Kaynakça

1. AYVAZOĞLU, B. (2006) "Beşir Ayvazoğlu Gözüyle Recep Küpçü", Tuna Dergisi Ölümünün 30. Yılında Şair Recep Küpçü Özel Sayısı, C:12 S:110-111, s.48-50
2. CAN, E. (2014) "Bir Dava Adamı Olarak Recep Küpçü",T. Ü. Balkan Araştırma Enstitüsü ve Trakya-Balkan Türkleri Kültür ve Yardımlaşma Derneği Sempozyumu.
3. ÇAVUŞ, M. (2006) "Recep Küpçü Gerçeği", Tuna Dergisi Ölümünün 30. Yılında Şair Recep Küpçü Özel Sayısı, C:12 S:110-111,s.7-15.
4. ÇETİN, N. (2019) "Şiir Çözümleme Yöntemi", Ankara, Akçağ Yayınları.
5. KOMİSYON (1998), "Türk Dünyası Edebiyatları", İstanbul, MEB Eğitim Basımevi.
6. SARIÇİÇEK, M. (2018), "Şair Sezen Aksu Müziğin Gölgesindeki Şiir", Kayseri, Kimlik Yayınları.
7. TUNA DERGİSİ (2006), Ölümünün 30. Yılında Şair Recep Küpçü Özel Sayısı, C:12.
8. URL-1:*https://kircaalihaber.com/tarih/esim-recep-kupcu*

POETISM OF EMOTION İN THE POEMS OF BULGARIAN TURK POET RECEP KUPCU

İlhami KOCH

Abstract:

Bulgarian Turkish Literature is a literature, which has strictly adopted the Turkish councious along with its being considered amongst Balkan Turkish Literatures, such as West Thrace Turkish Literature, Romania Turkish Literature and Macedonia- Kosovo Turkish Literature, positioned on strong

foundation compared to the literatures, in which its own formation is referred. Hence, the Turkish community, who live in that region, has been able to receive the same praises for themselves. One of those, who deserves this praising to the full extent, is Recep Kupcu. His poems were also translated to the Bulgarian language and he took the chance of being first on this matter in hand with his books, named “Dostlarım” and “Yolcu Yolunda Gerek”. His first poetry books were “Otesi Var” (1963) and “Otesi Dus Degil” (1967) that had been published while he was alive. The poet, who was a legendary soldier of the Bulgarian Turks, died on the date of April 26th, 1976.

Key words: recepkupcu, bulgarian regime, cultural, nationalist, turkish provinces, approaches, 1976.

KIBRIS TÜRK YAZARI BƏKİR QARA YARADICILIĞINDA MÜHARİBƏ MÖVZUSU

İlkanə İBRAHİMBƏYLİ,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dos. Elmira Məmmədova-Kekeç

Məqalədə Quzey Kıbrısın tarixi keçmişinə və ədəbiyyatına nəzər salınmışdır. Kıbrısın türklərinin XX əsrdə yaşadıqları ağır bir dönəmdə baş verən hadisələrin ədəbi prosesdəki izləri araşdırılmışdır. Təbii ki, müharibə və onun izləri Kıbrıs türklərinin həyatına, o cümlədən ədəbiyyatına da təsir göstərmişdir.

Quzey Kıbrıs şair, yazar və dramaturqları, o cümlədən Bəkir Qara yaradıcılığında müharibə mövzusu aparıcı mövqedə dayanmışdır. Neşe Yaşın kimi şairlərin də yaradıcılığında da Kıbrıs həqiqətləri dilə gətirilmişdir.

Məqalədə Bəkir Qaranın "Qara Əli", "Yorğun günlər", "Bacanaq" hekayələri təhlilə cəlb edilmişdir.

Müasir dövrümüzdə müstəqil türk dövlətlərinin milli mədəniyyətləri türk sivilizasiyasını ümumdünya səviyyəsində təmsil edəcək yaradıcı potensiala malikdir. Günümüzdə istənilən türk xalq ədəbiyyatına müraciət etdikdə, ondan kiçik bir parça belə oxuduqda anlamaq olur ki, bədiilik və estetik ruh hər zaman türklərin ruhunda olub. Yaxın keçmiş olan XX əsrin əvvəllərindən bugünə qədər keçən dönəmdə türk sivilizasiya-sının dünyaya bəxş etdiyi dəyərlər danılmazdır. (Feyziyev, 2017:117) Türk ədəbiyyatçılarının, ziyalılarının görkəmli şəxslərinin imza atdığı sahələr isə olduqca çoxdur. Quzey Kıbrıs isə dünya elm və mədəniyyət sahələri içində bu yolu ağır və keş-məkeşli keçənlərdəndir.

“Sülh ən böyük xöşbəxtlikdir”, - deyən Bəkir Qara tarixin izi ilə gedərək, gerçək həyat hadisələrini ədəbiyyatla qovuşdurmuş Quzey Kıbrıs ədiblərindəndir. O yaxşı bilirdi ki, tarixi ədəbiyyat, ədəbiyyatı da ancaq tarix möhkəmləndirə bilər. O, əsərlərində bir xalqın həyatı, mübarizə əzmi, bəzən qələbə, bəzən də bu qələbə yolundakı çətinliklərini əks etdirməklə qalmamış, həmin mühitin canlı təsvirini də vermişdir.

Kıbrıs Türk yazarı Bəkir Qara yaradıcılığında müharibə mövzusu

“Qara Əli” hekayəsi Bəkir Qara qələmindən çıxmış və həm müharibə psixologiyasını, həm də türkün müharibədə mədəniyyət anlayışını ortaya qoymuşdur. Hekayəni oxuduğumuz zaman çoşqun, dəlisov, vətənpərvər, yoldaşını canı bahasına qoruyan türk əsgərinin əvəzsiz obrazı gözlərdə canlanır. Əli sərkərdə Lala Mustafa Paşa üçün özünü sipər edir. Müharibə ağır və çətin keçir. Günlər, aylar və fəsillər bir-birini əvəzləyir. İtkilər də olur, əsirlər də... Fəqət türkün fərqi burda başqa olur. İnsanı insan sayan türk oğlu, mübarizənin də, mərhəmətin də yerini bilərək edir fəthlərini. (Kara, 1999:1) Qara Əli əsir düşmüş, sahibsiz qadınların sərbəst buraxılması əmrini verir:

“Olmaz!”, - dedi, - “ İnsandan qənimətmi olar? Harada görülüb? Deyin ki, buraxsınlar qadınları!” (Kara, 1999:9)

Əbu Turxan demişdir: “Əsl kişinin məhəbbət ovu qadın qəlbində sığınacaq tapmaq deyil, bu qəlbi bütövlükdə fəth etməkdir”. Əli də məhz bunu fəthi edir. Ayşə ona aşiq olur. Ruhların tamamlanmaq əzmini reallaşdırır.

Başqa məsələlərə nəzər yetirək. Yer üzündə bir hiss var ki, o hər şeyi əzər və hər şeyə qalib gələr. Bu sevgidir! Çünki sev-

gisiz qəlblərdə başlayan müharibələr zamanla qloballaşır və ağır itkilərə gətirib çıxarır. Kıbrıs türk mücadiləsinin ən öndə gələn şairlərindən olan Özker Yaşının qızı Nəşə Yaşın bir şeir parçasında belə yazır:

"Yəqin ki, atam ölməmişdir ana,
Artıq ağlama!
Evimizdə gözləyir bizi.
Mən böyüdüyüm zaman,
Dırmaşıb sərhəddəki divarı,
Alıb gətirərəm onu." (Yaşın, 1979: 13)

"Ana və balası" adlı şeirindən verilmiş bu parça Kıbrısın bölünmüşlüyün əks etdirir. Məsələ əslində qalibin də, məğlubun da itirdiyi bəzi əsas məziyyətlərdir. Müharibə ilə bölünən ərazidə ailə üzvləri bir-birindən ayrılıb. Fəqət ən çox hadisələrin təsir nöqtəsi uşaqdır. Balaca dünyasında ağır dərdlər peyda olur. Taleyinin nə olacağını bilmədiyi halda, atasının taleyini düşünür. Doğulan andan türk kişisinin mübarizə və müdafiə əzmini daşıyan bu uşaq, bir tərəfdən gələcəyə inamla baxır. O böyüdüyü zaman artıq sərhəd divarının adının yalnız hərfi mənasının qalacağını xəyal edir. Bugünün körpəsinin, sabahın sərhədləri aşıb, qanad çalan bir şahinə çevriləcəyi mesaji verilir.

Əsas məsələ isə düşmən ölkələrin müharibə etməsi deyil. Düşmənlərin bir-biri öldürməsi yox, insanın insanı öl-dür-məsidir. Belə yerdə İmmanuel Kantın fikri beyni qurcalayır: "Fərd ölməyə məhkumdur, bəşər övladı – ölümsüzdür." Yolun sonunda ya ölümlü, yada ölümsüz olmaq olsa belə, tanrının verdiyi bu ömrə kim və niyə qarışsın?! Ədəbi ruhlu sətirlərdə qeyd edilir:

“İsti çörəyə baxarkən,
Gərnəşirdimi insan?
İnsan insanı öldürürdümü,
Beləsini heç görməmişdi”
(Deliceırmak, 1998: 81)

Andını, əhdini və peymanını türk millətinə bağlamışdı Kıbrıslılar. Bəlkə, bu gün, bəlkə də, sabah olacağına inandıqları bir ümid üçün çarpışıb, canlarını qurban verirdilər. “Bacanaq” adlı hekayədə Bəkir Qara gənclərin səsini qələmi ilə qeyd edir: “Kıbrıs türkünün yaşayış və hürriyyətinə, canına, malına və hər cür ana və müqəddəs, hər nədən və kimdən olursa olsun, ediləcək təcavüzlərə qarşı qoymaq üçün, özümü Türk millətinə həsr etdim...” (Kara, 1999:149)

H.Əliyevin dediyi kimi: “Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.” Bu milli sərvətdən pay almaq isə Kıbrıslılar üçün çətin idi, bir yaraları təzəcə qaysaqlamamış digərinin sökülüb qoparılması ilə nəticələnirdi. 21 dekabr 1963-cü ildə terror təşkilatı EOKA-nın Kıbrısda Kıbrıs türklərini qətlə yetirməsinin üstündən 59 il ötür. “Qanlı Milad” adı ilə tarixə düşən bu qanlı terror xalqın başına gələn faciələrdən sadəcə biridir. Düşünün, hücumlarda 364 nəfər həyatını itirir, 103 türk kəndi boşaldılır. İnsanlar qətl və sürgün edilir. (URL-1) Bəkir Qaranın “Yorğun günlər”i də elə bu hadisənin təsiri altında yazılıb. Hər hadisədən sonra daha ağır günlər bu travmanı üs-tələdiyimiz günlərdir. Hadisələr bitmiş, acılar arxada qalmışdı... Hansı ad altında başlanmasından asılı olmayaraq son nəticədə müharibə sadəcə insan qırğınıdır. Həsən və Əminəni isə elə bu qırğınlar ayırır. Əvvəl itkin, sonra da şəhid olur Həsən. (Kara, 1999:155) Bəkir Qara zamanı doğru qiymətləndirə bilməməyin acı gerçəkliklərini də təsvir edir. Həsən və Əminənin evliliklərində baş vermiş soyuqluq və nakam ölüm deyilməmiş sözlər,

yaşanmamış xoş anlar və bəlkə də ağlın bir tərəfində ilişib qalacaq kiçik xatirəni yarımçıq qoyub gedir. Belə bir sual isə in-sanı düşündürür. Görəsən M.Safi haqlıdırmı? Adam sevəndə ağlını itirir, evlənəndə isə bu itkini hiss eləyirmi? Yoxsa elə sevgi ağılın özüdür? Əslində bunlardan da öndə duran sarsılmış psixologiyadır. Daim müharibə və mücadilə rejimində olan insanların ya vecsiz, ya da kefsiz, ən çox da ümidsiz olması həmin an üçün təbii haldır. Bu acı təbiiliyin səbəbkarı isə müharibədir. Ədəbiyyat isə sözü, qələmi və poetikası ilə bu acı təbiiliyə etiraz edəndir, etdirəndir!

Nəticə

Sonda onu qeyd etmək lazımdır ki, ölkədə ədəbiyyat var deyə bilmək üçün bədii əsərlər yazmaq kifayət deyil. Əsər vasitəsi ilə nəyisə çatdırmaq, nəyisə öyrətmək daha vacibdir. Quzey Kıbrıs ədəbi mühiti və xalqının tarixi keçmişi bizə rahat şəkildə mübariz bir türk xalqı haqqında danışmağa əsas verir. Əsas məsələ isə bu türk xalqının ruhundakı poetikanı, yazıb-yaratmaq eşqini duymaqdır. Adlarının tarixindən silinməsinə çalışıldığı dövrdə belə Kıbrısda yaradıcılıq prosesinin səngiməməsi isə sadəcə alqışlanası və qürur duyulası haldır.

Qaynaqlar

1. DELİCEIRMAK, Orbay. (1998). *Süleyman Uluçamgil – Bütün Eserleri*. KKTC: KKTC Milli Eğitim, Kültür, Gençlik ve Spor Bakanlığı Yayınları
2. FEYZİYEV, Cavanşir. (2017) *Türk Dünyası: Türk sivilizasiyasının təməl dəyərləri*. 5 kitabda. Birinci kitab: Bakı: Mütərcim nəşriyyatı
3. KARA, Bekir. (1999). *Çalkantı*. Kuzey Kıbrıs: KKTC Milli Eğitim ve Kültür Bakanlığı Yayınları

4. YAŞIN, Neşe . (1979). *Savaşların Gözyaşları*. İstanbul: Yeni Türkü Yayınları
5. URL-1. Muhammet, İkbal. (2021). “Kıbrıs'ta Rumların gerçekleştirdiği 'Kanlı Noel' katliamının üzerinden 58 yıl geçti”. https://www.aa.com.tr/tr/dunya/kibrista-rumlarin-gerceklestirdigi-kanli-noel katliaminin uzerinden-58-yil-gecti/2452203

THE SUBJECT OF WAR İN THE WORKS OF TURKİSH CYPRİOT WRİTER BEKİR KARA

İlkana İBRAHİMBAYLİ

Abstract:

The article looks at the historical past and literature of Northern Cyprus. A difficult period in which the Turks of Cyprus lived in the twentieth century has been looked at. Of course, the war and its traces affected the life of the Turkish Cypriots, as well as their literature.

The theme of war has occupied a leading position in the works of poets, writers and playwrights of Northern Cyprus, including Bekir Gara. The realities of Cyprus have been expressed in the works of poets such as Neshe Yasin.

The article analyzes Bekir Gara's stories "Black Ali", "Tired Days", "Bacanag".

Key words: Bakir Gara, Gara Ali, Tired days, war

QARABAĞ REGİONUN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA TURİZMİN ROLU

İmran ŞƏKİYEV
Sumqayıt Dövlət Universiteti, bakalavr
Elmi rəhbər: Əfşan Babaşova

Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Qələbədən sonrakı fəaliyyəti xalqımızın qurub yaratmaq əzmini də yüksəldib. Belə ki, Qarabağda bölgə iqtisadiyyatının dirçəldilməsi yaxın gələcəkdə bu diyarın yenidən bütün Cənubi Qafqazın inkişaf edən mədəniyyət və turizm mərkəzlərindən olacağını deməyə əsas verir. Prezident İlham Əliyevin qətiyyəti və Azərbaycan Ordusunun rəşadəti sayəsində düşmənin diz çökdüyü Vətən müharibəsində Qarabağın işğaldan azad olunması ölkənin turizm potensialını daha da artırıb. Qarabağın əlverişli iqtisadi-coğrafi mövqeyə, zəngin təbii ehtiyatlara, nadir iqlim xüsusiyyətlərinə malik olması, münbit torpağı, flora və faunası ölkə turizm sənayesinin inkişafı üçün yeni üfüqlər açıb. Hələ işğaldan əvvəl Qarabağda, işğala məruz qalmış digər rayonlarda turizmin inkişafı ilə bağlı müəyyən işlər görülmüşdür. Lakin indi bu yerlərdə yeni turizm infrast-ruktur layihələri reallaşdırılmağa başlanmışdır. Bu gün işğaldan azad olunmuş Laçın və Kəlbəcər rayonlarnın unikal relyef müxtəlifliyi burada həm yay, həm də qış turizminin perspektivlərini artırır. Kəlbəcər rayonu Cənubi Qafqazda turizmin inkişafı baxımından azsaylı regional ərazilərdən biri hesab edilir. Buranı yayda və qışda, həm tarixi, dini, həm də müalicəvi cəhətdən turizm isti-qamətində inkişaf etdirmək mümkündür. Mütəxəssislərin fikrinə görə, təkcə Kəlbəcərin İstisu sanatoriyasına görə bu rayona turistlərin böyük maraq göstərəcəyi şübhəsizdir(Xalq Qəzeti;

2021).SSR-i dövründə 80- ci illərdə istisu bulağı üzərində iri kurort və mineral sudoldurma zavodları tikilib. Həm də istisu qəsəbəsində istisu sanatoriyaları fəaliyyət göstərirdi. Orada hər il 50 mindən artıq insan müalicə olunurdu, eyni zamanda istira-hət edirdi. Bundan başqa, Kəlbəcərin tarixi mədəni abidələri də turizmin inkişafında əhəmiyyətli rol oynayacaq. Uca dağları, şiş qayaları, yaşıl meşələri, gur çayları buranı turistlər üçün cəlbedici məkana çevirəcəkdir.

Füzuli rayonu yaxınlığında yerləşən Azıx mağarası turistləri cəlb edəcək məkanlardandır. Şuşa rayonu SSR-i dövründə də mühüm turizm mərkəzlərindən biri olmuşdur. Bunu nəzərə alaraq Azərbaycan SSR-i hökuməti Şuşa şəhəri ətrafında 24 noyabr 1988 ci ildə 416 nömrəli qərarı ilə Daşaltı dövlət yasaqlıqı yaradılmışdır. (Həsən Əliyev və X. Mahmudov; 1982; 238)Məlumdur ki, Şuşa şəhərinin və onun ətrafının bolneoloji iqlimi, füsunkar , gözəl, səfalı təbiət kompleksi yalnız Şuşadan deyil , onun ətraf ərazilərdən də sanotariya- kurort kimi geniş istifadə etməyə tam imkan verir. Turist marağı baxımından dünyada çox populyar olan Xarıbülbülü Şuşada canlı olaraq seyr etmək Qarabağın turizm cazibədarlığını xüsusi olaraq artırır. Bu cür obyektlərin istifadəyə verilməsi Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın turizm potensialının möhkəmləndirilməsində çox mühüm rol oynayacaq. Ağdam rayonunda zəngin turizm potensialına malikdir. Dağlıq və dağətəyi ərazilərində müalicəvi mineral bulaqlar, zəngin təbiətə malik olan Gülablı və Şelli kəndlərində turizm bazaları var idi. Bu turizm və müalicə müəssisələri Azərbaycanı dünyada tanıtmaqla bərabər həm də dövlət büdcəsinə böyük gəlir gətirirdi. Tezliklə Ağdam Azərbaycanın əsas turistik məkanına çevriləcəkdir. Ağdamın tarixi abidələri və bənzərsiz memarlığı yeni turizm marşurutlarını yaradacaq. Bu da turizmin inkişafında çox faydalı ola-

caq.Qarabağın turizm potensialı ilə seçilən guşələrindən biri də Tərtər rayonunun Suqovuşan qəsəbəsidir. Qəsəbənin saf dağ iqlimi, gözəl təbiət mənzərələri, Tərtərçayın kənarında yerləşməsi, tarixi abidələri və su anbarı burada turizmin inkişafı üçün çox əlverişlidir. Artıq Suqovuşanda turizmin inkişafı üçün hazırlanan konsepsiyaya uyğun olaraq ilkin işlərə başlanılıb. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın martın 20-də Suqovuşana səfəri zamanı Tu-rizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməli qoyulub.Turizm İnkişaf Konsepsiyasına əsasən su anbarının ətrafında müxtəlif turizm zonalarının yaradılması planlaşdırılır. İlkin olaraq 5 hektar ərazidə istirahət parkı, onun içərisində piyadaların gəzintisi üçün ərazilər, Turizm İnformasiya Mərkəzi, qayıqla gəzinti üçün platformalar yaradılacaq. Bundan əlavə, su anbarının ətrafında ictimai iaşə obyektlərinin, qonaqlama müəssisələrinin yaradılması üçün zonalar ayrılacaq. Suqovuşanın girişində olan körpünün ətrafında Tərtərçayın boyunca istirahət düşərgəsinin yaradılması planlaşdırılır. Qarabağın unikal təbii iqlim xüsusiyyətləri ərazidə aqroturizmin və kənd-yaşıl turizmin inkişafına da imkan verir. İşğaldan azad edildikdən sonra burada kənd infrastrukturu-nun sürətlə yenilənməsi, normal həyat üçün bütün zəruri şəraitin yaradılması bölgə kəndlərini turistlər üçün sevimli istirahət məkanı edəcək. Ermənilər 30 il ərzində işğal altında olan rayonları dağıdaraq, infrastrukturu məhv etmişlər. Bütün bunlara baxmayaraq, yaxın gələcəkdə Qarabağ Azərbaycanın əsas turizm bölgəsinə çevriləcək.

Xocavəndin Hadrut qəsəbəsinin turizm imkanları da geniş və çoxşaxəlidir. Qəsəbədə və onun ətrafında yerləşən yaşayış məntəqələrində çoxsaylı tarixi-mədəni abidələr, o cümlədən qədim alban məbədləri mövcuddur. Onlardan faydalanma qəsə-

bədə turizm sənayesinin inkişafı üçün mövcud olan potensialları daha da genişləndirir. Böyük turizm potensialının mövcudluğu Hadruta qısa zamanda iqtisadi aktivliyi bərpa etməyə imkan verəcəkdir.

Qarabağın turizm potensialına ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizmi kimi növlər daxildir. Hazırda bütün dünyada turizm iqtisadiyyatın gəlirli sahələrindən biri sayılır. Ölkəmizin turizm potensialını dəyərləndirərkən qeyd etmək lazımdır ki, Azərbaycan turizm sənayesinin inkişafı üçün zəngin ehtiyatlara, əlverişli iqtisadi-coğrafi mövqeyə malikdir. Belə ki, Avropanı Qafqaz və Mərkəzi Asiya ölkələri ilə birləşdirən hava və dəniz daşımaları, magistral avtomobil və nəqliyyat yolları ölkəmizdən keçir. Həmçinin, Azərbaycan nadir təbii iqlim xüsusiyyətlərinə malik bir ölkədir, onun fauna və florası Qafqazın başqa respublikalarına nisbətən xeyli zəngindir. Azərbaycan florasının rəngarəngliyi ölkəmizə ilk dəfə gələn turistləri də heyran edir. Keçən il Birləşmiş Ərəb Əmirliklərin Dubay şəhərində keçirilmiş "ATM 2021" beynəlxalq turizm sərgisində ilk dəfə olaraq Azərbaycanın, işğaldan azad edilmiş Qarabağ bölgəsinin, xüsusilə Şuşa şəhərinin turizm potensialı təbliğ olunmuşdur. Tədbir iştirakçılarına işğaldan azad edilmiş ərazilərin turizm potensialı, mövcud və inkişaf etdirilən turizm məhsulları və yeni turizm təklifləri barədə məlumatlar təqdim edilmişdir.

Maddi-mədəniyyət abidələrimiz erməni silahlı qüvvələri tərəfindən dağıdılsa da, meşələr yandırılaraq ekoloji terror törədilsə də, bu gün həmin ərazilərdə Azərbaycan Prezidentinin fərman və sərəncamları çərçivəsində bərpa işlərinə başlanılmışdır (Xalq Qəzeti 2021).

Qaynaqlar

1. Xalq qəzeti. Bakı şəhəri. 5.12.2021.
2. Təbiətin keşiyində: Həsən Əliyev, X. Həsənov Bakı-1982. 238 s.
3. Soltanova H.B., Hüseynova Ş.H., Turizmin əsasları. BDU. Dərs vəsaiti. Bakı-2007. 316s. səh.6-10

THE ROLE OF TOURISM IN THE SOCIO-ECONOMIC DEVELOPMENT OF THE KARABAGH REGION

İmran SHAKİYEV

Abstract

To build the activity of our people after the historic victory of Azerbaijan in the Patriotic War also increased his determination. Thus, the revival of the regional economy in Karabakh in the near future from the developing cultural and tourism centers of the entire South Caucasus to this land again gives reason to say that it will be. The determination of President Ilham Aliyev and the bravery of the Azerbaijani Army Thanks to the liberation of Karabakh from occupation in the Patriotic War, when the enemy fell to its knees has further increased its tourism potential. Karabakh has a favorable economic and geographical position, rich in natural resources availability of resources, unique climatic features, fertile soil, flora and fauna of the country tourism opened new horizons for the development of industry.

In connection with the development of tourism in Karabakh and other occupied regions before the occupation certain work has been done. But now there are new tourism infrastructure projects in these places began to be realized.

Today, the liberated Lachin and Kalbajar regions are unique The diversity of the terrain here increases the prospects of both summer and winter tourism. Kalbajar district It is considered one of the few regional areas in the South Caucasus in terms of tourism development. This place to develop tourism in summer and winter, both historically, religiously and medically possible. According to experts, only in the Istisu sanatorium of Kalbajar Undoubtedly, it will be of great interest to tourists resort and mineral filling plants were built. There are also Istisu sanatoriums in Istusu settlement operated. More than 50,000 people were treated there every year, as well as rest was doing. In addition, the historical and cultural monuments of Kalbajar also play an important role in the development of tourism will play. High mountains, rocky cliffs, green forests, lush rivers make this place an attractive place for tourists. will convert.

Key words: Karabakh, Shusha, Tourism, Sanatorium, economic districts, Wang temple.

AZƏRBAYCAN DILI ŞIVƏLƏRINDƏ FEİL ZAMANLARININ İFADƏ FORMALARI

İncə BƏŞİRZADƏ
Odlar Yurdu Universiteti, bakalavr
Elmi rəhbər: dr. Sevinc Qəmbərova

Tezisdə Azərbaycan dili şivələrində feil zamanlarının ifadə formaları tədqiqata cəlb edilmişdir. Azərbaycan dili şivələrində istifadə olunan feilin zaman formaları göstərilərək onların səciyyəvi xüsusiyyətləri gostərilmişdir. Morfoloji əlamətləri isə müasir Azərbaycan dilində işlədilən şəkilçilərlə müqayisə edilib nümunələrlə birlikdə göstərilmişdir. Azərbaycan dilçiliyində felin zamanları həm şəkil kateqoriyası (xəbər şəkli), həm də zaman kateqoriyası daxilində təqdim olunur. Necə təqdim olunmasından asılı olmayaraq temporallığın qrammatik şəkilçilərlə ifadəsi ayrılıqda, həm də sistemli şəkildə tədqiq olunmalıdır.

Azərbaycan dilinin zəngin dialekt sistemi vardır. İndiyə qədər dilimizin şivələri yetərincə tədqiq olunmuş, coğrafi mövqeyinə və səciyyəvi Azərbaycan dilinin zəngin dialekt sistemi vardır. İndiyə qədər dilimizin şivələri yetərincə tədqiq olun-muş, coğrafi mövqeyinə və səciyyəvi xüsusiyyətlərinə əsasən qruplaşdırılmışdır (Qəmbərova,2021,s.3).

Dialekt və şivələrimizi morfoloji cəhətdən ədəbi dildən ayıran başlıca fərqlərdən biri də dialekt ve şivələrimizdə sadə xəbər şəklinin müxtəlif şəkildə özünü göstərməsidir. Bircə bunu demək kifayətdir ki, ədəbi dildə indiki zamanın bir şəkli olduğu halda, dialekt və şivələrimizdə bunun səkkizə qədər müx-təlif şəkli vardır (Şirəliyev,2008,s.210).

Şühudi keçmiş zaman şəkilçilərinin işlədilməsinə görə dialekt və şivələrimizi üç qrupa ayırmaq olar: Bütün şəxslər üzrə

tək və cəmdə ədəbi dildə olduğu kimi dörd variantlı şəkilçilərin işlədilməsi: tək ş. -dım, -dim, -dum, -düm; IIş. -dın, -din, -dun, -din; III ş. -di, di, -du, -di, -dux, -dit, -dux, -dini, -diniz, -dunuz. Cəm: I ş. -dıx, -dix, -dux, -düx; II ş. -dınız, -diniz, -dunuz, -dünüz; III ş. -dı (lar), -di(lər), du(lar), -dü(lər).

İndiki zamani ifadə etmək üçün dialekt və şivələrimizdə bir çox şəkilçilər işlənir ki, bunlara ədəbi dildə təsadüf edilmir. Qıpçaq tipli indiki zaman şəkilçisi -a-dı,-a-di, -a-du, -a-dü bir o qədər geniş yayılmamışdır. Bu şəkilçiyə bütün Quba dialektində, səpələnmiş halda isə Bakı, Mərəzə və Əli Bayramlı (indiki Şirvan) rayonlarının bəzi kənd şivələrində rast gəlirik. Məlum olduğu üzrə, bu şəkilçilər indiki zamanın analitik tipi sayılan felin kökü+ a durur (ala durur) şəklindən törəmişdir.

İndiki zamanın –turu//-durur şəklinə qədim ədəbi dilimizdə rast gəl mək mümkündür. XIV və XV asr ədəbi dilimizdə artıq -a, -a durur şəklindən meydana gəlmiş -a-dir, -a-dir, -a-dur, -a-dür indiki zaman şəkilçilərinə təsadüf edilir. Müasir dialekt və şivələrimizdə isə bu şəkilçinin ancaq I və III şəxsdə işlənən -a, -d, -a, -d (I şəxs), -a-di, -a-di, -a-du, -a-dü (Tanverdi, 2017,s.496).

Qəti gələcək zaman dialekt və şivələrimizdə -acax, -acağ, -əcək, -acax, -ajax, -ajać şəkilçiləri vasitəsi ilə ifade olunur. -acax, -acağ, -acak, -acax şəkilçiləri dialekt və şivələrimizin əksər qismini əhatə edirsə, -ajax, -ajax şəkilçiləri ancaq bir sıra dialekt və şivələri əhatə edir. Bu iki əsas şəkilçidən başqa dialekt va şivələrimizdə bunların bir sıra variantlarına da təsadüf edilir.

Qeyri-qəti gələcək zamanın inkar şəklinə gəldikdə isə dialekt ve şivələrimizdə vəziyyət tamamilə dəyişir. Ədəbi dildən fərqli olaraq bir sıra dialekt və şivələrimizdə I şəxs tək və cəmdə qeyri-qəti gələcək zamanın qədim şəkilçilərindən biri olan -manam, -mənəm, -manığ, -manig şəkilçilərinə təsadüf edilir. XX əsrə qədər ədəbi dilimizdə qeyri-qəti gələcək zamanın I şəxs

inkarında həm -manam, -mənəm, həm də -man, -mən şəkilçiləri işlənmişdir (Məmmədli,2019,s.204).

-ı,-i,-u,-ü şəkilçisinin əlavəsi əsasında əmələ gələn qeyri-qəti gələcək zaman Təbriz, Göyçayın Ləkçılpaq, Cəbrayılın Papı, Soltanlı, Qərbi Azərbaycandakı Gölkənd şivələrində müşahidə olunmuşdur. Məs.: doldurusan "doldurarsan", gəli "gələr", salı "salar", diyi "deyər" (Təbriz) və s. XVIII–XX əsrlərdə isə -ı,-i,-u,-ü şəkilçiləri qeyri-qəti gələcək zaman şəkilçilərinin yerində işlənmişdir. Məs.:

Yay kimi nə gözəl çəkibsən qaşı,

Ona söz yox, hər nə desəm yaraşı (M.P.Vaqif) (Bayramov, 2022, s.267).

Nəticə

Tədqiqatçılsrın apardğı araşdırmalarda əsasən feil zamanlarının ifadə formalarının zaman-zaman dəyşikliyə uğradığını görürük. Bu hadisə ədəbi dil üçün çox da xarakterik deyil. Bizim amalılmız odur ki, ədəbi dilimizin saflığını, ahəngdarlığını qoruyaq. Eləcə də xarici təsirlərdən qoruyaq. Azərbaycan dili şivələrində istifadə edilən feil zamanlarının ifadə formaları ilə yanaşı, bütün nitq hissələrini ədəbi dil normaları müqayisədə tədqiqata cəlb edib öyrənməli və gələcək nəsillərə ərməğan eləməliyik. Humboldt haqlı olaraq gözəl qeyd etmişdir ki, dil xalq ruhunun təzahürüdür: dil onun ruhu, ruh isə dilidir.

Qaynaqlar

1. Azərbaycan dilinin dialektoloji lüğəti Bakı,'Şərq-Qərb ' 2007
2. Bayramov İ. Azərbaycan dialektologiyası. Ankara, 2022
3. Qəmbərova S. Azərbaycan dilinin qərb şivələri və türk dilinin Qars şivələrinin leksikası. Bakı, Elm və təhsil, 2021
4. Məmmədli M. Azərbaycan dialektologiyası. Bakı, 2019
5. Şirəliyev M. Azərbaycan dialektoligiyasının əsasları. Bakı, "Şərq-Qərb", səh.415 s.210
6. Tanverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı,2017.

The expression forms of Tenses in Azerbaijani dialects

İnja BASHIRHAZADA

Abstract

Forms of expression of verb tenses in Azerbaijani dialects In the thesis the Azerbaijani language and dialects, tense forms of the verb are involved in research. The tense forms of the verb are noted, their features are shown. Suffixes are compared with suffixes used in modern Azerbaijani and given examples. In Azerbaijani linguistics, the tenses of the verb are presented both within the category of image (verb form) and within the category of time. Regardless of how it is presented, the expression of temporality with grammatical suffixes must be studied both separately and systematically.

Key words: Azerbaijan language, dialect, verb tense, example, compare

THE MOST USEFUL METHODS IN FOREIGN LANGUAGE TEACHING

Injy GURBANLY,
Ganja State University, bachelor,
Supervisor: Hajiyeva Urqiyya

Abstract

The advantages of learning foreign languages are increasing as the world becomes increasingly globalized and bilingualism is now perhaps the most useful real world skill to ever exist, rather than just being a nifty party trick. Foreign language study is all about learning how to truly communicate and connect with others-an incredibly important life skill that can only be cultivated by interacting with people. Learning multiple languages helps the brain to nurture, and makes it easier to learn and understand new languages. It is all about learning how to truly communicate and connect with others which add an important life skill that can only be cultivated by interacting with people. The reasons for learning a new language are varied, but the importance of learning foreign languages is universal: it will always benefit you in one way or another. But how to teach a foreign language? What methods do we need to achieve this?

Communicative language teaching (CLT)

This approach is probably now the most popular teaching model for English language teaching globally. In part because it aims to put students in a variety of real-life situations, so that they can learn how to use their language skills to communicate in the real world. Educators therefore tend to focus on fluency of communication rather than accuracy and lessons are more hands-on than theoretical. Interactive and relevant classroom activities characterise this approach along with the use of authentic source materials. Teachers are encouraged to

provide the students with as much opportunity to give and receive meaningful communication as possible. The use of personal experience is also common in CLT classrooms.

Task-based language teaching (TBLT)

The focus of TBLT teaching is solely on the completion of a detailed task which interests and engages the learners. Learners use the language skills that they already have to complete the task and work through three distinct phases - a pre-task, the task itself and post-task. Students might, for example, be asked to deliver a presentation about an important environmental issue. In order to complete it, they will need to read / listen to source material, conduct internet research, as well as writing and delivering the presentation itself. Research suggests that students in TBLT classes are empowered and motivated because they 'own' the language and can control the nature of the task response.

Content and language integrated learning (CLIL)

The CLIL approach principally involves studying one subject (for example , biology , science or history) and learning a language , such as English , - at the same time – effectively integrating the two subjects . The language teaching is organized around the demands of the first subject rather than that of the target language . So it's critically important to make sure that the integration is clear and that students are engaged . Having said that , the CLIL approach does create significant opportunities for cross - curricular working ; it opens up language learning to a wider context and can be used to re engage previously demotivated students .

Cooperative Language Learning (CLL)

Cooperative Language Learning or CLL forms part of a wider teaching approach known as Collaborative or Community

Learning (CL). CLL seeks to make the maximum use of cooperative activities involving pairs and small groups of learners in the classroom. As such, it is a student-centered, rather than a teacher-centered, approach to language teaching. In the CLL classroom, all of the language learning activities are deliberately designed to maximise opportunities for social interactions. Students should accomplish tasks by interacting between themselves and talking / working together. The teacher's role is to act as a facilitator of and a participant in the learning tasks.

The Direct Method

In this language teaching approach, all teaching happens in the target language, forcing the learner to think and speak in that language. The learner does not use their native language in the classroom at all! As a result, students work out key grammar concepts by practicing the language and by building up their exposure to it. Standard classroom techniques for this approach include Q+As, conversation, reading aloud, writing and student self-correction.

Audiolingualism

This way of teaching was developed in response to some of the problems associated with Grammar-Translation. As a result, classes are usually held in the target language as this approach deliberately seeks to prioritise speaking and listening skills. Activities typically involve students repeating the teacher's words (either face-to-face or through headphones in a language lab) until they get the pronunciations and rhythm right. Good work is rewarded by the educator and mistakes are quickly corrected.

Grammar-Translation

This is a very traditional teaching approach which prioritises translation from the students' mother tongue into the target language and vice versa. To succeed in this approach, students need to memorize long lists of vocabulary and detailed grammar formats and rules.The approach favours accuracy over fluency and tends to favour the development of reading and writing skills instead of speaking skills. The downside of this approach is that it does not prepare students with spontaneous communication skills. Classroom activities therefore usually include grammar drills, vocab tests and encouraging students to incorporate new grammar concepts in standardised writing tasks.

The Silent Way

It's perhaps hard to imagine a language classroom where the teacher doesn't actually say much, but that's the principle at the heart of this approach. As with CLL above, this approach deliberately shifts the focus from the teacher's teaching to the student's learning.Evidently, the Silent Way uses silence as a teaching tool. It encourages students to be more independent and to discover the target language for themselves. Teachers need to employ the widest possible range of gestures and facial expressions to communicate. Props might also be useful and of course, make sure that you explain the whole process to the class first!

So there are different strategies and methods for teaching a language. The key is to find a way that works for both the teacher and the learner. Sometimes students' learning abilities may be different. Therefore, there is no guarantee that any method will work. The main role of the teacher here is to recognize the student and choose the right method

Reference:

1. GREER, R. Douglas. Designing Teaching Strategies. (2002) United States of America: Academic Press
2. URL-1. Language learning strategies. https://en.m.wikipedia.org/wiki/Language_learning_strategies

ƏCNƏBİ DİLİN ÖYRƏDİLMƏSİNDƏ FAYDALI METODLAR

İnci QURBANLI

Dili öyrətməkdənsə, düzgün metod seçmək daha vacibdir. Ən yaxşı müəllimlər lazımi vaxtda, uyğun fəaliyyətlər üçün və öyrənmə üslubları bu yanaşmanı tələb edən tələbələr üçün bütün mümkün metodologiya və yanaşmalardan istifadə edirlər. Yekun məqsəd şagirdlərə ən uyğun olan metodları seçmək-dir.

Açar sözlər: dil öyrədilməsi, audiolinqualizm, təlim strategiyaları

JOZE SARAMAQO "TƏXIRƏ SALINMIŞ ÖLÜM" ROMANI

Fəridə ABDULLAYEVA,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: Dr. Ülvi Babasoy

Bu məqalədə Portuqaliyalı yazar Joze Saramaqonun "Təxirə salınmış ölüm" romanı təhlil olunur. Romanda adı çəkilməyən bir ölkədə insan şüurunun sərhədlərini zorlayan, qeyri-normal hadisə baş verir. Ölüm anidən, anlaşılmaz şəkildə əsrlər boyu özünün bütün qayda-qanunlarına tabe olan bu ölkəni tərk edir. Zaman isə durmur, öz axarı ilə davam edir, yəni insanlar yaşlanır, yol qəzaları baş verir, lakin heç kəs ölmür, Antropos qarı (Atropos qarı – Qədim Roma inancında Parki adlandırılan tale ilahələri olan bacılardan birinin adı, əfsanəyə görə, insanın yaşam ipini o kəsir) ölüm döşəyində olan kralın ipini kəsmir və beləliklə, hakimiyyət dəyişmir. İnsanlar ilk başlarda bu hadisəni sevinclə qarşılasalar da sonradan kütləvi hal alan bu ölümsüzlük dövlətin, sığorta şirkətlərinin, hakimiyyətə keçmək is-təyən varislərin, xəstəxana müdirlərinin işini çətinə salır. İnsanlar panikaya düşür və belə bir vəziyyətdə insanlığın həqiqi kimliyi ortaya çıxır, insanlar hədsiz dərəcədə azğınlaşır.Ölkədə böyük xaos yaranır. Beləliklə, fiziki ölümün ölkəni tərk etməsi ilə ölkədə mənəvi ölüm başlayır.

Dirilərin qəbiristanlığı

Saramaqonun bizə təqdim etdiyi paradoksal hadisə olsa da, onun qələminə xas bir xüsusiyyət var ki, oxucuları romanda nəyin real, nəyin qeyri-real olduğunun fərqinə vara bilmir. Saramaqonun qoyduğu qeyri-real səhnələr o qədər real təqdim olunmuşdur ki, oxucu bunu gerçək olaraq qəbul edir. (Kekeç, 2021: 76). Bir sözlə, əsərdə paradoksal bədii sturukturu aydın görə

bilirik. Əsərdə keçmiş, indiki və gələcək eyni anda verilə bilir ki, bu da poetik romanın əsas xüsusiyyətidir. Biz "Təxirə salınmış ölüm", digər adı ilə desək, "Ölüm bir varmış, bir yoxmuş" romanını Joze Saramaqonun poetik yazar olduğunu sübut edən mənbə kimi qiymətləndirə bilərik. Saramaqo bu romanla yeniliyə açılmış, bədii sturuktur və üslub baxımından yeniliklə çıxış etmişdir. Roman politikanı, kapitalist sistemi, dini insanların ikiüzlü tərəfini ciddi şəkildə tənqid etmişdir. Bu əsərlə biz sanki yazarın dünyagörüşünə səyahətə çıxıb, düşüncələri arasında dolaşır, çatdırmaq istədiyi fikri aydın başa düşürük. Fəlsəfi və ədəbi anlamda ölüm mövzusunu çox dərin işləyən Saramaqo bizə ölümə fərqli aspektdən baxmağa imkan verir. Biz bu əsər vasitəsilə ölümə fərdi yanaşa bilirik.

Əsərin mahiyyətində "Ölümsüz dünya necə olardı?" sualı durur. Saramaqo romanlarında oxucuya təxəyyül haşiyəsindən kənara çıxan suallar verməklə,romanın davamında sualları cavablandırır, oxucuya düşünmə fürsəti verir. Saramqo ölümün insanları tərk etməsi halında nələr baş verə biləcəyini mükəmməl şəkildə təxəyyül etmişdir. Onun romanlarında belə qeyri-real, məntiq haşiyəsindən uzaq, inanılması çətin mövzulara tez-tez rast gələ bilirik. Oxucunu əvvəl düşündürüb, sonra qaranlıq fikirlərinə işıq saçan "Korluq" romanında da, oxşar səhnə ilə qarşılaşırıq. "Korluq" romanında da, adı çəkilməyən bir ölkədə, kimsəyə məlum olmayan bir səbəbdən insanlar arasında qeyri-adi hadisə baş verir, korluq sürətlə yayılır və epidemioloji vəziyyət alır. (Doğan, 2019). İnsanlar qəribə vəziyyətin nədən or-taya çıxdığını və hansı səbəbə bərpa olduğunu anlaya bilmir. Burada korluq fiziki korluq kimi qələmə verilsə də, əsərin mahiyyətində utanmanın, sədaqətin qarşısındakı korluq məsələri durur. Eynilə, "Təxirə salınmış ölüm" romanında da qoyulan problematika fiziki ölüm deyil, empatiya, sevgi kimi hisslərin ölümü, yəni

mənəvi ölümdür, yəni əsas problem fiziki olaraq ölüb ya da ölməmək məsələsi deyil, daha dərin işlənmiş mövzular idi.

Ümumən, Saramaqo öz yaradıcılığında sol ideyalara sadiq qalmışdır. "İsanın incili" kitabında da, onun Ateist dünya görüşü ilə qarşılaşa bilirik. Saramaqo bu romanda İsa Məsihin yaşamının xronologiyasını fərqli baxış bucağı ilə qələmə almışdır. O, Ateist dünya görüşünə görə tənqid olunsa belə, insanlıq və ölüm mövzusunu əsərlərində mükəmməl işləməyi bacarmışdı, yəni yazarın təxəyyül gücünün genişliyi və Ateist dünyagörüşünün birləşməsilə, belə sadə dillə yazılmış, dərin məzmunlu əsərlər ortaya çıxmışdır.

Saramaqo ölümsüzlüyün gətirdiyi ani sevincdən sonra insanlığın yaşadığı yıxımı elə fərqli baxış bucağı ilə təqdim etmişdi ki, oxucu əvvəl beyin fırtınası yaşasa da dərinlərə endikcə bədii sturukturun gözəlliyini dərk etmiş olur. Saramaqonun seçdiyi və toxunduğu bu dərin mövzuda insanı da mükəmməl şəkildə analiz etmişdir.

Biz bu romanı oxuyarkən,özümüzü ağlımıza belə gəlməyəcək mövzuları sorğulayarkən tapırıq. Əsərdə ölümün insanı tərk edib, təkrar, fərqli şəkildə geri gəlməsi var ki, oxucu romanı başdan sona bitirib, nəticəyə gəlməyə çalışır.

Əsər belə başlayır: "Ertəsi gün heç kəs ölmədi". Bəs bu qeyri-normal yoxa çıxmanın əsas mahiyyəti nədən ibarət idi? Ölüm bu ölkəni niyə tərk etmişdi? Çünki musiqiçiyə aşiq olmuşdu. Artıq ölümün bu ölkəyə uğramaması, daxilində ölüm xofu olan insanlar arasında böyük çoşqu və sevinclə qarşılanır,evlərdən bayraqlar asılır. Hətta, belə bir vəziyyətdə İsa Məsihə təkrar yaşama şansı verilsə, bəlkə də, yaşamaq üçün ölümün tərk etdiyi bu xauslu ölkəni seçərdi. Lakin hadislərin gedi-şatında vəziyyət dəyişir, insanlar arasında böyük xaos yaranır, əsrlər boyu insanların ən böyük qorxusuna çevrilən və bədbəxtliyin

özü hesab edilən ölüm ölkəni tərk edəndən sonra ölümsüzlük adı çəkilməyən bu ölkədə ən böyük qorxuya çevrilir. Əvvəlcə, belə bir vəziyyətdə kilsə başçıları narahat olur. Çünki əgər ölüm yoxdursa, deməli cənnət və cəhənnəm yoxdur. Cən-nət və cəhənnəm yoxdursa, deməli, kilsəyə gələn də yoxdur. Ölkədə kimsə ölməsə, deməli, hamı qocalacaq və dövlət təqaüd ayırmalı olacaq, dövlətin işi çətinləşəcək. Dəfn büroları, sığorta şirkətlərinin gəliri azalacaq, xəstəxana müdirləri əlavə işçi götürüb ağır xəstələr üçün ikiqat zəhmətə qatlanacaqlar. Yol qə-zalarında ölən olmayacaq, deməli, yol polisləri və dəfn işləri ilə məşğul olanların maddi rifahi ürək açan olmayacaq. Deməli, onları düşündürən məsələ insanların ölüb ya da ölməməyi deyildi.Belə həssas mövzularda əsas düşünülən məsələ maddi məsələlər idi. Belə bir halda tibb işçiləri birbaşa Hippokrat an-dını pozan qərarlar qəbul etməyi düşünürdülər ki, bu qərar tibbi nə də inzibati yox, birbaşa siyasi qərar ola bilərdi.

Daha da maraqlısı odur ki, ölüm yatağında olan xəstə yaxınlarının psixologiyası idi. Onlar ölüm yatağında olan insanların zəhmətinə qatlanmamaq üçün öz qohumlarını, ata və övladlarını ölkə sərhədindən çıxarıb ölümə tərk etməyə belə razı idilər. Hətta, Dövlət Xeyriyyə Təşkilatlarının vasitəsilə insanları ölkədən çıxartdırıb, bəzən də maffiya ilə iş birliyi edib onları ölümə sövq edirdilər.

Əsərdə qara yumor vardır. Öz mənfətini ön planda tutan insanların bütün eybəcərliklərini Saramaqo mükəmməl şəkildə açmışdır. Bəlkə də, ölüm empatiya hissinin, insanların bir- birinə mərhəmətinin, sevgi kimi bir sıra insani duyğuları doğurmaq üçün mövcud idi.Odur ki, ölümün yoxa çıxması ilə insan-nın mahiyyətində olan bir sıra mənfi xüsusiyyətlər ortaya çıxdı.

Biz əsəri oxuduqca bunu da daha yaxı başa düşürük ki, ölüm həyata məna qatır. Əgər ölüm olmasa, insanların edəcəyi pis-

liklər sərhədsiz olardı. Aldığımız nəfəsin məhdudluğu bizə müəyyəm sərhədlər cızır. Ölüm burada çox gözəl bir qadın simasına girəndə belə bir neçə saatlıq insan olmağın gətirdiyi mənfi hisslərin altında əzilirdi. Hətta, insan övladının daxilində olan bu eybəcərliklər ölümdə yox idi. Biz deyə bilərik ki, romanın ən canlı və təmiz obrazı elə ölümün özü idi. İnsanların gözündən isə ölüm mərhəmətsiz və rəhimsiz idi. Onlar ölümü və ölümsüzlüyü düşmən kimi görürdülər, lakin Saramaqonun bizə çatdırmaq istədiyi fikir odur ki, insanların əsas düşməni ölüm deyil, hərislik, həsəd olmalıdır.

Nəticə

Romanda insanla ölüm arasında canlı bir dialoq var və ölüm obrazı ən aktiv obrazdır. Əsər boyu ölümə fərdi yanaşan obraz ölümün özü, musiqiçi və onun itidir. Çünki onlar ölüm xofu olmadan yaşayırlar. Ölüm qorxusu ilə yaşamaq artıq həmin insanın ölümüdür. İnsan övladının ölümsüzlüklə üz-üzə qalanda edə biləcəyi bütün eybəcərlikləri çılpaqlığıyla görürük. Saramaqo romanda ölümü nəfəsin bitişi kimi yox, öz həqiqətini başa düşmək kimi təqdim edib. Ölüm bu romanda despotizmin qarşısını alan vasitədir və biz başa düşürük ki, ölüm olmasa, insanların edə biləcəyi pisliklər sərhədsiz olardı.

Ölümün violençel çalana aşiq olması musiqiçinin monoton musiqinsində, sevgi və qayğı yaşadığı sadə həyatı və bəlkə də adi bir heyvana-itinə mərhəmətlə yanaşmasında gizlənmişdi. Saramaqo kilsə, ikiüzlü din adamları, siyasi və sosial aspektdən hegemonluq etmək istəyənlərlə bir növ estetik mübarizə aparmışdır. Biz romanın sonunda əvvələ qayıdır, finala isə girişlə birlikdə daxil oluruq.

Qaynaqlar

1. DOĞAN, Hümeyra Ahsen. (2019). *Körlük (Blindness), Jose Saramago*. (çev. Işık Ergüden). İstanbul: Kırmızı Kedi Yayın Evi
2. KEKEÇ, S.Kök. (2021). *Politik Romanın Alaycı İsyankarı: Jose Saramago.*
3. ULUTAŞ, Nurullah. (2020). *Bir Distopyaörneği Olarak Körlük Romanına Sosyo - Psikolojik Bir Yaklaşım*.
4. URL-1. BABASOY, Ülvi. (2019). *Ölüm Olmasaydı, Dünya Necə Olardı?* https://kaspi.az/az/lum-olmasaydi-dunya-nece-olardi

THE DELAYED DEATH NOVEL BY JOSE SARAMAGO

Farida ABDULLAYEVA

Abstract

In this article analyzes the novel “Delayed Death” by Portuguese author Jose Saramago. In this noval an unusual event takes place in an unnamed country that violates the boundaries of the human mind. Death suddenly and inexplicably leaves this country, which for centuries has obeyed all its rules. But time does not stop, it continues to flow. That is, people grow old, traffic accidents occur, but no one dies, the old Anthropos does not cut the rope of the dying king, and thus the government does not change. Although people initially welcomed the event, this immortality, which later became widespread, complicates the work of the state, insurance companies, heirs who want to come to power, and hospital managers. People panic, and in such a situation, the true identity of humanity is revealed, people

become extremely depraved. A big khaus is created in the country. Thus, when physical death leaves the country, spiritual death begins in the country.

Key words: death, consciousness, abnormal, human, old Anthropos woman, country, chaos

UNİVERSİTET TƏLƏBƏLƏRİNDƏ AKADEMİK TƏXİRƏ SALMAYA TƏSİR GÖSTƏRƏN SOSİAL-PSİXOLOJİ FAKTORLAR

Fidan CƏBRAYILOVA,
Xəzər Universiteti, magistrantı,
Elmi rəhbər: dr. Müşviq Mustafayev

Bu çalışma akademik təxirə salmaya təsir göstərən sosial-psixoloji faktorları araşdırır. İnsanlar həyatlarını idarə edə bilmələri üçün yaşamlarında bir çox mövzuda məsuliyət götürməlidirlər. Universitet həyatına addım atan tələbələr də həyatlarında bir çox mövzuda, xüsusilə də akademik mövzuda məsuliyyətliliklə üz-üzə qala bilirlər. Təxirə salma davranışı hər yaşda özünü biruzə versə də, gənclər arasında daha çox yayılmış bir davranışdır. Müasir bir tələbənin xeyli iş görməsi lazım gəlir və bu da öz növbəsində yüksək səviyyədə özünütəşkilat tələb edir. İşləri vaxtında həyata keçirməyin nə qədər vacib olduğu tələbə tərəfindən anlaşılsa belə, onun diqqəti tez-tez ikinci dərəcəli mövzulara yayına bilər və nəticədə keyfiyyətsiz bir nəticə ala bilər. Beləliklə, hər hansı bir tapşırıq son anda edilərsə, nəticəni yoxlamaq üçün kifayət qədər vaxt olmaya bilər. Həmçinin tələbə bu situasiyada özünü özgü-vənsiz, dəqiq olmayan bir insan kimi etiketləyə bilər və bu da onun nüfuzuna zərər vura bilər.

Tələbələrin zamanlarını səmərəli şəkildə istifadə edə bilməmələrinin qarşısında duran ən böyük əngəl kimi zamanı planlaya bilməmələri və akademik təxirə salma davranışları durur (Kachgal, 2001: 14). Təxirə salma ilə bağlı yazıların gözdən keçirilməsi zamanı araşdırmaların əksəriyyətinin tələbələrin üzərində aparılması təəccüblü deyil. Beləliklə araş-

dırmaların çoxunun akademik ertələmə ilə bağlı olduğu ortaya çıxmışdır.

Təxirə salma dedikdə, tapşırıqları son dəqiqəyə və ya son tarixə qədər təxirə salmaq nəzərdə tutulur. Digər bir tədqiqatın (Gargari, 2011:72) qeyd etdiyi kimi, bu tələbə tərəfindən demək olar ki, həmişə narahatlıqla müşayiət olunan akademik fəaliyyətləri təxirə salmaq üçün geniş və davamlı istək kimi müəyyən edilir. Akademik gecikdimə qəsdən, tə-sadüfi və ya vərdiş ola bilər, lakin hər bir halda bu universitet tələbələrinin həm nəaliyyətlərinə, həm də öyrənmələrinə əhəmiyyətli dərəcədə təsir göstərir (Hussain, Sultan, 2010). Bununla birlikdə Morelli və digərləri (URL-1; Schmitt, 2008; Letham, 2004) fərqli təxirə salma növlərini, məsələn, real olmayan və mənəvi ertələmə, xəyal, davranış və meta-idrak ertələmə və s. müəyyən etmişdir.

Akademik təxirə salma təhsilin bütün səviyyələrində baş verir. Tədqiqat göstərir ki, universitet tələbələri arasında dərsləri təxirə salma daha çox görülür və bəzi tədqiqatlar universitet tələbələrinin yüzdə 70-dən çoxunun müntəzəm olaraq etməli olduqları işləri təxirə saldığını göstərdi (Schraw, 2007:12). Araşdırmalar nəticəsində görülmüşdür ki, yüksək emosional zəkaya sahib universitet tələbələrində aşağı emosional zəkaya sahib olanlarla müqayisədə daha az ertələmə müşahidə olunur (Deniz, 2009: 623) və daha yüksək özyetərliliyi olan tələbələrin aşağı öz-yetərlilik səviy-yəsinə malik olanlardan daha az ertələdiyi görülmüşdür (Hen, Goroshit, 2014:116). Təxirə salmaq şəxsiyyət ilə əlaqədar narahatlıq və depressiya kimi ciddi mənfi nəticələrə səbəb ola bilər (Sirois, 2007: 15). Digər tədqiqatda (Schraw, 2007:12), təxirə salma meyli olan və imtahan gecəsində oxuyan insanların işi son ana qədər təxirə saldıqları zaman daha çox

çətinlik çəkdiklərini göstərdi. Ancaq başqa bir araşdırmanın nəticələri göstərir ki, dərslərini imtahan gecəsinə qədər təxirə salan tələbələr akademik fəaliyyətlərində yetərli deyildirlər (Steel, 2007:65).

Həm akademik səviyyədə, həm də ümumi populyasiyanı nəzərə alaraq ümumi bir fenomen kimi görünə bilən təxirə salma davranışının mahiyyətini daha yaxşı başa düşmə-yə ehtiyac olduğu düşünülür. Çünki ertələmə bir insanın rifahına, akademik, sosial və psixoloji uyğunlaşmasına mənfi təsir göstərə bilər və həyatın fərqli tərəflərində fərqli funksiyaları həyata keçirə bilər (Balkıs, Duru, Buluş, Duru, 2006: 57). Fritzsche və dostlarının fikrinə görə akademik təxirə salma davranışı ilə aşağı qiymət alma arasındakı münasibət özünü daha çox hansı fənnlər ki, daha çox akademik çalışma tələb edir, o zaman özünü daha şiddətli biruzə verir (Fritzsche, 2003: 1549). Ümumiyyətlə, universitet yaşamı sadəcə imtahanlar, təqdimatlar və ya dərslərdən ibarət deyildir.Belə ki,sosial həyatın da aktiv şəkildə yaşandığı bir dövrdür (Çelik, Odacı, 2015: 31). Beləliklə, tələbələrin akademik işlər yerinə daha çox onlara zövq verən məsələlərə daha çox vaxt ayırması qaçınılmaz hala çevrilir.

Qaynaqlar

1. GARGARİ, B., SABOURİ, R., , H., & NORZAD, F. (2011). “Academic procrastination: the relationship between causal attribution styles and behavioral postponement”. *Iranian journal of psychiatry and behavioral sciences*, *5*(2), 72-76.
2. BALKIS, M., DURU, E., BULUŞ, M., DURU, S. (2006). “Üniversite öğrencilerinde akademik erteleme eğiliminin çeşitli değişkenler açisindan incelenmesi”. *Ege Eğitim Dergisi* , 7 (2) , 57-73.

3. ÇELIK, Ç. B. & ODACI, H. (2015). “Akademik erteleme davranışının bazı kişisel ve psikolojik değişkenlere göre açıklanması”. *Hacettepe Üniversitesi Eğitim Fakültesi Dergisi* [*Hacettepe University Journal of Education*], 30(3), 31-47.
4. DENIZ, M., TRAS, Z., & AYDOGAN, D. (2009). “An investigation of academic procrastination, locus of control, and emotional intelligence”. *Educational Sciences: Theory and Practice*, 9(2), 623-632.
5. FERRARI, J. & JOHNSON, J. & McCOWN, W. (1995). Procrastination and Task Avoidance - Theory, Research and Treatment. *Plenum Press.*
6. FRITZSCHE, B. A., YOUNG, B. R. & HICKSON, K. C. (2003). “Individual differences in academic procrastination tendency and writing success”. *Personality and Individual Differences*, 35, 1549-1557.
7. HEN, M., & GOROSHIT, M. (2014). “Academic procrastination, emotional intelligence, academic self-efficacy, and GPA. A comparison between students with and without learning disabilities”. *Journal of Learning Disabilities*, 47(2), 116-124.
8. HUSSAIN, I. & SULTAN, S. (2010). Analysis of procrastination among university students. *Elsevier Ltd*. February 21.
9. KACHGAL, M. M., HANSEN, L.S., NUTTER, K. J. (2001). “Academic procrastination prevention/intervention: Strategies and recommendations”. *Journal of Developmental Education, 25*,14-21.
10. LETHAM, S. (2004). *The Procrastination Problem.* Retrieved from website https://www.successconsciousness.com/blog/personal-development/procrastination-problem/

11. MORELLI,G. (2008). *The Spiritual Roots Of Procrastination*. Retrieved from website Hhttp://www.orthodoxytoday.org/articles 6/morelli procrastination.phpH accessed on January 5, 2010.
12. SCHMITT, G. (2008). *Three Types Of Procrastination.* Retrieved from website http://www.turnonto.wordpress.com/procrastination-2 accessed on October 16
13. SCHRAW, G., WADKINS, T., OLAFSON, L. (2007). "Doing the things we do: A grounded theory of academic procrastination". *J Educ Psychol*, 99(1): 12.
14. STEEL, P. (2007). "The nature of procrastination: a meta-analytic and theoretical review of quintessential self-regulatory failure". *Psychological Bull*, 133(1): 65.
15. SIROIS F. (2007). ''I'll look after my health, later'': A replication and extension of the procrastination–health model with community-dwelling adults". *Personality and Individual Differences*, 43:15-26.
16. URL-1. Morelli, G. (2008). *The Spiritual Roots Of Procrastination*. Retrieved from website Hhttp://www.orthodoxytoday.org/articles 6/morelli procrastination.phpH accessed on January 5, 2010

SOCIO-PSYCHOLOGICAL FACTORS INFLUENCING ACADEMIC PROCRASTINATION IN UNIVERSITY STUDENTS

Fidan JABRAYILOVA

Abstract

This study examines the socio-psychological factors influencing academic procrastination. People have to take responsibility for many things in their lives in order to be able to manage their lives. Students

entering university life can also face responsibilities in many areas of their lives, especially in academic matters. Although procrastination manifests itself at any age, it is more common among young people. A modern student has to do a lot of work, which in turn requires a high level of self-organization. Even if the student understands how important it is to get things done on time, his attention can often be diverted to secondary topics, resulting in poor results. Thus, if any task is done at the last minute, there may not be enough time to check the result. Also, in this situation, the student may label himself as an insecure, inaccurate person, which can damage his reputation.

Key words: academic procrastination, socio-psychological factors, university students.

MUSTAFA ZƏRİRİNİN "YUSİF VƏ ZÜLEYXA" ƏSƏRİNDƏ İŞLƏNƏN ARXAİZMLƏR

Firuzə GÜLMALİYEVA,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dr.Reyhan Mədətova

Arxaizmlər dilimizin müxtəlif dövrlərində ədəbi dildə işlənmiş, müasir dilimiz üçün artıq köhnələn sözlərə, şəkilçilərə deyilir. Arxaizmlərin fonetik, leksik, semantik, qrammatik növləri vardır. Mustafa Zəririn "Yusif və Züleyxa" əsərində işlənən arxaizmlər 3 qrupda ümumiləşdirilib:

- 1.Fonetik (ol, bin, imdi)
- 2.Leksik (yeg,qıl,ayıtmaq)
- 3. Qrammatik arxaizmlər (-ğıl//gil, -alım,-əlüm)

Dilçilik ədəbiyyatında "arxaik" , yaxud "arxaizm" termini şərti və nisbi anlayış ifadə edir. Arxaizmlər dilimizin müx-təlif dövrlərində ədəbi dildə işlənmiş, müasir dilimiz üçün artıq köhnələn sözlərə, şəkilçilərə deyilir. Arxaizmlərin fonetik, lek-sik, semantik, qrammatik növləri vardır. Dilin inkişaf qanu-na-uyğunluqlarını müəyyən etmək baxımından arxaizmlərin öyrənilməsi vacibdir. Dil ictimai hadisə olduğu üçün bütün tarixi hadisələr,cəmiyyətdəki dəyişikliklər onda əks olunur. Zamanla bəzi sözlər dəyişilir, yox olur, onları bildirən sözlər isə öz ümumişlək xüsusiyyətini itirir. Arxaizmlər (yunanca archaios- qədim) deməkdir. Məsələn: "Kitabi-Dədə Qorqud" dastanında və orta əsr yazılı abidələrində işlənən ayıtmaq (demək, söyləmək), tanıq (şahid), sayru (xəstə), güz (payız), us (ağıl), əsən (sağ, salamat), əsrük (sərxoş), altun (qızıl), damu və ya tamu (cəhənnəm), uçmaq (cənnət), ün (səs), nəsnə (şey), arı (təmiz), suç (günah),

danla (sabah), duş (yuxu), ayaq (qədəh) və s. kimi sözlər arxaizmlərdi. Mustafa Zəririn "Yusif və Züleyxa" əsərində işlənən arxaizmlərə nəzər salaq:

Fonetik arxaizmlər: Orta əsr Azərbaycan yazılı abidələrinin dilini müasir Azərbaycan dilindən ayıran əsas əlamətlərdən biri kimi fonetik fərqləri qeyd edə bilərik. Yazılı abidələrimizin dilini müasir Azərbaycan dilindən fərqləndirən bu arxaizm növləri fonetik arxaizmlər adlanır və fonetik fərqlərlə səciyyələndirilir.

O işarə əvəzliyi tarixən ol şəklində işlənib. Sonradan isə səsdüşümü baş verərək o şəklinə düşüb.

Ol rəsuli - əvvəlüni *axirin*; *Ol* gülilə bülbüli şad edəlim; Ol dənizdə əşki əvəz eyləgil.

Müasir dilimizdə "y" ilə tələffüz edilən sözlərin əsərdə "g" ilə işlənmişdir:

İkisin *əmzirməgə* süd yetmədi.

Ögrədərdi illa Yusifdən gəzin.

H.Mirzəzadə (Mirzəzadə, 1990: 29) qeyd edir ki, bu səslər bir-birinə yaxın olduğu üçün bəzi dialekt və şivələrimizə əksər hallarda bir-birinin əvəzinə işlənir. Belə bir xüsusiyyətin qədimliyini göstərən faktlar dilimizdə çoxluq təşkil edir. Beləliklə, hər iki samitin əmələ gəlməsində iştirak edən səs məxrəci, əsasən, müştərək olduğuna görə müəyyən müddət bunlar bir-birini əvəz etmişdir. Müasir dilimizdə "y" ilə tələffüz edilən sözlərin divanda "g" ilə işlənməsi:

Dialekt və şivələrimizə gəldikdə isə y-g əvəzlənməsi, əsasən, şərq qrupu dialekt və şivələrində rast gəlinir. Bu hadisə daha çox iki sait, və ya bir sait və sonor səslər arasında müşahidə olunur. Məsələn, igirmi, igdə, əgri, sögüd, gögərçin və s.

Onu da qeyd etmək lazımdır ki, bəzi dialekt və şivələrimizdə söz ortasında "g", bəzilərində "y" samiti işlənir. Söz ortasında

“g” və ya “y” səsinin işlənməsinə görə dialekt və şivələri üç qrupa ayırmaq olar:

- 1.Şərq qrupu dialekt və şivələrində söz ortasında “y” samiti
- 2. Qərb qrupu dialekt və şivələrində söz ortasında “y” samiti
- 3.Şimal və cənub qrupu dialekt və şivələrində isə söz ortasında həm “y”, həm də “g” samiti işlənir.

Müasir Azərbaycan ədəbi dilində h samiti ilə başlayan sual əvəzlikləri tarixən q ilə işlənmişdir: *Qamu oğlənlərini ol* elmi – din.

Müasir dilimizdə “m” ilə tələffüz edilən bəzi sözlər əsərdə “b” ilə işlənmişdir:

Hər bir oğlinə verir üç *bin* qoyın; Tənri *bana* ruzi qıldi bər-cəmal.

“Yusif və Züleyxa” əsərində m-n əvəzlənməsinə də rast gəlinir. Eşit *imdi* Yusifin əhvalini; Eşit *imdi* qissei – Yusif sana.

<u>Leksik arxaizmlər:</u> Əşya və hadisəni ifadə etməkdən ayrılıb tamamilə arxaik plana keçən sözlər leksik arxaizmlər adlanır. Əsərdə işlənən leksik arxaizmləri nəzərdən keçirək:

Bulmaq – tapmaq

Dinləyənlər ta ki, *bulsunlar* murad.

Yol *bulanları* qolavuz eyləgil.

Qılmaq- etmək

Həq-təalə əmr *qıldıvü* şühud.

Buncə peyğəmbərə nə *qıldı ol*

Qıldılər qərdəşləri bu *gəz* həsəd.

Ayıtmaq-demək

Ayıtdilər, Yusif bizə bağladı səd.

Kəndözünü-özünü

Qəsd edərdi öldürə *kənd özünü*

Yeg-yaxşı
Elmlə *yegdi* qəvi oldu Ömər
Gəz-dəfə
Qıldılər qərdəşləri bu *gəz* həsəd.
Netə kim-necə ki
Netə kim könüldəki iman *kibi*.
Netə kim könüldəki iman kibi.

Qrammatik arxaizmlər: Morfoloji arxaizmlər olaraq da adlandırıla bilər. Arxaizmin bu növü daha çox şəkilçilərin arxaikləşərək sıradan çıxması, digər şəkilçilərlə əvəzlənməsi və ya şəkilçilərin fonetik cəhətdən dəyişməsi ilə fərqləndirilir.

-Alım,-əlüm: XX əsrin əvvəllərinə kimi yazılı mənbələrimizin dilində işlənən bu şəkilçi feilin sonuna artırılaraq işin və ya hərəkətin birdən çox şəxsə aidliyini ifadə etmişdir: *Söyləyəlim* bir əcaib dasitan; Bir ikisini *gətirəlim* dilə

-Ğıl, -gil: Türkdilli yazılı mənbələrdə -ğıl, -gil şəkilçisi feilə artırılaraq ikinci şəxsin təkini ifadə etmişdir. Damaq ahənginə uyğun olaraq şəkilçi -ğıl və -gil fonetik variantlarında iş-lənmişdir. XVIII əsrə qədər yazılı abidələrin dilində işlənən -ğıl, -gil şəkilçisi Mustafa Zəririn "Yusif və Züleyxa" əsərində də işlənmişdir: Yol bulanları qolavuz *eyləgil*.

Qaynaqlar

1. CƏFƏROV, Səlim. (1970). *Müasir Azərbaycan dili (leksika)*, Bakı: Maarif.
2. MİRZƏZADƏ, Hadi. (1990). *Azərbaycan dilinin tarixi* qrammatikası, Bakı: Azərbaycan Universiteti.
3. ZƏRİR, Mustafa . (2006). "*Yusif və Züleyxa"*, Bakı: Şərq-Qərb.
4. ŞİRƏLİYEV Məmmədağa. (2008). *Azərbaycan dialektologiyasının əsasları*, Bakı: Şərq-Qərb.

ARCHAISMS USED IN "YUSIF AND ZULEIKHA" MUSTAFA ZARIR

Firuza GULMALİYEVA

Abstract

Archaisms are words, suffixes which used in literary language in different periods of our language. There are 4 types of archaisms: Phonetic, lexical, semantic, grammatical. Archaisms that used in Mustafa Zarir's "Joseph and Zuleikha" are summarized 3 groups:

- Phonetic (ol, bin, imdi)
- Lexical (yeg,qıl,ayıtmaq)
- Grammatical (-ğıl, -gil, -alım, -ələm)

Key words: archaisms, phonetical, leksical, language, work

GƏNCLƏRDƏ PSİXOLOJİ SAĞLAMLIQ VƏ İNTİHAR DÜŞÜNCƏLƏRİ ARASINDA ƏLAQƏNİN PSİXOLOJİ TƏHLİLİ

Firuzə QƏNİZADƏ,
Xəzər Universiteti, magistrant,
Elmi rəhbər: dos. Ceyhun Aliyev

Psixoloji sağlamlığın müxtəlif yaş dövrlərində xüsusi yer tutması ilə yanaşı intihar düşüncələrinin daha geniş yayıldığı gənclik dövründəki önəmi artır. Tədqiqatın məqsədi olaraq müəyyənləşdirilən gənclərdə psixoloji sağlamlıq və intihar düşüncələri arasında əlaqənin təhlili üçün "Uşaq və gənclərdə psixoloji sağlamlığın ölçülməsi şkalası" və "Ümidsizlik şkalası" metodlarından istifadə edilmişdir. Tədqiqat nəticəsində gənclərin psixoloji sağlamlığı və onların intihar düşüncələri arasında əhəmiyyətli səviyyədə əlaqənin varlığı müəyyən olunmuşdur. Bununla demək mümkündür ki, gənclər arasında intihar riskini azaldılması üçün onların psixoloji sağlamlığının artırılmasına önəm verilməlidir.

İnsan sağlamlığının 3 əsas səviyyəsindən biri olan psixoloji sağlamlıq anlayışı şəxsiyyət konteksti və onun psixi bütövlüyünə əsaslanır. Yəni psixoloji sağlamlıq dedikdə mühüm şəxsiyyət keyfiyyətlərinin ahəngdarlığının inkişafı nəzərdə tutulur. Nəticədə xarici təsirlərə qarşı onun davamlılığı, tamlığı və müvazinəti pozulmur (Bayramov və Əlizadə, 2002: 600).

Psixoloji cəhətdən sağlam olan fərdlər, mənfi və sıxıntılı vəziyyətlərlə qarşılaşdıqda mübarizə aparmaq, dözmək və qalib gəlmək qabiliyyətini nümayiş etdirirlər. Müxtəlif yaş dövrləri arasında keçid mərhələlərində psixoloji sağlamlıq ciddi yer tutur (Garmezy, 1991: 428). Bu cəhətdən özünüdərketmənin, özünəməxsus yüksək keyfiyyətlərin, dünyagörüşünün forma-

laşması ilə gənclik dövrü xüsusi önəmə malikdir (Qədirov, 2008: 341).

Problemə, yaş dövrləri üzərindən baxdıqda intihar nisbətlərinə əsasən gənclər arasında risk fakorunun daha çox olması diqqəti çəkir. 1960-cı ildən bəri 15-24 yaş arasında intihar nisbətlərinin əhəmiyyətli dərəcədə artması müşahidə olunur. Gənclər arasında müşahidə edilən tamamlanmış intiharlar, erkən yaşda ölümün əsas səbəblərindən biri kimi bütün dünyada cəmiyyət üçün ciddi problem kimi qiymətləndirilir (Simons və Murphy, 1985: 423)

Bütün bunlar nəzərə alınaraq Azərbaycanda gənclərin psixoloji sağlamlığı ilə onların intihar düşüncələri arasında əlaqənin araşdırılmasına həm nəzəri, həm də praktik cəhətdən zərurət var. Tədqiqat zamanı irəli sürülən əsas fərziyyə belədir ki, gənclərin psixoloji sağlamlığı və onların intihar düşüncələri arasında əhəmiyyətli dərəcədə əlaqə vardır.

Psixoloji sağlamlığın tədqiqi üçün L.Laynberq, M.Unqar və F.Vayver tərəfindən hazırlanan "Uşaq və gənclərdə psixoloji sağlamlığın ölçülməsi şkalasından" eləcə də tədqiqat iştirakçılarının intihar düşüncələrini ölçmək üçün isə A.Bekin "Ümidsizlik şkalasından istifadə olunmuşdur.

Tədqiqatın sonunda alınana nəticələrə əsasən irəli sürdüyümüz fərziyyə təsdiq olunmuş və müəyyən olunmuşdur ki, gənclərin cari psixoloji sağlamlıq vəziyyətləri, onların intihar haqqında düşüncələrinin formalaşmasına təsir göstərir. Onu da müəyyən etdik ki, psixoloji cəhətdən sağlam gənclərdə intihar düşüncülərinin olma ehtimalı olduqca aşağıdır. Beləliklə, psixoloji cəhətdən sağlam düşüncə ilə intihar düşüncəsi arasında tərs korelyasiya müşahidə olunur. Deməli, gənclərdə sağlam psixoloji düşüncənin formalaşması uyğun olaraq koqnitiv planda intihar düşüncələrinin qarşısını alır. Sağlam psixoloji düşün-cə

gələcəyə dair ümidləri inkişaf etdirir, özünə və gələcəyə yüksək inam hissini formalaşdırır.

Psixoloji sağlamlıq hər an dəyişə bilən aktiv bir anlayış olduğu üçün onun artırılması sıxıntılı vəziyyətlərlə mübarizə aparmaq qabiliyyətinin inkişafı ilə bağlıdır. Nəticə etibarilə belə qənaətə gələ bilərik ki, gənclər arasında intihar riskini azaldılması üçün psixoloji sağlamlığının artırılması istiqamətində psixoloji maarifləndirmə eləcə də psixogigyenik işlərin aparı-masına diqqət yetirilməlidir.

Qaynaqlar

1. BAYRAMOV, Əkbər və Əlizadə Əbdül. (2002). *Psixologiya*. Bakı: Çinar-çap nəşriyyatı
2. GARMEZY, N. (1991). "Resiliency and Vulnerability to Adverse Developmental Outcomes Associated With Poverty", *American Behavioral Scientist*, 34(4), 416–430.
3. QƏDİROV, Ələddin (2008). *Yaş Psixologiyası*. Bakı: Maarif nəşriyyatı
4. SİMON, R.L. and MURPHY, P.I. (1985). "Sex Differences in the Causes of Adolescent Suicide Ideation", *Journal of Youth and Adolescence*,14 (5), 423-434.

A PSYCHOLOGICAL ANALYSIS OF THE RELATIONSHIP BETWEEN YOUTH PSYCHOLOGICAL HEALTH AND SUICIDAL THINKING

Firuza GANİZADA

Abstract

At different ages, especially at young ages, psychological health occupies a special place, as well as the risk of suicidal ideation increases in youth. The methods “psychological health measurement scale in children and youth” and “Hopelessness scale” were used to analyze the relationship between psychological health and suicidal thoughts in youth, defined as the purpose of the study. The study found a significant relationship between the psychological health of young people and their suicidal thoughts. Thus, in order to reduce the risk of suicide, one can focus on improving the psychological health of young people.

Key words: psychological health, suicidal ideation, youth

CANTERBURY HIKAYELERİ'NİN GENEL PROLOG ÇEVİRİLERİNİN KARŞILAŞTIRILMASI

Gizem Özlem YURTOĞLU,
Ankara Hacı Bayram Veli Üniversitesi, doktorant,

Özet

Çeviri derinlikli bir kültür sahasıdır. Kültürler etkileşim halindedirler. Çevirmen, kültürlerarası aktarımı sağlarken eleştirel yöntem ve teknikler de geliştirir. Çeviride aktarılan şey yalnızca dilsel unsurlar değildir aynı zamanda kültürel semboller ve özgün değerlerdir. Çeviri metnin oluşumunda bağdaşıklık, tutarlılık, amaçlılık, bilgisellik, kabul edilebilirlik, metinlerarasılık gibi ölçütlerin önemli bir etkisi vardır. Bu çalışmada, ilk basımı 1477'de gerçekleşmiş Geoffrey Chaucer'ın Canterbury Hikayeleri'nin Burçin Erol ve Nazmi Ağıl tarafından gerçekleştirilen Genel Prolog çevirileri karşılaştırılıp kültürel, simgesel ve dilsel özellikler göz önünde bulundurularak eşdeğerliğin ne ölçüde gerçekleştiği incelenecektir. Her iki çevirmenin çeviri kararları, sözcük seçimleri, çeviribilim yöntem ve yaklaşımları çerçevesinde değerlendirilecek ve tespit edilen farklılıklar aktarılacaktır.

Dil, toplumsal bir temsildir. Dillerdeki farklılık kültürün ve düşüncelerin özgünlüklerinden gelişir. Bu minvalde, çeviri toplumsal kültür çerçevesinde özgün temsiller sunan, anlam aktarıcı bir aracıdır.

İlk mizah çevirisi olması sebebiyle Türk çeviri tarihinde önemli bir yeri olan Canterbury Hikayeleri, 14. Yüzyılda Geoffrey Chaucer tarafından dönemin kültüründen tam olarak esinlenerek kaleme alınmıştır. İzleksel açıdan bakıldığında, Chaucer, hikaye içinde hikayelerle mizahi bir olay örgüsü içerisinde çeşitli insan karakterlerinin içsel ve dışsal görünümlerinin tezyinini ustalıkla yapmıştır. Böylesi bir eserin çevirisinde ihtiyaç duyulan yalnızca kaynak dil ve kaynak kültür unsurlarına değil dönemin edebi geleneğine de hakim olmayı gerektirmektedir. Bu sebeple mizahın çevirilebilirliği ve çevirilemezliği tartışılan bir konudur.

Edebiyat iç içe çokanlamlı pek çok yapıyı içine alan estetik bir türdür. Edebiyat metni çevirisi çevirmenin kaynak kültür ve hedef kültür unsurlarına, dilsel ve biçemsel özelliklerine hakim olmasını gerektirir ve çevirmen edebi çeviri sürecinde karmaşık stratejiler belirleyebilir. Öyle ki, yazın çevirisinde çevirmen metnin izleğine uygun çeviri kararını metnin içlemi ve metnin kaplamını göz önünde bulundurarak vermelidir. Görsel

öncelemeler, sesbilgisel öncelemeler, biçimbilgisel öncelemeler, sözdizimsel öncelemeler ve anlam öncelemeleri gibi dilbilgisel özelliklerin tespiti yoluyla metindeki anlam ve kavram birliği tespit edilebilir.

Burçin Erol ve Nazmi Ağıl'ın Canterbury Hikayeleri Genel Prolog çevirileri doğrultusunda yorumlandığında, mizah çevirisi gerçekleştirirken hedef kültür okuru için güldürücülüğü ve anlaşılırlığı arttırıcı deyim ve atasözleri kullanarak yerlileştirme stratejisine başvurulabileceği söylenebilir. Nazmi Ağıl, Canterbury Hikayeleri çevirisini gerçekleştirirken şiirin ritmik anlatımına, kıta düzenine benzer tonlamalar, kafiyeler bulmaya çalıştığını mümkün olduğunca hece ölçüsüne dikkat edildiğini, bazı durumlarda hece sayısının değiştiğini vurgulamaktadır ve hikayede serbest nazım şekline başvurduğunu da belirtmektedir. Türk kültürüne ait tanıdık kelimelerin yanında Tasavvuf kültürüne ait de kelimeler ve cümleler tercih etmiştir. Deyim ve atasözleri kullanarak yerlileştirici çeviri stratejisini benimsemiştir. Burçin Erol, Genel Prolog çevirisini gerçekleştirirken, metnin üslûp özelliklerine, anlatımına, söz dizimine, cümle yapılarına, noktalamalara sadık bir çeviri yolunu tercih etmiştir.

Anahtar Kelimeler: Canterbury Hikayeleri, Çeviri, Kültür, Eşdeğerlik, Eleştiri.

Analysis of General Prologue Translations of the Canterbury Tales

Abstract

Translation is the dimensional field of culture. Cultures intertwined with each other. While providing intercultural transfer, the translator also enhances critical methods and techniques. What is conveyed in translation is not only the linguistic elements, but also cultural symbols and specific values. The criterias such as coherence, consistency, intentionality, informativity, acceptability, and intertextuality have an important effect on the formation of the translated text. In this study, the translations of the General Prologue by Burçin Erol and Nazmi Ağıl of Geoffrey Chaucer's Canterbury Tales, which was first published in 1477, will be compared and the extent of equivalence will be elucidated by considering cultural, symbolic and linguistic features. The translation decisions of both translators will be evaluated within the framework of their

choices of words, methods and approaches of translation studies, and the identified differences will be conveyed.

Language is a social representation. The difference between languages develops from the authenticity of culture and thoughts. In this respect, translation is a means of conveying meaning, offering original representations within the framework of social culture.

Canterbury Tales, which has an important place in the history of Turkish translation history as it is the first humor translation, was written by Geoffrey Chaucer in the 14th century, fully inspired by the culture of the period. From a thematic point of view, Chaucer has masterfully embellished the inner and outer appearances of various human characters in a humorous plot with stories within a story. What is needed in the translation of such a work requires mastering not only the source language and source culture elements, but also the literary tradition of the period. For this reason, the translatability and untranslatability of humor is a controversial issue.

Literature is an aesthetic form that includes many intertwined polysemic structures. Literary text translation requires the translator to have a good knowledge of the source culture and target culture elements, linguistic and stylistic features, and the

translator can determine complex strategies in the literary translation process. So much so that in literary translation, the translator should make the translation decision in accordance with the theme of the text, taking into account the context of the text and the scope of the text. Meaning and conceptual unity in the text can be determined by detecting grammatical features such as visual priors, phonological priors, morphological priors, syntactic priors and semantic priors.

When Burçin Erol and Nazmi Ağıl's Canterbury Tales are interpreted in line with their General Prologue translations, it can be said that domestication strategy can be applied by using idioms and proverbs that increase humor and intelligibility for the target culture reader while performing humor translation. Nazmi Ağıl, while translating the Canterbury Tales, emphasizes that he tried to find rhythms and intonations similar to the stanza order of the poem, paying attention to the syllable as much as possible, in some cases the number of syllables changed, and also states that he resorted to free verse in the story. Besides the familiar words of Turkish culture, he also preferred words and sentences belonging to Sufi culture. It has adopted the strategy of localizing translation by using idioms and proverbs. Burçin Erol, while translating the General Prologue, preferred a translation method that is faithful to the stylistic features,

narration, syntax, sentence structures and punctuation of the text.

Key words: Canterbury Tales, Translation, Culture, Equivalence, Criticism.

“QƏTL GÜNÜ” ROMANINDA İŞLƏNMİŞ DİALEKTİZMLƏR

Gülçin QULİYEVA,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dr. Reyhan Mədətova

Dilimizin ayrı-ayrı şivələrində işlənən və ancaq onlara məxsus olan sözlərə dialektizmlər deyilir. Yusif Səmədoğlu “Qətl günü” romanında obrazları düzgün xarakterizə etmək üçün onların xarakterini, təbiətini olduğu kimi çatdırmaq üçün dialektizmlərdən yeri gəldikcə istifadə etmişdir.Yusif Səmədoğlunun “Qətl günü” romanında işlənmiş dialektizmləri aşağıdakı kimi qruplaşdırmaq olar:Fonetik dialektizmlər, qrammatik dialektizmlər, leksik dialektizmlər və semantik dialektizmlər

Dilimizin ayrı-ayrı şivələrində işlənən və ancaq onlara məxsus olan sözlərə dialektizmlər deyilir. Dialektizmlər qeyri-ədəbi dil ünsürləri hesab olunur. (Xəlilov, 2008: 97). Dialekt və şivə sözləri məişət üslubunda və bədii üslubda işlənir. Dialekt və şivə sözlərinə bədii üslubda obrazların nitqində daha çox ehtiyac vardır. Yusif Səmədoğlu “Qətl günü” romanında obrazları düzgün xarakterizə etmək üçün onların xarakterini, təbiətini olduğu kimi çatdırmaq üçün dialektizmlərdən yeri gəldikcə istifadə etmişdir.

Yusif Səmədoğlunun “Qətl günü’’ romanında işlənmiş dialektizmləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. <u>Fonetik dialektizmlər:</u> Fonetik dialektizmlər müasir ədəbi dillə müqayisədə səs dəyişimi ilə fərqlənən sözlərdir.

Qoy **genə** sən deyən olsun.

Genə fonetik dialektizmi, demək olar ki, bütün dialektlərdə **yenə** mənasında işlənir.

Sənin Züfüqar **bavan** da, axır vaxtlar **deyən** yamanca korlaşıb.

Qərb qrupu dialektlərində b-v əvəzlənməsi geniş yayılıb. **Deyən** fonetik dialektizmi **deyəsən** mənasındadır.

Bə bu dərd **döyül** nədi?

Müasir Azərbaycan dilində işlənən **deyil** sözü dialekt və şivələrimizdə döyül şəklindədir.

Bu **musurmandımı**?

Musurman fonetik dialektizmi Müasir Azərbaycan dilində **müsəlman** kimi işlənir.

Əmbə faqqılıq eləyir, heç şey yoxdu onda.

Amma bağlayıcısı dialektlərdə **əmbə** formasındadır.

Çünki **neyçinsə** başa düşdüm ki, atamın səsiylə dəftərə yazılmış bu sözlərdən sonra, oxuyacağım şeyləri gərək məndən savayı, bu dünyada bəlkə də heç kəs bilməməlidir.

Neyçinsə fonetik dialektizmdir, **nə üçünsə** mənasındadır.

Bilsəydim ki, gecə üçün yarısında, cəmi şəhərin şirin yuxuda olduğu **vəxtində** mən həyətə enib Akop Mirzəyana rast gələcəyəm, heç yerimdən qalxmazdım.

Vəxtində fonetik diaektizmdir, **vaxtında** mənasındadır.

Bu sarıdan ikiayaqlıların **baxtı** gətirib.

Baxtı-bəxti fonetik dialektizmdir, səs dəyişməsi baş verib.

2. Qrammatik dialektizmlər: Qrammatik dialektizmlər, morfoloji və sintaktik xüsusiyyətləri özündə əks etdirir.

Bu aftafanı ermənininə əlində **görcək** ürəyimdə dedim ‘’əhsən sənə’’ və Akop Mirzəyana bir qədər hörmətim artdı.

Görcək (görəndə) qrammatik dialektizmdir. Burada -cək şəkilçisi arxaikləşmiş feili bağlama şəkilçisidir.

3. Leksik dialektizmlər: Leksik dialektizmlərin ədəbi dildə qarşılığı olur.

Həftədə bircə **kərə,** qarın dolusu yemək və can rahatlığı.

Kərə dəfə mənasında işlənib, leksik dialektizmdir.

Hələ üstəlik çadırın, küləyin həmlələrinə çox davam gətirə biməyəcəyindən qorxub, təlaş içində **eşiyə** çıxmışdı, çıxan kimi yıxılmasın deyə iri bir ağacın gövdəsindən bərk-bərk yapışmışdı.

Eşik leksik dialektizmdir. Böyük Qarakilsə, Çənbərək, Naxşıvan, Oğuz, Tovuz, Zaqatala dialektlərində **həyət** mənasında işlənir. (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 151)

Qonum-qonşu, **simsar** adamlar bir-birlərinə danışırdılar ki, orda, azadlıqda içki içməyə, papiros çəkməyə adət edənlərin aqibəti çox pis olur.

Simsar sözü Cəlilabad, Gəncə, Goranboy, Göyçay, Kəlbəcər, Kürdəmir, Qazax, Qəbələ, Mingəçevir, Salyan, Şəki, Zaqatala şivələrində **qohum** mənasında işlənir. (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 438)

Bu **zırpı** bədən yiyəsinin səsi heç xoşuma gəlmədi.

Zırpı leksik dialektizmi ədəbi dildə iri, yekə mənasında, Qazax, Şəmkir şivəsində **qanacaqsız** mənasındadır.

Pərdələri aralayıb sağ əlini pəncərənin şüşəsinə qoydu, bədəni **üşürgələndi.**

Üşürgələnmək leksik dialektizmi Xanlar, Şəmkir şivəsində **qorxmaq, vahiməyə düşmək** mənasındadır. Çənbərək şivəsində isə **şübhələnmək** mənasındadır.

Soruşdum ki, xeyir ola Ay Akop, bu nə **həngamədi**?

Həngamə leksik dialektizmi Ağdam, Qazax şivəsində **gurultu, hay-küy** mənasındadır.

Cijim indi də yadıma düşəndə, içalatım od tutub yanır.

Cijim leksik dialektizmdir. Ağcabədi, Ağdam, Ağdaş, Bolnisi, Borçalı, Daşkəsən, Gədəbəy, Goranboy, Göyçay, Xanlar, İmişli, Karvansaray, Qazax, Mingəçevir, Şəmkir, Tərtər, To-

vuz, Ucar, Yevlax şivələrində **ana** mənasındadır. (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 78)

Xalam saxlayıb məni, **əppəyimi** də verib, paltarımı da alıb.

Əppək leksik dialektizimi Ağdam, Bolnisi, Çənbərək, Gədəbəy, Goranboy, Qarakilsə, Mingəçevir, Şəki, Tovuz, Yevlax, Oğuz, Yardımlı, Dərbənd, Ağdaş, Göyçay, Kürdəmir, Culfa, Naxçıvan şivələrində **çörək** mənasındadır. (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 163)

Əmbə **faqqılıq** eləyir, heç şey yoxdu onda.

Faqqılıq leksik dialektizmi Qazax, Ordubad şivələrində **hiyləgərlik, biclik** mənasındadır.

Yeriyib müsahibinin, qabaq-**qənşərində** dayandı.

Qənşərində leksik dialektizmdir, **qabağında** mənasın-dadır.

4. Semantik dialektizmlər: Semantik dialektizmlərə az da olsa, dialekt və şivələrdə rast gəlmək olur. Ədəbi dildə hər hansı bir söz, bu və ya digər dialektlərdə başqa-başqa mənalarda işlənir.

Mən bu otağa, yəni ki, otuz üçüncü otağa girəndə, dedim hər halda, özümü **şax** tutsam, özümü gümrah göstərsəm, daha yaxşı olar.

Şax semantik dialektizmdir, düz mənasındadır. **Şax** Kəlbəcər şivəsində qədim asma tərəzinin qolu, tərəzinin gözləri asılan ağac mənasında; Borçalı, Daşkəsən, Tərtər şivəsində xonça mənasında; Gədəbəy, Zəngilan şivəsində silos basdırmaq üçün istifadə olunan qarğıdalı gövdəsi, yaşıl kütlə mənasında; Ağcabədi şivəsində ağaclıq mənasında; Şəki şivəsində lobya bitkisinin sarmaşıb qalxması üçün onun dibinə basdırılan ağac mənasındadır. (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 454)

Dialektizmlər yazıçıların istifadə etdiyi, məqsədəuyğun saydığı obrazın dilini fərqləndirən sözlərdir. Yazıçının vermək istədiyi mənanı, ədəbi dildəki söz ifadə edə bilmir. Bu zaman dialektizmdən, dialekt leksikasından istifadə olunur. Yazıçı dialektizmləri elə işlədir ki, onun mənası cümlənin ümumi məzmunundan, təxmini də olsa anlaşılır, bəzən sözlər ədəbi dildə sinonimi ilə yanaşı işlədilir. Gətirdiyimiz nümunələrdən göründüyü kimi Yusif Səmədoğlu da "Qətl günü" romanında dialektizmlərdən geniş istifadə etmişdir.

Qaynaqlar

1. *Azərbaycan Dilinin Dialektoloji Lüğəti*, Bakı: Şərq-Qərb
2. XƏLİLOV, Buludxan. (2008). *Müasir Azərbaycan dilinin leksikologiyası*, Bakı: Şərq-Qərb
3. ŞİRƏLİYEV,Məmmədağa.(2008).*Azərbaycan ialektologiyasının əsasları*, Bakı: Şərq-Qərb
4. SƏMƏDOĞLU, Yusif. (2005). *"Qətl günü"*, Bakı: Şərq-Qərb

DİALECTİSMS İN THE NOVEL "DAY OF MURDER"

Yusif SAMADOGHLU

Abstract

Words that used in particular dialects of our language and belonging only to them are called dialectisms. Yusif Samedoglu in his novel "Day of Murder" used dialectics, as appropriate, to accurately characterize the characters, to convey their character and nature as it is. Dialectisms used Yusif Samadoglu's novel "Murder day" can be grouped as follows: Phonetic dialectisms, grammatical dialectisms, lexical dialectisms and semantic dialectisms.

Key words: dialectisms, Yusif Samedoglu, phonetic dialectisms, grammatical dialectisms, lexical dialectisms and semantic dialectisms.

İNTELLEKTUAL TƏRBİYƏDƏ OXUNUN ROLU

Günay ALLAHVERDIYEVA,
ADPU, Sabah fakültəsi, bakalavr,
Elmi rəhbər: Sevinc Qəmbərova

Tezisdə intellektual tərbiyənin formalaşmasına təsir edən oxu prosesindən bəhs edilir. İntellektual tərbiyənin məhz məktəb mühitində formalaşması, inkişafı və necə qazanılması ilə bağlı məsələlər də öz əksini tapmışdır. Oxu prosesi mürəkkəbliyi və müxtəlifliyi ilə seçilir, ona görə də bu prosesə bir neçə baxış bucağı mövcuddur. Hər gün qarşılaşdığımız məlumat bolluğu, müxtəlifliyi səbəbindən oxumaq məqsədimiz dəyişir. Bu məqsədi reallaşdıran texnikalardan düzgün istifadə etməyi bacarmalıyıq. İstifadə edilməsi yararlı olan texnikalarla şagirdin fərdi inkişafı sürətlənir, aktiv və cəld düşünmə qabiliyyəti güclənir.

Şəxsiyyəti formalaşdırmağın mühüm və əsas tərkib hissələrindən biri də intellektual tərbiyə və bunun əsasında elmi dünyagörüşün formalaşdırılmasıdır. İntellektual tərbiyə vasitəsilə insanlar təbii və ictimai hadisələrin baş vermə qanunauyğunluqlarını dərk edirlər. Ən əsası insan beynində maddi aləmin, obyektiv gerçəkliyin elmi mənzərəsi yaradılır. Bu yolla da insanlara təbiət, cəmiyyət və insan təfəkkürü haqqında zəruri biliklər verilir. Bununla da böyüyən nəsl dərk olunmuş obyektiv gerçəklik qanunlarından cəmiyyətin və şəxsiyyətin xeyrinə istifadə yollarını öyrənirlər. Dedikləri qısa məzmunda yığsaq intellektual tərbiyəni bir növ "əqli təhsil" adlandırmaq olar. Əqli təhsil birbaşa tədris prosesində aparılır.

Əqli təhsil zehni qabiliyyətlərin, idrak proseslərinin, xüsusən də təfəkkürün inkişafına imkan yaradır. Daha doğrusu, əqli

təhsil prosesi insanların psixi prosesin inkişaf etdirilməsinin əsas vasitəsidir. Biliklərə yiyələnmə birbaşa idrak prosesidir. Materialın mənimsədilməsi zamanı təhlil tərkib, müqayisə kimi təfəkkür əməliyyatlarında istifadə edilir ki, bu da idrakı inkişaf etdirir. Hər yeni öyrədilən materialın əvvəlki materiallarla əlaqələndirilməsi, anlayışlar yaradılması təfəkkürlə yanaşı hafizəni də inkişaf etdirir. Göründüyü kimi biliklərə yiyələnmə- insanlarda psixi hadisələri, idrak proseslərini səmərəli şəkildə inkişaf etdirir.

Oxu anlayışı hər zaman aktual olan və bir-birinə zidd fikirlər deyilən bir tədqiqat sahəsidir. Şagirdlərin oxu sürəti ilə müvəffəqiyyəti arasında birbaşa əlaqə mövcuddur. Xarkov pedoqoji institutunda bu sahədə xüsusi tədqiqatlar aparılıb. Bu barədə araşdırmalar xüsusilə Sovet dövründə kəskin şəkildə artmağa başlayıb. L.S. Vıqotski hələ 1931-ci ildə yazırdı: "Adətən, hesab edirlər ki, ləng oxu zamanı anlama daha yüksək olur, əslində isə sürətli oxu zamanı anlama daha yaxşı olur, çünki müxtəlif proseslər müxtəlif sürətlə baş verir və anlama sürəti oxunun daha sürətli tempinə cavab verir".

Fərdi şüurun inkişafının əsasını onun intellekt mərhələsi təşkil edir. J.Piaje apardığı tədqiqatlarla bu qənaətə gəlmişdir ki, uşağın intellektual imkanı hər şeydən əvvəl onun irsi imkanları ilə bağlıdır. Fərdin psixi inkişafı ilə insanın ictiami-tarixi inkişafı arasında oxşarlıq olduğu qədər fərqli cəhətlər də var. Uşaq tərəfindən sosial təcrübənin, mədəniyyətin mənimsənilməsi başlanğıc psixi funksiyaların - diqqətin, qavrayışın, hafizənin, təfəkkürün, təxəyyülün və nitqin bir-birinə çulğalaşması, koqnitiv strukturun və intellektual qabiliyyətlərin formalaşması ilə başa çatır. Buna qədər baş verən psixi hadisələr təqlidçi xarakter daşıyır. Həmin fəaliyyətin intellektual məzmunu haqqında ciddi fikirlər söyləmək çətindir(Əmrahlı, Rzayeva, 2015:243).

Oxuya münasibət şagirdin oxuya qarşı hissləri kimi müəyyən edilə bilər ki, bu da onun oxu tapşırıqlarına yanaşmasına müsbət və ya mənfi təsir göstərir. Oxuma münasibəti tələ-bənin oxu bacarığı qədər vacibdir. Bu münasibət şagirdin ömürboyu oxu bacarıqlarının inkişafında mühüm rol oynayır. Oxuma münasibətinə təsir edən bir çox amillər var. Bu amillərə istedad, nailiyyət, özünə hörmət, ev mühiti, maraq, cins və zəka daxildir. Yaxşı oxucular üçün qabiliyyət və oxu münasibəti arasında müsbət əlaqə var. Wilson və Caseyə görə, oxumağı xoşlayan uşaqlar daha tez-tez oxuyacaqlar; onların münasibəti və oxumağa həvəsi də onların mütaliə inkişafına əhəmiyyətli töhfə verəcəkdir (Ankara Üniversitesi Eğitim Bilimleri Fakültesi Özel Eğitim Dergisi 2014:*15(2*) 29-41).

Kiçik məktəb yaşı dövründə oxu prosesinə yiyələnmədə də əsaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verir. Kiçik məktəbli üçün ən böyük çətinlik törədən amil oxunan mətnin lazımi səviyyədə başa düşülməməsidir. İntonasiya, mimika, jestin olmaması onu çətinləşdirir. Oxunun üsullarına yiyələnmədiyindən uşaq lazımi səviyyədə başa düşməyə nail ola bilmir. Lakin səs təhlilinin inkişafı, sürətlə oxumaq vərdişinin təşəkkülü və məzmunu dərk etməyə imkan verən fikri proseslərin inkişafı oxuya yiyələnmə prosesini asanlaşdırır(Quliyev, 2003:102).

Oxunun müxtəlif sürətlərə uyğun oxunması mətnin qavranılması, aydın başa düşülməsi, məznunun qavranılması və analiz edilməsi üçün əsaslı rol oynayır. Təbii ki, bu elmi, bədii mətnlər üçün deyil eyni zamanda digər mətnlərin oxunması üçün də vacib amildir. Oxu sürətindən istifadə edən şəxs məlumatın faydalılığını qısa müddətdə dərk edir, eyni zamanda vaxta qənaət edərək yeni məlumatın əldə edilməsinə şərait yaratmış olur. Qazanılmış məlumatların nəticəsində şəxsin dünyagörüşü formalaşır, dərketmə qabiliyyəti artır, ən mühümü isə əldə edilmiş

məlumatlardan nəticə çıxarmağa səbəb olur.Orta ümumtəhsil məktəblərində keçirilən “Sinifdənxaric oxu” dərsləri məhz bunun bariz nümunəsidir. Müşahidə etdikdə keçirilmiş fənnin təkcə dünyagörüşünü formalaşdırmadığını, eyni zamanda şagirdlərin nitqinin səlisliyi, aydınlığı və təmizliyi üçün əsaslı rol oyanyır.

Nəticə

Nəticə etibarı ilə demək olar ki, oxu insan həyatının mühüm bir parçasıdır. Yeni məlumatların əldə edilməsi, qəbul edilmiş məzmun düzgün dərk edilməsi, səsli nitqin rəvan ol-ması, əldə edilmiş mətnin düzgün formada çatdırılması üçün ilkin addımlar məhz elə oxuya yaranan münasibətdən başlanır. İntellektual tərbiyənin formalaşması və intellektin inkişaf et-məsi oxunun düzgün seçilməsi, oxunmasından başlanır.

Qaynaqlar

1. ƏMRAHLI L, RZAYEVA N. (2015). *Uşaq psixologiyası*. Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi,
2. QULİYEV E.M. (2003). *Kiçik məktəblinin psixologiyası*. Bakı: ADPU nəşriyyatı.
3. ARTAR Y.U. (2011). *Etkili ve hızlı okuma teknikleri*. Istanbul: Milli Prodüktivite Merkezi.
4. ROXANNE F. Hudson, PAİGE C. Pullen, HOLLY B. Lane, JOSEPH K. Torgesen. (2008). “Complex Nature of Reading Fluency: A Multidimensional View*”. Reading and Writing Quarterly* journal.

THE ROLE OF READING IN INTELLECTUAL NURTURE

Gunay ALLAHVERDİYEVA

Abstract

The thesis deals with the reading process that impacts the formation of intellectual upbringing. The issues associated with the formation, development and acquisition of intellectual upbringing in the school environment are also reflected. The reading process is characterized by complexity and diversity, so there are several perspectives on this process. Because of the abundance and variety of information we encounter every day, our purpose in reading changes. We must be able to use the techniques that achieve this goal properly. With the use of useful techniques, the student's personal development is accelerated, and the ability to think actively and quickly is strengthened.

Key words: inclusive education, intellectual diccipline, reading. Technical, regression

UİLYAM QOLDİNQİN “MİLÇƏKLƏR KRALI” ROMANINDA MİF VƏ SİMVOL

Günay *BAXŞİYEVA,*
Bakı Dövlət Universiteti,doktorant,
Elmi rəhbər: prof. Cəlil Nağıyev

Tezis XX əsr ingilis ədəbiyyatının görkəmli nümayəndəsi Uilyam Qoldinqin "Milçəklər kralı" romanında antik və xristianlıq miflərinin və simvollarının təsirinin izlənməsinə həsr edilmişdir. Yaradıcılığı boyu insan haqqında universal həqiqətləri ifadə edən U. Qoldinq roman-pritçalarında zəngin dini, mifoloji simvollardan istifadə etmişdir. Tədqiqat obyekti kimi se-çilmiş "Milçəklər kralı" romanındakı motivlərlə antik və xris-tian mif və simvolları arasında paralellər aparılmış, Qoldinq yaradıcılığında mif və simvollardan istifadənin xüsusiyyətləri müəyyənləşdirilmişdir.

Qoldinqin birinci romanı olan “Milçəklər kralı”nın əsasına qoyulan ideya bundan ibarətdir ki, hər bir insan qeyri-kamildir, günah sayəsində yaradılmışdır. Bu problemi teoloji terminologiya dilinə çevirməklə insanın süqutu (the Fall of Man) kimi xarakterizə etmək olar.

“Milçəklər kralı” romanı dəfələrlə insan sivilizasiyanının inkişafı və ya ictimai formasiyaların dəyişməsinə alleqoriya kimi də nəzərdən keçirilib (Зинде, 1981: 5-23). Lakin Qoldinq insanın əxlaqi inkişafını, onun şüurunun yaranmasını – təbiətlə vəhdət və onun həmahənglik bütpərəstlik mərhələsindən günaha batmaqla xristianlığa qədər – yəni şüurun daha böyük ölçüdə fərdiləşməsi və yekunda özündən başqa heç bir dayağı olmayan və təkbaşına günah və məsuliyyət yükünü daşımağa məcbur

müasir insanın sərbəst seçimini etməklə dünyanı dərk etməsinə qədər izləyir.

Mifoloji reminissensiya romanın bədii toxumasını dəlib keçir. Onlar kökləri qədimi, xüsusən antik miflərə gedib çıxan müxtəlif motivlərlə ifadə edilir. Belə ki, "Milçəklər kralı" bir çox qədimi mifologiyalarda əsas olan problemə toxunur. Bu yunan mifologiyasında böyük tanrıların mübarizəsinin bənzəri olaraq hakimiyyətin bir liderdən digərinə keçməsidir (Fleck, 1971: 87).

Esxatoloji miflərdə mütləq iki protaqonist fəaliyyətdə olur, onların mövcudluğunun mahiyyəti ondan ibarətdir ki, biri yaradır, digəri isə dağıdır. Adətən bu funksiya əkizlərə məxsusdur. Qoldinqin romanında əkizlər var, lakin onların mifoloji funksiyası Ralf cə Cekə verilib. Ralf və Cek biri birilərini tamamlayırlar. Biri ağlabatan nə varsa onun, digəri isə - hakimiyyətin digər formalarından kobud gücə üstünlük verməklə təcavüzkar hərəkətlərin tərəfindədir.

Bəzi tənqidçilər (C.Beyker, B.Dik və başqaları) romanı bütövlükdə Dionis və onun nitqləri haqqında mifin bir variantı kimi təfsir edirlər. Belə bir iddia şübhə doğurmur ki, həmin mif "Milçəklər kralı" romanına Evripidin "Vakxankalar" faciəsi vasitəsi ilə dolayısıyla daxil olub (Baker, Dick, 1967: 29).

"Milçəklər kralı"nda antik dövrün təsirinə həsr edilən işlərin başlıca xətti appolon və dionis başlanğıclarının qarşı-qarşıya qoyulmasıdır. Tədqiqatçılardan birinin ifadəsinə görə Dionisin "gücü ona (insana) özünü tanrı kimi hiss etməyə məcbur edər, eyni zamanda o, heyvan kimi davranır" (Winnington-Ingram, 1948: 10).

Qoldinqin "Milçəklər kralı" romanına antikliyin təsiri probleminə Beyker və Dikin çalışmalarında əksini tapmış baxışlar Qərb tənqidində daha geniş yayılmışdır (Baker, Dick, 1967:

28). Xüsusən Beyker hesab edir ki, Nitsşe ideyaları mənsəbində Dionis başlanğıcı əxlaqdan kənarda mövcudluqdan ibarətdir ki, bu zaman ilkin yaranan, heyvani başlanğıc ictimai və insani göstərişlərdən azad edir və Apollonun təcəssüm etdiyi yalançı incəsənətə qarşı qoyulan yaradıcı qüvvə kimi qəbul edilir.

Qoldinq tərəfindən romana daxil edilən ayinlərin funksiyası elə qədimi dövrlərdə olduğu kimidir – məlum olmayan və başa düşülməyən qarşısında qorxunun ram edilməsi. "Səma elə bir qorxulu şəkildə asılmışdı ki, Piqqi və Ralf bu ağlını itirmiş dəstəyə qoşulmaq istədilər. baxmayaraq ki, halqanı tamamlayan çəhrayı kürəklərə toxunmaq, artıq olduqca qorxulu idi... uşaqlardan kimsə öz dairəsini qurdu və dairələr, dairələr getdi, sanki bu çoxluğun özü xilas etməyə və qurtarmağa qadir idi." (Голдинг, 1982: 130). Lakin Qoldinq bununla məhdudlaşmır. Bütün romanın əsasında açıq şəkildə göstərilən ritual hərəkət – tanrının, həm də istər heyvan, istərsə də insan tanrının qətli durur.

Matriarxat dövründən gələn qədimi miflərdə hər il tanrını öldürmək adəti mövcud idi. Bu ritual demək olar ki, bütün qədimi mədəniyyətlərdə yayılmışdı. Freyzer özünün "Qızıl budaq" işində onu "ölməkdə olan tanrı" (Фрейзер, 1986: 278) adlandırırdı. Eyni ilə Piqqi və Saymon da həmin mifoloji funksiyanı yerinə yetirməklə həlak olurlar. Bütün bu qurbanların nəticəsi Ralfın ayılması və insan həqiqi mahiyyətinin dərk edilməsi imkanıdır.

Saymon obrazı birmənalı olaraq İsa Məsihin obrazı ilə assosiasiya edilir. Bu barədə Qoldinqin özü də yazmışdır: "Mən pritçaya İsa Məsihin obrazını daxil etdim. Bu kiçik Saymondur, humanist, tənha insansevən, intuitiv sağlam düşüncəli. O, cəngəlliklərin bir hissəsini ruhun qalasına çevirmişdir"(Golding, 1965: 97-98).

Qoldinqin bu obraza olan marağı təsadüfi deyil. Yazıçı dərindən inanan dini insandır və özünün göstərilən ictimai təfəkkür formasına mənsubluğunu dəfələrlə ictimai çıxışlarında və məqalələrində vurğulamışdır. "İnsan günaha batmış yaradılışdır, o, tamamilə ilkin günaha batmışdır" (Golding, 1965: 88). 1980-ci ildə Hamburqda oxunan, "İman və yaradıcılıq" adlanan mühazirəsində o, deyir: "Mənim imanım şəxsidir, şəxsən mənə məxsusdur" (Golding, 1980: 189). Bu "dərin şəxsi iman" Saymon – İsa Məsih obrazının təfsirində də özünün göstərmişdir.

Onun antaqonisti Cekdir. Xristianlıq ənənələri səviyyəsində obrazın əsasında həqiqətin bütün şahidlərinin qanlı qovulması olan Antixrist arxetipi durur. O, özünün yalan və zorakılığa əsaslanan hakimiyyətini bərqərar edir; ona can atır ki, "heyvan obrazına sitayiş etməyən hər kəs öldürülmüş olsun" (Богослов, 1992: 21).

Saymonun qətli xristianlıq xəttini sona çatdırır. Bütpərəstlik və xristianlıq ənənələri paralel inkişaf edir, bəzən biri-birinə qarışır və birgə fəaliyyət göstərir, lakin yekunda kəskin ziddiyyətə daxil olurlar, belə ki, bütpərəst mifologiyası daha çox vəhşiliyi, xristianlıq isə - əxlaqi, ağıllı başlanğıcı rəmziləşdirir.

Qaynaqlar

1. BAKER, James və DICK, Bernard. (1967). *William Golding* (*Twayne English Authors Series*.-*N67*), New York: Twayne Publishers.
2. FLECK, A.D. (1971). *The Golding Bouch*: *Aspects of Myth and Ritual in the Lord of the Flies* // On the Novel. A Present for Walter Allen on his 60th Birthday from his Friends and Colleagues / Ed. By B.S. Benediks, London: Dent.
3. GOLDING, William. (1980). *Belief and Creativing* // *A Moving Targe*t, London: Faber & Faber

4. GOLDING, William. (1965). *The Hot Gates and Other Occasional Pieces*, London : Faber
5. WİNNİNGTON-INGRAM, Reginald Pepys. (1948). *Eurepides and Dionyses*: *An Interpretation of the Bacchae*, Cambridge: University Press.
6. ГОЛДИНГ, Уильям. (1982). *Повелитель мух*; *Пирамида*; *Чрезвычайной посол*: *Повести*.- М.: Прогресс.
7. ЗИНДЕ, Михаил. (1981). *У.Голдинг. Шпиль и другие повести*, Москва: Прогресс
8. ИОАНН, Богослов. (1992). *Иоанн рассказывает об Иисусе*, Москва.
9. ФРЕЙЗЕР Джеймс. (1986). *Золотая ветвь*: *Исследования магии и религии*, Москва: Издательство политической литературы

MYTHS AND SYMBOLS IN WILLIAM GOLDING'S NOVEL "LORD OF THE FLIES"

Gunay BAKSHIYEVA

Abstract

The article concentrates on the observation of the influence of Greek and Christian myths and symbols in “Lord of the Flies” novel, written by William Golding, the outstanding representative of twentieth-century English literature. William Golding, who expresses the universal truths about the state of humanity, uses rich religious and mythological symbols in his novels-parables. Parallels were made between the motifs of the novel "Lord of the Flies", which was chosen as the object of research, and ancient and Christian myths and symbols, and the

features of the use of myths and symbols in Golding's work were identified.

Key words: William Golding, myth, symbol, novel-parable, mythologism, Greek and Christian mythology

TƏRCÜMƏDƏ REALİLƏR

Günay DADAŞOVA,
Gəncə Dövlət Universiteti, bakalavr,
Elmi rəhbər: Hacıyeva Urqiyyə

Rus dilində işlənən reali termini latın mənşəli realis –***əşya, şey*** mənalarını verir. Azərbaycan dilçiləri bu termini "reali" və "realiya" formalarında işlədirlər. Reali termini rus dilçiliyində geniş izah edilmişdir və bu səbəbdən terminin izahı rus dilçiliyindən götürülmüşdür.Rus dilçiləri S.V.Vlaxov və S.Florin realiləri ***başqa xalqa məxsus spesifik anlayışlar bildirən söz qrupları*** hesab edir. V.S.Vinoqradov isə realilərə tərif verməzdən əvvəl fon informasiyası haqqında məlumat verir. O, realiləri təyin etmək üçün tərkibində fon məlumatı olan söz qruplarını müəyyənləşdirir və buraya milli birliyin tarixinə və dövlət quruluşuna aid faktları , onun coğrafi mühitini və indiki dövrlə bağlı maddi mədəniyyətə aid xarakterik əşyaları , etnoqrafik və folklor anlayışlarını daxil edir. ***Reali*** termini Azərbaycan dilçiliyində son illərdə işlədilməyə başlamışdır. Bu terminə və onun izahına biz N.Xudiyevin əsərində rast gəlirik. N.Xudiyev realiləri belə izah etmişdir ki, hər hansı bir xalqın dilində, bədii ədəbiyyatında işlənən , onun məişəti , milli təfərrüatı və s.ilə əlaqədar sözlər realilər adı altında qruplaşdırılır və bədii ədəbiyyatın tərcüməsi ilə yayılır.

Realilərin tərcüməsi dilçilikdə problemli və maraqlı mövzulardan biridir. Realilər bədii əsərlərin tərcümə olunduğu dili zənginləşdirməklə yanaşı əsərin aid olduğu xalqın adət-ənənəsini , məişət tərzini , mifologiyasını hətta tarixini yaşadır. Məsələn , ingilis dilində ***Landlord*** sözü torpaq sahibi mənasını verir bu sözün dilimizdə bəy , ağa kmi ekvivalentləri olmasına baxmayaraq , onun tərcümədə olduğu kimi verilməsi daha düzgün

hesab edilir , çünkü ləndlord sözü tarixi xüsusiyətə malikdir və konkret xalqı , konkret dövrü əks etdirir.

Bəs realilər necə tərcümə edilməlidir? Realilərin bir dildən başqa dilə çevirilməsi tərcüməçilər üçün çətinlik yaradan bir məsələdir və bu problemin həlli həmişə aktual olaraq qalır. Tərcümə prossesində realilərin məxəz dildə verilməsinin aşağıdakı üsullarını müəyyənləşdirmək olar.

1. Transliterasiya – realilərin qrafik tərkibinin tam saxlanılması.

2. Transkripsiya – realilərin fonetik tərkibinin tam saxlanılması.

3. Kalka – realini təşkil edən söz və ya sözlər ayrılıqda tərcümə edilməsi.

4. Realilərin izahlı tərcüməsi – realilər eyni ilə saxlanılır və onlara aid izah verilir.

5. Realilərin hiponomik tərcüməsi – realilər məxəz dildə mövcud olan yaxın mənalı sözlə əvəz olunur.

Transliterasiya. Bu üsul xarici dildə olan adın məxəz dilin hərfləri ilə təqdim olunmasıdır. *Hockey – "Hokey", Public Broadcasting Service – " Publik Broadkastinq Servise"* (ABŞ televiziya kanalı)

Transkripsiya. Bu üsul xarici dildəki sözlərin tələffüz formasının fonemlər vasitəsi ilə təqdim olunmasıdır. *Harry Potter – "Harri Potter"* (J.K. Rowlingin əsərinin adı), Charles Dickens – "Çarlz Dikkens" , "Next week begins the festivals of moharram"- "Gələn həftə məhərrəmlik başlayır" (Məhərrəmlik, islam təqvimdə ilin ilk ayı, 40 gün davam edən dini mərasim)

Kalka. Realilərin tərcüməsində ən geniş yayılmış bu üsul ilə xarici dildəki realilərin hərfi tərcüməsi verilir. *White House – "Ağ ev", Skyscraper – "Göydələn"* (çox hündür şəhər evi). Bu

söz Azərbaycan dilinəçoxdan daxil olfuğundan hamı tərəfindən anlaşılır və izah tələb etmir.

İzahlı tərcümə. Bu üsul ilə mətində istifadə olunmuş realinin oxucuya anlaşıqlı olması üçün mətində kənar izahının verilməsidir. İzah əsərin və ya səhifənin sonunda verilir. "*The Yankees are too frighteened of us to fight"- "Yankeeler bizdən döyşməyəcək qədər qorxurlar"* (Yankee Amerikanın şimal ştatlarında olan insanlara, əsgərlərə deyilir).

Kulinariyailə bağlı realilərin əksəriyyəti tərcümə zamanı izahat tələb edir. *Toad-in-the-Houl,* Amerika kulinariyasına aid olub, yumurta , süd və un qarışığında bişmiş kolbasa ilə hazırlanan xörəkdir.

Realilərin hiponomik tərcüməsi. Bəzən xarici dildəki realinin tərcüməsi zamanı bu realinin məxəz dildə olan ekvivalenti istifadə edilir, bu zaman realinin tam orijinallığı əks olunmasada, müəyyən dərəcədə məxəz dilin realisində təmsil olunur. Tərcümənin bu üsulu əsasən dilin obrazı , metaforik ifadə vasitələrinin , idiomların tərcüməsində istifadə edilir.

Bacon sözünün İngilis dilində hərfi mənası duzlanmış və hisə verilmiş donuz ətidir, frazoloji birləşmə tərkibində "ərzaq" mənasını əldə edir. "*Bring home the bacon"* hərfi mənası "evə ərzaq gətirmək" , məcazi mənası isə " öz ailəsini dolandırmaq" deməkdir. Bu frazoloji birləşmənin Azərbaycan dilində frazoloji ekvivalenti mövcuddur: "evə çörək gətirmək", yəni "ailəsini ərzaqla təmin etməyi bacarmaqdır"

Realilər bir xalqın , ölkənin məişətinə , tarixinə , coğrafi mühitinə , folklor və mifologiyasına aid olan söz qruplarıdır. Realilərin tərcüməsi dilçilikdə problemli və çətin məsələ olmaqla yanaşı dilin zənginləşməsinə təsir edən effektiv amillərdən biri hesab edilir. Realilərin tərcüməsi üçün müəyyən edilmiş müxtəlif üsullar vardır ki , bunlara *transkripsiya, transliterasiya,*

kalka, izahlı tərcümə və *hiponomik tərcümə* daxildir. Xüsusi ilə *kalka* üsuli ilə tərcümə dildə yeni sözlərin yaranmasına, dilin zənginləşməsinə təsir edir.

Qaynaqlar

1. ADILOV, M.İ., Verdiyeva Z.N., Ağayeva F.M. (1989) İzahlı dilçilik terminləri. Bakı: Elm və Təhsil
2. XUDIYEV, N. (1991). Tərcümə ədəbiyyatı və ədəbi dilimiz. Bakı:Şərq-Qərb
3. QULIYEVA, A. (2008). İngilisizmlər və tərcümə. Bakı:Nurlan
4. SAID, K. (2000). Ali and Nino. London: Penguin Readers

REALIAS IN TRANSLATION

Gunay DADASHOVA

Abstract

Realias are part of national colour. The orign of the term "realia" derived from Latin "realis" has the meaning "material , thing". Realias express national kolorit, people's traditions. They are divided into these groups: geographical, ethnographical, folklore and mythology, public and historical realias. Realias are mostly words that make difficult in translation. There are the following methods of translating these words: Transliteration, transcription, loan translation, explanatory translation and hyponomic translation.

Key words: Realia, Transliteration, transcription, loan translation, explanatory translation, hyponomic translation.

UMBERTO EKONUN "SIFIR SAYI" ROMANINDA BƏDİİLİYİN VƏ PUBLİSİSTLİYİN NİSBƏTİ

Günay YUSİFOVA,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: Ülvi Babasoy

Bu məqalədə Umberto Ekonun "Sıfır sayı" romanında bədiiliyin və publisistliyin nisbəti araşdırılır. Umberto Ekonun qələm məhsulu olan "Sıfır sayı" əsəri ilə müəllif bir növ oxucunu "ələ saldı". Hətta o bunu "sıfır" adlandıraraq etdi. Ən sonuncu əsəri olan bu romanın digərləri ilə yalnız bir oxşar cəhəti var idi: müəllifin eyni olması. Bir öncəki əsərlərində görmədiyimiz mövzu, istehza, mühitə olan sevgi- bizi bu kitabda cəmləşdirdi. Postmodern əlamətləri isə romanın mühitini oxucuya təqdim edir. Əlamətlərin verdiyi qarışıqlıq sanki "Qızılgülün adı" əsərini qələmə alan müəllifin düşüncəsi deyildi. Yeni bir qələmin mürəkkəbi idi. Romanda qəzetlərin, jurnalistlərin xalq üçün nə qədər önəmli olduğu oxucuya məlumdur, lakin heç də fikirlər mövzu ilə bir-birini tamamlamır. "Vicdanlı jurnalist necə olmalıdır?"-sualını biz romanı oxuduqca anlayırıq. Və ən önəmlisi romanda deyildiyi kimi:

"Qəzetlər xalqın fikrini öyrənir, yoxsa xalqda fikir yaradır?". (Eko, 2015, səh:78)

Giriş

Umberto Ekonun "Sıfır sayı" əsəri həcmcə kiçik, yaradıcılığında böyük məhsuldur. Müəllif oxucuya fərqli üfüqlər açır. Romanda jurnalistləri düzgün jurnalist etmək istəyən qəzet uydurur, sui-qəsdin üzərini açmaq istəyən isə sui-qəsd qurbanı olur. Hadisələr 1992-ci ilin 6 aprel- 11 iyun aralığında baş verir. Düşünürəm ki, bu ili seçməkdə müəllif təsadüfi bəxş etmir, çün-

ki bu tarix İtaliya üçün mühüm tarixdir. Siyasi korrupsiya və rüşvət mövcud idi. Yalnız bu deyil, həmçinin dövr İtaliya publisistikası üçün önəmli bir dövrdür. Məkan isə Milan şəhəridir. Beləki yuxarı təbəqəyə işə götürülmək üçün Vimerkate şantaj məktubu kimi istifadə etmək niyyətində olduğu bir qəzet nəşr etmək istəyindədir. Bu şantajla da əldə edəcəyi şey, təbii ki, cibini doldurmaqdır. Bu qəzet "Sabah" qəzetidir. "Sabah" qəzeti qurulur, hansiki heç vaxt nəşr olunmayacaq. Bu redaksiya isə qəzet və informasiyadan çox xalqa məlumatı hansı yöndən ötürməlidir- bu məqama xidmət edir. Vimerkate özünə köməkçi olaraq, layihənin başçısı Simeini seçir. Simei isə qəzet nümayəndələrini toplamaq üçün Kolonna ilə danışıqlar aparır. Nəticədə ölkənin uğursuz jurnalistləri bir araya toplanır və nəşr üçün müzakirələrə başlanır. Öncəliklər jurnalistlərə nəzər salaq: Braggadocio, Maya, Lucidi, Kambria, Kostanza, Palatino. Kambria gündəlik qəzalardan baş verən ölümləri yazır, gecələrini ya polis şöbələrində, ya da xəstəxanalarda keçirirdi. Lucidi isə ilk başda etibarsız adama oxşayır və adı belə məlum olmayan qəzetlərdə çalışmışdır. Palatino tapmaca və müxtəlif rebus jurnallarında fəaliyyət göstərmişdir. Maya ailə vəziyyətindən asılı olaraq filologiya fakültəsini bitirə bilməmiş, təhsilini yarımçıq qoymuşdur. Vəzifəsi şou-biznes dünyasını izləmək və dedi-qodu xəbərlərini yazmaq idi. Artıq 5 ildir bu işlə məşğuldur. Romanı irəli səhifələrində Kolona ilə olan söhbətindən oxucuya məlum olacaq ki, o bu işi normal məlumatlar əldə etmək və bir növ çıxış yolu üçün istəyirdi. Yaxşı məlumat toplamağı da bacarırdı. Romano Braggadocio soyadının baş bəlası olduğunu vurğulayan, "Su üzünə çıxanlar" jurnalında müxbir işləyən biridir. Kostanzo bəzi qəzetlərdə korrektor kimi fəaliyyət göstərmişdi. Lakin artıq xalq uzun qəzetlər oxumaq istəmədiyindən heç kəs bütün qəzeti çapdan öncə oxumaq istəmirdi.

"Qəzetlər yalan danışır, tarixçilər yalan danışır, bu gün televiziya da ancaq yalan danışmaqla məşğuldur". (Eko, 2015, səh:35)

Bu fikir deyərdim ki, bütün mövzunu ortaya qoyur. Çünki Simei də tam olaraq jurnalistlərin bunu istəyirdi. Xalqını yaxşı tanıyırdı və inkişaf etməmiş bir xalq olduğunu da bilirdi. Müzakirələr zamanı irəli atılan fikirləri isə daim bu yöndən qiymətləndirirdi. Jurnalistlərin gördüklərini şişirtmək, gələcəkdən yazmaq, oxucunun dilini hər şeydən önəmli tutmaq lazım idi. Publisitikanın əsas məqsədlərinin tam əksi oxucunun gözü önündədir.

"Qəzeti yaradan xəbər deyil, xəbəri yaradan qəzetdir". (Eko, 2015, səh:47)

Simeinin jurnalistlərə aşılamaq istədiyi fikir budur. O vurğulayır ki,

"Biz Katanda deyil, Milanda qəzet çıxarırıq və oxucunun həssaslığını nəzərə almalıyıq". (Eko, 2015, səh:48)

"Mədəniyyətlə, ədəbiyyatla çox da məşğul olmayacağıq, bizim oxucumuz kitab oxumaz, ən uzağı "İdman" qəzetinə göz atar". *(Eko, 2015, səh:55)*

Xəbərləri elə bir şəkildə vermək lazımdır ki, oxucunun marağını cəlb etsin. Hər hansı müəllifdən kitabı haqqında müsahibə götürsək, sözsüz ki, o öz kitabını pisləməz, lakin şəxsi həyatı ilə bağlı verilən suallar qəzet oxucusunun marağını cəlb edər. Rəyləri də heç kəs oxumur zatən, əsas məqsəd oxucunu qəzetə cəlb etməkdir. Bu fikirlər Simeinin nitqindən olan fikirlərdir. Simeinin mükəmməl bir jurnalist olduğunu deyə bilmərik, lakin layihə üçün peşakar olduğu göz önündədir. Redaksiya şurasının iclasları isə jurnalistika məktəbinə bənzəyir. Media-nın manipulyasiya gücü, şantaj və sui-qəsd nəzəriyyələrinin yaratdığı paroniya siyasi güc yaradır və Ekonun da sırf Maya-Kolon-

na xəttini verməsi, həmçinin "Mussolinin sui-qəsd"-i Braggadocio araşdırması tamamilə bu məqsədlə idi.

Mussolinin əsrarəngiz ölümü, yaxud öldürülmədiyi fikri Braggadocionu şüphəyə salır.

"*Şüphələnmək, daim şüphələnmək lazımdır, yalnız bu yolla həqiqəti tapa bilərsən". (Eko, 2015, səh:40)*

Gerçəkləri şüphələri ilə araşdırmaq, sui-qəsdi ortaya çıxarmaq öz sui-qəsdi ilə nəticələnir. Hətta Braggadocion belə fikir də aşılayır:

"Qəzetlər xəbərləri yaymaqla deyil, ört-basdır etməklə məşğuldur". (Eko, 2015, səh:133)

Məhz bu məqamdan da görə bilərik ki, nəinki romanda bəhs edilən dövrdə, eləcə Mussolinin dövründə də jurnalistka, publisistika bu vəziyyətdə imiş. Gerçəklər gizlənir, oxucuya yalan məlumatlar yayılır. Buna qarşı çıxanların aqibəti də Braggadociya kimi olur. Bu fikirləri Kolonnaya söyləyəndə ilk başlarda Kolonna şüphə ilə yanaşsa da, sonradan məntiqəsığan fikirlər olduğunu da fərqinə varmışdı. Bu da sonda onun həyatını təhlükə məqamına salır. Braggadocionun araşdırmalarını yalnız Kolonna deyil, Simei və Vimerkate də bilirdi. Sui-qəsddən sonra da onlar qaçmağa yer axtarır, "Sabah" qəzetinin nəşrinə başlanmamış, nəşrə son verilir. Bu da sübut edir ki, Braggadociya yanlış yolda deyil, tam doğru yolda irəliləyirdi, sadəcə mane olmaq yuxarıların edə biləcəyi ən doğru seçimdir.

Maya nə qədər indiyə kimi dedi-qodu yazmaqla məşğul olsa da, gündəlik qəzetdə işləmək, normal əmək haqqı almaq və düzgün bir iş istəyirdi. Hətta müzakirələrdə etdiyi etirazlar, bir mövzu haqqında davamlı və çox düşünməsi oxucuya onu daha çox tanıtdırır. Hətta autizm olacağı barəsində iş yoldaşının zehninə şüphə də salır. Bəlkə də, şou-biznesdən yazarkən şişirdilmiş

və uydurulmuş məlumatları qələmə almaqdan yorulmuşdu və belə bir ifadə işlətmişdir:

"Düzlüyə dəvət qəzetin tirajını həmişə yüksəldir". (Eko, 2015, səh:126)

Lakin Mayanın zəif bir obraz olduğunu demədən keçə bilmərik. 28 yaşında bir qızın 50 yaşında biri ilə sevgi münasibəti yaşaması da oxucunun diqqətini cəlb edir. Axı bayaq da vurğuladım, Eko bu mövzuları təsadüfi seçmir. Kolonnanın 30 ildən sonra hiss etdikləri isə publisitikanın bədiiliyi idi:

"Amma bu həqiqət idi. Otuz ildən çox idi ki, heç kəsə belə sözlər deməmişdim. May ayı idi və mən otuz ildən sonra baharın gəlişini sümüklərimdə hiss edirdim". (Eko, 2015, səh:127)

Mayanın müdafiəsiz və zəif olması belə onu cəsur etməkdən əl çəkdirmirdi. Kalonna deyir ki,

"İncildə də dedyildiyi kimi, Maya ilə mən artıq iki bədəndə bir can idik". (*Eko, 2015, səh:156)*

Mayaya olan hissləri ona hər şeyi danışmağa, onunla bölüşməyə vadar edir. Qəzetin ümidləri ilə yaşayan Maya "Sabah" qəzetinin çıxmamasını öyrəndikdə məyus olur. Axı onun tək çıxış yolu idi, o, jurnalist olmaq istəyirdi. Bunlara rəğmən qəzetin başına gələn hadisələrin nəticəsində Kolonnada doğan qorxu və şüphə hisslərini yatırtmaq Mayanın əməli idi. Kalon-na onun sözləri ilə şüphələrindən qurtulur, Mayaya inanmağı hər duyğudan üstün tutur.

"Əgər çox şey tələb etməsən, həyata dözmək olar". (Eko, 2015, səh:167)

Bu ifadə ilə də Eko yeni bir günü salamlayır və əsərin sonrasını oxucunun təxəyyülünə buraxır.

Nəticə

"Müdrikliyin ləzzətləri uduzanlar üçün qorunur" kitabında deyən Umberto Eko hekayəni niyə etirazçı bir xarakter baxımından izah etməyi seçdiyini izah edir. O, uduzanları mərkəzə qoyduğunu deyir: "Dostoyevski uduzanlardan yazırdı. "İliada"nın baş qəhrəmanı Hektor uduzmuş adam idi. Qaliblər haqqında danışmaq çox darıxdırıcıdır. Əsl ədəbiyyat həmişə uduzanlar haqqındadır. Madam Bovari uduzur. Julien Sorel uduzandır. Mən də eyni işlə məşğulam, bu qədər. Uduzanlar daha cazibədar olur. Qaliblər axmaqdır. Çünki xoşbəxtlikdən qalib gəlirlər". Bu fikirlər "Sıfır sayı" kitabındakı obrazları yamsıla-yır. Axı onlar da "uduzmuş" qaliblərdir. Maya və Kolonna həyatıboyu uduzaraq gəlib bir-birlərini taparaq qalib olmamışlardımı? Sonda Eko jurnalistikanın müəyyən bir yolunu yekunlaşdırır və qeyd-şərtsiz pisləyir: istər istəsək də, istəməsək də, müqavimət göstərir və xüsusilə bu gün inkişaf edir. Eko irəli getməkdən qaçmır, deyə bilərik ki, 90-cı illərdən metafora kimi istifadə edir. Bu qədər başverən hadisələrə səssiz qalmağı seçən, ədalətsizliyə, siyasətə gözyuman bir mühit təsvir edir. Uğursuz olsalar belə, bunları daim yazan qəzetlər və jurnalistləri qələmə alır. Umberto Eko publisistikanın arxacəbhəsini, deyə bilərik ki, ən çirkin üzünü oxucuya təqdim edir. "Qəzet və jurnalistika necə olmamalıdır?"- bu sualın cavabı romanı əhatə edir.

Son qələm məhsulu ilə bütün yaradıcılığını silkələyən Umberto Eko "Sıfır sayı" romanı ilə hər kəsə heyrətamiz bir mütaliə bəxş edir.

Qaynaqlar

1. Umberto Eko (2015*). "Sıfır sayı",* Bakı: "Qanun" Nəşriyyatı.
2. Ülvi Babasoy (2019). "Göy üzünün hədiyyəsi", Bakı: "Ədəbiyyat qəzeti".
3. Haluk Aşar (Temmuz, 2016). "Umberto Eco: Açık yapıt ve sınırsız yorum tartışması", "Temaşa", Sayı: 5.

4. Bayram Sarı (2022). “Yalan tek doğrumuzdur artık”. “İnsanokur”.

THE RATİO BETWEEN FİCTİON AND PUBLİCİSM İN UMBERTO ECO'S NOVEL “ NUMERO ZERO”

Günay YUSİFOVA

Abstract

In this article, the relationship between fiction and publicism in Umberto Eco's novel “Numero Zero” is examining. By “Numero Zero” novel of Umberto Eco, author “mocked” some kind of readers. He even did it by naming this work “Zero”. This novel, which is the last work of him, has one common feature with the others: the author was the same. The content, the irony, the love to the environment that have not been mentioned in other works, were reflected here. The characteristics of postmodernism illustrates the atmosphere of the novel. The confusion given by the signs was not like the thought of the author who wrote “ The Name of Rose”. It was like the ink of a new pen. The importance of newspapers and journalists to the people are obvious to the readers in the novel, however, the ideas do not complement each other."How should an honest journalist be?" - we understand the question as we read the novel.And most importantly, what is said in the novel such as:

"Do newspapers determine the opinion of the people, or create opinion in the people?". (Eco, 2015, p:78)

Key words: newspaper, journalist, press, journalism, people, reality, information and etc.

“PARFÜMER” ROMANINDA “NEW AGE”
Patrik Züskind

Günel ƏLİZADƏ,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dr.Ülvi Babasoy

“New age” çağdaş dövrün dini axın və cərəyanları üçün istifadə olunan termindir (URL-4). Həmçinin, ədəbiyyatda yeni tərz, yeni dəb və stil adlanır. Postmodern ədəbiyyatda isə yeni bir dil metodu, dil-üslub baxımından yenilik kimi təzahür etmişdir. İnsanların ən zəif yeri din olduğu üçün bundan onlara qarşı silah kimi istifadə edilir. Məqsəd insanlar üzərində hökmranlıq etmək və onları qula çevirməkdir. Patrik Züskindin “Parfümer” əsərində Qrenuyun insanlara hökmranlıq etməsi, özünü Tanrı səviyyəsinə qaldırmaq cəhdi və hər kəsin ona müqəddəs kimi baxması əsərin əsas ideya istiqamətlərindən biridir. Amma Qrenuy özünü Tanrı səviyyəsinə qaldırsa da, yenə xoşbəxt olmur, çünki öz məqsədinə nail ola bilmir. Əsərdə Qrenuyun mənəvi-psixoloji dünyasına nəzər saldıqca dəhşətə gəlməmək əldə deyil. O sanki Tanrıya qarşı çıxan, insanları özünə qul etmək istəyən, yəni Tanrı olmaq istəyən iblisdir.

Giriş

İsveçrə yazıçısı olan Patrik Züskind 26 mart 1949-cu ildə Ambaxtda dünyaya göz açmışdır. Yazıçı, dramaturq və ssenarist P.Züskind “Parfümer”, “Göyərçin”əsərlərinin, “Kontrabas” pyesinin, “Kir Royal”, “Rozini və ya kim kim ilə yatdı” pyeslərinin müəllifidir (URL-3). Dünyaca məşhur əsər olan “Parfümer” 35-dən çox dilə tərcümə edilmişdir.

Patrick Süskind əsərin başlanğıcında Qerenuyu bizə tarixən adları bizə bəlli olan Napaleon Bonapart, de Sade, Saint-Just

kimi qəddar, amansız, iyrənc şəxsiyyətlər kimi təqdim edir (Süskind, 2017: 5). Jan Batist Qrenuy Tanrı tərəfindən ona verilən qeyri-adi istedadla dünyaya gəlmişdir. O, güclü qoxu duyma istedadına malikdir. Bu onu digər insanlardan fərqləndirirdi. Burnunda bütün qoxuları ən kiçik detalına qədər duya bilir, hətta bəzi şeylərin adını bilməsə də, onu qoxusundan tanıyırdı. Lakin o, 15 yaşlı kürən saçlı, bakirə qızın qoxusuna heyran olmuşdu. Bu qoxu bütün qoxulardan daha doğma və fərqli idi. Qrenuy bu qızın qoxusunu içinə çəkir və qərar gəlir ki, qoxunu daimi saxlamağı öyrənsin. Bunun üçün Qrasa yollanan Qrenuy gecələmək üçün mağarada qalır və öz varlığından, mövcudluğundan zövq almaq istəyir. Lakin cansız daşların, əynindəki paltarın belə məxsusi qoxusu olduğu halda, özünün qoxusunun olmadığını anlayır və buna görə də Tanrıya düşmən olmağa başlayır. Çünki Tanrı ona qoxu verməmişdi. İnsanın qoxusunun olmaması onun mövcud olmaması deməkdir. Həyatda olan hər şeyin qoxusu varsa, deməli, mövcudiyyət də vardır. Qrenuy mövcud olmamaq və unudulmaqdan qorxurdu. Bu səbəbdən Tanrıya qarşı savaş başlatdı və Ona əsl Tanrının kim olduğunu göstərmək istədi. Var olmaq uğrunda mübarizə aparan Qrenuy məqsədini həyata keçirmək üçün 25 bakirə qızın həyatına son qoydu. Lakin nəticə etibarilə, çəkdiyi əziyyətlər öz bəhrəsini vermədi. Hazırladığı ətir sadəcə müvəqqəti sevgi gətirirdi. Bu isə müvəqqəti mövcudluqdur. Tanrı isə əbədidir, insanlar onu görmədən sevir, ibadət və dua edirlər. Tanrı görünməzdir. Qrenuy onu anlamırdı ki, o da Tanrının bir zərrəsidir. Məhz bu məqamda "new age" anlayışı əsərdə öz bədii ifadəsini tapır.

Tanrı olmaq üçün görünmək lazım deyil, hiss edilmək lazımdır. Biz Tanrını görmürük, Onun nəyə bənzədiyini bilmirik, qoxusunun olub-olmadığı haqda təsəvvürümüz yoxdur. Qrenuy Tanrıya üsyan etdi, amma bu üsyan əsassızdır. Əksinə, bəlkə də,

qoxusuz olmaq lazımdır. Nəyə lazım axı qoxumaq? İllah qoxumaqmı lazımdır? İnsanlar bir-birilərini var olduqları üçün sevirlər, hörmət edirlər. Lakin Tanrı isə biz var olmadan bizi sevir, bizi sevə-sevə yaradır, ruh üfürür. Tanrı olmaq iddiasında olan Qrenuy hazırladığı ətirlə insanları ovsunlayır. Onlar Qrenuyu sevməyə başlayırlar, onu günahkar hesab etmirlər, ona tapınırlar, hətta, cəllad da onun qarşısında diz çökür, ona qıya bilmir, özünü günahkar hiss edir, onu bağışlaması üçün Tanrıya yalvarırmış kimi yalvarır.

Qrenuyun özünü üstün tutma ehtirası, onun sonu olur. "Qurani-Kərim"in Əraf surəsinin 12, 13, 14 ayələrində şeytanla Allahın söhbəti zamanı Allah şeytandan onun əmrinə niyə qarşı çıxdığını soruşduqda şeytan Allaha: "mən atəşdən yaranmışam, Adəm isə palçıqdan. Mən daha üstünəm"-dedi (Bünyadov və Məmmədəliyev, 2005: 209). Bəli, Qrenuy da fərqli olduğu üçün özünü üstün tutmadımı? O da şeytan kimi Tanrı olmaq iddiasına düşdü. O da şeytan kimi insanların Tanrıya gedən yolunun üzərində durdu, özünə müvəqqəti ordu topladı.

Qrenuyu yunan miflərindəki Tanrılarla da müqayisə edə bilərik. Həmin Tanrılar yeri gələndə yaxşı əməllər, yeri gələndə pis əməllər edirlər. Məsələn, Orest Apollon tərəfindən öz anasını öldürməyə təhrik edilir (Sultanlı, 2006: 96-97). Və yaxud, Erida kimi Afrodita, Hera və Afina arasında ən gözəlinin seçilməsi zamanı araya nifaq salaraq Troya müharibəsinin başlamasına səbəb olur (Sultanlı, 2006: 64). Digər bir nümunə isə Orestin anasının öldürülməsinin haqlı olub-olmamasının Afrodita tərəfindən məhkəmə qurularaq həll edilməsidir (Sultanlı, 2006: 108). Qrenuyda pis işlər törədən Tanrıların xüsusiyyəti cəmlənib. O pislik Tanrısıdır, yəni iblisdir. Çünki 25 bakirə qızın ölümünə bais olmuşdu. Onları öldürərək əbədilik əldə etmək, insanları özünə kölə etmək istəyirdi.

Məsələyə digər aspektdən də yanaşaq: Hürufilik, sufilik təriqətindəki Allah anlayışı ilə məsələyə baxsaq, görərik ki, bu təriqətlərdə insanların Allah səviyyəsinə qalxmaq nüansı, Allah olmaq iddiası deyil, fənafillah olmaqdır, yəni yox olmaqdır. Sufilik təriqətinə görə insan Allahdan qopan zərrədir, hürufilik təriqətinə görə isə insanın üz cizgiləri "Qurani-Kərim"in yazıldığı ərəb hərflərindən təşkil olunub. Bu təriqətlərin əsasında Allahı tapmaq, bu yolda dərviş olmaq durur. Qrenuy da dərviş oldu. Amma Allahı axtarmaq üçün yox, özünü tapmaq üçün (Özünü Tanrı hesab edirdi), öz qoxusunu tapmaq üçün, mövcud olmaq üçün, insanlara öz varlığnı sübut etmək üçün. Qrenuy özü də Allahın zərrəsidir. Allaha qarşı çıxıb ondan üstün biri olmaq mümkünsüzdür, çünki Qrenuyu da Allah yaradıb, Allah isə İxlas surəsində deyildiyi kimi: " O, nə doğmuş, nə də doğulmuşdur!" (Bünyadov və Məmmədəliyev, 2005: 678). Elə bunun nəticə idi ki, Qrenuy sonda məğlub oldu. Onda Tanrı olmaq potensialının olmadığnı anladı. Tanrı heç nədən asılı deyil, Qrenuy isə hazırladığı ətirdən asılıdır. Ətir bitəndə hakimiyyəti də bitəcəkdi. Qrenuy insanları ətri ilə məftun edərkən gülürdü, amma bu gülüş istehzalı gülüş idi. İnsanlara xor baxan gülüşü ilə sanki onlara demək istəyirdi: "Baxın, mən olmazı başardım, sizin qorxduğunuz şeyi etdim, sizə Tanrı oldum. İndi mənim qarşımda hamınız köləsiniz! Mənim kölələrimsiniz! Bir vaxt mənim varlığmı qəbul etmədiyiniz halda, indi mənim varlığımın qarşısında əriyib yox olursunuz. Hamınız mənim ətrimin tilsiminə düşmüsünüz". İnsanlar bu ətrin sehrli qüvvəsini hiss etmədən tabe olurdu. Qrenuy yeganə adam idi ki, bu ətrin təsirinə düşməmişdi, yeganə adam idi ki, onun qarşısında aciz deyildi. Əlindəki ətrin sadəcə bir damcısı ilə insanları özünə kölə edən Qrenuy özündə böyük hakimiyyət daşıyırdı. Bu ətir bütün dünyaya hakim olmaq üçün ona kifayət edərdi. O, krala ayağını da

öpdürə, özünü Məsih elan edə bilərdi, çünki pulun, terrorun, ölümün hakimiyyətindən güclü hakimiyyətə sahib idi: insanlarda özünə qarşı dəfedilməz məhəbbət yaradaraq onları qul etmək. (Züskind, 2017: 270). Bir vaxtlar mağarada xəyal etdiyi arzusunun gerçəkləşməsinin bir addımlığında idi. Amma Qrenuy bunu istəmədi, Tanrı olmaq iddiasından boyun qaçırdı. Çünki o özünün kim olduğunu bilmirdi. Bəlkə, bir Tanrı idi, bəlkə bir daş, bəlkə də insan. Əgər kim olduğunu bilmirsənsə, hər şey gözdən düşəcək, hər şey lazımsız gələcək: dünya da, hakimiyyət də, hətta öz ətri də... Artıq Qrenuy elə bir həddə çatdı ki, o unudulmuşluq qorxusunun üzərindən xətt çəkib, əbədiyyətə qovuşmaq, unudulmaq istədi. Öz doğulduğu yerə qayıdaraq bütün ətri öz üzərinə tökdü və ətirdən ağıllarını itirmiş insanlar böyük məhəbbətlə Qrenuyun parçalarını əldə etmək üçün onu yedilər. Onlara elə gəlirdi ki, həyatlarında ilk dəfə savab iş görüblər: Tanrıya xidmət ediblər.

Nəticə

"Parfümer" romanı özündə insanın keçirdiyi mənəvi-psixoloji halları, qoyulan problem, ideya, yazı texnikası cəhətdən fərqli əsərlərdən biridir. Əsəri oxuduğumuz zaman biz də hadisələrin içində özümüzü tapırıq, Qrenuyun etdiklərinin şahidi oluruq. Roman dünyaya bədbəxtliklər içərisində göz açan, öz fərqliliyini qəbullanmayan Qrenuyun simasında bizə göstərir ki, insan öz ehtirası üzündən bədbəxt ola bilər. Kin, qəzəb, nifrət insanın sonunu gətirən amillərdir. İnsan özünü qəbullana bilməyi bacarmalıdır, özünü kiməsə sübut etməyə ehtiyac yoxdur. Əgər fərqlisənsə, bu o demək deyil ki, bədbəxtsən. Əksinə xoşbəxtsən. Xoşbəxtsən ki, Tanrı tərəfindən sınanırsan, imtahana çəkilirsən. İmtahana çəkilirsənsə, mübarizə aparırsansa, xoşbəxtlik uğrunda çalışırsansa, mövcudsan. Çünki bizi sevgi ilə yaradan Tanrının tək istəyi bəndəsinin xoşbəxtliyidir, mənəvi

cəhətdən təmizlənməsidir. Tanrı bəndəsini bir tərəfi boşluqda yaradır. Ona görə ki, bəndə boşluğu doldursun, zərrələri birləş-dirsin, iradəsini möhkəmləndirsin.

Qaynaqlar

1. BÜNYADOV, Ziya və MƏMMƏDƏLİYEV, Vasim. (2005). *"Qurani-Kərim"*. Bakı: Çıraq.
2. SULTANLI, Əli. (2006). *Antik Ədəbiyyat* Antalogiyası. Bakı: Avrasiya Press.
3. ZÜSKİND, Patrik. (2017). *" Parfümer"*. (Çev. Cavanşir Yusifli). Bakı: Qanun.
4. **İnternet resursları:**
5. URL-1: Kızıler.F. (2006). "Koku: Bir Katilin Öyküsüne Postmodern Bakış". Koku: Bir Katilin Öyküsüne Postmodern Bakış | loveinartsz
6. URL-2: Öğr. Gör. Ayşe Uyanık. (2012). "Patrıck Süskınd'in "Koku" Adlı Romanının Türkçe Çevirisinde Dil Oyunları Eşdeğerliği". Sobiad Atıf Dizini - Anasayfa
7. URL-3: Vikipediya. Bu səhifə sonuncu dəfə 20 iyun 2021 07:48 tarixində redaktə edilib. https://az.wikipedia.org/wiki/Patrik_Z%C3%BCskind
8. URL-4: Kurt Uyanış. (2022). "Yeni Çağ (NEW AGE) Anlayışları Ve Tehliklereleri" https://www.youtube.com/watch?v=W7LgcemlCDQ&t=240s

GÖZƏLLİK KONSEPTİ DİL VƏ MƏDƏNİYYƏTİN ƏLAQƏSİ KONTEKSTİNDƏ

Günel İSMAYILOVA,
Bakı Slavyan Universiteti, doktorant,
Elmi rəhbər: prof.İsmayıl Kazımov

Müasir dilçiliyin konseptləri koqnitiv dilçilikdə xeyli vaxtdır ki, öz yerini möhkəmlətmişdir.Bu dilçiliyin xarakterik xüsusiyyətləri hələ əsrin əvvələrində sürətlə inkişaf edirdi. V.Z.Demyankov və E.S.Kubryakovanın tədqiqatlarına əsasən koqnitiv dilçilik dili mental istiqamətdə kodlaşdırmavə transformasiya mexanizmi kimi öyrənirdi.Qeyd edək ki, dil və təfəkkür münasibətlərini, problemlərini koqnitiv dilçilikdə kompleks tədqiqata yeni cəlb edilmişdir.Rus dilçi alimi E.S.Kubryakovun koqnitiv tədqiqatlarına əsasən dil və təfəkkür, dilin əsas funksiyaları, dildə insan amilinin rolu tədqiqat aspekti kimi diqqəti cəlb etməkdədir.

XX əsrin I yarısında koqnitiv dilçilik inkişaf etməyə başlamışdır.Onun mövzusu dilin ifadə vasitəsiləri ilə leksik frazeoloji vasitələri əqli məlumatların mənimsənilməsi emalı və ötrülməsidir.(Z.D.Popova, İ.A.Sternin,2007:6)

Koqnitiv dilçilik dilə koqnitiv proses kimi yanşaraq dil və mədəniyyətlə əlaqəli bütün fəaliyyətləri insan beyninə bağlı olan istiqamətləri tədqiq edir.

Dilçiliyin koqnitologiya sahəsində dil sadəcə təsvir xarakteri daşıyır, eyni zamanda insan təfəkkürünün mənbəyi rolunda çıxış edərək mental və psixoloji fenomen kimi tədqiq edilə bilər. Rus dilçiliyində leksik və frazeoloji vahidlərin məna və anlam münasibətləri XX əsrin I yarısında tədqiqat obyektinə çevrilmişdir. V.Q. Qak , A.Ufimsev, Y.S.Kubryakova, A.A. -

Leontyevin elmi əsərlərində koqnitiv dilçiliyin anlam və məna münasibətləri öz əksini tapmışdır.

Azərbaycan dilçiliyində ayrı-ayrı konseptlərin dərketmə probleminin ilk dəfə öyrənilməsinə F.Y.Veysəllinin tədqiqatlarında rast gəlinir.F.Veysəllinin tədqiqatlarına əsasən konseptin dərki əvvəlki həyat təcrübəsindən hər hansı bir hadisə və predmetin yaddaşda buraxdığı izdir.Həmin izin əsasında işarənin predmet mənasını başa düşürük.

Qavrama, düşünmə və mental prosesləri onların təzahür formalarını koqnitiv dilçilik tədqiq edir.Koqnitiv dilçiliyin əsas tədqiqat materialı mental dildir.Koqnitiv linqvistikanın əsas tədqiqat məsələlərindən biri konseptsferlərdir. Koqnitiv dilçiliyin əsas anlayışı konseptlərdir ki, məlum biliklərin vahid anlayış sferasıdır.(A.Niftəliva, 2017:68)

Konseptsfer termini ilk dəfə rus dilçi alimi D.S.Lixaçev koqnitiv dilçiliyə gətirmişdir.Akademikin tədqiqatına əsasən konseptsfer millət anlayışının məcmusudur.Bir dilin daşıyıcısının şəxsi professional və sosial təcrübəni özündə əks etdirir.(Интернет-журнал Национальное Достояние №2(3)•2020 :4)

“Konseptsfer” hər hansı bir xalqa məxsus konseptlər toplusudur.Əgər bir millətin mədəniyyəti, folkloru, ədəbiyyatı, folkloru, incəsənəti, tarixi nə qədər zəngindirsə onun konseptləri o qədər zəngin olur. “Konsept” termini ilk dəfə riyazi məntiq elminin əsas anlayışlarından biri olmuşdur. “Konsept” sözü latın mənşəli “conseptus” sözündən götrülmüşdür.

Rus dilçiyinə bu termini 1928-ci ildə A.Askoldov gətirmişdir.Həmin ildə özünün “Söz və konsept” adlı məqaləsində konseptin əsas xüsusiyyətlərinin əvəzetmə olduğunu qeyd edir. Alimin fikrincə eyni cinsdən olan (bitki, ədalət, riyazi anlayışlar) obyektlərin, hərəkətlərin, zehni funkiyaların düşüncə prosesində əvəz etməsidir. .(Z.D.Popova, İ.A.Sternin,2007:21)

Konsept anlayışı əslində məntiq və təfəkkürlə bağlıdır.Dilçilik elmində bu anlayışa bir sıra təriflər verilmişdir ki,konseptlərin mənasını izah edir.

1)Konsept yalnız insanın mental şüurunda mövcudur.O, sözü müşayiət edən təsəvvürlər, anlayışlar, biliklər dəstidir.

2) Konsept qlobal təfəkkür vahididir ki, strukturlaşdırılmış biliklərdən ibarətdir.

3)Konsept ideal aləmin obyektidir.

İnsan şüurunda mövcud olan konseptlər bu mədəniyyətin tərkib hissəsidir.Konsept milli , qrup və fərdi ola bilər.Milli konsept həm fərdi , həm də qrupa aid ola bilər. Konsept insan şüurunda aşağıdakı qaydada formalaşır: (İpək yolu, No.4, 2019:128)

1)duyğu təcrübəsi-hissiyyat üzvüləri vasitəsiylə dünyanın dərki.

2)praktiki fəaliyyət təcrübəsi;

3)düşüncə fəaliyyəti təcrübəsi;

4)elmi tədqiqat təcrübəsi;

5)verbal və qeyri-verbal ünsiyyət;

Linqvistikada konseptlərin iki bölgü təsnifi var.

1) universal konseptlər.; 2) milli konseptlər.

Ümumbəşəri biliklər əsasında formalaşan konseptlər universal konseptlərdir.(Məs: sevinc-kədər, xeyir-şər,sevgi-nifrət və s.)

2)Milli konseptlər yalnız müəyyən xalqa məxsus onun milli etnik mental təfəkkürünün məhsuludur və həmin millətin mentalitetinə məxsus olan məna özündə əks etdirir.(Məs: əxlaq, namus, qeyrət və s.)

Milli konseptlər hər zaman milli mədəniyyətdən doğur və onun tərkib hissəsi olaraq qalır.Zaman dəyişsə də, onun əsas mənası, nüvəsi dəyişilməz qalır.Bu həmin xalqın milli adətlərini,

dini-etnik və milli mənsubiyyətini özündə əks etdirir.Bu konseptlərin köməyi ilə hər hansı xalqa məxsus mental təfək-kür ortaya qoyulur.(Məs: “Qeyrət” sözü məhz Azərbaycan top-lumunda islam-türk mental təfəkkürü özündə əks etdirir.)

Beləliklə tədqiqat göstərir ki, dil və mədəniyyət bir-biri ilə sıx əlaqəlidir. Bizim tədqiqat obyektimiz olan “gözəllik” konsepti məhz dildə mövcudur.Gözəllik konsepti dilin istifadə vasitəsilərində düşüncədən mədəniyyətə və ya əksinə mə-dəniyyətdən düşüncəyə keçir.Ona görə“gözəllik” konsepti koqnitologiyada təfəkkür elementi kimi qəbul edilirsə, linqvokul-turologiyada həmin konsept mədəniyyət ünsürü kimi qəbul edilir.Hər bir xalqın tarixi adət-ənənələri, milli entik yaşam tərzi gözəlliklə əlaqəli sözlərin köməyi ilə dildə müəyyən təsəvvürləri yaradır.Beləliklə “gözəllik” konseptinin dil və təfəkkürün zənginləşməsində rolu əvəzedilməzdir.Gözəllik konseptinin köməyi ilə dünyanın dil mənzərəsini öyrənə bilərik. “Gözəllik” haqqında insan və onun düşüncə tərzi onun folklorunda, ədəbiyyatında, dilində, mədəniyyətində,fəlsəfəsində zəngin faktlarla qarşılaşmaq olar.

Qaynaqlar

1. NİFTƏLİYEVA.Arzu.(2017)Linqvokulturologiyaya giriş. Monoqrafiya. Bakı: Mutərcim. 128s.
2. ПОПОВА.З.Д, Стернин. И.А. (2007). Когнитивная лингвистика. Учебное издание. Москва :АСТ: «Восток-Запад» с .225
3. ШАХМАРОВИЧ. И. Э. ВАЛЕРЬЕВНА, С. А. (2020). Понятие «Концепт» в современной лингвистике. Интернет-журнал Национальное Достояние №2(3) 1-5s.
4. ŞÜKÜRLÜ.S. (2019). "Konsept" məfhumu və müxtəlif yanaşmalar”. *İpək yolu* №4. 126-131s.

THE CONCEPT OF BEAUTY IN THE CONTEXT OF THE RELATIONSHIP OF LANGUAGE AND CULTURE

Gunel ISMAYILOVA

Abstract

The term "concept", one of the main objects of research in cognitive linguistics. There are different approaches to the essence, structure and classification of the concept. This thesis presents possible points of view on the definition division of the concept "concept" in modern linguistics, varieties are given concept, as well as the main approaches to its understanding. Here we discuss the role of the concept in cognitive linguistics and mental thinking of human.

Key words: cognitive linguistics, concept, cognitology, concept sphere, beauty

RƏQƏMSAL MÜTALİƏNİN TƏHSİLƏ TƏSİRİ

Günel KƏRƏMLİ
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Elmi rəhbər: Aysel Həsənova

Məqalədə rəqəmsal mütaliənin təhsilə təsiri problemləri öyrənilmişdir. Bu məqsədlə dünya alimlərinin araşdırılmasına müraciət edilmiş, onun əsasında nəzəri faktlar üzə çıxarılmışdır. Məqalədə təhsil prosesində yeni mühitin formalaşması ilə əlaqədar yaranan problemlərin həllinə çalışılmışdır.

İnsanın cəmiyyətdə hörmət qazanmasına səbəb olan əsas amillərdən biri mütaliə aktıdır. Tarixə səyahət hər sivilizasiyada oxumaq, təbii olaraq bilikli və ya maariflənmiş, fərdi problemlərdən qurtulmaq və sosial problemləri həll etmək üçün həlledici xüsusiyyətlər qazanan davranış forması kimi qəbul edilir. Mütaliəyə verilən hörmət kitaba verilir. Bu gün kitabları informasiya mübadiləsi apara bilən rəqəmsal alətlər əvəz edir.

Tarixi faktlara əsaslanaraq demək olar ki, əlində kitab olan insanın oxumağa daha çox üstünlük verdiyi düşünülürdü və hələ də bu fikir öz mövqeyini qorumağa davam edir. Planşet, noutbuk ya da smartfonla məşğul olan şəxslər haqqında kənardan onların əylənməsi, sosial şəbəkələrdə və ya internetdə dolaşması haqqında fikir yürüdürlər. (Anuradha&Usha, 2006) Halbuki, rəqəmsal texnologiyalar sosial həyatın bir çox ehtiyaclarını qarşılamaq imkanına malikdir. Rəqəmsal texnologiyaların təklif etdiyi rəqəmsal xidmətləri cəmiyyət operativ şəkildə qəbul edir və cəmiyyətin həyatında gündən-günə daha dərin hal alır. Rəqəmsal xidmətlər nəşriyyat sektorunun əvəzolunmaz elementləri arasındadır və hər zamanda kitab sənayesinin vazke-

çilməzləri arasında yer alır. Müasir cəmiyyətdə rəqəmsal məzmundan daha çox faydalanmaq meyli var. (Baki, 2010)

Son illərdə informasiya texnologiyaları təhsil sistemi və onun komponentlərinə güclü təsir göstərmişdir. Tək mərkəzli və tək istiqamətli, paylaşmaya qapalı və dar auditoriya tərəfindən istifadə edilə bilən təhsil sistemləri, paylaşma əsaslı, uzaqdan idarə olunan, fərdiləşdirilmiş və çevik modellər vasitəsilə təhsilalanlara təqdim olunmağa başladı. Rəqəmsal texnologiyalar vasitəsilə insan ehtiyaclarını ödəyən məhsul və xidmətlər təhsil sisteminin differensiallaşmasına səbəb olmuşdur. Distant təhsil modeli ilə onlayn və oflayn növlər altında həyata keçirilən təhsildə tədris materiallarının rəqəmsal versiyaları hazırlanır və tələbələrin istifadəsinə verilir. (Coiro, 2003)

Rəqəmsal və virtual platformalarda fəaliyyət göstərən təhsil sistemləri arasında rəqabət qabiliyyəti yüksəlməyə və beynəlxalq təcrübə yerli təhsil sistemlərinə tətbiq olunmağa başlamışdır. Mövcud şərait rəqəmsallaşma tendensiyasına daxil olmağı universitetlərdə məcburi hala gətirmişdir. Veb əsaslı distant təhsil modelində kursların verilməsi prinsip kimi qəbul edilir. (Coiro&Dobler, 2007) Şübhəsiz ki, səbəb nə olursa olsun, təhsil mühitində rəqəmsal model və məhsulların istifadə nisbətinin təbii artımından qaçmaq mümkün deyil. Lakin bu yeni vəziyyət müəyyən çətinliklərə səbəb olmuşdur. Maliyyə dəstəyinə ilkin ehtiyac, bundan əlavə, bu sahədə qabaqcıl texnoloji bacarıqların və innovativ xidmətlərin həyata keçirilməsi üçün daha ixtisaslı kadrlara yaranan ehtiyac bu çətinliklərin sırasına daxil edilir. Yeni nəsil elektron məzmuna üstünlük verməyə başlayıb.

Rəqəmsal mütaliə materialları mütaliə anlayışını və onun mühitini formalaşdırır və bir çox hadisələrə təsir edən və dəyişdirən mühüm alətlər hesab olunur. Lakin nəşriyyat sənayesinin

rəqəmsal oxu mühitində xərc, standart, texnologiya uyğunsuzluğu, qanunvericilikdəki boşluq və sosial qəbul məsələləri hələ də həllini tapmayıb.

Nəticə. Mütaliə zamanla təkamül edən və dəyişən məhfumdur. O, heç vaxt önəmini itirməyəcək. Fərdi və sosial davranış kimi mütaliə cəmiyyətin intellektual yığımını təsvir etmək üçün istifadə olunan göstəricidir və fərdi və sosial inkişafı planlaşdırmada onu dəstəkləyə biləcək mənbə kimi istifadə edilə bilər. Rəqəmsal mütaliə mühiti də periyodik olaraq insan davranışı üzərində düşüncələri izləməyə başlayır.

Qaynaqlar

1. ANURADHA, K. T., & Usha, H. S. (2006). Use of e-books in an academic and research environment: A case study from the Indian Institute of Science, Program: Electronic Library and Information Systems, 40(1), 48-62. DOI:10.1108/00330330610646807
2. BAKİ, A. (2010). E-book usage of graduate students studying educational sciences in Turkey. Turkish Online Journal of Distance Education, 11(1), 198 – 210.
3. COİRO, J., (2003). Reading comprehension on the Internet: Expanding our understanding of reading comprehension to encompass new literacies. The Reading Teacher, 56, pp.458-464
4. COİRO, J., & Dobler, E. (2007). Exploring the online reading comprehension strategies used by sixth-grade skilled readers to search for and locate information on the Internet. Reading Research Quarterly, 42(2), 214-257.

THE IMPACT OF DIGITAL READING ON EDUCATION

Gunel KARAMLI

Abstract

The article examines the problems of the impact of digital reading on education. For this purpose, were revealed the research of world scientists was applied, on the basis of which theoretical facts. The article tries to solve the problems arising in connection with the formation of a new environment in the educational process.

Key words: digital, reading, education, distance education

MƏKTƏBƏQƏDƏR YAŞLILARIN MÜTALİƏ MƏDƏNİYYƏTİNİN FORMALAŞMASI

Həcərxanım KƏRİMOVA,
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,bakalavr,
Elmi rəhbər: Aysel Həsənova

Məqalədə məktəbəqədər yaşlıların mütaliə mədəniyyətinin formalaşmasının əsas problemləri öyrənilmiş və onların həlli yolları müəyyənləşdirilmişdir. Dünya alimlərinin bu istiqamətdə apardığı araşdırmalara müraciət olunmuş və konkret nəzəri nəticələr əldə edilmişdir. Məktəbəqədər yaşlıların mütaliəsinin əsas təşkilatçısı kimi valideynlərə tövsiyələr verilmişdir.

Mütaliə mədəniyyəti demokratik cəmiyyətlərdə düşünməyə həssas fərdlərin ehtiyac duyduğu ən əsas bacarıqlardan biridir. Mütaliə mədəniyyəti şəxsin, sosial qrupun və ya cəmiyyətin oxu münasibətlərinin səviyyəsi və keyfiyyəti ilə müəyyən edilir. Başqa sözlə, mütaliə mədəniyyəti fərdin, qrupun və ya cəmiyyətin həyat tərzinin oxu sahəsində əks olunan hissəsidir. Bir sözlə, mütaliə mədəniyyəti oxu aktı ilə bağlı fərdi və ictimai həyat tərzidir. (Fountas & Lawrence, 2010)

Oxu mədəniyyəti sadəcə olaraq fərdlərin oxuma aktı ilə bağlı əldə etdikləri bacarıqların cəmiyyətdə həyat tərzinə çevrilməsi kimi müəyyən edilə bilər. Cəmiyyətdə qazanılmış oturaq mədəniyyətdən danışmaq üçün həmin mədəniyyətin subyekti fərd olmaqdan uzaqlaşdırılmalı, ictimai səviyyədə təmsil etmək bacarığı qazanılmalıdır. Uşağın məktəbəqədər yaşlarından başlayaraq mütaliə hərəkətini özünə məxsus şəxsiyyətlərin yetişdirilməsi bu qabiliyyətin sosial həyatda qazanılmasının əsas şərti kimi qəbul edilməlidir.

Məktəbəqədər dövr uşaqların koqnitiv, linqvistik, sosial və şəxsi inkişafında sürətli dəyişikliklərin yaşandığı dövr hesab olunur. Bu dövrdə uşağın öyrənmə ehtiyacına həssas olmaq, bu ehtiyacın inkişaf prosesinə töhfə verəcək vasitələrlə dəstəklənməsi inkişafın sonrakı mərhələlərinin keyfiyyətini də müəyyən edən cəhd kimi qəbul edilməlidir. Uşaq doğulduğu ilk aylarda inkişafından asılı olan refleksə əsaslanan reaksiyasının öhdəsindən gəldiyi zaman, ağzına ataraq yeni şeyləri görmək, toxunmaq və tanımaq üçün endogen davranışlar nümayiş etdirir. 2-3 aylıq uşaq ətrafda gördüyü və toxunduğu yeni şeylərə maraq və heyrətlə baxır" (Jalongo, 2007). Uşağın soruşmaq-bilmək istəyini stimullaşdırmaq, həyatı və onu tamamlayan əlaqələri mənalandıra bilmək onun duyğu və düşüncələrinin səfərbərliyi ilə bağlı prosesdir. Bunun üçün uşaq erkən dövrdən başlayaraq ona təqdim olunanları anlamaq və hissetmək üçün yaradıcı və intellektual cəhdlər etməlidir. Bu cəhdlər üçün həm ailələrin, həm də məktəb tipli tədrisin üzərinə mühüm vəzifələr düşür.

Uşaqların hiss qavrayışlarını stimullaşdıran, emosiya və düşüncələr yaratmağa imkan verən bədii həssaslıqla yaradılmış linqvistik və vizual materiallara, əsərlərə ehtiyacı vardır. Hiss qavrayışı və düşüncələri haqqında məlumatlılığı artıran vasitələri uşağın yaşayış sahəsinə daxil etməklə uşaqlıqda oxu mədəniyyətinin əsaslarını qoymaq olar. Uşaqlar savadlılıq vərdişlərinə yiyələnməyincə, sözlərin səslənməsi və mənalandırılması üçün istifadə olunan simvollarla (hərflərlə) ünsiyyət qura bilmirlər. Simvollar və onların yaratdığı məna kainatı məktəbəqə-dər yaşlı uşaqlar üçün əsas təlim vasitələrindən biri deyil. Simvolları bilmək və öyrənmək istəsələr belə, onlarla sağlam ünsiyyət qurmaq üçün savadlılıq vərdişlərinə yiyələnmək üçün gözləmək lazımdır. Bu, vizual mətnlərlə həyata keçirilir.

Rəssamların inkişaf xüsusiyyətlərini ön planda tutaraq hazırladıqları şəkilli kitablar uşaqlar üçün əyani mətnlər hesab olunur. Xətlərin, rənglərin və sözlərin ifadə imkanları ilə bir yaşından yeniyetməlik dövrünə qədər uşaqların emosional və düşüncə dünyasına müraciət etmək, onların hiss və düşüncələrini dərk etmələrinə töhfə verən kitablar uşaq ədəbiyyatı əsərləri adlanır. Bu əsərlər əvvəlcə xüsusi kəsilmiş formaları ilə daha çox oyuncaq funksiyasını yerinə yetirir.

Uşağın ətrafındakı əşyaları və varlıqları rənglər və xətlərlə tanıtmaq məsuliyyəti də uşaqla kitab arasında ilk ünsiyyətin qurulmasına vasitəçilik edir. Bu ünsiyyətin qurulması üçün ilk illərdə seçiləcək kitabların uşaqların əl quruluşuna uyğun və istədikləri yerə apara biləcəkləri həcm və çəkidə olması, dizaynına görə uşaqda kitaba maraq oyatması gözlənilir. Ona təqdim olunan kitab vasitəsilə uşaq öyrənmək ehtiyacına görüb toxunaraq cavab axtarmağa başlayır. Digər tərəfdən, böyüklər kitabı oxuyanda kitabdakı əşyaların və varlıqların adını çəkməyə başlayırlar. Uşaq, lazım gəldikdə, başqasına ehtiyac duymadan üz qabığına baxaraq, vərəqləri çevirərək, rəng və xəttlə yaradılmış bədii ədəbiyyatın rəhbərliyi altında xəyallar və düşüncələr macərasına getməyə başlayır. Bu vasitələr uşağın koqnitiv və linqvistik inkişafı üçün təbii öyrənmə mühiti yaradır.

Məktəbəqədər yaşlarında uşağın vizual və linqvistik qavrayışının stimullaşdırılması şansa buraxılır. Uşağı yalnız televiziya proqramlarından asılı vəziyyətə salmaq və ya şüursuz olaraq seçilmiş oyuncaq və kitablarla tanış etmək mühüm problem kimi qəbul edilməlidir. İlk illərdə "ayı, quş, dovşan, it, ev, şüşə" kimi əşya və məfhumları tanıdan xüsusi kəsim-ələ uyğun kitablar, audio və xüsusi teksturalı kitablar və s. uşaq kitabı ilə ünsiyyətə başlamaq lazımdır. Bu ünsiyyət sadə cizgilərlə ya-radılmış və uşaqların öz cizgilərini təqlid edə bildiyi şəkilli kitablarla

təmin edilməlidir. Nağıl, povest, hekayə və tapmaca kitablarındakı şəkillər ifadə imkanları ilə uşağın vizual qavrayışını stimullaşdırmalı, uşağı oxumağa həvəsləndirməlidir. Uşağın marağını cəlb edən, öyrənməyə həvəsini artıran müxtəlif ölçülü kitab şəkilləri uşaqla birlikdə araşdırılmalıdır və uşağın suallarına səmimi cavab verilməlidir. Uşaq ən çox sevdiyi varlıqla, məsələn, valideynləri ilə vaxt keçirməyə imkan verən kitabın şəkillərini əyani şəkildə oxuyarkən, əgər varsa, linqvistik fantastikanı anlamağa çalışmalıdır. (Jonshon, 2009) Bu mərhələdə uşaqlar üçün seçiləcək kitabların mətnində şəkillər üstünlük təşkil etməlidir. İlk illərdə uşağın ətrafındakı əşyaları və varlıqları tanıdan kitablar tədricən uşaqların diqqətini cəlb edən qısametrajlı uydurmalarla əvəzlənməlidir. Kitablarda, uşaqlarda; top oynayan ayılar, kitab oxuyan pişiklər, velosiped sürən itlər, danışan balıqlar, oxuyan quşlar və s. Qəhrəmanlarla birlikdə həyat və insan reallığı haqqında ipucları təqdim edilməlidir. Uşaqlarda rəsm çəkmək və vizual mətnlərlə ünsiyyət yaratmaq bu kitablardakı şəkillərin ən əsas xüsusiyyəti olmalıdır.

Nəticə

Məktəbəqədər yaşlıların ailələri mütəmadi olaraq rəssamlar tərəfindən yazılan və hazırlanan, uşaqların maraq və ehtiyaclarına uyğun kitabları həssaslıqla uşağın yaşayış sahəsinə əlavə etməlidirlər. Ailələr duyğu və düşüncə kainatını qidalandıran bir vasitə kimi "uşağın əsas ehtiyacları" siyahısına uşağa uyğun kitabları daxil etməlidir.

Qaynaqlar

1. FOUNTAS, I.C. & LAWRENCE R. S. (2010). *Literature and the child.* 7th edition. Belmonth, CA: Wadsworth Cengage Learning.
2. JALONGO, M. R. (2007). *Early Childhood and Language Arts.* 4th edition. Boston, MA: Pearson.
3. JONSHON, D. (2009). *The Joy of Children"s Literature*. Boston. MA: Houghton Miffin Harcourt Publishing Company.

FORMATİON OF READİNG CULTURE OF PRESCHOOL ADULTS

Hajarkhanim KARİMOVA

The article studies the main problems of the formation of the reading culture of preschool adults and identifies their solutions. Were applied researches of world scientists in this direction and were obtained concrete theoretical results. Were given recommendations to parents as the main organizers of preschool reading.

Key words: reading, culture, research

YAŞLILARIN FƏRDİ TƏHSİLİNİN TƏŞKİLİNDƏ MÜTALİƏNİN ROLU

Lalə İSMAYILOVA,
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, bakalavr,
Elmi rəhbər: Aysel Həsənova

Məqalədə azyaşlıların fərdi təhsilinin təşkilində mütaliənin rolu problemləri öyrənilmişdir. Bu prosesdə ailənin və məktəbin iştirakı məsələləri nəzərdən keçirilmişdir. Mütaliə vərdişlərinin formalaşmasında yaş məsələsinin nəzərə alınması vurğulanmış, valideynlərə və müəllimlərə bu işin təşkili üçün tövsiyələr verilmişdir. Araşdırma zamanı dünya alimlərinin tədqiqatlarına mü-raciət edilmişdir.

Ailə mütaliə mədəniyyətinin təməl daşı hesab olunur. Mütaliə vərdişi ailədən qazanılır, belə olduqda o, öz davamlılığını qoruyur. Uşaqlar ailə üzvlərinin və ətrafdakı insanların davranışlarını təkrarlayır. Oxuyan, mütaliəyə, kitaba önəm verən ailə uşağa örnək hesab olunur. Ailə üzvünün oxuduğunu görən uşaq bu davranışı təkrar edəcəkdir. Valideynlər uşağın ilk müəllimidir və bu təhsil ömür boyu davam edər.

Şifahi dil savadlılıq üçün vacib sərmayədir. Zəngin şifahi dil və kitab mühiti savadlılıq prosesi və oxu vərdişi üçün ən böyük investisiyadır və mütaliə fəaliyyətinin formalaşması üçün üç mühüm amil vardır:

1) Savadlı ev mühiti;

2) Ailənin uşaqla keçirdiyi ünsiyyət yönümlü və keyfiyyətli vaxt;

3) Savadlılıq və təhsilə müsbət və dəstəkliyici münasibət mühiti (Jalongo, 2007).

Ailə üzvləri oxumağa bir proses kimi baxmalı, başda kitab olmaqla evdəki hər bir əşya, fəaliyyətə və davranışa təsir etməli, onların uşaqların mütaliə vərdişlərinə pilləkən olduğunu dərk etməlidirlər, bu fəaliyyəti effektiv və şüurlu davranışa çevirə bilməlidirlər. Bu, təsadüfi yox, şüurlu şəkildə edilərsə bu proses daha təsirli olar. Evdə valideynlər müəllim rolunu oynamalı, gündəlik davranışlarının uşağın savad və davranışlarına necə təsir etdiyini müşahidə etməlidirlər. Məsələn, birlikdə açıqca oxumaq və birlikdə alış-veriş siyahısı yazmaq. Araşdırmalardan məlumdur ki, ailə üzvləri evdə mütəmadi kitab oxuyan uşaqların sistemli mütaliə vərdişləri formalaşmışdır. Həmin uşaqlar təhsilə erkən başlayırlar, oxumağa maraq göstərirlər. (Morrow, 2009).

Morrow (2009; 386) doğuşdan sonra uşaqların oxuma davranışını belə ümumiləşdirir:

0-3 ay: Uşağın diqqəti çox qısa və nizamsızdır. Bunula belə, onlar oxumağa həvəslidirlər çünki şifahi dil uşaq dünyaya gələr-gəlməz ünsiyyət vasitəsi hesab olunur. Ona görə də bu yaşda kitablara, laylara və mahnılara, mütaliəyə sərmayə qoymağın başlanğıcıdır.

3-6 ay: Kitaba daha çox maraq göstərirlər. Onlar şəkillərə və dinləməyə diqqət edə bilərlər. Kitabı tutmağa, ağzına qoymağa və ya yerə atmağa çalışırlar.

6-9 ay: Kitaba maraq göstərirlər, hətta səhifəni belə çevirməyə cəhd edə bilərlər. Oxuyan adamın səs dəyişikliklərinə cavab verə və səs çıxara bilərlər. Bu o deməkdir ki, onlar qəbuledicidirlər.

1 yaş: Kitaba marağı daha çoxdur, kitabı vərəqləyər və zümzümə edər, oxuyan kimi səslər çıxara bilər, kitab illüstrasiyalarından tanış fiqurlar və formalar axtarar.

15 ay: Bu yaşda olan uşaq, əgər ailə üzvləri tərəfindən müntəzəm olaraq oxunursa kitabın üzünü və arxasını bilir, personajları tanıyar və onu oxucu ilə təkrarlaya bilər.

Ailədə mütaliə vərdişləri əldə etmək və oxu mədəniyyəti prosesinin bir hissəsi olmaq üçün:

- Ev mühiti oxu mədəniyyətini və oxu vərdişlərini dəstəkləməlidir. Evdə qəzetlər, jurnallar və xüsusilə uşaq kitabları və uşağın asanlıqla çata biləcəyi və seçə biləcəyi aşağı rəflərdə həm hekayə, həm də məlumat kitablarının düzülmüş və ya asan yerdə olması vacibdir.
- Balaca uşaqlar üçün kitablar qalın təbəqəli, suya davamlı və ya parçadan hazırlanmalı və bunlar evin otaqlarında uşağın əli çatan yerdə olmalıdır. Məsələn su keçirməyən plastik kitablar hamamdakı oyuncalar arasında ola bilər.
- Ucadan oxumaq ev şəraitdə tətbiq edilən ən təsirli oxu fəaliyyətidir. Mütəmadi olaraq ucadan oxumaq oxu vərdişlərinin inkişafı üçün əsas rolunu oynayır. Məsələn, yatmazdan əvvəl uşağa kitab oxumaq və daha sonra uşağın oxumağı öyrənməklə davam edər. Səsli oxumaq daha sonra uşağın ailə üzvünə səsli oxumasına və ya uşağın səssiz oxumasına çevrilər. Məktəbə başlasalar belə, evdə oxu fəaliyyətləri davam edilməli və təşviq edilməlidir.
- Valideynlər və ya ailə üzvləri uşaqların nə cür mövzulardan və ya kitablardan xoşlandığını bilməli və uşağa sevdiyi ədəbi janrları ya da yazıçıları təqdim etməlidir.

- Ailə üzvləri mütaliə edərkən uşağa sual verməli və uşağla maraqlanmalıdır. Bu suallar başa düşdüklərini müəyyən etmək üçün deyil, ünsiyyət mühiti yaratmaq, söhbət etmək və əyləncə üçün olmalıdır. Məsələn, onların sevimli personajı, epizod, şəkli və niyə bunları bəyəndiklərini və ya onların yerində olsalar nə edərdilər və ya hekayə uşağı necə təsir etdi. Səsli oxuyarkən dayanıb hekayə haqqında danışmaq təkcə dilçilik və ya oxumaq deyil, hər sahədə inkişafa təsir göstərər.
- Səsli oxuyarkən ara sıra sözləri və mətni barmaqla göstərmək və uşağın baxmasına kömək olmaq faydalıdır. Bu təcrübə uşaq üçün oxumağı öyrənməkdən çox bir mətnin mesaj dolu olduğunu göstərməkdir.
- Ailə üzvləri uşağa kitabxana kartı verməli və kitabxana vərdişi aşılamalıdır. Uşaq təkcə kitab alıb-vermək deyil, kitabxanada oxumaq vərdişi də qazanmalıdır. Kitabxananın mütaliə proqramlarına da ailə övladı ilə birlikdə maraq göstərməlidir.
- 4-5 yaşlarında uşaqlar ən sevdikləri kitabları təkrar-təkrar dinləmək istərlər. Bu şans onlara verilməlidir. Əgər özləri də oxuyurmuş kimi davrandıqda bu davranışın dəstəklənməsi çox vacibdir. Bunlar oxu bacarıqlarının bir hisssəsidir.
- Alış-verişə gedərkən, həkim kabinetində gözləyərkən və ya avtomobildə səyahət edərkən də uşaqların sevdiyi kitablar yanında daşına bilər və uşaqların oxuması, gözdən keçirməsi ya da balaca uşaqlar üçün oxuyur kimi etməsi dəstəklənir.
- İnternet vasitəsilə artıq bir çox məlumatı əldə edə bilirik. Ailələrə uşaq kitabları, oxuma və təhsil ilə bağlı bir çox məlumat verəcək internet saytları vardır.

Mütaliə mədəniyyətində məktəbin yeri. "*Əsl savadlı insan təkcə oxumağı bilən deyil, öz istəyi ilə oxuyan, düşünən və qarşılıq verəndir. Oxumağı öyrənməyin əsas vəzifəsi əslində uşaqların mütaliə istəklərini qarşılamaqdır".* (Sloan, 2003; 4). Oxumağı öyrətməyin müxtəlif üsulları vardır. Oxuma mədəniyyətinə birbaşa təsir edən üsullara kommunikativ ucadan oxu, ikili oxuma, səssiz oxu daxildir. Bu üsulların mütaliə mədəniyyəti prosesinə töhfəsi çox böyükdür. Bu üsullar sadəcə oxuma sevgisi və istəyi qazandırmaz, kitabın əhəmiyyətini vurğulayar. Oxuma bacarığının yaratdığı düşünəbilmə hadisələrin yaranmasına funksionallıq gətirir. Məktəblərdə bu üsulların müəllimlər tərəfindən uğurla istifadə olunması vacibdir.

Ucadan oxu ailədə başlayan və məktəbdə davam edən çox yayılmış mütaliə növüdür. Ucadan oxu hər nə qədər məktəbəqədər təhsildə və ibtidai məktəbdə daha çox tətbiq olunsa da, təhsilinin hər pilləsində tətbiq edilməsi lazım olan mütaliə üsuludur. O, oxu mədəniyyətinin formalaşma prosesində ən təsirli üsul kimi qiymətləndirilir. (Becoming a Nation of Readers, 1985; Hancock, 2007; Russell, 2009; Trelease, 2013).

Müəllimin kommunikativ ucadan oxu metodunu uğurla tətbiq etməsində bu məqamlar vacibdir:

- Müəllim bu oxuma metodunun oxuma mədəniyyətində nə qədər əhəmiyyətli olduğuna inanmalıdır.
- Müəllimin bu metodun tətbiqi ilə bağlı biliyi varsa, tətbiq etdikdən sonra uşaqları müşahidə edib öz tətbiqinə rəy verməsi, bu tətbiqi daha uğurlu edər.
- Səsli oxuyacağı kitab əvvəlcədən oxumuş və necə bir təsir yaradacağını düşünmüş və planlamış olmalıdır. Hansı səhifələrdə necə sual verəcəyini, necə bir söhbət və

ünsiyyət mühiti yaradacağını planlamalıdır. Bu suallar anlayıb anlamadıqlarını ölçməkdən çox şəxsən necə yanaşacaqlarına diqqət yetirməlidirlər. Məsələn, personajların kimlər olduğu onlar haqqında nə hiss etdikləri soruşulmalıdır. Yəni düşünmə və hekayə ilə məşğul olma imkanı verilməlidir.

- Ucadan oxu üçün kitab seçərkən şagirdlərin maraqları nəzərə alınmalıdır. Uşaq maraqlandığı və bəyəndiyi zaman bu mühitdən və hekayədən həzz alır. Bu seçimin uğurlu olması üçün həm müəllimin kitab biliyinin yaxşı olması həm də şagirdlərini yaxşı tanımaları lazımdır. Şagirdlərin maraqları, sevimli mövzuları və ya müəllifləri, öz şəxsiyyətləri, oxuma-dinləmə bacarıqları, sosial davranışları müəllimlər üçün vacib məlumatlar olmalıdır. Bu məlumatlar tədris yolları və kitab seçimlərində müəllimin mühüm mənbəyi hesab olunur.
- Şəkilli kitabların oxunmasında şəkillərin gücü nəzərdən qaçırılmamalıdır. Şəkillər göstərilməli və onlar haqqında danışma və müzakirə etmək imkanı təmin edilməlidir
- Müəllimlər kitabxanaların səsli oxumada necə bir resurs ola biləcəyinin şüurunda olmalı və kitabxanalardan maksimum səviyyədə yararlanmalıdırlar (Cummins, 2012).
- Müəllim seçim edərkən şagirdə seçim təklif edə və məsləhətləşə bilər. Şagird mərkəzli seçimlər bir çox şagirdi bu tətbiqdə aktiv edəcək və ona məsuliyyət verəcəkdir.
- Oxuma sonrası fəaliyyətlərdə uşağın şəxsi yanaşması önəmli olmalıdır. Yəni tək cavabı olan fəaliyyətlərdən əlavə uşağı aktivləşdirilməsi və subyektiv cavablar

vermələrini təmin edəcək şəkildə olması uşağın oxuma istəyinin reallaşmasına kömək edəcəkdir. Sub-yektiv yanaşmanın dəstəkləməsi uşağa risk almasına, kitab seçimlərində və hekayə ilə bağlı söhbətlərdə öz fikrini bildirməsinə kömək olacaqdır.

- Müəllimlər uşaqların cavablarına, reaksiyalarına və danışıq məqamlarına müsbət münasibət bəsləməli, qəbuledici olmalı və yaradıcı tərəflərini (Üstündağ, 2002) dəstəkləməlidirlər. Onların hekayə ilə münasibət qurmalarını təmin edəcək söhbət və müzakirə nöqtələri müəyyən etmək müəllimin bacarığı olmalıdır. Uşaqlar "səhv" qorxularından uzaqlaşarlarsa maraqları daha yüksək olar, beləliklə oxumağa başlayarlar.
- Müəllim kitabın estetikasını, müəllifini və ya illüstrasiyalarını, hekayəni və ya personajı necə güclü bir şəkildə ortaya çıxardıqları, ifadəli dil və vurğulanan mövzu üzərindən də müzakirə edə bilər və şagirdlərin subyektiv fikirlərini dinləyə bilər. Bu cür sistemli halına gəlmiş intellektual söhbətlər mütaliə mədəniyyətində öz əksini tapacaq. Vacib olan uşaqların qorxmadan və səhv edərəm qorxusu olmadan bu söhbətlərin bir hissəsi olmasını təmin etməkdir.
- Müəllimlərin ən təsirli dərmanı öz oxuma və kitab sevgilərini və həvəslərini şagirdləri ilə bölüşməkdir. Krashen (2004) bu ehtirası "yoluxucu" hesab edir. Uşağın müəllimində izlədiyi bu sevgi və diqqət onun diqqətini çəkər. Ona görə də oxuyan, oxumağı sevən və kitab mədəniyyəti geniş olan bir müəllim uşaqlar üçün ən yaxşı modeldir. Applegate (2004) tərəfindən aparılan araşdırmada oxu vərdişləri olan və müsbət münasibət sərgiləyən müəllimlərin təcrübələrinə müsbət təsir etdiyini və şagird-

lərinin də oxumağa müsbət yanaşdığını, müstəqil kitab seçdiklərini və daha çox oxuduqlarını müşahidə etmişlər.

- Müəllim müxtəlif ədəbiyyat növlərini uşaqlara tanıtmalı və fərqli janrları oxumağa həvəsləndirməlidir. Bu fərqlilik sevdikləri janrı kəşf etməkdə mühüm addımdır.

Nəticə. Mütaliə mədəniyyəti bir çox amillərin rol oynadığı prosesdir. Bu prosesin müsbət inkişafına töhfə verəcək amillərdən ən önəmlisi dövlətin təhsil siyasətidir. Dövlətin investisiyaları və təbliğatı ailə tərbiyəsindən və məktəbəqədər təhsildən başlamalıdır. Təhsil Nazirliyi və müvafiq dövlət qurumları mütaliə mədəniyətinin inkişafında aparıcı rol oynamalı, oxu mədəniyyətinə vahid və davamlı konsepsiya və təcrübə kimi baxmalıdırlar.

Qaynaqlar

1. APPLEGATE, J. A.&APPLEGATE: M. D. (2004). The Peter Effect: reading habits and attitides of preservice teachers. The Reading Teacher, 57 (6), 554-563.
2. Becoming a Nation of Readers: The Report of the Commision of Reading. 1985, *ERİC: 253 865.*
3. CUMMINS, C. (2012). Celebrating teachers: using children”s literature to make a difference. Reading Today, Oct., 2-4.
4. HANCOCK, M. R. (2007). *Language Arts: extending the possibilities*. Upper Saddle River: New Jersey. Pearson.
5. JALONGO, M. R. (2007). Early Childhood and Language Arts. 4thedition. Boston, MA: Pearson.
6. JONSHON, D. (2009). The Joy of Children”s Literature. Boston. MA: Houghton Miffin Harcourt Publishing Company.
7. KRASHEN, S. D. (2004). The power of reading: insights from the research. 2nd edition. Portsmouth: Heinnemann.

8. MORROW, L. M. (2009). Literacy development in the early years. 6thedition. Boston, MA: Pearson.
9. RUSSEL, D. L. (2009). Literature for children. 6th edition, Boston, MA: Pearson.
10. SLOAN, G. (2003). *The child as critic: Developing literacy through literature, K-8* (4th edition). New York: Teachers Collage Press.
11. TRELEASE, J. (2013). *Read Aloud Handbook*. 7th edition. New York, NY: Penguin Books.
12. ÜSTÜNDAĞ, T (2002). *Yaratıcılığa Yolculuk*. Kok Yayıncılık: Ankara

THE ROLE OF READİNG İN THE ORGANİZATİON OF INDİVİDUAL EDUCATİON OF MİNORS

Lala İSMAİLOVA

Abstract

The article explores the problems of the role of reading in the organization of individual education of minors. Was considered the participation of the family and the school in this process. It was emphasized that age is taken into account in the formation of reading habits, and were given parents and teachers recommendations for organizing this work. During the research was used the research of world scientists.

Key words: education, individual, reading

JOSE SARAMAQONUN "QABİL" VƏ MİLAN KUNDERANIN "HƏYAT BAŞQA YERDƏDİR" ROMANLARINDA ZAMAN VƏ MƏKANIN BƏDİİ STRUKTURU

Ləman Abasova,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dr. Ülvi Babasoy

Bu məqalədə Postmodern ədəbiyyatın çox gözəl örnəklərini yaratmış Saramaqonun "Qabil" və KUNDERAnın "Həyat başqa yerdə" romanlarını müqayisə etdik. Həm Saramaqo, həm də KUNDERA həyatları boyunca müəyyən təzyiqlərlə qarşılaşmış, lakin bunun yaratdıqları ədəbiyyatı üstələməsinə icazə verməmişlər. Saramaqo bəşəriyyətin nankor, xain deyə- xatırladığı qatildən, KUNDERA həyat və xəyal arasında get-gəl edən şairdən bəhs edir. Qabil nə qədər dürüst, cəsarətli və ağıllıdırsa, Jarromil bir o qədər yalançı, qorxaq və üzüyoladır. Hər iki roman insanı düşünməyə, insanlığın mahiyyətini açmağa yönəlikdir. "Qabili" oxuduqca sorğulamağa başlayırıq, sorğuladıqca önyarqılarımız yıxılır. "Həyat başqa yerdədir"-oxuduqca isə içimizdə o həmişə təqdir olunmaq istəyən uşağa yaxınlaşırıq. Hər iki əsərdə bədii əksini tapan sonsuz zaman və məkan döngüsündə az da olsa ölümsüzlük əldə edirik.

Giriş. Jose Saramaqo 1922-ci il 16 noyabr Portuqaliyada dünyaya gəlib. Yoxsulluq ucbatından yaxşı təhsil ala bilməsə də, ciddi mütaliə ilə məşğul olmuş, mexaniklik, daha sonra jurnalistlik və redaktorluq etmişdir. Saramaqo yazıçı kimi ədəbiyyat dünyasına ilk dəfə 1947-ci il "Günah diyarı" romanını dərc etdirməklə gəlmişdir. İlk kitabın uğurundan doğulan fərəh duyğusu çox keçmədən daxili böhranla qarşılaşmış, ***19 il sürəcək durğunluq 1966-cı*** ildə "Mümkün şeirlər" toplusunun çapı ilə son-

lanmışdır. Siyasi səbəblərlə bağlı redaktorluqdan çıxarıldıqdan sonra Saramaqo, özünü yazıçılığa həsr etmişdir. "Vəfatına kimi yazıçının qələmə aldığı romanlar: "Damdakı pəncərə", "Rəssamın əl kitabı", "Ölümcül əşyalar", "Ümid tarlaları", "Baltasar", "Rikardo rəisin öldüyü il", "Korluq", "Naməlum ada", "İtirilmiş ada hekayəsi", "Kopyalanmış ada", "Filin səyahəti", "Kiçik xatirələr", "Mağara", "Bir zamanlar ölüm", "Qabil". Saramaqo bu əsərlərin alt qatlarında tanrı, din və şər qavramları ilə bağlı görüşlərini sərgiləyir." (Çiftçi,2016:40-43).

"Həqiqətən də Joze Saramaqo zahirən dilin bütün bəlli normalarını sındırmaqla məşğuldur, durğu işarələrinə, cümlə quruluşuna, söz sırasına çox sərbəst münasibət bəsləyir. Lakin onun ilk baxışdan nizamsız kimi görünən dili ölçülü-biçili, son dərəcə canlı, təsvirləri qeyri-ənənəvi olsa da, dəqiqdir. " (Saramaqo, 2010:16). Saramaqo dünyamıza xaricən bənzəyən amma öz qanunları olan paralel bir dünya yaradır, bizi balaca kvadrat pəncərəmizin yanından çəkib-alır, adət-ənənə, inanc, bildiyimizi sandığımız hər nə varsa fərqli ssenarilərinin işləndiyi dünyasına həbs edilirik.. Özümüzü adət etdiyimizdən çox-çox uzaqda qarışıq hadisələrin ağuşunda tapırıq, çox təəssüf ki, burada dualarımızı eşitdiyi an yardım əli uzadan güvənilə biləcək tanrı yoxdur.

"Qabil."(2009) Saramaqo bu son kitabında bəşəriyyətin nankor, xain adlandırdığı qatilin hekayəsini canlandırır. Ənənəvi hekayə bu cür başlayır. "Adem karısı Havva ile yattı. Havva hamile kaldı ve Kayin'i doğurdu. "RAB'bin yardımıyla bir oğ-ul dünyaya getirdim" dedi. Daha sonra Kayin'in kardeşi Habil'i doğurdu. Habil çoban oldu, Kayin ise çiftçi. Günler geçti. Bir gün Kayin toprağın ürünlerinden RAB'be sunu getirdi. Habil de sürüsünde ilk doğan hayvanlardan bazılarını, özellikle de yağlarını getirdi. RAB Habil'i ve sunusunu kabul etti. Kayin'le

sunusunu ise reddetti. Kayin çok öfkelendi, suratını astı. “ Url-1 Hekayənin davamını bilirik, Qabil qardaşını öldürür və tanrı tərəfindən yer üzündə avara-sərgərdan gəzməklə lənətlənir. Saramaqo bizə hekayəni anlatmağa Adəmlə Həvvanın yaradılışından başlayır. Yer üzündə çəkilən çətinlik və sıxıntı, dünyaya gətirilən uşaqlar-“Habil” və “Qabildən”. Qabildən danışılmağa başlandığı andan hekayə Qabilin seçimləri ilə şəkillənən ziqzaqvari xətt üzərindən davam edir. Saramaqo anlatdığı hekayədə içimizdəki şübhəyə səslənir. “Tanrı niyə ağacın meyvəsini yeməyə mane olmadı?”, ya da “Bu ağacın meyvəsini yeməyin”- deyə xəbərdarlıq edərkən niyə bir izahat vermədi?” “, “Qabilin hədiyyəsini geri çevirərkən onun qürurunu incidəcəyini, bu incikliyin qardaşlar arasında nifaqa yol aça biləcəyini heç düşünmədimi? “Əgər tanrı həqiqətən Habilin günahsız olduğunu düşünürdüsə niyə onu qoruması altına almadı?” “Ən əsası, baş verəcəkləri əvvəlcədən bildiyi halda etinasızlıq göstərmək tanrını bu günahlara şərik etməzmi?”

“Efendi'nin öngörüsüzlüğü apaçık ortadadır; çünkü bu meyvenin yenmesini gerçekten istememiş olsaydı çare basitti: Ağacı hiç dikmemesi, başka yere yerleştirmesi veyahut dikenli tellerden bir çitle etrafını çevirmesi yeterli olurdu.” (Saramaqo,2019:9)

Tanrının bu cür kiçik, fəqət önəmli detallar qarşısında səbrsiz və vecsiz davranışlarını roman boyunca müşahidə edirik

Zaman və məkanın bədii strukturu: Qabilin səfərləri öz qeyri-adiliyi ilə seçilir, Gələcək və keçmiş onun üçün paralel indilərdən ibarətdir. İlk gedilən məkan Noddur. Qabil, talenin naxışı ilə gilyoğuran kimi iş tapdığı bu şəhərdən Lilithin (Nodun kraliçası) sevgilisi kimi ayrılır. İbrahimin İshaqı öldürmək üzrə olduğu, Babil qalasınının tikildiyi, Lut qövmünün yer üzündən silindiyi, Musanın 40 günlük Sina dağına çıxdığı, Əyyubun

səbrinin tanrı tərəfindən sınağa çəkildiyi zaman və məkanlara sırası ilə gedir. Onun son dayanacağı tufan öncəsi Nuhun gəmisinin inşa olunduğu zamandır. Yolçuluq arasında bir dəfə Noda-sevgilisinin yanına qayıtsa da oradan öz könlü ilə ayrılır, çünki bu cür oturaqlı və rahat həyat onluq deyil, bir zamanlar atası Adəmin öngördüyü kimi.

Kitabında zaman və məkanın bədii strukturunu yaradan təkcə SARAMAGO deyil, bunu ondan illər öncə KUNDERA "Həyat başqa yerdə" (1973), Karlos Fuantes "Terra Nostra" romanlarında özlərinə məxsus üslubları ilə işləyiblər.

KUNDERA. 1929 təvəllüdlü Çexoslavakiyalı şair və yazıçı, 14 kitabın müəllifi. O, Şərqi Avropadakı köhnə kommunist rejimlərinin əzabından çıxan, mühüm və istedadlı yazıçıdır, Əsərlərində qarşılaşdığımız siyasi hadisələr siyasi traktat səviyyəsində deyil, çünki KUNDERAnı maraqlandıran mövzu bəşəriyyətin üzləşdiyi ekzistensial problemlər və onların həll yollarıdır.

"Həyat başqa yerdə" Roman şair olaraq tanıdığımız Jaromil xarakterinin üzərində qurulub. Jaromil istənməyən qadından doğulan bir uşaq olsa da, uşaqlığının müəyyən bir dönəmi xüsusi sevgi və diqqət içərisində keçir. Bu diqqət uşaqda şöhrətpərəstlik, üstünlük duyğusunu yaratmaqla, onu həyatı boyunca davam edəcək yanlızlığa sürükləyir. Jaromil böyüdükcə anlayır ki, dünya heç də onun ətrafında fırlanmır, insanlar üçün onun varlığı və yoxluğu arasında elə də böyük fərq yoxdur, odur ki onu xəstəlikli bir sevgi ilə sevən anasına daha çox bağlanır, heç bir sərhədin olmadığı xəyal dünyasına sürüklənir. Jaromil heç vaxt özü ola bilmir, təqdir olunmaq üçün başqalarının rollarına girir, bu bəzən güvənli bəzən isə alçaldıcıdır. Belə zamanlarda Jaromil bir insandan daha çox kölgəni xatırladır,

Ana-oğul münasibəti romanın onurğa sütununu təşkil edir və ona iki fərqli bucaqdan baxmaq olar. Birincisi anasının xəstəlikli sevgisi Jaromili anaya aid bir kölgəyə çevirir. İkincisi isə şair varlığını onu əhatə edən bu dişi enerjiyə borcludu.

Birinci bucaq: Başqalarını idarə etmək özümüzünkündən daha rahatdır, ələxsus da bu bizə möhtac bir candırsa. Qadın içində güclü bir sevgi daşıyır, bunu düzgün paylaya bilmədikdə isə bədbəxtliyə düçar olmaqla qalmır, həm də düçar edir. Jaromilin anası kimi. Sərhədsiz sevginin gözləntisi böyük olur, burada azadlıqdan söhbət gedə bilməz. Bu cür münasibətlərdə valideynlər uşaqlarına xəyallarına xidmət edən bir kopya kimi davranır, onu vahid kölgəyə çevirir.

İkinci bucaq: "Şairlerin gözlerini dünyaya açtıkları büyük evlerde kadınlar hüküm sürer: Essenine ve Mayakovskinin kız kardeşleri, Bron'un teyzeleri, Hölderlin ve Lermantov'un büyükannesi, Puşkin'in sütannesi ve özellikle de anneler, babanın gölgesini örten şair anneleri. Leydi Wilde, oğlu Oscar'ı kız çocuğu gibi giydirirdi. Çocuğun aynada kaygıyla kendini seyredişini düşünebiliyor musunuz? Adam olma günü geldi diye yazıyordu günlüğüne Jiri Örten*. Şair, tüm yaşamı boyunca yüzünde erkekliğin çizgilerini arayacaktı. (KUNDERA,2015: 99)

Jaromil həyatını böyük bir axtarış içində keçirir, kişiliyini, mənliyini sadəcə üz cizgilərində axtarmır, ətrafında da axtarır. amma xətaya yol verir, çünki özünü başqalarının gözü ilə qiymətləndirir,. Daxili axtarışları onu Xavieri yaratmağa təşviq edir. KUNDERAnın Jaromilin həyatını yaşayıb-yaratmış ən önəmli şairlərlə qarşılaşdırması da təsadüf deyil. Uşaqlıqdan ölümə doğru uzanan həyatlardan paralel parçalar işləməklə zaman və məkanım mükəmməl bədii strukturunu yaradır.

“ Xavier, kirli bir ip gibi doğumdan ölüme uzanan tek bir yaşam yaşamıyordu yaşamını yaşamıyor, onu uyuyordu, bu yaşam uykuda bir düşten diğerine sıçrıyordu? düş kuruyor, düş kurarken uyuyor ve uykusu sanki içinde başka bir kutu, onun da içinde başka bir kutu bulunan sonu gelmeyen bir kutular dizisiymişcesine, başka bir düş kuruyordu. (KUNDERA,2015: 84-85

Xavier Jaromilin olmaq istədiyi, ayrılmaz parçası saydığıdır. Bu üzdən onu yaradarkən lütfkarlıq edərək real dünyada kimsənin sahib ola bilməyəcəyi bir şeyi verir-azadlığı. Bir xəyaldan digərinə sıçrayarkən Xavier kimsəyə aid deyil, Jaromilə belə.

Xavier sonsuz zaman və məkanlar dünyasında var-gəl edir. Onun bu səyahəti Qabili xatırladır. Qabili tanrı, Xavieri Jaromil yaradır, Jaromil də bir baxımdan kiçik tanrı sayıla bilər. İronik olan hər iki tanrının sonda yaratdığı tərəfindən məğlub edilməsidir.

..

"Nereye gitmek istiyorsun?"

Xavier gülümsedi ve pencereyi gösterdi. Pencere açıltı, dışanda güneş vardı ve uzaktan şehrin macera dolu gürültüleri geliyordu.

"Beni de birlikte götüreceğine söz vermiştin..."

- O eskidendi, dedi Xavier.

- Bana ihanet etmekmi istiyorsun?

- Evet, sana ihanet edeceğim

Jaromilin soluğu kesilmişti. Hissettiği tek şey Xavier'den tarif edilmez derecede nefret ettiğiydi. (KUNDERA,2015: 311-312)

…

Geminin karanlık iç kısmından gelen kabil büyük kapının eşiğinde belirdi, Nuh ve yakınları nerede, diye sordu efendi, Şurda

burda, öldüler, cevabını verdi kabil, Öldüler mi, nasıl olur, öldüler ha, neden, Nuh hariç, o özgürce, gönüllü olarak boğuldu, diğerlerini ben öldürdüm, Katil, benim projeme karşı çıkmaya nasıl cüret ettin, habil'i öldürdüğünde senin yaşamım esirgemiş olmama böyle mi teşekkür ediyorsun, diye sordu efendi, Bir gün birisinin seni gerçek yüzünle karşı karşıya bırakacağı gün gelmeliydi, Ya ilan ettiğim yeni insanlık, Bir tane oldu, bir daha olmayacak ve kimse de buna üzülmeyecek,.
(Saramaqo,2019:134)

Nəticə

Nəticə etibarilə deyə bilərik ki, zamanın və məkanın bədii strukturnu yaratmaq mürəkkəb bir işdir və bunun öhdəsindən Saramaqo, KUNDERA kimi usta yazıçılar gələ bilər. Müqayisəsi-ni apardığımız hər iki əsər də ayrı-ayrılıqda çox dəyərli sənət nümunələridir.

"Qabil" Saramaqo bu romanı yazmaqla oxucuya nostaljik hislər yaşadır, bizlər bu kimi hekayələri eşidərək böyümüşük, amma bizə danışılanlardan fərqli olaraq bu romanda Qabilə sadəcə qatil, Habilə qurban, Həvvaya günahkar, Lilithə zinakar, İbrahimə sədaqtli deyib keçə bilmirik. Heçkim və heçnə göründüyü kimi deyil, insanlıq isə nə ağdır nə də ki qara.

"Həyat başqa yerdə" romanında mövzu ilə əlaqəli olaraq daha çox Jaromil və anası arasındakı münasibətdən, Xavier və onun başına gələnlərdən bəhs etməli olsaq da KUNDERAnın Kommunizm, digər adı ilə qurulmuş yeni "xoşbəxt dünya" daxilində insanların verdiyi yaşam mücadiləsini çox gözəl şəkildə işlədiyini qeyd etməliyik.

Tanrı da, Jaromil də istədiyini mövcud olan həyatda tapa bilmir, özgə mümkünlük, mövcudluq axtarırlar, başqa bir dünya yaratmaq ehtiyacı buradan doğulur. Ədəbiyyat insanın zaman və məkan üzərindəki ən böyük qələbəsidir. Bəs görəsən dünya gö-

zəl bir yer olsa idi, insanoğlu ədəbiyyatı yaratmağa ehtiyac duyardımı? Ya tanrı, ona nə deməli? Son olaraq, qüdrətli yaradıcı bütün varlıq üzərində nə qədər hökmə sahib olur-olsun, azadlıq yaradılmış hər varlığın mütləq haqqıdır.

Qaynaqlar

1. Çiftçi, O.Z (2016) Tanrıyla kavqalı adam, Jose SARAMAGOda Tanrı Din ve İnsan. Konya: Çizgi yayınevi
2. Jose SARAMAGO Seçilmiş əsərləri- Şərq-Qərb Bakı- 2010,-16 s.
3. Jose SARAMAGO- Kabil-2. Basım- Çeviren Işık Ergüden.
4. Milan KUNDERA Yaşam başka yerde Levent KayaAalp
5. URL-1. https://incil.info/kitap/Yaratilis/4

THE ARTISTIC STRUCTURE OF TIME AND SPACE IN JOSE SARAMAGO'S CAIN AND MILAN KUNDERA'S LIFE IS ELSEWHERE

Ləman ABBASOVA

Abstract

In this article, we have compared SARAMAGO's Cain and KUNDERA's Life Elsewhere, which are excellent examples of postmodern literature. Both SARAMAGO and KUNDERA faced certain pressures throughout their lives, but they did not allow it to overwhelm the literature they created. SARAMAGO speaks of a murderer who mankind remembers as an ungrateful traitor, SARAMAGO also a poet who wanders between life and dreams. The more honest, courageous, and wise Cain is, the more deceitful, cowardly, and deceitful Jarromil is. Both novels are aimed at thinking about man and revealing the essence of humanity. As we read "Qabil", we begin to ask and our

prejudices fall. As we read, “Life is elsewhere,” we draw closer to the child who only wants to be appreciated. In both works we obtain at least a little immortality in the infinite cycle of time and space, which is reflected in art.
Key words: Postmodern literature, “Life Elsewhere” “Cain”, the first killer, poet.

QARABAĞDA DAĞIDILMIŞ TARİXİ ABİDƏLƏRİN BƏRPASI

Ləman BALIŞOVA,
Sumqayıt Dövlət Universiteti, bakalavr,
Elmi rəhbər: b/m.Aytən Əsədova

Azərbaycan Respublikası coğrafi mövqeyi baxımından çox zəngin bir Respublikadır. Xüsusilə də Qarabağ bölgəsi coğrafi mövqeyi baxımından çox əhəmiyyətlidir. Məhz buna görə də Qarabağda kökü ta qədim dövrə dayanan tarixi abidələr mövcuddur. Bunlara misal olaraq Bayat qalası, Şuşa qalası, Şeyx Yaqubun türbəsi, Qoçəhmədli Cümə məscidi, Cəlal türbəsi, Həmzə Sultan sarayı, Xudafərin körpüsü, Xan sarayı, Molla Pənah Vaqifin büstü və s. adı çəkilən bu abidələr adları çəkilməyən və çəkilsə yerləşməyi üçün yer çatmayacaq abidə-lər zaman-zaman Azərbaycana, Qarabağa hücum edən dövlətlər tərəfindən tutulmuş, dağıdılmış, yerlə yeksan edilmişdir. Bu abidələrin bəziləri tamamilə məhv edilmiş, bəziləri isə zaman-zaman pərpa edilmişdir. Bunlara misal olaraq Molla Pənah Vaqifin büstünü, Xudafərin körpüsünü və s. nümunə göstərmək olar.

1027-ci ilə aid olan Xudafərin körpüsü İran-Qacar dövlətinin Qarabağ xanlığına hücumu ərəfəsində xanlığın təhlükəsizliyi məqsədilə İbrahim xan tərəfindən dağıdılmışdır. Lakin buna baxmayaraq hücumun qarşısını ala bilməmişdir. Daha sonra isə körpü Azərbaycan xalqının əzəli düşmənləri–ermənilər tərəfindən I Qarabağ müharibəsi zamanı–1993-cü il 23 avqustda ələ keçrilmişdir.Cəbrayıl rayonunda yerləşən Xudafərin körpüsü 27 il düşmən tapdağında qaldıqdan sonra nəhayət 2020-ci ilin oktyabrın 18-də Azərbaycanın rəşadətli ordusunun səyi nəticə-

sində düşmən tapdağından azad edilərək əzəli sahiblərinə geri qaytarıldı.

Böyük Qayıdışla 2020-ci ildə 44 günlük müharibədə güclü Azərbaycan ordusu işğal altında olan torpaqlarımızı azad etdi. 44 günlük müharibə dövründə Azərbaycan yeni tarixini, "Şanlı tarixini" yazdı. Qısa zaman ərzində Azərbaycanın Ali Baş komandanı, Prezident İlham Əliyev işğaldan azad olunan ərazilərə səfər etdi. Dağıdılmış şəhərlərlə, abidələrlə yerində tanış oldu. Qısa zaman ərzində dost ölkələrin şirkətləri işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərində iştirak etmək üçün təkliflər verdi.

04.01.2020-ci ildə tarixdə ölkə başçısı "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Fərman imzaladı. Fərman işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpasına yönəlib. Qısa zaman ərzində Heydər Əliyev fondu bir çox abidələrdə bərpa işləri apardı.

Heykəltəraş Həyat Abdullayeva tərəfindən 1957-ci ildə Şuşa şəhərində Molla Pənah Vaqifin xatirəsinə büst qoyulmuşdur. 1976-cı ildə Şairin Şuşadakı evinin yaxınlığına köçrülən büst 1982-ci ildə Vaqif türbəsinin açılışından əvvəl təmir edilmiş və postamenti dəyişdirilmişdir. Daha sonra isə 1992-ci ildə Ermənistan Silahlı Qüvvələrinin Şuşanı işğal etməsi ilə Vaqifin büstü vandalizmə məruz qalmış, dağıdılmışdır. (Azərbaycan tarixi, Yeddi cilddə, VII cild, 2008: 248). Nəhayət 28 il sonra– 2020-ci ilin noyabrının 7-də Şuşa şəhərinin işğalçılardan azad edilməsi ilə geri qaytarılan Molla Pənah Vaqifin büstü Həyat Abdullayevanın ilkin eskiz lahiyəsi əsasında yenidən bərpa edilmiş və əvvəlki yerinə qaytarılmışdır. 2021-ci ilin 29 avqustunda Şuşa şəhərində yeni büstün açılışı olub.

31 avqust 1982-ci ildə Şuşada Bülbülün ev muzeyinin əsası qoyulub. Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi

zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb. 44 günlük müharibədən sonra azad olunub və 2021-ci il avqustun 29-da bərpadan sonra ev- muzeyinin açılışı olub.

Bunlara yanaşı "Ağdam dram teatrı", "Üzərlik təpə"nin geri qaytarılması, "Çörək muzeyi"nin yenidən bərpası olunması və ya konservasiya edilərək saxlanılması, Qiyaslı məscidinin, Qutlumusaoğlu türbəsinin yenidən bərpası məsələləri də gündəmə gətirilib.

Ağdam məscidi erməni işğallarından sonra qismən dağılmışdır. (Azərbaycan tarixi, Yeddi cilddə, VII cild, 2008: 243). Qeyd olunub ki, Ağdam məscidi Ağdam şəhərində tam dağıdılmayan tək tikilidir, burada mal-qara və donuzlar saxlanmışdır və divarı qraffiti ilə vandalizasiya edilmişdir. Məscidin interyeri baxımsız və dağıdılmış vəziyyətdədir.

Düşmən vəhşiliyini bütün dünyaya göstərmək üçün bəzi dağldılmış abidələrin təmiri hələki nəzərdə tutulmur.

Qaynaqlar

1. TƏRABİK, Əhməd. (2020). *Qarabağ: Qafqazda sülhə gedən yol*. Bakı: Qafqaz nəşriyyat.
2. SƏLİMBƏYLİ, Şöhrət. (2020). *Azərbaycan tarixində qələbə salnaməsi*. Bakı: Avropa nəşriyyatı.
3. URL-1. https://apa.az/az/xeber/resmi-xeber/susada-bulbulun-ev-muzeyinin-berpadan-sonra-acilisi-olub-foto-yenilenib-video-658992
4. URL-2. Hacıyev Qasım. (2021). "Qarabağ abidələri". https://www.virtualkarabakh.az/az/post-item/25/39/qarabag-abideleri.html

RESTORATION OF DESTROYED HISTORICAL MONUMENTS IN KARABAGH

Laman BALISHOVA

Abstract

The article deals with the historical monuments of the Republic of Azerbaijan in Nagorno-Karabakh, which were liberated from the enemy's footsteps by the valiant Azerbaijani army after 27 years of savage destruction by Armenian vandals. is talking about the return. The article also notes that the Supreme Commander-in-Chief of Azerbaijan, President Ilham Aliyev, visited the liberated territories, got acquainted with the destroyed monuments and signed a decree on the reconstruction and restoration of the liberated territories. In a short time, the Heydar Aliyev Foundation has restored many monuments - the bust of Molla Panah Vagif, the Bulbul House Museum.

The restoration of a number of monuments was also on the agenda.

Key words: historical monuments, restoration, Khudafer's bridge, Vagif's bust, Bulbul's house museum.

GERHARD DOERFER VƏ ONUN TÜRKOLOJİ TƏDQİQATLARDA YERİ

Ləman ƏSGƏROVA,
Xəzər Universiteti, bakalavr,
Elmi Rəhbər: dr. Zəminə Ziyayeva

Gerhard Doerfer türk dilləri və dialektləri, Altay dil ailəsinə daxil olan dillər üzrə tədqiqatçı kimi çalışmış və bununla da türkoloq və altayşünas alim olaraq elm aləmində şöhrət qazanmışdır.

Gerhard Doerfer 8 mart 1920-ci ildə anadan olmuşdur. Doerfer 1949-1951-ci illərdə Şərqi Berlin Humboldt Universitetində ilk olaraq "Romanistik" və "İslam Elmləri", daha sonra 1952-1954-cü illərdə Qərbi Berlində Azad Berlin Universitetində "Türkologiya", "Altaistika" kurslarında iştirak etmişdir. O, "İslam elmləri", "İranşünaslıq", "Ümumi dilçilik və fəlsəfə" ixtisasları üzrə təhsil almışdır. Bundan əlavə müxtəlif universitetlərdə akademik dərs saatları alaraq o sahə üzrə müəyyən bilik və təcürbələr əldə etmişdir.

O, Göttingen Universitetində türkologiya fakültəsinin qurulmasına kömək etmiş, bir çox universitetdə türkologiya dərsi verərək bu sahədə bir çox kitab və məqalənin nəşrinə nail olmuşdur.

Gerhard Doerfer (1920-2003) Altay dilləri və türk dilləri ilə bağlı araşdırmaları ilə tanınan alman əsilli türkoloqdur. Doerferin uşaqlığı II Dünya Müharibəsi illərinə rastlamışdır. Təhsilindəki geçikmələr də məhz bununla əlaqəlidir. O, 1949-1951-ci ildə Şərqi Berlində Humboldt Universitetində təhsil almış, 1952-1954-cü illərdə isə Qərbi Berlində Azad Berlin Universitetində təhsilini davam etdirmişdir. Burada türkologiya və Al-

tay dilləri üzrə ixtisaslaşaraq məşhur türkoloq Karl Heinrich Mengesin (1908-1999) tələbəsi olmuşdur. (TDV, 2020: 339)

1955-1957-ci illərdə Mainz Akademiyasında işləmişdir. Burada "Philologiae Turcicae Fundamenta"nın I cildini nəşrə hazırlayaraq Əhməd Cəfəroğlu ilə birlikdə "Qaqauz", "Krım Osmanlı", "Krım-tatar" və "Azərbaycan türkcəsi" maddələrini yazmışdır. 1957-1960-cı illərdə "Türkische und mongolische elemente im Neupersischen" adlı böyük əsərini hazırlamışdır. Yeni Farscada türkcə və monqolca elementlərin tədqiqiylə əlaqəli olan bu çalışma elm dünyası üçün önəmli bir çalışma idi. (TDV, 2020: 339)

G. Doerferin türkcə, monqolca və tunquzcanın ortaq cəhətlərini araşdıran bir çox məqalələri ilə yanaşı, Qədim türkcə və Şərq türkcəsi mətnlərini tədqiqata cəlb edən araşdırmaları da vardır. G. Doerferin Tunquz dialektlərinin etimoloji lüğəti, İrandaki Türk Dilləri, Yeni Fars dilində türk və monqol elementləri, Mərkəzi Asiya tarixi, Xələc materialları, Türk dillərinin təsnifatı, bu kimi əsərləri, məqalələrindən isə "Monqolların gizli tarixinin tarixləşdirilməsi haqqında", "Xələc və onun türk dilləri ilə əlaqəsi" bu kimi məqalələri vardır. (TDV, 2020: 339)

Yuxarıdakı məlumatlar Doerferin Altayşünaslıq elminə büyük töhfələr verdiyini göstərir. Xələc türkcəsi və bu türkcə haqqındakı araşdırmaları isə onun türkologiya sahəsində yeni bir tədqiqat obyekti yaratmasına sübutdur. Doerfer 1968-ci ilin yazında Xələclərin yaşadığı yerlərdə tədqiqlər aparmaq üçün ora tələbələrindən ibarət bir heyət göndərmişdir. 1969-cu ildə isə tələbələrindən Pərviz Radjabi və Semih Tezcan ilə birlikdə bu ərazilərə getmiş, dialektoloji tədqiqtlar aparmış. Bu sahə araştırmasından əldə edilən dil materialları beş kitabda və ən azı 30 məqalədə toplanmışdır. (TDV, 2020: 339)

Doerferin tədqiqtına qədər türkologiyada Xələc türkcəsinin türk dilləri içərisində yeri haqqında çox geniş məlumat yoxdur. O, bu mövzuda "Xələccə Orta İranda arxaik bir Türk dili" adlı məqaləsində özündən əvvəlki tədqiqatçıların (V. Minorsky və M. Mogaddem) çalışmaları haqqında məlumat vermişdir. Eyni zamanda bu çalışmaların türkolojidə lazımi qədər maraqla qarşılanmadığını, halbuki Minoriskinin hər hansı bir xüsusi məqsəd daşımadan topladığı materiallarında belə bu türkcənin qədim xüsusiyyətlərinin bariz göründüyünü vurğulamışdır. Bu iki araşdırmacının tədqiqatlarını və özünün topladığı dil materiallarını müqayisə edərək bu türkcənin Azərbaycan türkcəsinin bir şivəsi deyil, qədim bir türkcə olduğunu irəli sürmüşdür. (Doerfer:18)

1968-ci ilin mart və aprel aylarında İranın Xələc türklərinin yaşadığı əraziləri gəzərək topladığı materiallar əsasında yeni bir tezis ortaya qoyan Doerfer Xələc türkcəsinin Tuva türkcəsi ilə eyni qrupda ələ alınmayacağını müyyənləşdirmiş, "Khalaj Materials" adlı kitabında bu türkcəsinın bir çox xüsusiyyətini göstərərək arxaik bir dil olduğunu sübut etmişdir. Doerfer bu yeni yanaşmanı ortaya qoyaraq türk dillərini yenidən təsnif etmiş, onları yeddi əsas qrupa ayırmışdır: 1. Çuvaş və ya Bulqar qrupu 2. Cənub-qərb və ya Oğuz qrubu 3. Şımal-qərb və ya Qıpçaq qrupu 4. Cənub-şərq və ya Uyğur qrupu 5. Şimal və ya Cənubi Sibir qrupu 6. Yakutça 7. Xələccə. Bu təsnif çalışmasından da göründüyü kimi Xələc türkcəsi yeni kəşf edilən və ən qədim türkcə olaraq Doerferin təsnifində yerini almışdır. (Doerfer,4-5).

Doerferin təsnifatı türkologiya sahəsində bir yenilik sayılmaqla birlikdə türkoloqların məsələyə münasibətləri birmənalı olmamışdır. Azərbaycanlı türkoloq Fərhad Zeynalov 1972-ci ildə "Dil və ədəbiyyat" jurnalının 3-cü sayında "Türk dillərinin

təsnifatı və “Halac dil qrupu” məsələsi” adlı bir məqalə yayınlamışdır. Bu məqalədə Doerferin fikrinə qarşı çıxaraq Xələc türkcəsinin Azərbaycan dilinin bir ləhcəsi olduğunu irəli sürmüşdür. (Tekin, 2005: 379).

Türk dillərini fonetik kriteryalar əsasında yenidən təsnif edən Talat Tekin Zeynalovun tezisini qəbul etməmiş və fikirlərini aşağıdakı şəkildə şərh etmişdir:

1. Xələc və Azəri türkcəsində (Azərbaycan Türkcəsi) *hür-*, *him,* və *hürk-* kimi bəzi sözlərin önündəki (sözönü) h səsi törəmə deyil, orijinaldır/əslidir.

2. Qədim türkcədəki adak sözündəki /d/ foneminin bəzi Azəri (Azərbaycan) dialektlərində yaşadığı iddiası doğru deyildir. Bu söz *ayaq* deyil, *adaḥ/adağ* “addım” sözüdür.

2. Xələcdə qorunub saxlanılan geniş zaman/indiki zamanın qədim forması *-yur* şəkilçisinə Azəri dialektlərində (Azərbaycan) də rast gəlindiyi barədə fikirlər düzgün deyildir. Azəri dialektlərindəki (Azərbaycan) şəkilçi qədim *-yorur*-un qalığıdır. (Tekin, 2005: 380).

Dorferin təsnifatı ondan sonra Türk dil və dilalektləri üzrə aparılan təsnif çalışmalarına yeni bir istiqamət vermişdir. Müasir dövrdə türk dillərinin ən geniş təsnifatı Talat Tekin tərəfindən aparılmışdır. Belə ki, o, fonetik əsaslarla türk dil və dil qruplarını yenidən təsnif etmiş, Xələc türkcəsini Çuvaş və Yakut dilləri kimi Türk dilinin ən qədim ləhcələri olaraq göstərmişdir. Beləliklə, türkologiyada bu iki arkaik dildən (Çuvaş və Yakut) başqa İran coğrafiyasında Türk dilinin qərb axını istiqamətində yeni bir arxaik dilin yaşadığı müəyyənləşdirilmişdir. Eyni zamanda qədim bir türk dilinin varlığı elm dünyasınca qəbul edilmiş və ya müzakirə və mübahisəyə şərait yaratmışdır. Bu təsnifat özlüyündə yeni bir məlumatın da qəbul edilməsini zəruri

etmişdir. Belə ki, bu ərazilər yeni türkcələrlə birlikdə, həm də ən qədim türk dilllərindən birinin danışıldığı coğrafı arealdır.

Doerferin türk dillərinin təsnifatına baxışı türkologiyada yeni istiqamətlərə yön vermişdir. Daha əvvəl də qeyd edildiyi kimi, o, ümumi olaraq türk dillərini 7 qrupa ayırmışdır: Çuvaşca, Xələccə, Yakutca, Cənubi Sibircə, Qıpçaqca, Uyğurca, Oğuzca. Tədqiqtçıya görə bu əsas dillərin alt qruplarının hər biri dialektdir. Macar türkoloq György Hazai (1932-2016) də Doerferin bu yanaşmasını əsas alaraq Oğuz türkcəsini təsnif etmiş və Oğuz türkcəsini 10 alt qrupa "dialekt qrubu"na ayırmışdır. Daha sonra sahə üçün olduqca önəmli sayılacaq bir sxemlə ümumi Oğuzcanı iki əsas qola ayırmışdır: Qərbi Oğuzca və Şərqi Oğuzca. Bu təsnifatda Azərbaycan türkcəsi Qərbi Oğuz türkcəsinə aid edilmişdir. Türkologiyanın əsas problemlerindən olan dil, dialekt məsələsi onun çalışmalarında yenidən gözdən keçirilmişdir. (Hazai, 136)

Nəticə olaraq deyə bilərik ki, G.Doerferin çalışmaları türkologiyada yeni bir tədqiqat obyektinin yaranmasına səbəb olmuşdur. O, İranda, eyni zamanda İranın mərkəzində yerləşən bir bölgədə qədim bir Türk dilinin varlığını sübut etmişdir, bu dilə aid bu sahə üçün olduqca əhəmiyyətli olan dil materallarını dialektoloji tədqiqtlar apararaq əldə etmişdir. Beləliklə, o, qədim bir /h/səsini qoruyan hadaq dilini türkolojiya sahəsinə tanıtmışdır.

Qaynaqlar

1. GERHARD, Doerfer. (1969). "İran'da Türk Dilleri", *Türk Dili Araştırmaları Yıllığı Belleten,* Ankara: Türk Dil Kurumu Yayınları (https://dergipark.org.tr/tr/download/article-file/506454)
2. GERHARD, Doerfer. (1995). *Türk Dilləri Araşdırmaları,* s. 5-11
3. GERHARD, Doerfer. (1969). İrandakı Türk Dilləri, *Türk Dili Araşdırmaları*, s. 17-44

4. GERHARD, Doerfer. (1977). *Xələc və Onun Digər Türk Dilləri ilə Əlaqəsi*, s.16-33
5. HAZAİ, György. Osmanlıca'nın Oğuz Dili Dairesindeki Yeri ve Öncesi (Çev. Asuman Karakaya) *Türk Dili ve Edebiyatı Dergisi* Cilt/Sayı: XLVI. 130-154 (https://dergipark.org.tr/en/download/article-file/158296)
6. HEYƏT, Cavad. (2011). *Türk dilləri və ləhcələrinin tarixi* . II kitab. Bakı : Elm və Təhsil nəşriyyatı
7. SƏMƏDLİ, Elza . (2021) *Türkologiyaya giriş.* Bakı: Köhlən Nəşriyyatı
8. TEKİN, Talat. (2005) Türk Dili və Dialektlərinin Yeni bir Təsnifi, *Məqalələr 3. Çağdaş Türk Dilləri*. Ankara: Grafiker yayınevi. s.361-386
9. ZEYNALOV, Fərhad. (1981). *Türkologiyanın Əsasları.* Bakı : Maarif Nəşriyyatı
10. BİLGİN, Azmi və GERHARD, Doerfer. İslam Ansiklopedisi (https://islamansiklopedisi.org.tr/doerfer-gerhard)

GERHARD DOERFER AND HIS PLACE IN TURKOLOGICAL RESEARCH

Laman ASGAROVA

Abstract

Gerhard Doerfer worked as a researcher of Turkic languages and dialects, languages belonging to the Altaic language family, and thus gained fame in the world of science as a Turkologist and Altaic scholar.

Gerhard Doerfer was born on March 8, 1920. In 1949-1951, Doerfer first took courses in "Romanistic" and "Islamic Sciences" at Humboldt University in East Berlin, and then in 1952-1954 in "Turkology" and "Altaic Studies" at the Free Berlin University in West Berlin. He studied Islamic Studies, Iranian Studies, and General Linguistics and Philosophy. In

addition, he gained academic knowledge and experience in the field by taking academic classes at various universities.

He helped establish the Faculty of Turkology at the University of Göttingen, taught Turkology at many universities and published many books and articles in this field.

Key words*:* Doerfer, Khalaj Turkish, Turkic languages, preface / h / sound, classification of Turkic languages.

BİR SÖZÜN DAVASI: "QEYBİ XƏZANƏDƏNDİR", YOXSA "QEYRİ XƏZANƏDƏNDİR?"

Leyla İSMAYILOVA,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: Qardaşxan Əzizxanlı

Məqalədə XVIII əsrdə yaşamış böyük Azərbaycan şairi Molla Pənah Vaqifin "Sevdiyim ləblərin yaquta bənzər" misrası ilə başlayan məşhur qoşmasında ilk bəndin son misrasının bütün mövcud nəşrlərdə "Hər biri bir qeyri xəzanədəndir" kimi çap edilməsi yanlış sayılır. Hesab edilir ki, misra "Hər biri bir qeybi xəzanədəndir" şəklində olmalıdır. Məqalədə məntiqi müddəalarla və elmi dəlillərlə irəli sürülən fikir əsaslandırılır.

Bir sözün davası az düşməyib. Dəvası tapılıb da, tapılmayıb da.

Nəsimi tac qəzəlində "Məndə sığar iki cahan" deyib, yoxsa "Məndə sığar ikən cahan"?

Nəsimi düşüncəsi, fəlsəfəsi hansı fikrə daha çox rəvac verir?

Füzulinin "Məni candan usandırdı" şah qəzəlinin məqtə beytində mətləsində olduğu kimi "usanmazmı" olar, yoxsa "uslanmazmı"?

Füzuli kimi ustad sənətkarın bir poetik mətndə eyni mənanı verən sözü iki dəfə işlətməsi nə dərəcədə ağlabatandır?

Bəli, böyük şairlərin hər kəlməsi qiymətlidir; o bu kəlməni necə deyib, nə cür deyərdi, yaxud belə deyərdimi?

Misal çəkilmiş bu dartışılan sözlər barədə araşdırmaçıların əsaslandırmaları bəlli olduğundan artıq məlum yekun qənaətlər üzərində dayanmırıq.

Biz Molla Pənah Vaqifin "Sevdiyim ləblərin yaquta bənzər" (Araslı,2004:110)misrası ilə başlayan məşhur qoşmasında ilk bəndin son misrasının göstərdiyimiz mənbədə və və göstərmədiyimiz müxtəlif nəşrlərdə, həmçinin demək olar ki, bütün internet resurslarında "Hər biri bir qeyri xəzanədəndir" şəklində dərc edilməsini yanlışlıq sayırıq. Bizcə, Molla Pənah Vaqif "qeybi xəzanədəndir" deyərdi, yəni sədəf ağzından çıxan sözlərin hər biri ilahidən olan, görünməyən, sanki sirli-sehirli bir xəzinədəndir və bu "qeybi xəzanədən" gələn hər söz sanki şairə vəhy, müqəddəs pıçıltı, ecazkar ilham təsiri bağışlayır. Burada M.P.Vaqif qiymətli daş-qaş saxlanılan dövlət, şah xəzinələrindən fərqli, qeybdə olan elə bir saxlancdan danışır ki, bu xəzinəni "qapıları", yəni sevdiyinin – ləbləri (dodaqları) yaqutdan, dişləri dürdanədəndir. Bu "qapıların" açıldığı yol – ağız (dəhan) da sədəfdəndir. Sevgili gözəlin görünən dodağı, dişi, ağzı bizim görüb-bildiyimiz qiymətli daş-qaşa bənzədilir. İndi gör görülməsi mümkün olmayan "qeybi xəzanədən" olan sözlər hansı ləl-cəvahiratdır? Yəqin ki, bizm eşidib-bildiyimiz bahalı daş-qaşların heç biri dəyərdə o sözlərlə müqayisəyə gələ bilməz. Axı həmin sözlər ilahidən – "qeybi xəzanədən"dir.

"Qeyri xəzanədəndir"i isə Vaqif olan Molla Pənah deməzdi, desə-desə, Vaqif adlanan sıradan minlərlə adamdan biri, ya elə hər biri deyərdi, deyə bilərdi.

Baxın, nəşrlərdə gedən bizim yanlış saydığımız variantda beyt belə mənaya gəlir: "Sədəf dəhanından çıxan sözlərin hər biri bir başqa (özgə, ayrı, digər) xəzinədəndir". Bir də sorumlayırıq, Molla Pənah Vaqif kimi son dərəcə obrazlı dilə malik olan bir şair heç bir poetik çəkisi, sambalı olmayan belə bir fi-kirlə sevdiyini tərənnüm edərdimi?

Hələ biz "qeyri xəzanədəndir"in qeyri- xəzinə, xəzinə olmayan çaları barədə danışmırıq. Halbuki burada da bir defis işa-

rəsi bu variantın "qanının arasına girir" (məs.: "qeyri-ixtisas" tələbələri və s.).

Təəssüflər olsun ki, sözü gedən yanlışlıq "Azərbaycan ədəbiyyatı tarixi" , M.P.Vaqifin "Əsərləri" , M.P.Vaqifin "Şerləri" və s. kitablardan başlayıb, şairin latın əlifbası ilə dərc edilən əsərlərində, o cümlədən Anarın "Min beş yüz ilin oğuz şeiri"ndə davam edir.

Bunu da yada salaq ki, tədqiqatçıların yekdil rəyinə görə M.P.Vaqifin edamından sonra onun əlyazmaları yandırılmış və onun müxtəlif janrlarda yazdıqları bizə ağızdan-ağıza, dildəndilə gəlib çatmışdır ki, sonradan yazıya alınan şeirləri yazanın, necə deyərlər, "insafına" qalıb, yaddaşı, bilgisi əsasında cünglərdə, muzeylərdə, müxtəlif məxəzlərdə yer alıb.

Araşdırma obyektimiz olan deyimin mənasına görə onun necə ola biləcəyi fikri əsas tutalqamız olsa da, sonradan ölməz "O olmasın, bu olsun" filmində ustad xanəndə Xan Şuşinskinin M.P.Vaqifdən oxuduğu məlum qoşmadan həmin ifadəni "qeybi xəzanədəndir" kimi oxuması qənaətimizə əminliyimizi daha da möhkəmləndirir.

Araşdırma zamanı daha bir elmi məqalə karımıza gəldi və bizdən ötrü bu məsələyə nöqtə qoymuş oldu. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı filologiya üzrə fəlsəfə doktoru, dosent Əli Məmmədbağıroğlu "M.P.Vaqifin əsərlərinin ilk qaynaqları" (2017: 50-55) adlı məqaləsində bu səhvi A.Berjenin Almaniyanın Laypsiq şəhərində 1867-ci ildə çap etdirdiyi "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir ki, Adolf Berje sahibcənabının ehtimamı ilə mətbu olunubdur" kitabında "qeyri xəzanədəndir" kimi getməsi ilə əlaqələndirir. Belə ki, bütün sonrakı nəşrlər A.Berjenin səhvini təkrarlamışlar. Əslində isə, həmin söz birləşməsi Mirzə Yu-

sif Qarabağinin “Kitabi-məcmueyi-divani-Vaqif və digər müasirin” əsərində “qeybi xəzanədəndir” şəklində verilmişdir.

Ərəb qrafikası ilə yığılan kitabda əlyazmadakı “qeybi” (ğeybi) sözündə olan “b” hərfinn nöqtəsi çox ehtimal ki, oxunmamış və ya düşmüş və hərf yanlış olaraq “r” şəklində çap olunmuşdur.

Bir sözlə, sağlam düşüncə və təhlil M.Y.Qarabağiyə əsaslanmağın doğru olduğunu təsdiq edir.

Bu məsələnin, fikrimizcə, yenidən gündəmə gətirilməsinin əhəmiyyəti ondadır ki, problem həllini tapmayıb, yəni nəşrlər, sonra da həmin nəşrlərə əsaslanan hər kəs- müəllimindən tələbəsinə, alimindən oxucusuna kimi hamı hələ də məlum ciddi səhvi təkrarlayır.

İndi bircə qalır yeni nəşrlərdə, habelə hər kəsin müraciət etdiyi internet məkanında bu səhvi aradan qaldırmaq.

Qaynaqlar

1. ARASLI, Həmid. (2004). Molla Pənah Vaqif Əsərləri. Bakı: Şərq-Qərb.
2. MƏMMƏDBAĞIROĞLU, Əli. (2017). Molla Pənah Vaqifin əsərlərinin ilk qaynaqları (ss. 50-55). Bakı: XV ənənəvi respublika elmi-nəzəri konfransının materialları.

QUESTION OF ONE WORD: "IT IS FROM THE TREASURY" OR "IT IS NOT FROM THE TREASURY?"

Leyla İSMAYILOVA

Abstract

Article considers the printing of the last hemistich “Har biri bir gayri khazanadandir” (Each one is from different treasure) of the first stanza of famous qoshma (poetry genre) starting with the hemistich “Sevdiyim lablarin yaguta banzar” (Sweetheart, your lips resemble ruby) by great Azerbaijani poet Molla Panah Vagif who lived in XVIII century in all existing editions wrong. The article considers that the hemistich must be “Har biri bir gaybi khazanadandir” (Each one is from the treasure of spiritual world). The article supports suggested idea with logical propositions and evidence-based academic arguments.

Key words: M.P.Vagif, it’s from the treasury, it’s not from the treasury,

SIMILAR SYMBOLISMS IN ENGLISH AND AZERBAIJAN LANGUAGES

Madina KAZIMOVA,
Ganja State University, bachelor,
Supervisor: Hajiyeva Urqiyya

The literary definition of symbolism is “the use of symbols that represent other concepts or ideas in order to convey a deeper meaning”. Symbolism can use an object, person, situation, event, or action with a deeper meaning in the overall context of literary work that goes beyond surface understanding. The concept of symbolism is not confined to works of literature: symbols inhabit every corner of our daily life. For instance, the colours red, white, and blue typically symbolize patriotism, which is why they are the favoured hues of political yard signs. Colours like orange and brown connote fall, which is why they adorn so many thanksgiving decorations. Symbolism is widely used in literature of different nations. Symbolism gives an author freedom to add double levels of meanings to his work: a literal meaning that is self-evident and the symbolic one whose meaning is far more profound than the literal one, giving universality to the characters and the themes of a piece of literature.

But soft! What light through yonder window breaks?
It is the east, and Juliet is the sun.
Arise, fair sun, and kill the envious moon, ...
Romeo and Juliet ,

In the above given example we see how Shakespeare, great dramatist of English literature, used symbolism – ***Juliet is the Sun.*** Sun is light, light is the symbol of good, beauty, mercy. Upon first sight of her, Romeo exclaims that she teaches "the torches to burn bright". Shakespeare says that her

eyes are like "two of the fairest stars in all the heaven". Light and dark were very prominent symbols throughout Shakespeare's plays. They represent good and evil, respectively. In some part of his play "Macbeth", the witches were referred to as darkness. Most of the "evil" events that happen occur in the night, such as Banquo's murder. Light is a form of good and is used as a "form of protection from the darkness", e. g. when Lady Macbeth goes mad she always demands on having a candle with her, because she thinks that it will protect her from the dark forces she summoned. Also, the only times light was actually present, were in the beginning when King Duncan was still alive and in the end when Macbeth was brought to justice. This also shows how light represents good, so light and dark, here, symbolize the battle between good and evil.

We come across the same tendency – "battle of light and darkness", "good and evil" in Azerbaijani literature, folklore. The theme of light and darkness is widely used in Azerbaijani folk tales. In the tale "Ağ Atlı Oğlan" the white colour symbolizes good, the main hero who rides a white horse always fights against the evil. In other tales there are such concepts as "işıqlı aləm" and "qaranlıq aləm", "ağ qoç" and "qara qoç".

Light and Dark opposites abound in J. Milton "Paradise Lost", including Heaven and Hell, God and Satan, and good and evil. Milton's uses imagery of light and darkness to express all of these opposites. Angels are physically described in terms of light, whereas devils are generally described by their shadowy darkness. Milton also uses light to symbolize God and God's grace. The other famous symbol that was used in "Paradise Lost" is apple, the one from the Tree of Knowledge in the Garden of

Eden. When Eve eats the fruit, one of her first thoughts is that the fruit "may render me more equal" to which she quickly adds, "for inferior who is free?" By disobeying God – eating the forbidden fruit, Eve has gained neither equality nor freedom; she has instead lost Paradise and brought sin and death into the world. Likewise, when Adam also eats the fruit, he disobeys God. Further, he disobeys by knowingly putting Eve ahead of God. Disobedience and disruption of the correct order result in sin and death. But in Azerbaijani tales “apple” brings happiness, prosperous future. For example, at the beginning the tale “Məlikməmməd”, magic apple tree is described, it blossoms only in a day, its blossoms fall on the second day, and on the third day this tree bears a fruit. Whoever eats this apple would be a young man of 15. Here apple is the symbol of life.

Dream motifs abound in the Western literary tradition. Literary works not only show a continuing fascination with dreaming throughout the ages, but also display shifts in peoples' beliefs about the nature and process of dreaming. The earliest Western writings tell us that the ancients believed dreams were caused by gods, devils, and the dead. Works of Shakespeare are loaded with dream motifs. Macbeth is full of anxiety-related dreams fueled by guilt. Another of Shakespeare's plays involving particularly vivid dream sequences is Richard III, in which Clarence experiences an elaborate anxiety dream, and Richard is plagued by dreams of guilt that are prophetic in-the classical tradition. The characters of A Midsummer Night's Dream also undergo enchantments while sleeping. That cause them to act against their accustomed natures and ultimately change their destinies ; the play's title suggests that its action, and perhaps life itself, may be a dream.

In Azerbaijan literature *dream* has an important place in the sequences of events, usually it is the beginning of the main plot, or cause of future events. Usually, in Azerbaijan epics a young man drinks water from the goblet that was given by a beautiful girl, and falls in love with her. This is called *"buta verilməsi".* In Nizami Ganjavi's "Khosrov and Shirin", the main hero Khosrov was told he will be endowed with four precious jewels. These four jewels were his sweetheart Shirin, a steed named Shabdiz, a musician named Barbad, and a great kingdom. The symbols in a dream or vision may draw from any of the traditional meanings that this dictionary presents, or they may refer to particular situations unique to the dreamer and interpretable only in context.

Symbolism takes on many forms, whether in the literary world or everyday speech. Knowing the differences between various types of symbolism can help you better understand symbolism at its core. Here are some of the various types of symbolism:

Metaphor: A metaphor refers to one thing by directly mentioning another. It essentially compares two dissimilar things while showing that they have something in common. Therefore, while a metaphor can provide clarity, it can also show the similarities between the two things or ideas despite their obvious dissimilarities. For example, "Dear nature is the kindest mother still". In both English and Azerbaijani, nature is as precious as mother. (I.R.Galperin)

Metonymy: A metonymy substitutes a word with a close association to an entity for the name of the entity itself. In other words, you refer to a thing by the name of something closely associated with it. Metonymy also helps them give a more complex meaning to an otherwise general or ordinary word. For

example, “She knew by heart Byron fluently” in English(I.R.Galperin) and “ O Bayronu əzbər bilir” in Azerbaijani.

Irony: Irony refers to a figure of speech where in the intended meaning opposes the literal meaning of the words expressed. There are various types of irony including dramatic and verbal irony. Irony helps engage readers and adds another layer to a fictional tale. For example, “It must be delightful to find oneself in a foreign country without a penny in one’s pocket”. (I.R.Galperin)

Hyperbole: Hyperbole use an exaggeration to make a specific point or to add emphasis, whether for a comic or serious purpose. When used as a figure of speech, you are not meant to take a hyperbole literally . Like the opposite of an understatement, hyperboles are often extravagant and often ridiculous overstatements. While many authors use hyperboles in works of fiction, many people also use hyperboles in everyday speech. For example, “He was so tall that I was not sure he has a face” (I.R.Galperin)

References

1. FERBER. M, A. (1999). *Dictionary of Literary Symbols*. New York: Cambridge University Press
2. GALPERIN, I.R. (1981). “Stylistics” Moscow, Высшая школа

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNİN BƏNZƏR SİMVOLLARI

Mədinə KAZIMOVA

Simbolizm fikri və keyfiyyəti ifadə etmək üçün hərəkətin, obyektin və ya adın istifadəsinə aiddir. Bu mahiyyətcə, adətən konkret olan bir şeyi götürmək və ona yeni və daha böyük əhəmiyyət vermək üçün onu simvolla əlaqələndirir. Yazıçılar ideya və məzmunu açıq demədən oxucularına poetik şəkildə izah etmək üçün simvolizmdən istifadə edirlər. Simvolizmdən istifadə yazıçılara hekayələrini daha mürəkkəbləşdirməyə imkan verir. Məqalədə qeyd edildiyi kimi, ədəbiyyatlar, mədəniyyətlər fərqli olsa da həm, Azərbaycan həm də, İngilis dilində oxşar simvolizmlərə rast gəlinir.

Açar sözlər: Simvolizm, simvol, metafora, metonimiya, ironiya, hiperbola

SU KÜLTÜ DÜNYA VƏ AZƏRBAYCAN MİFOLOGİYASINDA

Mələk HÜSEYNOVA,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər:dr.Aynur Qəzənfərqızı

Su insanlar üçün çox önəmlidir. Təmziliyin, paklığın simvolu məhz sudur. Su həyatın başlanğıcı, məhsulun, torpağın, təbiətin varlığını ifadə edir. Təsadüfi deyil ki, qədim Türklərin su əyəsi Çay nənəsi vardır. Su dünya mifoloji sistemlərində olduğu kimi türk mifoloji düşüncəsində də dünya yaradıcılığının başlanğıcıdır.Yaradıcı başlanğıc olan suya inam onun ətrafında pərəstiş su kultunun yaranmasına səbəb olmuşdur. Tək Azərbaycan folklorunda deyil,bütün xalqların folklorunda su ilə bağlı inanc və obrazlar vardır. M.Eliade suyu "başlanğıcların başlanğıcı" (Babək, 2011: 12) kimi təsvir edir.

Su folklorda həyat mənbəyidir. Bu, ölüləri dirildən "abihəyat", yəni dirilik suyudur. Su Azərbaycan folklorunda çox geniş obrazlar silsiləsi yaratmışdır. R. Əlizadə yazırdı ki,suyun həyat,gənclik,ölümsüzlk bəxş etməsi ilə bağlı inamlar Azırbaycan miflərində,nağıl və dastanlarında öz əksini tapmışdır (Babək, 2011: 43). Suyun bərəkət və qüvvə qaynağı kimi, həm də hifsedici, yaxud cəza verən Tanrı timsalında türk mifoloji inamlarında mövcudluğu müəyyənləşmişdir. Su ilə bağlı inamlar rəngarəngdir. Məsələn:"Pis yuxunu suya danışırlar ki, aparsın, yaxşı yuxunu da danışırlar ki, aydınlıq olsun" (Mirzəyev vs., 2011: 91). Bu inanca görə su pis yuxunun qabağını alır, şəri dayandırır. Digər bir inanca görə "Yuxuda dənizdə çimmək günahların yuyulması deməkdir" " (Mirzəyev vs., 2011: 92).

Suyun həyatverici funksyası onun təmizləyici rolunda da istifadə olunur.Göyçə mahalına aid olan bir inancda deyilir" Çimən adam çimib qurtarandan sonra bir-iki dolça su töküb deyir:

-"Ağırlığım,uğurluğum dağlara daşlara,göydə uçan quşlara,naxırdakı buğalara,sürüdəki qoçlara,dul arvadlara" " (Mirzəyev vs., 2011: 95).

Həmçinin suyun müqəddəsliyinə də aid bir inanc vardır ki, yuxudan duran adam səhər tezdən əl-üzünü yuduqdan sonra güzgüdə öz-özünə baxıb salavat çevirməlidir. Çünki Allah insanları öz camalından yaratmışdır,bu insanın Allaha olan məhəbbətini göstərir (Babək, 2011: 96-97). Başqa bir inancda su xeyir,bərəkət vericisi kimi təsvir olunur. Məsələn, yağış yağan zaman insanlar "Göydən nur-bərəkət yağır"deyirlər. Həmçinin,"Su axarında salınan el-oba bərəkətli olar" " (Mirzəyev vs., 2011: 100).

Su inancı çox qədim mifoloji görüşlərlə bağlıdır.Məsələn:"Şər vaxtı su içməzlər,çünki şər vaxtı ölülərə su verilir. Hər kim şər vaxtı su içirsə,öz yaxın ölənin suyunu kəsir.

(Mirzəyev vs., 2011: 102).

Su kultunun rolunu biz Azərbaycan nağıllarında da görə bilirik. Məsələn, "Keçəl Məhəmməd"nağılında 3 pəri qızı su kultu ilə bağlı 2 mühüm məsələnin də üzərinə işıq çiləyir. Bu məsələlərdən biri də "Oğuznamə"də Oğuz kağanın arvadını gölün ortasındakı adada bitmiş ağacın koğuşunda tapmasıdır ki, bu pəri qızları ilə bağlı motivlə oxşardır.Adətən, Pəri qızlarının çimdiyi gölün üstündə ağac olur. (Mirzəyev vs., 2011 : 133).

Nağıllarda su kultu ilə əlaqədar daha bir davamlı motiv suyun qabağını kəsən qüvvə obrazıdır. Məsələn, "Məlikməmmədin nağılı"ndakı Əjdaha obrazı (Mirzəyev vs., 2011 : 134).

Dastanlarda da su kültü öz əksini tapmışdır. Buna nümunə olaraq "Kitabi-Dədə Qorqud"dastanında "Qazan xanın evinin yağmalanması" boyunda Qazan xanın yurdunu sudan xəbər alarkən dediyi sözləri nümunə göstərmək olar ki,bu sözlər oğuzların su haqqındakı mifoloji görüşlərini əks etdirir (Babək, 2011: 141). "Əsli və Kərəm" dastanında Kərəm üzünü çaya tutub deyir:"Dolana-dolana evlər yıxırsan"-burada suyun kult-tapınaq obyekti,subyekti kimi emosional xüsusiyyətlərə sahib olması öz əksini tapmışdır (Babək, 2011: 148).

Su kültü ilə bağlı çox qədimlərdən mərasimlər icra olunmuşdur, xüsusilə də yağış yağdırmaq mərasimlərindən Qodu-qodunu vurğulamalıyıq. Qodu-qodu Aynur Qəzənfər qızının da dediyi kimi, böyükdən uşağa keçmiş, mərasimdən oyuna çevrilmiş çox əski Türk inancıdır (Qəzənfərqızı, 2018: 60).

Novruz bayramı bir çox mərasimlərlə müşayiət olunur. Bu mərasilərdə su kültünün izləri açıq-aşkar görünür."Novruz bayramında kim gün çıxmamış hamıdan tez bulaqdan su gətirib onunla xəmir yoğursa, o evdən bin-bərəkət heç vaxt əskik olmaz" Mirzəyev vs., 2011: 177).

Nəticə etibarilə qeyd edək ki, suya yaradıcı inam bəslənilməsi mifoloji mətnlərdə, dastanlarda, oğuznamələrdə, əfsanələrdə, mərasim nəğmələrində, xalq mahnılarında, bayatılarda, Novruz adətlərində öz əksini geniş bir şəkildə tapmışdır.

Qaynaqlar

1. BABƏK, A. (2011). *Azərbaycan folklorunda su ilə bağlı inamlar*. Bakı: Nurlan
2. MİRZƏYEV, H. vd (2006). Azərbaycan folkloru antologiyası. 15. cild. Dərələyəz folkloru. Bakı: Səda.
3. QƏZƏNFƏRQIZI, A. (2018). *Azərbaycan-qumuq folklor əlaqələri*. Bakı: Elm və təhsil

WATER CULT IN AZERBAIJAN AND WORLD MYTHOLOGY

Malak HUSEINOVA

Abstract

Water is very important for people. Water is the symbol of purification and purity. Water represents the beginning of life, the existence of crops, soil and nature. It is not by chance that the ancient Turks have a water ax called Grandmother Chay. Water is the beginning of world creation in Turkish mythological thought as well as in world mythological systems. Belief in water as the creative beginning has led to the creation of water cult around it. It will be seek in the article widely.

Key words: water in turkic mythology, beliefs, culture

HƏRBİÇİLƏRİN MÜHARİBƏ ZAMANI ALDIQLARI MÜHARİBƏ TRAVMALARI

Mənsurə BABAYEVA,
Xəzər Universiteti, magistrantı,
Elmi rəhbər: Ləman Verdiyeva

Hərbi qulluqçular müharibə zamanı həm fizioloji həm də psixoloji travmalar almış olurlar. Müharibədən sonra hərbi qulluqçularda anatomik-fizioloji zədələr, psixoloji travmalar və psixosomatik problemlər ortaya çıxmış olur. Fizioloji problemlər yaralanma (qəlbə yarası, mina) zamanı fiziki və anatomik olaraq orqanlarda zədələrə səbəb olur. Müharibədə hərbi əməliyyatlarda iştirak edən hərbiçilərdə fiziki olaraq daha çox yuxarı və aşağı ətraflarda zədələnmələrin olduğu müşahidə olunur. Onlar daha çox baş nahiyyəsini qorumağa çalışırlar, bununla bərabər geyinmiş olduqları qoruyucu geyimlər döş qəfəsini qoruduğu üçün, əksər hallarda ətrafların (yuxarı və aşağı) zədələnməsi qaçınılmazdır. Həmçinin müharibə iştirakçıları açıq və qapalı kəllə-beyin travmaları da almış olurlar. Açıq travmalarda beyin zədələnir baş beyin və onurğa beyin mayesində qan görünür. Qapalı beyin travması isə beynin silkələnməsi, beynin sıxılması və beynin əzilməsi olaraq üç qrupa bölünür (Nəsirov vs. 2017: 176):

- Beyin silkələnməsi- kəllə-beyin travmaları arasında ən yüngül formadır. Əlamətlər bir neçə saat ərzində yox ola bilər (bir neçə həftə ərzində də düzələ bilir). Beyin silkələnməsi zamanı yaddaşın itməsi kimi hallarda müşahidə oluna bilir (posttravmatik amneziya). Və ya baş dönməsi, baş ağrısı, təzyiqin qalxması, ürək bulanması, nistaqm kimi əlamətlər üzə çıxa bilər. Beyin silkələnməsi zamanı baş və onurğa beynin maddəsi zədələnmir.

- Beyin sıxılması- kəllə boşluğunda proqressivləşən patoloji bir prosesdir. Baş beyin sıxılması zamanı qıcolamalar, təzyiqin

artması, sayıqlamaların olması, görmə sinirlərinin zədələnməsi kimi klinik əlamətlər müşahidə edilir.

- Kontuziya- beyin əzilməsi. Belə ki, beyin əzilməsinin üç dərəcəsi- yüngül, orta və ağır mövcuddur. Yüngül dərəcə beyin əzilməsində huşun itirilməsi bir neçə saata qədər ola bilir, güclü baş ağrısı, yaddaşın itməsi, qusma, hərarətin artması kimi hallar təzahür edə bilir. Nitq qabiliyyətinin itirilməsi bir müddət sonra bərpa ola bilər. Çox zaman simptomlar qısa müddətli olur. Orta dərəcə beyin əzilməsi zamanı baş və onurğa beyin mayesi zədələnmiş olur. Bu dərəcə də psixi pozulmalar, yaddaş itkisi, nitq pozulması, kəkələmə kimi əlamətlər uzun müddətli ola bilir. Ağır dərəcə beyin əzilməsi zamanı huşun itirməsi bir neçə həftə çəkə bilir. Ağır dərəcəli əzilmə zamanı kəllə sümüklərində sınıqların olması da müşahidə edilir. Ciddi psixoloji pozulmalar, ətrafa qarşı hissiyyatın itirilməsi, nevroloji əlamətlər, nitq pozulması, kimi kəskin əlamətlər təzahür edir.

Rus psixoloqu Q.E.Şumkov müharibədə iştirak edən hərbi qulluqçularda təzahür edən psixozları aşağıdakı formalara bölməyi təklif etmişdir (Шумков, 1915: 116):

I qrup - qısamüddətli olan cari psixozlar. Müharibə zamanı baş verən hadisələrə qarşı qeyri-sabitlik, döyüş şəraitində şəxsiyyətin qısamüddətli pozulması, hərbiçinin neyro-psixi tarazlığının pozulması kimi hallar müşahidə edilir.

II qrup - qısamüddətli keçici psixozlar. Bu qrup psixozlar qısa müddətə, təqribən 2-3 gün, bir həftə, bir ay davam edə bilir və tez keçib gedir, şəxs tamamilə normal psixi vəziyyətə qayıda bilir. Bir müddət sonra təkrar orduya geri qayıdın hərbi əməliyyatlarda iştirak edə bilirlər.

III qrup - kəskin psixozlar. Bu qrupa daxil olan psixozlar bir aydan çox vaxt təzahür edən psixozlardır. Belə ki, bu kimi psi-

xozlar müalicə edilə biləndir, lakin daha uzun müddət müalicə tələb edən kəskin psixozlardır.

IV qrup - xroniki psixozlar. Psixozların ən ağır və çətin qrupudur. Müalicəsi ömür boyu davam edir və ya heç bir halda müalicəsi mümkün olmur.

Q.E.Şumkovun Bu təsnifatı hərbi psixiatriyanın və hərbi psixologiyanın inkişafına böyük töhfələr vermişdir. Həmçinin də müharibə şəraitinin hərbiçi psixikasına təsirini sistemləşdirməyə imkan vermiş və hərbi psixoloji biliklərin sərhədlərini genişləndirmişdir.

Müharibədə iştirak edən hərbi qulluqçuların aldığı psixi travmalar (PT) stress faktorlarının şəxsi inkişafa təsirinin nəticələrindən biri hesab olunur. İlk dəfə olaraq bu və ya digər ekstremal vəziyyəti, qlobal (müharibə, zəlzələ, daşqın və s.) fəlakəti və ya şəxsi travmanı yaşayan insanlarda psixoloji dəyişikliklər Amerika Vətəndaş Müharibəsi (1871) zamanı əsgərlər arasında rast gəlinmişdir. Psixi travma termini onun üçün əhəmiyyətli olan stress amillərinin şəxsiyyətə təsirinin nəticəsi kimi başa düşülür (Məmmədov, 2018: 65). Belə ki, bu özünütənzimləmə sistemindəki dəyişikliklə ifadə olunur və özünü idarəetmənin səmərəliliyini azaldır. Bu dəyişikliklər stressli situasiyanın və ya uzun müddətli stressli vəziyyətin nəticəsi kimi də təzahür edə bilir. Eyni zamanda, psixi travma tənzimləmə sisteminin fizioloji, koqnitiv, emosional, və davranış komponentlərində şüurlu və şüursuz dəyişilmələrə əsaslana bilər.

Müharibədə hərbi əməliyyatlarda iştirak edən hərbi qulluqçular travmaya səbəb olan ağır səhnələrin şahidi olurlar. Ümumiyyətlə müharibənin psixoloji təsiri dərin və uzunmüddətli olur. Müharibə zamanı istifadə edilən döyüş texnikalarının səsləri müharibədən sonra belə müharibə iştirakçılarına pis təsir etməyə davam edir. Bu səslərə bənzər olan siqnal səsi, hər hansısa əşyanın

sınması, qapının çırpılması və s. kimi kəskin səslər onlarda daima psixoloji (təşviş-həyəcan pozuntusu) həm də fizi-oloji (ürək döyüntüsünün artması, əllərin əsməsi) gərginliyə səbəb olur.

Müharibə travmalarından hərbi qulluqçularda daha çox psixoloji olaraq posttravmatik stress pozuntusu, fizioloji olaraq kəllə-beyin travması ilə nəticələnən kontuziyalar və orqan amputasiyası (aşağı və yuxarı ətraf) kimi hallar üstünlük təşkil edir. Müharibə bitəndən sonra hərbi qulluqçuların normal həyata adaptasiyası çətin və ağrılı olur. Müharibə travmalarını aradan qaldırmaq üçün mütəxəssis dəstəyi alınması hərbi qulluqçuların həyat şəraitinin yaxşılaşdırılması və adaptasiyası üçün zəruridir. Belə ki, post-müharibə dövründə hərbi əməliyyatlarda iştirak edən əməkdaşlarla psixofizioloji və psixososial reabilitasiya işlərinin aparılması onları fiziki, psixi və sosial rifahını artırmaq üçün böyük əhəmiyyət kəsb edir.

Qaynaqlar

1. MƏMMƏDOV, Fariz. (2018). “Travma almış şəxslərdə yaranan psixoloji problemlərin xüsusiyyətləri”, *Milli təhlükəsizlik və hərbi elmlər,* №4, s. 64-68
2. NƏSİROV, Məmməd vs. (2017). *Hərbi cərrahlığa dair rəhbərlik,* Bakı: Elm və təhsil.
3. ШУМКОВ, Герасим. (1915). “Душевно-больные на войне”, *О практическом подразделении душевных заболеваний на войне. Воен.сб.,* № 7, с. 116-118

WAR TRAUMA SUFFERED BY THE MILITARY DURING WAR

Mansura BABAYEVA

Abstract

The psychological consequences of participation in hostilities can lead to mental trauma, combat stress, post-traumatic stress disorder. The process of hostilities, the martyrdom of close fighters and comrades-in-arms, shrapnel wounds, mines, etc. Such problems lead to mental and physical trauma. Physiological and anatomical problems include organ damage (contusion, amputation of the lower and upper limbs, severe burns, loss of vision, gunshot wounds, etc.), as well as psychological problems without any physical injury or physiological basis (post-traumatic stress, loss of speech, anxiety disorder, etc.). Such cases highlight the need for psycho-physiological and psycho-social rehabilitation in the post-war period.

Key words: military personnel, war veterans, war traumas, mental trauma, brain damage, contusions, psychoses, post-traumatic stress

DİLƏ PSİXOLOJİ YANAŞMADA SEMANTİK VASİTƏ KİMİ RƏNG ADLARI

Mənsurə ƏHMƏDOVA,
Xəzər Universiteti, magistrant,
Elmi rəhbər: dos. Sevinc Ağayeva

Məqalədə dilin leksik və semantik qatları arasındakı əlaqə və asılılıqlar öz izahını tapmışdır. Dilin semantik qatının leksik qatına nisbətən genişliyi və bu genişliyin səbəbi izah olunmuşdur. Rəng adlarının semantik vasitə kimi ifadə etdikləri mənaları nümunələrlə izah olunmuşdur və onların dilə psixoloji yanaşmadakı rolu göstərilmişdir. Sözlərin nitq zamanı düz-gün semantik səviyyədə işlədilməsinin ünsiyyətdəki vacibliyi ifadə olunmuşdur.

Dil işarələr sistemidir və hər bir işarə bir mənanı ifadə edir. Lakin bir işarə bəzən bir neçə mənanı özündə birləşdirə bilir. Dil, demək olar ki, adlanmadan ibarətdir: əşyaları, hadisələri, məkanları, mücərrəd məfhumları, hərəkətləri, əlamətləri, sayları və s. adlandırmaq dilin leksik səviyyəsini təşkil edir. Bu adların ifadə etdiyi mənalar isə dilin semantik səviyyəsini əhatə edir. Dilin semantik qatı leksik qatına nisbətən daha geniş əhatə dairəsinə malikdir. Çünki bir leksik vahid bir neçə mənanı canlandıra bilir. Buna səbəb insanların təbiətlə qurduğu ünsiyyətdir. Bu nə deməkdir? Təbiəti anlamağa çalışmaq, onu adlandırmaq, kəşf etmək, ondan istifadə etmək və qorumaq "insanın təbiətlə qurduğu ünsiyyət"dir. Təbiət insan üçün "ana", "yurd", "vətən", "ev" anlayışlarını ifadə edir. Onunla uyğun dil tapmaq, sağlam ünsiyyətə girmək o evdə hüzurlu yaşaya bilmək deməkdir. Bu uyğun dili tapmaq üçün insanlar məqsədli ol-masa da, tələbatdan irəli gələrək təbiətin hər üzünü mənalandırmağa, izah etməyə çalışmışlar. Bu mənalandırma və izah etmə məsələsi də birbaşa

baş verməyib. Burada insanların ruh halı, təbiətlə qurduğu ünsiyyətin səviyyəsi, onlarda formalaşan inanclar, əvvəlcədən qarşılaşdıqları təsadüfi hallar və s. mühüm rol oynayır. Çünki insan şüurludur və hər gördüyündə bir məntiqi izah, bir mənalandırma axtarır. İnsan təfəkkürü inkişaf etdikcə dünyanı daha çox kəşf edir, dünya haqqında məlumatı artıqca dili zənginləşir və bu ardıcıllıq qarşılıqlı şəkildə insan inkişaf etdiyi müddətcə davam edir. Dilin inkişafı və formalaşması da bilavasitə insan təfəkkürü ilə düz mütənasibdir. Dil xalqın, nitq isə fərdin imicidir. Bir xalqın təkcə dilini, onun leksik və semantik qatını araşdırmaqla onun haqqında bir çox məlumatı vermək mümkündür. Pifaqorun bu mənada çox gözəl bir fikri vardır: "Bir xalqın xarakterini bilmək istəyirsənsə, əvvəlcə onun dilini öyrən" (URL-1).

Təbiətlə ünsiyyət zamanı təbiətin ifadə etdiyi dil vahidlərinə təbiət hadisələri, heyvanlar, bitkilər, rənglər və insanın görüb izah etməyə çalışdığı hər şey daxildir. Fikrimizi əsaslandırmaq üçün dilin leksik vahidləri olan rəng adlarını semantik aspektdə təhlil edəcəyik.

Bütün dövrlərdə insanlar təbiətlə qurduğu ünsiyyəti hər nə qədər inkişaf elətdirsələr də, rənglər və onların yaydığı enerjini tam mənası ilə izah edə bilməmişlər. Buna görə də rəngləri hər xalq öz inanc və bilik səviyyəsinə görə mənalandırıb. Qədim dövrlərdə bu mənalandırma sadəcə rənglərin təbiətdəki təzahürlərinə, insanlarda yaratdığı təəssürata dayanırdı. Lakin müasir dövrdə elmi araşdırmalar, doğrudan da, rənglərin insanın ruh halını dəyişə bildiyi sübut olunub. Bu bilgi artıq həyat təcrübəsi olmaqdan çıxıb, elmi sübuta dayanır. Rənglərin sahib olduğu enerji onları ifadə edən səs yığını – sözlərlə ifadə oluna bilir. Çünki rəngi ifadə edən adı söylədiyimiz zaman arxada böyük məna yükü və enerji dayanır. Bu enerji sözlər vasitəsilə qarşı

tərəfə ötürülür. Bu sözlərin sahib olduğu enerjinin müsbət yoxsa mənfi olduğunu isə insanların onlara yüklədiyi məna yükü tənzimləyir və bu nitq zamanı ortaya çıxır. Rəngləri, təbiətdəki təzahürünü və ifadə etdiyi mənaları aşağıdakı nümunələrdə daha aydın görmək olar.

Ağ rəng işığın rəngidir. Sonradan yaranan mənalara əsasən isə ağ rəng "paklıq", "saflıq", "ümid", "yaxşılıq", "xoşbəxtlik", "həyat", "sevinc", "sülh" və "aliliyi" ifadə edir. Bütün bu məna yüklərinin yaranmasına səbəb bu rəngin günəşin və işığın rəngi olması ilə əlaqədardır. Təbiətdə işıq ağ rəngdədir, günəş özü də ağ rəngdədir. Lakin bizə çatan şüalarını biz fərqli görürük. Göyqurşağının yeddi əsas rəngin hər birini təzahür edə bilməsi faktı da bunu sübut edir. Günəşdən gələn ağ işıq havada olan su damcılarında təbiətin rənglərini rahatlıqda əks etdirə bilir. Qara rəng isə "zülmət" və "qaranlığ"ın rəngidir. Buna görə də ilkin dövrlərdə insanlar bu rəngdə "qorxu", "ölüm", "təlaş", "şər", "zərər", "kədər", "günah", "yalan", "cinayət" kimi bir çox neqativ yüklü mənaları görüblər. Çünki qaranlıq insanda qorxu hissi yaradır. Hələ təbiətin dilini bilməyən ilkin insanlar gecələr qaranlıqda daha çox təhlükə, təlaş və ölümlə qarşılaşırdılar. Ona görə də qara rəngə daha çox neqativ mənalar yüklənib. Qara rəng, ümumiyyətlə, sirli və müəmmalı rəngdir. İçində nələrin olduğunu yəqin etmək çətin olur. Ağ rəng ətrafda olan bütün enerjiləri dəf etdiyi halda, qara rəng bütün enerjiləri özünə cəlb edir. Bu prosesi əyani şəkildə də görmək olur. Belə ki, ağ rəngə istənilən rəng qatdıqda ağ rəng həmin rəngə çevrilir. Çünki ağ rəngin heç bir sirli tərəfi yoxdur. Buna görə də dildə "ağ yalan", yəni şübhəsiz, açıq-aşkar yalan, "üzə ağ olmaq", yəni aradakı bütün pərdələri götürmək, açıq danışmaq – kimi ifadələr işlənir. Lakin qara rəngə hansı rəng qatılsa da, elə qara olaraq qalır. Buna görə də bu iki rəng ana rəng hesab olunur və dildə sadəcə

rəng adları ifadə etsələr də, nitqdə, düşüncədə, təfəkkürdə əkslik, antonimlik ifadə edirlər. Bunu atalar sözləri, alqışlar və qarğışlarda, bədii üslub nüminələrində çox görmək olur. Məsələn, "qara gün qaraldar, ağ gün isə ağardar", "qara qızın bəxti olsaydı, anadan ağ doğulardı", kimi atalar sözləri, "üzü ağ olasan", "bəxtin ağ olsun", "ömrünə qara yaxılsın", "yerin qara torpaq olsun" kimi alqış və qarqışlarda bu iki rəngin antonimlik ifadə etdiyini görmək olur. "Ağ" və "qara" rənglərin antonimlik kəsb etməsi bu gün də davam edən irqçilik anlayışının da təməlini təşkil edir. Ağ dərililərin üstün irq hesab olunması və həmişə qara dərililərdən üstün tutulması məsələsi bu rənglərin bir-birinə əks mövqedə tutulması ilə mütənasibdir. Eyni zamanda, "Ağ liman" (Anar), "Ağ diş" (Cek London), "Ağ gəmi" (Ç. Aytmatov), "Bəyaz gecələr" (F.M.Dostoyevski) kimi ədəbiyyat nümunələrində ağ rəng "ümidi", "xəyalları", "məsumluğu" ifadə edir.

Qırmızı "istilik", "enerji" rəngidir, çünki yeni doğan günəş məhz bu rəngdə olur. Qırmızı qanın rəngidir. Qan və qanın arxasında yatan mənalar qanın rəngi olan qırmızının da mənalarında ziddiyyətli məqamları ortaya çıxarır. Qırmızı bir tərəfdən "həyatın mənbəyini", "canlılığı", digər tərəfdən "ölümü", "müharibəni", "qəzəbi", "ehtirası" ifadə edə bilir. Qan yaşamaq üçün çox vacib funksiyaları yerinə yetirir. Qanın mütəmadi hərəkəti insan orqanizmini həyatda tutur, elə buna görə də qırmızı "həyat rəngi"dir. Məsələn, sağlam canlı uşaqları təsvir edərkən "yanağından qam damır" və ya gənc və gözəl qızı təsvir edərkən "yanaqları payız alması kimi qırmızıdır" ifadələrində qırmızı rəng "sağlamlığı", "paklığı", "gözəlliyi" ifadə edir. Lakin "qırmızı üz", "qırmızı insan", "qırmızı xasiyyət" ifadələrindəki qırmızı sözü məcazlaşıb və "sərt", "tünd" mənalarında işlənməklə mənfi məna yükü daşıyır. Başqa tərəfdən baxdıqda tarixən

azadlıq, inqilab qan tökərək, şəhid verərək olduğu üçün qırmızı rəng həm də "iniqlab" rəngidir və arxasında "azadlıq", "müstəqilik" ruhu yatır. Qırmızı rəng "parlaqlıq" yayır, insanda əyləncə ruhu yaradır və diqqəti çəkən rəngdir. Yəni həm də "müasirliyi" ifadə edir. Müstəqil Azərbaycan Respublikasının Dövlət bayrağındakı qırmızı rəng müstəqillik və müasirlik mənalarını simvolizə edir. Bəzi mədəniyyətlərdə qırmızı kişi xoşbəxtliyini, ağ isə qadın xoşbəxtliyini simvolizə edir. Səbəbi isə çox sadədir. Ağ rahatlıq, təmizlik, sakitlik yayır və qadın psixologiyasına çox yaxındır. Qırmızı isə coşğu, hərəkətlilik və enerji yayır ki, bu da kişi psixologiyasına uyğundur. Göründüyü kimi qırmızı dildə sadəcə bir rəngin adını bildirir. Nitqdə isə bir çox mənanı ifadə edə bilir və bu bilavasitə insan təfəkkürünün məhsuludur. Eyni zamanda, yaşıl, sarı, göy, bənövşəyi, narıncı, qəhvəyi və s. – bütün bu rənglərin hər biri təbiətdə mövcuddur və hər birinin özünəməxsus enerjisi, ifadə etdiyi mənalar silsiləsi var.

Yuxarıda izahını verdiyimiz nümunələr ümumiləşdirilmiş standart rənglərdir. Təbiət sadəcə bu rənglərdən ibarət deyil, həm də onların saysız-hesabsız tonları və sintezlərindəndir. Bu tonlar və sintezlərin çoxluğu nəticəsində təbiət bu qədər gözəl və rəngarəng olur. O hər dəfə insanları füsunkarlığı, qeyri-adiliyi, fərqliliyi, özünəməxsusluğu ilə daha da təəccübləndirir. Xalq yazıçısı Rəsul Rzanın "Rənglər" silsiləsində rənglərin gizli mənaları haqqında dediyi sözləri fikrimizi təsdiqləyir. Silsilədə deyilir: "Gördüyümüzdən artıq görmək istəməsək, hər rəng adicə boyadır (URL-2).

Təbiət təsvirlərin mənbəyidir, rənglər isə bu təsvirlər üçün vasitədir, yəni bir növ sosial dildəki sözləri əvəz edir. Nəticədə insan sözlərlə, təbiət isə rənglərlə danışır. Ümumilikdə, dil sadəcə olaraq sözlərdən, kəlmələrdən ibarətdir. Bu sözlər isə sadəcə olaraq müəyyən məfhumların adlarını bildirən işarələr

sistemidir. Lakin bir məqam vardır ki, reallıq bu qədər məhdud deyil və o, dilə tam sığmır. Reallıq da, dil də təfəkkür məhsuludur və dil bu reallığı işarələyir. Dil təfəkkürlə ayaqlaşmaq üçün bəzən dildə bir söz bir neçə mənanı ifadə edə bilir. Dil buna məcazlaşma yolu ilə nail olur. Bunun da ən bariz nümunələrini rəng adlarında görmək olur. Bu sözlər rəng adı bildirməkdən əlavə bir çox mənaları ifadə edə bilir. Tədqiqatımızda ana rənglərin ifadə etdiyi mənaları müqayisəli şəkildə izah etməklə belə qənaətə gəlinir ki, nitq zamanı sözlərin yerli-yerində və düzgün mənası ilə işlədilməsi istənilən nitqin uğurlu alınmasına şərait yaradır. Çünki dilin semantik qatı, əsasən, nitq zamanı ortaya çıxır. Nitq isə təfəkkür prosesi olduğu üçün həm nitq söyləyənin psixikasının təzahürüdür, həm də dinləyicinin psixoloji vəziyyətinə təsir eden vasitədir. Bu iki istiqamət istənilən ünsiyyət prosesi üçün ilkin şərtdir.

Qaynaqlar

1. URL-1. Əliyeva N. (2018). “Məşhurların dil haqqında dedikləri”.https://aydinyol.aztc.gov.az/newsview/1206/--Meshhurlarin-dil-haqqinda-dedikleri
2. URL - 2. Rəsul Rza. “Rənglər silsiləsi, Uvertura”. http://rasulrza.musigi-dunya.az/rengler/uvertura_az.shtml

COLOR NAMES AS A SEMANTIC TOOL IN THE PSYCHOLOGICAL APPROACH TO LANGUAGE

Mansura AHMADOVA

Abstract

The article explains the connections and dependencies between the lexical and semantic layers of language. The breadth of semantic layer of the language relative to the lexical layer and the reason for this breadth are explained. The meanings of color names as semantic tools are explained with examples and their role in the psychological approach to language is shown. The importance of using of using words at the correct semantic level during speech was emphasized in communication.

Key words: lexical layer of the language, semantic layer of the language, color names, psychological approach

THE ART OF TRANSLATION IN AZERBAIJAN

Murad TALIBOV,
Ganja State University, bachelor,
Supervisor: Urqiya Hajiyeva

The language, culture and literature of each nation are strong and powerful because it has a great translated literature. Translations play an important role in the enrichment of Azerbaijani literature. An example of this is the translations of English literature classics. Anvar Rza's translations cannot be denied in the development of this art of translation.

In the culture and literature of any nation, whatever a magnificent work of art that embodies human feelings and ideas, it is discovered as a continent - it is translated and takes its place in the spirituality of other nations. The influence of the literatures of the peoples of different countries, the creators of these literatures on each other, is one of the main factors determining the literary relations. The language, culture and literature of each nation are strong and powerful because it has a great translated literature. That nation has a strong culture and literature because it translates the spiritual and cultural achievements of other nations into its native language and benefits from them. Works of classics of English Literature were also translated into Azerbaijani in different years. However, most of these translations were made mainly in Russian. In the 70s and 80s of the last century, attention was paid to the translation from the original, and after Azerbaijan gained independence, almost all translations were made directly from English. Over the years, a generation of professional translators has grown up specializing in translating from English to Azerbaijani and from Azerbaijani to English. One of these

translators was Anvar Rza. Anvar Rza was born on March 3, 1939 in Ashagi Ayrim (Bina) village of Kalbajar region of Azerbaijan. Anvar Rza was one of the prominent poets of Azerbaijan and at the same time one of the famous translators. Anwar Reza has always been an evolving person. This enthusiasm and determination did not deprive him of the opportunity to work as an assistant professor at the Department of English Vocabulary at the Azerbaijan State Pedagogical University of Foreign Languages from 1979 to 1987. He translated Byron's poems "Prisoner of Chillon", "Mazepa", "Parizina". He perfectly translated W. Shakespeare's, G. Byron's poems from English into Azerbaijani. In addition, he translated S. Vurgun's drama "Vagif" into English, G. Byron's poem "Journey of Chayld Harold" into Azerbaijani, but his untimely death prevented his works from being published. Following part of Byron's poem translated by A. Rza draws attention in terms of expression, individual and unique word-choice. This translation can be considered one of the best examples carried out from English into Azerbaijani.

The Prisoner of Chillon

My hair is grey, but not with years,
Not grew it white in a single night,
As men's have grown from sudden fears:
My limbs are bowed, though not with toil,
But rusted with a vile repose,
For they have been a dungeon's spoil
And mine has been the fate of those
To whom the goodly earth and air
And banned, and barred-forbidden fare;

Anwar Reza's translation

Saçım qirov kimi ağdır necə də
Amma yaşda deyil bu ağlıq, inan
Nə də çallışmayıb bircə gecədə
Qəfil vahimədən, qəfil qorxudan
Ağır zəhmət deyil belimi əyən,
İnsanın qəddini iş əyə bilməz
Qəmli sükunətdə pas atmışam mən,
Məhbəs salıb məni bu hala, məhbəs!
Taleyim çoxunun taleyi kimi
Bircə yol üzümə barı gülürmü?!
Bu şirin həyatdan məhrum olmuşam,
Zindana, zillətə məhkum olmuşam.

Translator used interesting expressions peculiar to Azerbaijani such as "qırov kimi", "taleyim üzümə gülür" "zillət", "bircə yol", "barı"and so on. These expressions make the translation more native to the Azerbaijani readers. And in this case we can witness that having a good command of language is not sufficient for translation. Poetic skills are needed for this activity. Translation of poetry is not something that can be studied by learning certain rules. But in order to translate pieces of poetry it is advisable to study translations carried out by professional translators.

As one of the influential translators and poets in Azerbaijan, Anvar Rza's heritage should be thoroughly studied by students of translation. As a skilled translator of English authors Anvar Rza set a good example for future generation of poetic translators.

As a student of translation, influenced and inspired by poetic translations done by Anvar Rza, I tried to translate

“Sonnet 66” by W. Shakespeare. “Sonnet 66” by William Shakespeare is a dark and depressing poem that expresses the speaker's irritation and exhaustion with the world. Throughout the poem, the speaker takes the reader through the numerous things that he is tired of in his life. This sonnet can be perceived as a complaint about the period. I tried to convey the idea, the theme of the poem in translation.

Translation:

Tired with all these, for restful death I cry,
As, to behold desert a beggar born,
And needy nothing trimmed in jollity,
And gilded honour shamefully misplaced,
And purest faith unhappily forsworn
And right perfection wrongfully disgraced,
And strength by limping sway disabled,
And art made tongue-tied by authority,
And folly, doctor-like, controlling skill,
And simple truth miscalled simplicity,
And captive good attending captain ill.
Tired with all these, from these would I be gone,
Save that, to die, I leave my love alone.

Bezib bu dünyadan getmək istərəm
Yetməzmi ləyaqət daim çəkə qəm
İndi “bəylər” əyləşib öz taxtında,
Xəyanətin kölgəsində şadlıq edərlər.
Kimə lazım olub bu şərəf indi?
Yerdən ismət tapsan, götür, sənindi.
Kamilliyin qalmayıbdı qiyməti
Mərdin mükafatı qara zəncirdi

Şairlər zindana salınan yerdə
Nadanlar əlbət ki, olur xəlifə.
Doğruluğun qandallanıb qolları,
Pislik əsir edib düzü əlində.
Bezib bu dünyadan getmək istərdim
Səni tək qoymaqdan çəkinməsəydim.

REFERNCES:

1. C. Q. Bayron. Seçilmiş əsərləri (2006) Bakı:Şərq-Qərb. http://anl.az/el/b/b_se.pdf , CQB
2. Wıllıam Shakespeare Sonet 66 https://www.poetryfoundation.org/poems/45097/sonnet-66-tird-with-all-these-for-restful-death-i-cry

AZƏRBAYCANDA TƏRCÜMƏ SƏNƏTİ

Murad TALIBOV

Hər bir xalqın dili, mədəniyyəti, ədəbiyyatı ona görə güclü və qüdrətlidir ki, onun böyük tərcümə ədəbiyyatı var. Azərbaycan ədəbiyyatının zəönginləşməsində tərcümələrin bötük rolu vardır. Buna ingilis ədəbiyyat klassiklərin tərcümələrini misal göstərmək olar. Bu tərcümə sənətinin inkşafında Ənvər Rzanın tərcümələrini danmaq olmaz.

Açar sözlər: tərcüməçi, poetik tərcümə, ingilis ədəbiyyatı, Ənvər Rza, mədəniyyət

SELİM İLERİ "HER GECE BODRUM" ROMANINDA YALQIZLIQ

Nəcibə ZEYNALOVA,
Xəzər Universiteti
Elmi rəhbər: Ülvi Babasoy

Selim İleri, Türkiyə ədəbiyyatında roman yaradıcılığına yeniliklər gətirmiş, yazdığı romanları ilə geniş bir müzakirə mövzusunu ortaya qoymuş yazardır. Yazıçının "Her gece Bodrum" romanı toplum içərisindəki yalqızlığı əks etdirən gənclik romanıdır. İlerinin politik münaqişələrin, qarşılıqsız sevgilərin, qırıq qəlblərin həssaslığını böyük ustalıqla qələmə aldığı bu roman, yazıldığı tarixdən etibarən (1976) geniş müzakirələrə səbəb olmuş, tənqidi rəylərə məruz qalmışdır. Romanda insanların tənhalığı, nəfsin, ehtirasın hiss və duyğuları, qeyri-səmimi münasibətlərin səmimi münasibətləri üstələməsi, süni,bayağı ünsiyyətlər obrazların dili ilə təzahür edilir. Yazar, kiçik burjua dünyasının tənqid edildiyi bu romanı ilə 1977-ci ildə "Türk Dil Kurumu Roman Mükafatı"nı almış, bununla da "Her Gece Bodrum" kitabının müəllifi kimi layiq olduğu şöhrəti qazanmışdır (URL-1).

Türkiyənin roman yaradıcılığına yeniliklər gətirmiş Selim İleri, qələmə aldığı roman və hekayələrində şahidi olduğu, yaşadığı, əldə etdiyi həyat təcrübələri və ədəbi biliklərdən yola çıxaraq, yaşanmış həyatı, burada yaşayanların daxili dünyalarını, xüsusiyyətlərini canlandıraraq, üstü tozla örtülmüş xatirələri, anları yenidən xatırlatmaq, canlandırmaq istəmişdir. Kemalettin Tuğcu, Kerime Nadir, Ethem İzzet Benice, Muazzez Tahsin Berkant kimi tanınmış yazıçıların əsərlərindən təsirlənərək, onlardan əldə etdiyi həyati mövzuları öz əsərlərində əks etdirmişdir. Yazıçının əsərlərinin əsas başlanğıc nöqtəsi fərdilik möv-

zusudur. Yazar tənhalığı heç kəsin olmadığı bir yerdə deyil, cəmiyyətin içərisində göstərmiş, fərdlərin toplumun mənfi təsiri ilə ünsiyyət qurmaqdan çəkinərək, tənhalığı yaşayaraq varlığını tamamlamağa çalışmalarını əks etdirmişdir. Selim İleri, fərdin daxili dünyasından yola çıxaraq, həyatın dəyişikliklərini də nəzərə alaraq yaranan yalqızlıq, sevgi, sosial bərabərsizlik, özgələşmək kimi müəyyən mövzular üzərində özünəməxsus həssaslıqla işləmişdir. Toplum içərisindəki yalqızlığı geniş şəkildə əks etdirən 1976-cı ildə qələmə aldığı "Her gece Bodrum" romanı, yazıçının yaradıcılığındakı dönüş nöqtələrindən biridir. Əsərdəki hadisələr Bodrumda baş verir. Burada tətil üçün Bodruma gəlmiş bir qrup gəncin yaşadığı duyğusal travmalardan bəhs edilir. Əsərdəki hadisələr, məkan təsvirləri Cem'in dili ilə söylənilir. Cem vasitəsilə Selim İleri öz prototipini yaratmışdır.

Əsərin qəhrəmanları Cem, Murat, Tarık, Betigül, Haydar, Kerem, Ahmet ve Emine'dir. Amma yazıçı, daha çox Cem və Emine'ni ön plana çəkmişdir. 27yaşı olan Cem dostları Murat və Tarıkla əvvəlki dost qala bilmir, bu "dostluğun" içərisində özünü yalnız hiss edir və həyatı, əfrafında baş vermiş hadisələri sorğulamağa başlayır. Emine isə 32 yaşında olan daha öncə heç ailə həyatı qurmamış bir qadındır. Bu yaşına kimi heç evlənmədiyi üçün sosial təzyiqə məruz qalmışdır. Romanda cəmiyyət içərisində sevgi görməyən, yalnız qalmış insanların daxili dünyaları, hiss və duyğuları ön plana çəkilmişdir.

"Her gece Bodrum" romanında yalqızlıq

Müasir Türk ədəbiyyatının ən gözəl örnəklərindən biri olan yazıçı Selim İlerinin "Her gece Bodrum" romanı çılğın toplumun arxasında gizlənən yalqızlığı, kədəri, insanların qeyri-səmimi münasibətləri ilə özlərini necə aldatdığını, bir sözlə ifadə etsək, toplumun içindəki tənhalığı əks etdirir.

Yaşadığı ölkədə, ümumiyyətlə, dünyada insanların əksəriyyətinin yalqızlıq girdabında boğulduğuna inanan Selim İleri, romanında yalnızlığın bütün vəziyyətlərini açıq-aydın göstərir və ən acılı şəkillərindən bəhs edir. İnsan özünü ancaq tək qaldıqdamı yalnız hiss edər, toplumun içindəki tənhalıq ən böyük yalqızlıq deyilmi?! Kafkanın da dediyi kimi: "Hər yalqızlıq, insanlarla doludur".

"Şüur axını bir roman yazarının zehnindən keçən təsadüfi və irrasional təəssüratları qeyd etməyi hədəfləyən ədəbi texnikadır. Bu texnikanın aparıcı nümayəndələrindən biri olan V.Vulfun fikrincə, insan təbiəti 1910-cu illərdə dəyişikliyə məruz qalmış və bu dəyişikliyi ənənəvi hekayə üsulları ilə həyata keçirməyin mümkün olmadığını qeyd etmişdir" (Boynukara, 1997: 27). Nesrin Çoruh, "Her gece Bodrum" romanının bir yaz romanı olduğunu qeyd edərək, mövzusundan əlavə, istifadə etdiyi yeni üsullar baxımından da çox uğurlu əsər olduğunu vurğulamışdır: "Selim İleri, personajların şüuruna hisləri, düşüncələri və xatirələri məntiqə və qrammatikaya uyğun gəlməyən sərbəst assosiasiyalarla qarışıq şəkildə təqdim etməkdə ustadır" (URL-2).

Romana diqqət yetirsək, Cem obrazı vasitəsilə Selim İlerinin öz prototipini yaratdığını görə bilərik. Bayağı mühitə, qeyri-səmimi münasibətlərə uyğunlaşa bilməyən Cem, tək qalmağı bayağı münasibətlərdən üstün tutsa da, insanın toplum içərisində olmadan, tək yaşamağın elə də asan olmadığının fərqinə varır. Xoşbəxt olmayan birgəlikdənsə, hüzurlu bir təklik yaxşıdır, amma yaradılışın təməli qanununda yalqızlığın yalnız Allaha məxsus olduğu göstərilir axı…

Cem dostların çoxluğunu kimsəsizliklə müqayisə edərək, bunu kimsəsizliyin çoxluğu ilə bərabər səviyyədə gördüyünü dilə gətirir. Təklik, insanın ətrafında insan olmaması demək deyil.

İnsan özünün əhəmiyyət verdiyi şeyləri başqalarına çatdıra bilmədiyi, ya da başqalarının qeyri-mümkün gördüyü bəzi görüşlərə sahib olduğu zaman özünü tək hiss edər. Murat, Cemin həssaslığını qorxaqlıq adlandıraraq, onun həyata məğlub olduğunu və ondan qurtulmaq istədiyini dilə gətirir. Ətrafı Cemin düşüncələrini dərk edə, anlaya bilmirdi və Cemin də yalqızlığı bunda idi. Fridrix Şillerin də qeyd etdiyi kimi, əslində, tənha ikən tənha olmur insan, onu anlayan biriləri olmadıqda tənha olur. Psixoloji yalqızlıq, səni anlamayan insanların arasında olmağındır. Buna görə də, insan toplum içərisindəki hər kəsə dostluq gözü ilə baxmamalıdır. Bəzən ətrafımızdakı insanların üzləri bir şəkil qalereyasından başqa bir şey əks etdirməz, bəzən ən uzun sürən danışıqlar belə adi, bayağı bir fısıltıdan başqa bir şey olmaz. Bu baxımdan Cemin ən çox özü ilə danışmasının səbəbi də bu idi; insanı ən yaxşı özü dinləyər və anlayar.

Əsərin əvvəlində dostları Tarık və Murada, xüsusilə də Murada olan bağımlılığını: "Onları çox sevirəm, hər ikisinin də mənimlə maraqlanmalarını istəyirəm. Çünki onların sevgisi olmasa yaşaya bilmərəm. Həyatın mənasını belə anlayıram. Həyat, yalnızca onların mənə qayğı göstərməsidir. Onlar mənsiz əylənə bilməsin, məndən başqa heçnə düşünməsinlər və sardiniya çiçəkləri yoxluğumda məni onlara xatırlatsın, onların qəlbində yanğın törətsin", (İleri, 2010: 44) deyərək, qabarıq şəkildə əks etdirən Cem, dostları olmadan yaşamağın çətinliyini dilə gətirir. Sardiniya çiçəkləri ilə dostlarına bir işarə göndərmək istəyir: Sardiniya çiçəklərinin bol miqdarda suya, isti havaya eh-tiyacı vardır. Baxımı tam şəkildə təmin olunan sardiniyalar qışa davam gətirə bilərlər. Dostlarının ona qarşı sevgi və qayğısını su və günəşlə müqayisə edən Cem, bu sevgi ilə hər cür çətinliklərə dözə biləcəyini söyləmək istəyir. Onlarsız yaşaya bilməyəcəyini dilə gətirməsinin səbəbi, əslində, sevgi yoxsulluğu içində

qıvrılaraq, yalqızlıq girdabında boğulmaqdan qorxması idi. Amma sonradan özünü sorğuladıqca içində cavabsız qalmış, narahatlıqla çığıran suallara cavab tapır və beləliklə, bir baxımdan rahatlığa qovuşur. Bir zamanlar dostlarının sevgisini dilənən, sevgi "qul"una çevrilmiş Cem, artıq onlardan sevgi dilənmir, fikirlərinə baş əymir və üsyan edərək onlarla mübahisə edərək, öz şəxsi üstünlüyünü söyləməkdən çəkinmirdi (Dalğalar, zaman keçdikcə dənizçinin qorxusu olmaqdan çıxar). "Həyat axarının istiqamətini dəyişir, bu yalqızlıq bataqlığından xilas olmaq çətindir. Sevgi nədir bilməyərək, xəstə, yaralı duyğulara duz basaraq, bir mübarizədir etdiyim özümlə, yalqızlıqla və həyat burulğanıyla…" (İleri, 2010: 75). Cem bu sözləri deyərək, həyatla mübarizəsini bir daha dilə gətirir.

Selim İleri romanda insanların yalqızlıqlarını müxtəlif şəkildə dilə gətirirək, obrazların vasitəsilə: "hər kəs ayrı yaşayar, yalnızlığını",- ifadəsini təsdiqləyir. Əsərdə yalqızlıq müxtəlif simlər üzərində qurulmuşdu: həqiqi sevgi axtaran, həyatı sorğulayan Cem, keçmişdə baş vermiş üzüntüdən sonra gerçək sevgini boş vermiş Murat, təbiətlə, təbii mövcud olan ünsürlərlə maraqlanan Tarık, heç zaman həqiqi sevgini tapa bilməyən Emine, həyatını boş verərək anı yaşayan Betigül, sevgini doğru qiymətləndirməyi bacarmayan Kerem, gənclik coşqusu ilə dolu Katherine və Ahmet… Fərqli həyatlar və fərqli-fərqli simlər üzərində qurulmuş yalqızlıqlar…

Muratın yalqızlığı onun keçmişdə yaşadığı ümidsiz sevgi hekayəsi ilə bağlı idi. Özündən neçə yaş böyük olan qızla münasibət qurması və sonda qızın: "gələcəyimi düşünməliyəm, zatən bizimki həqiqi sevgi deyildi",- deyərək ondan ayrılması Muratın sevgiyə olan inamını itirmişdi. Bəlkə də, Muratın hər kəsə qarşı soyuq davranışının səbəbi bununla bağlı idi. O, heç kəsdən heç nə gözləmirdi. Hər şeyin ola biləcəyinə inanır və buna görə də

üzülmür, insanları qırmaqdan belə çəkinmirdi. Fridfix Nitsşenin də dediyi kimi : "Təzyiq və şiddət təklikdən doğulur, xarakter dünyanın fırtınaları və dalğaları arasında şəkil alır". İnsan ruhən, psixoloji baxımdan yalnız qaldığı zaman ya hər şeyə, hər kəsə qarşı çox həssas davranar, özünün qəlbi sındığı üçün qarşısındakıları üzməməyə çalışar, ya da eynilə, Murat kimi qəlbi buz bağlayar, daşlaşar, heç kəsin qəlbini qırmaqdan belə çəkinməz. Hər kəsin yalqızlığı ayrı bir təcrübəylə nəticələnər. Amma, onu da unutmamalıyıq ki, insan layiq olduğu həqiqi sevgini gec-tez tapacaq, önəmli olan nə olur olsun, insanlığını itirməməli, ətrafındakılarla münasibətdə qırıcı olmamalıdır.

Betigülün də həyatı "ciddiyə almamasının" səbəbi ümidlərinin hər dəfəsində boşa çıxması idi. Evlilik həyatının uğursuzluqla nəticələnməsi, qarşısındakı insandan gözlədiyi sevgini ala bilmədiyi zaman, hər şeyi boş vermiş, könül əyləndirərək, özünü təsəlli etməyə çalışmışdır. Amma Haydarla sevgi üzərində qurulmamış münasibət də uzun sürmür. Daha sonra Cem və Muratla birlikdə olsa da, bu münasibətlər də qəlbən arzuladığı nəticəni vermir. Çünki yanlış həyat, doğru yaşanmaz.

Betigül Emine'yə hər nə qədər: "uşaq istəmirəm, ailə istəmirəm, belə daha yaxşıdır" (İleri, 2010: 207) ,- desə də, gerçəkdə bunun əksinin olduğunu hər kəs anlaya bilər. Çünki hər bir qadın ailə, övlad sahibi olmaq, xoşbəxt olmaq istəyər. Xoşbəxt olmaq könül əyləndirərək vaxt keçirmək, pul, ev, maşın deyil. Xoşbəxtlik səni sevən, sənə dəyər verən, səni anlayan, səni hər şeydən və hər kəsdən qoruyan biri ilə ömür keçirməkdir. Və hər bir qadın kimi Betigül də xoşbəxt olmaq, ailə sahibi olmaq istəyərdi, amma… Amma həyatın onun ümidlərinə gülərək baxması nəticəsində o, "həyat qanunlarından imtina etmiş", günlük, qeyri-səmimi münasibətlərlə "könül əyləndirmişdir". Hər nə qədər bu şəkildə xoşbəxt olduğunu dilə gətirsə də, qəlbinin

dərinliyindəki o acını hiss etməmək, duymamaq mümkün deyil. Çünki kim xoşbəxt həyat yaşamaq varkən, günlük könül əyləncələri ilə öz vaxtını öldürmək istəyər ki?!

Eminenin də yalqızlığı Betigül kimi sevilməməkdən, həqiqi sevgiylə qarşılaşmamasından irəli gəlirdi. Amma o, Betigül kimi könül əyləndirərək özünü təsəlli etməyə çalışmaq əvəzinə, həm psixoloji, həm f fiziki yalqızlığını seçmişdi. Uşaqlıqdan dayısı qızlarının sevgililəri ilə münasibətini, sonra isə qardaşı ilə ingilis qızın münasibətini müşahidə edən Emine, özünü bu vaxta kimi heç kəsin sevmədiyini dilə gətirərək, öz yalqızlığını həmişə üzünə vurmuş və özünü əskik hiss etmişdi. Həyatın mənası sevgidir, əgər insan doğru şəxsi tapa bilməsə, ya Emine kimi ümidsizliyə qapılar, özünü ətrafdan təcrid etməyə çalışar, özünü yetərsiz hiss edərək, yalqızlığını, "əskikliyini" hər gün aynada üzünə vurar, yaxud Betigül kimi könül əyləndirərək, hər şeyi boş verərək özünə təsəlli verməyə çalışar. İnsanların bütün davranışlarının tək bir səbəbi var: Sevgi və Sevgisizlik. Bütün baş vermiş hadisələrin, hisslərin, ümidlərin, ümidsizliklərin təməli bunun üzərində qurulmuşdur.

Hər şey süni idi: sevgilər, dostluqlar, insanlar və Pərilər ölkəsini xatırladan Bodrum. Cem bunları düşünərək, ortaq bir nöqtəyə varmağa, uyğun yol tapmağa çalışırdı. Bəlkə də, onun axtardığı harmoniya deyildi, ola bilsin ki, bu sadəcə ziddiyyətdən irəli gəlirdi. Amma, o, xarici mühit ilə öz daxili dünyasının ziddiyyətlərini qarışdırır, eyniləşdirir və özündə bir çaşqınlıq yaradırdı. Sonsuz bir uyum, harmoniya tapa bilməyəciyinin özü də fərqində idi. Bu baxımdan həyatı günahlandırırdı, Cem. Başqa bir yerdə, fərqli şəraitlərdə böyüməmişdisə, bunun günahkarı Həyat idi.

Roman həyata, cəmiyyətə bağlana bilməyən, sosial dəyərlərə bağlana bilməyən, bir-birinə, varlığa bağlı olmayan müx-

təlif tiplərin sarsıntılı ekzistensial problemləri ətrafında inkişaf edir. Bu bağlılıq problemi onları məcazi dillə desək, "köksüz" varlıqlara çevirir. Amma əsas məsələ, onların bu problemi dərk etməkdən, öz problemləri ilə üzləşməkdən, öz varlığının fərqinə varmaqdan çox uzaq bir nöqtədə olmalarıdır. Fethi Naci, Selim İlerini günəşli ərazilərin deyil, yağışlı küçələrin müəllifi adlandırmış, onu kədərin, ağrının, ayrılığın, qarşılıqsız sevginin müəllifi kimi qələmə vermişdir (Yazıcı, 2017: 291).

Muratla dostluqlarının bitmək üzrə olduğunun fərqinə varan Cem, dostundan ayrılmasındam qorxur. Özünə təsəlli verməyə çalışan gənc, insanların bir-birlərindən ayrılmasının, doğulub boya-başa çatdığı yeri tərk etməsinin, sevdiyi yerdən, insanlardan ayrılmasının elə də ağrılı-acılı olmadığını söyləyir. Özünü sevginin olmadığına, sevginin yoxluğunun da acını aradan qaldıracağına inandırmağa çalışırdı. Əslində, Cemin ətrafındakılarla arasındakı həddsiz uzaqlığı onu tənhalığa qovurdu. Cahid Zərifoğlu bu yalqızlıq duyğusunu gözəl bir tərzdə ifadə edir: " Bir səhər qədər izdihamlıdır, bəzilərinin yalqızlığı…"

Zaman keçdikcə süni münasibətlər Cemin canını əvvəlki qədər yandırmırdı. Haydar və Betigülün qeyri-səmimi münasibəti, Murat və Tarıkla dostluğu, Katherine və Ahmetin münasibəti, Emine və Keremin dostluğu - bütün bunlar ona bayağı gəlirdi. Bu qeyri-səmimi münasibətlərin içərisində ona gerçək sevgini xatırladan bir anı, xatirəsi var idi: keçən il getdiyi universitet tələbələri tərəfindən təşkil olunan konsertdə "Zənci ilahiləri"ni dinləmiş və çox təsirlənmişdi. "Sunrise Sunset" dinləyərkən gözləri dolmuş Cem, uzun müddətdir belə həyəcanlı və sevincli olmadığını dilə gətirmiş, uşaqların səmimiliyinə heyran qalmışdı. Həqiqi sevgini uşaqların məsum simasında görən Cem, gələcək nəslə ümidlə baxaraq, yeni nəslin sevgiylə, se-

vinclərlə, ümidlərlə gələcəyinə inanırdı. Gerçək sevgini həmin məsum baxışlı, ümid dolu gözlərdə görmüşdü Cem.

Səhnədə hər şey, bütün hadisələr təbii şəkildə baş verirdi, qurğu yox idi. Bütün "nəzakət qaydaları" pozulmuşdu. Hər kəs xalqların universal həssaslığından bəhs edirdi. Azadlıq ehtirası, demək olar ki, hiss olunan, gözlə görülən bir keyfiyyət almışdı.Səhnədəkilərin rahat, sərbəst, səmimi davranışı hər kəsdə arxayınlıq, rahatlıq yaradırdı. Hər şey olması gərəkən bir şəkildə idi: təbii və səmimi… Beləliklə, Cem, gerçək harmoniya olduqdan sonra, ölkədən, dilindən asılı olmayaraq insanların gerçək dostluq qura biləcəyinə inanırdı. (İleri, 2010: 116)

İnsan həyatı kibrit qutusuna bənzəyir: ona ciddi yanaşmaq gülməlidir, amma ciddi yanaşmamaq da təhlükəlidir. Həyat bir andır, təcrübələrlə, küslünlüklərlə, qırılmış qəlb, yanılmış ümidlərlə, çəkilmiş sınaqlarla,sevinc və xoşbəxtlik, həyəcanla dolu bir an. Həyat nə keçmiş, nə də gələcəkdir. Önəmli olan zamanı doğru dəyərləndirərək anı yaşamaqdır. Əgər Həyatın sizə gülümsəməsini istəyirsinizsə, əvvəlcə ona öz xoş əhval-ruhiyyənizi hədiyyə edin, ona gözəl enerji ötürün. H.Lonqfellonun da qeyd etdiyi kimi: Dünyaya tək olaraq gəlir, tək olaraq gedirik. Doğumla ölüm arasındakı qısacıq ömürümüzdə də təkmi yaşayaq?! Tale insana qarşı nə qədər qəddar olsa da, insan nə qədər tərk edilmiş və tənha olsa da, hər zaman, bəlkə də ona məlum olmayan, lakin qəlbinin harayına cavab vermək üçün açıq olan, onu sevən, onu anlayan bir qəlb tapılar.

Nəticə

Selim İleri, müasir insanın daxili böhranını, insanların cəmiyyətdən uzaqlaşmaq istəmələrinin səbəblərini "Her gece Bodrum" romanı vasitəsilə böyük ustalıqla təsvir etmişdir. İnsanın həm daxili, həm də fiziki yorğunluğunu aradan qaldıran, insanın qəlbini rahatlaşdıran, yeni və gözəl, sevgi dolu başlanğıcların

simvolu olan Bodrum, əsərdə sıxıcı, ürək daraldan, ruhsuz bir məkan kimi təsvir olunur.

Cem Bodrumdakı süniliyi görüncə hər şeyi yenidən sorğulamağa başlayır və heç bir şey ona artıq əvvəlki kimi həyacan verici və maraqlı gəlmir. Bodrum şəhəri Cemin gözlədiyi, xəyal etdiyi kimi ütopiya deyil, distopya, yəni insanlar üçün xoşagəlməz həyatın yaşandığı sıxıcı bir məkandır.

Qaynaqlar

1. İLERİ, Selim. (2010). "Her gece Bodrum". Ankara: Bilgi yayınevi.
2. Dr. BOYNUKARA, Hasan. (1997). "Modern Eleştiri Terimleri". İstanbul: Boğaziçi Yayınları.
3. YAZICI, Gürhan. (2017). "Cumhuriyet Dönemi Türk Edebiyatı". Istanbul: Akademi Basın. Yayınları.
4. URL-1: Vikipediya. Səhifə sonuncu dəfə 15.44, 26 sentyabr 2022-ci ildə redaktə edilib. https://tr.wikipedia.org/wiki/Selim_%C4%B0leri
5. URL-2: ÇORUH, Nesrin. Nesrin Çoruh yazdı: Bir Yaz Romanı "Her Gece Bodrum". https://edebiyatburada.com/nesrin-coruh-yazdi-bir-yaz-romani-her-gece-bodrum/

LONELINESS IN SELIM ILERI'S NOVEL "BODRUM EVERY NIGHT"

Najiba ZEYNALOVA

Abstract

Selim Ileri is an author who has brought innovations to the creation of novels in Turkish literature, and has revealed a wide range of topics with his novels. The author's novel "Bodrum every night" is a youth novel that reflects the loneliness in society. The roman written by Ileri with great skills that was

based on political conflicts, unrequited love and sensitivity of broken hearts led to extensive discussions and critical opinions since the date of being written.In the novel, the loneliness of people, the feelings and emotions of lust, passion, the transcendence of insincere relationships over sincere relationships, artificial, simple communication are expressed in the language of images. With this novel, which criticized the petty bourgeois world, the writer won the “Turkish Language Institution Novel Award” in 1977, thus gaining the fame he was declared as the author of the book “Bodrum every night”.

Key words: *loneliness in society, alienation, insincere relationships, whirlwind of loneliness*

NİZAMİ GƏNCƏVİ, MƏMMƏD ARAZ, SƏMƏD VURĞUN, AŞIQ ƏLƏSGƏR ƏDƏBİ İRSİNDƏ SOSİAL VƏ FİZİKİ COĞRAFİYANIN ƏDƏBİYYATLA İNTEQRASİYASI

Namiq AĞAMƏMMƏDOV,
AMEA akad. H.Əliyev adına Coğrafiya İnstitutu, dr.

Təbiət elmlərinin mənimsənilməsində ədəbiyyatın imkanlarından geniş istifadə olunması onların dərindən mənimsənilməsini asanlaşdırır. Xüsusi ilə ədəbi poeziya bu mənada daha diqqətçəkicidir. Coğrafiya təsviri elm olduğu üçün onun ədəbiyyatla inteqrasiyası daha məqbul hesab oluna bilər. Tədqiqat nəticəsində belə qənaətə gəlmək olur ki, həqiqi coğrafiyaşünasların əksəriyyəti şeir və şeiriyyata meyilli olurlar. Və ya əksini də iddia etmək mümkündür. Tezisdə Azərbaycan ədəbi mühitinin kamil biliciləri və karifeylərindən hesab olunan Nizami Gəncəvi, Məmməd Araz, Səməd Vurğun, Aşıq Ələsgərin coğrafiya-ədəbiyyat sintezi araşdırılmışdır.

Coğrafiya elmi formalaşdığı ilkin dövrlərdən təbiət mənzərələrinin təsviri ilə məşğul olmuşdur. Coğrafiyaçı alimlər geniş təsəvvürə malik olmaqla xüsusi istedada malik insanlar olmuşdur. Çünki coğrafi tədqiqatlar fundamental biliklər tələb etməklə yanaşı, araşdırmaçıdan səbr, dözümlülük, insani keyfiyyətlər, ədəbi təsəvvür tələb edir. Ədəbiyyatın həm şifahi, həm də yazılı forması üçün eyni fikirləri söyləmək mümkündür. Coğrafiya ilə ədəbiyyatın inteqrasiyasını nağıl, hekayə, roman, povest, şeir formalarında aydın müşahidə etmək mümkündür. Qarşılıqlı formada davam edən yanaşmalar hər iki elm sahəsinin mənəvi və metodiki cəhətdən zənginləşməsinə səbəb olmuşdur.

Bu tezisdə ardıcıl olaraq karifey sənətkarların coğrafiya-ədəbiyyat əlaqələri təhlil olunur (Nizami Gəncəvi, Məmməd

Araz, Səməd Vurğun, Aşıq Ələsgər). Qeyd olunan sənətkarların ədəbiyyat elmində məşhurlaşmasında, fitri istedada malik olmalarında onların doğulub boya-başa çatdıqları coğrafi ərazinin geomorfoloji-relyef, landşaft-iqlim elementləri mühüm rol oynamışdır. Çünki psixoloji cəhətdən sübut olunmuşdur ki, insanın qəbul etdiyi hava, su və qidaların tərkibi, saflığı onun sosial-mənəvi və emosional vəziyyətinə, intellektual düşüncə tərzinə təsir edir. Əgər şair və yazıçıları doğulduqları regionlar üzrə sistemləşdirib, analiz

etsək görərik ki, onlar əsasən təbiəti gözəl və mənzərəli olan dağlıq relyefə malik, əsrarəngiz və füsünkar coğrafi zonalara uyğun gəlir. Hətta bəzən ətraf ərazinin cəlbediciliyi sənətkarı özünə ram edir, arada ülvi məhəbbət əmələ gəlir, belə bağlılıq onalrın təllüslərində özünü biruzə verir (Nizamidə Gəncəvi, Məmməd Arazda (Araz) və s.). Məsələnin mahiyyətini açmaq üçün qeyd etdiyimiz sənətkarların yaşadıqları ərazilərin fiziki-coğrafi xüsusiyyətlərini də təhlil etmək lazımdır.

Nizami Gəncəvi (1141-1209) Gəncə şəhərində anadan olmuşdur. Ərazi Gəncə-Qazax düzənliyində (400-450 m mütləq yüksəklik) yerləşməklə bol sulu çayları, münbit torpağı, mülayim iqlimi ilə diqqət çəkir. Belə bir torpaqda yetişən dahi Nizami şeiriyyatı ədəbi-fəlsəfi fikirlərlə zənginləşdirmişdir. Onun təbiətin yaranması, göy cisimləri (planetlər, ulduzlar, ölkələrin sosial-iqtisadi inkişafı) barədə fikirləri qiymətli elmi-nəzəri əhəmiyyətə malikdir. Fransanın sosial-iqtisadi səciyyəsinə və şəhərlərinə həsr olunan dərsdə müəllim şagirdlərin diqqətini Azərbaycanın bu ölkə ilə sıx elmi-mədəni əlaqələrinin mövcudluğuna, həmin əlaqələrin hələ orta əsrlərdə başlanmasına, Avropada Nizami Gəncəvi haqqında ilk yazılı məlumatların məhz bu ölkədə yayılmasına cəlb edə bilər (Apoyev, 2012:32). Eyni zamanda İtaliya, Amerika qitəsi, Yunanıstan, İran, Hindistan və

s. ölkələr haqqında maraqlı fikirlər Nizami Gəncəvi yaradıcılığının əsasını təşkil edir.

Məmməd Araz (1933-2004) Naxçıvan MR Şahbuz rayonunun Nurs kəndində anadan olmuşdur. Şahbuz rayonu dağlıq relyefə malik olmaqla (Zəngəzur və Dərələyəz dağ silsilələri) yayı quraq keçən soyuq iqlim hakimdir. Alp və subalp çəmənləri, dağların buzu qarı insanın mənəvi hisslərini coşdurur. M. Araz ADPU-nun coğrafiya fakultəsini bitirmişdir. O, şeirlərində vətənin, torpağın, Arazın ağrısını, dərdini tərənnüm etmişdir. Arazı və Şahbuzu "Anamın nəğməsi" kimi dinlədi, torpağı və təbiəti "Atamın kitabı" kimi oxudu. Dərslik yox, dağ-daş özü ekologiya - əlifba kitabı oldu. Uşaq yaşlarından mehrini və meylini nəbatat elminə saldı, qələmi də bir pöhrə kimi çəməndən, çöldən, meşədən göyərdi, ədəbiyyat yox, çoğrafiya fakültəsinə daxil oldu. "Azərbaycan" yox, "Azərbaycan təbiəti" dərgisinə redaktor oldu! Poeziyada yeni təbii iqlimin - çağdaş ekoloji təfəkkürün ilk təməl daşlarını qoyanlardan biri Məmməd Araz oldu (Araz, 2004:6).

Səməd Vurğun (1906-1956) Qazax rayonunda anadan olmuşdur. Təbiəti əsasən düzənlikdir, cənub hissəsi alçaq dağlıqdır, bərəkətli şabalıdı torpaqlar yayılmışdır. Geomorfoloji vahidlər olan “Aveydağ”, “Göyəzən”, “Damcılı” bulağı burada yerləşir. təbiətə S.Vurğunun coğrafi hadisələri məharətlə tərənnüm etməsi insanı heyran edir. Bədii ifadə və təsvir vasitələrindən məharətlə istifadə edərək coğrafiya ilə ədəbiyyatın möhtəşəm vəhdətini inikas edə bilmişdir. Onun “Muğan” poemasındakı bu tərənnnümü diqqət cəlb edir:

Od tokür, od tökür Günəş ağzından,
Torpağın nəfəsi təngiyir hərdən,
Yanğınlar yağsa da yerə göylərdən,
Əl işdən soyumaz, ürək arzudan.

Burada yarımsəhra və quru-çöl iqlimi ustalıqla təsvir olunmuşdur. Səməd Vurğun Azərbaycana təkcə bir şeir həsr etməmişdir. Onun bütün təfəkkürü Azərbaycana həsr olunmuşdur (Cəfərov, 1966:47).

Coğrafi hadisələrlə ədəbi almanaxı sintez edə bilən Qərb Aşıq məktəbinin görkəmli nümayəndələrindən biri də Aşıq Ələsgər olmuşdur (1821-1926). Göyçə mahalının gözəl və səfalı havası, sərin bulaqları, dağ-çəmən landşaftı (yay otlaqları, biçənəklər) insanı poeziyaya ilhamlandırır. Bu bərəkətli torpaqların məhsulu, suyu, havası insanın damarlarında dövr edərək onu coşdurur. Aşıq Ələsgər, hər şeydən əvvəl, böyük bir eşq əhli, gözəllik aşiqidir. O, təbiət gözəlliklərinin vurğunu; vətənini, elini sonsuz məhəbbətlə sevən əsil xalq aşığıdır. Onun "Dağlar", "Sarı köynək","Şah dağı", "Yaylaq" adlı şeirləri coğrafiya ilə ədəbi təsvirin harmoniyasıdır:

Var olsun Qarabağ, əcəb səfadı,
Başa Xaçın axar, ayağa – Qarqar.
Göyçə qar əlindən zara gəlibdi,
Muğan həsrət çəkər: a yağa qar, qar...(Zimistanoğlu, 2014:241).

Tezisin sonunda belə nəticəyə gəlmək olur ki, coğrafi ərazinin relyefi, torpağın tərkibi, təbii gözəllikləri, yetişdirdiyi məhsullar insanın ədəbi mühitə münasibətinə təsir edir.

Qaynaqlar

1. APOYEV, B. (2012)*Nizami Gəncəvi irsindən pedaqoji prosesdə istifadə*. Bakı: Mütərcim nəşriyyatı
2. MƏMMƏD, A.(2004)*Seçilmiş əsərləri. İki cilddə. I cild.*Bakı: "Lider nəşriyyat"
3. CƏFƏROV, M. (1966) *Səməd Vurğun. Həyat və yaradıcılığı.* Bakı: Azərbaycan Dövlət Nəşriyyatı
4. ZİMİSTANOĞLU, Q (2014).*Aşıq Ələsgər. Bütün əsərləri.* Bakı: "OL" MMC nəşriyyatı

INTEGRATION OF SOCIAL AND PHYSICAL GEOGRAPHY WITH LITERATURE IN THE LITERARY HERITAGE OF NIZAMI GANJAVI, MOMMAD ARAZ, SAMAD VURGUN, ASHIQ ALASGAR

Namig AGAMAMMADOV

Abstract

The wide use of the opportunities of literature in mastering Natural Sciences facilitates their deep assimilation. This verse is more than anything else in the Qur'an. It may be more acceptable for him to integrate with literature. As a result of the research, it can be concluded that most of the true geographers are inclined to poetry and poetry. Or it is possible to claim the opposite. The synthesis of geography and literature of Nizami Ganjavi, Mammad Araz, Samad Vurgun, Ashig Alasgar and Musa Yagub, which are considered to be the perfect connoisseurs of the literary environment of Azerbaijan, was investigated in the thesis.

Key words: geography, literature, integration, Nizami Ganjavi, Mammad Araz, Samad Vurgun, Ashug Alasgar

TÜRK DÜNYASI VƏ AZƏRBAYCAN: XARİCİ İQTİSADİ SİYASƏT STRATEGİYASI

Nərmin İSMAYILOVA,
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
bakalavr,
Elmi rəhbər: Sevda ABBASOVA

Azərbaycan və türk dünyasının daimi dostluğunun bariz nümunəsi sayılan 2009-cu ildə təsis edilən türkdilli ölkələri birləşdirən beynəlxalq təşkilat Türk Şurasıdır. Bütün bunlar isə özü-özlüyündə bir daha türkdilli dövlətlərin iqtisadi potensiallarının "Turan iqtisadi modeli"ndə birləşərək böyük regional gücə çevrilməsinə geniş imkanlar yaradır. (Hacızadə, 2018:278) Bir sözlə, Azərbaycanın əsas prioriteti hər zaman din, dil, eləcə də mədəniyyət baxımından eyni olan dost Türk xalqları ilə xarici-iqtisadi əlaqələri genişləndirərək daimi "Türk milləti dostluğu və qardaşlığı" yaratmaq olmuşdur və olacaqdır. Nəticə etibarilə, Azərbaycan və Türk xalqlarının dostluğu, həmçinin qardaşlığı qədim olduğu qədər də əbədi olacaqdır.

Qədim zamanlardan Türkdilli Dövlətlər beynəlxalq iqtisadi sferada əhəmiyyətli rol oynamışdır. Bu ölkələrin əlverişli geosiyasi və coğrafi mövqeyinin, eləcə də zəngin təbii resurslarının mövcud olması, uzun illər ərzində türk dünyasının beynəlxalq münasibətlər sisteminin mühüm subyekti kimi çıxış etməsinə səbəb olmuşdur. Azərbaycan Respublikasının xarici siyasətində türk dövlətləri ilə iqtisadi münasibətlər mühüm yer tutur. Tarixin müəyyən mərhələlərində müxtəlif xarakterli olmuş bu əlaqələr beynəlxalq hüquq normalarına uyğun, qarşılıqlı faydalı əməkdaşlıq əsasında yenidən qurulur. Hazırda Azərbaycanın türk dövlətləri ilə münasibətlər saxlaması və inkişaf etdirməsi bir sıra amillərə əsaslanır.

Qazaxıstanla müstəqil dövlətlər səviyyəsində dövlətlərarası iqtisadi və diplomatik əlaqələr 1992-ci ildə qurulmuşdur. Hər iki ölkə həm Xəzərin hüquqi statusu, həm də enerji daşıyıcılarının hasilatına xarici kapitalın cəlb edilməsi və dünya bazarlarına çıxarılması məsələsində oxşar mövqedən çıxış edərək, birbirinin maraqlarını qarşılıqlı təmin edir. (Qurbanov, 2011:188) Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 1997-ci ildə Qazaxıstana rəsmi səfəri oldu. Danışıqlarda dövlətlər arasında ticarət iqtisadi münasibətlərinin, xüsusən nəqliyyat kommunikasiyaları və neft-qaz sahələrində əlaqələrin təkmilləşdirilməsi haqqında bəyannamə, neftin beynəlxalq bazarlara nəqlində əməkdaşlıq haqqında memorandum imzalandı. Özbəkistan və Azərbaycan Respublikaları arasında xarici-iqtisadi əlaqələr 1992-ci ildə qurulub. (Qurbanov, 2011:190) 2004-cü ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına rəsmi səfəri zamanı tərəflər arasında strateji əməkdaşlığın daha da möhkəmləndirilməsi haqqında bəyannamə də daxil olmaqla altı mühüm sənəd imzalanmışdır. (Qurbanov, 2011:192) Hazırda Özbəkistanda Azərbaycana məxsus ona yaxın iri və orta müəssisə fəaliyyət göstərir. Tərəflər arasında iqtisadi əməkdaşlıqda əsas yer dəmiryolu nəqliyyatı, ərzaq məhsulları və kənd təsərrüfatına verilir. Bu da ölkələrarası ikitərəfli əlaqələrin sürətlənməsi və inkişafına öz müsbət təsirini göstərir. Qırğızıstan və Azərbaycan Respublikaları arasında isə xarici-iqtisadi, eləcə də diplomatik münasibətlər 1992-ci ildə qurulub. (Qurbanov, 2011:192) 1995-ci ildə Azərbaycan prezidenti H.Əliyev Qırğızıstanda rəsmi səfərdə olarkən tərəflər bölgə dövlətlərinin iqtisadi inteqrasiyasının gücləndirilməsini vacib saydılar. 1997-ci ildə Qırğızıstan prezidentinin Azərbaycana rəsmi səfəri zamanı əsas məqsəd "qardaş türk dövlətləri arasında dostluq və əməkdaşlığı daha da genişləndirmək

və dərinləşdirmək”dən ibarət olduğu bildirildi. (Qurbanov, 2011:193) Ümummilli Lider H.Əliyev Azərbaycanla Qırğızıstanın baxışları və mövqelərinin üst-üstə düşdüyünü və bunun dövlətlərarası münasibətlərin gələcək inkişafı üçün əsas olacağını qeyd etdi. Türmənistanla Azərbaycan arasında xarici-iqtisadi əlaqələr 1992-ci ildən qurulmağa başladı. (Qurbanov, 2011:194) Türmənistan Respublikası ilə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev arasında aparılan danışıqlarda iki ölkə arasındakı münasibətlərin inkişafına dair əldə olunmuş razılaşmaları müsbət qiymətləndirmək olar. Danışıqların yekunu olaraq, Azərbaycan və Türkmənistan arasında “Dostluq və Əməkdaşlıq haqqında” müqavilə imzalanmışdır. Türkdilli dövlətlər arasında ən sıx iqtisadi əməkdaşlıq Azərbaycanla Türkiyəyə məxsusdur. (Hacızadə, 2018:272) Türkiyə ilə Azərbaycan arasında xarici-iqtisadi əlaqələrə nəzər yetirdikdə bu əlaqələrin əsasında, üstün olaraq, ticarətin dayandığını görərik. (Hacızadə E, 2018:276) Türkiyə dünya miqyasında Azərbaycana ən böyük dəstək verən ölkədir. Bütün məsələlərdə, eləcə də beynəlxalq arenalarda Azərbaycan daim qardaş Türkiyənin yanında olmaqla bərabər, onun haqq işini dəstəkləyir. Hazırda da Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf-müqabilidir. (Hacızadə, 2018:276) Bunun nəticəsidir ki, Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması prosesi həyata keçirilməkdədir. Bu yaxınlığın potensialını davamlı generasiyada inkişaf etdirmək üçün mövcud inteqrasiyanın vahid iqtisadi şəbəkəliyə qədər dərinləşdirilməsi zəruridir. Belə dərinləşən inteqrasiyanın isə sosial-hüquqi vəhdətlik müstəvisində iqtisadiyyatların konvergensiyasını təmin edəcəyi düşünülür.

Azərbaycan iqtisadiyyatını digər türk dövlətlərinin iqtisadiyyatı ilə birləşdirən prioritet amillər iqtisadiyyatın inkişafındakı oxşar cəhətlərin, iqtisadiyyatın modernləşdirilməsi, iqtisadi proseslərin demokratik və bazar iqtisadiyyatı normalarına keçməsi təşkil etmişdir. Bu dövlətlər xarici-iqtisadi münasibətlər sahəsində bir-biriləri ilə əməkdaşlığı ticarət sahəsində aparırdılar. Qazaxıstan və Türkmənistanla isə neft və neft məhsullarının dünya bazarlarına ötürülməsi sahəsində də birgə fəaliyyətlər də mövcuddur.

Qaynaqlar

1. HACIZADƏ, Elşən. (2018). Dünya iqtisadiyyatı və Azərbaycan, Bakı: "Letterpress"
2. QURBANOV, Ramin. (2011). Türk xalqlarının tarixi, Bakı: "İqtisad Universiteti".

TURKISH WORLD AND AZERBAIJAN: FOREIGN ECONOMIC POLICY STRATEGY

Narmin İSMAİLOVA

Abstract

In general, the Turkic Council is an international organization uniting Turkic-speaking countries, established in 2009, which is a clear example of the lasting friendship between Azerbaijan and the Turkic world. All this, in itself, once again creates ample opportunities for the economic potential of the Turkic-speaking states to unite in the "Turan economic model" and become a major regional power. In short, the main priority of Azerbaijan has always been and will be to create a permanent "friendship and brotherhood of the Turkish nation" by expanding foreign and economic relations with friendly Turkic peoples who are the same in terms of religion, language and culture. As a result, the friendship and brotherhood of the Azerbaijani and Turkish peoples will be as eternal as ever.

Key words: Turkic world, Azerbaijan, foreign, economic,

POSTTRAVMATIK STRESS POZUNTUSUNUN PSIXOLOJI MƏZMUNUNDA EMOSİONAL İNTELLEKTİN ROLU

Nəzrin VERDİYEVA,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dos. Müşviq Mustafayev

Tezisdə posttravmatik stress pozuntusun fenomenologiyasından, simptomlarından, yaranma səbəblərindən və ümumi xüsusiyyətlərindən, həmçinin onun təzahüründə emosional intellektin rolundan bəhs edilmişdir. Posttravmatik stress pozuntusu ağır bir psixoloji travma sonrasında ortaya çıxan, şəxsdə qorxu, təhlükə, çarəsizlik ya da dəhşətə düşmə reaksiyalarına səbəb olan və travma sonrası yaranan ruhi bir pozuntu hesab olunur. Emosional intellekt stressi aradan qaldırmaq, effektiv ünsiyyət qurmaq, başqaları ilə empatiya qurmaq, çətinlikləri aradan qaldırmaq və münaqişəni sakitləşdirmək üçün öz emosiyalarınızı müsbət yollarla anlamaq, istifadə etmək və idarə etmək bacarığıdır.

Amerikan Psixiatriya Birliyinə görə Post travmatik stress pozuntusu (PTSP) ağır fiziki zərərin meydana gəldiyi və ya təhdid edildiyi dəhşətli bir hadisəyə yaxud sınaqlara məruz qaldıqdan sonra inkişaf edə biləcək bir təşviş pozuntusu olaraq təyin edilir. Vietnam müharibəsi sonrası Vietnam Qaziləri Çalışma Qrupu'nun cəhdləri nəticəsində müharibənin psixoloji reaksiyaları Amerikan Psixiatriya Birliyi'nin diqqətini çəkmiş və Post travmatik stress pozuntusu ilk dəfə 1980-ci ildə Ruhi Pozuntuların Diaqnostik və Statistik Əl Kitabına (DSM) daxil

edilmiş və bu, onu yeni qəbul edilən psixiatrik xəstəliklərdən biri etmişdir.

Ümumiyyətlə, aparılmış tədqiqatlara görə əhalinin 39 - 90 % - i ömründə ən az bir dəfə travmatik bir hadisə yaşayır. Travmatik hadisə yaşandıqdan sonra PTSP-nin müşahidə olunması ehtimalı cinslər üzrə differensiallaşmış formada qa-dınlarda 20,4 % , kişilərdə 8,1% təşkil edir. Daha gənc meqalapolislərdə yaşayan cəmiyyətlərdə göstəricilər dəyişkənlik gös-tərilir, belə ki, qadınlarda 30,2 %, kişilərdə isə 13% müəyyən edilmişdir. Müxtəlif travmalardan zərərçəkən insanlar arasında aparılmış çoxsaylı tədqiqatların nəticəsi olaraq psixotravmatik faktorların yayılma dərəcələri müəyyənləşdirilmişdir. Ən geniş yayılmış olaraq ağır somatik (9,4%) və fiziki təzyiq (8,3%). Daha sonra digər bir şəxsin ağır yaralanması yaxud ölüm hadisəsinə şahid olmaq (7,1%) və ya yaxın şəxslərin ağır xəstəlik-dən əziyyət çəkməsi yaxud qəfil ölümü (5,7%), ən az yayılmış psixotravma kimi seksual zorakılıq (2%) aid edilir. (Nutt və Ballenger, 2005).

Travma anlayışı üç əsas başlıq ilə təsnif edilir:

1. İnsanın rolu nəticəsində qəza nəticəsində yaranmış- buraya aiddir: gəmi, qatar, avtomobil və iş qəzaları, yanğınlar və s.

2. İnsanın rolu ilə birbaşa bilərək yaranmış- buraya aiddir: təcavüz, məhbusluq, müharibə, terror, işgəncə və s.

3. Təbii fəlakətlər- buraya aiddir: meşə yanğını, sel, uçqun, zəlzələ və s. (APA, 2007).

Posttravmatik stress pozuntusu adı çəkilən hər hansı bir hadisə nəticəsində fərdin emosional vəziyyətinin ani dəyişməsi ilə müşahidə olunur. Travmatik hadisə sonrası yaşanan əlamətlərin bütün şəxslərdə müşahidə olunması mütləq hesab edilmir.

Posttravmatik stress pozuntusu zamanı müşahidə edilə biləcək əlamətlər 4 qrup altında birləşdirilir:

• Travmatik hadisə ilə əlaqəli situasiyalardan uzaqlaşmağa çalışmaq- Posttravmatik stress pozuntusundan əziyyət çəkən şəxslərdə yaşanan hadisə ilə əlaqədar xatırladıcı detal-lardan qaçınma müşahidə edilə bilər. Nümunə olaraq, zəlzələdən bina altından xilas olmuş şəxs sonraki həyat fəaliyyətində qapalı məkanlarda olmaqdan qaçınmışdır. Bundan əlavə, trav-matik hadisə ilə əlaqəli xatirələri qısa epizodlar xatırlayan şəxslər həmin hadisəni düşünməkdən qaça bilərlər. Lakin, çox zaman bu xatırladıcı məqamlardan qaçmağa çalışan şəxslər uğursuzluq yaşayaraq yenidən hadisəni yaşamış hissinə geri dönə bilirlər.

• Həyəcan hissinin və həssaslığın artması- buraya impulsiv, aqressiv və ya qəzəbli davranışlar, özünü idarəetməni itirmək, ətrafa və ya özünə zərərverici davranışlar, diqqətin və yaddaşın davamlılığının azalması, yuxunun pozulması və laqeydlik kimi əlamətlər aid edilir.

• Travma yaradan hadisəyə təkrar məruz qalmaq- Posttravmatik stress pozuntusundan əziyyət çəkən şəxslərdə travmatik hadisə ilə əlaqəli təkrarlanan xatirələri və kabusları ola bilər. Şəxs həmin hadisə ilə əlaqəli stimullara məruz qala bilər. Nümunə olaraq, travmatik hadisə yaşanarkən eşidilən hər hansı səs yaxud məkan. Zərərçəkən bütün bu vəziyyətlərdən narahat olduğu üçün kəskin formada fizioloji reaksiyalar göstərə bilər.

• Travmadan sonra müşahidə olunan idrak və digər əhvalruhiyyə dəyişiklikləri- buraya müsbət duyğuları hiss edə bilməmək, hadisə ilə əlaqədara digər insanları və özünü günah-landırma, özünəqapanma, sosial təcrid, yaşanan hadisənin müxtəlif vacib məqamlarını xatırlaya bilməmək, əvvəl zövq alınan sahələrə qarşı marağın itməsi aid edilir.(Butcher və Hooley, 2013: 316)

Emosiyalar müxtəlif psixoloqlar və sosioloqlar tərəfindən ümumi bir daxili hiss kimi qəbul edilmişdir, çünki pnlar emosiyaların çox vaxt insanların fəaliyyətinə və normal həyat tərzinə əsaslanaraq fərdlərin yanaşmasını, reaksiyalarını və hisslərini dəyişib təsir edə biləcəyini düşünürlər. Bu halda, PTSP-nın bu faktdan kənarda qalmadığını bildirmək mümkündür (Power və Fyvie, 2013: 162). Əlavə olaraq, emosiyaları və onların insanların sosial və şəxsi həyatındakı rolunu müəyyən etmək və daha çox anlayışlı olmaq vacib bir fakt hesab olunur. Bütün bunlar nəzərə alınaraq, PTSP-nın təzahüründə emosional zəkanın rolunu araşdırmaq mühüm bir istiqamət kimi elmi araşdırmalara əsas ola bilər.

Emosional intellekt (EI), fərdi və sosial həyatda özünün və başqalarının emosiyalarını ayırd etmək, qiymətləndirmək və yenidən nəzərdən keçirmək qabiliyyəti kimi bilinən bir an-layışdır (Harms və Credé, 2010: 5). Göründüyü kimi, emosional intellekt 4 əsas amildən ibarətdir:

1) emosiyaların qavranılması, 2) öz duyğularını idarə etmək, 3) başqalarının emosiyalarını idarə etmək və 4) fərdlərin şəxsi və sosial həyatda hislərini necə göstərdiyini izah edən emosiyalardan faydalanmaq. (Schutte və Malouff, 2011:1116). Emosional zəka fərdlərin hiss və yanaşmalarında böyük rol oynayan mühüm bir faktordur. Həmçinin, bu, həqiqi hissləri tanımaq və həyat fəaliyyəti ilə əlaqəli dəqiq qərarlar vermək üçün istifadə edilən bir zəka növüdür. Dəqiq olaraq, bu faktor müxtəlif vəziyyətlərdə əhval-ruhiyyəni və məqsədləri idarə etməklə bərabər, fərdlər arasında ünsiyyətdə sadalananların nəzarətini həyata keçirir. (Darabi, 2012: 2991).

Emosional intellekt və onun amilləri şəxslərin bacarıq və qabiliyyətlərinə istinad edir və müsbət motivator kimi vacib bir rol oynayır. Əslində, emosional intellekt fərdləri özlərinə və so-

sial həyatlarına qarşı daha çox diqqət yetirməyə sövq edir. Bundan əlavə, emosional zəkanın ətraflı bilinməsi mənfi hisslərin və stressin aşağı səviyyəsini azaltmağa kömək edəcək. Bu o deməkdir ki, PTSP olan fərdlər öz hisslərini və davranışlarını mükəmməl formada tanısalar, psixopatologiya yaxud psixi pozuntuların öhdəsindən gələ bilərlər (Mehrad, 2020: 188).

Bütün mövcud elmi ədəbiyyatlar arasında (Stough vd., 2009) emosional intellekt və PTSP arasındakı əlaqəyə dair yalnız bir nəşr edilmiş tədqiqat var. Tədqiqat emosional intellektin fərdlərin travmatik təcrübələrə necə reaksiya verdiyini təxmin edə bilib-bilməyəcəyini araşdırır. Emosional zəkanın ölçülməsi üçün Nottingem Emosional İntellekt Şkalası (NEIS) tətbiq edən tədqiqatda 414 tələbədən ibarət təsadüfi bir qrup iştirak etmişdir (Hunt və Evans, 2004). NEIS, emosional zəkanın yalnız qlobal xalını qiymətləndirə bilən tək faktorlu şkaldır. Respondentlərin seçilməsi üçün seçim meyarlarına travmatik hadisənin yaşanması daxil deyildi, baxmayaraq ki, 298 respondent belə bir təcrübələrinin olduğunu bildirmişdir . Tədqiqat EI və travma arasında əlaqəni nümayiş etdirdi. Başqa sözlə, emosional zəka və travma ilə əlaqəli simptomlar arasında aydın bir korrelasiya var idi. Belə ki, daha yüksək EI olanlar daha az simptomlara sahib idilər (Martskvishvili, 2015).

Qaynaqlar

1. KÖROĞLU, E. (Ed). (2007). *Amerikan Psikiyatri Birliği. Mental Bozuklukların Tanısal ve Sayımsal El Kitabı*. Dördüncü Baskı, Yeniden gözden geçirilmiş tam metin (DSM-IVTR). Ankara: Hekimler Yayın Birliği.
2. BUTCHER, J.N. və HOOLEY, M.J. (2013). *Anormal Psikoloji.* İstanbul: Nobel yayınıcılık, S. 316.
3. DARABİ, M. (2012). Emotional intelligence a literature review. *Journal of Applied Science Research*, S. 8, s. 2991-2997.

4. HARMS, P. D. və CREDÉ, M. (2010). Emotional intelligence and transformational and transactional leadership: A meta-analysis. *Journal of Leadership & Organizational Studies*, S. 17, s. 5-17.
5. HUNT N. və EVANS D. (2004). *Predicting Traumatic Stress Using Emotional Intelligence*, Behavior Research and Therapy, S. 42, s. 791-798.
6. MARTSKVİSHVİLİ K. (2015). Relationship Between Emotional Intelligence And Post-Traumatic Stress.
7. MEHRAD A. (2020). Post-Traumatic Stress Disorder (PTSD) Effect of Coronavirus (COVID-19) Pandemic and Role of Emotional Intelligence. *Journal of Social Science Research*, S. 20, s. 188.
8. NUTT D. və BALLENGER, J. (2005). *Anxiety disorders*: Generalized Anxiety Disorder, Obsessive Compulsive Disorder and Post-Traumatic stress disorder. Oxford: Blackwell Publishing.
9. POWER, M. J. və FYVİE, C. (2013). The role of emotion in PTSD: two preliminary studies. *Behav Cogn Psychother*, S. 41, s. 162-72.
10. SCHUTTE, N. S., & MALOUFF, J. M. (2011). Emotional intelligence mediates the relationship between mindfulness and subjective well-being. *Journal of Personality and Individual Differences,* S. 7, s. 1116-1119
11. STOUGH, C., SAKLOFSKE, D. H. və PARKER, J. D. (2009). Assessing Emotional Intelligence: Theory, Research and Applications, *The Springer Series on Human Exceptionality*.

THE ROLE OF EMOTIONAL INTELLIGENCE IN THE PSYCHOLOGICAL CONTENT OF POST-TRAUMATIC STRESS DISORDER

Nazrin VERDIYEVA

Abstract

The thesis discusses the phenomenology, symptoms, causes and general features of posttraumatic stress disorder, as well as the role of emotional intelligence in its manifestation. Posttraumatic stress occurs after a disturbed psychological trauma, and it is considered to be a mental disorder that results in fear, danger, helplessness, or panic attacks in a person. Emotional intelligence is the ability to understand, use, and manage your own emotions in positive ways to relieve stress, communicate effectively, empathize with others, overcome challenges and defuse conflict.

Key words: posttraumatic stress, trauma, psychological, stimulator, emotional intelligence

XƏLİL RZA ULUTÜRK YARADICILIĞI

Pəri QULİYEVA
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dos.Xatirə Yusifova

Özət

Azərbaycan ziyalıları zaman-zaman öz yaradıcılıqlarında azərbaycançılıq ideyasına müraciət ediblər. Bu sahədə Xalq şairi Xəlil Rza Ulutürkü xüsusilə qeyd etmək olar. Öz idealı uğrunda mübarizə aparan ziyalılar ordusu içərisində Xəlil Rza Ulutürk istiqlal şairləri tarixi önəm kəsb edib. Xalq şairi Xəlil Rza-nın milli idealında azərbaycançılıq qırmızı xətlə keçir. Sənətkarın poeziyasında Vətənin, xalqın ümumiləşmiş obrazı zəngin mənbələrlə, qaynaqlarla müşayiət olunur. Xəlil Rza azadlıq idealı ilə poeziyasına bəşəri məzmun gətirib. O, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi ədəbiyyatşünas alim, ictimai-siyasi xadim, milli demokratik hərəkatımızın mücahidi, Azərbaycan poeziyasında görkəmli ədəbi simadır.Azadlığın carçısı, təbliğatçılarından biri olmuşdur ömrünün çox qismini vətəninə xidmət etməklə keçirmişdir. Əsas məqsədi xalqının onlara edilən haqsızliğin fərqinə varmağ idi. Əsərləri ilə azadlığı ön plana çəkmək istəyirdi. Həyatının böyük bir qismini ya-radıcılığa və azadlığa həsr etmişdir. Əsərlərinin əsas mövzusu xalqı oyanışa çağırmaqdır. Davam edir 37, Azadlıq, Vətən, Azadlıq meydanı və s seirlərində öz ideyasını aydınca ifadə etmişdir. Azərbaycan xalqının milli mübarizəsində xüsusi xidmətlərinə görə xalq şairi Xəlil Rza Ulutürk İstiqlal ordeni ilə təltif edildi.

Xəlil Rza Ulutürk azərbaycanın azadlığı təmsil edən şairlərindən olmuşdur. Həyatını azadlığ uğruna yazdığı şeirlər ilə keçirmişdir. Azadlıq onun üçün günəş, ay qədər dəyərli olduğunu hətta həyatından belə daha üstün görürdü. Azadlığ tərəftarı

olduğu üçün SSRİ tərəfindən təqiblərə məruz qalmış və nəticədə həbs olunmuşdur. Lakin burdada öz məqsədindən öz düşüncəsindən dönməmişdir.

Xəlil Rza Ulutürk. "Azadlıq həsrəti"

Sən demə azadlıq aymış günəşmiş,
O aya o günə həsrət qalmışam.
Həyat səsli küylü bir keşməkeşmiş,
Doğma səsə ünə həsrət qalmışam.
Ruhum meydanlara sığmayan alay,
Üç rəngli bayrağım qalx ucal haray.
Öpsün tellərini Xəlil, günəş, ay,
Mən sənin üzünə həsrət qalmışam.
Uzaq diyardayam daş qəfəsdəyəm,
Bir vətən ləhinə teşnə həstəyəm,
Mənə görüş verin səfər üstəyəm,
Balamın gözünə həsrət qalmışam.

Çattırın o gülə gülzara məni,
İtirsən o yerde gəz ara məni,
Qürbəttə qoymayın məzara məni,
Vətən gündüzünə həsrət qalmışam.
Xəlil sən qayasan dərdə dözərsən,
Sən kürsən, xan araz, göygöl xəzərsən,
Yenə o yerləri bir gün gəzərsən,
Demə sən bu günə həsrət qalmışam (Quliyeva, 2021).

Şeirindədə dediyi kimi bu şeiri doğma yerindən yurdundan uzaqda zindanda yazmışdırAzadlığı mudafiə etdiyi üçün zindana atılmışdır. O şeirində dediyi kimi artıq vətənin ucaldığı azadlığını ələ aldığı günləri səbirsizliklə gözləyir. Hər zaman vətən eşqiylə cosğunluğu ilə dolub daşırdı qəlbi. Tək arzu və istəyi öl-

mədən vətənini ucada, zirvədə, azad görmək idi (Quliyeva, 2021).

Xəlil Rza Ulutürk. “Azadlıq”
Azadlığı istəmirəm
Zərrə-zərrə, qram-qram
Qolumdakı zəncirləri qıram gərək
Qıram! Qıram!
Azadlığı istəmirəm
Bir həb kimi, dərman kimi
İstəyirəm səma kimi,
Günəş kimi,
Cahan kimi:
Çəkil, çəkil ey qəsbkar:
Mən bu yurdun gur səsiyəm:
Gərək deyil sısqa bulaq,
Mən ümmanlar təşnəsiyə(Quliyeva,2021).
Artıq şair azadlığı bir istək olaraq deyil, bir tələb olaraq istəyirdi. Onun tək istəyi ummanı, qayəsi vətənini azad görmək idi. O xalqı hər daim oyanışa təşvik edirdi. Azadlığın ona bir hava, su kimi vacibliyini öz seirlərində vurğulayır. Xəlil Rza Ulutürk coşğun vətənsevər, azadlıq eşqi ilə yanıb tutuşan, ən gözəl vətən, azadlıq şeirlərinin carçısıdır. O,bütün varliği ilə xalq hərəkatına qoşulmuşdu, həryerdə rus şovinist siyasətini, Dağliq Qarabağ torpağına təcavüz edən erməni daşnaklarını odlu-alovlu çıxışlar ilə ifşa edirdi.
Biz Türküstan elləriyik,
Qeyrət, qüdrət selləriyik.
Daşnakları qovan bizik,
Dar gözləri ovan bizik.
Yetər meydan suladılar,

Yurdumuzu taladılar.
Bakımızı əzizləyək.
Əqrəblərdən təmizləyək!
Şöla versin bu lal, marcan -
Ermənisiz Azərbaycan!(Quliyeva,2021).

Azərbaycanı ancaq bu vəziyyətdən xilas edə biləcək qüvvəni vətən oğullarının hünərində görürdü. Azərbaycan xalqına yalnızca bir şair olaraq yardım və ruhlandırıcı danışıqlar aparmayıb . O həmdə öz oğlunu bu müharibə meydanında döyüşdə yalnız vətən azadlığı olaraq deyil, həmdə mənəvi azadlığımızı qorumağ uğrunda oğlunu itirir. 31 yanvar 1992-ci il müharibəsi Təbriz Xəlilbəylinin son döyüşü idi. Şuşanın mühasirəsində Daştaltı əməliyyatı zamanı həlak olub. Artıq qəlbində daha böyük hiddətlə yazıb yaymağa başlayır. Şsair öğluyla qürur duyduğunu şeirlərindədə dilə gətirir.

Özündə bilmirsən öz qiymətini,
Döyüş səngərimsən, qalamsan mənim
Bir evin qeyb olmuş məhəbbətini
Minevə qaytaran balamsan mənim
Ən böyük sevincsən,ən müqəddəs qəm
Məni od içinə atan Təbrizim.
Üzünə baxanda balam deyirəm,
Adını çəkəndə atam Təbrizim!
Bir səhər, bir günəş var mənzilimdə,
Qoy dünyalar bilsin nəçisən kimsən.
Kiçik mənzilimdə, dar mənzilimdə,
Sən ucsuz-bucaqsız məmləkətimsən.(Quliyeva,2021).

Onun poeziyasının kökü, mayası Vətən eşqi, torpaq və dünya ilə bağlıdır. Görkəmli şair yazırdı: “Bizim birinci borcumuz yer kürəsini qorumaqdır. Yer kürəsindəki sonsuz gözəllikləri, Füzulinin və Şekspirin yaratdığı poeziya kəhkəşanlarını, İbn Sinanı

qorumaqdır. Bütün təfəkkür korifeylərinin ürəyindən, gözlərindən süzülən ədəbi işığı qorumaq bizim borcumuzdur... Biz öz qüdrətli əllərimizi sərhədlər, okeanlar üzərindən uzadıb bir-birimizi salamlamalı, öz qəlbimizin qərarını qəti bildirməliyik. Yaşasın xalqların azadlıq idealı!"

Xəlil Rza coşğun vətənpərvər kimi tez-tez ön cəbhə bölgələrində, məktəb və mədəniyyət ocaqlarında, görüşlərdə çıxışlar edib şerlər oxuması, narahat həyat tərzi, yaradıcılıqla ciddi məşğul olması onu yorğun hala saldı vəziyyətini ağırlaşdırdı. 1994-cü il iyunun 22-də gözünü dünyaya birdəfəlik yumdu. Azərbaycan xalqının milli mübarizəsində xüsusi xidmətlərinə görə Xalq şairi Xəlil Rza Ulutürk (ölümündən sonra) "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Qaynaqlar

1. Quliyeva, Pəri. (2021, dekabr). Sevinc Xəlilbəyli ilə müsahibə.
2. Ulutürk Xəlil Rza "Ayla günəş srasında" 2014, Bakı: Nəşriyyat
3. Davam edir 37. Bakı: Gənclik, 1992, 528 səh.

THE CREATİVİTY OF KHALİL RZA ULUTURK

Pari GULİYEVA

Abstract

From time to time, Azerbaijani intellectuals have appealed to the idea of Azerbaijanism in their work. People's poet Khalil Rza Ulutürk is especially noteworthy in this area. Khalil Rza Ulutürk's independence poets have historical significance in the army of intellectuals fighting for their ideal. In the national ideal of the national poet Khalil Rza, Azerbaijanism crosses the red line. In the artist's poetry, the generalized image of the Motherland and the people is accompanied by rich sources. Khalil Rza brought human content

to his poetry with the ideal of freedom. He is a prominent representative of Azerbaijani literature, literary scholar, socio-political figure, mujahideen of our national democratic movement, a prominent literary figure in Azerbaijani poetry. His main goal was to make his people aware of the injustice done to them. He wanted to highlight freedom with his works. He devoted much of his life to creativity and freedom. The main theme of his works is to call people to awakening. Continues 37, clearly expressed his idea in the poems Azadlig, Vatan, Azadliq Square, etc. People's poet Khalil Rza Uluturk was posthumously awarded for his special services in the national struggle of the Azerbaijani people.

Açar sözlər: Xəlil Rza Ulutürk**,** yaradıcılıq, ədəbiyyat,

EXPRESSION OF THE BLUE COLOUR SPECTRUM IN WORD COMBINATIONS AND IDIOMS

Ramida AZİZOVA,
Ganja State University, bachelor,
Supervisor:Hajiyeva Urqiyya

The article deals with ways of expressions of the colour blue and its respective spectrum in daily use in word combinations and idioms. Based on observations and researched linguistic facts, it can be concluded that the emergence of phraseological combinations with color names in the English language, phraseology in the broadest sense, is more productive.

Color names form a complex system in each language, and each language system has its own characteristics. These features are directly related to the differentiation and naming of their shades. Color names are one of the least studied fields in linguistics. In different dictionaries and works devoted to the analysis of the literary text, one can find ideas about the names of colors and their different shades of meaning.

T.T. Pashaleshvili, V.A. Moskovich and others engaged in this field spoke about the study of color names and their shades. In addition, the research of Kh. Isazadeh, who studied the semantic field of color names in Russian, Azerbaijani, Lezgi and English, is also noteworthy. Scientific works devoted to the study of the characteristics of color names in both English and Azerbaijani have touched upon this issue, albeit for a reason, but they have not been the subject of comparative research. Therefore, based on the materials of the English and Azerbaijani languages, there is always a need for extensive research of color names, their semantic-structural analysis.

The study of lexical-semantic meanings of words denoting color has aroused great interest. In the analysis of existing word symbols are considered only as one or another unit of color, which helps to study their lexicalsemantic features. Color names are one of the few word categories that are considered useful materials for studying semantic fields and vocabulary systematics. The study of color words has always been of interest in linguistics.

Idioms should also be used with care and caution, taking into account that they can be used to express the attitude of the person using them in any situation, the person's anger, sense of humor, and so on.

Based on observations and researched linguistic facts, it can be concluded that the emergence of phraseological combinations with color names in the English language, phraseology in the broadest sense, is more productive:

1. Blue Blood; a member of a rich family; a person of noble birth.(əsabəli,nəsli geniş) Ex: That senator is a blue blood, so of course he doesn't understand the common man's concerns.

2. Blue Collar; the working class; doing manual labor (ofis işçisi). Ex: Blue collar workers have always been an important part of our economy.

3. Once in a Blue Moon; something that rarely happens.(nadir hallarda) Ex: Peter only comes out for a drink once in blue moon now that he has kids.

4. Into the Blue; to disappear; to be out of sight (yoxa çıxmaq,itmək). Ex: I have no idea where my keys have gone. They seem to have disappeared into the blue!

5. Blue Hair; an elderly woman (yaşlı qadın). Ex: I'm always surrounded by blue hairs at the podiatrist's office—I'm the youngest one there by about 50 years.

6. To Feel Blue; to be depressed; to feel sad (kədərlənmək,kefsiz olmaq) . Ex: I have been feeling blue lately, but I think it's just because of this gloomy weather we've been having.

7. Blue and White; the police (polis). Ex: A blue and white suddenly appeared, and I knew we were finished.

8. To Be in a Blue Funk; to be in a panic or to be in an extremely anxious state (qorxu içində olmaq,kefsiz olmaq). Ex: I'm taking Don out tonight because he's been in a blue funk since his wife left him.

9. A Bolt out of the Blue; something that happened unexpectedly, suddenly (heç gözlənməyən bir iş). Ex: We always thought of Michael as a life-long bachelor, so it was a bolt out of the blue when he returned from his vacation sporting a wedding ring!

10. Out of the Clear Blue Sky; something totally unexpected; out of nowhere (tamamilə gözlənilməz bir şey). Ex; You need to work hard—opportunities don't just appear out of the clear sky.

11. To have a blue fit; to be angry (çox əsəbiləşmək). Ex: Don't have a blue fit—I wasn't trying to insult you. His little girl had a blue fit when he told her she couldn’t buy that toy.

12. Like blue blazes; to be great degree; a lot (son dərəcə,çox). Ex: Her newest record has been flying off the shelves like blue blazes.

13. True blue; a person who is loyal, faithful (sadiq,güvənilir). Ex: Her true-blue fans have continued to support her, even during this scandal.

14. Cry blue murder; to scream or shout very loudly (qışqırmaq). Ex: Please stop crying blue murder across the house. If you want to talk, go to the same room.

15. To be blue around the gills; Someone who looks sick; possibly wanting to throw up (xəstə görünmək). Ex: Are you okay? you look a little blue around the gills. Yes, I think I just need some fresh air.

In separate dictionaries and works devoted to the analysis of the literary text, one can find certain ideas about the names of colors and their different shades of meaning. Color names form a complex system in each language, and each language system has its own characteristics.

Thus, the color spectrum is a field of thought, but the specific significance of color terms in this or that language system is determined by the expression of a small part of the color spectrum in the given words.

Reference

1. BABAYEV, A. (1992). *Dilçiliyə giriş*. Bakı: Yazıçı
2. HORNBY, A.S.(2005) *Oxford Advanced Learner's Dictionary.* Oxford: Oxford University Press
3. ŞİRİYEV, E.C. (2008) *İngiliscə-Azərbaycanca lüğət*. Bakı:Qismət
4. WRİGHT, Jon. (1999). *Idioms Organiser,* Boston:Thomson Place

EXPRESSION OF THE BLUE COLOR SPECTRUM IN WORD COMBINATIONS AND IDIOMS

Ramidə ƏZİZOVA

Abstract

Məqalədə mavi rəngin ifadə üsulları və onun müvafiq spektri gündəlik istifadədə söz birləşmələri və deyimlərdən bəhs

edilir. Müşahidələr və tədqiq olunan dil faktları əsasında belə qənaətə gəlmək olar ki, ingilis dilində, geniş mənada frazeologiyada rəng adları ilə frazeoloji birləşmələrin yaranması daha məhsuldardır.

Açar sözlər: rəng,mavi rəng.

QEYRİ-HETEROSEKSUAL ORİENTASİYAYA SAHİB FƏRDLƏRİN PSİXOPATALOJİ HALLARININ TƏDQİQİ

Ramin İSMAYILOV,
Xəzər Universiteti, magistrant,
Elmi rəhbər: Sevinc Allahyarova

Homo və biseksualların affektiv pozuntular, riskli davranışlar və suisidal davranışlarının ifadəlilik dərəcəsi haqqında geniş məlumatlar var (Hatzenbuehler vd., 2010: 452; Kann vd., 2011: 35). Bir çox tədqiqatçılar bu fərdlərdə yaranan psixoloji çətinliklərin onların seksual orientasiyaları ilə yox, sosial təzyiqin nəticələri ilə əlaqələndirirlər (Кон, 1998: 35; Строкова, 2013: 83; Нагорная, 2009: 24). Homoseksual və biseksual qrupların ən həssas qruplarına 12-20 yaş aralığındaki yeniyetmələr və gənclər aid edilir (Kann vd., 2011: 14; Russel və Joyner, 2001: 1279; Rothman vd., 2012: 193).

Homoseksuallıq və biseksuallıq haqqında mənfi düşüncə qəlibləri, bu fərdlərin xüsusəndə yeniyetməlik yaş dövründə pozitiv ego-identiklik formalaşdırmaqlarına çətinlik yaradıb, gənc insanların stiqmatizasiyasına və marginalizasiyasına gətirib çıxara bilər.

Diskriminasiya olunmuş qanunların qeyri-heteroseksual orientasiyalı insanların psixikasına təsiri ilə bağlı məlumalatlar var. M.L. Hatzenbuehler və həmkarları eynicinsli evliliklərin icazə verildiyi və verilmədiyi ştatlarda yaşayan qeyri-heteroseksual fərdlərin psixi sağlamlıq nəticələrini müqayisəsi etdi. Nəticələrə əsasən, eynicinsli evliliklərin qadağan olunduğu ştatlarda homo və biseksual fərdlərdə əhval-ruhiyyə pozuntula-rı, generalizasiya olunmuş təşviş pozuntuları, alkoqol asılılığı və digər əlaqəli psixi xəstəliklərə daha tez-tez rast gəlinir. Bu qa-

nunun qaldırıldığı ştatlarda, xəstəliklərin yayılma səviyyəsi heteroseksuallar arasında yayılma səviyyəsindən əhəmiyyətli səviyyədə fərqləmir. Avtorlar hesab edirlərki instutisional diskriminasiyanın olduğu sosial mühit homo və biseksual fərdlərin psixi sağlamlıqlarına mənfi təsir edir (Hatzenbuehler vd., 2010: 455).

R.Johnson və həmkarları ABŞ və Avropa kolleclərinin homoseksual və biseksual tələbələrinin psixi sağlamlıqlarını analiz edirlər. (Johnson vd., 2013). Onlar iddia edirlər ki, homo və biseksual yeniyetmələr heteroseksual yaşıdlarına nisbətdə, daha çox ailə və dostlarının onlardan imtinası və fiziki və verbal zorakılıqla qarşılaşırlar. Onlar tez-tez könüllü (coming out) və ya məcburi (outing) seksual orientasiyasının üzə çıxarılmasından sonra builliq və təqiblərə məruz qalırlar. Bu ona gətirirki hətta zorakılıq görməmiş şəxslərdə kampusa köçərkən seksual orientasiyalarının bilinəcəyindən qorxub öz təhlükəsizliyi üçün narahat olurlar. I.S. Konun verdiyi məlumatlara görə 20-35% homoseksual oğlanlar intihar cəhti edirlər (Кон, 1998: 155). L. Kann və yoldaşları 2011-ci ildə IX-XII siniflərin sağlamlıqları haqqında məlumatları analiz etdilər. Müəyyən olundu ki, öz cinsinə meyilləri olan və ya özünü homoseksual və ya biseksual kimi identifikasiya edən şagirdlərin suisidal riskləri daha çoxdur. Onlar heteroseksual yaşıdları ilə nisbətdə daha çox riskli davranışa meyilli, həmçinin zorakılıq və cinsi yolla keçən xəstəliklərə daha gec yardıma müraciət edirlər (Kann vd., 2011: 9).

J. Davies iddia edirki yeniyetmələrin və gənclərin çoxu özündə homoseksual meyl aşkarlayıb və homoeksual davranış realizasiya etdikdə, stress yaraşırlar. Bu tip stresdən yalnız homo və biseksual şəxslər əziyyət çəkmir. Beləki, 20-30% oğlanlar və 5-10% qızlar homoseksual təcrübə yaşayıblar. Bir çox insan

üçün seksuallıq yekün bir şey olmayıb həyatı boyu dəyişə bilər (Дейвис,2001; 224). Seksual identifikasiya prossesi həm homo və bi həmdə heteroseksual gənclər üçün sosial təzyiq altında çox çətinləşə bilər. Sekseual orientasiyanın davamlı olaraq gizlədilməsi davamlı psixi güc tələb edir, hansıki sonda güvənli münasibətlərin qurulmasında çətinliyə, koqnitiv funksiyaların enməsinə, psixi və fiziki sağlamlığın pisləşməsinə gətirib çıxarır (Critcher və Ferguson, 2014: 721).

Qeyri-heteroseksual fərqlədə psixopataloji hallarının tədqiqi ilə bağlı tədqiqat apardıq, 85 heteroseksual, 11 homoseksual, 26 biseksual olmaqla, ümumilikdə 120 tədqiq olunanın nəticəsini əldə etdik. Əsas fərziyyəmiz belədir ki, qeyri-heteroseksual orientasiyaya (homoseksual və biseksual) sahib fərdlərdə yaşadıqları sosial təzyiq əsasında təzahür edən psixopataloji pozuntular, heteroseksuallara nisbətən əhəmiyyətli dərəcədə fərqlənir.

Tədqiq olunanların psixopataloji hallarının təyini üçün «Qısa simptom testi» (QST), sosial təzyiqin səviyyəsini təyin etmək üçün 13 bənddən ibarət olan «stiqmatizasiya» soğrusu işlədilmiş və könüllü şəkildə şəxsi məlumatlar alınmışdır.Tədqiq olunanların 59%-i qadın, 41%-i kişidir, onlardan 93,3%-i ali təhsilli, 5,8%-i orta/orta ixtisas, 0,8%-i natamam təhsillidir. Tədqiq olunanların 90,8%-i Bakı və ətraf şəhərlərdə, 9,2%-i rayon və digər bölgələrdə yaşayır.

Stiqmatizasiya sorğumuzun nəticəsinə görə tədqiq olunanların 8%-i (10 nəfər) sosial təzyiqə məruz qalır. Bunlardan 1 şəxs (10%) heteroseksual, 3 şəxs (30%) biseksual, 6 nəfər (60%) isə homoseksual şəxslərdir.

Qısa simptom testi əsasında aldığımız nəticələr, qeyri-heteroseksual fərqlərdə somatizasiya, həssaslıq, təşviş, düşmənçilik hisləri, fobik narahatlıqlar, paranoid narahatlıqlar və psixo-

tizm kriteriyalarının heteroseksual fərdlərə nisbətən yüksək olduğunu görürük.



Şəkil 1.1 QTS-də qeyri-heteroseksual və heteroseksual fərdlərin müqayisəli nəticəsi.

Hipotez öz təstiqini taparaq, qeyri-heteroseksual fərqlərdə daha çox psixopataloji halların müşahidə olunduğunu eksperimental üsülla sübut etdik.

Qaynaqlar

1. CRİTCHER, C.R., & FERGUSON, M. J. (2014). The cost of keeping it hidden: Decomposing concealment reveals what makes it depleting. *Journal of Experimental Psychology: General*, 143(2), 721–735.
2. HATZENBUEHLER, M. L., MCLAUGHLİN, K. A., KEYES, M., KATİE, A., KATHERİNE, M., & HASİN, D.S. (2010). The impact of institutional discrimination on psychiatric disorders in lesbian, gay, and bisexual populations: a prospective study. *American Journal of Public Health*, 100(3), 452–459.
3. JOHNSON, R. B., OXENDİNE, S., TAUB, D. J., & ROBERTSON, J. (2013). Suicide prevention for LGBT students.

New Directions for Student Services. Special Issue: Preventing College Student Suicide, 141,55–69.

4. KANN, L., O'MALLEY OLSEN, E., MCMANUS, T., KİNCHEN, S., CHEYN, D., Harris, W. A., & Wechsler, H.(2011). Sexual identity, sex of sexual contacts, and health-risk behaviors among students in grades 9–12 – Youth Risk Behavior Surveillance, Selected Sites, United States, 2001—2009. *Surveillance Summaries*, 60(SS07), 1–133.
5. ROTHMAN, E. F., SULLİVAN, M., KEYES, S., & BOEHMER, U. (2012). Parents' supportive reactions to sexual orientation disclosure associated with better health: Results from a population-based survey of LGB adults in Massachusetts. *Journal of Homosexuality*, 59(2), 186–200.
6. RUSSELL, S. T., & JOYNER, K. (2001). Adolescent sexual orientation and suicide risk: Evidence from a national study. *American Journal of Public Health*, 91(8), 1276–1281.
7. ДЕЙВИС, Д. (2001). Психотерапевтическая работа с молодыми людьми. В кн. Д. Дейвис и Ч. Нил (Ред.), *Розовая психотерапия. Руководство по работе с сексуальными меньшинствами* (с. 222–249). СПб.: Питер
8. КОН, И. С. (1998). *Лунный свет на заре. Лики и маски однополой любви.* М.: Олимп, 35-155
9. НАГОРНАЯ, Н.П.(2009). «Стресс меньшинства». В кн. Л. ГЕЙДАР (сост.), М. Андрущенко (Ред.), *Социальная работа с людьми, практикующими однополые сексуальные отношения: Теория.Методики. Лучшие практики* (с. 24–26). Киев: Международный Альянс по ВИЧ/СПИД в Украине.
10. СТРОКОВА,С.С.(2013) .Изменение модели гомосексуальности в психодинамическом подходе (обзор зарубежных исследований). *Современная зарубежная психология*, 2(3), 81–92.

STUDY OF PSYCHOPATHOLOGICAL CONDITIONS OF INDIVIDUALS WITH NON-HETEROSEXUAL ORIENTATION

Ramin ISMAILOV

Abstract

Homosexual and bisexual people under the influence of stigmatization and internal conflict are more likely to suffer from psychopathological disorders than heterosexual people. Experimentally, we have proved this and determine which psychopathologies homosexual and bisexual people suffer from more often than heterosexual people.

Key words: homosexual, bisexual, heterosexual, psychopathological disorder, social pressure

TÜRKLƏRDƏ ÖLÜM MƏLƏYİ

Ruhiyyə HÜSEYNZADƏ
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dr.Aynur Qəzənfərqızı

İnsan yaradıldığı və həyatı dərk etdiyi gündən həmişə ölməzliyə can atmışdır.Müqəddəs kitablarda ölüm və ölüm mələyi ilə bağlı bir çox anlayışlar var.Ölüm dedikdə ağla ilk gələn ölüm mələyi əzrail olur.Məsələn Dədə Qorqud dastanında Dəli Domrul ölüm mələyi Əzrailə qarşı döyüşür.

"Dədə Qorqud" dastanı türk dünyası üçün önəmli abidələrdən biridir.Buradan türklərin həyat tərzi, tarixi, mədəniyyəti haqqında məlumatı əldə etmək mümkündür. Həmçinin bu dastanda Türklərin ölüm mələyi Əzrailə qarşı münasibətini də görə bilərik.

"Kitabi Dədə Qorqud "dastanının "Dəli Domrul Boyu"da və qumuq folklorunun "Cavat bıy" yırında bu mövzu haqqında söhbət açılır. "Dəli Domrul boyu"nda dastanın qəhrəmanı Dəli Domrul bir igidin öldüyünü öyrəndikdə "ölümün səbəbkarı" Əzraili axtarıb onunla döyüşmək istəyir. Dəli Domrul "bir topa insanın" ağlaşdığını görüb onlara yaxınlaşır və nə baş verdiyini soruşur. Əvəzində isə "Xanım ,bir yaxşı yigidimiz öldi,ana ağlarız... Allah Təaladan buyruq oldu,Al qanatlu Əzrail ol yigidin canını aldı"(Kitabi Dədə Qorqud,1988:70) - deyirlər.Dəli Domrul "Mərə,Əzrail dedigüniz nə kişidir ki, adamın canını alur?(Kitabi Dədə Qorqud ,1988:70). Burada diqqəti çəkən nüanslardan biri də Dəli Domrulun Əzrailin can aldığını bilməməsidir.

Bundan başqa biz ölüm motivini "Bilqamış" dastanında da görürük.Dastanda yoldaşı Enkidunun öldüyünü görən Bilqa-

mış özünün də öləcəyini düşünüb,ölümsüzlüyü axtarır: “Mən ölməyəcəmmi? Mən də Enkidu kimi ölməyəcəmmi? Ürəyimi hüzün aldı. Mənə ölüm qorxusu gəldi. İndi səhraya qaçıram.Ubar -Tutuşun oğlu Utnapiştimə getmək üçün yola düşdüm. Oraya gedirəm.”(Ramazanlı ,1998:19)

Belə ki,İslam dinində Allahın mərhəmətli və bağışlayan olduğu məlumdur.(Kurani Kerim.1996:49). Maraqlıdır ki,-Türklər İslamı təxminən 1000 ilə yaxın bir zamandır ki,qəbul etmişlər.Bununla belə aradan keçən yüzilliklər insanların ölüm mələyi haqqında təsərüatlarını dəyişə bilməmişdir. Ölüm insanların təsəvvüründə İslamdan öncəki vəziyyətdə qalıb.(Aynur Qəzənfərqızı,2018)

Dastandakı Allah fərqlidir.O,məkrlidir,kinlidir.Məsələn, “Haq Taalaya Domrulun sözi xoş gəlmədi... Əzrailə buyruq elədi ki, ya Əzrail ,var dəxi o dəli qavatın gözünə görünğil, bənzini saratğıl,-dedi,ağlını canını xırlatğıl,alğıl- dedi”.(Kitabi Dədə Qorqud,2000:42).Deməli Allah qisas almaq istəyir,Allah kinlidir.

Dəli Domrulun və onun ətrafındakıların Allah haqqında təsəvvürü ibtidaidir.Şamanizmdəki Tanrılara daha yaxın xarakterlidir.Elə Dəli Domrulun ölüm mələyi ilə savaşmaq istəməsinin kökü də G.Yoloğlunun fikrincə ,şamanizmlə bağlıdır.Çünki ,Şamanlar dünyanın üç yerə bölündüyünü düşünürdülər:göy,yer,yeraltı aləm.Yer altında olan Erligin gücündən qorxan şamanlar hədə-qorxu gələrək onu öldürməkdən,can almaqdan çəkindirməyə çalışırlar.(Yoloğlu,1996:18)

Türk mifologiyasında Ölüm mələyinin görünüşü haqqında təsəvvürlər də olduqca maraqlıdır.Belə ki,Əzrail əsasən,ya quş şəklində ,ya ağsaqqalı qoca,ya ilan şəklində təsəvvür olunur. Məsələn, Dəli Domrul boyunda : “Al qanatlu Əzrail,ol yigidin canunu aldı” (Kitabi Dədə Qorqud,(1988:79)

Dəli Domrulda : “Əzrail bir gögerçin oldu,pancaradan uçdu getdi.(Əzrail göyərçinə çevrilərək ,pəncərədən çıxdı.) (Kitabi Dədə Qorqud.2002:75).

Bundan başqa ,Əzrail saqqalıdır. “Saqqalım ağardığını nə begenməzsən? Ağ saqqalı,qara saqqalı yiğitlərin canını çox almışam.”(Kitabi Dədə Qorqud,2000:75). Bu mələyə xas xüsusiyyət deyil.Çünki,İslamda mələklər qocalmır və ya yenidən cavanlaşmır. Bu xüsusiyyətlər insana xasdır. Maraqlısı odur ki,Dəli Domrul dastanında İslama dair motivlər mövcuddur. Məsələn, “üzü qıvlaya”, “dostomaz almaq”.

Mən belə nəticəyə gəldim ki,türklərdə ölüm mələyi Əzrailə qarşı münasibət fərqli olub. Onlar Əzrailə qarşı mübarizə aparırılar.Əzrailin yox,Allahın onların canını almasını istəyirlər.

Mənbələr:

1. ALTUNTAŞ, Halil.(2011). *Kurani Kerim.* Ankara*:*Yenigün .
2. ƏLIBƏYZADƏ, Elməddin. (1988). *Kitabi Dədə Qorqud.* Bakı:Yazıçı.
3. ƏLIYEV, Məmməd. (2000). *Kitabi Dədə Qorqud dastanı.* Bakı.Çayoğlu .
4. HACIYEV, Tofiq. (2002). *Kitabi Dədə Qorqud.* Bakı.Öndər nəşriyyatı.
5. QƏZƏNFƏRQIZI, Aynur. (2018). *Azərbaycan qumuq folklor əlaqələri* .Baki:Elm.
6. RAMAZANLI, Mustafa. (1998). *Gilgamış destanı.* Tercüme ve açıklamalar. https://www.achiq.info/pitikler/Gilgemish_Destani-Tercume_Ve_Achiqlamalar.pdf
7. YOLOĞLU, Güllü.(1996). *Türklərdə mərasimlər*. Baki:Atmaca-Şirzad.

DEATH ANGEL IN TURKS

Ruhiyya HUSEYNZADEH

Abstract

From the day man was created and understood life, he has always aspired to immortality. There are many concepts related to death and the angel of death in the holy books. When we think of death, the first angel of death that comes to mind is Azrael. For example, in the Deda Gorgud epic, Deli Domrul fights against the angel of death Azrael. This will be discussed in detail in the article.

Key words: azrael, death angel, turkic mythology

POSTMODERNİZM POETİKASINDA RİZOM

Səbinə AĞABABAYEVA,
Bakı Slavyan Universiteti, doktorant,
Elmi rəhbər: prof. Rəhilə Quliyeva

XX əsrin ikinci yarısından etibarən təzahür edən postmodernizmi demək olar ki, humanitar fikrin bütün sahələrində - ədəbiyyat, teatr, musiqi, kino, memarlıq, dəb və s. izləmək mümkündür. Meydana gəldiyi vaxtdan etibarən ətrafında mübahisələrin hələ də səngimədiyi postmodernizm çağdaş dövrün ən aktual problemlərindən biri kimi dəyərləndirilir. Aparılan araşdırma və tədqiqatlara əsasən qeyd etmək olar ki, postmodernizm mürəkkəb, qeyri-müəyyən, birmənalı şəkildə qəbul edilməyən anlayışdır. Konseptual terminin bu anlayışın dəqiq mənasına, yəni postmodernizmin konkret olaraq nəyi ifadə etməsinə aydınlıq gətirməsi gözlənilsə də, ümidlər hələ də doğrulmur. Bunun səbəbi isə aydındır. Belə ki, dəqiq elmlərə nisbətdə sosial və humanitar fikirdə anlayışlar nisbi məna daşıyır. Həmçinin eyni konsepsiya fərqli şəkildə başa düşülsə də, onun mənasını daha aydın və dəqiq izah etmək əvəzinə, yalnız mənanı genişləndirmək üçün yenidən nəzərdən keçirirlər. Postmodernizm məhz bu tipli anlayışdır.

Postmodernizm əsasən modernizmə münasibətdə şərh edilir. “Həm postmodernizm, həm də onun nəzəri dərki bir çox cəhətdən ənənəvi olaraq “modernist” kimi xarakterizə olunan dünyagörüş konsepsiyaları arasında müşahidə olunan müəyyən “epistemoloji qırılma”nın təsiri altında formalaşmışlar” (URL-1. Quliyev, 2016). Modernizmin fikir və nəzəriyyələrinin yenidən gözdən keçirilməsi, bəzən isə tamamilə rədd edilməsi fikri postmodernizmi xarakterizə edən əsas xüsusiyyətdir. Eyni zamanda postmodernizmin “modernizmdən sonrakı” dövrə aid ol-

ması bu anlayışı müəyyən etməkdəki bütün çətinliklərə baxmayaraq ən vacib, ən mühüm faktordur. Aparılan araşdırma və tədqiqatlarda postmodernizmin özünü "modern" olmadığı həqi-qətinə görə müəyyən etdiyi fikri üstünlük təşkil edir.

Ədəbiyyatda postmodernizm dil oyununun qeyri-məhdud imkanları ideyasını özündə ehtiva edir. Postmodernistlər ədəbiyyatı xarakterik ictimai hadisələri vicdanla əks etdirən həyat tablosu kimi deyil, həm reallıq, həm də sözlə oyun kimi dərk edirlər. Postmodernist ədəbiyyatda həyat faciələrin belə sanki rituallara uyğun təkrarlandığı, varlıq və səbəb haqqında şablon anlayışların əsarətində olan insanların bir növ ətalətdə olduqları qapalı bir dairə kimi təqdim olunur. Bu baxımdan professor Rəhilə Quliyevanın fikirləri maraq doğurur. Rəhilə Quliyeva yazır: "Postmodernizm ədəbiyyatda yeni dövrün mədəniyyəti nəhayət, dünyanı izah etmək üçün təkcə rasional sistemlərdən (əvvəllər mövcud olan) deyil, həm də zehnin qanunvericilik funksiyalarından imtina etdiyi zaman meydana çıxdı" (Кулиева, 2017: 93).

Mürəkkəbliyi, qeyri-müəyyənliyi, eləcə də mənasızlığı ilə xarakterizə olunan postmodern mətnləri ənənəvi təhlilin predmeti kimi götürmək demək olar ki, qeyri-mümkündür. Çünki postmodernizm üslubunda yazılmış əsərlər klassik süjet və kompozisiyadan tamamilə uzaqdır. Postmodernizmə xas terminlərin öyrənilməsi bu mətnləri anlamaqda açar rolunu oynayır və postmodern poetikada mühüm əhəmiyyət kəsb edir.

Rizom postmodernizm terminləri içərisində xüsusi rol oynayır. "Rizom (fransızcadan rhizome – çoxşaxəli kötük) J.Delöz və F.Qvattari tərəfindən irəli sürülən anlayış; qapalı olmayan, strukturlaşdırılmamış, iyerarxiyalaşdırılmamış, əhəmiyyətli olmayan, mərkəzləşdirilməmiş mərkəzə malik hərəkətli, bütün (şərti) nöqtələri qeyri-xətti əlaqələrlə bir-birinə bağlanmış

sistem” (URL-2. Скоропанова, 2005). Rizom üfüqi istiqamətdə inkişaf edən, pöhrələrini formasız şəkildə yanlara doğru uzadan yeraltı kökdür. Ağacda olduğu kimi əsas qalın kök deyil, saysız-hesabsız nazik, budaqlanmış, eləcə də dolaşıq köklər rizomun əsasını təşkil edir.

Postmodern ədəbiyyatda rizom mətndə struktur və xəttin klassik prinsiplərini rədd edən tədqiqat üsulu kimi qiymətləndirilir. XX əsrin yetmişinci illərində postmodernizm estetikası tərəfindən incəsənətdə və onun öyrənilməsində düz xəttli klassik struktur prinsiplərinə arxalanan təhlil üsullarından imtina edilir. Bu nəzəriyyə Jil Delöz və Feliks Qvattari tərəfindən 1976-cı ildə yazılan “Rizom. Ön söz” («Ризома. Введение») kitabında əksini tapır. Jil Delöz və Feliks Qvattari bu dövrdə iki mədəniyyət növünü xüsusi olaraq vurğulayırdılar. Bunlardan birincisi klassik nümunələrə meyl edir və hələ yunan dövründə təməli qoyulan mimesis prinsipindən ilhamlanır. Belə olan halda incəsənət təbiəti təqlid edir. Bu incəsənətin rəmzi özündə dünya obrazını təcəssüm etdirən “ağac” hesab olunur. Kitab bu “ağac”la bağlı bədii dünyanın təcəssümüdür. Bu təcəssüm sayəsində dünya xaosu estetik kosmosa çevrilir. “J.Delöz və F.Qvattariyə görə “ağac”lı mədəniyyət tipi hələ də mövcuddur, lakin gələcəyi yoxdur” (Постмодернизм: энциклопедия, 2001: 660). İkinci mədəniyyət növü gələcəyə istiqamətlənmiş, vahid kodu olmayan və özəksiz “çoxşaxəli kötük” (rizom) mədəniyyətidir. Mərkəzdən və vahid koddan məhrum “rizom” hərəkətliliyi və dəyişkənliyi ilə seçilir. Bir sözlə, “rizom” mədəniyyəti ifrat dərəcədə mobil və variativdir. Bu mədəniyyətin təcəssümü postmodernizm incəsənətidir. Postmodernizmdə dünya xoasdur və belə olan halda kitab estetik kosmosa yox, xaosmosa, ağaca yox, məhz çoxşaxəli kötüyə (rizom) çevrilir.

Postmodernizmdə dünya başlanğıcdan və sondan məhrum qarmaqarışıqlıq və xaosun hökm sürdüyü aləm kimi təsvir olunur. Bu dünyada mətnlər də sanki hörümçək toru kimi işlənib. Posmodern mətnlər hər hansı qaydalar toplusu çərçivəsindən kənar ərsəyə gəlirlər. Bu baxımdan rizom postmodernizm ədəbiyyatında bir məna labirintidir. Rizom prinsipi ilə yaradılan əsərlərdə düşüncə tamamilə azad olmalı və bu prinsiplə inkişaf etməlidir.

Qaynaqlar

1. КУЛИЕВА, Рагиля. (2017). *Литература в контексте времени. Сборник литературно-критических работ и статей о литературе XIX-XXI веков*. Баку: Мутарджим
2. ГРИЦАНОВ, Александр и Можейко Марина (2001). *Постмодернизм: энциклопедия.* Минск: Интерпрессервис
3. URL-1. Quliyev Qorxmaz. (2016). "Postmodernizm və bədii ədəbiyyat" https://525.az/site/?name=xeber&news_id=65297#gsc.tab=0
4. URL-2. Скоропанова Ирина. (2005). "Мини-словарь постмодернистской терминологии" http://philolog.pspu.ru/module/magazine/do/mpub_6_141

RHİZOME IN THE POETİCS OF POSTMODERNİSM

Sabina AGHABABAYEVA

Abstract

The object of research in the thesis is postmodernism, one of the pressing issues of our time. Postmodernism is manifested in almost all areas of humanitarian thought - literature, theater, music, cinema, architecture, fashion, etc. Works written in this style are distinguished by complexity and uncertainty. Postmodernist works lack traditional plot and composition. The

terms of postmodernism play an important role in understanding postmodernist texts. Therefore, the study of the terms of postmodernism is of great importance in literary criticism. The study of all terms of postmodernism is the subject of more extensive research. On the basis of this idea, the subject matter of research is the rhizome, which occupies an important place in postmodernist poetics. The rhizome proposed by Gilles Deleuze and Félix Guattari is believed to be a labyrinth of meanings in postmodern literature. The rhizome rejects the classical principles of structure and lines in the text.

Key words: modernism, postmodernism, literature, text, rhizome

THE ROLE OF ENGLISH IN CONVEYING THE REALITIES OF KARABAKH to THE WORLD

Shahnaz MAMMADOVA,
Ganja State University, bachelor,
Supervisor: Hajiyevva Urqiya

English is accepted as an international language. As of March 2017, English was the most popular language online, representing 952,1 million world wide internet users . According to estimates from Internet World Stats, roughly 1,5 billion people speak English, of which 1,2 billion are Internet users.(published on February 21, 2022) We conveyed the cries of our people, the tragedies committed in Karabakh, the massacres of Armenian vandals to the people through English. We wanted these murderers to be punished. The Karabahk problem has existed for 30 years. This struggle has been going on for years, not only in the military, but also in the form of debates and interwievs in the international arena. The role of foreign languages, especially English, in conveying the truth about Karabakh to the international community is undeniable.

On march 3,1992, an article about the Khojaly tragedy was published in New York Times(March 3, 1992, Section A, page 3). It provides information about the Armenian massacres. There noted : "*Armenia again fired rockets at the Azerbaijani city of Shusha. The Republic of Armenia reiterated denials that its militants had killed 1000 people in the Azerbaijani–populated town of Khojaly last week and has massacred men, women, and children fleeing the carnage across snow-covered mountain passes.*

Also near Agdam on the outskirts of Nagorno-Karabakh a Reuters photographer, Frederique Lengaigne said she had seen two trucks filled with Azerbaijani bodies. She said: " Some

had their heads cut off, and many had been burned." As well as mentioned that " 4 years of fighting in Nagorno-Karabakh 1500 to 2000 people have been killed. The last week's fighting has been the most savage yet."

An article on the Khojaly tragedy was published on the BBC.com on February 27, 2012. This article is called *Nagorno-Karabakh; Remembering the victims of Khojaly*. According to this article, *more than 600 civilians were killed. In just one night, on February 26,1992 613 Azeri civilians were killed, including 169 women and children.*

It also discusses the tragic fate of one Azerbaijani woman. She fled with her family into a nearby forest. It was there that her husband was shot dead. She survived only because she was conveying her 2-year-old son on her back. As she ran he was shot instead of her. She said still couldn't forget it all. This article notes: " The 1990s war has had catastrophic consequences for Azerbaijan."

During our 44-day glorious Patriotic War. Mr.Commander in Chief Ilham Aliyev often met with correspondents from many countries. Correspondents did not stay away from biased questions. Mr.Commander-in-Chief Ilham Aliyev, thanks to his political knowledge and knowledge of many languages of the world(mainly English), succeeded diplomatically to defend himself and the people of Azerbaijan. At the same time, we succeeded in the war not only diplomatically, but also militarily and politically. During an interview "BBC News" correspondent asks Ilham Aliyev a question; "*Do you intend to fight for every square inch of Nagorno-Karabakh and the surroinding 7 territories*?- Ilham Aliyev answers: " *Our position was very clear from the very beginning. We were ready and we're still ready to stop any time*

when Armenian side will commit itself to the liberation of the occupied territories. And I'm saying this from the very beginning of the war that if Armenian Prime Minister publicly will make a commitment that they will liberate the occupied territories, we will stop. But so far, it's already 40 days and there is no sign of him to say this." The reporter asks: "*Our BBC colleagues have seen that this is not hearsay . They were in Stepanakert and Nagorno-Karabakh on the first, second and third of October. They witnessed random shelling of the town, including at an emergency services center, an apartment block destroyed, as people tried to flee, there was a drone overhead shortly afterwards more shelling nearby. This was witnessed and filmed by the BBC.*" Mr. President answers neatly : "*I doubt this witness, witnessing. I doubt it, that can be fake news. Why would that be fake news, why would any journalist go in there decide to broadcast fake news?- Because of biased approach to the conflict, because of this black propaganda against Azerbaijan in international media. Nobody is asking Pashinyan why he hits with ballistic missile Ganja? Why he killed 92 people? Why is the attack funeral in Tartar? Why they use smerge with cluster bombs to attack Barda killing 21 persons and injuring 70. No one asks him where does he get weapons? Only attack on us, only demonizing Azerbaijan from international media....*" This speech was neat and eloquent and was keen answer to those who accused Azerbaijan of commiting war crime.

During 44-days war Armenia attacked cities that are far from battlefield. One of them was Ganja. Ganja was attacked by scud rockets. Azerbaijan's Presidential aide Hikmat Hajiyev during his visit to ruins of bombarded area in Ganja reported to foreign journalists in English; "*Ganja city is more than 100 kilometers away from the theatre of military operations what*

was the reason to attack the city? What was the reason to attack Mingachevir city of Azerbaijan. There is no military targets. It doesn't have any necessity and no way it can be just justified from the military necessity, but what we see here is just Armenia's purpose to kill civilians. Once again it shows a true face of Armenia. Today we are seeing once again and we are assessing it military crime, crime against humanity and act of genocide against our people and we once again urging the international community to give a proper assessment to be seen crime. And all the responsibility lies on the political, military leadership of Armenia particularly Pashinyan, defense minister Tonayan, ..." His speech was important to convey information about war crime committed by Armenians.

References:

❖ L.Broers Armenia and Azerbaijan. Anatomy of a Rivalry(2009) Edinburgh. Edinburgh University Press.

QARABAĞ HƏQİQƏTLƏRİNİN DÜNYAYA ÇATDIRILMASINDA İNGİLİS DİLİNİN ROLU

Şahnaz MƏMMƏDOVA

Abstract

Beynəlxalq sahədə ilk dil statusunu qazanan, hal-hazırda dünyada diplomatiya, kommersiya və kütləvi informasiya rolunu oynayan ingilis dilini bilmək bizim üçün çox vacibdir. İngilis dili bizə təkcə təhsil sahəsində yox, hərbi sahədədə uğurlar qazandırdı. Bu təqdimatdada Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında İngilis dilinin danılmaz rolu olduğu göstərilmişdir.

Açar sözlər: Ingilis dili, müharibə, Qarabağ həqiqətləri, Xocalı faciəsi, BBC, Gəncə,

AZƏRBAYCAN RESPUBLİKASINDA TƏLƏBƏ GƏNCLƏRİN QARŞILAŞDIĞI SOSİAL PROBLEMLƏRİN HƏLLİ YOLLARI. REALLIQ VƏ PERSPEKTİVLƏR

Səma MƏMMƏDOVA,
Azərbaycan Turizm və Menecment Universiteti, bakalavr,
Elmi rəhbər: dos Cavid Məmiyev

Gənclərin şəxsi inkişafı, təhsilə yiyələnməsi, uğurlu kadr hazırlığı birbaşa ölkənin və cəmiyyətin tərəqqisinin təminatıdır. Dövrümüzdə ümummilli liderin "cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indiki gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır" ifadələrinin deviz tutularaq istənilən sahədə gənclərin rolunun artırılmasının canlı şahidi oluruq. (A. M. Cəfərov, E. B. İmaməliyev, 2012:4) Dövlətin sosial siyasətinin mühüm tərkib hissəsi olaraq tələbə gənclərin sosial müdafiəsi, onların həyat şəraiti və şəxsi inkişaflarına tövhə verə biləcək tədbirlər planları hazırlanaraq həyata keçirili.

Tələbə gənclərin sosial problemlərinə xarici təcrübəyə əsaslanaraq yanaşdıqda görürük ki, ölkə xaricində tələbələr daha çox etnik və gender məsələlərinə əsaslanan, dini və irqi ayrıseçkiliklərdən törəyən problemlərlə daha çox qarşılaşırlar. (K.-Hauschildt, C.Gwosć, 2015:166) Bir çox inkişaf etmiş ölkələrə nümunə ola biləcək multikulturalizm ocağı hesab edilən ölkəmizdə isə bu kimi hallara yox sayıla biləcək qədər az rast gəlinir. İşsizlik, maddi çətinliklər, yaşayış yeri, sosial adaptasiya kimi sosial problemlər yaşadığımız coğrafiya üçün daha səciy-yəvidir.(Əmədov.Y 2013: 157) Bu zaman bir daha əmin oluruq ki, tələbə gənclərin qarşılaşdıqları sosial problemlər yaşadıqları ölkənin siyasi-iqtisadi vəziyyəti və tarixi-mədəni keçmişi ilə sıx əlaqədardır.

Son aparılan tədqiqatlara əsasən, hazırda ölkəmizdə gənclərin işsizlik səviyyəsi 9.2% qeydə alınmışdır. Bu qonşu ölkələrlə müqayisədə və son illərdəki sosial-iqtisadi vəziyyət nəzərə alındıqda uğurlu göstərici hesab edilir. (Telmanqızı.S, 2021:2) Lakin qeyd olunan statistika gənclərin təhsil aldıqları ixtisaslara uyğun fəaliyyət istiqamətinə yönləndiklərini göstərmir. Təəssüf ki, təhsil müəssisələrində ixtisaslaşmış kadr hazırlığı yüksək səviyyədə həyata keçirilsə də gənclərin öz sahələri üzrə iş tapmaqda çətinlik yaşamaları bu reallığı dəyişmir. Buna bir neçə səbəb göstərmək mümkündür. Məsələn, universitetlərin tələbə qəbulu üzrə təyin etdikləri plan yerləri ilə iş yerlərində yaranması gözlənilən vakant vəzifələr arasındakı say fərqinin öncədən nəzərə alınmaması, bu sahədə aparılan tədqiqatların azlığı, təhrif olunmuş statistik göstəricilər və ya tələbələrin tədris ili ərzində yerdəyişməsinin nəzərə alınmamasını sadalamaq olar. Təbii ki, ölkəmiz üçün daha çox səciyyəvi olan bögələrdən tələbə axını prosesi də həm işsizlik, həm də yaşayış yeri kimi maddi çətinliklərdən doğan sosial problemlərin dərinləşməsinə səbəb göstərilə bilər.

Zənnimcə, tələbə gənclərin rifahı məsələsinə dövlət səviyyəsində kifayət qədər öncəlik verilir. Məşğulluq Strategiyası, Tələbə Kredit Fondunun yaradılması, Gənclər Siyasətinin dövlətin bütün strukturlarında uğurla həyata keçirilməsi, təqaüd, tələbə təcrübə və mübadilə proqramları və s. kimi tədbirlərin həyata keçirilməsi buna sübutdur. Lakin, yarana biləcək problemlərin öncədən təyin edilib aradan qaldırılması üçün addımlar atılarsa, fikrimcə, daha uzun müddətli rifah səviyyəsinə çatmaq mümkün olar. Sosial problemlə qarşılaşıb qarşılaş-mamasından asılı olmayaraq bütün gənclərin tədris ocaqlarında, təşkilatların fəaliyyətlərində və dövlətin ictimai-siyasi proseslərində aktiv iştirakı bu məqsədə çatmaqda faydalı ola bilər. Gənclərin

yuxarıda qeyd olunan sahələrdə aktivliyini təmin etdiyimiz zaman bu sahədə aparılan sosial müdafiə tədbirlərini gənclər üçün daha əlçatan etmiş olur və tədqiqat prosesində gənclə-rin rəyindən şəffaflıqla istifadə olunmasına nail olmuş olarıq. Gənclər Fondunun dəstəyi ilə tələbə gənclər arasında bu aktivliyin təmin olunması məqsədi ilə həvəsləndirici tədbirlər, yarışların təşkili, gənclərin rol model olaraq seçdikləri şəxslərin bu proseslərə cəlb olunması bu prosesi sürətləndirmək üçün uğurlu idea hesab edilə bilər. Yalnız bunun sayəsində aktiv gənclərin gələcəkdə işsizlik problemi yaşamasının qarşısı alına, adaptasiya prosesinin sürətlənməsi təmin oluna, aktivliyi və xüsusi bacarıqları ilə fərqlənən tələbələr əlaqə təqaüd proqramlarına qoşula və qalib gələ bilərlər.

Önləyici tədbirlərdən bir digəri isə gənclərin gələcəkdə sevmədikləri və bacarıqları olmayan sahəyə yönləndirilmələrinin qarşısını almaqdır. Bəzi ixtisaslar var ki, onlara ölkəmizdə hər il tələbə qəbulu planı üzrə 500 nəfərlik yer ayrılır. Halbuki, ölkəmizdə hər il yüzlərlə həmin ixtisaslardan formalaşan karda ehtiyac olmadığını xüsusi araşdırmaya ehtiyac olmadan əminliklə vurğulamaq olar. İctimai rəy əsas tutularaq tələbələrin ailələrinin təkidi ilə seçdiyi və həmin tələbatlar nəzərə alınaraq yer ayıran təhsil ocaqları həm təhsilin keyfiyyətini aşağı salmış olur, həm də istedadlı gənclərin yalnış istiqamətdə bacarıqlarını soldurmuş olurlar. (Süleymanova.S, 2019) Bu da öz növbəsində həvəssiz işçi, uğursuz tələbə və xoşbəxtlik axtarışında olan gənclərin sayının artmasına gətirib çıxarır. Hazırda bəzi dövlət qurumlarının daxilində təhsil məsləhətləri verilən kiçik güşələrə yer ayrılmış olsa da bu fəaliyyətin genişləndirilərək hər kəs üçün əlçatan olması, hətta abituriyentlərin nəinki imtahandan sonra ixtisas seçimində, həmçinin imtahandan öncə hazırlıq mərhələsində xüsusi müsahibələr, psixoloji testlər, qabiliyyət im-

tahanları vasitəsi ilə yönümlülüklərinin aşkar edilməsi təhsil sisteminin və ölkədə bir çox sosial problemin qarşısının alınması üçün vacib tövhə verə bilər.

Ümumilikdə, gənclərin inkişafı və problemlərinin qarşısının alınması prosesinə təhsil sisteminin bir parçası olaraq kompleks şəklində yanaşma daha doğru addım olar.

Qaynaqlar

1. CƏFƏROV, A.M, İMAMƏLIYEV, E.B. (2012). *Azərbaycanın ictimai həyatında gənclərin iştirakı*, Bakı: Elmi nəşr
2. ƏMƏDOV, Y. (2013). *Sosial işin nəzəriyyəsi və təcrübəsi*, Bakı: PG nəşriyyat evi
3. HAUSCHILDT, K., GWOSĆ, C., NETZ, N., MISHRA, S. (2015). *Social and Economic Conditions of Student Life in Europe*, Germany: Eurostudent
4. SÜLEYMANOVA, S. (2019). *Gənclərin ixtisas seçimi: kimi dəbi, kimi də tələbatı nəzərə alır,* Bakı: Modern.az
5. TELMANQIZI, S. (2021) *Gənclərin işsizlik problemi - gerçək səbəblər və vəziyyətdən çıxış yolları*, Bakı: Yeni Müsavat

REALITY AND PROSPECTS FOR SOLVİNG THE SOCİAL PROBLEMS FACED BY STUDENT YOUTH İN THE REPUBLİC OF AZERBAİJAN

Sama MAMMADOVA

Abstract

The cooperation of young people with the state in researching and overcoming any problems they may face in their youth, when the social protection of students, the right direction and the foundation of their successful future is laid, can accelerate this process and lead to faster success.

Key words: student, social problem, youth, education, scholarship

QƏDİM TÜRK YAZILI ABİDƏLƏRİNİN LEKSİKASI

Şəlalə ABBASOVA,
Odlar Yurdu Universiteti, bakalavr,
Elmi rəhbər: Fil.ü.f.d. Sevinc Qəmbərova

Gəlmiş-keşmiş və hətta indi də hər bir xalqın dilinin əsas vahidi sözdür.Dildə mövcud olan bütün sözlər dilin leksikasını digər adı ilə desək lüğət tərkibini təşkil edir. Bəşəriyyət tarixində yer tutmuş hər bir xalqı fərqləndirən xüsusiyyətlər cərgəsinə onun özünə məxsus olan dilinin leksikası xüsusi ilə seçilir.Dünya səhnəsində tarixində hər spesifik nüansı ilə dərin iz qoymuş bu gündə tədqiqatçıları özünə cəlb edən leksikalardan biri də qədim türk yazılı abidələrinin leksikasıdır. Tezisdə qədim türk yazılı abidələrinin leksikasının təsnif olunaraq qruplaşdırılmasından danışılır.

Açar sözlər: qədim türk yazılı abidələri, leksika, təsnifat, lüğət tərkibi

Əcdadlarımızın bizə miras qoyub getdiyi türk dilinin leksikasının tarixinin tətqiq edilməsi üçün ən etibarlı mənbə uzun əsrlərin sınağından keçmiş türk dillərinin öz qədim yazılı abidələridir. “Qədim türk yazılı abidələri”nın tətqiqi mövzusunda əhatəli araşdırmalar aparmış Nizami Xudiyev bildirir ki,göytürk yazıları başqa dillərin təsirindən uzaq olmuşdur. Lakin buna baxmayaraq çox az sayda Çin,Tibet sözləri işlənmişdir (Xudiyev,2015, s. 77).

Biz belə düşünürük ki buna səbəb isə böyük ehtimal türk xalqlarının çin və tibet xalqları ilə iqtisadi,siyasi,mədəni,sosial əlaqələrinin sıx olmasıdır.Əbülfəz Rəcəbli bildirir ki,göy türk

abidələrinin mətnlərində,təxminən,dörd minə yaxın söz işlənir.Bununla yanaşı tətqiqatçı hətta onu müstəqil dilin leksikası kimi tətqiq etməyin mümkün olduğunu bildirir.Əbülfəz Rəcəbli müəllifi olduğu "Qədim türk yazısı abidələrinin dili" kitabında vurğulayır ki,qədim türk yazısı abidələri dilinin leksikası müasir türk dillərinin lüğət tərkibində kiçikdir (Rəcəbli,2006,s 201).Lakin müasir türk dillərində işlənən ümumtürk sözlərinin böyük bir qismi abidələrin dilində işlənmişdir.

Tətqiqat zamanı abidələrin leksikasının təsnifatı etibarı ilə iki hissəyə ayrılmışdır.Bununla yanaşı bu hissələr müxtəlif anlayışları ifadə edən tematik söz qruplarına və xüsusiyyətlərinə görə bölünmüşdür.

I.Abidələrin lüğət tərkibindəki söz qrupları:

Qohumluq anlayışı bildirən:eçü-böyük qardaş əmi,öqana,ini-kiçik qardaş,büke-təzə doğulmuş körpə,urı-nəsil,künürəfiqə,egmeç-zövcə,küdegü-kürəkən,kadın-qaynana,əkə-xala və s.

Təbiət hadisələrinin adları: taluy-dəniz, üqüz-çay, tağ-dağ, ört-yanğın, yantuk-dağ ətəyi, ığac-ağac,yazı-səhra və s.

Zaman bildirən sözlər:ödüş-gecə-gündüz,küz-payız,tandan yeri,kün-gün,yıl-il,tün-gecə ara-məsafə və s.

Metal adları ilə bildirən sözlər:temir-dəmir,kümüş-gümüş,altun-qızıl bakr-mis və s.

Heyvan və quş adları:ingen-dişi dəvə,biçin-meymun,ilikcüyür,adğır-ayğır,yılkı-ilxı,inqek-inək,buka-buğa və s.

Tikili,ev,məişət əşyaları adları bildirən sözlər: bark-sərdabə,bedizci-nəqqaş, itqüçi-memar, kapığ-qapı, kabay-beşik , ıkiplik və s.

Hərbi leksika:aday(yadağ)-piyada,arlıc-süvari,çeriq-ordu, sünüş-müharibə,yelme-atla kəşfiyyat,sülüdim-qoşun çəkdim,-yarıt-yürüş etmək və s.

Orqanizm və bədən üzvlərinin adları:elig-əl,adak-ayağ,könül-ürək,sünük-sümük,kaq-qan,tiz-diz,kulğak-qulaq və s.

Toponimlər:senir-dağ silsiləsi,yıl-meşəli dağ,Tüpüt-Tibet,Şantun-Şandun(Çində yer adı),Ötüken-dağ və yer adı,Yinçü üqüz-çay adı və s.

Mücərrəd anlayışlar ifadə edən sözlər: tenri-allah(səma),kut-bəxt,baz-sülh,bun-kədər,çab/sab-danışıq(nitq),erk-iradə,cab-şöhrət, və s.

II.O dövrün ictimai quruluşunu ifadə edən sözlər: budun-xalq, bağ-tayfa(qəbilə), uruq-tayfa birləşməsi,ok-nəsil,bay-dövlətli və s.

Mənsəb, dərəcə və rütbə bildirən sözlər:kağan-hökmdar,boyla-müşavir,buyruk-dəstə rəisi,elteber-knyaz,tarkan-vergi yığan,yalabaç-səfir,sunun-sərkərdə və s.

Cəhət adları:biryəcənub(sağ tərəf),yırya-şimal(sol tərəf),küntoğsık-şərq,kurıyağru-qərb və s.

Anrtoponimlər:Baz kağan-türk hökmdarı,Böqü kağan-Kapağanın böyük oğlu,Yatmar-kişi adı,İlbilqe katun-Mogilyan və Kültiqinin anası,Bumin kağan-VI əsrdə yaşamış türk hökmdarı və s.

Etnonimlər:apar-avar,karluq,uyğur,izgil,tatabı,tüpüt,kıpçaq,kıtan,purum və s.

Tətqiqatçılarımızdan Əzizxan Tanrıverdi qədim türk yazılı abidələrinin leksikasında yer alan antroponimlər ilə türk xalqının ortaq eposu sayılan “Kitabi-Dədə Qorqud” dastanındakıları müqayisə etmişdir.Tətqiqat nəticəsində Əzizxan Tanrıverdi qeyd edir ki abidələrdə 264, eposda isə 100-ə qədər antroponim işlənmişdir. Bu antroponimləri birləşdirən cəhət təkcə forma,struktur deyil həm də onların semantikasıdır.Hətta hər iki abidənin leksikasında eyni qalmış və ya cüzi fonetik dəyişikliklərə uğramış antroponimlərə rast gəlmişik rast gəlirik.

Nəticə

Türkoloqlarımızın tərtib etdiyi bölgüdən də aydın olur ki, "Qədim türk yazılı abidələri"nin leksikası nə qədər qədim olsada özünə məxsusluğu,bu günə kimi qoruyub saxladığı tərkibi ilə dünyanın qədim xalqları arasında ən zəngin leksikaya malik olanlar içərisində ön sıradadır. Abidələrin leksikasının digər fərqli xüsusiyyətidə hər birinin kəsb etdiyi mənanın müəyyən tarixi cəhətlərə malik olması və ifadə etdiyi mənanı hər nüansı ilə əhatə etməsidir.

Qaynaqlar

1. 1.Xudiyev Nizami.Qədim türk yazılı abidələrinin dili. "Elm və təhsil" Bakı,2015.
2. 2.Rəcəbli Əbülfəz.Qədim türk yazısı abidələrinin dili.1 hissə. "Nurlan" Bakı,2006.
3. 3.Tanrıverdi Əzizxan.Qədim türk mənbələrində yaşayan şəxs adları. "Nurlan" Bakı,2009. 4.Vəliyeva Gülxanım.Qədim türk dili. "Elm və təhsil" Bakı,2013.
4. 5.Hüseyn Namık Orkun. "Eski türk yazıtları".Dörd cilddə.Ankara,1994.

THE LEXİCON OF THE ANCİENT TURKİC WRİTTEN MONUMENTS

Shalala ABBASOVA

Abstract

The word is the main unit of the language of every nation, past and even now. All the words that exist in the language form the vocabulary of the language, in other words, the vocabulary. The lexicon of the ancient Turkic written monuments is one of the lexicons of the ancient Turkic written monuments. Azerbaijani Turkologists are among the researchers studying the lexicon of "Turkish written monuments".

Key words: ancient Turkish written monuments, vocabulary, classification, vocabulary

DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYI DİASPORUMUZUN TƏŞKİLATLANMASI SİYASƏTİNİN MÜHÜM AMİLLƏRİNDƏN BİRİ KİMİ

Şəms QASIMOVA,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,
baş laborantı,
Elmi rəhbər: dos. Məhəmməd Soltanoğlu

Bu gün Qarabağın tarixi mərkəzi olan Şuşada Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə Dünya Azərbaycanlılarının V qurultayı keçirilir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Dünya Azərbaycanlılarının I qurultayında qarşıya ümumi məqsədlər içərisində ən vacib istiqamətlərdən biri Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırılması idi. Məhz bu baxımdan Dünya Azərbaycanlıların I qurultayında qarşıya qoyulan məqsədlər xüsusi əhəmiyyət daşıyır.

Qeyd etmək lazımdır ki, hələ də diaspor səviyyəsində milli-mədəni problemlər öz həllini tapmamışdır. Mədəniyyətimizin, dinimizin, milli keyfiyyətlərimizin yaradılması, qorunması və dünyaya tanıdılması, soydaşlarımızın arasında milli düşüncənin və dövlətçilik təfəkkürünün zəif olması problemi bu gündə aktualdır.

Məqalədə əsas məqsəd - Dünya Azərbaycanlılarının I qurultayında qəbul edilmiş qərarların, perspektivdə nəzərdə tutulan proqramların həyata keçirilməsinin əhəmiyyətini təhlil etmək, Azərbaycan Dövləti ilə Dünya azərbaycanlıları ümumi birliyi, soydaşlarımızın qüvvəsinin və diqqətinin Azərbaycan dövlətinə yönəldilməsi kimi vacib problemləri incələməkdir.

1.Dünya Azərbaycanlılarının I qurultayında qarşıya qoyulan məqsədlərin siyasi hədəfləri

Dünya azərbaycanlılarının I Qurultayı dedikdə, xaricdə yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin müzakirə edildiyi ən yüksək səviyyəli tədbirdir. Ulu Öndər Heydər Əliyev həmin qurultayda demişdir: "Dünya azərbaycanlılarının I qurultayı müstəqil Azərbaycanın həyatında, bütün dünya azərbaycanlılarının həyatında tarixi hadisədir. Bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycan icmalarının nümayəndələri ilk dəfə olaraq Azərbaycana, onun paytaxtı Bakı şəhərinə toplaşmışlar və özlərinin I qurultayını keçirirlər. Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında qəbul etdiyimiz qərara səs verdiklərinə görə və bu qurultayda iştirak etmək üçün Azərbaycana, Bakıya gəldiklərinə görə bütün nümayəndələrə, qonaqlara, onların təmsil etdikləri müxtəlif ölkələrdə olan Azərbaycan icmalarına təşəkkür edirəm." (H.Əliyev, 16 fevral 2015, 10:44)

23 may 2001-ci ildə Dünya azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 724 saylı Sərəncamın imzalanması Azərbaycan dövləti üçün diasporun mühüm olduğunu göstərən mühüm amildir. Xaricdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsilə bağlı məsələlərin müzakirə edilməsi zərurətindən irəli gələn Sərəncama uyğun

olaraq “9-10 noyabr 2001-ci ildə Bakı şəhərində Dünya azərbaycanlılarının I Qurultayı keçirildi. Qurultay Azərbaycan tarixində bu səbəbdən müstəsna əhəmiyyətə malik olan bir hadisədir. Bu qurultay milli tariximizdə, o cümlədən diasporumuzun formalaşmasında yeni bir mərhələnin əsasını qoydu” (URL-1).

Burada Azərbaycan diasporu, Azərbaycan Dövlət əlaqələri Dünya azərbaycanlıları və onların milli birliyi, soydaşlarımızın qüvvəsinin və diqqətinin Azərbaycan dövlətinə yönəldilməsi kimi vacib problemlərin həm nəzəri, həm də əməli tərəfləri ilə bağlı bir çox məsələlər həll edildi. Dünya azərbaycanlıları özlərinin I Qurultayı ilə böyük bir işin bünövrəsini qoydu. Bu tədbir milli birlik forumunun bütün detallarını işləyib hazırladı: 102 nəfərdən ibarət Əlaqələndirmə Şurasının yaradılması da Qurultayın mühüm nəticələrindən biri idi. 56 nəfəri Azərbaycan Respublikasının elm, dövlət, siyasət və mədəniyyət xadimləri, 46 nəfər isə 31 ölkənin nümayəndəsi idi. Diasporumuzun bütün təbəqələrini əhatə edən 46 nəfər Avropa, Asiya, Amerika və Avstraliyadan Qurultayda iştirak edən şəxslər idi.

Qurultayda dünya azərbaycanlılarının fəaliyyətini əlaqələndirən koordinasiya şöbəsi yaradılmaqla bərabər, diasporumuzun qarşısında duran ən ümdə vəzifələr də müəyyən edildi. Bunlar aşağıdakı müddəalarda öz əksini tapmışdır:

1. Ana dili yaradılmalı və inkişaf etdirilməli.
2. Elm və millətin gələcəyini təyin edən təhsilə xüsusi fikir verməli.
3. Milli-mənəvi dəyərləri qoruyub inkişaf etdirməli.
4. İqtisadi əsaslar möhkəmləndirilməli.
5. Azərbaycan etnosunun hərəkətverici qüvvəsini təşkil edən gənclərin problemlərinə diqqət yetirməli.

6. Ermənistan tərəfindən Azərbaycana qarşı gerçəkləşdirilən hərbi və ideoloji təcavüzün nəticələrinin aradan qaldırılmalı. (Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazanmasına baxmayaraq, bu günə qədər Ermənistan tərəfi "10 noyabr bəyannaməsinin" tələblərindən irəli gələn öhdəlikləri tam yerinə yetirməyib)

7. KİV vasitəsilə informasiya təbliğatının gücləndirilməlidir" (Arzumanlı, 2001: 10).

Qurultayda səsləndirilən və yekun fikrə gəlinən ən vacib məsələ diasporumuzun təşkilatlanması və milli birliyin, həmrəyliyin əldə edilməsi oldu. Dünya azərbaycanlılarının I Qurultayından sonrakı dövrü diasporumuzun formalaşmasının 3-cü mərhələsi, yəni təşkilatlanma mərhələsi hesab etmək düzgün olardı. Həm dövlətin, həm də ictimaiyyətin bu məsələyə maraq göstərməsi Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (XYAİDK) digər ictimai qurumların yaranması kimi konkret addımların atılması ilə nəticələndi. Məhz belə bir uğurun əldə olunması Azərbaycan diasporunun təşkilatlanması siyasətinin nəticəsi hesab edilə bilər.

Qeyd etmək lazımdır ki, hələ də diaspor səviyyəsində milli-mədəni problemlər öz həllini tapmamışdır. Buraya milli mədəniyyətimizin, dinimizin, milli keyfiyyətlərimizin yaradılması, qorunması və dünyaya tanıdılması aid olmalıdır. Hər bir millətin etnik kimliyini müəyyən edən bu cür keyfiyyətlər diasporumuzun digər problemlərinin də öz həllini tapmasında xüsusi əhəmiyyətə malikdir. Milli mədəni problemlər nisbətən kəskin formada özünü Amerika və Avropadakı diasporlarımız arasında göstərir. Bununla bağlı digər bir problem soydaşlarımızın arasında milli düşüncənin və dövlətçilik təfəkkürünün zəif olması nəzərə çarpır. Bu ba-

xımdan milli birliyin və həmrəyliyin inkişaf etdirilməsi vacib məsələdir. Düşmənə qarşı mübarizədə dünya azərbaycan-lılarının həmrəyliyi milli-siyasi strategiyada başlıca yer tutur. Milli həmrəyliyin komponentləri aşağıdakı kimi göstərilə bilər:

- Ümummilli mədəniyyət;
- Milli mənafe (Müstəqil Azərbaycan dövlətçiliyi və Qarabağ problemi)
- Tarix, dil, etnogenez birliyi;
- Azərbaycan diasporunun təşkilatlanmasının dövlətin beynəlxalq miqyasda güclənməsinə xidmət etməsi;
- Azərbaycan dövlətinin diasporumuza daimi mənəvi dəstək göstərməsi və s.

Digər mühüm bir problem Azərbaycan haqqında infor-masiya çatışmazlığıdır. Qərbin bir sıra aparıcı dövlətlərindən ictimai-siyasi dairələr Cənubi Qafqaz regionu, Azərbay-can və Ermənistan-Azərbaycan münaqişəsi barədə məlumatları erməni lobbisi ilə əlaqəsi olan qruplardan, yaxud da onun bilavasitə özündən əldə edirlər. Hazırda beynəlxalq aləmdə Azərbaycan həqiqətlərinin, Dağlıq Qarabağ probleminin, ermənilərin məkrli siyasətinin dolğun və düzgün yayılmasına ehtiyac vardır. Azərbaycana qarşı tətbiq olunan informasiya blokadasının qarşısının alınmasında diasporumuz geniş imkanlara malikdir. Azərbaycan diasporunun fəaliyyətinin hər bir ölkədə genişləndirdilməsi, Azərbaycan ilə bağlı təbliğatın düzgün, məqsədyönlü şəkildə aparılması həmin dövlətlərin Azərbaycanla əlaqələrinin möh-kəmləndirilmə-sində də böyük əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, diaspor ictimai, siyasi, iqtisadi səbəblərlə bağlı olmaqla yanaşı digər önəmli mövzu və problemlərlə qarşılıqlı əlaqədədir. Diaspor terminə geosi-

yasət, din, dil, mədəniyyət, siyasət və s. ilə eyniləşdirmək formalarına elmi ədəbiyyatlarda tez-tez rast gəlinir. “Diaspora” - yunan sözü olub, səpələnmə, yayılma, parçalanma deməkdir.

Azərbaycan diasporu dünyada geniş ərazilərə yayılan və böyük potensiala malik olan etnik birlikdir. Bu gün Azərbaycan Respublikasından kənarda “40 milyondan çox həmvətənimiz yaşamaqdadır. Diasporada yaşayan azərbaycanlıların isə 10 milyondan çox olduğu güman edilməkdədir” (Azərbaycan diasporu.., Çaşıoğlu, 2006).

Diasporumuzla əlaqədar başqa bir məsələ soydaşlarımızın siyasi iştirakçılığının zəif olmasıdır. Yaşadıqları ölkələrin siyasi həyatında, siyasi proseslərində iştirak etməmələ-rinin səbəbi siyasi fəallığın zəif olması ilə bağlıdır. Bu cür çatışmazlıq diasporumuzun siyasi təşkilatlanmasının spesifik forması olan siyasi təşkilatlanma vasitəsilə öz həllini tapa bilər.

Söylənilənlərə əsasən diasporumuzun qarşısında duran həlli vacib məsələləri aşağıdakı kimi göstərmək olar:

- informasiya bazasının və şəbəkəsinin inkişaf etdirilməsi;
- milli həmrəyliyə nail olmaq üçün azərbaycançılıq ideologiyanın işlənib tamamilə hazır şəklə salınması;
- taktiki və strateji planların hazırlanması (erməni diasporunun fəaliyyəti və planlarının öyrənilməsi və adekvat tədbirlərin həyata keçirilməsi);
- təşkilatlanmanın kəmiyyət və keyfiyyət göstəricilərinin daima yaxşılaşdırılması və s.

2.Azərbaycan Diaspor təşkilatlarının yeni hədəfləri

Bu gün dünyanın demək olar ki, bütün ölkələrində azərbaycanlılar fəaliyyətlərini məqsədyönlü və ardıcıl aparmaq məqsədilə cəmiyyət və mədəniyyət mərkəzləri yaratmışlar. Bu proses hazırda da davam etməkdədir. Təcrübə göstərir ki, diaspor təşkilatlarının 3 əsas istiqamət üzrə formalaşması məqsədəuyğun olardı.

1. Mədəni və ictimai təşkilatlar.
2. Təhsil sahəsində fəaliyyət göstərən təşkilatlar.
3. İqtisadi sahədə fəaliyyət göstərən təşkilatlar.

Bu müddəalara əsasən belə qənaətə gəlmək olar ki, birinci qrupa daxil olan təşkilatlar azərbaycanlıların həm təşkilatlanaraq bir yerə gəlmələrini, həm də onları siyasi pro-seslərə sövq etmək baxımından əhəmiyyətlidir. Bu istiqamətdə müxtəlif elmi toplantılar keçirilməli, kitab, qəzet və broşürlər nəşr olunmalıdır. Mövzusu Azərbaycanın xarici siyasəti və Azərbaycan-Amerika, Azərbaycan-Avropa dövlətləri münasibətləri olan və Azərbaycan o cümlədən digər ölkələrin elm xadimlərinin, bürokratların birgə iştirakı ilə keçirilən konfranslar müsbət nəticələr verir.

İkinci qrup təşkilatlar isə, müxtəlif təhsil ocaqlarında Azərbaycanın tarixi, mədəniyyəti və xarici siyasəti mövzusunda aparılan tədqiqatlara maraq yaradır. Bu yöndə univerisitetlərdə elmi mərkəzlərin (Azərbaycan tarixi və ədəbiyyatı kafedraları və s.) yaradılması məqsədyönlü olardı.

Üçüncü qrup təşkilatlarla iş dünyasında Azərbaycanın digər ölkələrlə işə gəldikdə isə deyə bilərik ki, münasibətlərin inkişafında marağı olan çoxlu sayda kiçik, orta və böyük firmalar və transmilli korporasiyalar nümayəndələrinin iştirak etdikləri rüblük və illik yığıncaqların düzənliyə, ticarət, telekommunikasiya, infrastruktur, nəqliyyat, energetika, kənd təsərrüfatı, insan hüquqları, müdafiə, xarici siyasət, elm və

mədəniyyət sahələrində inkişaf proqramlarının işlənib hazırlanması yolu ilə dövlətçiliyimizin möhkəmlənməsinə öz töhfələrini verə bilərlər (Beynəlxalq Diaspora.., 2003: 34).

Diaspor quruculuğunun mühüm sahələrindən biri də xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin hazırlanması və həyata keçirilməsidir. Bu siyasət uzun illər boyu Ulu Öndər Heydər Əliyevin bilavasitə məqsədyönlü fəaliyyəti sayəsində reallaşdırılmışdır. "2002-ci ilin dekabr ayının 27-də qəbul edilmiş və Ümummilli Lider Heydər Əliyevin 21 fevral 2003-cü il tarixli Fərmanı ilə qüvvəyə minmiş "Xaricdə yaşayan azərbaycanlılarla bağlı Dövlət Siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu" ("Diaspora" №1, 2002) XXI əsrdə xaricdə yaşayan soydaşlarımız və həmvətənlərimiz qarşısında çox geniş perspektivlər açır və onların ölkəmizin milli mənafeləri ətrafında daha sıx birləşdirilməsini nəzərdə tutur. Bu qanun Azərbaycan diasporunun inkişafına dövlət qayğısının daha da artırılması, bu sahədə ciddi nailiyyətlər əldə olunması məqsədilə vahid strategiyanın hazırlanması kimi mühüm məsələlərin həllinə imkan yaradan hüquqi prinsipləri müəyyənləşdirmişdir.

Azərbaycan diasporunun inkişafı və mütəşəkkil qüvvəyə çevrilməsi məsələsi Dünya azərbaycanlılarının I Qurultayından sonra dövlət siyasətinin prioritet məsələlərindən birinə çevrilmişdir. 2002-ci ilin noyabrın 9-da Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə həmvətənlərimizin təşkilatlanması, icma və bir-liklər arasında əlaqələrin yaradılması sahəsində vahid konsepsiyasının işlənməsi, diaspor qurumlarının fəaliyyətlərinin əlaqələndirilməsi ilə bağlı məsələləri müzakirə etmək məqsədilə Dünya azərbaycanlılarının I Qurultayının ildönümünə həsr edilmiş "Azərbaycan diasporu: reallıq və perspektivlər" (Əli-

yev, 2005.) mövzusunda konfrans keçirilmişdir. Hazırda dünyanın əksər ölkələriində 300-ə yaxın Azərbaycan icma və birlikləri fəaliyyət göstərir və diasporumuzun təşkilatlanma prosesi bu gün də davam etməkdədir.

Müstəqil dövlət kimi Azərbaycan Respublikasının beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi onun iqtisadi və siyasi mövqelərinin möhkəmlənməsi ilə birbaşa əlaqədardır. "Xüsusilə, son illərdə Rusiya dövləti ilə hərtərəfli (hərbi əməkdaşlıqdan başqa) əlaqələr həmin ölkədəki Azərbaycan diasporunun fəaliyyətinə müsbət təsir göstərməkdədir" (Əliyev, 2005: 74). Bütün dünyada, o cümlədən Rusiyada Azərbaycanın mədəni maraqlarının qorunması diasporumuzun üzərinə çox çətin və məsuliyyətli iş qoyur. Azərbaycan diasporunun fəaliyyətinin əsas istiqamətlərindən biri də məhz Azərbaycan mədəni irsinin qorunması, yaradılması və təşkil edilməsidir. Dünya azərbaycanlılarının 40 milyonunun (onlardan 10 milyonu diaspordur) Azərbaycan Respublikasından kənarda yaşadığını nəzərə alsaq, görərik ki, Azərbaycan dilinin, mədəniyyətinin, tarixinin, incəsənətinin qorunması nə dərəcədə əhəmiyyətlidir. Diasporun bu istiqamətdəki fəa-liyyətinə Azərbaycandakı müvafiq strukturlar da lazımi dəstəyi verməli və diaspora təşkilatları ilə qarşılıqlı münasibətləri yaratmalıdırlar.

Azərbaycan diasporunun qarşısında duran milli-ictimai fəaliyyət və təşəbbüslərin gücləndirilməsi iki əsas məqsədə – həm özünü tanımaq, milli kökünə və milli varlığına sahib olmaq, azərbaycançılıq məfkurəsini mənimsəmək, həm də Azərbaycanı başqalarına tanıtmaq və onun xaricdə təbliğ etmək məqsədlərinə xidmət edir. Bu təşəbbüslərin indiyə qədər dünya diasporlarının təcrübəsinə nəzər yetirsək, bizim üçün də əhəmiyyətli olan əsas formaları müşahidə edilir: xaricdə

mədəni-kütləvi tədbirlərin keçirilməsi; maarifçilik və təbliğatçılıq işinin gücləndirilməsi, kütləvi anti-Azərbaycan dairələrinin xüsusi ilə ermənipərəst qüvvələr və s. qrupların bizim ölkəmizə qarşı yönəlmiş ideoloji-siyasi hücum və təzyiqlərinin neytrallaşdırılması və belə qüvvələrə qarşı əks kəskin təzyiq və ideoloji-siyasi cəbhənin açılmasıdır.

Məhz bu baxımdan 44 günlük Vətən müharibəsi zamanı xaricdə yaşayan Azərbaycanın diaspor təşkilatları Qarabağ reallıqlarını dünya ictimaiyyətinə çatdırılmasında xüsusi rol oynadılar. Azərbaycanın diasporla bağlı siyasəti qarşıya qoyulan məqsədlər baxımından uğurlu nəticələrə səbəb oldu. Bunun nəticəsi olaraq "Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında Azərbaycanın Prezidenti İlham Əliyev indiyə qədər görülmüş işlərlə yanaşı, diasporumuzun qarşısında dayanan vəzifələrlə bağlı tarixi nitq söyləyərək qeyd edir ki, "Hələ 30 illik işğal dövründə və 44 günlük müharibə zamanı xaricdə yaşayan milyonlarla azərbaycanlı Azərbaycanın haqq səsini yaşadıqları ölkələrin ictimaiyyətinə çatdırdı. Bu gün də bu işin davam etdirilməsinə böyük zərurət var. Çünki müharibə başa çatsa da, Azərbaycana qar-şı olan əsassız iddialar hələ də davam edir. Zəfər yolu ilə Zəfər qurultayında iştirak etmək üçün Şuşaya gedən soydaşlarımız yolboyu erməni vandalizminin şahidi oldular. Şuşa da daxil olmaqla ermənilərin işğal etdiyi ərazilərdə yaratdığı acınacaqlı vəziyyət, törətdikləri talançılıq, barbarlıq bir daha onu göstərir ki, bu ərazilər heç vaxt onlara mənsub olmayıb. Onların bu ərazilərdə əbədi qalacaqlarına ümidləri də olmayıb, ona görə də yalnız dağıtmaq və talamaqla məşğul olublar" (URL-2).

Dünya Azərbaycanlılarının I qurultayında qarşıya qoyulan əsas məqsədlərdən biri Qarabağ həqiqətlərinin dünyaya

çatdırılması idisə, bu gün bu həqəiqətlər Qarabağın tarixi mərkəzi sayılan Şuşadan çatdırılır. Diasporanın I qurultayından V qurultayına qədər keçən dövrdə mühüm nəticələrə nail olunub, ən əsası isə Qarabağ zəfəri dünya Azərbaycanlıları qarşısında yeni hədəflər müəyyənləşdirib. Məhz bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin Şuşada Dünya Azərbaycanlılarının V qurultayında etdiyi tarixi çıxışı həmdə xaricdə yaşayan soydaşlarımız üçün yol xəritəsidir.

Qaynaqlar

1. ARZUMANLI, Vaqif. (2001). *Azərbaycan Diasporu* . Bakı: Elm və Təhsil
2. İBRAHİMOV, Nazim. (2006). *Azərbaycan diasporu: Böyük Yolun Başlanğıcı.* Bakı, Çaşıoğlu.
3. Beynəlxalq Diaspora Simpoziumunun materialları, Bakı, 2003. «Diaspora» // №1, dekabr, 2002.
4. ƏLİYEV, Zaur. (2001) *Beynəlxalq münasibətlərdə diasporların rolu.* Bakı. Nurlan.
5. ƏLİYEV, Zaur. (2005) *Dünya Diasporları*. Bakı. Qismət
6. URL-1. Heydər Əliyevin nitqi. https://az.wikisource.org/./Dünya_Azərbaycanlılarının_I_Qurultayında 16 fevral 2015, 10:44
7. URL-1. Prezidentin Şuşada çıxışı: Azərbaycan diasporunun fəaliyyəti üçün yeni yol xəritəsidir. https://report.az/diaspora/prezidentin-susada-bugunku-cixisi-azerbaycan-diasporunun-fealiyyeti-ucun-yeni-yol-xeritesidir/ 22 aprel 2022 17:39

THE FIRST CONGRESS OF WORLD AZERBAIJANIS AS ONE OF THE IMPORTANT FACTORS IN THE POLICY OF ORGANIZING OUR DIASPORA

Shams GASIMOVA

Abstract

Today, the 5th Congress of World Azerbaijanis is being held in Shusha, the historical center of Karabakh, under the leadership of the President of the Republic of Azerbaijan. One of the most important goals of the First Congress of World Azerbaijanis under the leadership of National Leader Heydar Aliyev was to convey the truth about Karabakh to the world community. From this point of view, the goals set at the First Congress of World Azerbaijanis are of special importance.

It should be noted that national and cultural problems at the diaspora level have not yet been resolved. The problem of creating, preserving and introducing our culture, religion and national qualities to the world, as well as the weakness of national thinking and statehood thinking among our compatriots is still relevant today.

The main purpose of the article is to analyze the importance of the decisions made at the First Congress of World Azerbaijanis, the implementation of future programs, to study important issues such as the unity of the Azerbaijani state and the world Azerbaijanis, the strength and attention of our compatriots to the Azerbaijani state.

Key words: World Azerbaijanis**,** diaspora, congress, national, national solidarity

ƏNƏNƏVİ VƏ FƏAL TƏHSİLİN FƏRQLƏRİ

Sitarə VÜSAL,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dos. Elmira Məmmədova-Kekeç

Təhsil ayrılıqeducation da hamının almaq istədiyi, fəqət bütünlükdə çoxluqla nə olduğunu anlamadığımız məhfumdur. "Təhsil nədir?" sualına verdiyimiz cavablar elə beynimizdəki "təhsil" modelini ələ alma tərzini ifadə edir. Təhsilin, sadəcə, fənlərdən ibarət olması yaxud da bütün həyat həqiqətlərini də özündə əks etdirməsi barəsində deyilənlər hələ də ortaq bir məxrəcə gələ bilməyiblər. İndiyə qədər - ənənəvi təhsilə qədər hər kəs təhsil müəssisələrində tədris edilənləri təhsil olaraq ad-landırırdısa, indi – yeni təhsil sisteminin gəlməsi ilə artıq dünyagörüşünün, həqiqətlərin, təxəyyülün və təfəkkürün inkişafı barəsində aparılan işlər də təhsil başlığına əlavə edilir.

Hər dəfə bu iki bucağı da olan təhsilin nə olduğu ilə başlayaq. Mədəniləşmənin məqsədli şəkildə həyata keçirilməsi təhsil deməkdir. Ona görə də təhsilə "məqsədli mədəniləşdirmə prosesi" tərifi də verilmişdir. (Fidan və Erden, 1998: 2)

Təhsil haqqında təriflərdə üç əsas xüsusiyyət vurğulanır:

1. Təhsilin bir proses olması: Təhsil prosesi bu gün başlayıb sabah qurtaran qısamüddətli bir hadisə deyildir. Zaman və əhatə dairəsi baxımından geniş və çoxyönlü bir prosesdir. Təhsil prosesi bir-birinin ardınca gələn və bir-birini zənginləşdirən öyrənmə və öyrətmə fəaliyyətlərindən ibarətdir. Öyrənmə hadisəsini meydana gətirən hər cür fəaliyyət təhsil prosesinin bir parçasıdır.

2. Təhsil nəticəsində fərddə davranış dəyişikliyinin ortaya çıxması: Davranış orqanizmin təsirə göstərdiyi reaksiyadır. Təhsil baxımından davranışın müşahidə edilən, ölçülən və arzuolunan olması əhəmiyyət daşıyır.
3. Davranış dəyişikliyinin fərdin yaşadıqları, təcrübədən keçirdikləri nəticəsində meydana gəlməsi: Fərdin hiss etdiyi, yaşadığı nə varsa onun xarakterində izlər buraxır. Bu izlər yığılaraq fərdin davranışlarında dəyişikliyə səbəb olur. (Gültəkin, 2018: 17)

Yuxarıda danışdığımız üç xüsusiyyəti sadalayarkən təhsilin yeni bir tərifi ortaya çıxır; Təhsil fərdin həyatı boyunca əldə etdiyi bütün təcrübələrin toplusudur. (Gültəkin, 2018: 17)

İndiyə qədər təhsillə bağlı yazdıqlarım, verilən təriflər və gətirilən açıqlamalar problemlərin həlli üçün kifayət deyil. Buna səbəb təhsillə bağlı əsas sualın cavabsız qalmasıdır. Məsələnin özünə keçid etməzdən əvvəl bu suala da cavab tapaq: İnsanlar nə üçün təhsil almaq istəyirlər?

Bütün problemlərin ortaq nöqtəsi bu sualın cavabında yaxud cavablarındadır. Təriflərə görə təhsil hamı üçündür və hamı da bu təhsili özü üçün, dünyagörüşünün artması üçün almalıdır. Əslində mənzərə necədir?

Con Ruskin "Susam və zanbaqlar" kitabında yazır; "Ailələr daima uşaqları üçün "Vəzifə qazandıracaq təhsil" axtarışında olublar. Ailələrin istədikləri hər zaman budur. Ailələrin istədikləri təhsil "Övladlarının yaxşı geyinməsini", "Övladlarının villaların açarlarına sahib olmalarını" həyata keçirən təhsildir. (Ruskin, 2021: 16)

Elə yazıçının da dediyi kimi insanların çoxu, sadəcə, maddi rifahları üçün təhsil arayışındadır. Bu səbəbdən də insanların yarıdan çoxu təhsili universitetə girmək üçün bir açar kimi

istifadə edirlər və həyatlarının başqa səhifələrində də lazım ola biləcəyi ağıllarına gəlmir.

Təhsili hansı məqsədlərə açar üçün lazımdır?

Azərbaycanda təhsil sahəsində aparılan İslahat Proqramı 1999-2013-cü illəri əhatə edir. III mərhələ sayılan "tətbiqetmə" mərhələsindən, yəni 2008-2013-cü ildən "Kurikulum islahatı" tətbiq olunmağa başlayıb. Bəs, bu zamana qədər tətbiq olunan "ənənəvi təhsil" necə idi?

Ənənəvi təhsil müəllimyönümlü, hazır materialların inkişaf üçün heç bir boşluq qoymadan "əzbərçilik" siyasəti ilə ötürülməsi idi. Bu təhsil ümumi orta məktəbi bitirdikdən sonra universitetə qəbul zəmanəti verməklə hökmlüdür. Tək prinsipi təhsilalanları universitetə hazırlamaqdır. Yazıçı Ruskinin kitabında dediyi də məhz bu idi. İnsanlar məktəbə gedərkən, təhsil almaq istərkən yeni məlumatlar, bilgilər alacağı həyəcanı ilə deyil, yaxşı və rahat gələcək vəd edən ixtisaslara yiyələnmək üçün nərdivan tapmaq məqsədi daşıyırlar.

Ənənəvi təhsilin, sadəcə, "tələbə" adı vermə funksiyası təəssüf ki, bununla da bitir və tələbə adını aldıqdan sonrakı mərhələlər monotonlaşır. Sadəcə, imtahanlara hazırlaşmaq funksiyasından ibarət olan "robot" təhsilalanlar, bu funksiyanın tarixi keçdikdən sonra sürətlə yerə çaxılırlar. Universitetin son kursunda işə qəbul üçün sənəd toplayarkən onlara diplomun bəs etmədiyini görmək ənənəvi təhsilin açdığı ən böyük yara olur. Hobbilər, təxəyyül və təfəkkürün istifadə olunduğu qabiliyyətlər, dünyagörüşü, milli dəyərlər, könüllülük fəaliyyətləri və s. olmadığı zaman insan çaxnaşmaya düşür və bu tip şikayət ortaya çıxır; Sadəcə, diplomla işə girmək alınmayacaqdısa, bəs on beş-on altı ilə niyə oxuyurduq?

Elə bu suala verəcəyimiz doğru cavab bizi yeni təhsil sistemi, yəni kurikulumla tanış edir.

“Kurikulum mənşəcə latın sözü olub lüğəti mənası “yol”, “istiqamət”, “kurs”, “elm” deməkdir. Təhsil kurikulumları xarakterinə görə iki yerə ayrılır. Onlardan birincisi fənyönümlü, ikincisi isə şəxsiyyətyönümlü kurikulum adlanır.

Fənyönümlü kurikulumlar məzmun etibarilə elm sahəsini, onun mükəmməl anlayışlar sistemini əhatə etməklə bilavasitə bu anlayışların mənimsənilməsinə istiqamətləndirilir. Belə kurikulumların keyfiyyətində biliklərin həcmi və miqdarı əsas rol oynayır. Bütün praktik bacarıqların yerinə yetirilməsində məqsəd biliklərin möhkəmliyini, davamlılığını artırmağa xidmət göstərməkdən ibarət olur. Praktik əhəmiyyət daşıyan bacarıq, vərdiş və qabiliyyətlər arxa plana keçir, fənnin elmi potensialı artır, məlumatlıq səviyyəsi çoxalır. Şagirdlər özlərinə praktik cəhətdən lazım olmayan fundamental bilikləri öyrənmək məcburiyyətində qalırlar.

Şəxsiyyətyönümlü kurikulumlar bilavasitə həyati bacarıq və vərdişlərə üstünlük verilməsi ilə fərqlənir. Bu kurikuluma görə, insanın gələcək həyat fəaliyyətində lazım olacaq praktik bacarıq və vərdişlər əhatə edilir, onun əqli fəaliyyətlə bağlı qabiliyyətlərinin formalaşması ön plana çəkilir.

Tələb olunan bacarıq və vərdişlərin formalaşdırılmasına imkan yaradan minimum biliklərin həcmi müəyyənləşdirilir. Bu biliklər minimum təlim məqsədlərinə çatmaq üçün vasitə kimi nəzərdə tutur.

Şəxsiyyətyönümlü kurikulumlar inteqrativ məzmunu ilə seçilir. Oradakı fənlərin adlandırılmasında, məzmunun müəyyənləşdirilməsində şəxsiyyətin formalaşması üçün əhəmiyyət kəsb edən və bilavasitə insanın şəxsi fəaliyyəti üçün lazım olan tələblər əsas götürülür.” (Qəhrəmanov, 2012: 10)

Gətirdiyim sitatın son cümləsi yeni təhsil sistemini, yəni kurikulumun nə olduğunu dəqiq izah edir; “...şəxsiyyətin forma-

laşması üçün əhəmiyyət kəsb edən və bilavasitə insanın şəxsi fəaliyyəti üçün lazım olan tələblər əsas götürülür.”

Kurikulumu internetə bənzədə bilərik. İnternet kimi kurikulum da, sadəcə, insana ehtiyacı olan yaxud ola biləcək, yararlı və bütün dünyaya açılmağa imkan verən sistemdir. Belə bir təhsil sisteminin ölkədə tam təşkili və tədrisi hər bir təhsilalanın öz potensialı çərçivəsində maksimum nəticə alacağına dəlalət edir.

Kurikulum “vəzifə”lərinə görə heç də ənənəvi təhsildən geri qalmır, lakin bununla yanaşı digər səhifələri də işıqlandırır. İnsanı insan edən, yaşaması üçün lazımi mənəvi və maddi cəhətlərlə də təmininə şərait yaradır. Universitet, artıq bütün valideynlərin uşaqlarının gələcəyində “məcburi əsgərlik” kimi gördükləri qandal olmaqdan çıxır və potensiala uyğun peşə məktəbləri də seçim olaraq qoyulur. Çünki kurikulum sisteminin özəyində diplom deyil, insan kimi yaşamaq və yaşatmaq vaciblik təşkil edir.

Bu sistemi bir bəndlə də izah etmək olar:

“Bir elm öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.”

(Nizami Gəncəvi)

Ənənəvi təhsillə kurikulum sistemini qarşılaşdırarkən ən böyük fərq – məzmun xətləri nəzərə çarpır. Ənənəvi təhsildə “Azərbaycan dili” fənni üçün qarşıya qoyulan məqsəd, sadəcə, qaydaları öyrənmək və testdə seçməsi idisə, kurikulumda bu fənn üçün məzmun xətləri ortaya qoyulur, əsas və alt standartlarla fənnin “tam” qavranılması nəzərdə tutulur. “Azərbaycan dili” fənni üçün məzmun xətlərinin əhatə etdiyi əsas və alt standartlar oxu, yazı, dinləyib-anlama və danışma, dil qaydalarıdır.

Belə çıxır ki, dil qaydalarına qədər təhsialanı bu biliyə hazırlayacaq üsullar da ortaya qoyulur. Deməli, kurikulumla "Azərbaycan dili" fənnini, sadəcə, qaydadan ibarət keçmirik, həmin fənnin və eləcə də digər fənlərin qoyduqları məqsədləri həyata keçirərək tədris edirik, öyrənirik.

İstər köhnə, istərsə də yeni təhsil sistemləri sonda bir yerdə cəmləşir və qoyulan məqsədlərə cavab verib-verməməsi aydın olur. Buna "suqovuşan" da demək olar. Simvolik olaraq dediyim "Suqovuşan", təhsildə "qəbul sistemi" adlanır. Qəbul sisteminin cavablarına hansı növ təhsil daha çox uyğundursa, o da artıq rəğbət görür. 2017-2018-ci il tədris ilinin məzunu olduğum üçün həmin dövrün qəbul sisteminin cavablarına ənənəvi təhsil sistemi uyğun gəlirdi. Yuxarıda ənənəvi təhsillə bağlı qeyd etdiklərim işləkliyini qoruyub saxlasa belə, qəbul sisteminə uyğunlaşdığı üçün yetərli gəlirdi. Fəqət bunu da qeyd etmək lazımdır ki, hər tərəfli inkişafın yavaş getdiyi zaman dilimlərində heç kim qəbul sisteminin də dəyişdirilməsi ilə bağlı dəqiq nəsə deyə bilməzdi. Ona görə ki, kurikulum sisteminin yaşı bizim ölkədə çox yeni idi və hələ "yoxlama" hissəsində sayılırdı. Bu gün isə biz, özünü sübut etmiş, faydalarının daha çox olduğu, hal-hazırdakı dünya tələblərinə cavab verən kurikulum təhsilinin vacibliyini vurğulayır və bu təhsilin qoyduğu tələb və təklifləri həyata keçirmək adına keçməli olduğumuz vacib körpünün – qəbul sisteminin qabına uyğunlaşması üzərinə danışmalıyıq. Ondan ötrü ki, qəbul sisteminin həm ənənəvi təhsil, həm də kurikulum təhsil üzərindən suallar ortaya çıxarması təhsil müəssisələrinin tədris prosesində bu iki təhsil sistemini də əllərindən yerə qoya bilməməklərinə gətirib çıxarır. "Bir əldə iki qarpız tutmaq olmaz" atalar sözümüz də boş yerə deyilməyib. Məsələyə qüvvət, təhsil müəssisələrində də iki sistemi də əllərində tutmağa çalışan təhsilverənlər bunu yaxşı bacarmadıq-

larından ənənəvi təhsil sisteminin tətbiqi hələ də çoxluq təşkil edir.

Çoxluq təşkil edən ənənəvi sistemdə təhsil alan şagird artıq imtahan suallarında çətinlik çəkir. Biz bunu ən qabarıq şəkildə 2022-2023-cü tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul üçün verilən imtahan nəticələrində görürük. Belə ki, imtahan verən 92673 nəfərdən, təxminən, 23650 nəfər 0-50 bal arası nəticə göstərib. Bu da kurikulum sistemi ilə qoyulan suallara şagirdləri ənənəvi sistemlə hazırlaşdırmağın nəticəsi də hesab edilə bilinər.

Qəbul sistemində qoyulan suallar iki variantdır: qapalı test və situasiya sualları. Qapalı test ənənəvi təhsilin, situasiya sualları isə kurikulum təhsilinin meyvəsi kimi hesab olunur. "Əzbərçilik" modelindən bəhrələnən qapalı sualları yaddaşı yoxlamaq məqsədi ilə qoyulan qapalı suallarla əvəzləsək, görəsən, necə olar?

Problemin həlli və təhsil üçbucağının tərəflərini bərabərləşdirmək üçün məqsədyönlü sual belə olmalıdır: Kurikulum təhsil sisteminə tam keçmək üçün nə etmək lazımdır? Bu suala çox geniş cavablar verilə bilər. Ancaq əsas yollardan biri qəbul sistemini kurikulumun tələblərinə tam uyğunlaşdırmaqdır. Yalnız bu zaman hər bir təhsilverən öz proqramını kurikuluma əsasən hazırlayacaq. Əgər xaricə getmək üçün dil imtahanını vermək vacibdirsə, eləcə də bu üsulla qəbuldan keçmək üçün bu sistemi tətbiq etmək məcburi olacaq.

Əsas yollardan bir digəri də, büdcə ilə əlaqəlidir. Kurikulum təhsil sistemi təhsilalanları, sadəcə, dərslik və testlə, bir lövhə və markerlə deyil, daha tətbiqetməyə maraqlı ləvazimatlarla təmin edir. Buna qəsdən və ya büdcə yetərsizliyindən təminat

verə bilməyən müəssisələr məcbur ənənəvi təhsillə davam edirlər.

Təhsili əhatə edən bütün dərslərimizdə eyni məsələ ətrafında dövr edirik. İxtisasımıza hazırlaşarkən bizi narahat edən problemlərdən birisi də yetərsizlik olur. Əsasən, suallarımız bu şəkildə qoyulur; "Kurikulumun tələb etdiyi dərs planını hazırlayanda motivasiya hissəsində qoyduğumuz video lent, əgər elektron lövhə işləməzsə, necə olacaq?!"

Hələ ixtisasa başlamazdan öncə dilə gətirdiyimiz bu və ya digər suallar gələcəkdə problem olaraq gələrsə, məcburi ənənəvi təhsilə keçəcəyimiz indidən məlumdur. Bundan ötrü də bu və başqa əlçatan yerlərdə problemləri dilləndirmək və həlli üçün işləmək lazımdır.

Qaynaqlar

1. GÜLTƏKİN, M. (2018). *Təhsil elminə giriş,* Bakı: Xəzər Universiteti nəşriyyatı.
2. FİDAN, N., ERDEN, M. (1998). *Eğitime Giriş*, İstanbul: Alkım Yay.
3. RUSKİN, J. (2021). *Susam ve Zambaklar,* İstanbul:Şule yayınları.
4. QƏHRƏMANOV, A. (2012). *Təlim materialı,* Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi-Xəzər Universitəsi.

DIFFERENCES OF TRADITIONAL AND ACTIVE EDUCATION

Sitara VUSAL

Abstract

Education is not only the memorisation that we have been taught for 11 years, it is also a system that surround our life. Education helps us to keep important feelings like self-love, self-valuation, self-confidence, prosperity love, which helps us

protecting the self. It widens our imagination, show the whole world from a different angle and supports us to climb stepladders of life. We have to be cautious about teaching important things and by understanding these responsibilities, we should unite them in one right system. To be a right person for the society crosses from a high-quality education and good manners. In my opinion, our problems will be solved, when the educational system will not focus on money and instead focus on the education itself.

Key words: education, traditional, parents, examine, value

“VARLIĞIN DÖZÜLMƏZ YÜNGÜLLÜYÜ” ROMANINDA EKZİSTENSİALİZM MİLAN KUNDERA

Solmaz MİRZƏLİYEVA,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dr. Ülvi Babasoy

Milan Kundera Çexoslovakiyanın Brno şəhərində anadan olmuşdur (URL-3). Amma o, ölkəsindəki komunist rejimə qarşı çıxdığı üçün 1970-ci ildə Fransaya köç etmiş, Fransız vətəndaşı olmuş və orada yaşamışdır. “Varlığın dözülməz yüngüllüyü” Milan Kunderanın 1982-ci ildə yazılmış və ilk dəfə 1984-cü ildə Fransada nəşr olunmuş beşinci romanıdır.

Bu məqalədə də Kunderanın “Varlığın dözülməz yüngüllüyü” romanında ekzistensializm mövzusu təhlil edilir. Ekzistensializm insanın mövcudluğu problemini,var olmanın əhəmiyyətini, azadlığın və fərdi məsuliyyətin mahiyyətini araşdıran fəlsəfi araşdırma formasıdır. Romanda obyekt insan və onun hisslləridir. Kundera romanı dörd obrazın- Tomaş, Tereza, Sabina və Fransın üzərində qurmuşdur. Roman bəşəri mövzu olan qadın-kişi münasibətlərindən bəhs edir.

Əbədi dönüş ideyası ilə başlayan roman Çexoslovakiyanın işğalı dövründə 4 əsas xarakterin həyat hekayəsini, cinsəllik, eşq və müharibə mövzularını özündə əks etdirir. Postmodern ədəbiyyatın izlərini daşıyan romanın əsas obrazlarından olan Tomaş Praqada yaşayan bir həkimdir. Tomaşın düşüncəsinə görə insanın mövcud olması üçün onun bütün bağlardan azad olunması, yüngülləşməsi lazımdır. Arvadı Tereza isə sadəlövh, Tomaşdan asılı zəif qadındır. Məşuqəsi Sabina isə Terezanın əksi, Tomaşın qadın versiyası və yüngüllüyü özündə əks etdirən güclü qadındır. Frans isə Sabinaya böyük məhəbbətlə pərəstiş

edən məşuqdur. Təsadüf nəticəsində qarşılaşan Tomaş və Terezanın münasibəti sonra da davam edir. Tereza sevgisinə bağlı, sevdiyi insanla əlaqədə olmaq istəyən biri olsa da, Tomaş onun tam əksinə öhdəliklərə nifrət edən, hətta, öz öhdəliklərindən imtina etmək üçün oğlu və valideynləri ilə əlaqəsini kəsən adamdır.

Tomaşın Terezaya olan hissləri əvvəlcə mərhəmət hissi ilə başlasa da, sonradan məhəbbətə çevrilir. Tomaşın Terezaya olan hissləri onun özünü də təəccübləndirir. Çünki o, münasibət yaşadığı heç bir qadınla gecəni tam keçirmir və onlarla yenidən görüşməməyə çalışırdı. Yəni onlarla arasında xüsusi bir bağın olmasını istəmirdi. Amma Tereza ilə keçirdiyi gecə Terezanın qızdırmasının qalxması və gecəni onun evində keçirməsi ilə onların arasında önəmli bir sevgi bağı yarandı. Buna baxmayaraq Tomaş tam bir don Juan idi. Onun başqa qadınlarla olan cinsi münasibəti Terezanı narahat edib onun hər gecə kabuslar görməsinə səbəb olmuşdu. Tomaş üçün sevgi və fiziki yaxınlıq fərqli anlayışlar idi. Onların münasibətini canlı saxlayan tək şey Terezanın Tomaşa olan sədaqətidir. Tereza işləmək istədiyini bildirərkən Tomaş onu məşuqəsi Sabina ilə tanış edir. Sabina Tomaşla münasibətdə olsa belə, Terezaya fotosessiyanın təfərrüatlarını öyrədir, onun jurnal işçisi kimi fəaliyyət göstərməsinə yardım edir. Sabina Tomaş kimi sədaqətin onu ələ keçirəcəyini düşünür, Tomaş kimi azadlığına düşkün hətta gücünü azadlığından alan bir xarakterdir. Sevgilisi Fransı sevməsinə baxmayaraq bir insana bağlı olmamaq üçün və Fransın daxilən zəif olduğunu düşündüyü üçün ondan ayrılır. Çexoslovakiyada SSRİ-nin işğalı ilə tanklar şəhərlərə daxil olub idarəetməni ələ keçirirlər. Ölkə sanki açıq havada həbsxanaya çevrilir. Bu səbəbdən Tomaş və Tereza Sürixdə məskunlaşmalı olurlar. Sürixdə həyat Tereza üçün çox çətin olur. O hər cəhətdən Tomaşdan

asılı vəziyyətə düşür və tənhalaşır. Bu səbəbdən də Tomaşı tərk edərək Praqaya qayıdır. Onun bu gedişi Tomaşa təsir göstərir və ona bağlanır. Məhz bu səbəb onu ölkəsinə qayıtmağa vadar edir. Amma heç nə əvvəlki kimi olmur: ölkələri işğal olunub, yaşadıqları yerə yad olublar. Terezanın istəyi ilə onlar kiçik bir kənddə məskunlaşmağa qərar verirlər. Tereza fikirləşir ki, onlar kənddə Tomaşın məşuqələrindən, polislərdən və bütün problemlərdən uzaq olacaqlar. Onlar həqiqətən də burada daxili bağlarından və bütün missiyalarından qoparaq azadlığa nail olurlar.

Nəticə

Kunderanın bu romanı var olmanın yüngüllüyünü deyil də, daha çox ağırlığını hiss etdirir. Yazıçı romanda ağırlıq və yüngüllük anlayışlarını təsvir edərək, həyatda əbədi təkrarların ağırlıq, bir dəfə yaşanan şeylərin isə yüngüllük olduğunu vurğulayır. Əsərdəki hadisələr təsadüf nəticəsində tanış olub bir-birini sevən Tomaş və Terezanın hekayəsi ilə başlayır. Tomaş insanın mövcud olması inancına görə oğlundan da uzaq durur və heç kimlə uzunmüddətli olmayan münasibətlərlə həyatına davam edir. O həyatdakı fərqliliyi qadınlarla olan cinsi münasibətlərində axtarır. Tereza isə bağlılığa dərin ehtiyac duyan, zəif xarakter kimi qarşıya çıxır. “Həyat mənim üçün çox ağır, amma sənin üçün çox yüngüldür. Mən dayana bilmirəm bu yüngüllüyə və azadlığa. Yetəri qədər güclü deyiləm və gücsüzlərin ölkəsinə geri qayıdıram” Terezanın zəifliyini əsərdə Terezanın dilindən deyilən cümlələr ilə daha aydın göstərmiş olarıq. Ülvi Babasoyun da dediyi kimi: “Terezanın ölümü insanlığın ölümünə işarədir. Yer üzündə sadəlövh və zəif insanlara yer yoxdur” (URL-1). Terezanı mənəviyyat cəhətdən zəif, var olma fəlsəfəsinə görə isə ağırlığın rəmzi olaraq göstərə bilərik. Sabinanı yüngüllüyün dramı, Tomaşı isə daha çox ekzistensialist obraz

kimi qiymətləndirə bilərik, çünki ekzistensialistlər üçün insan cəmiyyəti və insanların həyatı başdan-başa "anlaşılmazlıq"dan ibarətdir. İnsanlar arasında sevgi və bağlılıq yoxdur, ancaq seks var. İnsanların ünsiyyəti yalnız səthi ünsiyyətdir və qəlbin dərinliklərinə toxunmur.

Qaynaqlar:

1. KUNDERA.M. (2021). "*Varlığın Dözülməz Yüngüllüyü"*. (Çev. Aslan Quliyev). Bakı: Qanun
2. URL-1: Babasoy Ülvi. (2015). "Ədəbiyyatın Zamanı Ram Etmə Dərdi" https://www.azadliq.org/amp/27443633.html. (Resursa baxış tarixi: 15.06.2021. 19:54)
3. URL-2: Umudova Şəms. (2022). "Dözülməz Yüngüllüyü Olan Varlıq" Əsəri https://www.ceylanmumoglu.com/tr/article/sems-umudova-dozulmez-yungulluyu-olan-varliq-eseri. (Resursa baxış tarixi: 15.06.2021. 20:00)
4. URL-3: Vikipediya. Bu səhifə sonuncu dəfə 27 yanvar 2022 00:39 tarixində redaktə edilib. Milan Kundera — Vikipediya (wikipedia.org). (Resursa baxış tarixi: 15.06.2022. 19:59)

EXİSTENTİALİSM İN "İNTOLERABLE LİGHTNESS OF BEİNG" *MİLAN CUNDERA*

Solmaz MİRZALİYEVA

Abstract

Milan Kundera was born in Brno, Czechoslovakia. But in 1970 he emigrated to France because of his country's communist regime, became a French citizen and lived there. "The intolerable lightness of being" is Milan Kundera's fifth novel, written in 1982 and first published in 1984 in France.

In this article Milan Kundera's novel "The intolerable lightness of being" analyzes the subject of existentialism. Existentialism is a form of philosophical research that

investigate the problem of human existence, the importance of being, the essence of freedom and individual responsibility. Human and their feelings are object in this novel. Kundera's novel is based on four characters: Thomas, Teresa, Sabina and Frans. The novel is about the relationship between men and women, which is a human subject.

Key words: weight, lightness, spirit, body, misunderstanding

NİZAMİ GƏNCƏVİ YARADICILLIĞINDA TƏRBİYƏ MƏSƏLƏLƏRİNƏ ÜMUMİ BAXIŞ

Tahirə YUSİFOVA,
Azərbaycan Dövlət Pedaqoji Universiteti, bakalavr,
Elmi rəhbər: prof. Yaqub Babayev

Dünya ədəbiyyatında parlaq səhifə açmış dahi şairimiz N.-Gəncəvi öz lirikasında bir çox mövzulara yer vermişdir. Bunun ən başlıcasını tərbiyəvi məsələlər, mənəvi əxlaqi dəyərlər, müsbət keyfiyyətlər əks etdirir. Tərbiyə anlayışı insan şəxsiyyətinin inkişafına, onun müasir mədəni dünyagörüşünün formalaşmasına, müəyyən baxışların yaranmasına yönəlmiş məqsədyönlü peşəkar fəaliyyətdir. N.Gəncəvi yaradıcıllığında tərbiyə prossesinin demək olar ki bütün tərkib hissələrinə toxunulmuşdur. Bildiyimiz kimi dahi şairin yaradıcıllığında əqli tərbiyə, mənəvi tərbiyə, əxlaq tərbiyəsi, estetik tərbiyə, ekoloji tərbiyə, hüquq tərbiyəsi, əmək tərbiyəsi və s. kimi tərbiyə növləri daha qabarıq şəkildə təzahür edir.

Neçə əsr ötsə də Nizami irsindən "əxlaq dərsliyi" kimi faydalanırıq. Ümummilli Liderimiz Heydər Əliyev Nizami Gəncəvinin yaradıcıllığından danışarkən deyirdi: "Azərbaycan xalqının tarixini, mədəniyyətini, ədəbiyyatını, şeirini Şərq aləmində, bütün dünyada Nizami Gəncəvi ilə tanıyırlar... Bu gün də bizim ədəbiyyatımızın, şeirimizin, mədəniyyətimizin əsas mənbələrindən biri Nizami Gəncəvi yaradıcıllığı, onun əsərləri – "Xəmsə"si – poemalarıdır. (Əmirəliyeva, 2018:13)

Nizaminin pedaqoji ideyalarında tərbiyə ümumbəşəri mövzudur. Şair dinindən, cinsindən, heç bir millət fərqliliyindən asılı olmayaraq bütöv bir cəmiyyət üçün öyüd verir. Etiraf etməliyik ki, müasir dövrdə tərbiyənin aktuallığı digər dövrlərə

nisbətən daha mühümdür. Nizami irsi isə səkkiz əsrdən artıqdır ki, öz müasirliyini qoruyub saxlayır. Dahi sənətkarımız "Xəmsə" başlığı altında qələmə aldığı irihəcmli poemlarının hər birində insanlara əxlaqi, etik, tərbiyəvi mövzular ilə səslənir. İnsanın əxlaqi saflığı uğrunda mübarizə aparan N.Gəncəvi müsbət əxlaqi keyfiyyətləri tərənnüm etməklə kifayətlənməyib, hətta insanın mənəvi aləminə zərər vuran mənfi əxlaqi sifətləri də deməkdən çəkinmir.

Apoyev N.Gəncəvinin öz oğlunun timsalında gənc nəslə tövsiyə etdiyi aşağıdakı aspektləri ayırd etmişdir (Apoyev, 2012:8):

- insan cavanlıq yaşından qeyrətlə çalışmalı, hünər göstərməlidir; atasının səbəbinə deyil, öz hünəri ilə uğurlar qazanmağa çalışmalıdır;
- cəmiyyətdə öz yerini tutmaq üçün ağıllı-kamallı olmaq, xalqa hörmətlə yanaşmaq

lazımdır;

- insan hisslərini cilovlamağı bacarmalı, Allah yolundan kənara çıxmamalıdır;
- insan bir elmi və ya peşəni öyrənmək istədikdə onu dərindən öyrənməli, öz peşəsinin kamil ustası olmalıdır;
- hər bir cavan atanın öyüd-nəsihətinə qulaq asmalı, onlara əməl etməli, veyil-veyil gəzməməlidir

"Xəmsə"də yaş dövrləri, onların səciyyəvi xüsusiyyətləri haqqında da qiymətli fikirlərə rast gəlirik. Dahi şair Aristotelin apardığı bölgüyə uyğun olaraq, üç dövrü xüsusi qeyd edir: 1) 7 yaşadək; 2) 7 yaşdan-14 yaşadək; 3) 14 yaşdan-21 yaşadək. Aristotel bu dövrləri müvafiq olaraq belə adlandırmışdır: 1)bitki dövrü: 2)heyvan dövrü; 3)kamillik dövrü. (Apoyev,2008:22)

"Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" poemalarına daxil olan "Oğlum Məhəmmədə Nəsihət" şeirləri də bu

səpkidəndir. Şair "Oğlum Məhəmmədə nəsihət" adlandırdığı şeirini birinci dəfə övladının 7 yaşı tamam olanda, ikinci dəfə 14 yaşı tamam olanda, üçüncü dəfə isə 21 yaşı tamam olanda qələmə almışdır. Nizami tərbiyədə yaşauyğunluq prinsipini göz önündə tutur. Oğlunun timsalında gənclərin tərbiyəsində pedaqoji və psixoloji məqamlara toxunaraq, belə nəsihət edir:

Elə ki böyüdün, belədir qayda,
Atanın adından sənə nə fayda?
Sən aslanlar kimi keç cəbhələrdən,
Yalnız hünərinin balası ol sən!
Səadət kamalla yetişir başa,
Xalqa hörmət elə, ədəblə yaşa,
Öz adına layiq işlər gör ki, sən,
Axırda utanma xəcalətindən.
Oğul, sözlərimə yaxşı qulaq as! (Gəncəvi,2004:51).

Ağıl tərbiyəsini, tərbiyənin ən ümdə tərkib hissələrindən biri hesab edən N.Gəncəvi müasir elmi pedaqogikadan hələ səkkiz əsr əvvəl göstərmişdir ki, əqli tərbiyənin başlıca vasitəsi təlimdir. Dahi şair, görkəmli pedaqoq-psixoloq kimi təlim prosesində uşaqların yaş xüsusiyyətlərini nəzərə almağın zəruriliyini klassik pedaqoqlardan çox-çox əvvəl irəli sürmüşdür. (Apoyev, 2008:46)

Nizami yaradıcıllığında tərbiyə mövzusunun həmişəyaşarlılığının bir detalı da, toxunduğu problemlərin həlli yollarını verməsindədir. Şair hər bir əsərində həm tərbiyəçi, həm pedaqoq, həm də cəmiyyətin təlim, tərbiyəsinə biganə yanaşmayan vətəndaş kimi diqqəti çəkir. Bütün bu hallar Nizami poeziyasında insanı dü-şündürür. O, dəyərli misralarında gəncləri dostluğa, yoldaşlığa, birliyə səsləyir. Bunlarla bərabər tərbiyənin bütün sahələrini öz lirikası üçün əsas sayır. Beləliklə, Nizami poeziyasıda tərbiyə başlıca mövzulardan biridir. Elə bu səbəbdən də bütün dövrlər üçün aktualdır.

Qaynaqlar

1. Apoyev, B. (2012). *Nizami Gəncəvi irsindən pedaqoji prosesdə istifadə işinin sistemi.* Bakı nəşriyyatı.
2. Apoyev, B (2008). *Nizami Gəncəvinin pedaqoji görüşləri*. Bakı: Adiloğlu nəşriyyatı, 244 səh.
3. Əmirəliyeva,İ.(2018). *Pedaqoji fikir tarixidən*. Bakı: Mütərcim, 112 səh.
4. Gəncəvi,N.(2004). *Leyli və Məcnun*. Bakı: Lider Nəşriyyatı, 288 səh.

OVERVIEW OF EDUCATIONAL ISSUES IN NIZAMI GNJAVI CREATIVITY

Tahira YUSIFOVA

Abstract

Nizami Ganjavi, with his rich and comprehensive creativity, sang the humanistic, moral ideas that always make mankind think. All areas of education are reflected in Nizami's valuable, instructive works. Moral qualities play a key role in Nizami's work. The article gives an overview of the issues of education in Nizami's work. The article uses the method of collecting and selecting facts.

Key words: N. Ganjavi, education, moral values, self-education, overview

TÜRK DİLLƏRİNDƏ MODALLIĞIN İFADƏSİ

Tuğra XƏLİLOVA,
Odlar Yurdu
Universiteti, magistratura,
Elmi rəhbər: dr.
Sevinc Qəmbərova

Təqdim olunan işdə modal sözlərin spesifik xüsusiyyətləri, modallıq kateqoriyası və felin şəkillərinin müqayisəli öyrənilməsi bəhs olunmuşdur. Eyni zamanda türk dillərində modallıq çalarlığı, söz birləşmələri, tərkib halında olan birləşmələrlə ifadə olunması öz əksini tapmışdır. Bununla belə, modallığın cümlənin ən vacib əlamətlərindən biri olması da əks olun-muşdur. Müasir türk dillərində modal məna çalarlığı söz birləşmələri, sintaqmalar və müxtəlif ifadə vasitəsi ilə də edilə bilməsi böyük maraq doğurur. Modal sözlər mənanın zəifləməsi nəticə-sində əsas nitq hissələrindən təcrid olunması, mənanın zəiflə-məsi, həmin sözlərin sintaktik vəzifəsinin dəyişməsi mövzunun əsas məsələlərindən biridir.

Müasir türk dillərində modal sözlərin müstəqil bir leksik-qrammatik kateqoriya kimi fərqləndirilməsi yeni hadisədir. Modal sözlər hansı üzvün hətta birləşmənin yanında gəlirsə gəlsin, yenə də bütün cümləyə, bütün fikrə aid olacaqdır. Eyni zamanda Azərbaycan dilçilik ədəbiyyatında modal sözlərə münasibət müxtəlifdir. Bəzən modal sözlər ayrıca köməkçi nitq hissəsi kimi verilir, bəzən isə onlar ədatların tərkibində səciyyələndirilir.

Modal sözlərin mahiyyətini dəqiq müəyyənləşdirmək üçün, modallıq kateqoriyası haqqında, müəyyən məlumata yiyələnmək lazımdır. Modal sözlər türk dillərində yeni bir məsələ olmuşdur. Modallıq hökmün gerçəkliyinin dərəcə və xarakterini əks edirir. Fərhad Zeynalovun fikrincə, modallığa görə hökmün

üç növü vardır: zərurilik, həqiqilik və gerçəklik (Zeynalov,2008,s.354). Məhz bu xüsusiyyətə görə, latın dilçiləri danışanın gerçəkliyə münasibətini ifadəetmə bacarığını modus adlandırmışlar. Dilçilik ədəbiyyatında belə bir fikir mövcuddur ki, hər bir cümlədə modallıq öz əksini tapır.

Modallıq, türk dillərində əsasən, aşağıdakı ifadə vasitələrinə malikdir: intonasiya, felin şəkilləri, söz sırası, söz birləşmələri, modal sözlər və modal ədatlar. Türk dillərində intonasiya hər hansı bir cümlənin mövcudluğu və ifadəsinin zəruri bir əlaməti kimi özünü göstərir.

Modallığı meydana çıxaran vasitələrdən biri də felin şəkilləridir. Türk dillərində, modallıq çalarlığı sözün sırası, tərkib halında olan birləşmələrlə də ifadə oluna bilər. Türk dillərində, sözlərin təkrarı ilə də modal çalarlıq ifadə edilə bilir. Türk dillərində modallığın ifadə vasitələrindən biri də modal sözlərdir. Nitq hissələri içərisində modal sözləri ayrıca bir qrup kimi fərqləndirmək məhz N.K.Dmitriyevə aiddir. O, türkologiyada ilk dəfə olaraq başqırd dili materialları əsasında ədatlarla müstəqil sözlər arasında keçid təşkil edən xüsusi bir qrup, modal sözlər qrupunu fərqləndimişdir.

Modal sözlər məsələsi nəinki türkologiyada, eləcə də ümumi dilçilikdə yeni və həll edilməmiş məsələlərdən biridir. Müasir türk dillərinin qrammatik quruluşunda modal sözlərin mövqeyi hələlik qəti müəyyənləşməmişdir. Bunun səbəbi budur ki, modal sözlər dildə son zamanlar meydana çıxmış və tam formalaşmamışdır. Modallıq kateqoriyası heç də insani hisslərin emosional çalarlıqlarının inikasını deyil, nitqin məzmununun reallıq, zərurilik, ehtimallıq və s. cəhətdən gerçəkliyə münasibətini bildirməyə xidmət edir. Aşağıdakı cümlələrə diqqət yetirək: Məncə, həyat girdabında Azad əl-qol açacaq qüvvəyə malik deyildi; Kim bilir, bəlkə də biz ömrümüzün yarısını ar-

tıq yaşamışıq; Doğrudan da, ocaqları yenidən yanmış elin ürəyi ümidlə dolur və s.

Yuxarıda verilən üçüncü misalda doğrudan modal sözü danışanın real varlığa münasibətini, yəni ehtimallıq, gerçəklik bildirməyə xidmət edir. Modal sözlər türk dillərinin qrammatik quruluşunda sabitləşmək üzrə olan keçid xarakterli söz qruplarıdır. Bunların ayrıca nitq hissəsi olub-olmaması türkologiyada mübahisəlidir.

Buludxan Xəlilovun fikrincə, modallığın bir sıra vacib cəhətləri vardır: 1) İstənilən bir cümlədə obyektiv aləmə məxsus bu və ya digər hadisə barədə məlumat verilir. 2) Modallıq modal sözlərlə yanaşı, ara sözlərlə, feilin xəbər, əmr, arzu, vacib, lazım, şərt formalarının şəkilçiləri və şəxs şəkilçiləri ilə ifadə oluna bilir. 3) Modallıq obyektiv və subyektiv olmaqla bir-birindən fərqlənir (Xəlilov,2017,s.428). Buludxan Xəlilov belə bir fikir irəli sürmüşdür ki, modallıq münasibət deməkdir. Münasibətdən kənarda cümlə yoxdur. Rabitəli nitq vahidi olan cümlə hər hansı hadisəyə, əşyaya, obyektə və sairəyə münasibət bildirir.

Modal sözlər mənanın zəifləməsi nəticəsində əsas nitq hissələrindən təcrid olunur. Mənanın zəifləməsi ilə əlaqədar olaraq həmin sözlərin sintaktik vəzifəsi də dəyişmiş olur. Beləliklə də müstəqil leksik mənalı sözlərdən yeni bir modal sözlər təcrid olunur. Lüğəvi mənasını itirərək müxtəlif münasibətlərin ifaçısı kimi çıxış edən hər hansı bir söz modal söz ola bilməz. Çünki bu tipli sözlər hökmən ehtimallıq, zəruriliklə əlaqədar xüsusiyyətləri əks etdirmək qabiliyyətinə də malik olmalıdır. Türk dillərində bu məsələyə aid əksər yazılarda modal sözlərin tərkibinə ehtimallıq, mümkünlük, gerçəklik və s. bildirməyən sözlərdə daxil edilmişdir. Subyektiv modallıq heç də fərdin emosional hissləri deyildir. Subyektiv modallıq danışanın real gerçəkliyə, eləcə də söylənilən fikrə münasibətidir. Buna görədə

modal sözlərin içərisində cümlədə ifadə olunan fikrə qarşı emosional münasibət bildirən qrup ayırıb, bunları modal sözlər adlandırmaq düzgün deyil. Məsələn: heyif ki, təəccüblənirəm, bədbəxtlikdən və s.

Nəticə

Təqdim olunan işdə türk dillərində modal sözlərin spesifik xüsusiyyətləri, dilçilik və türkologiyada yeni bir məsələ olması, müzakirə olunur. Burada modal sözlərin cümlədə oynadığı sintaktik vəzifədən, dildə modallığın nitqin məzmununun gerçəkliyə münasibətindən və danışanın reallıq, zərurilik, mümkünlük və s. bəhs olunur.

Qaynaqlar

1. Xəlilov B. “Müasir Azərbaycan dili”. Bakı, “Adiloğlu” 2017, 428 səh.
2. İbrahimov M. Seçilmiş əsərləri. İki cilddə I cild. “Şərq-Qərb”, Bakı, 2005, 432 səh.
3. Zeynalov F.R. Türk dillərinin müqayisəli qrammatikası. Bakı, MBM nəşriyyatı, 2008, 354 səh.
4. Kazımov.Q.Ş. “Müasir Azərbaycan dili”. Bakı, “ Təhsil”,. 2007, 496 səh.
5. Seyidov Y. “Müasir Azərbaycan dili”. Sintaksis. Bakı, Şərq-Qərb”, 2007, 424 səh.

THE EXPRESSİON OF MODALİTY İN TURKİC LANGUAGES

Tugra KHALİLOVA

Abstract

Specific features of modal words, modality category and verb in the presented work comparative study of images. At the same time modality in Turkish languages shades, word combinations, and expressions in the form of compounds. However, modality is also shown to be one of the most important features of a sentence. It is of great interest that in modern Turkish languages modal meaning can be done through word combinations, syntagms and various expressions. Isolation of modal words from the main parts of speech as a result of weakening of meaning, weakening of meaning, change of syntactic function of these words is one of the main issues of the topic.

Key words: Turk, language, sentence, word

İHSAN OKTAY ANARIN "DUMANLI QİTƏLƏR ATLASI" ROMANININ MAHİYYƏTİNDƏ DAYANAN ƏSAS MƏSƏLƏLƏR

Türkan NAĞIYEVA,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dr. Ülvi Babasoy

İhsan Oktay Anar tarixə, mistikaya münasibəti ilə, gerçəklə fantastikanın birləşdiyi romanları ilə diqqət çəkən yazıçıdır. Allen Qinsberq, Uilyam Berrouz, Oğuz Atay, Vladimir Nabokov kimi postmodern ədəbiyyatının nümayəndələri sırasında özünəməxsus yer tutan Anarın 1995-ci ildə çap edilmiş ilk romanı "Dumanlı Qitələr Atlası" iyirmidən çox dilə tərcümə edilmiş, həm məzmun, həm forma baxımından yüksək qiymətləndirilmiş, ətrafına böyük oxucu kütləsi toplamışdır. Tədqiqat üçün roman janrının seçilməsinin əsas səbəbi bu janrın bir sıra həyati məsələlərə dair mətləbləri əl çatan etməsidir. "Dumanlı Qitələr Atlası" fantastik elementlərlə yüklənmiş, özündə bir çox önəmli və həyati məsələləri birləşdirən romandır. Əsərin əsas personajları – Bünyəmin və Uzun İhsan Əfəndinin vasitəsilə "xəyal və gerçək arasında məchul yol", "səyahət və ibadət", "daxili dünyaya səfər" kimi mətləblərə toxunulub.

Giriş

İhsan Oktay Anarın "Dumanlı Qitələr Atlası" romanı var olduğumuz dünyadan fərqli diyara səyahət etməyə, görməyə alışmadığımız bir-birindən fərqli obrazlarla tanış olmağa, macəra dolu aləmdə qeyb olmağa imkan verir. Fantastik üslubda qələmə alınan əsərdə müəllif tarixi gerçəkliklə nağılvari əhvalatları bir-birinə pərçimləyib fərqli baxış bucağı ortaya qoymuşdur. Romanda fərqli mövzular əhatələnib: "xeyirlə şərin mü-

barizəsi", "zaman qavramı", "yaradılmayanı anlamaq", "fikrən və cismən səyahət", "düşünürəmsə, demək, varam" və s. Əsərin sehrinə daldıqca özümüzü hadisələrin mərkəzində tapırıq, müxtəlif mövzular bizi düşünməyə vadar edir və biz yalnız bir istiqamətdə düşünmürük, fərqli rakurslardan hadisələrə nəzər yetiririk. Müəllif oxucusunu öz xəyal dünyasına daxil edir, onu düşünməyə vadar edir. Lakin hadisələrin xəyallarda gerçəkləşməsi və ya reallıqda baş verməsini demək çox çətindir. Hər xəyal aləmində bir reallıq, gerçəklikdə isə xəyal qırıntıları özünü göstərir.

Xəyaldan gerçəyə məchul yol

Hadisələr İstanbulun müxtəlif səmtlərində (meyxanalar, limanlar, ticarətxanalar və s.), fərqli zamanların əhatəsində (XVII əsrdən XX əsrə qədər müxtəlif zaman dilimlərində) cərəyan edir. Uzun İhsan Əfəndi düşüncələri ilə, xəyallar aləmi və real obrazı ilə diqqət mərkəzindədir. Əsas personaj Uzun İhsan Əfəndi içdiyi yuxu şərbəti ilə dərin röyalara qərq olur və gördüyü əsrarəngiz yuxuların sirlərini açaraq atlas yaradır, hansı ki, onu "Dumanlı Qitələr Atlası" adlandırır. Bu obraz İhsan Oktay Anarın özü tərəfindən təsvir olunmuş prototipidir. O, həm adı ilə, həm fiziki xüsusiyyətlərinin təsviri ilə müəllifi xatırladır, yazıçı düşüncələrini oxucularına daha çox onun vasitəsilə çatdırır:

> *"Rendekar düşünməkdən var olmaq nəticəsini çıxarır. Mən də düşünürəm, buna görə də varam, bəs yaxşı, mən kiməm? Qalatada Yelkənci karvansarasına bitişik bir evdə yaşayan Uzun İhsan Əfəndi, yoxsa üç yüz səkkiz il sonra İzmirdə yaşayan qəmli və şaşqın adam? Hansımız xəyal, hansımız gerçəyik?" (Anar, 2021, səh.256)*

Yazıçı sanki bizi xəyallar labirintinə salıb gerçəkliyə yol tapmağımızı istəyir və bu yolda özü də bizimlə birgə addımlayır.

Modern fəlsəfənin atası kimi fəlsəfə tarixində özünə yer etmiş XVII əsr fransız filosofu Rene Dekartın "düşünürəmsə, demək, varam" tezisindən çıxış edən müəllif var olmanın mahiyyətini izah etməyə çalışır. Düşünürüksə, demək, varıq, varıqsa, demək, düşünməliyik. Ətrafında baş verən hadisələri, fikirləri, həyatın özünü, hətta bəzən "yaradılan"ın "yaradılmayan"ını sorğulamaq var olmağımızın bəlirtisidir. Düşünmək mövcudluğun nəticəsidir.

Macəra ibadətdir

İhsan Oktay Anar macəranı, səyahəti ibadət qədər vacib sayır, hətta bərabər tutur. Dünyaya şahidlik etməyin ən gözəl yolu macəraya atılmaqdır. Bu yolda nə qədər iztirablar çəkilsə də, nə qədər çətin olsa da dünyanın min bir halını öyrənməkdən vaz keçməməyi yazıçı təsirli dillə izah edir:

> *"Amma bilmək və gözlə görmək ən böyük xoşbəxtlikdir. Macəra isə böyük bir ibadətdir, çünki Onun əsərini tanımaq üçün başqa yol bilmirəm. Mən də öz yolumu tutdum – dünyanı yuxularımla kəşf etməyə çalışdım. Bu, kifayət qədər cəsur olmamağımın bir əlamətidir, yəqin ki. Sənin də eyni səhvi eləməyinə bais olmaq istəmirəm. Sənə icazə verirəm. Get və görə bilmədiklərimi gör, toxuna bilmədiklərimə toxun, sevə bilmədiklərimi sev və hətta bu atanın çəkməyə cəsarət etmədiyi əziyyətləri çək. Dünyadan və onun min bir hadisəsindən qorxma". (Anar, 2021, səh.59)*

Uzun İhsan Əfəndi üzünü oğlu Bünyəminə tutub dediyi sözləri eyni zamanda bizə də aid edir, dünya adlı kitabı oxumağa çağırır və yaşadığımız aləmi tanımağın ən gözəl yolunun macəra, səyahət olduğunu vurğulayır. Onun görə bilmədiklərini

görməyimizi, toxuna bilmədiklərinə toxunmağımızı, sevə bilmədiklərini sevməyimizi istəyib bu yolda cəsarətli olmağa, qorxmamağa çağırır və bu, yazıçının ən içdən, səmimi duyğularını əks etdirən bir çağırışdır.

> *"İnsanların dünyada qorxduğu yeganə şey öyrənməkdi. Ağrını, susuzluğu, aclığı və kədəri öyrənmək onların yuxusunu qaçırır, rahatlığını pozur. Ona görə də daha rahat döşəklərə, daha dadlı yeməklərə və daha şən dostlara pənah aparırlar. Onların bu biganəliyi bəzən o həddə çatırdı ki, qızıl və gümüşdən, zövq və səfadan, ləzzət və şəhvətdən bir dünya qurur, tale və iztirab düşüncələrini yaxına buraxmırdılar". (Anar, 2021, səh. 100)*

Bu bir neçə cümlə daxilində yazıçı bizə sanki bir-birinə zidd iki dünya modeli təqdim edir: biri ağrı, acı, iztirab dolu, digəri zövq, səfa, sərvət dolu dünya. Əlbəttə ki, insanı maraqlandıran onun rahatlığını təmin edəcək olan həyatdır. Məhz bu məqamda müəllif dünyanı müşahidə etməyin həqiqi ibadət olduğunu deyib oxucusundan dünyanı bu və ya digər şəkildə oxumasını istəyir. Dünyanın hər üzü ilə tanış olmaq üçün, bu aləmi daha yaxından tanıyıb öyrənmək üçün macəra ən gözəl və ən uyğun yoldur. Az öncə də qeyd etdiyimiz zidd dünyalara daxil olub özümüzü müxtəlif vəziyyətlərdə təsvir edib səfaləti, zənginliyi, aclığı, toxluğu, kədəri, şənliyi daha yaxından duyub fərqli hissləri ruhumuza məhrəmləşdirə bilirik.

> *"Yaşadıqları, gördükləri və öyrəndikləri nə qədər ağrılı olsa da, macəra bəşər övladı üçün bir nemət idi. Çünki dünyada ən böyük xoşbəxtlik bu dünyanı müşa-hidə etmək idi". (Anar, 2021, səh.100)*

Dünyanı müşahidə etmək doğurdan da böyük bir xoşbəxtlikdir. Öyrənmək, öyrənməkdən qorxmamaq, macəralara atıl-

maq üçün İhsan Oktay Anar oxucusuna mükəmməl şəkildə cəsarət verir. Yazıçının ibadətə bərabər tutduğu səyahət heç də kor-koranə gəzib dolaşmaq mənasını vermir. Əgər belə olsaydı əsər böyük dəyər kəsb etməzdi. Romanı oxunaqlı və maraqlı edən başlıca səbəb kitabın səhifələrini adladıqca "macəra" sözünün arxasında gizlənən dərin mənalar okeanına dalıb yazarın xəyal aləminin dumanlı qitələrində özümüzü tapmaqdır.

Fikrən və cismən səyahət

Səyahətin öyrənib kəşf etmək baxımından faydalı olmasından bəhs etdik. Lakin müəllif səfər etmək deyərkən, görünəni görmək, toxunula bilənə toxunmaqla yanaşı var olmayana toxunmaq, onu görmək və hiss etmək üçün insana öz daxili dünyasına səfər etməyi məsləhət görür. "Macəra" kəlməsinin altında yatan bir başqa məna da məhz budur ki, insan öz daxili dünyasına səyahət edib öz düşüncələri ilə baş-başa qalmalı, həyatı sorğulamalı, öyrənməlidir. Əsərdə müəllif Uzun İhsan Əfəndi obrazı vasitəsilə fikrən, Bünyəmin obrazı vasitəsilə cismən səyahəti təsvirə çəkir: atanın düşündüklərini oğul yaşayır. Müəllifin öyrətdiklərini də biz oxucular öyrənirik, eynilə Bünyəminin öyrəndiyi kimi. Bu xəyallar qitəsində macəralara onunla birgə atılıb səfərində yol yoldaşı oluruq, öyrəndiklərinə biz də şərik oluruq.

> *"Mən bu dünyaya bilib öyrənmək üçün gəlmişəm. Mənim üçün müqəddəs bir şey varsa, bu həm bu dünyanın, həm də o biri dünyanın bilgisini əldə etməkdir. Bu səbəbdən öyrəndiklərimi ağıl tərəzisində ölçürəm və doğru olub olmadığını yoxlayıram". (Anar, 2021, səh.133)*

Bünyəminin Əbrəhəyə söylədiyi bu sözlər bizi mətləbə daha da yaxınlaşdırır. Bilgi əldə etmək müqəddəs vəzifə kimi qiymətləndirilir, lakin öyrəniləni ağıl tərəzisində ölçmək bu və-

zifəni daha üstün qılır. Öyrənmək müqəddəsdir, səyahət etmək ibadətdir!

> *"Kor və kar olsam da, səni həm görür, həm də eşidirəm, oğlum, - dedi. – Əslində, nəinki səni görüb eşidirəm, hətta həm səni, həm də sənin yaşadığın dünyanı düşünürəm". (Anar, 2021, səh.138)*

Fikrən səyahət deyərkən, tam olaraq bunu nəzərdə tuturuq. Uzun İhsan Əfəndi bütün duyğu üzvlərindən məhrum edilsə də, bu, onun görməsinə, eşitməsinə, hiss etməsinə mane olmur. Düşüncələrində inşa etdiyi dünyası ona real dünya ilə bağlar qurmasına imkan verir. Uzun İhsan Əfəndi "hər şey yalnız mən və mənim düşüncələrimdən ibarət olsa da, bu dünyada yaşamaq xoşdur" deyir, çünki düşüncələr aləmində hər şey onun istəklərinə uyğun idarə olunur, ağlının və xəyallarının gücü ilə oğlunu başqa bir aləmin ağuşuna atıb həyat mücadiləsi ilə üzüzə qoyur, lakin bu mübarizədə əsla onu yalnız buraxmır. Atasının gördüyü əsrarəngiz yuxuları sayəsində hazırladığı atlas Bünyəminin səyahətinin çətin anlarında köməyinə çatır, zehni səyahətində Uzun İhsan Əfəndi oğlunun əlindən tutur. Fikirlərdə mövcud olan dünya boş xəyallara xidmət etmir, bu dünya öyrənməyə, cəsarətli olmağa, varlığımızı sorğulamağa istiqamətləndirir.

Nəticə

"İhsan Oktay Anar romanlarında tarixi və mistik anlayışlara geniş yer verdiyi üçün onun tətqiq olunan əsərinin keçmişdə qələmə alınmış dini, mifoloji, tarixi mətnlərlə birbaşa və ya dolayı yolla bağlılığının olmasından söz gedə bilər". (Hüküm, 2017, səh.49) Selçuk Atayın *"Uzun İhsan Efendi'nin Monolojik Sesi: Puslu Kıtalar Atlası"* məqaləsində belə bir fikir diq-qətimi çəkdi: "*Kollaj, metafantastika, bəzən də parodiya tərzində yazılmış roman insanın daxili dünyasında etdiyi səyahəti gös-*

tərmək və bu səyahət əsnasında ortaya çıxan mənaya dair xüsusiyyətləri mərkəzə almaq məqsədini daşıyır".(Atay, 2019, səh.162) Mən də belə düşünürəm ki, əsərin mahiyyətində dayanan əsas məsələ insanın daxili dünyasına səfər etməsi və bu səfər əsnasında gerçək məni ilə tanış olması, dünyanın min bir halını öyrənməsi, həyatı düşünərək, sorğulayaraq yaşamasıdır. İnsanın daxili səfəri sonsuz bir macəradır. Yazıçı bizi sonsuz boşluğun içində qanad açmağa ruhlandırır.

Uzun İhsan Əfəndini romandakı iç səsi olaraq əsərə daxil etməklə İhsan Oktay Anar öz düşüncələrini, fantastik və real fikirlərini əks etdirmişdir. Bu, romanda monoloji quruluşun formalaşmasına da səbəb olmuşdur. Rene Dekart fəlsəfəsinə əsaslanan Uzun İhsan Əfəndi yaşamın böyük bir xəyal dünyasından ibarət olduğunu, gerçək və xəyalı bir-birindən ayrılmaz tək bir mövcudluq olaraq ifadə edir. Yazıçının xəyal dünyasına daxil olduqca reallıq və fantastikanın bir-biri ilə əlaqəsinə daha yaxından şahid oluruq. Əsər real səyahətlə fikrən səyahətin mahiyyətini açmaq, macəralara atılaraq həyatın müxtəlif üzləri ilə tanış olmaq, səfərin vacibliyini dərk etmək baxımından səciyyəvidir.

Qaynaqlar

1. ANAR İ.O. (2021). Dumanlı Qitələr Atlası. "Fabula" MMC, Bakı.
2. ÖZBEK E.E. İhsan Oktay Anar'ın Romanlarında Sözlü Geleneğin Dile Yansıması. Yıl 3 Sayı 12. Karadeniz.
3. UTANIR A. (2020). İhsan Oktay Anar'ın Romanlarında Erkekler ve Erkeklikler, Gazintep University Journal of Social Sciences, 19(2),0-0, Submission Date: 13.11.2019, Acceptance Date: 06.04.2020. Araştırma Makalesi.
4. HÜKÜM M. (2017). İhsan Oktay Anar'ın "Puslu Kıtalar Atlası" Romanının Metinlerarası İlişkiler Açısından Değerlendirilmesi. AKADEMİK MATBUAT KASIM 2017/C:1 S:1

5. ATAY S. (2019). Uzun İhsan Efendi'nin Monolojik Sesi:Puslu Kıtalar Atlası. Dil ve Edebiyat Araştırmaları (DEA), Güz, 2019; (20) 145-164
6. AYTEMİZ B. Ted Ankara Koleji Vakfı Özel Lisesi. Uluslararası Bakalorya Diploma Programı. Metinler Arası Bir Yolculuk.

THE MAIN ISSUES IN THE ESSENCE OF IHSAN OKTAY ANA'S NOVEL "ATLAS OF FOGGY CONTINENTS"

Turkan NAGIYEVA

Abstract

İhsan Oktay Anar is a writer who draws attention with his attitude to history, mysticism, and novels that combine reality and fiction. Anar have a special place among the representatives of postmodern literature such as Allen Ginsberg, William Burroughs, Oguz Atay, Vladimir Nabokov and his first novel, "The Atlas of Misty Continents", published in 1995, has been translated into more than twenty languages and gathered a readership. The main reason for choosing the novel genre for research is that this genre has access to issues on a number of vital issues. "The Atlas of Misty Continents" is a novel loaded with fantastic elements, combining many important and vital issues. Through the main characters of the novel - Bunyamin and Uzun Ihsan Efendi, such issues as "the unknown path between dream and reality", "travel and worship", "journey to the inner world" were touched upon.

Key words: *adventure, travel, time, thought, existence, fantasy and reality, etc.*

MOBBİNQLƏ MÜBARİZƏ ÜSULLARI

Türkan RƏHİMLİ
Xəzər Universiteti, bakalavr
Elmi rəhbər: Müşviq Mustafayev
turkan.rehimli60@gmail.com

İş yerlərində hər zaman mövcud olan, lakin bu və ya başqa səbəbdən az araşdırılan, iş mühitində əksərən bir insana qarşı tətbiq olunan psixoloji şiddət (mobbinq) anlayışı ilə ifadə olunan bu fenomen bütün müəssisələr üçün əhəmiyyətli bir problemdir (Leymann, 1996: 167). Bu tezisdə iş mühitində bir və ya bir neçə şəxs tərəfindən psixoloji zorakılığa (mobbinqə) məruz qalmış insanın nələr edə biləcəyi, bu vəziyyətdən çıxmaq üçün hansı tədbirlər görməli olduğu və ən önəmlisi öz psixoloji sağlamlığı üçün hansı addımları atmalı olduğu incələnmişdir. Ədəbiyyat araşdırması nəticəsində iş yerində ortaya çıxan psixoloji zorakılıqla mübarizə üsullarını fərdi, təşkilati və ictimai mübarizə olmaqla üç qrupda izah olunmuş, həm hüquqi həm də psixoloji tərəfləri qeyd edilmişdir. Bu problemin nəticələri həm müəssisələrə, həm də psixoloji şiddətə məruz qalmış şəxslərə və eyni zamanda cəmiyyətə təsir göstərə bildiyindən bu fenomenə qarşı düzgün mübarizə üsullarının axtarılması, həyata keçirilməsi müəssisə və qurbanın səmərəliliyi baxımından mühim rol oynayır. Ölkəmizdə bu sahədə araşdırmaların az olması bizim bunu daha dərindən incələməli olduğumuzu göstərir. Mobbinqlə mübarizənin hüquqi istiqamətində Azərbaycan Respublikasının Konstitusiyası və Əmək məcəlləsində insan hüquqlarının qorunmasıyla bağlı maddələr seçilmiş və qeyd edilmişdir. Bununla yanaşı sosial medianın önəmi vurğulanmışdır. Bunlara əsaslanaraq tezisdə mobbinq prosesi eyni zamanda sosial məsələ kimi dəyərləndirilmişdir.

Qaynaqlar

1. LEYMANN, H. (1996). The content and development of mobbing at work. *European journal of work and organizational psychology*, *5*(2), 165-184.
2. FETTAHLIOĞLU, Ö. O. (2008). Örgütlerde psikolojik şiddet (mobbing): Üniversitelerde bir uygulama, Doktora tezi, 333.
3. URL-1. Azərbaycan Respublikasının Konstitusiyası. (1995). http://www.e-qanun.az/framework/897 (27.02.2022).
4. URL-2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. http://e-qanun.az/framework/46943 (27.02.2022).

METHODS OF STRUGGLİNG MOBBİNG

Turkan RAHİMLİ

Abstract

This phenomenon, which has always existed in the workplace, but for one reason or another has been little studied and is expressed the concept of psychological violence (mobbing) which is often applied to a person in the work environment, is an important problem for all enterprises (Leymann, 1996: 167). This thesis examines what people who have been psychologically abused by one or more people in the workplace can do, what steps they can take to get out of this situation, and most importantly, what steps they can take for their mental health. Methods of combating psychological violence in the workplace as a result of literature research are explained in three groups, individual, organizational and social struggle, and both legal and psychological aspects are noted. Since the consequences of this problem can affect both the institution and the victims of psychological violence, as well as society, the search for and implementation of appropriate methods to combat this phenomenon plays an important role in the effectiveness of the institution and the victim. The lack of

research in this area in our country shows that we need to examine it more deeply. In the legal direction of the fight against mobbing, articles related to the protection of human rights in the Constitution of the Republic of Azerbaijan and the Labor Code were selected and noted. At the same time, the importance of social media was emphasized. Based on this, the thesis evaluates the mobbing process as a social issue.

Key words: *mobbing, psychological violence in the workplace, psychological violence, victimization, struggle*

TÜRKÇÜ ŞAİR GÜLTƏKİNİN YARADICILIĞINDA VƏZN VƏ MÖVZU VƏHDƏTİ

Ülviyyə ƏHMƏDOVA,
Xəzər Universiteti, dissertant,
Elmi rəhbər: prof. Bədirxan Əhmədov

XX əsrdən etibarən türkçülərin yaradıcılığında əruz vəzni sadələşdirilir, alınma şeir vəznləri əsas fikrin, ümumtürk ideologiyasının çatdırılmasına xidmət edirdi. Türkçülük üçün verdiyi mübarizəylə "var olma" əzmini birləşdirən türkçülər üslublarında və istifadə etdiyi ədəbiyyat janrlarında mil-liləşməyə doğru yol alır. Zamanla Əmin Abid və yeni yazıb-yaratmağa başlayan müəlliflər heca vəzninin texnikasından istifadə edir, yenə də dillərində ilişib qalmış izafət tərkiblərindən, mürəkkəb söz, cümlələrdən tamamilə imtina edə bilmirdilər. Dövrün əsas cərəyanlarının tələbi ilə yayğın olan əruz vəzni milli iradənin tələbi ilə yerini heca vəzninə verirdi. Bu o dövrə poeziyası təsadüf edən bir çox qələm sahibi kimi Əmin Abid Mütəllibzadənin yaradıcılığında da özünü göstərir.

Əurz vəzni şübhəsiz, ədəbiyyatımızın çox böyük bir dövrünü ehtiva edir. Klassik ədəbiyyat dedikdə ağla ilk gələn əruz vəznidir (Cəfər, 1977). Uzun müddət Azərbaycan ədəbiyyatşünaslığı ədəbiyyatımızın başlanma tarixini ərəb-farsdilli dövrə aparırdı. Bunun bir səbəbi Sovetlərin məqsədyönlü siyasəti idisə, ikinci səbəbi Orxon-Yenisey abidələrinin ədəbiyyat nümunəsi olaraq qəbul edilməməsidir.

Bədii söz sənətimizin ilk mükəmməl ədəbi-bədii hadisəsi olan "Kitabi-Dədə Qorqud" islamiyyətdən çox-çox öncəki "Oğuznamələr" silsiləsinə daxil olsa da, ana dilimizin abidəsi-

dir. Kitaba daxil edilən şeirlərin tarixinin VI-VII yüzilliklərdə formalaşdığını iddia edən alimlər var. İçərisindəki nəzm hissələri heca vəzninin ən qədim təzahür forması olan səcli nəsrdədir. Bu kimi faktlar, şifahi xalq ədəbiyyatı örnəkləri ədəbiyyatımızın ən qədim vəzninin heca vəzni olduğunu bir daha sübut edir. Lakin etiraf etmək gərəkdir ki, qədim dövr Azərbaycan yazılı ədəbiyyatı islam mədəniyyətinin təsiri altında, əruz vəzni əsasında formalaşmışdır. "n əsas yaradıjılarından biri də Azərbayjan xalqı olmuşdur. VII əsrin ikinji yarısından başlayaraq Azərbayjan sənətkarları öz əsərlərini ərəb dilində yazır. Artıq Əməvilər dövründə İsmayıl ibn Yəsar, Musa Şəhəvat, Əbul-Abbas əlƏma kimi qüdrətli qələm sahibləri yetişir" (Pənahlı və s., 2014: 14). VII əsrdən etibarən ərəb dilində yazan ədiblər, XI əsrdən başlayaraq öz yerini farsdilli, türk təfəkkürlü müəlliflərə ötürdü. Hər nə qədər aparıcı vəzn əruz vəzni olsa da, yazılan əsərlərdə xalq təfəkküründən gələn deyimlər istifadə edilir, folklorun təsiri duyulurdu. Şah İsmayıl Xətai əruzla yanaşı heca vəznində də şeirlər yazmaqla bir ilkin əsasını qoydu, divan ədəbiyyatına heca vəznini gətirdi.Qurbani, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Aşıq Alı, Aşıq Ələsgər və s. sənətkarlar heca vəzninin inkişafına təkan verən, unudulmaz sənət əsərləri yaradan müəlliflərə rəğmən XIX əsrin sonu, XX yüzilin başlanğıcına qədər yazılı ədəbiyyatda aparıcı vəzn əruz vəzni idi.

XX yüzildə milli mətbuatın sayının artması, müxtəlif maraq, dünyagörüşlərinin ortaya çıxması ədəbiyyatın çoxşaxəli inkişafına da təkan verdi. Hətta əruz vəznində yazmağa adət etmiş şairlər də milli ruhun təsiri ilə heca vəzninə geri dönməyə başladılar. Heca vəzninin "yaşının" gənc olması bir çox problemləri də həll edilməmiş qoyur. Ə.Şirvaninin də qeyd etdiyi kimi, heca vəznində şeirin əsas forma elementlərindən olan qafiyə

anadilli şeirimiz üçün müasir yanaşma ilə köklü şəkildə araşdırılmamışdır, həmçinin bölgü məsələlərinə əsasən səthi yanaşılmış, bəzən yanlış, şablon xarakterli müddəalar irəli sürülmüşdür. Heca vəzninin uzun və qısa hecalar baxımından ritmik xüsusiyyəti haqqında isə ümumiyyətlə danışılmamışdır (Şirvani, 2014: 5).

Öncəki yüzilliklərdə olduğu kimi mükəmməl olmasa belə, əsas fikirlərin anlaşıqlı, xalq ifadə,deyimlərinə uyğun şəkildə çatdırılmasına diqqət artır,yerli ədəbiyyata maraq yaranırdı. Bu maraq ədəbi aləmə yeni qədəm qoyan bir çox gənc kimi Abid Mütəllibzadədən də yan keçmir. Bakı şairlər məktəbinin təsiri altında olsa da əruz vəznindən çox heca vəznində yazmağa meyillənir, quruluşu mükəmməl olmasa belə məzmununu əsas götürərək şeirlər yazırdı. Mətbuatda yayımlanan ilk şeirləri elə heca vəznindədir, şeir texnikasına tam bələd olmasa da məzmunundə sadəlik və anlaşıqlılıq onu oxunaqlı edir.

Qardaşı Əliabbas Müznibin mətbuatla yaxından əlaqəli olması, ziyalı çevrəsinin Azərbaycanda türkçülüyün fikrinin yayılmasında, onun "Dirilik" jurnalı ətrafına yığdığı ədəbi qüvvələr əhəmiyyəti Əmin Abidi kiçik yaşlarından təfəkkür olaraq formalaşdırır. Onun yaradıcılığının əvvəllərində “Məktəb”, “Dirilik”, “İqbal”, “Babayi-Əmir” və s.kimi qəzet və jurnallarda heca və əruz vəznində şeirləri nəşr edilir. Bu şeirlərdəki izafət tərkibləri, bir-birinə bərabər olmayan heca saylarına baxmayaraq,quruluşundan çox, məzmunu ilə təqdirəlayiqdir. Əmin Abidin dördlüklərində olan “təhsili-elm”, “rahi-nicat”, “mehri-məhəbbət”, “xabi-qəflət”, “əhli-ürfan” və s kimi tərkiblər XX əsrin əvvəllərinin ədəbiyyatı üçün xarakterik ifadələrdir. “Babayi-əmir” jurnalında birgə yazıları çıxan ictimai satirada bö-yük uğur qazanmış Mirzə Ələkbər Sabirdən təsirlənib yazdığı sual və cavab quruluşunda olan şeirləri əruz vəzninin səri, xəfif bəhr-

lərində yazılmışdır. Bu bəhrlərin gətirdiyi axıcılıq şeirləri daha yaddaqalan, dilindəki çətinliyə baxmayaraq oxunaqlı edir. Şeirlər qadın hüquqsuzluğu, din, dil, xürafatı hədəf olaraq yazılmış, tipi öz dilində danışdırmaq texnikasından istifadə etmişdir. Romantik üslubla başladığı yaradıcılığı realist, tənqidi baxışın təsiri ilə daha kəskin forma almağa başlayır:

Bir kiçik məktəbliyəm, fikrimsə də təhsili-elm
Eyləyib məsud olum, millətmi həm məsud edim!
(Gültekin, 1999: 64)

-deyən birindən: "İttifaq et, ittifaq et, ittifaq et, ittifaq!" birinə çevrilir. Bu müəllifin yaradıcılığında yalnız üslub və dil baxımdan deyil, təfəkkür və yanaşma baxımından da nə qədər fərqli boyutda inkişaf etdiyinin sübutudur. Dialoq şəklində yazdığı "Kəblə Səlam ilə Kəblə Qulam" şeirində ziyalıların öz dilindən, milli kimliyindən uzaqlaşmaq probleminə toxunur:

Tanıyırsan onu? –Kimdir? Axundov Əli bəy!
-Bay, xəta eləmisən! Rusdur bu ay, Kəblə Qulam!
-Yox, degil rus!- Bəs o rusca danışır, a kişi!
-Bu, müəllim Əlidir, qəm yemə, ay Kəblə Səlam!
(Gültekin, 1999: 70).

Fikirləri ilə Sabirin "Qabili-imkanmı olur qanmamaq? Məcməri-nar içrə olub yanmamaq?" misralarını xatırladır. İkilik şəklində yazdığı və qafiyə sistemi aa, ba formasında yazılan iki beytdən ibarət şeiri nisbətən qəsidəyə yaxındır:

Gönü qalınlara əsla əsər etməz şapalaq
Onlar üçün gərək olsun dəyənək ilə çomaq
(Gültekin, 1999:71).

Tənqidi xarakterli qələmə alınan fikirlər mühitə necə diqqət etdiyini, cəmiyyətdəki qüsurlara vətəndaş mövqeyindən nə qədər həssas olduğunu göstərir. Erkən ailə qurmağa məcbur edilən qızları alan "yetmiş yaşında kaftar"lara qarşı kəskin tənqidi mövqedə dayanır. Çətin şəraitdə yaşayan, hüququ əlindən alınmağı azmış kimi, torpağı, evi, övladı, şəraiti əlindən qoparılan, düşünməsi belə qadağan edilən insanların qara güruh içində çürüyən ömrünə təəssüf hissini qələmində canlandırır. Osmanlı türkçəsini istifadə etməklə, fikirlərinin ideologiyalarının daha çox yayılmasına , dilin sadələşməsinə çalışan türkçülərin sırasında yazıb-yaratmağa başlayan Əmin Abid "taza dil" yanaşması ilə rus dildən daha çox, o dildə insanlara zülm edən idarəetməyə etirazını bildirir. Onsuz da türkçü olan birinin rus idarəsi sisteminə qarşı olan etirazı zahirən onların dilinə qarşı etiraz kimi özünü göstərir. Tək bununla deyil, şeir vəznlərindən xüsusi bacarıqla istifadə edib, fanatik dindarları tənqid edir. Yuxuda hər kəsin oyandığını, maarif dolu inkişafa yönləndiyini görüb, oyanan Əmin Abid oyananda heç də belə olmamağın təəssüfünü yaşayır. İstənilən halda erkən yaradıcılığa gəlməsinə baxmayaraq, çatdırmaq istədiyi fikirləri üçün hər iki vəzndən də məharətlə istifadə edir.

Əmin Abid hər bir xalqını düşünən ziyalı kimi, həm əruz, həm də heca vəznində öz düşüncələrini çatdırmaq məqsədi ilə istifadə etmiş, həqiqətən də hər iki vəzndə bu niyyətinə uğurla çatmışdır. Bunun nəticəsidir ki, dolğun fikirlərin bolluğu, şeir texnikasının zəifliyinə kölə sala bilmir. Türkçülərdə rast gəlinən ifadələr, daha çox satirik üsluba yaxınlığı heca vəzninin 14, 15, 16 –lıq nümunələrindən istifadə etməsinə , əruz vəznində də həzəc, səri, xəfif bəhrinə daha çox müraciət etməsi ilə nəticələnmişdir.

Əcdadımız şanlı olmuş, dünyaları titrətmişdir,
Çalışmaqdan usanmamış, uyumağı sevməmiṛdir.
Hər saniyə, hər dəqiqə çarpışmış, qeyrət etmişdir,
Eyşü işrət şərqisini oxumağı sevməmişdir
(Gültekin, 1999: 88).

Qaynaqlar

GÜLTEKIN - Abid Ə. (1999). *Buzlu cəhənnəm*. Bakı: Günəş.

CƏFƏR Ə. (1977). *Əruzun nəzəri əsasları və Azərbaycan əruzu*. Bakı: Elm.

ƏDILLI Ş. (2011). *Əruz vəzninin sadələşdirilmiş qəlibləri.* Bakı: Adiloğlu

WEIGHT AND TOPIC UNITY IN THE CREATION OF THE TURKISH POET GULTAKIN

Ulviyya AHMADOVA

Abstract

Since the 20th century, in the works of Turkists, the aruz verse has been simplified, and the poetic verses served to convey the main idea, the all-Turkic ideology. Combining the struggle for Turkism with the determination to "exist", Turkists are on the way to nationalization in their styles and the literary genres they use. Over time, Amin Abid and other authors who started to write and write used the technique of syllabic weight, but they still could not completely abandon the idioms, complex words and sentences stuck in their language. At the request of the main currents of the time, the popular aruz weight gave way to the syllabic weight at the request of the national will. The poetry of that period is also reflected in the works of Amin Abid Mutallibzade, like many writers who happened to be there.

Key words: Guntakin, Amin Abid, topic, syllabe

CƏFƏR CABBARLININ AYDIN PYESİ VƏ MÜASİR DÖVRÜMÜZDƏ AKTUALLIĞI

Xanım XƏLİLZADƏ,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dr.Aynur Qəzənfərqızı

Azərbaycanın, eləcə də Türk dünyasının azadlığı, istiqlaliyyəti, inkişafı yolunda onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biri də Cəfər Cabbarlıdır. Bu ədibin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onun yazdığı əsərlər bir əsr keçməsinə baxmayaraq hələ də öz aktuallığını qorumaqdadır. Belə əsərlərindən biri də "Aydın" pyesidir. Cəfər Cabbarlı bu əsərində həyatı olduğu kimi əks etdirib. Aydının, Gültəkinin və ya Dövlət bəyin haqlı olub, olmadığına qərar verməyi oxucunun özünə həvalə edib. Çünki hər obrazın özünə görə haqlı səbəbləri var. Bu özünəməxsus xüsusiyyət C.Cabbarlının yazdıqlarının özəlliyini bir daha göstərir. O bu əsərində cəmiyyətimizin tamah, nəfs, qızıl, altuna ehtiras, keçim sıxıntısı kimi əsas problemlərini göz önü-nə gətirir.

"Aydın" faciəsi haqqında Y.Qarayev yazır: "İntiqam almaq üçün üsyana qalxan Aydın bir hədəf kimi Dövlət bəyi seçmir. "Kimə qarşı üsyan" sualına o, "bütün bəşəriyyətə qarşı, bütün qanunlara, adətlərə qarşı" deyə cavab verir. Təklikdə Dövlət bəy onun intiqam arzusundan nə qədər aşağıda durur! Dövlət bəy olmasaydı, onu başqa bir Dövlət bəy əvəz edə bilərdi. Məqsəd Dövlət bəyləri yetirən mühitdən - altun səltənətindən intiqam almaq idi. Aydının qarşısında aciz qaldığı məqsəd bu idi" (Qarayev, 1996: 397). C.Cabbarlı öz əsərində sadəcə cəmiyyətdə harınlamış bu obrazlara münasibət göstərməyib həm də onun islam dininə inancı və rəğbətli münasibəti əsərdə qo-

runub saxlanır. Doğrudur, bu əsərdə qəhrəmanın dinə açıq və şüurlu münasibəti məsələsi qoyulmayıb. Lakin Allah sevgisi və inamı olan insanlar kimi təsvir edilir. İslam inancına qail bütün insanlar kimi, onlar da təhtəlşüur olaraq Allaha tez-tez and içir, ona olan inamlarını kifayət qədər intensiv şəkildə büruzə verir. Aydının dilində "Ey uca pərvərdigarım", "Ey ulu tanrım", "Allah eşqinə" kimi ifadələr işlənir. Bununla bərabər, qeyd etmək lazımdır ki, ağır mənəvi zərbə aldığı miqyassız sarsıntılar keçirdikləri məqamda onların düşüncəsində Allaha asilik psixologiyası özünü göstərir. Lakin Aydında dinə inkarçı münasibət, yaxud Allahın varlığını mübahisə obyektinə çevirmək məsələsi onların düşüncə və idealının məntiqi nəticəsi kimi meydana çıxmır. Burada Cabbarlının insanın daxili aləminə nüfuzunun dərinliyi, insanı bütün psixoloji halları ilə bədii təsvirin predmeti etmək bacarığı, onun düşündüklərinin və yaşadıqlarının alt və üst qatlarını təhlil obyektinə çevirmək imkanları üzə çıxır Aydının dinə və Allaha yanaşmada yol verdikləri sapmalar psixoloji affekt halının təzahürləri kimi mənalanır. Buna görə də nə müəllifin, nə də qəhrəmanların dinə münasibətinin həqiqi ifadəsi kimi götürülə bilər (URL-1). Əsərin baş qəhrəmanı Aydındır. Aydının real gerçəkliyə üsyanı, ideal və varlıq arasında uçurum, bunun çıxış yolu kimi uzaq bir kəndə çəkilmək klassik romantik sənətin estetik normalarından xəbər verir. O romantik xəyalları puç olmuş, maddi və mənəvi böhran içərisində çapalayan gəncdir. Onun xəyalları qeyri-real olsa da, ülvi mahiyyət daşıyır. Obrazın danışıq və rəftarında, məntiqi mahiyyətində insanlığın və ayrıca bir fərdin həqiqi mövcudluğunun bədii təsdiqi vardır. Elə həmin təsdiq də mübarizə üçün təkan rolunu oynayır: "...Mən bir həqiqətəm, mən bir heç deyiləm" - sözləri bu əsas leytmotivi dramaturji gərginliklə inkişaf etdirir. Aydının faciəsi ondadır ki, onun "bir həqiqət" olduğunu etiraf edən mühit

yoxdur. Əksinə, əsrin əvvəllərindən güclü neft tüğyanları və altun yığımlarının məkanı olmuş Bakı minlərlə Aydın kimilərini (...beyni kitab arasında Parisdən, ürəyi isə mizraq ucunda Altay dağlarından alınmışları) bir heçə döndərir (URL-2). Aydın hər şeyini - ailəsini, məhəbbətini, cəmiyyətdə tutduğu mövqeyini, normal ruhi vəziyyətini itirərək "səfillər kralı olur". Lakin o, dəhşətli cismani və ruhi əzablara düçar olsa da, mənəvi gözəlliyini, insani saflığını itirmir. Rəzalətə boyun əymək istəmir. Bu rəzil mühiti dərk edərək onun ittihamçısına çevrilir. Cəmiyyətin başdan-başa hərrac bazarına çevrildiyini, paklığın, namusun alqı-satqı vəsaiti olduğunu üçüncü pərdənin sonundakı "yalançı auksion"da fəryadla elan edir: "Məsum bir qadın namusu, beş min manat hərrac, ha-ha-ha... (Cabbarlı, 2005: 225). Bu hərrac bazarına sürüklənmiş qadın onun dünyalar qədər sevdiyi Gültəkin idi. Böyük kapitala söykənən insan dəllalları - Dövlət bəylər, Balaxanlar, Novruz bəylər – Aydınlar və Gültəkinləri məhv edirdilər.

Aydının dilindən səslənən "Bəli, zənginlik elə şeydir ki, ağ gözü qara, qara üzü ağ göstərir” (Cabbarlı, 2005: 222), yaxud, "siz əlinizi belinizə atmaqdansa, cibinizə atın. Çünki Sizin silahınız oradadır, kişiliyiniz elə oradadır” (Cabbarlı, 2005: 225), kimi mühakimələr bu gün də bəşəriyyətin ən ağrılı yeridir, bir çox xalqların faciə və əzablarının milli sərhədlər bilməyən mənbəyidir.

Aydın obrazı əsərin əvvəlində xəyalındakı sevgini, inqilabi yaşaya bilmədiyini və buna səbəb olaraq Gültəkini sədd olaraq göstərir. Bu obraz istərdi ki, sevdiyi onu sevməsin. Ona çatmaq ümidilə yüksəlmək, çırpınmaq, çarpışmaq, yuxusuz gecələr, qanlı vuruşmalar, əzab, göz yaşları, mübarizə aparsin. Çünki onun düşüncəsinə görə, sevdiyini alanlar altun qəfəsə bağlanmış bir bülbüldən başqa heç bir şey deyildi. Bu obraz üçün insanı

yaşadan, yaşayışı sevdirən, əyləndirən əsas məhfumlar ümid, rəqabət və iztirab idi. Lakin sevdiyinin, onu sevməsi, ona qarşılıq verməsi onu sevdiyini əldə etməkdən ötrü aparmaq istediyi mübarizeden uzaq tutdu. Çünki Aydın dünyada ən böyük bir səadəti arzu ilə vüsal arasındakı hicrdə görür. Elə buna görə də, Aydın obrazı lap əvvəldən Gültəkini əl çatmaz olduğu üçün sevir. Çünki o varlı ailənin qızı idi və birləşmə ehtimalları az idi. Həm Gültəkin heç kimə razılıq vermirdi. Lakin Gültəkinin ona razılıq verməsini Aydın xəyalındakı sevgiyə çəkilmiş sədd kimi görür. Və əsərin sonlarında yenə Gültəkin ondan uzaq və əl çatmaz olanda ona olan eşqi artır. Aydın həyata qarşı çox həris idi. O beynindəki fikirləri o qədər altuna bağlamışdı ki, özündən asılı olmayaraq hərşeyi buna bağlayırdı. Bunu onun Mirzə Cavadla dialoqunda da, həyatdakı boşluğu altunsuz dünyada göstərdiyini görürük:

A y d ı n. Madam ki, başınız yeni bir şeyi yerləşdirir, Toriçelli demişkən, boşluğu varmış.

Mirzə C a v a d . Boşluq mənim talesiz ürəyimdədir.

A y d ı n. Xeyr, bəyim, boşluq sənin altunsuz cibindədir, ona görə də sözlərinin mənası yoxdur, yox, yox (Cabbarlı, 2005: 221)". 3 ay ərzində həyat yoldaşının başqa biri ilə birlikdə olduğunu böyük ehtimal hiss etmişdir. O, Dövlət bəyin əvvəldən necə biri olduğunu da görürdü. Amma o işlə təmin olduğuna, cibində pul olduğuna görə susurdu. Dövlət bəy ondan arvadını, işini, pulunu aldıqda isə coşmağa başlayır və ədalət carçısı olur. Lakin sonda özü səfalətə düşür. Gültəkin də rəzalətə düşdükdən sonra onlar, bir-birini tapırlar. Bu dəfə Aydın Gültəkinə artıq bir qadın kimi deyil, bir “ideal” kimi baxıb, yenidən sevir. Aydın Gültəkinin faciəsinə səbəb olduğunu anlayır və barışırlar. Lakin tam idealını, həyat amalını taparkən Gültəkinin zəhər içdiyini və öldüyünü görür.

Gültəkin obrazı (Cabbarlı, 2005: 200-241) hamının çadranın arxasında gizləndiyi dövrdə, gizlənməyən obraz idi. Əsərin əvvəlindən etdiyi əsas səhvlərdən biri onun tək amalının Aydınciyini əyləndirmək olması idi. Nə qədər onu əyləndirməyə çalışsa da, Gültəkinin içində bir qırıqlıq var idi. Çünki o əvvəllər atası evində zəngin həyata alışmış biri idi. Lakin indi köhnə paltarından utandığına görə, çölə çıxmaq da istəmirdi. (Cabbarlı, 2005: 201).

Buna görə də, o Dövlət bəyin əvvəllər olan ilgisini göstərəndə, anlamazdan gəlir. Sonra ortaya çıxdıqda əvvəldən hiss etdiyini demişdi. Halbuki, Gültəkinin çox insan tərəfindən sevilməsinin səbəblərindən biri bu idi ki, əlçatmaz, kişilərin yaxınlaşa bilməyəcəyi və çox sərt sədd çəkən qadın olması idi. Lakin Dövlət bəyə-şəhərin ən varlı kişisinə qarşı bu sədd yox oldu. Əgər Gültəkin ora əvvəldən yekə bir sədd çəksəydi, Dövlət bəy həddini aşmağa özündə cəsarət tapmazdı. Belə etməklə o öz çöküşünün səbəbi olur. Məclisdən məclisə getməyin, daş qaşlarla dolu həyat yaşamağın ona xoşbəxtlik vermədiyini görür. Gültəkin obrazı hərşeyi Aydın üçün elədim deyərək, öz vicdanını rahatmaq istəyir. Lakin ən pis halda Dövlət bəy onları şəhərdən qovacaqdı. Kasıb olsalar da, öz mənlikləri ilə yaşamağa dəvam edəcəkdilər. Bu obraz oxucuya, kasıb biri ilə evlənib, öz namusu bahasına, onu var dövlətə boğub və var-dövlət içində yaşamaq istədiyi üçün bunları yaşadığı fikri yaradır. Amma bunu Cabbarlı açıq şəkildə demir, oxucunu düşündürür və məhz oxucunun bu nəticəyə gəlməyə vadar edir.

Dövlət bəy (Cabbarlı, 2005: 202-235) pulu ilə hərşeyi ala biləcəyini düşünən, başqasının bədbəxtliyinə səbəb olduğu üçün vicdanı sızlamayan, qəlbli biridi. O lovğalanaraq kazinoda ən əlçatmaz olan qadını – Gültəkini əldə etdiyini deyir və vurğulayır ki, onun əldə edə bilməyəcəyi heçnə yoxdur (Cabbarlı,

2005: 219). Hətta öz eqosunu tatmin etmək üçün, Sussanna kimi kazinoda satılan yüngül əxlaqlı "canlı oyuncaq" kimilərinin getdiyi yerə Gültəkini gətirtməyi belə layiq görür (Cabbarlı, 2005: 219). Eyni zamanda Surxay bəylə, "zabastovka" edən işçilərlə olan dialoqu zaman da onun puldan başqa heçnə bilmədiyini, kölnü boş biri olduğunu görürük (Cabbarlı, 2005: 233).

Cəfər Cabbarlı bu pyesində yaratdığı Aydın obrazı ilə həyatdakı təzadları qılınclayır, Gültəkin obrazı ilə daş-qaşa olan hərisliyin ağır nəticəsini, Dövlət bəyin hərəkətləri ilə bir ailənin necə dağıldığını göstərir. C.Cabbarlı bu faciələri göstərməklə, insanlara həm dövrün, həm maddiyata düşkünlüyünün mənfiliklərini, həm ailə dəyərlərinin nə dərəcədə önəmli olmasını göstərir. Səhvin kimdə olub, olmadığını qərar verməyi isə oxucunun düşüncələrinə buraxır

Qaynaqlar:

1. CABBARLI, Cəfər. (2005). *Əsərləri*. Bakı: ŞərqQərb.
2. QARAYEV, Yaşar. (1996). *Tarix: yaxından və uzaqdan*. Bakı: Sabah.
3. URL-1. Təyyar Salamoğlu. Cəfər Cabbarlı Dramaturgiyası. https://525.az/?name=xeber&news_id=117680&sa=X&ved=2ahUKEwjFgreI4IznAhVC2KQKHVMbCxIQFjAFegQIBBAB.
4. URL-2. Tahir Məsimov. Cəfər Cabbarlı yaradıcılığı milli dəyərlər xəzinəsidir http://www.anl.az/down/meqale/azerbaycan/2014/avqust/386519.htm

JAFAR JABBARLI'S AYDIN PLAY AND ITS RELEVANCE IN OUR MODERN TIMES

Khanim Khalilzada

Abstract

Jafar Jabbar is one of the great personalities who raised the culture, literature, and science of Azerbaijan, as well as the Turkic world, on the way to freedom, nationalism, and development. The works created by this writer are the national wealth of the Azerbaijani people. His works are still relevant despite the passage of a century. One of such works is the play "Aydin". Jafar Jabbarli reflected life as it is in this work. It is up to the reader to decide whether Aydın, Gultaki or Devlet Bey is right or not. Because every image has its own right reasons. This unique feature once again shows the uniqueness of J. Jabbarli's writings. In this work, he brings to mind the main problems of our society, such as greed, ego, gold, lust for gold, poverty of life.

Key words: Jafar Jabbarli, Aydin, novel

OĞUZ ATAYIN "TUTUNAMAYANLAR" ROMANINDA YUXU PERSPEKTİVİ

Vəfa EYVAZLI, Ülvi BABASOY,
Xəzər Universiteti, bakalavr

İnsanlıq var olduğu və var olacağı müddətcə yuxu görməyə davam edəcəkdir. Yuxular barəsində alimlər və psixoloqlar müxtəlif nəzəriyyələr ortaya qoymuş, fərqli tərəflərdən yuxuları və insanın niyə yuxu gördüyünü açıqlamağa çalışmışdır. Yuxu üzərinə önəmli araşdırmaları olan Freydə görə yuxu şüuraltına gedən əsas yoldur. İnsan yuxularında, əsasən, gündəlik həyatında arxa planda saxladığı basdırılmış hiss və duyğularını görür. Bir növ bu düşüncə axını reallıqla xəyal arasında səyahət edir. İnsanın daxilinə köklənməyə kömək edib ona işıq tutur. Təbii ki, yuxuların oyandıqdan qısa zaman sonra unudulması da bir reallıqdır. Buna baxmayaraq, müəyyən simvolların ağılda qalması və bunlardan yola çıxaraq problemlərin əsas qaynağını tapmaq mümkündür. Jung-a görə isə, tam tərsi olaraq yuxuları müəyyən simvollara görə açıqlamaq qeyri-mümkündür. Onun fikrincə, hər bir simvolu yuxunu görən şəxsə və daxili dünyasına görə fərqli mənalandırmaq daha doğru seçimdir. Jung simvolları bir qəlibə salmaqdan uzaqlaşıb onları fərdiləşdirir.

Yuxu görməyimizin əsas funksiyalarından biri də şüuraltımızın oyaq vəziyyətdə həll edə bilmədiyi bəzi həyati problemlər üzərinə dayanmadan işləməsinə imkan verməkdir. Belə bir zaman olmasaydı, bizlərdə ağır ruhi gərginliklər yaranardı. Çətin zamanlar keçirdikdən sonra çox yatmağımızın səbəbi də bununla əlaqələndirilir. Yuxuda keçirdiyimiz vaxtları problemlərdən uzaqlaşmaqdan çox şüuraltımızın o problemləri həll etmə zamanı kimi dəyərləndirə bilərik. (İmamoğlu, 2010: 22)

Oğuz Atayın "Tutunamayanlar" romanında səhifələrcə davam edən yuxulara rast gəlmək mümkündür. "Tutunamayanlar" romanın-

dakı yuxu perspektivi, fikrimcə, çox doğru olaraq seçilmişdir. Turgut Özben və Selim Işık-ın yuxuları onların daxili dünyasının xarici dünyadan nə qədər uzaqlaşdığının, tənhalaşdığının göstəricisidir. Turgut Özben yuxularını, əsasən, evində və iş yerində görür. Jung-un fikrinə görə, bir yuxu üzərindən fikir bildirmək doğru deyildir. Görülən yuxular silsiləsinin şərh edilməsi daha doğrudur. Beləliklə, şüuraltının yuxularda göstərmək istədiyi əsas fikri tapmaq daha mümkün ola bilər. Jung-un düşüncələrini də nəzərə alaraq nə qədər Turgut Özben-nin yuxularını ayrılıqda təhlil etməyə çalışsam belə, sonda bütün yuxularındakı ortaq nöqteyi-nəzəri göstərməyə cəhd edəcəm.

"Tutunamayanlar" romanın başlanğıcından etibarən, obrazların tam olaraq kim olduğunu anlamadan yuxu perspektivinin köməyi ilə onların daxili dünyasına səyahət etmək imkanımız yaranır.

"O kısa sabah uykusunda, çok uzun bir rüya gördü. Rüyasında, büyük bir çayırda bekliyordu. Yoksa, bir tarla mıydı? Belki de bir meydandı; çünkü büyük bir saatin altında duruyordu. Hayır meydan değildi, çayırdı; çünkü, her yandan papatyalar açmıştı. Papatyaları çok iyi hatırlıyordu. Elinde bir karanfil demeti, birini bekliyordu. Nermin'le daha evlenmemişti." (Atay, 2020:32)

Turgut Özben yuxusunda ətrafının çobanyastığı ilə əhatələndiyi bir yerdə görür və yuxu prespektivinə görə, çobanyastığı insanın hüzura qovuşmasına dəlalət edir. Dostunun intiharı ilə ölünün və ölümün ağrısı ilə tanış olan biri üçün hüzuru tapmaq bir az çətindir. Lakin, əslində, göstərilən olan Turgut-un həyatında istədiyi yerdə olmamasıdır. Hüzuru da bunun üçün diləyir, istəyir və kitabın sonuna qədər sakitçiliyi və öz daxili sükunətin axtarır. Yuxunun içərisində Turgut paltarlarını tünd, havanı isə açıq və buludsuz olaraq təsvir edir. İnsanlar tərəfindən dərdsiz və xoşbəxt görünməsinə baxmayaraq, daxilən paltarı kimi tünd tonların içərisindəki dünyasında yaşayır.

"Çukura baktı: derin, karanlık ve biçimi belirsiz bir çukurdu bu. Tabut görünmüyordu. Bu karanlık kuyunun çevresinde dolandı. Yeni kazılmış toprağın çimenlerle birleştiği yere bir taş dikilmişti. Taşın üstünde kabartma bir yazıt vardı. "Hiç olmazsa yazıt koymayı

düşünmüşler bu çarpık taşın üstüne. Düzgün bir yazı olsa."Taşa yaklaştı, okumaya çalıştı. Kargacık burgacık harfleri zorlukla söktü: "TURgUT ÖzBEn 1933-1962." Geriye sıçradı: "Hayır! Olamaz!" İçinin boşaldığını hissetti birdenbire: göğsünden midesine, oradan da bacaklarına doğru bir kayıp gitme. "Hayır! Selim olmalı! Ben, Nermin'le buluşacaktım." Birden yanında Selim'i gördü, tarifsiz bir korkuya kapıldı: acaba? Bütün gücüyle çenesini oynatmaya çalıştı: "Doğru mu bu, Selim? Nasıl olur? Sen de biliyorsun ölmediğimi, değil mi? Yoksa ikimiz de öldük mü?" Selim başını salladı. Nasıl anlamamışdı." (Atay, 2020:34)

Yuxunun davamında Turgut tabut daşıyan insanları görür, lakin həmin insanlarla danışsa belə, daha sonra məlum olduğu kimi görünməz idi. Bu Turgut-un tənhalığının görünməzliyidir. Digər tərəfdən Selim-in etdiyi kimi öz canından keçə biləcək bir insan deyildi. Selim qədər yalnızlığı iliklərinə qədər hiss etsə belə, bunu ağlından belə keçirmir. Xəyalındakı bu səhnənin canlanması da onun ölüm qorxusu ilə bir qarşılaşmadır. Öldüyünü görmək onu dəhşətə salır, qəbul edə bilmir. Yuxu içərisində bir hökmdən bəhs açılır ki, burada Turgut və Selim arasında bir dialoq yaranır. Bu, sadəcə kənardan görünəndir. Bu dialoq, əslində, Turgut-un özü ilə hesablaşması, daxili monoloqudur. Verilən hökmlərin hər zaman eyni olduğunu düşünür. Bu dünyadan necə getsək də, bir gün unudulmağa məhkumuq. Tur-gut Özben isə ölümdən qorxduğu qədər unudulmaqdan da çəkinir. Selim-i unutmamağa çalışır, onu yaşatmağa, bəlkə də, elə buna görə bu qədər can atırdı. Onun intiharının arxasındakı qara pərdəni qaldırmağa çalışarkən öz dünyasının qaralığın aradan qaldırır, dünyanın rənglərini, canlılığını görmək istəyirdi.

"Selim'le birlikte yolda yürüyorlardı. Selim ölmemişti, bir yanlış anlaşılma olmuştu. Uyandığı zaman bu yanlışlığın ne olduğunu hatırlayamadı. İşte ölmemiş, diyordu kendi-kendine. Yanımda yürüyor. Açıkca görüyorum. Rüya olamaz. Hepsini biliyorum, diyordu Selim'e. Ölmediği iyi oldu, diye düşünüyordu. Konuşacak çox söz birikmişti. Bütün olanları da yeni baştan konuşabiliriz. Ne kadar canlı yürüyor, hiç ölmüş olabilir mi?" (Atay, 2020:327)

Yuxu nəzəriyyələrindən biri də yuxuların həll olunmamış problemlərin və ya bəzi gözləntilərin bir təzahürü olaraq ortaya çıxmasıdır. Gestalt psixoloqları tərəfindən də mənimsənən bu fikirlərə görə, həll olunmamış problemlər zehində gərginlik yaradaraq yuxu vasitəsilə insanın bu vəziyyətdən qurtulması üçün onu xəbərdar edir. Bunun nəticəsində isə, tamamlanmamış hərəkətlərin tamamlanması nöqtəsində zehin yuxularda hərəkətə keçməkdədir. (Yakar, 2021:18)

Turgut-un da yuxularında daima Selim-i görməsi, özü ilə danışsa belə, onunla dialoq qurduğu, sağ olduğu düşüncəsi bundan irəli gəlirdi. Onun yoxluğu ilə barışmamaqla birlikdə, son günlərində yanında olmadığı üçün vicdan əzabı çəkir, özünü günahkar hesab edirdi. Freydin fikirlərinə əsasən də bəzi yuxular insanın real həyat edə bilmədiyi hərəkətlərinin tamamlanmasıdır. İnsan içindəki hər hansı bir hadisəyə qarşı olan düşüncələrin bu yolla tətmin etməyə çalışır. Turgut-un də etmək istədiyi bu idi. Selim-in yanında olmadığı zamanlardakı boşluqları tamamlamağa çalışırdı.

“Turgut o gece, rüyasında Metin’i gördü. Metin, bütün rüya boyunca, Turgut’a kötü gelen garip gülümsemesiyle göründü. Derin anlamlar taşıyorum diyen ve insanın kanını donduran bir gülümseme. Turgut durmadan, kendi kendine: “Hayır, o aptaldır, bu gülümseme sahtedir,” diye tekrarlıyordu. Sanki bu gülümsemeden korkuyordu da bu sözlerlekendine cesaret vermek istiyordu. Bir bakıma bu gülümsemeye de razıydı. Sanki birden bu gülümsemenin biteceğini, aslında bunun kötü sözlere bir başlanğıç olduğunu biliyordu ve ne olursa olsun bu sözleri duymak istemiyordu. Selim gene ölmemişti. Metin, evinde bir ziyafet veriyordu. Selim, Süleyman Kargı, Esat ve Turgut’un tanımadığı ya da hatırlayamadığı daha bir çok insan vardı.” (Atay, 2020:375-376)

Süleyman Kargı, Esat, Metin kimi obrazları Turgut vasitəsi ilə tanıyırıq. Bu obrazlar Selim-in dostlarıdır. Turgut bu insanları tanımamaqla bərabər hər birində Selim-dən bir nişanə, xatirə axtarır. Yaşarkən tapa bilmədiyi Selim-i ölüykən yaşatmaq, tanımaq arzusundadır. Metin obrazı ilə tanışlığı Selim-in evlərinə, anasını ziyarət etmək istədiyi zamandan etibarən başlayır. İlk başdan onu tanıya bilmədiyi üç-

ün Selim-i günahlandırır. Əslində, bu vəziyyət bir növ qısqanclığın təzahürüdür. Metin-in Selim-ə ondan daha yaxın olacağı düşüncəsini qəbul edə bilmir. Metin-in gülümsəməsinin də bu qədər ürküdücü gəlməsinə səbəb onun varlığını qəbul etməməsidir.

"Duvarlar siyaha boyanmıştı ya da evin karanlığından öyle görünüyordu. Hayır, siyahtı duvarlar; şamdanlar bile onları aydınlatamıyordu. Işıklı olmadığından, tavan da görünmüyordu. Odalar, salonlar, ceviz kaplama mobilyalarla doldurulmuştu: evin karanlığını artıran, çarşı işi, koyu renkli mobilyalar, mumların, lambaların ışığında, eşya, derin ve heybetli görünüyordu. Metin, arada bir ortaya çıkıyor ve akrabalarına çatıyor, misafirlerin gecikmesinden onları sorumlu tutuyordu." (Atay, 2020:377)

Turgut olduğu məkanı qaranlıq təsvir edərkən, əslində, otaq bir növ onun əhvalının göstəricisidir: qaranlıqda və depressiyadadır. Bu məkanda əsas Metin-i görməsinə səbəb isə, onun haqqında olan mənfi düşüncələrinin yansımasıdır.

"Birden, Selim'i yanında gördü. Ona doğru ilerledi. Bu tatsız gidişe bir son vermesini istedi ondan. Selim onu görmüyordu. Gözlerini salonun ortasındakı karyolalara dikmiş, Metin'i seyrediyordu. Turgut'un yanında durduğu büfe hareket etmeye başladı. Büfenin arkasında bir kapı varmış: biri kapıyı itiyordu. Turgut yardım etti, kapı açıldı. Aralanan kapıdan biraz sürtünerek Esat geçti, içeri girdi. Turgut heyecanla ona atıldı: "Ne söyleyecek? Selim hakkında ne söyleyebilir?" Metin'den gene korkmaya başlamıştı. Esat: "Selim, onunla konuşmayacak," dedi. "Selim, artık onun gibilerle hiç konuşmayacak. Aynı yanlışlığı bir daha yapmayacak. Burada olduğu halde ona görünmeyecek. Böyle insanlar Selim'i bir daha göremeyecek. O, artık, kendisini sevenlere görünecek yalnız." Gerçekten de Selim, o sırada Metin'in yanı başında durduğu halde Metin, onun gelmediğinden, kendisini boşuna masrafa soktuğundan bahsediyordu. Turgut: "Neden şimdiye kadar böyle hareket etmedin Selim?" diye söyleniyordu. Elbette, onlarla ancak böyle başa çıkılabilirdi. Bugüne kadar nasıl görmemişti bu gerçeği? Metin, gittikçe öfkeleniyor, Selim ise onun yanında durarak gülümsüyordu. Turgut, sevinerek, kendi kendine

konuşuyordu - Esat kaybolmuştu - “Yalnız, onu sevenlere görünecek; yani ölmedi. Sevmeyenlerden kurtulmak için bulduğu bir çareydi demek.” Bu işe aklı çok yattı. Uyandığı zaman hâlâ gülüm-süyordu. Uzun süre de aynı durumda kaldı.” (Atay, 2020:378)

Selim-in sadəcə onu görməsindən Turgut sevinc duyur. Məsələ Selim-in sadəcə ona görünməsi deyil, özünün də Turgut Özben olaraq mənliyini görməsinə başlamasıdır. Keçmişə nəzərən daima özünü axtarır, labirintlər arasında Selim-i tapmaq düşüncəsi ilə itmiş, sosial olaraq insanlardan soyumuş Turgut-un axtarışındadır. Selim-in Don Kişot-luq etməsi kimi, Turgut da öz Don Kişot-unu axtarır. İnsanlardan uzaqlaşmağa başladığı və Selim-in gündəliyi ilə yola çıxacağı günün səhərində də ifadə etdiyi kimi uzun zamandan sonra qar-maşıq yuxularından uzaqlamış, rahatlığı, dincliyə yaxınlaşmışdır. Turgut Özben Selim Işık-ın edəcəyi kimi intiharı seçməsə belə, insanlardan uzaqlaşdığı və kitabın sonunda qatardan enərək insanların arasına qarışdığı görünür. Bütün insanlığı qucaqlamaq istəyən Turgut özünü qucaqlayır, öz mənliyinə geri dönür.

“Dün gece rüyamda biri beni öldürdü. İçimin boşaldığını hissetdim.” (Atay, 2020:595)

Selim gündəliyində yuxusunda birinin onu öldürdüyünü qeyd edir. Yuxuda öldürüldüyünü görmək təbirçilərə görə mənəvi olaraq boşluqda olmaq kimi şərh edilir. Selim-in gündəliyini ruhən ən dibdə olduğu, insanlardan uzaqlaşdığı bir dövrdə yazmağa başlayır. Sevgi belə onun ruhunu sağalda bilmir, həyat tərəzisi artıq çoxdan pozulmuşdur. Maraqlı məqam isə Turgut və Selim-in ikisinin də özünü yuxuda ölü olaraq görməsidir. İkisi də bu boşluğun içində fərqli zamanlarda yer alır. Biri ölümü, digəri isə yaşamağı üstün tutur. Selim-in ölümü yaşamından daha dəyərli gəldiyi kimi, Turgut-a da yaşamı ölümündən önəmli gəlir. Turgut yaşamın dəyərin Selim-in ölümü ilə dərk edir. Bu hadisə onun ruhunda silinməz izlər buraxaraq, bir şəxsiyyət olaraq həyatına davam etməsinə imkan yaradır.

Hər iki obrazın gördüyü yuxuların mərkəzi insanlardan uzaqlaşma və kim olduğunu bilməmək, özünü tapmaq sıxıntısıdır. Turgut Özben-in, dostu Selim Işık-ı axtarmaq üçün getdiyi sosial məkanlar

həmin şəxslərin həyatındakı yad hadisələrin, əməllərin yansımadır. Turgut Özben-in Selim Işık-ın dostları ilə görüşdüyü yerlər insanların necə korrupsioner cəmiyyətdə yaşamağa məhkum olduğunun göstəricisidir. (Şahin, 2013:2320)

"Tutunamayanlar" romanının diqqət çəkmək istədiyi məqam insanların bir-birlərinin dəyərlərinə üz çevirməsi və öz dəyərlərini üstün tutmasıdır. Hər kəsin öz mənafeyi daha üstün və dəyərlidir. Toplum psixologiyası ilə hərəkət etdikləri zaman isə fərqli olan insanı özlərindən təcrid etməyə başlayırlar. Belə insanlar isə zamanla həyatdan qopub itmişlik hiss keçirirlər. Belə hadisələrin sonu isə intihara qədər sürüklənə bilir. Romandakı Selim obrazı özünü öldürmədi, insanlar Selim-in ölməsinə yardım etdi kimi dəyərləndirə bilərik. Onun tabutunu tutan əllər Selim-in silahının tətiyini çəkən insanlarla eyni idi. Şüurlu və şüursuz olaraq bəzi hərəkət və düşüncələrin ağır nəticələrin yaşayırıq. Yuxu perspektivi isə, insanlara özlərinə ayna tutmasına, özlərini anlamasına kömək edən bir yoldur. İnsan adsız və ya adı qoyulmamış, özünü tapdığı zaman adını qoya bildiyi bir okeandır. Sərhədsiz, azad və dərin. Bu dərinlikləri kəşf etmək isə bizlərdən asılıdır.

Qaynaqlar

1. ATAY, Oğuz. (2020). *Tutunamayanlar,* İstanbul: İletişim Yayınları.
2. İMAMOĞLU, Abdulvahit. (2010). *Bazı psikanalistlere göre rüyanın insan hayatındaki rolü,* Sakarya Üniversitesi İlahiyat Fakültesi Dergisi, Cilt: XII, Sayı: 22 (2010/2), s: 21-47.
3. ŞAHİN, Veysel. (2013). *Oğuz Atayın romanlarında toplumsal yabancılaşma,* Turkish Studies-International Periodical for the Languages, Literature and History of Turkish or Turkic, Volume 8/9 Summer, s: 2318-2319.
4. YAKAR, Ramazan (2021). *Klasik ve Modern Dönemde Rüyalar İbn Sînâ ve Sigmund Freud karşılaştırılması.*

THE PERSPECTİVE OF DREAMS İN OĞUZ ATAY'S NOVEL "TUTUNAMAYANLAR"

Vafa EYVAZLİ, Ulvi BABASOY

Abstract

The centre of both characters' dreams is becoming distinct from people, not knowing who they are and the concern finding themselves. The places Turgut Ozben visits to find his friend Selim Isik are the reflection of the strange events and actions' reflection. The places, where Turgut Ozben meets Selim Isik's friends are the representation of how people are doomed to live in corruptionist societies (Şahin, 2013:2320)

One of the points that novel "Tutunamayanlar" wants bring attention to is people's rejection of each other's values and holding his or her values over others'. Everyone's interest is more superior and valuable. When most people act on societal and "common-herd" psychology, people with distinct features are isolated from the rest of the society. Such people are feeling lost and detached from the life. Such cases may lead to suicide. In the novel, the character Selim did not die, instead we should evaluate it in a day that people helped his death. The hands that were holding his coffin are all the ones that triggered Selim's gun. We live the difficult consequences of the conscious and unconscious actions and thoughts. The perspective of dream is a way for he people to look themselves in the mirror and understand themselves. A human with or without a name is ocean and once he finds his self, he can name it. Without borders, free and deep. And to discover this depth depends on us.

Key words: Oghuz Atay, novel, Turkish literature

“AZƏRBAYCAN” (1918-1920) QƏZETİNİN MƏTBUAT ÜSLUBUNUN FORMALAŞMASINDAKI ROLU

Xavər NƏSİRLİ
Bakı Dövlət Universiteti, doktorant
Elmi rəhbər: prof.Tofiq Hacıyev

Tezis Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) nəşr olunmuş “Azərbaycan” qəzeti haqqındadır. Burada dövlətin maraqlarını əks etdirən qəzetin mətbuat üslubunun formalaşmasındakı rolu ön plana çəkilir. Dövrün qabaqcıl ziyalılarının, dövlət xadimlərinin qəzetdə dərc olunan müsahibələri və məqalələri, elanlar, resenziyalar və xəbərlər mətbuat üslubunun hər üç qolunun inkişafına təkan vermişdir. Bu baxımdan qəzetdə parlament xəbərlərinin dərc olunması parlament üslubunun yaranmasının göstəricisidir. Eyni zamanda “Azərbaycan” qəzetinin dil və üslub xüsusiyyətləri Azərbaycan ədəbi dilinin iki şivə – gah Osmanlı, gah da Azərbaycan şivəsi arasında tərəddüd etdiyini göstərir. Sonda qəzetin müasir dövrümüzdəki mövqeyi və rolu haqqında söhbət açılır.

Cümhuriyyətin rəsmi mətbuat orqanı olan “Azərbaycan” qəzeti dövlət dilinin aynasıdır. Milli mətbuatımızın tarixinə öz adını qızıl hərflərlə yazdıran qəzetin publisistik üslubun formalaşmasındakı əvəzolunmaz rolu da danılmazıdr. Bunu nəzərə alaraq, “Azərbaycan” qəzetinin istiqlal dövrünün araşdırılması mətbuat üslubunun öyrənilməsi baxımından faydalıdır.

AXC dövründə milli mətbuatın aparıcı orqanı “Azərbaycan” qəzeti həm Azərbaycan, həm də rus dilində gündəlik çap olunurdu. “Azərbaycan”ı ayrı-ayrı vaxtlarda Üzeyir Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Xəlil İbrahimov, Ceyhun Hacıbəyli rea-

daktə etsə də, onun əsas redaktoru Ü.Hacıbəyli idi. Ceyhun bəy nümayəndə heyətinin tərkibində Parisə getdikdən sonra türkcə "Azərbaycan" qəzetinin redaktoru Üzeyir Hacibəyli olmuşdur. (Məmmədzadə, 2009: 77)

"Azərbaycan" qezətində XX əsrin əvvəlləri milli ictimai şüurumuzun ən görkəmli nümayəndələri iştirak edirdi. Onların arasında M.Ə. Rəsulzadə, Ü. Hacıbəyli, Ə. Cavad, Əlabbas Müznib, Məmməd Sadıq Axundzadə, Cəfər Cabbarlı, Zülfüqar Hacıbəyli, Seyid Hüseyn, Mirzə Bala Məmmədzadə, Əmin Abid, Əli Yusif, Əli Şövqu, Yusif Vəzir Çəmənzəminli, Mirzə Məhəmməd Axundov, Fərhad Ağazadə və digər tanınmış müəlliflər var idi. (Ağayev, 2009: 211)

Mirzə Bala Məmmədzadənin 1922-ci ildə Bakıda qələmə aldığı "Azərbaycan türk mətbuatı" adlı kitabında müəllif "Azərbaycan" qəzetinin aşağıdakı bölmələrdən ibarət olduğunu qeyd edir: 1. Baş məqalələr və rəsmi əmrlər, 2. Azərbaycan parlamentində,
3. Teleqraf xəbərləri, 4. Qəzetlərdən, 5. Nazirliklərdə, 6. Ümumi, siyasi, elmi və fənni məqalələr, 4. Məhəllələrdən məktublar və məqalələr, 8. Mətbuat, 9. Parlament komisyalarında, 10. Bakı xəbərləri, 11. Firqələr və cəmiyyətlər, 12. İşçi həyatından, 13. Teatr və musiqi, 14. Qafqaz xəbərləri, 15. Elanlar. (Məmmədzadə, 2004: 76)

1918-1920-ci illərdə milli publisistikanın ön sırasında "Azərbaycan" qəzeti gedir, milli ideyaları təcəssüm etdirirdi. "Azərbaycan" qəzeti müasir publisistikanın demək olar ki, bütün janrlarından sənətkarlıqla faydalanırdı. Bu qəzetdə ictimai-siyasi məqalələr, müsahibələr, sual və cavablar, xəbərlər, resenziyalar şəklində olan yazılar dərc edilirdi. Əlbəttə, "Azərbaycan" qəzetinin ən fəal janrı publisistik məqalə idi. Bu məqalələr ic-

timai-siyasi, ədəbi, tarixi, dini, əxlaqi-mənəvi, hüquqi və s. məsələləri əhatə edirdi. (Ağayev, 2009: 212)

Bildiyimiz kimi, publisistik üslubun daxilində üç çalar seçilir: siyasi publisist dil, bədii publisist dil, elmi-publisist dil. Akademik Tofiq Hacıyev siyasi-publisist dilin inkişafında "Azərbaycan" qəzetinin müstəsna rolunu vurğulayır. Müəllif qeyd edir ki, publisist üslubun bu qolunda təyinedici göstəricilərdən biri lüğət tərkibidir. Burada zəngin siyasi-ictimai terminlər vardır. Həm də bu mətbuat orqanında Azərbaycanın yeni ictimai-siyasi şəraiti ilə əlaqədar spesifik söz yaradıcılığına təsadüf edirik. Demək olar ki, müvafiq ictimai-siyasi, sinfi-ideoloji həyatla əlaqədar söz-terminlər Azərbaycan ədəbi dilinə ilkin olaraq məhz həmin orqanlar tərəfindən daxil olmuşdur. Əlbəttə, bu baxımdan ən faydalı işi Cümhuriyyətin "Azərbaycan" qəzeti görmüşdür. (Hacıyev, 2012: 269).

1918-1920-ci illərdə Azərbaycan siyasi publisistikasının ən parlaq nümunələri Məmməd Əmin Rəsulzadənin qələminə məxsus idi. Onun Azərbaycan xalqını maarifləndirən, milli-azadlıq idealları ilə tərbiyələndirən çıxışları, müsahibələri "Azərbaycan" qəzetinin səhifələrində vaxtaşırı dərc olunurdu. Qəzetin 1918-ci ildə buraxılmış nömrələrində M.Ə.Rəsulzadənin Türkiyə səfəri haqqındakı müsahibələrinə xüsusi yer verilmişdir. (Rəsulzadə, 1918: 229)

"Azərbaycan" qəzetinin publisist mübarizəsinin başında, qəzetin əsas redaktorlarından olmuş Ü. Hacıbəyli dayanırdı. Ü. Hacıbəylinin publisistikası həm ideya-mövzu, həm də janr və forma cəhətdən rəngarəng idi. Onu ictimai həyatın demək olar, ki, bütün ictimai-siyasi, mənəvi-əxlaqi məsələləri düşündürürdü. Ü. Hacıbəylinin "Azərbaycan"da istifadə etdiyi formaya əsasən, "Təəsürat" başlığı ilə verilən və respublika parlamentindəki hadisələri şərh və təhlil edən "Hesabat" janrlı publisist yazılar

idi. (Ağayev, 2009: 212). Sözü gedən qəzetdə görkəmli publisistin eyni zamanda müxtəlif imzalarla ("Ordan – burdan", "Filankəs") Azərbaycan satirik publisistikasının diqqətəlayiq nümunələri – felyrtonları da çap olunmuşdur.

"Azərbaycan" qəzetinin səhifələrində Azərbaycan ədəbi dili ilə bağlı publisistik yazılara da rast gəlmək olar. 1918-ci ildə buraxılan 45-ci nömrəsində Əbdülvahab Məmmədzadənin qələmə aldığı "İmla məsələsi" başlıqlı məqaləsi türk dili (Azərbaycan dili) ilə bağlı yaranan problemlərə həsr olunmuşdur. Müəllif məqalədə həmin dövrdə türk dilinin tədrisi, müəllim çatışmazlığı, yazıdakı çətinlikləri göstərməklə yanaşı ədəbi dilin sabitləşməməsindən də şikayətlənir. "Gah Azərbaycan türkləri tərəfinə yönəlirik, gah yarımçıq Osmanlı oluruq". (Məmmədzadə, 1918: 374)

Göründüyü kimi, Azərbaycan ədəbi dilinin AXC dövrü gah Azərbaycan, gah da Osmanlı şivələri arasında tərəddüd etmişdir ki, bu da mətbuatdan yan keçməmişdir. Bu ikili yanaşmanı biz parlament üzvlərinin çıxışlarında da müşahidə edə bilərik: bir tərəfdən, Azərbaycan ümumxalq dilinə yaxın olan bir dil, digər tərəfdən, daha çox osmanlı dilinə çəkən və bir çox hallarda tamamilə osmanlı dilindən ibarət olan bir dil.

Azərbaycan ədəbi dilinin rəsmi parlament üslubu ilk dəfə məhz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi dövrdə yaranmışdır. (Axundov vs., 2007: 25) Nəzərə alsaq ki, "Azərbaycan" qəzetində parlamentdəki çıxışlar və parlament komissiyalarının işi daha qabarıq işıqlandırılırdı, onda belə qənaətə gələ bilərik ki, rəsmi parlament üslubu mətbuat vasitəsilə ictimaiyyətə də ötürülürdü.

1919-cu ildə "Azərbaycan" qəzetinin 21-ci nömrəsində Ömər Faiq Nemanzadə "Millliləşmək" adlı məqaləsini milli dilimizə və ədəbiyyatımıza həsr etmişdir. Həmin dövrdə türk dili-

nin böyük bir areala hakim olduğunu, Yaxın Şərqdə 60-70 milyonluq əhalinin türkdilli olduğunu vurğulayan müəllif türkcənin əlifba qüsurunu xüsusilə qeyd edir. O, türkcənin yazı və mətbuat aləmindəki zəifliyini dilin qüsuru kimi deyil, başına bəla etdiyi əlifbasında görürdü. (Nemanzadə, 2007: 451)

"Azərbaycan"qəzetinin ADR dövrü indi də öz aktuallığını itirməmişdir, daim dövlətin və cəmiyyətin marağını əks etdirən mətbu orqanı olaraq qalır. Bu yaxınlarda ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə Cümhuriyyət tariximizə, eləcə də mətbuat tariximizə maraq göstərənlər üçün "Azərbaycan" qəzetinin xüsusi bir nəşri hazırlanmışdır. Bu xüsusi nəşrdə "Azərbaycan" qəzetinin seçilmiş on nömrəsinin transliterasiyası təqdim olunur. Seçilmiş nömrələrin transliterasiyası əsnasında qəzetin dili və imla xüsusiyyətləri qorunmuş, qəzetin orijinal tərtibatına riayət edilmişdir. (URL-1) Qəzetin transliterasiya edilmiş variantı bu dövrü araşdıran təqdiqatçılar üçün əvəzolunmaz tohfədir.

Nəticə olaraq, onu deyə bilərik ki, "Azərbaycan" qəzeti mətbuat üslubunun hər üç qolunun ilkişafında müstəsna rol oynamışdır. Belə ki, qəzet səhifələrində çıxan müxtəlif məzmunlu yazılarla tanış olduqca istər parlamentdəki çıxışların mətni, istər müxtəlif şair və ədiblərin dərc etdirdikləri nümunələr, istər-sə də elmin hər hansı bir sahəsinə aid məqalələr siyasi, bədii və elmi publisistikanın davamlı inkişafından xəbər verirdi.

Qaynaqlar

1. AĞAYEV, İslam vs. (2009). *AXC* (*Ədəbiyyat, dil, mədəni quruculuq*). Bakı: Qoliot Okup
2. AXUNDOV, Ağamusa vs. (2007). *Azərbaycan ədəbi dili tarixi*. IV *cild*, Bakı: Şərq-Qərb.
3. NEMANZADƏ, Ömər Faiq. (2007). "Millliləşmək", *Azərbaycan publisistikası antologiyası*, s. 450-453.

4. RƏSULZADƏ, Məmməd Əmin. (1918). “Rəsulzadə ilə müsahibə”, *Azərbaycan qəzeti*, S.38, s.229-231.
5. MƏMMƏDZADƏ, Əbdülvahab. (1918). “İmla məsələsi”, *Azərbaycan qəzeti*, S.45, s.374-375.
6. HACIYEV, Tofiq. (2012). *Azərbaycan ədəbi dil tarixi* (*II hissə*), Bakı: Elm.
7. MƏMMƏDZADƏ, Mirzəbala. (2004) *Azərbaycan türk mətbuatı*, Bakı: Bakı Universiteti.
8. URL-1. Hafiz Paşayev. (2021). “Azərbaycan qəzeti. 1918-1920” http://hdl.handle.net/20.500.12181/243

THE ROLE OF "AZERBAYCHAN" (1918-1920) NEWSPAPER IN THE FORMATION OF THE PRESS STYLE

Khaver NASİRLY

Abstract

The thesis is about the "Azerbaijan" newspaper published during the Azerbaijan Democratic Republic (1918-1920). The role of the newspaper in the formation of the press style, which reflects the interests of the state, is highlighted here. Interviews and articles, announcements, reviews and news published in the newspaper by leading intellectuals and statesmen of the time gave impetus to the development of all three branches of the press style. In this regard, the publication of parliamentary news in the newspaper is an indicator of the emergence of a parliamentary style. At the same time, the linguistic and stylistic features of the "Azerbaijan" newspaper show that the Azerbaijani literary language fluctuated between two dialects - either Ottoman or Azerbaijani. In the end, we talk about the position and role of the newspaper in modern times.

Key words: press, Turkic language, parlament, newspaper

İSİ MƏLİKZADƏNİN“ QUYU” VƏ ERNESTO SABATONUN “TUNEL” ƏSƏRLƏRİ MÜQAYİSƏLİ ƏDƏBİYYAT KONTEKSTİNDƏ

Zeynəb RƏŞİDOVA,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: dr. Ülvi Babasoy

Bu məqalədə Argentinalı yazıçı Ernesto Sabatonun “ Tunel” və Azərbaycan yazıçısı İsi Məlikzadənin “Quyu” əsərləri toxunduqları mövzu, qənaət baxımından müqayisəli şəkildə təhlil olunacaqdır. Psixoloji xaosun canlı məhsulu olan, hisslərini içində yaşayan “Tunel” romanının qəhrəmanı Xuan Pablo Kastelin daxili dünyasının detallarından çıxış edərək onun Mariyaya bəslədiyi və sonda cinayətkarlıqla nəticələnən vəsvəsəli eşqi təhlil olunacaqdır. Əsərdə bir şəxsin psixoloji vəziyyəti tunel olaraq simvollaşdırılmışdır. Əsər tam olaraq eşqdən bəhs edən roman deyil də, psixoloji pozğunluğu olan bir şəxsin öz ruhunu bəsləmək istəməsi və bundan qaynaqlanan obsessiv eşq duyğusu idi. Eləcə də hər iki əsər arasındakı təsviri bənzərlik-lərə, baş qəhrəmanların düşdüyü çıxılmaz vəziyyətin mahiyyətinə nəzər yetiriləcəkdir. Mənəvi dünyasının saflığı qorunub saxlanan, İsi Məlikzadənin simvol, həmçinin örnək olaraq yaratdığı Umud adlı qəhrəmanı olan “Quyu” povestində isə sovet rejimi dövründə xalqa qarşı riyakar şəxslərin simaları yaradılmışdır. Hər iki əsərin adının məzmunundan yola çıxaraq quyu və tunelin, sanki insanın məcburi sığınacağına dönüşməsinin səbəblərinə aydınlıq gətiriləcəkdir.

Giriş

Azərbaycanda 20-ci əsr sovet hakimiyyəti dövrü kəndlər, qəsəbələr vəzifəsinə layiq olmayan şəxslər tərəfindən idarə olunurdu. Sinfilik prinsipi əsas mövqe olduğundan varlılar, kəndlərdə ağalıq edən kolxoz, sovxoz sədrləri xalqa qarşı haqsızlıqlar edən, kasıbların zəhmətinə dəyər verməyən, rüşvətxor şəxslər idilər. Ölkədə adət-ənənələr də özünəməxsusluluğunu itirdiyindən bu insanlara mənəvi cəhətdən mənfi təsir edirdi. Zəhmətkeş kəndlilər ehtiyacları olan, layiq olduqları həyatı yaşaya bilmirdilər. İsi Məlikzadənin "Quyu" povesti də sovet rejiminin formalaşdırdığı mənəvi dərinlik, çuxur idi. Sovet hakimiyyətinin zülmündən bezmiş, özlərini quyuda imiş kimi hiss edən xalq bir gün quyunun qurtaracağında onları azad, işıqlı gələcək gözlədiyinə səbr edərək inanırdı. İnsanları həyata tutuduran şey ümid duyğusu olduğundan baş qəhrəmanın adının Umud olması da buna simvol olaraq işlədilmişdi. İki kəndlinin zəhmətlə qazdığı və sonda əməklərinin bəhrəsini verən quyunun suyu burada aydınlıq, əlvanlıq rəmzi kimi işlədilmişdi, belə ki sonda ümidlərin aydınlanacağına işarə idi. *"Suyu mət kimi şipşirin, göz yaşı kimi dupduru quyu..... Umud quyusu...."*. "Tunel" isə Argentinalı yazıçı Ernesto Sabatonun 1948-ci ildə yazmış olduğu psixoloji bir romandır. Əsərdə fərdin özünü cəmiyyətdən kənarlaşdıraraq daxilinə həbs etməsi sanki tuneldə imiş kimi əks olunmuşdur. Əsərdə rəssam Xuan Pablo Kastelin onun rəsminə maraq duyduğu bir qadına qarşı olan daxilən əzabverici eşqdən bəhs olunur.

Tədqiqat metodu

Hər iki əsərdə daxilən quyuda və tuneldə olmaq hissi xüsusilə önəm daşıyırdı. Tunel romanında bu fərddaxili bir tunel idi. Quyu əsərində isə 20-ci əsrdə kənd əhlinin içində olduğunu hiss etdiyi ictimai-kütləvi bir quyu idi. "Tunel" əsərində baş qəh-

rəman Xuan Pablo Kastelin psixoloji pozğunluğu olduğundan bəzi problemlər ona olduğundan ciddi gəlirdi: eyni xarakerli, tablosuna yorumlar edən diletant tənqidçilərə, lovğa danışan kübarlara qarşı ikrah hissi duyurdu. Kastel sadəlövh, çəkingən biri olduğundan belə insanlar çox hisslərini içlərində yaşayır və çox düşünən olurlar: bəzən ən asan sezilə biləcək nüansı belə çox fikirləşirlər. Bəzən isə içlərində seçimlərini seçə bil-mirlər, tez stressə girirlər. Hərdən hadisələri çox mənasız mövdeqən düşünürlər, mənasız düşündüklərini anlayanda da özlərindən bezir, stress keçirirlər. Bu xarakterləri bəzən özlərinə də səfehcə gəlir. İnsanda bəzən içinə yığılan hisslər kiçik qığılcımla tərpənəndə də ətrafındakı hər şeydən nifrət edir, rastlaşdığı haqsızlıqları çox tənqid edir. İçində yaratdığı başqa şəxsiyyəti ilə onda stress yaradan hər kəsin, şarlatanların eyiblərini üzlərinə vurmaq, onları məhv etmək istəyir. Bir sözlə, alter eqosu işə keçir. Lakin, bu keçici olur. Kastelin xarakterində isə zehni pozğunluq idi. Bu səbəbdən o, daxilən tənhalaşmış, getdikcə öz təsəvvürlərini, duyğularını fikirlərini içində yaşayan insana çevrilmişdi. “.... hər halda, yalnız bir tunel mövcud idi, qaranlıq və kimsəsiz bir tunel-uşaqlığımın, gəncliyimin, ömrümün keçdiyi tunel....’’ (Sabato, 2014:40). Buna görə də, artıq özünü tuneldə imiş kimi hiss edir və bir gün tənhalıqdan qurtulacağına ümid edirdi.Tənhalıqdan qurtulmaq üçün özünə yol yoldaşı axtararaq özü kimi, toplumdan fərqli insana ehtiyac duyurdu, buna görə də Mariyaya sığınacağını düşünmüşdü. Bütünlüklə tənhalığa qapılmaqdan- getdikcə tunelin qaranlıq çökəyində itəcəyindən qorxurdu. Sanki onu sevməsi üçün yaradıldığını düşündüyü Mariya ona hər kəs kimi gəlmirdi.Tablosundakı kiçik hissəni- pəcərənin dərinliyində kimsəsiz sahilə baxan qadını sadəcə Mariya İribarne sezmişdi. Başqaları, tənqidçilər isə onu intelekttuallıq tapmadıqları üçün önəmsəməmişdilər,

buna görə də Kastel Mariyaya qarşı fərqli duyğular hiss etmişdi. Əslində tablodakı kimsəsiz, tənha sahil elə Kastelin öz daxili dünyası idi. Onun dünyasına qonaqtəki susqun halda tamaşa edən qadın da Mariya İribarne idi. İsi Məlikzadənin " Quyu" povestində də bir qədər təsvirlərlə göndərmələr var idi. Əsərdə zavallı təbəqəni təmsil edənlərdən biri də Patron it idi. Patronun, Məcid dayının Minnət qarı ilə yaşam təzadını görə bilirdik. Patron, Məcid dayı və Umud kimi aşağı təbəqənin vəziyyətində təsvir olunmuşdu. Xalıqın anası Minnət qarı yaşlı idi və onun qayğısına yetərincə qalırdılar. Lakin, Məcid dayı kimi insanlar kasıb olduqları üçün onlar, belə qayğıdan məhrum idilər. Arıq, boynunun göyümtül damarları görsənən Məcid dayı öz övladlarını düşündüyü üçün quyunu qazmağa məcbur idi. Əsərin sonuna yaxın, Patronu iti sürüyə-sürüyə zorla azdırırlar və sonda azdırıldığı yerdən qayıdıb gəldiyini duyuruq. Eynilə Umud kimi təslim olmayaraq gözəl günlərin bir gün gələcəyinə ümid etməyə geri qayıdır. " ...İ.Məlikzadənin əsərlərinin məkanı həmişə ciddi fabula çərçivələri arasındadır. O, povestdən povestə, demək olar ki, eyni mənəvi modellə, hətta müxtəlif materiallar əsasında eyni əxlaqi situasiyaya ayrı-ayrı nöqtələrdən baxa-baxa müraciət edir. Povestlərin süjet xətləri, onların fakturaları eyni olsa da, mənəvi konfliktin mahiyyəti eyni modelə gəlib çıxır - etik prinsiplərdən əl çəkərək, əvəzində böyük nemətlərə, güzəşt və imtiyazlara sahib olmaq, ya da bütün bunlardan imtina etməklə ləyaqəti, şəxsiyyəti qoruyub saxlamaq" (Məcid,2019:S.3) . Əsərdə Məcid Xalıqın evinin barısını Əlincə qalasına bənzədirdi. Qədimdə Əlincə qalasında düşmənlərin əcəli tamam olduğundan, onlarda bir gün hər kəsin haqqının bir olacağına, barının yıxılacağına inanırdılar. Digər bir təsvirə nəzər yetirildiyində: "Sor qanımı, köpəkoğlunun malı. Qarnın partlayınca sor". "Mənim nə qanım var ki, bu allahın heyvanı da

sora” (Məlikzadə, 2005:128). Bu cümlələrlə əslində sovetlərin insanların haqqına girməsini, ağcaqanad kimi qanlarını sormasını nəzərdə tutulmuşdu. Ağcaqanadlar həmişə işıq olan varlı evlərinə deyil də, Umudgil kimi kasıbların qaranlıq evinə gəlirdi. Beləliklə, ağcaqanadların qaranlığa gəlməsi sinfi təbəqələşməni təsvir edirdi.

Ernesto Sabatonun “Tunel” əsərində Kastelin bir qədər narsist olması nəzərə çarpır. Narsistlərdə sadəcə öz ehtiyacı olan, özlərinə lazım olan şey uğrunda çalışma cəhdləri etmək müşahidə olunur. Kastel də öz ehtiyacını qarşılamaq üçün bütün potensialını ortaya qoyurdu. Kastel artıq Mariyayla yaxın münasibət qurduqdan sonra ona qarşı əvvəlki özəlliyini duymurdu. “Hər dəfə Mariya başqa adamların əhatəsində mənə doğru gələndə fikirləşirdim: Bu məftunedici xilqətə məni gizli bir tel bağlayır. Sonralar öz hisslərimi saf-çürük edəndə başa düşdüm ki, əvvəl o mənə çox gərək idi (kimsəsiz adada rastlaşdığım insan kimi), tənhalıq qorxusu yoxa çıxanda isə Mariya mənim üçün öyündüyüm zinət əşyasına çevrildi’’. (Sabato,2014:105). Belə aydın olur ki, Kastel özünü sevirdi. Belə insanlar tənha qalmaqdan, tərk edilməkdən qorxurlar. Ona görə ki, əvvəl həyatlarında sevgi hissəsi doldurulmayıb və ehtiyacı daxilində saxlanılıb. “Kastel, istər sevgilisi istərsə də anası olsun, həyatında bir qadının şəfqət və mərhəmətinə ehtiyac hiss edir” (Yazıcı Çangur,2021: 89). Bu çox vaxt ailədə göstərilən sevgi yetərsizliyi, cəmiyyətdə təklənmə kimi problemlərdən yaranır. Gələcəkdə də, yaxınlaşdığı insandan tərk edilmə qorxusu bütün dəhşətilə onun ruhunu bürüyür, hətta bəzən intihara da səbəb olur.. Kastel nə üçün intihar etmədi? Kastel özü də Mariyanı öldürmək əvəzinə intihar edə bilərdi. Lakin, çoxumuzda o potensial olmur. Nə qədər canımızı bu həyatdan qurtarsaq da sonra eyni acı ilə ruhumuzun yaşayacağını, yaxud eynilə yuxu

görmədiyimiz sabahdan oyananda vaxtın necə keçdiyini anlmadığımız kimi zaman olmayan heçliyə qərq olmağı düşünəndə yetərinə yaşamaq ehtiyacı hiss edirik və intihara cəsarət etmirik. Kasteli də "mütləq və əbədi heç yerə atılmaq" qorxusu intihardan yayındırırdı.

Mariya İribarne keçmişində çox mənfi şeylər yaşamışdı: alçaq ehtiraslar hakim kəsilmişdi və ürəkaçan həyatı olmamışdı. Artıq keçmişi onu susdurmuşdu və önünə gələn həyatı axarında yaşayaraq hüzünlü yaşamı seçmişdi. Hisslərinin dəyəri solduğu, məlum gerçək sevgi hissi söndüyü üçün Kastelin hisslərini də önəmsəmirdi. Bəzən o, Kastelin onu itirməkdən qorxduğunu anlayanda acıyır bəzən isə özünü ondan aşağı tutaraq ona layiq olmadığını deyirdi. Kastelin rəsm əsərinin möhtəşəmliyini hiss etdikdə onun özündənrazı, riyakar şəxs olmadığını anlamışdı, buna görə də onunla ortaq cəhətləri olduğu üçün sevirdi. Olduğu kübar toplumun içində sıxışıb qalan Mariya sonda da o həyatı seçir. Beləliklə, Kastelə qarşı bu hərəkətini daşqəlblilik adlandırmaq olar. Kastel isə onun belə tərəflərini başa düşmürdü, onu başqalarıyla aldatdığından şübhələnirdi. Onun daxili dünyasının hədsiz düzənsizliyini, qaranlığını gördüyü yuxuları da ifadə edirdi: düşündüyü şübhələri onu qorxunc quşa çevirmişdir, gəncliyində itirdiyi duyğularını əvəz eləyəcək bir insan axtarırdı. Əslində Kastel özünə əzab verən zehnində yaratdığı bütün şübhələri atıb münasibətlərindən kənarda Mariya ilə maraqlanmaya bilərdi? Cavab budur ki, edə bilməzdi, çünki onun zehni pozğunluğu var idi, şübhələrini önəmsəməməyə bilmirdi, buna görə də fikirlər getdikcə onun zehnini zindana çevirirdi. "Xuan Pablonun Mariyaya bəslədiyi vəsvəsəli eşqi əslində onun bir başqası ilə münasibət qurma və başa düşülmə mübarizəsinin nətiəsidir (Bender, 2012: 231)". Mariyanın sirlərlə dolu, bəzən qeyri-səmimi hissləri onu ruhən çökdürüdü.

Sanki beyninin “mənfi məni” ona fikirlər yürüdürdü. Mariya getdikcə onu qaranlığa sıxışdıran qüvvə kimi olurdu. Tənhalıqdan qurtulacağına ümid etdiyi insan ona əzab çəkdirirdi. Hər birimizin beynində “mənfi mən” vardır. Bəzən ona boyun əydikdən sonra nəticələrini görəndə anlamaq istəmədiyimiz, daha çox çəkindiyimiz bizə zərərli şeyləri arzuladan mənfi mən. Lakin, bütünlükdə o hissə uymaq bizi sonda, əvvəl olduğumuz və ona uyduğumuzda çevrildiyimiz mənlə psixoloji vəziyyətlə qarşı-qarşıya qoyar. Qorxduğumuz hadisələrin olasılığını nə qədər beynimizdə götür-qoy etsək, yaxud dəqiqləşdirmək üçün yenidən düşünsək, düşüncələr bizi ikiqat içindən çıxılması çətin olacaq dərinliklərə aparır. “Quyu” povestində Umudun varlıların, sədrlərin uşaqlarının yaşadığı uşaqlığı yaşaya bilmədiyindən arzuları, istəkləri içində yığılıb qalmış, böyüdükdə də onun arzuları sönməmişdi. Umudun və “Tunel” əsərindəki Xuan Pablo Kastelin keçmişlərində həyatları ürəkaçan olmamışdır. Umud maddi cəhətdən çətinliklə, Kastel isə mənəvi duyğulardan məhrum böyümüşdü. Məlum olduğu kimi heç bir hiss nə qədər zaman keçsədə daxildə əriyib yox olmur. Əsərdə Umudun içinə yığılan duyğusunun bəzi yerlərdə yenidən dirçəldiyinin (uşaqlığında arzuladığı motosikleti sürərkən) şahidi oluruq. Umudun simasında sinifi təbəqələşmənin hakim olduğu dövrdə yaşayan kasıb, sadə gəncin yaşadığı həyatı görürük. “Quyu” və “Tunel” əsərlərinin hər ikisində ümid duyğusu vardır. “Tunel” əsərində ümid Kastelin öz daxili tənhalığının yox olacağına, “Quyu”-da isə insanların bir gün sovet rejiminin zülümündən qurtulacağına idi. Ümid duyğusu insan qəlbində yaşadıqca insan yaşayır və ümid heç vaxt ölmür. Sonda boşa çıxsa belə insanı həyata tutunduran sığınacaq rolu daşıyır. Başımıza dəfələrlə uğursuzluqlar gəldiyində də ümidsizliyə qapılmaq bizi mübarizədən geri çəkir, yeni yolları bağlayır. Ümid in-

sanı arzuya aparır və insanların əlacsızlığını üstələyir. Ümid duyğusu hər iki əsərdə sonda fərqli şəkildə təzahür edir. Belə ki, "Quyu" povestində varlı təbəqənin adamları, kolxoz sədri öz çirkin işlərini, eyiblərini örtmək üçün əvvəllər yuxarıdan aşağı baxdıqları sadə, kəndli gənc Umuda indi yaltaqlanmağa, istifadə etməyə çalışırlar. Əvvəlcə görmədiyi həyatla tanış olan Umud əvvəllər özü dərk etmədən mənfi niyyətli insanların təkliflərini qəbul edirdi. Əslində, onların əsl məqsədlərini- eyiblərini örtbasdır etmək istəmələrini başa düşsədə, boyun əydiyinin fərqində deyildi. Lakin, sonda baş verənləri anlayır, içində olduğu saxta, düzənbaz həyatı dərk edərək uzaqlaşmağı qərara alır, gələcək ümidinə geri dönməyi seçir. Umud saxta məhəbbətdən imtina etməyin düzgünlüyünü öz məhəbbətinə rahat oyunla qovuşacağını düşünəndə dərk edir."Tunel" romanında isə şübhələri getdikcə artan Kastel bütün ümidini itirərək daxilindəki boşluğu hiss edir. Kastel, ümidini itirdiyi üçün sonda Mariya İribarneni öldürmək qərarı alır. Onun ən çox ehtiyac duyduğu an Mariyanın görüşə gəlməməsi onun tənhalığını coşdurur. Tablosundakı "sahildəki qadın" artıq onun gözündə Mariyaya dönüşmüşdü. Ümidi sönəndə tablodakı qadını tikə-tikə görürdü. Yəni həmin an artıq Mariyanı içində məhv etmişdi. Şübhələri anlamağa çalışan dedektiv də, sonda cinayətkar olan şəxs də Xuan Pablo Kastel özü olur.

"Quyu" povestində Məcid sinfi təbəqənin zəhmətkeş, kasıb kəndlisi idi. Haqsızlıqlara dözümlü, səbr edən, öz övladlarını düşünən birsi idi. Hər iki əsərdə varlı riyakarlar vardır və bunlar xüsusilə də "Quyu" povestində xalqa haqsızlıqlar etdikləri üçün qarşı qütbü təmsil edirdi. Tuneldə isə bu qədər ciddilik daşımırdı. Xalıq, Əsli, Piri- Əsərdə tənqid hədəfi kimi təsvir olunan, mühitin törətdiyi pul hərisliyinə qapılmış insanlar idi. Bir ailə olaraq öz məviyyatlarını itirmiş, çirkin işlər görən şəxslər

idilər. Xalıqın simasında başçıların saxtakarlığı, rüşvətxorluğu göstərilmişdir.“Tunel” əsərində isə Xanter, Mimi surətləri- Riyakar, kübar cəmiyyəti təmsil edirdilər. Dəmdəməki insanlar idilər. Mariyanın əri- kor Alyende Kastelin zehni pozğunluğunu bilərək ona “divanə” demişdi.

Nəticə

Nəticə olaraq, hər iki əsərin məzmununa nəzər saldıqda, sanki qaranlıqda bir-biri ilə rastlaşmışdılar. İsi Məlikzadə “ Quyu” povesti ilə xalqın mənəvi çarəsizliyini lakin, sonda özünün də inandığı kimi mübarizədən sərbəst çıxacağına inamını gözlər önünə sərmişdi. “ İsi Məlikzadə ilə onun təsvir etdiyi qəhrəmanlar arasında necə də bir doğmalıq var. Sanki o, öz ömrünün ayrı-ayrı aylarını, illərini obrazlarına paylayıb. İsi bütün əsərlərində özünü yaradıb” (Yusifli, 2013: S. 3).

E.Sabato öz romanı ilə zehni pozğunluğu olan şəxsin hiss etdiyi dərin boşluğu, eyni zamanda da insanların təbiətində olan sadəcə öz mövqeyindən yanaşaraq daxili ehtiyacını bəsləməyə duyduğu güclü duyğusunu göstərmişdir. “ “Tunel” romanı, bir rəssamın heçkimlə qarşılıqlı münasibət qura bilmədiyi üçün dəliyə çevrildiyi bir yalqızlığın və əlaqə qura bilməmənin dramıdır”. (Lipp 1996:149).

Kastel ömrünü, gəncliyini qaranlıq tunelin içində keçirmişdi. Mariya onun üçün tunelin şəffaf şüşəsində bir işıq idi. Onunla korridorda paralel həyat yolunda gedirdi və bir gün koridorun sonunda yollarının kəsişəcəyini umurdu. Lakin, Mariya əlçatmaz bir işıq idi. Sonda Kastel onun əlçatmaz olduğunu anlayanda ümidləri sönür və tunelin dəhşətli, sonsuz qaranlığını əsl mənada hiss edir. “Milyon illərdi boşluqda fırlanan kiçik planetdə əzabla doğuluruq, böyüyürük, vuruşuruq, xəstələnirik, əziyyət çəkirik, başqalarına əziyyət veririk, qışqırıq, ölürük, bu vaxt

isə mənasız komediyanı təkrar eləmək üçün yeni insanlar dünyaya gəlir. Doğrudanmı həyat ulduzlu səma altındakı səhrada ümidsizliklə dolu qışqırıqdı?" (Sabato,2014:62). Mariya isə korridorun digər tərəfində ömrünü həyatın qarşısına çıxardıqları ilə dinc şəkildə sürdürür: Kasteli şübhələr cəhənnəmində qoyaraq Xanterin məşuqəsi olmağı seçir. Bütün hissləri çərçivədən çıxan Kastel toxunmaq mümkün olmayan, səsini eşitmək olan, görmək olan, sanki şüşə divarın arxasında yaşayan Mariyanı öldürür. Lakin, onun düşdüyü vəziyyət acınacaqlı idi. Sual yaranır ki, cinayətkarları qınamalıqymı? " Ancaq əslində, ən iyrənc əxlaqsızlıqlar cinayətkar aləmdə kök salmayıb; cinayətkarlar müəyyən mənada çoxlarından sadəlövh və yazıqdırlar, özüm adam öldürdüyümə görə belə demirəm, mən səmimi qəlbdən bu qənaətə gəlmişəm. Subyekt təhlükəlidi? Eləsə ondan canımızı qurtaraq vəssalam. Bax bunu mən xeyirxah iş adlandırıram''.(Sabato, 2014:40). Əslinə baxıldıqda da Kastel ətrafındakı kübar riyakarlardan, şarlatanlardan daha sadəlövh, məsum idi, zərərli istəyi onu cinayət işləməklə sonlandırır. Cinayətkarlığı düşünmədən əxlaqsızlıq saya bilmərik. Cinayətkarların düşdüyü vəziyyəti, sonda o qərara necə gəlməsini bildikdən sonra onları qınayıb, qınamayacağımızı müəyyən etməliyik. Hərkəs ruhununa acı çəkdirən zərərli insanlardan qurtulmağı bacarmalıdır.

Qaynaqlar

1. SABATO, Ernesto (2014). Latın Amerikası Romanı ("Tunel"), Bakı: Azərbaycan Respublikasının Nazirlər kabineti yanında Tərcümə Mərkəzi.
2. MƏLİKZADƏ, İsi. (2005). Seçilmiş əsərləri ("Quyu povesti"), Bakı: "Şərq-Qərb"
3. URL-1.Yusifli Vaqif. Ədalət qəzeti.(2013)."İsi Məlikzadənin yaratdığı söz dünyası yaşayır".

http://www.anl.az/down/meqale/adalet/2013/oktyabr/328306.htm
4. URL-2. Məcid Rəşad. (2019)"İndi hanı o bağlar...". https://525.az/news/127898-indi-hani-o-baglar-resad-mecid-yazir
5. YAZICI ÇANGUR Melike.(2021). " Ernesto Sabatonun "Tünel" Romanında Saplantı ve Şiddet", *Uluslararası Dil, Edebiyyat ve Kültür Araştırmaları DergisiU*, S.1. s.85-95.
6. BENDER Rebecca B. (2012). "The Failure of Language in Ernesto Sábato's El Túnel". *Romance Notes* Vol. 52 (2): s225-233.
7. LİPP Solomon (1966). "Ernesto Sábato: Sintoma de Una Epoca". *Journal of Inter-American Studies.* 8 (1): s142-155.

"THE WELL" BY ISI MALIKZADE AND "THE TUNNEL" BY ERNESTO SABATO IN A COMPARATIVE LITERARY CONTEXT

Zeynab RASHIDOVA

Abstract

In this article, the works of Argentine writer Ernesto Sabato's "The Tunnel" and Azerbaijani writer Isi Malikzadeh's "Well" will be compared in terms of their theme, outcome matters. Juan Pablo Castel, the protogonist of the novel "Tunnel", a living product of psychological chaos and living his feelings inside, will be investigated an obsessive love he nurtured for Maria, which ultimately resulted in crime, based on the details of his inner world. In the novel, a person's psychological condition is symbolized as a tunnel. The work is not precisely a novel about love, however a desire of a person with a psychological disorder to nourish his soul and resulting obsessive feeling of love. It will also examine the descriptive similarities between the two works and the nature of the

predicament in which the protogonists find themselves. In the story “Well”, during the Soviet regime the faces of hypocrites against the local people were created. Isi Malikzadeh created the protogonist Umud both as a specimen and a symbol. Based on the content of the titles of both works, it will be clarified the reasons that why the well and the tunnel have been transformed into man's obligatory shelter.

Key words; well, obsession, tunnel, hope, crime, persecution

TRANSLATION OF FILM TITLES

Zeyneb MAHARRAMOVA,
Ganja State University, bachelor,
Supervisor: Hajıyeva Urqiyya

Abstract

Movie titles are films' eyes, having double effect of art appreciation and commercial advertisement, and directly playing the role of guidance and promotion. Good film names could convey the films' content as well as arouse audience's interest. Movie titles convey the story to the audience to attract them. This requires the translation of movie titles to be accurate and embody the commercial values. In this article methods for translating film titles are searched.

Movie is not only an art but also merchandise. Movie titles express the main idea to the audience to draw their attention. This requires the translation of movie titles to be precise and reflect the economic values. After the analysis of the traits and functions of film names, this paper studied the translation skills and the translation tenets of the English film name. The film name is a necessary part of the movie. We will deal not only with the names of the films in English, but also with their Azerbaijani and Russian equivalents and translation options. There are different grouping and different names of these phenomena defined by different scholars. There are eight of them:

- transliteration,
- transcription,
- tracing,
- explication,
- omission,
- addition,
- transposition,

-word - by – word

Transliteration is the practice of converting a text from one script into another, often in a systematic way. It can form an essential part of transcription which converts text from one writing system into another.

Titanic-Titanik-Титаник(https://youtu.be/5vSyxTK6rUc),Avatar-Avatar-Аватар (https://youtu.be/058s3smFXx0),Troy -Troya – Троя (https://youtu.be/vUe0rI7Om0I) The Social Network- Sosial Şəbəkə - Социальная Сеть (https://youtu.be/HOSPnnfwjxM)

Transcription means representing the meaning of a source language text in a target language. But still it is necessary to emphasize some peculiarities, which we've found in related literature. But still it is necessary to emphasize some peculiarities, which we've found in related literature. For instance, one opinion is that: "proper names, geographical denominations are rendered as a rule by means of transliteration, but we should take into account concerning historical proper names, geographical denominations etc.". It should also be mentioned while translating proper names within proper names for instance "Pirates of the Caribbean" is a proper name, film type which includes proper name of another type, the geographical name. We can transliterate pirates but the Caribbean we must translate according to the historical norms of the Azerbaijani language in this case.

Tracing or calque or loan translation is a word or phrase borrowed from another language by literal, word-for-word or root-for-root translation. Thus a compound English such as “Superman” can be translated not only with the transliteration and transcription: “Супермэн” but with the help of the

procedure if the loan translation as well: “Свехцкловек”- “Fövqəlinsan”

Explication is a translation process when implied, initially missing or intentionally hidden source language units are brought to the surface of the target language message. Basically, it looks like an iceberg where the explicit parts are on its top and the implicit parts depend on the translator's skills to be de - camouflaged and rendered.

.The Notebook - Yaddaş Dəftəri - Дневник Памяти (https://youtu.be/hS9loQUzGq4) , The King’s Speech – Danışır Kral – Король Говарит (https://youtu.be/YSsMBvfw_f0)

Omission or dropping. In the process of lexical transformation of omission generally words with a surplus meaning are omitted / e.g. Components of typically English pair - synonyms, possessive pronouns and exact measures / in order to give a more concrete expressions

Back to the Future - Gələcəyə Qayıdış - Назаб в будуще (https://youtu.be/cBJQFDGDW0s) ,The Fifth Element - Beşinci Element -Пятый Елемент (https://www.dailymotion.com/video/x2n0f0y)

Addition a type of grammatical transformation can be met with in cases of formal inexpressiveness of grammatical or semantic components in the language of the original text.

The Lords Of The Rings - Üzüklərin Hökmdarı - Мастера Колец (https://youtu.be/OXG-NXMwrK0) ,Pirates Of The Caribbean – Karib Dənizinin Quldurları- Пираты Карибского моря (https://youtu.be/YjKZSPm8Sr8)

Transposition type of transformation used in translations in which the position / order of linguistic elements in the Target language in comparison with a Source language is changed.

Home Alone - Один Дома (https://youtu.be/4hbru1nLBeU) ,What Women Want– Qadınlar nə istəyir - Цево Хотям Женщины (https://0123movies.fi/watch-what-women-want-online-free/)

Word-by-word translation is a translation procedure in which the elements are translated in the same order and without changing the direction of relations between them.

Whisper – Pıçıltı- Шепом (https://youtu.be/wIZrpDcYwGU) ,Priest – Keşiş - Пастыр (*https://youtu.be/5XH6BNBcvL0) , Inception – Başlanğıc- Нацало (https://youtu.be/wcS_awzEYuk)*

References

❖ Wang N. (1998). Translation Studies in the Context of Cultural Studies. *Foreign Language and Translation* , 2,27-28.

https://youtu.be/5vSyxTK6rUc , https://youtu.be/058s3smFXx0 , https://youtu.be/vUe0rI7Om0I , https://youtu.be/HOSPnnfwjxM , https://youtu.be/hS9loQUzGq4 , https://youtu.be/YSsMBvfw_f0 https://youtu.be/cBJQFDGDW0s, https://www.dailymotion.com/video/x2n0f0y https://youtu.be/OXG-NXMwrK0 , https://youtu.be/YjKZSPm8Sr8 , https://youtu.be/4hbru1nLBeU https://0123movies.fi/watch-what-women-want-online-free/ , https://youtu.be/wIZrpDcYwGU https://youtu.be/5XH6BNBcvL0 , https://youtu.be/wcS_awzEYuk

FİLM ALTYAZILARININ TƏRCÜMƏSİ

Zeynəb Məhərrəmova

Yaxşı seçilmiş, o cümlədən hədəf dilə yaxşı tərcümə edilmiş film adları həm filmlərin məzmununu çatdıra, həm də tamaşaçının marağına səbəb ola bilər. Film adları hekayəni tamaşaçıya çatdırmaq üçün onları cəlb edir. Bu da film adlarının tərcüməsinin dəqiq olmasını və kommersiya dəyərlərini təcəssüm etdirməsini tələb edir. Bu məqalədə də film başlıqlarının tərcüməsində istifadə edilən tərcümə metodları araşdırılmışdır.

Açar sözlər: Film, filmin adı, tərcümə, reklam, dil, söz və ifadələr, transkripsiya, əlavə, izahat,

“DƏDƏ QORQUD” EPOSUNDA ŞAMAN GÖRÜŞLƏRİNİ ƏKS ETDİRƏN BƏZİ MƏQAMLAR

Zinyət QURBANOVA,
Xəzər Universiteti, bakalavr,
Elmi rəhbər: Dr.Aynur Qəzənfərqızı

“Dədə Qorqud” Türklərin tarixini, ailə və məişətini öyrənmək baxımından böyük rola malikdir. Bu günə qədər dastan folklorşünaslıq, ədəbiyyatşünaslıq, dilçilik, tarix elmi ilə yanaşı bir çox elm sahəsində qaynaq olaraq işlənmişdir. İstər hüquqşünaslıq, istər dinşünaslıq, istər etika, estetika və s. bir çox elm sahəsində Türklərin qədim tarixinə müraciət edən müəlliflər bu dastandan istifadə etmişlər.

Şaman ayinləri icra edən, ölənlərin ruhu ilə onların yaxınları arasında əlaqə yaradan, yeraltı dünyadan xəbər verən, taleləri oxuyan, xəstəlikləri müalicə edən bilici, görücü, əfsunçu şəxsdir. Şamanlığın izlərini Dədə-Qorqud eposunda da rast gəlirik (Hacıyev, 2017:18). “Dədə Qorqud” eposu üzərində aparılan araşdırmalar da göstərir ki, boyların əksəriyyəti formalaşma və yaranma baxımından oğuzların müxtəlif dinlərə etiqad dövürlərini əhatə edir. Abidənin mətnindən göründüyü kimi, boyları düzüb-qoşan ozanlar ozanı Dədə Qorquddur. Dədə Qorqud isə “Rəsul aleyhissəlam zamanma yaqm dünyaya gəlmiş bir Oğuz bilicisidir. Əsərin müqəddimə hissəsində verilmiş bu məlumata fərqli baxış bucağından yanaşılmasına baxmyaraq, Asif Hacıyevin fıkrincə, Qorqud Ata oğuzların islamaqədərki mərhələsində, təqribən, V-VI əsrlərdə yaşamış tarixi şəxsiyyətdir. O, oğuzlar arasında geniş yayılmış qədim dastan və rəvayətləri zamanın ruhuna uyğun yeni məzmunda işlədiyi kimi,

yaşadığı dövrün adlı-canlı igidlərinin şərəfinə boylar düzüb-qoşmaqla gələcək nəsli vahid dövlətçilik ideyası ətrafında birləşdirmək məqsədi güdmüşdür ” (Hacıyev, 2017: 22). El-oba, yurd sevgisi, ata-ana qayğısı, igidlik, sədaqət kimi ülvi hisslər aşılayan həmin boylar ağizdan-ağıza keçdikcə oğuzların müsəlmanlaşdığı sonrakı əsrlərdə yeni nəsil ozanları tərəfindən həm təkmilləşdirilmiş, həm də islam dini dəyərləri ilə zənginləşdirilmişdir. Buna görə də boyların mət-nində islam və islamaqədərki dini baxışlar müvazi şəkildə ifadə olunmuşdur (Haciyev, 2017: 23).

Şamanın toplumu yönətməsi, xəstəni sağaltması xü-susiyyətləri Dədə Qorquda da mövcuddur. Oğlan 12aydır: “Ya asi məlun, sən pütlərünə yalvarırsan, mən 13aləmləri yoqdan var edən Allahıma sığındım”, - dedi. D252 Haq 1Taala Cəbrayilə buyurdı kim: “Ya Cəbrayil, var, şol quluma 2 qırq ərcə qüvvət verdim”, - dedi.

Oğlan kafiri götürdi, 3 yerə urdı. Burnından qanı düdük kibi şorladı. Sıçrayub 4 şahin kibi kafirin boğazın ələ aldı. Kafır aydır: “Yigit, 5 aman, sizün dinə nə derlər, dinünə girdim”, - dedi. Parmaq 6 götürüb, şəhadət gətürüb müsəlman oldı. Qalan 7 kafırlər bilüb, meydam salub qaçdı.

Aqınçılar kafirin 8 elin-günin urub qızın-gəlinin osir etdi-lər. Oğlan 9babasına muştçı göndərdi, “qırımım aldum”, - dedi. Ağ saqallu 10 babası qarşu gəldi. Oğlınıfi boymnı qucdı.

Dönüb 11 evlərinə gəldilər.

Qarşu yatan qara dağdan oğlana yaylaq 12verdi. Qaraqucı yügrək atdan təvləverdi. Ağca 13yüzlü oğlına ağca qoyun şü-D253 lən verdi. Ala gözlü oğlına 1al duvaxlu gəlin aldı. Ağ alınlu Bayındır xana pəncik çıqardı. 2Oğhn aldı, Bayındır xanın di- vamna vardı. Ə1 öpdi.

3 Padşah Qazan oğlı Uruzun sağ yamna ana yer 4 göstərdi.

Cübbə-çuğa çırğab geyürdi.Dədəm Qorqud 5 gəlübən, şadlıq çaldı(Anar,2000:143). Buradan da göründüyü kimi Dədə Qorqud el ağsaqqalı kimi igidə qəhrəmanlığı üçün ad verir, boy boylayır, soy soylayır. Bununla yanaşı, Dədə Qorqud həm də şaman kimi yol göstəricidir, onun kimi duası və bədduası tutur. Məsələn, Bamsı Beyrək haqqında boyda "Dədəyi qova-qova Dəli Qarçar on yelək yer aşurdı. Dədə Qorqudun ardından Dəli Qarçar irdi. Dədənin anısı anıtdı. Tanrıya sıqmdı. İsmi-əzəm oqıdı. Dəli Qarçar qılıcm əlinə aldı. Yuqarısmdan öykə ilə həmlə qıldı. Dəli bəg dilədi ki, Dədəyi dəpərə çala. Dədə Qorqut aydır: "Çalarsan, əlün qurusun!" - dedi. Haq Taalamn əmriylə Dəli Qarçann əli yuqarıda asılu qaldı. Zira Dədə Qorqut vilayət issi idi, diləgi qəbul olurdı" (Zeynalov, 1988:84, 13).

Şaman ayinləri icra edən, ölənlərin ruhu ilə onların yaxınları arasında əlaqə yaradan, taleləri oxuyan, xəstəlikləri müalicə edən bilici, görücü, əfsunçu şəxsdir. Şamanlar "seçilmiş" insanlardır. Şamanların seçilmiş insan olmaları üçün ruhları bədənlərindən ayrılmalı, əzablara düçar olmalıdır (Bayat, 2012:46-120). Bu şamanı aliləşdirir və insanlara qarşı empatiya duyğusunun güclənməsinə kömək edir. Dədə Qorqud da "seçilmiş" insandır. Dastanın giriş hissəsində Dədə Qorqud Oğuz elinin bilicisi, qeybdən dürlü xəbərlər söyləyən və söylədikləri gerçəkləşən insan kimi təqdim olunur. Dədə-Qorqud boyların həm söyləyicisidir, həm də hadisələrin axınına yön verən birisidir.

Dədə Qorqud dastanında iki lay var: birincisi tarixəqədərki lay, ikincisi mifoloji lay (Bayat, 2011: 275). Dastanın xüsusilə mifoloji layında İslamaqədərki düşüncələrin əks edildiyi layda, Dədə Qorqudun şaman özəllikləri üst-üstə düşür.

Bu da danılmaz bir gerçəkdir ki, Şaman mərasimi təkbaşına idarə edir, həm oxuyur, həm oynayır. Ozan da məclisdə qopuzunda özü çalır, özü oxuyur və özü oynayır. Bu ortaq xüsusiyyətlərə göz atarkən tarixin sonrakı mərhələsində Dədə Qorqudun şamanın davamçısı olduğunu düşünə bilirik.

Qaynaqlar

1. Zeynalov F., Əlizadə S. (Red). (1988). Kitabi-Dədə Qorqud Bakı:Yazıçı.
2. Bayat F. (2011). Türk-Şaman metinleri. İstanbul:Ötüken
1. 3.Bayat F. (2012). Folklor dərsləri. Bakı:Nurlan
2. 4.Hacıyev A.(2017). “Dədə Qorqud” Eposunda Şaman Görüşlərini Əks Etdirən Bəzi Məqamlar” Dədə Qorqud. 2017/I, s.18-26

Abstract

"Dade Gorgud" has a great role in learning the history, family and life of the Turks. Until today, the epic has been used as a source in many fields of science, including folklore studies, literary studies, linguistics, and history. Be it jurisprudence, religion, ethics, aesthetics, etc. authors who refer to the ancient history of the Turks in many fields of science have used this epic.

Key words: Dada Gorgud, death, life,

KOMMERSİYA VƏ QEYRİ-KOMMERSİYA REKLAMLARINDA BƏZİ XÜSUSİYYƏTLƏR

Zümrüd FƏRZƏLİYEVA,
Qərb Universiteti, bakalavr,
Elmi rəhbər: prof.Azad Məmmədov

Dünyanı və cəmiyyətimizi reklamsız təsvir etmək qeyri-mümkündür. Reklamlar bizi daima hər yerdə - qəzetdə, jurnalda, küçədə, sosial mediada, kitablarda, kafelərdə və s. əhatə edir. Bu reklamları gəlir gətirmək baxımından iki qrupa ayırmaq məqsədəuyğun olardı: kommersiya reklamları və qeyri-kommersiya reklamları.

1. Kommersiya reklamları.

Artıq adından da göründüyü kimi, kommerisya reklamları sırf kommerisya baxımından yaradılan reklamlardır. Onların əsas məqsədi maksimum mənfəət əldə etməyə hədəflənmişdir. Ətrafımızda olan bütün reklamların böyük əksəriyyəti kommersiya reklamlarıdır. Kommersiya reklamları hədəf qrupu olan insanlarda maraq oyatmaq məqamı daşıdığından, onlara aid reklamlar və eləcə də reklam mətnləri darıxdırıcı və ya "küt" olmamalıdır. Bu məqsədlə kommersiya reklam mətnləri bir qayda olaraq, ortalama 3-5 söz həcmində tərtib edilir (Анисимова, 2003: 83). Məsələn, dünyada və eləcə də Azərbaycanda rast gəlinən reklamlara baxaq. MakDonalds restoranlar şəbəkəsinin reklamı üçün ABŞ-da tərtib edilmiş reklam mətnini nəzərədən keçirək.

big.beefy.bliss.

Böyük fonda verilmiş yemək çeşidinin yuxarısında verilən 3 sözdən ibarət bu reklam mətni kiçik hərflərlə yazılmışdır və burada da səbəb müştəriləri daha tez cəlb etməkdir. Eyni restoranın Azərbaycan bölməsindəki reklamlar da müştəri cəlb etməsi ilə diqqət çəkir.

ƏSL QƏNAƏT VAXTIDIR!

Göründüyü kimi, burada böyük hərflərdən istifadə alıcı diqqətini cəlb etmək məqsədilə istifadə edilən texnikalardan biri hesab edilir. Bu reklamda digər bir məsələ nəzərdə tutlmuş qiymətin kiçik ölçüdə, endirimli qiymətin isə böyük ölçüdə verilməsidir ki, bu da sırf kommersiya məqsədi daşıyır. Eyni restoranın digər reklam mətnində əks olunan tələbələrə güzəşt kompaniyası bu restoranın müştərilərinin ən çox tələbələr olmasını dolayısı yolla sübut edir.

Tələbə kartı ilə endirim.

Eyni restoranın iki müxtəlif ölkədəki reklam mətnləri arasında fərq kimi onu göstərə bilərik ki, ABŞ reklamında sifətlərdən sitifadə edilməsi diqqətin məhsulun keyfiyyətinə verilməsini şərtləndirsə də, onların da əsəs fikri kommersiya baxımından mənfəət əldə etməkdir. Halbuki, Azərbaycan reklamında isə "qənaət" və "endirim" sözləri birbaşa olaraq bunu ifadə edir. Fikrimizcə, kommersiya reklamlarının mətnlərində implisitlik prinsipinə əməl etmək də vacibdir.

2. Qeyri-kommersiya reklamları.

Kommersiya reklamlarından fərqli olaraq, qeyri-kommersiya reklamları mənfəət əldə etmək deyil, sosial münasibət və normalarda dəyişiklik etmək məqsədi daşıyır. Bu növ reklamlara siyasi və seçkiqabağı platforma, sağlamlıq və ətraf mühitin qorunması, kimsəsizlərə və əlillərə yardım etmək, regionların inkişafı ilə bağlı tədbirləri və s. əks etdirən reklamlar daxildir. Bu tipli reklam-larda bir qayda olaraq, məşhur insanların (siyasətçi, mütəfəkkir, idmançı, tarixi şəxsiyyətlər və s.). istifadə etdiyi kəlam və ifadələr əks edilir (Goddard, 1998: 91). Məsələn, Birləşmiş Krallıqda Koronavirus pandemiyası ilə əlaqədar hazırlanmış reklam posterinə baxaq.

STAY ALERT, TO STAY SAFE.

Bu tipli reklam mətnlərinin aşağısında, əsasən, bu virusdan qorunmaq qaydaları haqda da məlumat əks olunurdu. Daha bir qeyri-kommersiya reklamını nəzərdən keçirək. Birləşmiş Krallıqda məlum Brexit hadisələri ilə bağlı hazırlanmış reklam mətnini nəzərdən keçirək. Bu mətndə Brexit partiyasının lideri Naycel Feyricin seçki şüarı əls olunmuşdur.

DON'T LET ***FEAR*** *WIN HERE.*

Eləcə də Böyük Britaniyanın baş naziri Boris Consonun da öz seçkiqabağı platforması üçün belə bir reklam şüarı hazırlanmışdır.

JOİN ME!

Göründüyü kimi, nəzərdən keçirilən 3 reklam mətni (URL-1) sadəcə kütlələri öz arxasında aparmq məqsədilə yaranmışdır və burada heç bir kommersiya məqsədi güdülmür. Əksinə, qeyri-kommer-siya reklamlarında külli miqdarda pul xərclənir.

Beləliklə, qeyri-kommersiya reklamları insan kütlələrni təhsilləndirmək və ya onların ideya və baxışlarını dəstəkləmək və motivasiya vermək məqsədi güdən reklamlardır.

Lakin, tərtibat və quruluş baxımından isə hər iki reklam növünə aid mətnlərdə həm ortaq, həm də fərqli cəhətlər vardır. Hər ikisində oxucu diqqətini cəlb etmək üçün müxtəlif ölçülü şriftlərdən istifadə edilir və bir qayda olaraq oxucuya müraciət edilir (Torben and Schroder (1985) 2003: 71). Fərqli cəhət kimi, kommersiya reklamlarında sifətlərdən, qeyri-kommersiya reklamlarında isə əmr cümlələrindən istifadə edilir.

Qaynaqlar

1. АНИСИМОВА, Елена. (2003). *Лингвистика текста и межкультурная коммуникация (на материале креолизованных текстов).* Москва: Издательский центр «Академия».
2. GODDARD, A. (1998). *The language of advertising*. London: Routledge.
3. TORBEN, V. and SCHRODER K. ((1985) 2003). *The language of advertising.* Oxford: B.Blackwell.
4. **İnternet resursları**
5. URL-1. Pinterest/Commercial advertisements for McDonald's. (2022). https://www.pinterest.com/pin/551479916846327090/ [Last accessed 10 May, 2022].

SOME CHARACTERISTICS OF COMMERCIAL AND NON-COMMERCIAL ADVERTISING

Zumrud FARZALIYEVA

Abstract

It is inevitable to use advertisments for many purposes, and it is globally used. So, this article deals with one of the divisions of advertising from the point of view of profit: commercial and non-commercial advertisments.

Commercial advertisments usually consist of 3-5 words, and they are sure not to be "boring or dull". The main purpose of such advertisments is to get maximum profit. Non-commercial advertisments, however, don't tend to get financil profit, but have the aim of changing social attitudes and norms in society. As a rule, this kind of advertisments include pre-

election platforms, political issues, health programs, enviromental issues, etc.

Though, both types of advertisments are different in character, they have some common linguistic features, such as fonts, size, linguistic units.

Key words*:* advertising, commercial advertisment, non-commercial advertisment, profit, linguistic features

MÜNDƏRİCAT

Adilə Fərzəliyeva,
Ümumi kommunikativ mühitin yaradılmasının səmərəli yolları 3

Anar Qurbanov,
44 günlük vətən müharibəsi və ədalətin zəfəri..... 8

Aydan NAĞIYEVA,
Mövlud Süleymanlının "Yel Əhmədin Bəyliyi" povestində ata və oğul konflikti 11

Aynur Mahmudova,
Psixoaktiv maddələrin beyin mexanizmlərinə təsiri 17

Aytac Nuruzadə,
Qadınların təhsil və karyera seçimlərinə təsir göstərən faktorlar 22

Aytən MÜTƏLLİMZADƏ,
Natamamlıq və üstünlük komplekslərinin özünüqiymətləndirmə səviyyəsinə təsiri 27

Aytən QURBANOVA,
"xərçəng tropiki" romanında erotik təsvir və təhkiyə..... 32

Cahanxanım YAQUBOVA,
Ceyn Ostin Və Feminizm 36

Cəmilə ALİYEVA
Orhan Pamuk və "qara kitab" 42

Cəmilə MƏHƏRRƏMOVA
pandemiya şəraitində tibb işçilərində psixi dayanıqlıq ilə psixoloji stress səviyyəsi arasındakı əlaqənin psixoloji təhlili 50

Ceyran QASIMOVA
Distant təhsil: müsbət və mənfi tərəfləri 55

Dilan KELEŞ
Özbek şairi Abdulhamid Süleyman Çolpan'ın bazı şiirleri üzerine 63

Elnarə HÜSEYNOVA
Dedi-Qodu Aynur Qəzənfərqızı və Hamlet İsaxanlı yaradıcılığında 81

Emin ZEYNALOV
Zəngəzur (İrəvan) və Anadoluda (İgdır) qeydə alınan bənzər nağılların genetık uyğunluğuna dair qeydlər 85

Alish NİFTALİYEV
Turkey's Mılıtary Operatıons ın Syrıa: Quest for Imperıalısm or Securıty 89

Əliş NİFTALIYEV
Türkiyənin Suriyada hərbi əməliyyatları: imperializm və ya təhlükəsizlik arayışı 96

Əsmər KƏRİMOVA
Azərbaycan dili və türkiyə türkcəsində geyim adlarının linqivistik təhlili 97

Fatimə BABAYEVA
Azərbaycan dilinin imişli şivəsi 108

İlhami KOÇ
Bulgaristan Türk Şairi Recep Küpçü'nün şiirlerinde duygunun poetizmi 114

İlkanə İBRAHİMBƏYLİ
Kıbrıs Türk Yazarı Bəkir Qara yaradıcılığında müharibə mövzusu 128

İmran ŞƏKİYEV
Qarabağ regionun sosial-iqtisadi inkişafında turizmin rolu .. 135

İncə BƏŞİRZADƏ
Azərbaycan dılı şıvələrində feil zamanlarının ifadə formaları 140

Injy GURBANLY
The Most Useful Methods in Foreign Language Teaching .. 144

Fəridə ABDULLAYEVA
Joze Saramaqo "təxırə salınmış ölüm" romanı 149

Fidan CƏBRAYILOVA
Universitet tələbələrində akademik təxirə salmaya təsir göstərən sosial-psixoloji faktorlar 156

Firuzə GÜLMALİYEVA
Mustafa Zəririnin "Yusif və Züleyxa" əsərində işlənən arxaizmlər..... 162

Firuzə QƏNİZADƏ
Gənclərdə psixoloji sağlamlıq və intihar düşüncələri arasında əlaqənin psixoloji təhlili..... 167

Gizem Özlem YURTOĞLU
Canterbury hıkayeleri'nin genel prolog çevirilerinin karşılaş-tırılması 171

Gülçin QULİYEVA
"Qətl günü" romanında işlənmiş dialektizmlər..... 185

Günay Allahverdiyeva
intellektual tərbiyədə oxunun rolu 191

Günay BAXŞİYEVA
Uilyam Qoldinqin "milçəklər kralı" romanında mif və simvol 196

Günay DADAŞOVA
Tərcümədə realilər 202

Günay YUSİFOVA

Umberto Ekonun “sıfır sayı” romanında bədiiliyin və publisistliyin nisbəti 209

Günel ƏLİZADƏ
“Parfümer” romanında “New Age” Patrik Züskind 213

Günel İSMAYILOVA
Gözəllik konsepti dil və mədəniyyətin əlaqəsi kontekstində 219

Günel KƏRƏMLİ,
Rəqəmsal mütaliənin təhsilə təsiri 224

Həcərxanım KƏRİMOVA
Məktəbəqədər yaşlıların mütaliə mədəniyyətinin formalaşması 227

Lalə İSMAYILOVA
Yaşlıların fərdi təhsilinin təşkilində mütaliənin rolu 233

Ləman ABASOVA
Jose Saramaqonun “Qabil” Və Milan Kunderanın “həyat başqa yerdədir” romanlarında zaman və məkanın bədii strukturu.. 242

Ləman BALIŞOVA
Qarabağda dağıdılmış tarixi abidələrin bərpası 251

Ləman ƏSGƏROVA
Gerhard Doerfer və onun türkoloji tədqiqatlarda yeri 255

Leyla İSMAYILOVA
Bir sözün davası: “qeybi xəzanədəndir”, yoxsa “qeyri xəzanədəndir?”..... 262

Madina KAZIMOVA
Similar Symbolisms in English and Azerbaijan Languages 267

Mələk HÜSEYNOVA
Su kültü dünya və Azərbaycan mifologiyasında..... 273

Mənsurə BABAYEVA
Hərbiçilərin müharibə zamanı aldıqları müharibə travmaları277

Mənsurə ƏHMƏDOVA
Dilə psixoloji yanaşmada semantik vasitə kimi rəng adları.. 281

Murad TALIBOV
The art of translatıon ın Azerbaıjan 289

Nəcibə ZEYNALOVA
Selım ileri "her gece bodrum" romanında yalqızlıq 295

Namiq AĞAMƏMMƏDOV
Nizami Gəncəvi, Məmməd Araz, Səməd Vurğun, Aşıq Ələsgər ədəbi irsində sosial və fiziki coğrafiyanın ədəbiyyatla inteqrasiyası 306

Nərmin İSMAYILOVA
Türk Dünyası və Azərbaycan: Xarici İqtisadi Siyasət Strategiyası 312

Nəzrin VERDİYEVA
Posttravmatık stress pozuntusunun psıxolojı məzmununda emosional intellektin rolu..... 317

Pəri QULİYEVA
Xəlil Rza Ulutürk yaradıcılığı 324

Ramida AZİZOVA,
Expressıon of the blue colour spectrum ın word combınatıons and ıdıoms 330

Ramin İSMAYILOV
Qeyri-heteroseksual orientasiyaya sahib fərdlərin psixopataloji hallarının tədqiqi 335

Ruhiyyə HÜSEYNZADƏ
Türklərdə ölüm mələyı..... 341

Səbinə AĞABABAYEVA.
Postmodernizm poetikasında rizom 345

Shahnaz MAMMADOVA.
The role of Englısh ın conveyıng the realıtıes of Karabakh to the World 350

Səma MƏMMƏDOVA.
Azərbaycan Respublikasında tələbə gənclərin qarşılaşdığı sosial problemlərin həlli yolları. Reallıq və perspektivlər 354

Şəlalə ABBASOVA.
QƏDİM TÜRK YAZILI ABİDƏLƏRİNİN LEKSİKASI ... 359

Şəms QASIMOVA.
Dünya Azərbaycanlılarının I Qurultayı diasporumuzun təşkilatlanması siyasətinin mühüm amillərindən biri kimi 364

Sitarə VÜSAL.
Ənənəvi və fəal təhsilin fərqləri 377

Solmaz MİRZƏLİYEVA.
"Varlığın dözülməz yüngüllüyü" romanında ekzistensializm milan kundera 386

Tahirə YUSİFOVA.
Nizami Gəncəvi yaradıcıllığında tərbiyə məsələlərinə ümumi baxış 391

Tuğra XƏLİLOVA.
Türk dıllərində modallığın ifadəsı 395

Türkan NAĞIYEVA.
İhsan Oktay Anarın "dumanlı qitələr atlası" romanının mahiyyətində dayanan əsas məsələlər 400

Türkan RƏHİMLİ.
Mobbinqlə mübarizə üsulları 408

Ülviyyə ƏHMƏDOVA.
Türkçü şair Gültəkinin yaradıcılığında vəzn və mövzu vəhdəti 412

Xanım XƏLİLZADƏ.
Cəfər cabbarlının Aydın pyesi və müasir dövrümüzdə aktuallığı..... 418

Vəfa EYVAZLI, Ülvi BABASOY.
Oğuz Atayın "Tutunamayanlar" romanında yuxu perspektivi 425

Xavər NƏSİRLİ.
"Azərbaycan" (1918-1920) qəzetinın mətbuat üslubunun formalaşmasındakı rolu..... 433

Zeynəb RƏŞİDOVA.
İsi Məlikzadənin" quyu" və Ernesto Sabatonun "tunel" əsərləri müqayisəli ədəbiyyat kontekstində 440

Zeyneb MAHARRAMOVA.
Translatıon of fılm tıtles 452

Zinyət Qurbanova.
"Dədə Qorqud" eposunda şaman görüşlərini əks etdirən bəzi məqamlar..... 457

Zümrüd Fərzəliyeva.
Kommersiya və qeyri-kommersiya reklamlarında bəzi xüsusiyyətlər 462